Azərbaycan Respublikasının Təhsil Nazirliyi
Azərbaycan Dövlət İqtisad Universiteti

BANK İŞİ

DƏRSLİK

2 CİLDDƏ

II CİLD

Azərbaycan Dövlət İqtisad Universitetinin
«Bank işi» kafedrasının 13 aprel 2015-ci il tarixli
№ 11 saylı iclas protokolu ilə təsdiq olunmuşdur.
Azərbaycan Respublikası Təhsil Nazirliyinin
..... tarixli..... saylı əmri ilə
təsdiq edilmişdir.

Bakı - 2016

REDAKSİYA HEYƏTİ:

Redaksiya heyətinin sədri:	"Bank işi" kafedrasının müdiri, i.e.d., professor **Zahid Fərrux Məmmədov**
Redaksiya heyətinin sədr müavini:	i. f. d., dosent **Zeynalov Zakir Hacı oğlu**
Üzvlər:	Kafedranın məsləhətçisi, fəxri professor **Qəhrəmanov Sabir Carulla oğlu**
	i.e.n., dos. **İbrahimov Zöhrab Həsən oğlu**
Məsul katib:	i. f. d. müəl. **Hüseynova Alidə Teymur qızı**
Rəyçilər:	«Bank işi» kafedrasının professoru i.e.d. **Ş. E. Abdullayev.**
	Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi siyasət, təhlil və proqnozlaşdırma Şöbəsinin müdir müavini i.e.n. **Y. S. Əzizov**

Bank işi. Dərslik. 2 Cilddə. I cild. Bakı, "Təknur"-2016. 456 səh.

Dərslik fənnin mövcud proqramları və Azərbaycan Respublikasında bank sektorunun inkişafı və təkmilləşdirilməsi nəzərə alınmaqla yazılmışdır. Burada bank işinin əsasları tədris məqsədləri nöqteyi-nəzərindən şərh olunur. Ümumən kifayət qədər əhatəli olan bu kitabda bank sistemi, Mərkəzi Bank və kommersiya banklarının əməliyyatları, ödəniş sistemi, bank fəaliyyətinin maliyyə nəticələrinin təhlili, öhdəlikləri və kapitalı, bankların pul və kapital bazarlarında fəaliyyəti, riskləri kimi məsələlərə lazımınca yer verilmişdir. Dərsliyin tamlığı və öyrənilməsi baxımından zəruri olan bir sıra digər məsələlər də şərh olunur. Bank işi üzrə Azərbaycan Respublikasının qanunvericilik bazası əsas götürülmüş, dünyəvilik elementləri də müəyyən dərəcədə nəzərə alınmışdır.

Dərslik iqtisadiyyat təmayüllü bütün ixtisaslarda bakalavr təhsili alan tələbələrin istifadəsi üçündür. Kitabın yeniliyi ilə əlaqədar universiteti (yaxud institutları) əvvəllər bitirmiş şəxslərin, o cümlədən magistrlərin ondan bəhrələnməsi faydalı olar.

ISBN:

© Z.F.Məmmədov, 2016

MÜƏLLİFLƏR

I FƏSİL: i.e.d., prof. **Z.F.Məmmədov** – 1.1., 1.2., 1.3., 1.4., 1.5., 1.6., 1.7.,
dosent, i.e.n. **E.S.Səmədzadə** – 1.8.,
müəllim **E.N.Vəliyev** – 1.9.,
dosent **E.A.Qəribli** – 1.10.

II FƏSİL: i.e.d., prof. **Z.F.Məmmədov** – 2.1., 2.2., 2.3., 2.4., 2.5.,
müəllim **N.P.Aşurbəyli-Hüseynova** – 2.6.,
müəllim **Ə.İ.Əzizov** – 2.7.

III FƏSİL: i.e.d., prof. **Z.F.Məmmədov**

IV FƏSİL: i.f.d. **T.T.Əliyeva**

V FƏSİL: i.e.n., dosent **R.V.Əsğərova**

VI FƏSİL: i.e.d., prof. **M.M.Bağırov, O.M.Bağırov** – 6.1, 6.2, 6.3, 6.4, 6.5, 6.6,
müəllim **P.V.Zeynalov** – 6.7.
baş müəllim **Ş.Ü.Həmişəyeva** – 6.8,

VII FƏSİL: i.f.d., dosen**. Z.H.Zeynalov**

VIII FƏSİL: i.e.n., dosent **Q.İ.Əliyev** – 8.1, 8.2,
i.f.d. **F.D.Bağırov** – 8.3.

IX FƏSİL: i.f.d. **A.T.Hüseynova**

X FƏSİL: i.e.d., prof. **E.M.Sadıqov**

XI FƏSİL: i.e.d. **A.E.Kərimov** və i.e.n., dosent **A.A.Babayev**

XII FƏSİL: Prof. **R.M.Rzayev** – 12.1,
bank üzrə ekspert **E.Z.Zeynalov** –12.2.
i.f.d. **C.A.Kərimova** – 12.3.

XIII FƏSİL: i.e.n., dosent **Z.H.İbrahimov** – 13.1, 13.2, 13.4, 13.5, 13.6, 13.7,
i.e.d. **Ş.T.Quliyeva** – 13.3.

XIV FƏSİL: i.e.n., dosent **Həmidov H. İ** – 14.1;
prof., i.e.d. **Z.F.Məmmədov** 14.2; 14.3;
dosent **S.T.Qəndilova** – 14.4;
dosent **T.İ.Kərimova** – 14.5

XV FƏSİL: prof. **S.C.Qəhramanov** – 15.1; 15.2; 15.3; 15.6;
i. f. d., dosent **Z.H.Zeynalov** – 15.4; 15.5.

XVI FƏSİL: müəllim **İ.M.Hüseynov** – 16.1;
dosent **M.A.Abbasbəyli** – 16.2.

XVII FƏSİL: **T.Paşa** – 17.1, 17.2, 17.3, 17.4,
dosent **M.S.Kazımov** – 17.5, 17.6.

.

MÜNDƏRİCAT

I CİLD

I FƏSİL. Bank sistemi

1.1. Azərbaycanın bank sistemi haqqında icmal məlumat............
1.2. Bank infrastrukturu..
1.3. Bank sistemində nəzarət modelləri...
1.4. Bank sistemində əmanətlərin sığortalanması fondunun fəaliyyəti..
1.5. Bank sistemində böhran..
1.6. Bank sistemində antiböhran tədbirləri.......................................
1.7. Bank sektorunda bazar riski kateqoriyaları ....
1.8. Bankların yaranmasının təkamül tarixi ....
1.9. Azərbaycanda bank sektorunda maliyyə sabitliyinin təminatı..
1.10. Bank sisteminin dayanıqlığı ....

II FƏSİL. Mərkəzi bank

2.1. Azərbaycan Respublikasının Mərkəzi Bankın fəaliyyətinin ümumi əsasları..
2.2. Azərbaycan Mərkəzi Bankın məqsədi, funksiyaları və əməliyyatları ....
2.3. Mərkəzi Bankın pul siyasəti
2.4. Qllobal böhranların şiddətlənməsi mühitində Azərbaycan Mərkəzi Bankın pul siyasətinin istiqamətləri ....
2.5. Azərbaycan Respublikası Mərkəzi Bankın bank fəaliyyətinin yoxlanılması...
2.6. Azərbaycan Respublikası Mərkəzi Bankın valyuta siyasəti...
2.7. Maliyyə monitorinq xidməti ....

III FƏSİL. Ödəniş sistemi

3.1. Ödəniş sisteminin mahiyyəti ....
3.2. İri məbləğli ödənişlərin köçürülməsi sistemləri – AZİPS..
3.3. Xırda ödənişlər üzrə hesablaşma klirinq sistemi......................

3.4. Kütləvi ödənişlər üzrə mərkəzləşdirilmiş informasiya sistemi (KÖMİS) ....
3.5. Kart prosessinq təşkilatları və kartlar vasitəsi ilə ödənişlərin həyata keçirilməsi ....
3.6. SWIFT beynəlxalq maliyyə ödənişlərinin həyata keçirən təşkilat kimi ....
3.7. Nəğdsiz hesablaşmalar və pul köçürmələri ....

IV FƏSİL. Kommersiya bankları

4.1. Kommersiya banklarının yaradılması və fəaliyyət prinsipləri ....
4.2. Kommersiya banklarının funksiyaları ....
4.3. Kommersiya banklarının likvidliyi ....
4.4. Bankların müflisləşmə və iflas prosedurlarının tənzimlənməsi ....
4.5. Bank sirri ....

V FƏSİL. Bankların kapitalı və öhdəlikləri

5.1. Bankların kapitalı ....
5.2. Kommersiya banklarının öhdəlikləri ....
5.3. Bankların kapitalının yetərliliyi ....

VI FƏSİL. Bankların aktiv əməliyyatları

6.1. Aktiv əməliyyatların mahiyyəti, onun formaları ....
6.2. Kreditin funksiyaları, kreditləşmənin prinsipləri və metodları ....
6.3. Kreditin formaları ....
6.4. Kreditin növləri ....
6.5. Kreditləşmənin təşkili ....
6.6. Biznesin inkişafında bank kreditinin rolu ....
6.7. Kommersiya banklarının kredit siyasəti ....
6.8. Bankların vasitəçilik xidmətləri ....
6.8.1. Kommersiya banklarının lizinq əməliyyatları ....
6.8.2. Faktorinq əməliyyatları ....
6.8.3. Forfeytinq ....
6.8.4. Trast əməliyyatları ....

VII FƏSİL. Ayrı-ayrı kredit növlərinin təşkili

7.1. Veksel tədavülü ilə əlaqədar kreditlər ....
7.2. İstehlak kreditlərinin təşkili ....
7.3. Məqsədli kreditlər ....
7.4. Banklararası keditləşdirmə ....
7.5. Mərkəzi Bankın kreditləri ....
7.6. Konsorsial (sindikatlaşdırılmış) kreditlər ....
7.7. Təminatsız kreditlər ....
7.8. Kəndli təsərrüfatlarının kreditləşdirilməsi ....

VIII FƏSİL. Bankların investisiya fəaliyyəti

8.1. İnvestisiya haqqında, onun növləri, kapital qoyuluşu ilə investisiyanın qarşılıqlı əlaqəsi ....
8.2. İnvestisiyanın maliyyələşdirilməsində bank kreditinin rolu ....
8.3. İnvestisiya banklarının fəaliyyəti ....

IX FƏSİL. Kommersiya banklarının dayanıqlığı

9.1. Kommersiya banklarının dayanıqlığının əsasları ....
9.2. Kommersiya banklarının dayanıqlığını müəyyən edən meyarlar ....
9.3. Kommersiya banklarının dayanıqlığının möhkəmləndirilməsi ....

X FƏSİL. Bankların valyuta əməliyyatları

10.1. Valyuta əməliyyatlarının mahiyyəti ....
10.2. Valyuta əməliyyatlarının növləri ....
10.3. Valyuta mövqeyi və valyuta əməliyyatlarının tənzimlənməsi ....

II CİLD

XI FƏSİL. Bankların pul və kapital bazarlarında fəaliyyəti

11.1. Bankların pul və kapital bazarlarında yeri ....
11.2. Qiymətli kağızlar bazarı və bankların fəaliyyəti ....

11.3. Pul və kapital bazarlarının borc alətləri....................................
11.4. Kommersiya banklarının qiymətli kağızları.............................
11.5. Dövlətin qiymətli kağızları ilə bank əməliyyatları.................

XII FƏSİL. Bank menecmenti və marketinq

12.1. Bank menecmenti...
12.2. Bank marketinqi...
12.3. Bankçılıq sektorunda yeni bank xidmətləri və məhsulları..

XIII FƏSİL. Bank fəaliyyətində risklər

13.1. Bank risklərinin mahiyyəti..
13.2. Bank risklərinin növləri...
13.3. Əməliyyat risklərinin mahiyyəti və növləri.............................
13.4. Əməliyyat risklərinin idarə edilmə xüsusiyyətləri................
13.5. Bank risklərinin ölçülməsi metodları..
13.6. Əməliyyat risklərinə görə ehtiyatların qiymətləndirilməsi və yardılması sahəsində Bazel Komitəsinin tövsiyələri..

XIV FƏSİL. Banklarda korporativ idarəetmə sistemi

14.1. Korporativ idarəetmənin təşkili prinsipləri............................
14.2. Bank fəaliyyətinin təşkili qaydaları..
14.3. Bankların idarəetmə strukturu...
14.4. Banklarda insan resurslarının idarə edilməsi........................
14.5. Banklarda qiymət strateqiyası...

XV FƏSİL. Bank fəaliyyətinin maliyyə nəticələrinin təhlili

15.1. Bank fəaliyyətinin təhlili vəzifələri..
15.2. Bankların passiv əməliyyatlarının təhlili..................................

15.3. Aktiv əməliyyatların təhlili ....
15.4. Kommersiya banklarının gəlirlərinin təhlili............................
15.5. Kommersiya banklarının xərclərinin təhlili ....
15.6. Kommersiya banklarının mənfəəti və rentabelliyi................

XVI FƏSİL. Banklarda uçot, nəzarət və auditin təşkili

16.1. Banklarda uçot işinin təşkili..
16.2. Bankların fəaliyyətində nəzarət və tənzimlənmə.................

XVII FƏSİL. Bank və kredit təşkilatlarında vergitutma prosesinin xüsusiyyətləri

17.1. Bank əməliyyatlarından vergitutma sahəsində xarici təcrübə..
17.2. Kredit təşkilatlarının fəaliyyətinin effektivliyinin müəyyən edilməsi...
17.3. Azərbaycan Respublikasında bank əməliyyatlarından vergitutmanın xüsusiyyətləri...
17.4. Bank məlumatlarinin əldə edilməsinin təkmilləşdirilməsi ....
17.5. Azərbaycanın bank sistemində vergitutma mexanizmi və nəzarət funksiyasının təkmilləşdirilməsi istiqamətləri..............
17.6. Bank gəlirlərinin vergiyə cəlb edilməsinin təkmilləşdirilməsi ....

ÖN SÖZ

Azərbaycan Respublikasında təhsil sisteminin roluna dövlətin verdiyi qiymət və inkişafına qayğısı iqtisadçı kadrların hazırlanması sahəsində də özünü göstərir. Bunlar öz bəhrəsini verməkdədir.

Hesab edirik ki, bu sahədə müəyyən edilən əzəmətli vəzifələrin həllində digər amillərlə yanaşı ixtisas yönümlü dərsliklərin hazırlanmasının əhəmiyyəti böyükdür və aidiyyətli qurumlar bu sahədə öz köməyini əsirgəməməlidir. Bunların anlaşılması və elmə, təhsilə olan istəklərimiz, eyni zamanda yüksək səviyyəli kadrlar yetişdirilməsinə olan maraqlarımız bizi bu işdə mümkün töhvə verməyimizə cəlb edir.

Odur ki, Bank "BTB" ASC Azərbaycan Dövlət İqtisad Universitetinin "Bank işi" kafedrasının əməkdaşları tərəfindən yazılmış ixtisas sahəsi üçün vacib dərsliklərdən biri kimi "Bank işi" adlı yeni dərsliyin çapına maliyyə yardımı göstərilməsini lazım bilmişdir.

Bank BTB-nin indiki mərhələdə Azərbaycan İqtisadiyyatı üçün zəruri olan hər növ bank əməliyyatlarını yerinə yetirməsi, müvafiq strategiyaya malik olması, rəqabət qabiliyyəti, risklərdən müdafiə imkanları və aktivlərinin yüksək keyfiyyətdə olmasının təmin edilməsi ilə yanaşı olaraq, təhsilə konkret dəstək verməsi onun ictimai maraqlara cavab verməsinin daha bir nümunəsidir.

Təqdim edilən dərslikdə diqqəti çəkən cəhətlər bilavasitə bank işinin cari məsələləri ilə yanaşı olaraq burada bank fəaliyyəti üçün vacib olan ilkin əsasların şərhi, onların sabitliyi və inkişafını şərtləndirilən məsələlərin ətraflı verilməsidir. "Bank işi" kitabında Mərkəzi bank, kommersiya bankları, bank sistemi, ödəniş sistemi, bank kapitalı və öhdəlikləri, bank əməliyyatları, bank fəaliyyətinin maliyyə nəticələrinin təhlili, idarəetmə, risklər, pul və kapitallar bazarlarında bank fəaliyyəti kimi böyük əhəmiyyətli məsələlərin yer alması dərsliyin əhatəliliyini səciyyələndirir.

Təhsil və müvafiq elmi tədqiqatlara maliyyə dəstəyinin son olmayacağını qeyd etməklə, təsərrüfat və maliyyə qurumlarının, habelə imkanlı şəxslərin bu kimi ümumxalq əhəmiyyətli tədbirlərdə fəal iştirakının cəmiyyətdə müsbət qarşılanacağına əminliyimizi bildiririk.

"Bank işi" kitabının müəlliflərinə elmi-pedaqoji fəaliyyətlərində daha böyük müvəffəqiyyət arzulayırıq.

Bank "BTB" ASC-nin Müşahidə
Şurasının sədri Sadiq Rza

REDAKSİYA HEYYƏTİNDƏN

"Bank işi" fənninin tədrisi üçün təqdim edilən bu dərslik Azərbaycan Dövlət İqtisad Universitetinin bilavasitə həmin adı daşıyan kafedrasının professor –müəllim heyəti tərəfindən hazırlanmışdır. O, xeyli vaxt bundan əvvəl (2009-cu ildə) nəşr edilmiş müvafiq kitabın təkrar nəşri deyildir. Ümumən məlum ənənələrə görə dərsliklərin hər bes ildən bir yeniləşdirilməsi (və ya yenisi ilə əvəz olunması) baş verir.

Müasir dövrdə bank işində və ona təsir edən iqtisadi və sosial inkişaf proseslərində dəyişikliklərin sürətlə getməsi, habelə qanunvericilikdə təkmilləşdirici düzəlişlər aparılması nəzərə alınarsa, yeni "Bank işi" dərsliyinin kəskin tələbatdan irəli gələrək hazırlandığını qeyd etmək olar.

Hazırkı mərhələdə Universitetin bütün iqtisadi yönümlü fakultə və ixtisaslarında "Bank işi" fənninin tədrisinin aparılması ilə əlaqədar nəşr edilən bu kitabın əhəmiyyəti artır. Bilavasitə maliyyə-kredit münasibətlərinin teoretik və praktik əsaslarının fundamental öyrənilməsinin zəruri olduğu ixtisaslarda isə, o, "Pul və banklar" nəzəri fənnindən sonra tədris olunmaqla, tələbələri əməli (təcrübi) işə istiqamətləndirir.

"Bank işi" dərsliyi 17 fəsildən ibarət olmaqla bu fənnin təyinatına uyğun məsələləri əhatə edir.

"Bank sistemi" adlanan I fəsildə Azərbaycanın bank sistemi ümumən səciyyələndirilir, bank infrastrukturu, bank sistemində böhran və antiböhran kateqoriyalarına dair məlumat, Azərbaycanın bank sektorunda maliyyə sabitliyi məsələləri əks olunur.

Mərkəzi Banka həsr edilən II fəsildə Azərbaycan Respublikasının Mərkəzi Bankının fəaliyyətinin əsasları, bu bankın məqsədləri, funksiyaları və əməliyyatları verilir. Mərkəzi Bankın pul siyasətinə, maliyyə monitorinqi xidmətinə müvafiq paraqraflar ayrılır.

Ödəniş sistemi kitabın III fəslində yer alır. Burada ödəniş sisteminin mahiyyəti şərh olunduqdan sonra Azərbaycanda tətbiq olunan ödəniş sistemlərinin növləri xarakterizə olunur, beynəlxalq ödənişlərin aparılmasını həyata keçirən SWIFT haqqında, kartlar vasitəsilə ödənişlər barəsində, pul köçürmələri haqqında məlumat verilir.

Bundan sonra kommersiya banklarının fəaliyyətinin Azərbaycanda yer alan bütün istiqamətləri müvafiq fəsillər və paraqraflarda səciyyələndirilir. O cümlədən "Kommersiya bankları" adlandırılan IV fəsil ilk növbədə qarşıya çıxır.

"Bank kapitalı və öhdəlikləri" kitabın V fəslində verilir. Burada bank kapitalının anlayışı, kapitalın yetərliliyi və bankın öhdəlikləri təmsil edilir.

Bundan sonra gələn VI fəsil "Bankların aktiv əməliyyatları" başlığı altında olmaqla, aktiv əməliyyatların mahiyyəti və formaları əks etdirməklə yanaşı ümumən kreditləşdirmənin təşkili məsələlərini də özündə birləşdirir.

Müxtəlif spesifik kredirt növlərinin xüsusiyyətləri və təşkili müvafiq "Ayrı-ayrı kredit növlərinin təşkili" başlığı altında kitabın VII fəslinin predmeti olmaqla yeddi paraqrafla təmsil olunur.

"Bankların investisiya fəaliyyəti " aktiv əməliyyatların digər mühüm forması olmaqla VIII fəsildə yazılır.

Kitabın IX fəsli "Kommersiya banklarının dayanıqlığı" başlığı altında verilən müvafiq üç paraqrafdan ibarətdir.

Dərslikdə "Bankların valyuta əməliyyatları" X fəsildə verilir. Burada həmin əməliyyatların mahiyyəti, növləri və tənzimlənməsi məsələləri əhatə olunur.

XI fəsil "Bankların pul və kapital bazarlarında fəaliyyəti" başlığı altında verilən, bütünlükdə bu məsələni əhatə etmək məqsədi daşıyan beş paraqrafdan ibarətdir.

Bundan sonra dərslikdə "Bank menecmenti və marketinq" (XII fəsil) yer alır.

Kitabın XIII fəslində "Bank fəaliyyətində risklər" məsələsi altı paraqrafdan ibarət olmaqla ətraflı işıqlandırılır.

XV fəsildə "Banklarda korporativ idarəetmə sistemi" öz əksini tapır. Burada bank fəaliyyətinin təşkili, onun idarəetmə strukturu və insan resurslarının idarə edilməsi kimi əlaqəli məsələlər açıqlanır.

Bank işində mürəkkəb məsələlərdən biri olan "Bank fəaliyyətinin maliyyə nəticələrinin təhlili" dərsliyin XV fəslinin mövzusunu təşkil edir. Burada əvvəlcə bank fəaliyyətinin təhlili vəzifələri, sonra isə, bankların passiv və aktiv əməliyyatlarının, gəlirləri və xərclərinin təhlili verilir, onların mənfəəti və rentabelliliyinin təhlili ilə fəsil başa çatdırılır.

Kitabın (XVI) fəsli "Banklarda uçot, nəzarət və auditin təşkili" nə həsr edilir. Həmin fəsil başlığa uyğun şəkildə üç paraqrafa ayrılmaqla qoyulan məsələlər aydınlaşdırılır.

Dərsliyin yazılmasında Azərbaycan Respublikasının aidiyyətli qanunları, normativ aktları əsas götürülmüşdür. Azərbaycan Respublika-

sında bank fəaliyyəti əsaslarının tələbələrin nəzər-diqqətinə çatdırılması məqsədləri güdülür. Ümumi əsaslar zəminində müəyyən edilən mövzuların təfsilatının açıqlanması, detallaşdırılması, konkretləşdirilməsi və aydınlaşdırılması tədris edilən fənn üzrə tələbələrin zəruri bilgilər əldə etmələriня xidmət edir.

Təbii ki, belə bir kitabın müəlliflərindən biri olmaq özlüyündə az iş deyil və odur ki, heç kim bu şansdan kənarda qalmaq istəməmişdi. Kafedra вə fakultə rəhbərliyi tərəfindən onların istəkləri təmin olunmuşdur. Bununla birlikdə, universitet dərsliyinin lazımınca yüksək səviyyədə olmasının vacibliyi önə çəkilməklə, müəlliflərin hər birinin yazdıqlarına (məzmun, tərtibat və s. cəhətlərdən) şəxsən məsuliyyət daşıdıqları bildirilmişdir. Hər halda onların səriştəsi, yaradıcılıq təcrübəsi və elmi potensialındakı fərqlərin təsiri inkar edilə bilməz və ona görə də kitabın mütləq mənada nöqsansız olduğunu düşünmürük. Hesab edirik ki, dərsliyin öyrənilməsi tələbələrin, izahı müəllimlərin üzərinə düşürsə də, onun yetkin, peşəkar iqtisadçılar tərəfindən oxunması və dəyərləndirilməsi gözlənilən haldır. Kitab barəsində onların xeyirxah fikirləri fikrimizcə müəllifləri daha üstün əsərlər yazmağa ruhlandırardı.

Müəllifflər öz ixtisas məşğuliyyətlərinin praktiki bazasının bank sisetmi ilə bağlı olmasını dərk edir, yaradıcılıq işlərində buradan maliyyə dəstəyi gəlməyini təbii qəbul edir, kitabın işıq üzü görməsində konkret olaraq Bank «BTB» ASC-nın Müşahidə Şurasına və İdarə Heyətinə təşəkkürünü bildirirlər.

XI FƏSİL.

BANKLARIN PUL VƏ KAPİTAL BAZARLARINDA FƏALİYYƏTİ

– i.e.d. **A.E.Kərimov** və i.e.n., dosent **A.A.Babayev**

11.1. Bankların pul və kapital bazarlarında yeri
11.2. Qiymətli kağızlar bazarı və bankların fəaliyyəti
11.3. Pul və kapital bazarlarının borc alətləri
11.4. Kommersiya banklarının qiymətli kağızları
11.5. Dövlətin qiymətli kağızları ilə bank əməliyyatları

11.1. Bankların pul və kapital bazarlarında yeri

Müasir kapitalist iqtisadiyyatı funksional təyinatlı bazarlar sistemi kimi çıxış edir. Bu sistemin tərkibində aşağıdakıları göstərmək olar:

– istehlak malları bazarı;
– istehsal vasitələri bazarı;
– xidmətlər bazarı;
– əmək bazarı;
– elmi-texniki məhsul bazarı;
– borc kapitalı bazarı;
– qiymətli kağızlar bazarı;
– valyuta bazarı;
– qiymətli metallar bazarı və s.

Burada bizim diqqətimizi ilk növbədə borc kapitalı bazarı cəlb edir.

Məlumdur ki, borc kapitalı bazarı (BKB) iqtisadi münasibələrin elə bir sahəsidir ki, burada baş verən əqdlərin obyekti kimi borc verilən pul kapitalı çıxış edir. Funksional baxımdan, BKB iqtisadiyyatın kreditləşdirilməsinin təmin olunması məqsədilə pul kapitallarının səfərbər edilməsi və yenidən bölgüsünün baş verdiyi bazar münasibətləri sistemidir.

İnstitüsional, yəni təsisat baxımından BKB borc kapitalın hərəkətini təmin edən kredit-maliyyə, o cümlədən qiymətli kağızlar bazarı (QKB) təsisatlarının məcmusudur.

Son illərin ədəbiyyatında BKB anlayışı maliyyə bazarı anlayışı ilə əvəzlənir. Başqa sözlərlə, bu iki anlayış mənaca eyniləşdirilir. Lakin, bu o qədər də düzgün deyil. Maliyyə bazarı anlayışı BKB anlayışından daha genişdir.

BKB-dakı əqdlərin obyekti kimi borc verilən pul kapitalı çıxış etdiyi halda, maliyyə bazarı ümumiyyətlə pul resurslarının hərəkətinin bazar mexanizmini səciyyələndirən anlayışdır. Maliyyə bazarı istənilən maliyyə alətlərin (maliyyə aktivlərin – nağd pul, depozitlər, borclar, qiymətli kağızlar və s.) alqı-satqısının baş verdiyi bazardır. Deməli, maliyyə bazarında pul vəsaitlərinin maliyyə aktivləri mülkiyyətçilərinin dəyişməsi ilə müşaiyət olunan hərəkəti baş verir.

Hər iki anlayış arasındakı fərq maliyyə bazarının və borc kapitali bazarının quruluşunda da özünü göstərir. BKB-nin quruluşunu zaman, əməli və təsisat baxımından səciyyələndirmək olar.

Zaman baxımından BKB-nin tərkibində pul bazarını və kapital bazarını fərqləndirirlər (şək. 1). Birinci qısamüddətli kreditlərin, ikincisi isə orta və uzunmüddətli resursların sahəsidir.



Şəkil 1. *Borc kapitalı bazarının zaman baxımından strukturu*

Əməli baxımdan BKB-nin tərkibinə daxildir (şək.2):
- kredit bazarı;
- qiymətli kağızlar bazarı;
- valyuta bazarı.

Təsisat baxımından BKB iki həlqədən ibarətdir (şək.3). Bunlar kredit sistemi və birja bazarıdır. Onlar müvəqqəti sərbəst pul vəsaitlərin sahiblərindən istifadəçiləri istiqamətindəki hərəkətində vasitəçilik edir.

Zaman, əməli və təsisat əlamətləri bütün ölkələrə xas olsa da, milli BKB-nin durumu məhz təsisat əlamətinə görə, yəni kredit sisteminin ən azı ikipilləli olması və QKB-nin mövcud olması ilə müəyyən edilir.

Maliyyə bazarına gəldikdə isə, o, geniş mənada maliyyə vəsaitləri, alətləri və xidmətlərinin alqı-satqısının baş verdiyi mütəşəkkil iqtisadi məkan kimi səciyyələndirilir.

Dar mənada isə maliyyə bazarı müvəqqəti sərbəst pul vəsaitlərinin, maliyyə resurslarının səfərbər edilməsi və onların bazar subyektləri arasındakı yenidən bölgüsünü, qiymətli kağızların tədavülünü təmin edən iqtisadi münasibətlərin məcmusu kimi başa düşülür.



Şəkil 2. *Borc kapitalı bazarının əməli baxımdan strukturu*

Bununla belə, maliyyə bazarının bütün açıqlamalarındakı fərqlərə rəğmən, onun əsas funksiyası kimi müxtəlif bazarlarda və sahələrdə müvəqqəti sərbəst pul vəsaitlərinin subyektlər arasında yerdəyişməsinin təmin olunması göstərilir.



Şəkil 3. *Borc kapitalı bazarının təsisat baxımından strukturu*

Bununla əlaqədar, maliyyə resurslarının satıcı və alıcıları arasında əqdlərin həyata keçirildiyi məkan olan maliyyə bazarı özündə ayrı-ayrı bazarları seqment kimi birləşdirir. Maliyyə bazarının seqmentləri aşağıdakılardır:

- kapital bazarı;
- pul bazarı;
- valyuta bazarı;
- qızıl bazarı.

Onu ba bilmək lazımdır ki, maliyyə bazarının həlledici seqmentini kapital bazarı (pay qiymətli kağızları bazarı və borc kapitalı bazarı) təşkil edir, bağlayıcı seqment isə maliyyə bazarının digər seqmentlərini xidmətləndirən qiymətli kağızlar bazarıdır.

Deyildiyi kimi, maliyyə bazarındakı alqı-satqı əqdlərinin obyekti maliyyə resurslarıdır. Lakin maliyyə bazarının müxtəlif seqmentlərindəki əqdlər bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, kredit bazarında əqdlərin obyektini pul vəsaitlərinin özü təşkil etdiyi halda, fond bazarında pul gəlirlərini əldə etmək hüquqları alınıb-satılır.

Eyni zamanda, maliyyə bazarının mahiyyəti sadəcə maliyyə resurslarının yenidən bölgüsü ilə məhdudlaşmır. Maliyyə bazarı iqtisadiyyatdakı durumun indikatoru olmaqla maliyyə resurslarının yenidən bölgüsünün istiqamətlərini müəyyən edir (şək.4).



Şəkil 4. *Maliyyə resurslarının yenidən bölgüsü istiqamətləri*

Keçirilən əməliyyatların həcmi və səciyyəsindən asılı olaraq milli, regional və beynəlxalq maliyyə bazarlarını, səviyyəsinə görə isə inkişaf etmiş və inkişaf etməkdə olan maliyyə bazarlarını fərqləndirirlər.

Bütün yuxarıda deyilənlər onu da aydın göstərir ki, maliyyə bazarı və borc kapitalı bazarı anlayışları arasında fərqlər olsa da, bu fərqlərin özü də hər iki anlayışın bir kökdən olduğunu göstərir. Buna görə də maliyyə bazarının da strukturlaşması onun tərkibində pul bazarının və kapital bazarının fərqləndirilməsi üzərində qurulur. Pul bazarı qısamüddətli (1 ilə qədər) əməliyyatlar sahəsi olmaqla diskont, banklararası və valyuta bazarlarına ayrılır. Pul bazarının əsas alətləri bunlardır:

- xəzinə veksellərі;
- kommersiya veksellərі, xüsusilə də köçürmə veksellərі;
- depozit sertifikatları;
- kommersiya kağızları.

Diskont bazarının alətləri xəzinə və kommersiya veksellərіdir. Onların əsas keyfiyyəti yüksək likvidlik və bundan irəli gələn yüksək çeviklikdir.

Banklararası bazarda maliyyə resursları ilk növbədə qısamüddətli depozitlər şəklində cəlb edilərək banklar arasında yerləşdirilir. Depozitlərin müddəti əsasən 6 aya qədər olsa da, banklararası bazardakı vəsaitlərdən həmçinin orta və uzunmüddətli aktiv əməliyyatlardan, balansların tənzimlənməsindən, dövlət qurumlarının tələblərinin icrasından ötrü istifadə olunur.

Valyuta bazarı müxtəlif ölkələrin hüquqi və fiziki şəxslərinin pul öhdəliklərinin ödənilməsi ilə bağlı olan beynəlxalq tədiyə dövriyyəsinə xidmət edir. Bu mənada, valyuta bazarları valyutaların alqı-satqısının rəsmi mərkəzləridir. Banklar pul bazarına pul vəsaitlərinə olan qısamüddətli ehtiyaclarını, yəni likvidliyə olan tələbatlarını ödəməkdən ötrü müraciət edir.

Kapital bazarı orta və uzunmüddətli kreditlərlə yanaşı səhm və istiqrazları da özündə birləşdirir. Onun seqmentləri qiymətli kağızlar (fond) bazarı, həmçinin orta və uzunmüddətli bank kreditləri bazarıdır.

Fond bazarı qiymətli kağızların emissiyası vasitəsilə pul vəsaitlərinin iqtisadi subyektlər arasında bölgüsünü təmin edir. Orta və uzunmüddətli kreditlər isə əsasən investisiya bankları tərəfindən iqtisadi subyektlərə əsas kapitalın genişləndirilməsi (yeni avadanlıqın alqısı, istehsalın artırılması) məqsədlərindən ötrü verilir.

İnikşaf etmiş maliyyə bazarlarında uzunmüddətli investisiya resurslarının mənbəyi kimi kapital bazarı şirkətlərlə yanaşı mərkəzi hökemət və banklar üçün də böyük əhəmiyyət kəsb edir. Pul bazarı əsasən qüsamüddətli tələbatların ödənilməsindən ötrü yüksək likvidli vəsaitlər təqdim edirsə, kapital bazarı maliyə resurslarına olan uzunmüddətli tələbatları təmin edir.

Pul bazarının bütün alətlərinin fərqli xüsusiyyətləri olsa da, investorların portfellərində onlar bir-birini əvəzləyə bilir. Bu sahədə yaxşı inkişaf etmiş ölkələrin təcrübəsindən məlumdur ki, pul bazarı alətlərinin faiz dərəcələri arasında davamlı rabitə var. Belə ki, qısa dövrlərdə bəzi alətlərin gəlirlilik səviyyələri arasında ciddi fərqlər yarana bilər, yəni bəzilərində yüksəlir, bəzilərində isə enir. Bu dəyişikliklərdən faydalanmaq istəyən treyderlər dərhal birinciləri alır, ikinciləri satır. Birincilərə tələb artır, ikincilərə isə azalır. nəticədə alətlərin faiz dərəcələri arasındakı pozulmuş nisbət əvvəlki səviyyəyə qayıdır.

Pul bazarlarındakı faiz dərəcələrinə səhm bazarındakı hadisələr də təsir göstərə bilər. Belə ki, birja məzənnələrinin kəskin endiyi şəraitdə investorlar portfellərindəki səhmləri sataraq üz tutur daha etibarlı pul bazarı alətlərinə, çünki onların defolt riski də, dəyərsizləşmə riski də kiçikdir.

Maliyyə bazarının iştirakçıları funksional baxımdan aşağıdakı kimi qruplaşdırılır:

a) əsas iştirakçılar – maliyyə aktivlərinin (kredit resurslarının, qiymətli kağızların, valyuta sərvətlərinin) alıcı və satıcıları. Satıcılar kreditorlar, qiymətli kağız emitentləri, valyuta satıcıları olduğu halda, alıcılar borcalanlar (kredit alanlar), investorlar və valyuta alıcılarıdır.

b) maliyyə vasitəciləri. Bu qrupu müxtəlif maliyyə-kredit və investisiya təsisatları (banklar, BOKT-lar, investisiya şirkət və fondları, trast və sığorta şirkətləri, təqaüd fondları, investisiya diler və brokerləri) təşkil edir. Maliyyə bazarının peşəkar iştirakçıları kimi onlar maliyyə aktivlərinin alıcıları ilə satıcılarını görüşdürməklə qeyri-peşəkarların bazara çıxışını asanlaşdırır. Eyni zamanda, alıcılarla satıcılar arasında maliyyə vasitəçiləri kimi çıxış edən banklar və BOKT-lar maliyyə aktivlərinin birindən digərinə ötrülməsini sürətləndirməklə məsrəflərin azalmasına xidmət edir. Maliyyə vasitəçilərinin fəaliyyəti maliyyə aktivlərinin həm satıcıları, həm də alıcıları üçün sərfəlidir, çünki maliyyə bazarının bütün iştirakçılarının səmərəsini təmin edir. Lakin onu da unutmaq olmaz ki, banklardan fərqli olaraq BOKT-lar əmanətlər qəbul etmir və tədavüldəki pulun miqdarına təsir göstərmir.

c) maliyyə bazarını xidmətləndirən təşkilatlar. Bunlar maliyyə bazarının infrastruktrunu təşkil edən subyektləridir: fond və valyuta birjaları, depozitarilər, hesablaşmakliring təşkilatları, konsaltinq şirkətləri, reytinq agentlikləri və s.

ç) maliyyə bazarının dövlət tənzimlənməsi və özünütənzimləmə orqanları. Maliyyə bazarının inkişaf etdirilməsi müasir kapitalist dövlətinin maliyyə və monetar siyasətinin mühüm istiqamətlərindəndir. Bu isə dövlət tərəfindən maliyyə bazarı subyektlərinin fəaliyyətininin tənzimlənməsi və nəzarətlənməsini, zəruri normativ-hüquqi bazanın, bazar haqqında informasiya sisteminin yaradılmasını və onun bütün iştirakçılar üçün açıqlıqını labüd edir. Dövlət, maliyyə bazarının dayanıqlıqına və təhlükəsizliyinə nəzarət edir.

Dövlət nəzarəti özünütənzimləmə ilə tamamlanır. Assosiasiyalar, ittifaqlar, birliklər, komitələr və s. təşkilati formalar çərçivəsində fəaliyyət göstərə bilən özünütənzimləmə təşkilatları maliyyə bazarının peşəkar iştirakçılarının könüllü birliyi əsasında təşkilati, tənzimləmə, informasiya və b. funksiyaları yerinə yetirir. Onlar həmçinin peşəkarlıq standartlarını işləyib hazırlayır, mütəxəssislər yetişdirir, öz üzvlərinin maraqlarını təmsil və müdafiə edirlər.

Maliyyə bazarı iştirakçılarının maraqları müxtəlif maliyyə alətləri ilə əməliyyatlardan gəlir əldə etməkdən ibarətdir. Kreditorlar borc verdikləri dəyərə faiz alır, borcalanlar borc götürdükləri pul vəsaitlərindən səmərəli istifadə etməklə əlavə mənfəət əldə edir, maliyyə vasitəçiləri isə gəlirlərini komisyon haqq şəklində qazanır.

Beləliklə, əmtəə və gəlirlərin dövri axınında aparıcı yer tutan maliyyə bazarının təbii iqtisadi funksiyası maliyyə resurslarının onların artığına malik subyektlərdən vəsait çatışmazlığını yaşayan subyektlər istiqamətində ötürülməsindən ibarətdir. Bu cür ötürmə iki variantda mümkündür:

- birbaşa maliyyələşdirmə;
- dolayı (vasitəli) maliyyələşdirmə.

Birinci halda borcalanlar maliyyə alətlərini birbaşa borcverənlərə satmaqla özlərinə lazım olan vəsaitləri cəlb edir. Maliyyə alətləri onları alanlar üçün aktiv olduğu halda, onların satıcıları (emitentləri) üçün öhdəlikdir.

Cədvəl 1

Maliyyə bazarı alətləri

Təsnifat əlaməti	Maliyyə alətinin növü
1. Maliyyə bazarının seqmentləri	a) kredit bazarı alətləri – pul vəsaitləri, pul bazarında dövr edən hesablaşma sənədləri; b) fond bazarı alətləri – müxtəlif qiymətli kağızlar; c) valyuta bazarı alətləri – xarici valyuta, devizlər, bu bazarda tətbiq edilən qiymətli kağız növləri; ç) sığorta bazarı alətləri – sığorta xidmətləri (məhsulları), hesablaşma sənədləri, bu bazarda tətbiq edilən qiymətli kağız növləri; d) qiymətli metallar bazarı alətləri – maliyyə ehtiyatları və yığımların yaradılması məqsədilə alınan qiymətli metallar, hesablaşma sənədləri, bu bazarda tətbiq edilən qiymətli kağız növləri.
2.Tədavül müddəti	a) qısamüddətli maliyyə alətləri – pul bazarının əməliyyatlarında tətbiq olunur; b) uzunmüddətli maliyyə alətləri – kapital bazarındakı əməliyyatlarda tətbiq olunur. Buraya son tədavül tarixi emitentləri tərəfindən təyin olunmayan maliyyə alətləri (məsələn, səhmlər) də aid edilir.
3. Maliyyə öhdəliklərinin xarakteri	a) maliyyə öhdəliklərini yaratmayan alətlər – maliyyə əməliyyatının predmeti olaraq alıcıya keçməklə satıcının əlavə öhdəliklərini daşımır. Məsələn, valyuta sərvətləri, qızıl və s. b) borc maliyyə alətləri – alıcıları ilə satıcıları arasındakı borc münasibətləri bildirir. Məsələn, veksel, istiqraz, çek. c) pay maliyyə alətləri – sahiblərinin emitentin nizamnamə kapitalında və gəlirindəki payını təsdiqləyir (səhm, investisiya payı və s.)
4. Priopitetliyinə görə	a) ilkin maliyyə alətləri – emitentlə alıcı arasında birbaşa əmlak münasibətlərini yaxud kredit münasibətlərini bildirir (səhm, istiqraz, veksel, çek və s.); b) törəmə maliyyə alətləri – sahibinin ilkin qiymətli kağızları, valyutanı, əmtəələri yaxud qeyri-maddi aktivləri gələcəkdə əvvəlcədən müəyyən edilmiş şərtlərlə almaq hüququnu təsdiqləyir. Onları derivativ da adlandırırlar və fond, valyuta, sığorta, əmtəə və s. növləri məlumdur. Ən geniş yayılmış derivativlər opsionlar, svoplar, forvard və füçers kontraktlarıdır.
5. Gəlirlilik səviyyəsi	a) gəliri təsbitlənmiş maliyyə alətləri – gəlirlilik səviyyəsi emitentinin maliyyə durumunun və maliyyə bazarındakı konyunkturanın dəyişkənliyindən asılı olmayaraq sabitdir (adi istiqraz); b) gəliri təsbitlənməmiş maliyyə alətləri – gəlirlilik səviyyəsi emitentinin maliyyə durumundan və maliyyə bazarındakı konyunkturanın dəyişkənliyindən asılıdır (adi səhm, üzən faiz dərəcəli istiqraz).

6. Risk dərəcəsi	a) risksiz[1] maliyyə alətləri – qısamüddətli dövlət qiymətli kağızları, ən etibarlı bankların qısamüddətli depozit sertifikatları, qısa müddətə alınmış güclü xarici valyutalar, qızıl və qiymətli metallar; b) kiçik riskli maliyyə alətləri – pul bazarının qısamüddətli borc maliyyə alətləri. Onların daşıdığı öhdəliklər emitentinin sabit maliyyə durumu və etibarlılıqı ilə zəmanətlənir; c) mötədil riskli maliyyə alətləri – risk səviyyəsi təqribən ortabazar səviyyəsində olan maliyyə alətləri; ç) yüksək riskli maliyyə alətləri – risk səviyyəsi ortabazar səviyyəsindən əhəmiyyətli dərəcədə yüksək olan alətlər; d) çox yüksək riskli maliyyə alətləri – maliyyə bazarında ən yüksək riskli möhtəkir əməliyyatlarinda tətbiq olunan alətlər (maliyyə durumu böhranlı olan emitentlərin yüksək faizli istiqrazları, opsion və füçers kontraktları).

Dolayı maliyyələşmə variantında isə pul vəsaitləri yığım sahiblərindən borcalanlar istiqamətində maliyyə vasitəçilərinin iştirakı ilə yönəlir. Bu variantda da maliyyə alətlərindən istifadə edilsə də, onların emitentləri məhz maliyyə vasitəçiləridir. Hər iki variantda banklar iştirak edə bilər, lakin yalnız ikinci halda banklar maliyyə vasitəçiləri kimi çıxış edir. Hər iki halda, maliyyə alətləri öz sahiblərinə borcalanın gələcək gəlirlərinin yaxud aktivlərinin bir hissəsini əldə etmək hüququ verir. Hər bir təsnifatda olduğu kimi, bu təsnifatda da maliyyə alətlərinin ən üzdə olan keyfiyyətləri nəzərə alınmışdır. Belə ki, maliyyə alətləri onların emissiyasının, tədavülünün və ödənilməsinin daha dərin əlamətlərinə görə təsnifata məruz qala bilər.

Beləliklə, maliyyə bazarının bütün seqmentlərində banklar bütün əsas rollarda, o cümlədən borcverən və borcalan rollarında çıxış edə bilər və edir. Lakin, ən böyük fəallıqı banklar məhz maliyyə vasitəçiləri qismində göstərir.

11.2. Qiymətli kağızlar bazarı və bankların fəaliyyəti

Yuxarıda deyildiyi kimi, maliyyə bazarının tərkib hissələrindən biri qiymətli kağızlar bazarıdır (QKB). Maliyyə bazarının ən fəal iştirakçılarından olan banklar öz fəaliyyətini QKB- da gerçəkləşdirir. Maliyyə bazarının bu seqmentində banklar həm pul bazarının, həm də kapital bazarının qiymətli kağızları ilə əməliyyatlar keçirir.

Bankların QKB-dakı fəaliyyətinin bir neçə *məqsədini* göstərmək olar:

- özlərinin qiymətli kağızlarının emissiyası yolu ilə əlavə pul vəsaitlərinin cəlb edilməsi;
- özlərinin investisiyalarından dividend, faiz, məzənnə fərqi şəklində mənfəətin əldə olunması;
- müştərilər üçün qiymətli kağızlarla əməliyyatlar üzrə xidmətlərin göstərilməsindən mənfəətin əldə olunması;
- digər sahələrin şirkətlərininin kapitalındakı iştirak hesabına bankın təsir dairəsinin genişləndirilməsi və yeni müştərilərin cəlb olunması;
- zəruri likvidlik ehtiyatının yaradılması.

Azərbaycan Respublikasının «Banklar haqqında» Qanununa əsasən, bankların QKB-da fəaliyyət imkanlarına aid edilir:

- ödəniş vasitələrinin, o cümlədən yol çekləri və bank köçürmə veksellərinin buraxılması;
- öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, füçerslərin, opsionların və səhmlərə, istiqrazlara aid digər törəmə vasitələrin satın alınması və satılması;
- qiymətli kağızlar bazarında peşəkar fəaliyyət;
- maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- qiymətli kağızların köçürülməsi üzrə xidmətlərin göstərilməsi.

Müxtəlif ölkələrdə kommersiya bankları QKB-da fərqli mövqelərə malik olsalar da, onların maliyyə bazarının bu seqmentinin fəaliyyətindəki iştirakının ümumi cəhətləri də var. QKB-da banklar həm peşəkar, həm də qeyri-peşəkar iştirakçı qismində çıxış edə bilər.

Qeyri-peşəkar kimi banklar QKB-da emissiya fəaliyyətini və investisiya fəaliyyətini həyata keçirə bilər. Bir qayda olaraq, bunun üçün xüsusi lisenziyanın alınması banklardan tələb olunmur, çünki emissiya və investisiya fəaliyyətinin məzmununu təşkil edən əməliyyatların keçirilməsi ənənəvi bank fəaliyyətinin özəyini təşkil edir.

QKB-nın *peşəkar* iştirakçısı olaraq fəaliyyət göstərməkdən ötrü isə bankın adətən fərdi lisenziyası olmalıdır ki, onu da daxili QKB-nı tənzimləyən nəzarətedici dövlət qurumu verir.

Bankların QKB-da fəaliyyətinin aşağıdakı *istiqamətlərini* göstərmək olar:

– qiymətli kağızların emissiyası;
– investisiya fəaliyyəti;
– QKB-nin peşəkar iştirakçısı;
– QKB-nın xidmətləndirilməsi ilə əlaqədar ənənəvi bank əməliyyatlarının keçirilməsi.



Şəkil 5. *Kommersiya bankının QKB-da fəaliyyəti*

Bankların QKB-da fəaliyyəti onların qiymətli kağızlarla aşağıdakı qrup əməliyyatların keçirilməsi ilə bağlıdır:

- qiymətli kağız girovlu kreditlərin verilməsi;
- bankın özü üçün qiymətli kağızların alqı-satqısı;
- yeni buraxılan qiymətli kağızların investorlar arasında yerləşdirilməsi;
- müştərinin tapşırıqı ilə qiymətli kağızların alqısı və saxlanılması (buna qiymətli kağızların təkrar dövriyyəsinin xidmətləndirilməsi deyilir).

Məlum olduğu kimi, kommersiya bankları fond birjasının əməliyyatlarında birbaşa iştirak etmir. Lakin, kommersiya bankları investisiya banklarına və fond birjasındakı vasitəçilərə qiymətli kağız girovlu kreditlər verməklə onların səhm və istiqraz almaqdan ötrü maliyyə imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir və bununla da birja dövriyysinə güclü dəstək vermiş olur.

I. Bankların *emitent fəaliyyəti* özlərinin qiymətli kağızlarının emissiyası və onların ilkin yerləşdirilməsindən ibarətdir. Bir qayda olaraq banklar səhm, istiqraz, veksel, çek, depozit və əmanət sertifikatları, derivativlər emissiyasını həyata keçirə bilər. Emissiyanın məqsədi bankın fəaliyyətinin maliyyələşdirilməsi üçün yeni pul vəsaitlərinin cəlb edilməsindən ibarətdir. Bank tərəfindən emissiya edilmiş qiymətli kağızların məcmucu bankın *emissiya portfelini* təşkil edir.

II. Bankların QKB-da *investor fəaliyyəti* aşağıdakı istiqamətlərdən ibarətdir:

- qiymətli kağızların alqı-satqısı;
- qiymətli kağız girovlu kreditlərin verilməsi;
- sahibləri olduğu qiymətli kağızlar üzrə hüquqların gerçəkləşdirilməsi əməliyyatları, yəni dividendlərin və faizlərin ödənilməsindən, qiymətli kağızların geri alınmasından vəsaitlərin əldə olunması;
- sahibləri olduğu qiymətli kağızların emitenti olan səhmdar cəmiyyətlərin idarə olunmasında, müflisləşmə prosedurunda iştirak, ləğv edilən emitentin əmlakından banka çatan hissənin əldə olunması.

Bankların digər hüquqi şəxslərin kapitalında iştirakı böyük risklərlə bağlı olduğuna və nəticədə itkilərlə nəticələnə bildiyinə görə, belə iştiraklara Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – ARMB) "Kredit təşkilatları tərəfindən digər hüquqi şəxslərin paylarının (səhmlərinin) əldə edilməsi Qaydaları" ilə məhdudiyyətlər müəyyən olunmuşdur. Belə ki, digər hüquqi şəxslərin kapitalına bankların birbaşa və ya dolayı yolla investisiyalarının məbləği aşağıdakı məhdudiyyətlərdən çox olmamalıdır:

- bir hüquqi şəxsin kapitalında iştirak bankın öz vəsaitinin 10%-dən;
- digər hüquqi şəxslərin kapitalında məcmu iştirak bankın öz vəsaitinin 40%-dən;
- səhmdar yaxud kreditor qismində emitentin müflisləşməsində iştirak;
- ləğv edilən emitentin əmlakının banka çatan bir hissəsinin əldə olunması.

Qiymətli kağızlar fərqli olduğundan bankların onlarla əməliyyatları da fərqlidir. Belə ki, səhm və istiqrazlar *investisiya tipli* olduğundan onlarla aparılan bank əməliyyatları da investisiya yönümlü olur. Veksel, depozit və əmanət sertifikatları investisiya tipli olmadığından onlarla aparılan bank əməliyyatları *qeyri-investisiya* mahiyyətlidir.

Öz növbəsində qiymətli kağızlarla investisiya əməliyyatları *könüllü* və *icbari* ola bilər. Məsələn, ölkə qanunvericiliyinə görə yerli bankın dövlət qiymətli kağızlarını almamaq hüququ olmadıqda, buna icbari investisiya deyilir.

Bankların könüllü investisiya əməliyyatlarını isə aktiv və passiv növlərə ayırırlar. Birincilər, qiymətli kağız məzənnələrinin dəyişməsindən gəlirin dərhal əldə olunmasına istiqamətləndiyindən möhtəkir səciyyəlidir. İkincilər isə qiymətli kağızların uzun müddətli gəlir məqsədilə alqısından ibarətdir.

Bankların qiymətli kağızlarla əməliyyatlarının təsnif edilməsinin digər əlamətini onların kimin vəsaitinə və tapşırıqı ilə keçirilməsidir. Müştərilərinin sifarişi ilə və hesabına edilən əməliyyatlar bankların QKB-da vasitəçilik fəaliyyəti ilə bilavasitə əlaqədar olduğu halda, bankın özü üçün və öz hesabına keçirdiyi əməliyyatlar onun QKB-kı investor fəaliyyətinə aiddir. Məsələn, veksellərlə diskont əməliyyatları, qiymətli kağız girovlu kreditlər, qiymətli kağızlarla kreditləşdirmə. Lakin bu qrupun özəyini məhz bankların investisiya əməliyyatları təşkil edir.

Müasir bankın QKB-da investor fəaliyyətinin nəticəsi kimi bankın *investisiya portfeli* (*investment portfolio*) çıxış edir. İnvestisiya portfeli, resurslarının bir hissəsini müxtəlif emitentlərin qiymətli kağızlarının alqısına sərf etmiş investora məxsus qiymətli kağızlar toplusudur. Portfelin yaradılması bankın QKB-da qəbul etdiyi investisiya qərarlarının məntiqi nəticəsidir. İnvestor bank QKB-nın ən müsbət keyfiyyətlərini bir əldə cəmləşdirmək istədiyindən bir deyil, bir neçə qiymətli kağız almaqla portfel yaradır.

İnvestsiya portfelinin əsas göstəricilərini aşağıdakılar təşkil edir:

- portfelə daxil edilmiş qiymətli kağızların sayı və ümumi dəyəri;
- portfelə daxil edilmiş qiymətli kağızların növləri;
- portfelin likvidliyi;
- portfelə daxil edilmiş qiymətli kağızlara xas olan risklər.

Aydındır ki, investisiya portfeli necə gəldi yaradılmır. Keyfiyyətli investisiya portfelinin yaradılması üçün investor bank tərəfindən bir neçə vəzifənin həll edilməsi vacibdir:

- lazımi gəlir səviyyəsinin təmin olunması;
- əməliyyat xərclərinin endirilməsi;
- riskin minimal səviyyədə saxlanılması;
- digər, yalnız portfel əsasında həllini tapa bilən vəzifələrin həlli.

Banklar müxtəlif tipli investisiya portfelini yarada bilər:

- artım portfeli. Məqsəd – investor olan bankın portfelin yaradılmasına sərf edilmiş kapitalın artırılmasıdır.
- gəlir portfeli. Məqsəd – qiymətli kağızlara investisiya edilmiş ka-

pitala müntəzəm olaraq gəlirin əldə edilməsidir.

- artım və gəlir portfeli. Məqsəd – portfelin yaradılmasına sərf edilmiş kapitalın artırılması və parallel olaraq həmin kapitala nisbətən yüksək gəlirin əldə olunmasıdır.

İnvestisiya portfelinin formalaşdırılması qiymətli kağızların riskliliyi ilə sıx bağlı olduğundan kommersiya bankı fərqli *strategiyalara* əl ata bilər:

- təcavüzkar strategiyası – yüksək gəlirlər arzusunda olan bank yüksək risklər ehtimalını qəbul edir və üstünlüyü şübhəli emitentlərin qiymətli kağızlarına verir;
- mühafizəkar strategiyası – riskin minimal olmasına üstünlük verən investor bankın əsas diqqəti qiymətli kağızların etibarlılığına yönəldilir;
- tarazlaşdırılmış strategiya – portfelə həm yüksək, həm də aşağı riskli qiymətli kağızlar daxil edilir.

İnvestisiya startegiyasını seçdikdən sonra, bank onu konkret tədbirlər səviyyəsində gerçəkləşdirir, yəni özünün *investisiya siyasətini* ortaya qoyur. İnvestisiya siyasətinin ən başlıca vəzifəsi investisiya portfelinin yaradılması və onun idarə olunması ilə bağlı risklərin azaldılmasıdır.

İnvestisiya portfelinin idarə olunmasının (buna *portfel menecmenti* də deyilir) iki yolu var:

- fəal idarəetmə. Bu cür taktikaya üstünlük verən bank bazardakı ən gəlirli qiymətli kağızları öz portfelinə daxil edir, portfeldəki aşağı gəlirli qiymətli kağızları isə dərhal satır. Beynəlxalq təcrübədə buna *svopinq* (swapping) deyilir, yəni portfelin tərkibi QKB-nın vasitəsilə tez-tez dəyişir;
- passiv idarəetmə taktikası isə tərkibinə görə əvvəlcədən çeşidli olan portfelin yaradılması və onun nisbətən uzun müddət dəyişməz saxlanılması üzərində qurulur.

Lakin, bankın istənilən investisiya strategiyası və taktikası investisiya portfelinin *restrukturizasiyasını*, yəni yenidən təşkil edilməsini labüd olaraq nəzərdə tutur. QKB-dakı dəyişikliklər və mövcud portfelin cari səmərəliliyinin dəyişməsi restrukturizasiyanı qaçılmaz edir.

III. Bankların QKB-nın peşəkar iştirakçısı kimi fəaliyyəti aşağıdakı vasitəçilik fəaliyyət növlərinin yerinə yetirilməsini nəzərdə tutur:

- broker fəaliyyəti – müştərisinin tapşırıqı (yaxud bankın öz adından) və sırf müştərisinin vəsaiti hesabına qiymətli kağızlarla əməliyyatların keçirilməsi;

- diler fəaliyyəti – sırf öz adından və özünün vəsaiti hesabına qiymətli kağızlarla əməliyyatların keçirilməsi;
- qiymətli kağızların idarə olunması – başqa şəxsə məxsus olan, lakin banka tapşırılmış qiymətli kağızların təyin olunmuş müddətdə və ödənişlilik əsasında bank tərəfindən öz adından, lakin onların sahibinin maraqlarında etibarlı idarə edilməsi; qiymətli kağızlara investisiya edilməkdən ötrü nəzərdə tutulmuş pul vəsaitlərinin etibarlı idarə edilməsi, qiymətli kağızların idarə edilməsindən gələn pul vəsaitlərinin etibarlı idarə edilməsi;
- klirinq fəaliyyəti – qiymətli kağızların tədarükündə və qiymətli kağızlar üzrə hesablaşmalarda qarşılıqlı öhdəliklərin müəyyənləşdirilməsi və əvəzləşdirilməsi;
- depozitar fəaliyyəti – qiymətli kağız sertifikatlarının saxlanılması və qiymətli kağızlara olan hüquqların uçotu və təslim edilməsi.



Şəkil 6. *Kommersiya bankının QKB-da peşəkar fəaliyyəti*

Bankların QKB-nın peşəkar iştirakçısı kimi fəaliyyəti çoxşaxəli olduğundan və hər növü lisenziyalaşdırılır. İnkişaf etmiş ölkələrdə bankların bu cür peşəkar fəaliyyəti fərqli lisenziylara söykənir: QKB-nın peşəkar iştirakçısının lisenziyası (broker, diler, depozitar, klirinq, qiymətli kağızların idarə edilməsi fəaliyyətlərini əhatə edir), reyestraparan lisenziyası və fond birjası lisenziyası.

"Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 02.09.2002-ci il tarixli Fərmanına əsasən, QKB-nın peşəkar iştirakçılarının fəaliyyət növlərinə (broker, diler, qiymətli kağızların idarə edilməsi, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (klirinq), depozitar, qiymətli kağız sahiblərinin reyestrinin aparılması, qiymətli kağızlar bazarında ticarətin təşkili) lisenziya verən icra hakimiyyəti orqanı kimi Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra – AR QKDK) müəyyən edilmişdir.

Bankların QKB-da peşəkar fəaliyyətinin tərkib hissələrindən biri də anderraytinqdir (*underwriting*). QKDK-nin "Qiymətli kağızlar bazarında diler fəaliyyətinin həyata keçirilməsi Qaydaları"na əsasən *anderraytinq*, emitentin və ya üçüncü şəxslərin xeyrinə qiymətli kağızların yerləşdirilməsi üzrə xidmətdir. Başqa sözlərlə, anderraytinq, hər hansı bir emitentin yeni buraxılmış qiymətli kağızlarının emitentin adından çıxış edən maliyyə təsisatları tərəfindən ilkin bazarda yerləşdirilməsidir. Bu cür təsisatlar arasında banklar da ola bilər. Kommersiya bankları ilə müqayisədə investisiya bankları anderratinglə daha fəal məşğul olurlar.

Emitentlə investorlar arasında vasitəçi kimi çıxış edən, qiymətli kağızlar buraxılışının ilkin yerləşdirilməsinə və satışına zəmanət verən və onu təşkil edən qurum *anderrayter* adlanır. Anderrayterin kimin olacağı iki yolla müəyyənləşdirilə bilər:

a) müsabiqə (tender) yolu;

b) müqavilə yolu. Seçim şərtləri birbaşa bankla razılaşdırılır.

Maliyyə vasitəçisi olmaqla, anderrayter ilkin emissiyanı xidmətləndirir və zəmanətləndirir, ilkin buraxılan qiymətli kağızları sonradan investorlara satmaqdan ötrü alır, qiymətli kağızların yerləşdirilməməsi riskini də öz üzərinə götürür. Anderrayter İPO-ya çıxarılan qiymətli kağızların emitentinin təqdim eliməsi üçün potensial investorların görüşünü keçirir və bu zaman emitentin qiymətli kağızlarını almaqı investorlara təklif edir.

Anderraytinq məqsədilə bir neçə bank birləşərək müvəqqəti *sindikat yarada bilər. Onlardan biri sindikatın başçısı olaraq emitentlə daima əlaqədə olur və buraxılan qiymətli kağızların uçotunu aparır. Sindikatdaxili münasibətlər, məsələn, sindikat iştirakçılarının hər birinin emissiyadakı payı və onların haqqı iştirakçılar arasında bağlanılan çoxtərəfi müqavilələrlə tənizimlənir.*

İlkin emissiyanın sindikat vasitəsilə yerləşdirilməsinin emitent üçün üstünlükləri aşağıdakılardır:

- *yerləşdirmənin qısa zaman ərzində keçiriləcəyinə zəmanət;*
- *emitentin emissiyanın xidmətləndirilməsi xərcləri azalır;*
- *investisiyaların cəlb edilməsinin emitent üçün dəyəri azalır.*

Anderraytinq qəti öhdəlik (firm commitment) və maksimal səylər (*best efforts*) variantlarında mümkündür. Birinci halda bank emitent tərəfindən *ilkin kütləvi təklif üçün nəzərdə tutulmuş bütün qiymətli kağızların bazarda satışından gəlirin əldə olunmasına zəmanət verir. Bazarda başqa alıcı tapılmadığı halda anderrayter bank İPO üçün təklif olunan bütün qiymətli kağızları özü alır. İkinci halda isə anderrayter bank üzərinə belə öhdəlik götürmür.*

Anderraytinqin bir növü də gözləmə yaxud stendbay anderraytinqidir (standby underwriting). Belə halda emitent tam əmindir ki, onun səhmlərinin üstün alıcısı hüququna malik səhmdarlar bu hüquqdan istifadə etmədikdə onların almadığı səhmləri anderrayter alacaq. Məlumdur ki, səhmlərin üstün alıcısı hüququ onların müəyyən müddət ərzində bazardakından daha aşağı məzənnə ilə alqısını təmin edir.

“Hər şey yoxsa heç nə” şərtli anderraytinqə görə isə, anderrayter bütün emissiyanın investorlar arasında bölüşdürülməsinə nail ola bilmədikdə anderraytinq razılaşması qüvvəsini itirir.

IV. QKB-nın xidmətləndirilməsi ilə əlaqədar ənənəvi bank əməliyyatları aşağıdakıları nəzərdə tutur:

- qiymətli kağızların alqısına kreditlərin və onların girovu ilə kreditlərin verilməsi;
- istiqrazların və d. qiymətli kağızların (məsələn, mənzil sertifikatlarının) emissiyası üzrə bank zəmanətlərinin verilməsi;
- emitentlərin ödəniş agenti funksiyasının icrası, QKB iştirakçılarının hesablarının aparılması, QKB-dakı əməliyyatlar üzrə hesablaşmaların aparılması.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bankların QKB-dakı fəaliyyət göstəricilərinin artması böyük bank qruplarının yaranmasına səbəb ola bilər. Belə qrupların başında duran kommersiya banklarının ətrafında broker şirkətləri, konsaltinq firmaları, investisiya fondları, trast şirkətləri və b. toplaşır.

Ümumiyyətlə, bankların QKB-dakı fəaliyyəti ölkədə mövcud olan bank strukturunun tipindən çox asılıdır. Bank strukturunun iki tipi məlumdur: seqmentləşmiş və universal.

Seqmentləşmiş bank strukturu bank olan və bank olmayan maliyyə-kredit təsisatlarının əməli fəaliyyət məkanlarının və funksiyalarının qanunvericiliklə ayrılmasını nəzərdə tutur. Belə olduqda, bankların ənənəvi fəaliyyəti (depozit və kredit əməliyyatları) digər emitentlərin qiymətli kağızlarlı ilə əməliyyatlardan (emissiya və yerləşdirmə) qanunvericiliklə ayrılır. Bu cür struktur ABŞ-da 1933-cü ildə qəbul edilmiş Bank qanunu (*Banking Act of 1933*) ilə qüvvəyə mindi. Bu qanunla kommersiya banklarının QKB-dakı əməliyyatlarda iştirakı qadağan edildi və bununla kommersiya və investisiya bankları anlayışları bir-birindən ayrıldı. Bu qanun digər ölkələrin bank qanunvericiliyinin inkişafına güclü təsir göstərdi. Məsələn, Kanada, II Dünya müharibəsindən sonra isə Yaponiyada da tətbiq edildi.

Universal bank strukturu isə bu cür məhdudiyyətlərdən azaddır. Bütün digər kredit-maliyyə təsisatları kimi banklar maliyyə bazarının bütün seqmentlərində, o cümlədən QKB-da, istənilən əməliyyatlar keçirə bilər və istənilən xidmət çeşidini müştərilərinə təklif etməkdə sərbəstdir. Bu cür struktur Avropada (Birləşmiş Krallıq, Almaniya, İsveçrə, Fransa, Avstriya) geniş yayılmışdır. Qeyd etmək vacibdir ki, universal strukturu tətbiq edən ölkələrin milli iqtisadiyyatlarının bank sektorunun fəaliyyətində banklar tərəfindən yüksək dərəcəli özünütənzimləmənin, mövcud bank adət və ənənələrə riayət edilməsinin əhəmiyyəti çox böyükdür.

Azərbaycan Respublikasının "Banklar haqqında" Qanunun 30-cu maddəsi hüquqi şəxslərin kapitalında bankların iştirakının məhdudlaşdırılmasına həsr olunub. Bu maddəyə əsasən, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən istənilən bank tərəfindən başqa hüquqi şəxsdə iştirak payı əldə etməsi aşağıdakı hallardan birinə səbəb olarsa, bank həmin payı əldə etmək hüququna malik deyildir:

- iştirak payının balans məbləği bankın məcmu kapitalının 10%-dən çox olduqda;
- bankın bütün bu cür iştirak paylarının məcmu balans məbləği bankın məcmu kapitalının 40%-dən çox olduqda.

Həmçinin, bank hüquqi şəxslərin kapitalında mühüm iştirak payını təşkil edəcək və ya artıracaq, habelə hüquqi şəxsi bankın törəmə strukturuna çevirə biləcək iştirak payını Mərkəzi Bankın qabaqcadan yazılı icazəsi ilə əldə edə bilər.

Eyni zamanda, "Banklar haqqında" Qanunun 34-cü maddəsinə əsasən, ARMB-nın müəyyən etdiyi prudensial normativlər və tələblər ara-

sında, digər hüquqi şəxslərin kapitalında bankların iştirakının və məcmu iştirakının maksimum miqdarları da var.

Seqmentləşmə ilə universallaşma haqqında yuxarıda deyilənlərlə yanaşı onu da qeyd etmək vacibdir ki, həm banklararası rəqabətin, həm də banklarla BOKT-lar arasındakı rəqabətin durmadan şiddətlənməsi banklardan yeni maliyyə məhsulların yaradılmasını daima tələb edir. Müasir bankçılıqın yeni maliyyə məhsulları yaradan istiqamətlərindən biri investisiya bankçılığıdır (*investment banking*). İnvestisiya bankçılığının özəyini isə bankların QKB-dakı fəaliyyəti təşkil edir.

11.3. Pul və kapital bazarlarının borc alətləri

Tarixi inkişaf nəticəsində günümüzə qədər gəlib çatmış qiymətli kağızlar ənənəvi olaraq iki böyük sinifə ayrılır. Bunlar, kommersiya qiymətli kağızları və fond qiymətli kağızlarıdır. Kommersiya qiymətli kağızları əmtəə dövriyyəsi prosesinə və müəyyən əmlak əqdlərinə (sövdələşmələrinə) xidmət edir. Məsələn, veksel, çek, konosament, ambar və girov şəhadətnamələri, girov kağızları, bank sertifikatları, pul akkreditivi və s.

Fond qiymətli kağızları isə investisiya məqsədli pul fondlarının yaradılmasına xidmət edən maliyyə alətləridir. Bunlar ilk növbədə səhm və istiqrazlardır. Hər iki qrupun tərkibində borc qiymətli kağızları var. Borc qiymətli kağızları sahiblərinə onların vaxtı ilə borc verdikləri məbləqi müəyyən dövrdən sonra faizlərlə birlikdə geri almaq hüququnu verir. Məsələn, veksel, istiqraz, ipoteka kağızları, bank sertifikatları, girov şəhadətnaməsi. Göründüyü kimi, borc qiymətli kağızların tərkibinə həm pul bazarının, həm də kapital bazarının alətləri daxildir.

Veksel, konkret məbləqin konkret tarixdə ödəyici tərəfindən ödəniləcəyini təsbitləyən borc öhdəliyidir. AR QKDK-nin "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"yə görə veksel, qanunvericiliyə görə təsdiq olunmuş formada dəqiq tərtib olunmuş, öhdəliyin vaxtı bitdikdən sonra sahibinə (vekselsaxlayana) vekseldə göstərilmiş məbləğin vekselverəndən, borcludan və ya veksel məbləğini ödəməyi üzərinə götürən şəxsdən həmin məbləği şərtsiz tələb etmək hüququ verən, yazılı borc öhdəliyini əks etdirən qiymətli kağızdır. Borc öhdəliyi olmaqla yanaşı, veksel həm də müvəqqəti ödəniş vasitəsidir.

Formalaşmış beynəlxalq ənənəyə əsasən, veksel, məhz qısamüddətli, yəni tədavül müddəti 360 günə qədər ola bilən borc öhdəliyidir. Vekseli digər borc öhdəliklərindən fərqləndirən keyfiyyətlər aşağıdakılardır:

- veksel, həmişə yazılı borc öhdəliyidir;
- veksel, şəksiz borc öhəliyidir;
- veksel, mücərrəd borc öhdəliyidir;
- veksel, tədavül qabiliyyətli borc öhdəliyidir;
- veksel, borcun tam məbləqdə və vaxtında ödənilməsi üzrə müştərək məsuliyyəti mümkün edir.

Veksel tədavülü 3 istiqamət üzrə baş verə bilər:

- banklarla onların müştəriləri arasında;
- cəmiyyətlə dövlət arasında;
- bank vasitəçiliyi olmadan fiziki və hüquqi şəxslər arasında.

Təsərrüfat subyektlərinin veksellərini iki qrupa ayırmaq olar:

- birdəfəlik veksellər. Onlara solo veksel yaxud sadə veksel də deyilir. Borclu şəxs tərəfindən tərtib olunur və onun birbaşa borc öhdəliyidir. Kommersiya kreditinin alətidir və borc ödənilən kimi dərhal ləğv edilir. AR QKDK-nin "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"yə görə sadə veksel (solo), vekselverənin, vekseldə göstərilmiş pul məbləğini tələb edildikə və ya müəyyən edilmiş digər bir vaxtda vekselsaxlayana şərtsiz ödəyəcəyi barədə öhdəliyini ifadə edən qiymətli kağızdır.
- çoxdəfəli veksellər. Onlara *köçürmə veksellər*i (*bill of exchange*) yaxud *tratta* da deyilir. Müvafiq olaraq, tratta üzrə kreditora *trassant*, borclu tərəfə isə *trassat* deyilir. Sadə vekseldən fərqli olaraq, bir neçə əqdin aləti ola bilən tratta üzrə ödənişi almaq hüququ onun son sahibinə keçir. "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"yə görə köçürmə vekseli (tratta), vekselverənin (trassantın) ödəyiciyə (trassata) vekseldə göstərilən məbləğin vekseli təqdim edənə (remitentə) vekseldə gostərilən müddətdə şərtsiz ödənilməsini nəzərdə tutan yazılı əmrli qiymətli kağızdır.

Kreditor tərəfindən tərtib olduğundan kreditorun borc tələbnaməsi kimi çıxış edir. Bununla əlaqədar, trattada borclu adlandırılan şəxs özünün həqiqətən borclu olduğunu təsdiqləməlidir. Buna *aksept deyilir. "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"yə görə aksept, vekselverənin köçürmə vekselində göstərdiyi ödəyicinin (trassatın), vekseldə göstərilən vaxt çatdıqda veksel məbləğinin ödənilməsinə veksel üzərində imza*

atmaqla və ya müvafiq ifadə yazmaqla razılıq verməsidir. Müvafiq olaraq, köçürmə veksel üzərində aksept qoymuş şəxs akseptant adlanır.

Trattanın trassat tərəfindən akseplənməsi çox vacibdir, çünki tratta yalnız aksept edildikdən sonra icrası icbari olan borc öhdəliyi səviyyəsinə qalxır. Kreditor borcludan borcun üçüncü şəxsə, yəni *remitentə* ödənilməsini də tələb edə bilər. "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"yə görə remitent, köçürmə vekselində yazılan məbləği alan şəxsdir.

Digər tərəfdən, kapitalist münasibətlərdə ödənişin vaxtında edilməsinin çox əhəmiyyətli olması tratta üzrə ehtiyyat ödəyici kimi üçüncü şəxsin olmasını mümkün edir. O, borclu tərəfindən ödənişin edilmədiyi halda tratta üzrə borc öhdəliyinin vaxtında və tam məbləqdə ödənilməsinə zəmanət verir. Tratta üzrə zəmanət *aval adlanır. Aval trattanın ödəniş vasitəsi kimi amiranəliyini təsdiqləmiş olur.*

Veksel ilə bağlı mühüm məqamlardan biri də odur ki, onun blankının üzərində edilən və vekselin təqdim edilərkən yaxud təqdim edildikdən müəyyən müddətdən sonar ödəniləcəyini təsdiqləyən qeyd avisto adlanır.

"Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"yə görə aval, vəkseli imzalamış şəxsin və ya veksel üzrə öhdəlik daşıyan digər şəxslərin öhdəliklərini yerinə yetirməsinə görə məsuliyyəti öz üzərinə götürən şəxsin veksel zəmanətidir. Müvafiq olaraq, aval verən şəxs *avalçı* adlanır. Avalçı rolunda adətən banklar çıxış edir.

Çoxdəfəli veksel olan tratta, müvəqqəti ödəniş vasitəsi kimi borcun müddəti bitənə qədər dəfələrlə əldən ələ keçə bilər. Hər dəfə trattanın yeni şəxsə keçməsi *indossament adlanan ötürmə qeydi vasitəsi ilə baş verir. "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"yə görə indossament, vekseldən irəli gələn bütün hüquqları sonuncu vekselsaxlayandan növbəti saxlayana ötürən vekseldə aparılan ötürücü yazıdır. İndossamenti yazan, yəni trattanı başqasına ötürən şəxs indossant,* indossament əsasında veksel ötürülən şəxs, yəni trattanın yeni sahibi isə *indossat* adlanır.

Tratta blankının arxa tərəfində indossamentlər üçün özəklər nəzərdə tutulur. Növbəti indossamentlər üçün yer olmadıqda, üzərində yazılar yazmaq, avalları, akseptləri və sairəni rəsmiləşdirmək üçün trattanın blankına *allonj* adlanan kağız vərəqi əlavə edilir.

İndossamentin əhəmiyyəti ondadır ki, onun vasitəsilə veksel ödənişlərin vaxtında edilməsini təmin etməklə qarşılıqlı debitor borcun minimuma endirilməsinə xidmət edir.

Bunu da bilmək vacibdir ki, vekselverən vekselin blankında və ya vekselsaxlayan indossamentdə "əmrə deyil" qeydini etdikdə veksel indossament vasitəsilə ötürülə bilməz. Belə halda onun ötürülməsi yalnız *tsessiya* qaydasında edilə bilər.

Vekselin xüsusi keyfiyyətlərindən biri də reqressdir. "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə" görə reqress, vekselsaxlayanın vekselverənə, indossantlara, avalçılara və veksel üzrə öhdəlik daşıyan digər şəxslərə qarşı veksel məbləğinin ödənilməsi tələbidir. Bu, vekselin borc öhdəliyi kimi şəksizliyini bir daha təsdiqləmiş olur.

Kommersiya kreditinin aləti olan sadə (solo) veksel həm də *kommersiya vekselidir*, çünki kreditorla borcalan arasındakı topdansatış ticarətin kreditləşdirilməsindən doğur. Buna görə də, ona ticarət vekseli də deyilir.

Kommersiya vekseli əmtəə əsaslı olduğu halda, *maliyyə vekseli* bir tərəfin digərinə borc olaraq əmtəənin deyil, pul vəsaitinin verildiyini təsdiqləyir. Maliyyə vekselinin növləri kimi xəzinə vekselini, bank vekselini göstərmək olar.

"Köçürmə və sadə veksel haqqında Vahid Qanun barədə" 07.06.1930-cu il tarixli Cenevrə Konvensiyasının və 19.03. 1931-ci il tarixli "Çeklər haqqında Vahid Qanun barədə" Cenevrə Konvensiyasının qəbul edilməsi ilə veksel və çeklərdən istifadə qaydalarının vahid şəklə salınması onların beynəlxalq tədavülünü asanlaşdırmışdır. Azərbaycan Respublikasının Cenevrə Konvensiyalarına qoşulması haqqında Qərar Milli Məclis tərəfindən 02.05.2000-ci il tarixdə qəbul edilmişdir.

Azərbaycan Respublikasının ərazisində veksellərin emissiyası, alqı-satqısı, ötürülməsi, veksel üzrə öhdəliklərin yerinə yetirilməsi və veksel dövriyyəsi ilə bağlı əməliyyatların aparılması "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"si ilə tənzimlənir.

Veksel kimi, *istiqraz da borc öhdəliyidir, lakin uzunmüddətlidir. Bütün borc qiymətli kağızlarında olduğu kimi, istiqrazın da emitenti öz üzərinə investora (istiqraz alıcısına) konkret məbləqi və faizləri konkret müddətdən sonra ödəmək öhdəliyini götürür. İstiqrazın emitenti özəl şəxslər və dövlət ola bilər. Lakin vekseldən fərqli, istiqrazı yalnız hüquqi şəxslər, onların da arasında yalnız səhmdar cəmiyyətləri (korporasiyalar) buraxa bilər.*

Korporativ istiqraz borc öhdəliyi olduğundan, mütləq borcun təminatı məsələsi öz həllini tapmalıdır. Emitent öz əmlakının (əsasən daşınmaz əmlak, lakin daşınar əmlak və qiymətli kağızlar da ola bilər) bir hissəsini buraxdığı istiqrazlar üzrə borc öhdəliyinin təmin edilməsinə ayırır və bu

faktı rəsmiləşdirir. Maliyyə durumu güclü olan korporasiyalar təminatsız istiqraz emissiyasını keçirə bilər. Bu baxımdan, korporativ istiqrazları təminatlı (girovlu) və təminatsız (girovsuz) növlərə ayırırlar. Daşınmaz əmlak girovlu korporativ istiqrazlar *ipotekalı istiqrazlar* (ing. *mortgage bond*) adlandırıla bilər.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30.08. 2010-cu il tarixli qərarı ilə təsdiqlənmiş "Emitentin istiqraz buraxılışının maksimal həcminə dair tələblər haqqında Qaydalar"a əsasən:

- təmin edilməmiş istiqrazlar – onlar üzrə öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilməyən istiqrazlar;
- təmin edilmiş istiqrazlar — onlar üzrə öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazlar.



Şəkil 7. *İstiqrazların təminat əlamətinə görə təsnifatı*

Azərbaycan Respublikasının 15 aprel 2005-ci il tarixli «İpoteka haqqında» Qanunun qəbul edilməsi ilə ölkəmizin QKB-da ipoteka hüququnu təsbit edən, adlı qiymətli kağız olan *ipoteka kağızı* meydana gəldi. İpoteka kağızı, üzərində yazılmış sahibinin ipoteka təminatlı pul öhdəliyi üzrə hüquqlarının icra olunacağını təsdiqləyən qiymətli kağızdır. O, əmlakını ipoteka saxlayana təslim edən ipoteka (girov) qoyan şəxs tərəfindən yazılır. Bu da vacibdir ki, ipoteka (girov) qoyan şəxs başqa şəxsin borcu üzrə zamin qismində çıxış edə bilər. Belə olduqda ipoteka kağızı üzrə borclu kimi iki şəxs, yəni borcalan və ipoteka qoyan çıxış edir. İpoteka kağızları mənzil ipotekasında iştirak edən banklar arasında daha geniş tətbiq olunur.

İpotekalı istiqrazlarla birlikdə ipoteka kağızı ipoteka qiymətli kağızları (*mortgage-backed securities*) qrupunu təşkil edir. Məlumdur ki, daşınmaz əmlak təminatlı kreditlər ipoteka kreditləri adlanır. İpoteka qiymətli kağızları ipoteka kreditləri üzrə öhdəliklərin vasitəsilə təkrar maliyyələşən maliyyə alətləridir.

Girov şəhadətnaməsi qoşa anbar şəhadətnaməsinin bir hissəsidir. Digər hissəsi anbar şəhadətnaməsidir. Hər iki hissə bir-birindən ayrılaraq sərbəst qiymətli kağız kimi çıxış edə bilər. Qoşa anbar şəhadətnaməsi və onun hər bir hissəsi orderli qiymətli kağız hesab olunur.

Ölkəmizin ərazisində anbar şəhadətnaməsi, qoşa anbar şəhadətnaməsi və onun tərkib hissələri olan anbar və girov şəhadətnamələrinin verilməsi, dövriyyəsi, ödənilməsi və bununla əlaqədar digər məsələlər AR QKDK-nin "Azərbaycan Respublikasında adi və qoşa anbar şəhadətnamələrinin dövriyyəsi haqqında Əsasnamə"si ilə tənzimlənir.

Girov şəhadətnaməsinə *varrant* da deyilir. Öz növbəsində, varrant anlayışının da iki mənası var. Birinci mənada varrant, müəyyən edilmiş müddət ərzində və məzənnə ilə müəyyən sayda səhm almaqa hüquq verən qiymətli kağızdır.

İkinci mənada isə varrant, müəyyən əmtəənin saxlanmaya qəbul etmiş anbarın şəhadətnaməsidir. Bu halda varrant, əmtəə satıldıqda yaxud girov qoyulduqda istifadə edilən əmtəə sərəncamlı sənəddir. Əmtəə girovu zamanı girov şəhadətnaməsi girov hüququnu təsdiqləməklə girov saxlayana verilir. O isə, ötürmə qeydləri vasitəsilə girov şəhadətnaməsini digər şəxslərə təslim edə bilər.

Bank sertifikatlarına gəldikdə isə onlar haqda növbəti hissədə danışılacaq. Bəs kommersiya bankları pul və kapital bazarlarındakı fəaliyyətlərində özləri tərəfindən emissiya edilməyən borc qiymətli kağızlardan necə istifadə edir?

Məlum olduğu kimi, *veksel ən qədim qiymətli kağızlardandır. Bəlkə də qiymətli kağızların ən qədim növüdür. Avropa tarixində müasir veksellərin meydana gəlməsi XII-XIV əsrlərə aid edilir. Buna səbəb ticarət fəaliyyətinin (ilk növbədə İtaliyada) genişlənməsi ilə əlaqədar hesablaşmalarda həqiqi pulun əvəzediciləri kimi borc iltizamlarından istifadə edilməsi zərurəti olmuşdur.*

Lakin, bu cür borc iltizamlarından Qədim Şərq dövlətlərində (məsələn, qədim Babilin Egibi və Muraşu tacir evləri – e. ə. VIII-V əsrlər) geniş istifadə olunurdu. Sonralar, borc iltizamlarından ticarət əməliyyatlarında istifadə edilməsi ənənəsi Qədim Yunanıstan və Qədim Romaya da yayılmışdır. Erkən

orta əsrlərdə bu ənənənin davamçıları Bizans və Ərəb Xilafəti olmuşlar. Məsələn, ehtimal edilir ki, xilafətdə tətbiq edilən və həvalə adlanan borc iltizamları sonralar İtaliyada müasir veksellərin ilk nümunələrinin yaranmasına təsir etmişlər.

Veksellərdən istifadə miqyaslarının genişlənməsində veksel yarmarkaları kimi tarixə düşmüş Şampan, Lion, Antverpen yarmarkalarının da rolu böyük olmuşdur. XIX əsr veksel tarixinin ən yüksək zirvəsi oldu. XX əsrdə, xüsusilə II Dünya müharibəsindən sonra inkişaf etmiş ölkələrdə veksel bazarlarının miqyasları getdikcə azalmış və hal-hazırda vekselin maliyyə aləti kimi əhəmiyyəti çox kiçikdir. Bəzilərində isə veksel bazarı hətta tamamilə yox olmuşdur.

Bununla belə, kommersiya kreditinin aləti olaraq veksel, daha doğrusu isə köçürmə vekseli varlığını saxlamaqdadır. ABŞ, Böyük Britaniya və Kanadada köçürmə vekselin növü olan bank akseptlərindən hələ də istifadə olunur.

Ənənəvi kapitalist ölkələrində veksel bazarının funksional təyinatı qısamüddətli pul vəsaitlərinin kommersiya və maliyyə veksellərinin vasitəsilə yenidən bölgüsüdür. Pul bazarının bir hissəsi olmaqla veksel bazarı iki səviyyədən ibarətdir.

Birinci səviyyədə veksel bazarının subyektləri kommersiya bankları və onların müştəriləridir. Banklar veksellərlə diskont, lombard, komisyon və b. əməliyyatlar keçirir.

İkinci səviyyənin subyektləri Mərkəzi bank və kommersiya banklarıdır. Buradakı əməliyyatların əsas payını veksellərlə təkrar diskont və təkrar girov əməliyyatları təşkil edir. Veksel əməliyyatlarının və bank fəaliyyətində ixtisaslaşmanın geniş inkişafı bəzi ölkələrdə (məsələn, Böyük Britaniyada) veksel əməliyyatları üzrə ixtisaslaşan kredit təsisatların, yəni *diskont evlərin, diskont bankların* yaranmasına səbəb olmuşdur. Hal-hazırda da Böyük Britaniyanın kredit sistemində Mərkəzi bankla kommersiya bankları arasındakı vasitəçi rolunu məhz diskont evləri oynayır.

Bankların veksel əməliyyatları ilk növbədə təsərrüfat subyektlərinin banklar tərəfindən kreditləşdirilməsi ilə bağlıdır. Bu zaman bank kreditləri veksel təminatlı olur. Onların iki növü daha çox yayılıb:

- veksel diskontlu kreditlər;
- veksel girovlu kreditlər. Onlara lombard kreditlər də deyilir.

Hər iki halda kapitalın bir qədər passiv mövqedə olan borc öhdəlikləri formasından daha fəal likvid vəsaitlərə çevrilməsi baş veriri. Bu isə

pul vəsaitləri dövriyyəsini sürətləndirir və bank müştərilərinin fəaliyyətini canlandırır.

Vekselin diskontu, vekseldə göstərilmiş məbləqi vaxtından əvvəl almaq istəyən veksel sahibi tərəfindən indossament əsasında vekselin banka satılmasıdır. Vekseli alan bank veksel üzrə bütün hüquqları əldə edir və vekseldə təsbitlənmiş məbləqi kiçik faizi çıxmaqla vekselsatana ödəyir. Həmin faiz *diskont adlanır. Diskontla əlaqədar veksel başqa yaşayış məntəqəsindən inkassasiya edildikdə bank tərəfindən porto* adlanan poçt xərcləri tulur. Diskontlaşdırılan vekselin inkassasiyasını digər yaşayış məntəqəsində yerləşən bank edirsə, ona *dampo* adlanan komisyon haqqı ödənilir.

Diskontun səviyyəsi vekselin keyfiyyətindən və onun ödənilmə müddətindən, həmçinin bankın verdiyi kreditlər üzrə faiz dərəcəsindən asılıdır. Banklar ödəmə qabiliyyəti şübhə doğurmayan şəxslərin veksellərini, yəni birici dərəcəli vekselləri diskontlaşdırır. Veksel iri bankın zəmanətinə (aval) malik olduqda daha aşağı dərəcə ilə diskontlaşdırılır. Maliyyə durumu zəif olan, şübhə doğuran şəxslərin vekselləri banklar tərəfindən ya ümumiyyətlə diskontlaşdırılmır, ya da çox yüksək dərəcə ilə diskontlaşdırılır.

Qeyd etmək lazımdır ki, rus ədəbiyyatında «diskont» yerinə «uçot» anlayışından istifadə edilməsi ənənəsi mövcuddur. Baxmayaraq ki, beynəlxalq aləmdə məhz «diskont» sözündən istifadə olunur. Azərbaycan Respublikasının normativ-hüquqi sənədlərində də məhz «uçot» termini yer almışdır.

ARMB-nın "Kredit təşkilatlarinda veksellərin uçotunun aparilmasi qaydaları"nda vekselin uçotu, ödəniş vaxtı çatana qədər vekselsaxlayan tərəfindən vekselin kredit təşkilatına verilməsi və onun müqabilində, veksel məbləğindən diskont məbləği çıxılmaqla, qalan məbləğin alınması kimi tərifləndirilir. Həmin normativ-hüquqi sənədə görə diskont, vekselin uçotu zamanı kredit təşkilatı tərəfindən alınan komissiya məbləğidir. Diskont aşağıdakı düstura uyğun olaraq hesablanır:

$$D = \frac{K \times T \times F}{360} \times 100$$

Burada:

D – diskontun məbləği;

K – vekselin məbləği;

T – vekselin uçotu günündən onun ödənilmə gününə (ödəniş günü nəzərə alınmır) qədər olan müddət;

F – kredit təşkilatının uçot faizi.

"Kredit təşkilatlarinda veksellərin uçotunun aparilmasi qaydaları"na əsasən, qanunvericiliklə müəyyən edilmiş bütün rekvizitlərə tam uyğun olan sadə, köçürmə və xəzinə veksellləri kommersiya bankları tərəfindən uçota alına bilərlər. Kredit təşkilatları aşağıdakı veksellləri uçota ala bilməzlər:

- aksept olunmamış və ya qismən aksept olunmuş köçürmə veksellər, habelə aksept barədə qeydin üstündən xətt çəkilmiş köçürmə veksellər;
- ödəniş üçün təqdim etmə vaxtı keçmiş veksellər;
- təyin edilmiş ödəniş vaxtına görə etibarsız olan veksellər;
- bir neçə nüsxədə verilmiş veksellər, əgər onların bütün nüsxələrinin uçot üçün təqdim edilməsi mümkün deyilsə;
- uçota təqdim edilənədək veksel üzrə indossamentlər blanklı (adsız) olduqda.

Vekseli uçot üçün təqdim edən şəxs onu uçota almaq məqsədilə banka müraciət edərkən ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

- vekselin əsli (əlavə vərəq (allonj) olduqda, onunla birlikdə), əgər vekselin əslində onun surəti çıxarılanadək edilmiş sonuncu indossamentdən sonra yalnız surətdəki indossamentin etibarlı olması barədə qeyd şərt varsa, vekselin surəti;
- vekseli uçot üçün təqdim etmiş şəxsin eyniləşdirilmə sənədləri (hüquqi şəxsin nizamnaməsi, qeydiyyat şəhadətnaməsi, vətəndaşın şəxsiyyət vəsiqəsi və s.);
- aval (veksel zaminliyi tələb olunduqda və ayrıca vərəqdə verildikdə);
- kredit təşkilatının veksellərin uçotu əməliyyatlarını tənzimləyən daxili qaydalarında nəzərdə tutulmuş digər sənədlər.

Banklar uçota aldığı veksellərlə aşağıdakı əməliyyatları həyata keçirə bilərlər:

- qanunvericiliyə müvafiq qaydada vekseli yenidən uçot üçün təqdim etmək;
- veksel vasitəsilə öz kreditorları ilə hesablaşmaq;
- vekseli özgəninkiləşdirmək;
- vekseli girov qoymaq;
- qanunvericiliklə qadağan edilməyən digər əməliyyatlar.

Veksel girovlu kreditlər müddətli və müddətsiz ola bilər. Birinci halda vekselin sahibi əvvəlcədən təyin olunmuş tarixdə vekseli bankdan geri almalı və bu yolla krediti qaytarmalıdır. İkinci halda isə bank, vekselin girovu ilə verdiyi kreditin geri qaytarılmasını istənilən vaxt tələb edə bilər.

Bu cür kreditləşmədə tərəflər arasında kredit müqaviləsi ilə yanaşı girov öhdəliyi tərtib olunur, öhdəlikdə borcalanın girova təqdim etdiyi veksellərin qiymətləndirilməsi göstərilir.

Vekselin diskontu ilə veksel girovlu kredit arasındakı *fərqlər* bunlardır:

- birinci halda pul vəsaitinin və vekselin hərəkətləri parallel baş verir, yəni veksel diskontlaşdırıldıqda məbləq verilir, veksel ödənildikdə isə məbləq geri qaytarılır. Veksel girovlu kreditləşmə zamanı isə veksel və pul vəsaitinin hərəkəti eyni olmur. Belə ki, veksel təminatı müəyyən müddət ərzində dəyişməz qaldığı halda bocun məğləqi tez-tez dəyişir, çünki ödənişlər edildikcə kredit verilir və müştəri hesabına vəsait daxil olduqca kredit qaytarılır.
- bank üçün diskont vekselin alqısı deməkdir, çünki diskontlaşdırılan veksel banka təslim edilir. Deməli, diskontlaşdırılan veksel bankın mülkiyyətinə keçir. Veksel girovlu kreditləşmə zamanı isə kreditin təminatı kimi çıxış edən veksel təslim edilmir. O, banka müvəqqəti olaraq verilir.
- diskont əməliyyatında müştəri kiçik faizi çıxmaqla vekselin tam məbləqini aldığı halda, veksel girovlu kreditləşmə zamanı borcalan girov qoyulmuş vekselin məbləqinin yalnız bir hissəsini alır. Bu hissənin həcmi emitentin etibarlığından asılıdır.
- diskontlaşmada müştəri məbləqi birdəfəyə alır, veksel girovlu kreditləşmədə isə borcalan məbləqdən zərurət yarandıqda istifadə edir.
- veksel girovlu kreditləşmədə borcalan hesablaşma hesabındakı vəsaitdən istifadə edərək banka olan borcu azaltmaq imkanına malik olduğu halda, diskontlaşmada müştərinin belə imkanı yoxdur.
- vekselin diskontuna görə faiz diskontlaşma zamanı birdəfəlik tutulur, veksel girovlu kreditləşmədə isə müntəzəm ödənilir. Adətən, diskont dərəcəsi kredit dərəcəsindən aşağı olur.

Bankların veksel əməliyyatlarının daha bir istiqamətini veksellərlə *komisyon əməliyyatları* təşkil edir. Bu zaman bank kreditor kimi deyil, vasitəçi kimi çıxış edir. Öz adından çıxış edən bank komitent adlandırılan

müştərisinin tapşırıqı ilə veksel üzrə ödənişi qəbul edir. Komisyon haqqı bankın özü tərəfindən təyin olunur.

Komisyon əməliyyatının baş tutması üçün müştəri ərizə ilə banka müraciət edir. Ərizədə ödənişin alınması üçün vekselin komisyona qəbul edilməsi xahişi, ödənişin tarixi, ödəyicinin adı (adlanması), ünvanı, vekselin sayı, məbləqi göstərilir. Vekselin komisyona qəbul edilməsi haqqında ödəyiciyə bildiriş göndərilir.

Veksel ödənildikdə bank komitentə bildiriş göndərir, müştəri bildirişi təqdim etməklə veksel üzrə ödənilmiş məbləqi bankdan alır. Müştərinin komisyonçu bankda hesabı olduqda vekselin ödənilməsindən daxil olan vəsait bu hesaba yönəldilir. Veksel ödənilmədikdə də bank komitentə bildiriş göndərir və komisyona qəbul etdiyi vekseli komitentə qaytarır.

Ödəyici borcu ödəyərək vekseli geri aldıqda bildirişi təqdim edir. Geri alınmış vekselin arxa tərəfində borcun ödənilməsini təsdiqləyən qeyd edilir və veksel ödəyiciyə təhvil verilir.

Məlumdur ki, veksel protest edilə bilər. AR QKDK-nin "Azərbaycan Respublikasında veksellərin dövriyyəsi haqqında Əsasnamə"sinə görə vekselin protesti, akseptdən və ya ödəmədən imtina faktlarının səlahiyyətli dövlət orqanı (notarius) tərəfindən rəsmi təsdiq edilməsidir. Komisyona qəbul edilmiş veksel protest edildikdə, komitent vekselin protestı ilə bağlı bankın məsrəflərini banka qaytarmalıdır.

Bankların veksel əməliyyatlarına *zəmanət əməliyyatları* da aiddir. Bu zaman bank müştərisinə borc olaraq heç bir pul vəsaiti vermir. Bank, müştərisi öhdəliyini ödəyə bilmədikdə ödənişi onun yerinə vaxtında və tam məbləqdə edəcəyinə zəmanət verir. Bu növ əməliyyatlara bankların aksept və aval kreditləri aiddir.

Aksept krediti zamanı bank qabaqcadan müştərisindən qəbul etdiyi vəsaitlə onun öhdəliklərini ödəyir. Aval krediti zamanı isə yalnız müştəri iflas etdikdə bank ona havadar çıxaraq öz vəsaitlərilə onun öhdəliklərini ödəyir. Avalçı olan bank veksel blankının arxasında yaxud allonjda müvafiq qeyd edir və imzalayır. Nüfuzlu bank tərəfindən aksept və/və ya aval edilən vekselin risklilik dərəcəsi enir. Avalçı bank vekseli ödəməklə havadar çıxdığı şəxsə dair həmin vekseldən irəli gələn bütün hüquqları əldə etmiş olur.

Avalçı borclu ilə bərabər dərəcədə məsuliyyətli olsa da, veksel istənilən səbəb üzündən qüvvədən düşdükdə belə avalçının öz üzərinə götürdüyü öhdəlik qüvvəsini saxlayır. Bu mənada aval havadarlıq həddini aşaraq zəmanət dərəcəsinə çatır.

Vekselin ödənilməsi ilə bağlı funksiyaların ödəyici tərəfindən onun ünvanından fərqli olan məkanda yerləşən digər şəxsin, o cümlədən bankın üzərinə qoyulması da mümkündür. Buna *domisilyasiya* deyilir.

Domisilyasiya veksel üzrə havadarlıq yaxud hansısa digər öhdəlik deyil. Domisilyasiya edilmiş veksel üzrə ödəyici *domisiliat*, ödənişi alan isə *domisiliant* adlanır.

Domisilyasiya üçün veksel üzrə borclu şəxs ilə bank arasında müvafiq müqavilə imzalanır. Müqaviləyə əsasən, borclu şəxsin həmin bankda yerləşdirdiyi vəsait həddində bank tərəfindən veksel üzrə ödənişlər edilir. Domislyasiya edilən vekselin üzərində borclu tərəfindən imzalanan «ödəniş …. bankda» qeydi edilir.

AR QKDK-nin "Gömrük ödənişlərinə sadə veksel vasitəsilə zəmanət verilməsinin müvəqqəti Qaydaları"na əsasən, AR QKDK-də reyestrə salınmış banklar və digər kredit təşkilatları gömrük ödənişlərinin, gömrük qaydalarının pozulması hallarında isə mal və nəqliyyat vasitələrinin dəyərinin, habelə cərimələrin ödənilməsində zəmanətci kimi çıxış edə bilər və belə hallarda onların özləri tərəfindən aval edilmiş veksellərdən zəmanət aləti kimi istifadə oluna bilər.

Qiymətli kağızlarla bank əməliyyatlarının mühüm tərkib hissəsini REPO əməliyyatları təşkil edir. Hüquqi, rəsmi tərəfdən REPO, qiyməti kağızın əvvəlcədən təyin edilmiş qiymətlə müəyyən müddətdən sonra geri alqısı (satqısı) şərti ilə satqısıdır (alqısıdır). Əslində isə REPO, qiymətli kağız (daha çox pul bazarının qüsamüddətli borc öhdəlikləri) girovlu qısamüddətli kredit əməliyyatıdır. REPO əməliyyatı iki hissədən ibarətdir: spot əməliyyatı olan birbaşa hissə və forvard əməliyyatı olan əks hissə. Birinci hissədə satıcı olan şəxs ikinci hissədə alıcıdır, və əksinə. Bütün hallarda REPO əməliyyatları təminatlıdır.

REPO əməliyyatları sadəliyinə görə seçilir. Borcalan, yəni qiymətli kağızları müəyyən müddətə satan şəxs həmin müddətə nisbətən aşağı faizlə maliyyə vəsaitləri əldə etmiş olur. Kreditor, yəni qiymətli kağızları müəyyən müddətə alan şəxs isə özünün artıq likvid vəsaitlərini qüsa müddətli və təminatlı investisiyaya çevirmək imkanı qazanır. Kreditorun gəliri isə əqdin birinci və ikinci hissələrinin qiymətləri arasındakı fərqdən yaranır.

REPO-nun təminatı qismində çıxış edən qiymətli kağızların kreditin müddəti ərzində kreditorun məhz mülkiyyətinə keçməsi borcalanın öhdəliyi yerinə yetirmədiyi hallarda yaranan kredit riskinin minimuma

endirilməsinə xidmət etmiş olur. Çünki, girovda olan qiymətli kağızlarla müqayisədə, kreditorun mülkiyyətində olaq qiymətli kağızları sataraq kreditin məbləqini geri qaytarmaq kreditor üçün daha sadədir.

REPO əməliyyatları kommersiya bankları ilə mərkəzi bank arasında, kommersiya banklarının öz aralarında keçirilə bilər. Nəzəri cəhətdən, REPO əməliyyatlarında həm korporativ, həm də dövlət qiymətli kağızlarından istifadə oluna bilər. Lakin, kommersiya bankları üstünlüyü risk səviyyəsi nisbətən aşağı olan dövlət qiymətli kağızlarına (dövlət istiqrazlarına) verir.

Şərtlərinə görə REPO-nun hər iki hissəsi eyni gündə icra olunursa, buna birgünlük REPO yaxud *overnayt (overnight*) deyilir. *Cari REPO*-nun birinci hissəsi bitmiş, ikinci hissəsinin icra vaxtı isə bitməmişdir. *Açıq REPO*-nun isə icra vaxtı təyin edilməmişdir. Buna müvafiq olaraq, overnayt REPO-nun faiz dərəcəsi təsbitli (*fixed interest rate*), cari REPO-nun – təsbitli olmasa da, əməliyyatın bütün müddəti ərzində sabit qalır (*constant interest rate*), açıq REPO-da isə faiz dərəcəsi dəyişkəndir («üzən» məzənnə – *floating interest rate*). Bütün hallarda, REPO əməliyyatlarında faiz dərəcəsinin səviyyəsi banklararası bazardakı kredit faiz dərəcələri, REPO-nun obyekti olan qiymətli kağızların keyfiyyət əlamətləri və hər bir REPO əqdinin konkret şərtləri əsasında müəyyənləşir.

11.4. Kommersiya banklarının qiymətli kağızları

Yuxarıda deyildiyi kimi, kommersiya bankları pul və kapital bazarlarında emitent kimi də çıxış edə bilər. Səhmdar cəmiyyəti (SC) statusunda çıxış edən kommersiya bankı digər sahələrdə fəaliyyət göstərən SC-ləri kimi investisiya qiymətli kağızları olan səhm və istiqraz, həmçinin veksel buraxa bilər. Bununla yanaşı, yalnız kommersiya bankları çek emissiyasını həyata keçirir (şək.8).

Bank səhmləri, istiqrazları, veksellərі istənilən SC-nin eyni qiymətli kağızlarından əhəmiyyətli heç nə ilə fərqlənmir. Başqa SC-lərdə olduğu kimi, onların emissiyasında bankın başlıca məqsədi maliyyə resurslarının cəlb edilməsidir. Hər emissiyadan maksimum yararlanmaq üçün hər bir bank həyata keçirdiyi emissiyanın mümkün qədər tam həcmdə bazarda yerləşdirilməsinə nail olmaqa çalışır.



Şəkil 8. *Kommersiya banklarının qiymətli kağızları*

Eyni zamanda, tədavül edən maliyyə alətlərin emissiyası əsasında müştərilərə əlavə xidmətlərin göstərilməsi də emitent bank üçün məqsəd ola bilər. Veksellərdən istifadə etməklə iqtisadiyyatdakı ödəməmələr probleminin həlli onların emissiyasının məqsədlərindən biridir.

Nəyin buraxılmasından asılı olmayaraq, bank tərəfindən qiymətli kağız emissiyasının əsas prinsiplərini aşağıdakılar təşkil edir:

- emissiyanın planlı şəkildə keçirilməsi. Bu, qiymətli kağızlar formasında bank resurslarının toplanmasının idarə edilməsi anlamına gəlir;
- buraxılan qiymətli kağızın təməl keyfiyyətlərinə görə investorların maraqlarına uyğunluqu;
- resursların cəlb edilməsi həcmi və müddətinə, cəlbetmə qiymətinə, yerləşdirmə məsrəflərinə, tutulan vergilərə, risk dərəcəsinə görə emissiyanın emitent bankın maraqlarına uyğunluqu;
- emissiyası nəzərdə tutulan qiymətli kağızların yeni maliyyə məhsulu kimi işlənib hazırlanması. Məsələn, eyni qiymətli kağız emissiyasında standart keyfiyyətlərin fərdi keyfiyyətlərlə, innovativ məqamlarla əlaqələndirilməsi;
- qiymətli kağızlara edilən investisiyalardan olan gəlirlərlə divi-

dend və faizlərin ödənilməsi xərcləri arasındakı fərqin (marjanın) nəzarətdə saxlanılması və s.

Kapital (fond) bazarı alətləri olan səhm və istiqrazlarını emissiya etməklə bank xüsusi və borc kapitalını formalaşdırırsa, sertifikat və veksellərin buraxılması idarə edilən depozitlərin cəlb olunmasına xidmət edir. Azərbaycan Respublikasının ərazisində kommersiya bankları tərəfindən səhm və istiqrazların buraxılması AR QKDK-nin "İnvestisiya qiymətli kağızların emissiyası Qaydaları" ilə təmzinlənir.

Səhm, təsis edilən bankın nizamnamə kapitalının yaradılması, emitent bankın SC kimi təşkilati-hüquqi statusunun rəsmiləşdirilməsi yaxud artıq mövcud olan bankın nizamnamə kapitalının artırılması məqsədilə buraxılan pay qiymətli kağızdır. Səhmdar bankın nizamnamə kapitalı bankın səhmdarları tərəfindən alınmış səhmlərin nominal dəyərinin cəmindən formalaşır. Bank səhmləri adi və imtiyazlı, adlı və təqdimatlı ola bilər.

Nizamnamə kapitalının artırılması bankın dayanıqlıqının və sabitliyinin gücləndirilməsinə, onun maliyyə durumunun yaxşılaşdılmasına xidmət edir. Müştərilərinin siyahısını genişləndirilməsinə çalışan bank mütləq xüsusi kapitalını da artırmalıdır. Həmçinin, səhmlərinin bazarda yerləşdirilməsi zamanı emitent bank emissiya gəliri əldə edə bilər. Emissiya gəliri səhmin nominal dəyərdən yüksək qiymətlə satılmasından əmələ gəlir. "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na görə, adi, yaxud imtiyazlı səhmlərin yerləşdirilməsi zamanı onların satış dəyəri ilə nominal dəyəri arasinda yaranmiş fərq həcmində əldə edilmiş vəsait kapital artıqlığı adlanır və o, bankın I dərəcəli kapitalının tərkib hissələrindən biridir.

Açıq SC kimi yaradılmış bank öz səhmlərini həm açıq, həm də qapalı abunə yolu ilə yerləşdirə bilər. Qapalı SC olan bank isə yalnız qapalı abunədən istifadə edə bilər. Belə imkandan reytinqi yüksək olan banklar yararlana bilər.

Dünya təcrübəsindən məlumdur ki, adi və imtiyazlı səhmlərin emissiyası kapitalın kənardan cəlb edilməsinin ən geniş yayılmış üsuludur. Səhmdarların sayının artması gələcəkdə əlavə maliyyə vəsaitlərinin cəlb edilməsi üçün əlverişli şərait yaratmış olur.

Lakin, edilən xərclər baxımından səhm emissiyası, bank kapitalının artırılmasının çox bahalı, bəlkə də ən bahalı üsuludur. Çünki səhm emissiyası yüksək məsrəfli olması ilə yanaşı 1 səhmə düşən mənfəətin (*earnings per share, EPS*) azalması və səhmdarlar tərəfindən banka nəzarətin

zəifləməsi, hətta itirilməsi riskləri ilə müşaiyət olunur. Səhm emissiyasının miqyasları çox böyük olduqda və bankın səhmdarları yeni emissiyanı bütünlüklə almaq imkanında omadıqda, banka nəzarətin yeni səhmdarların əlinə keçməsi təhlükəsi yaranır.

Bununla əlaqədar, səhm emissiyasını keçirmək istəyən bankın menecmenti öz imkanlarını düzgün qiymətləndirməlidir. Məsələn, dividendlərin sabit səviyyədə saxlamaqdan ötrü zəruri olan rentabellik səviyyəsinin təmin ediləcəyinə əsaslı olaraq əmin olmalıdır. Əks halda, bankın buraxdığı səhmlərin məzənnəsi düşəcək.

Azərbaycan Respublikasının "Banklar haqqında" Qanunun ayrı-ayrı maddələrindən aydın olur ki, yerli banklar *adi səhmlərin adlı növünü* və *imtiyazlı səhmlər* buraxa bilər. Eyni zamanda, "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nda göstərilir ki, adi səhmlərlə yanaşı, bankın I dərəcəli kapitalının tərkib hissələrindən biri *qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlərdir*. Bu, emitentə səhm sahiblərinə dividendlərin verilməməsi barədə qərar qəbul etmək, habelə səhm sahiblərinə əvvəlki ödənilməmiş dividendlər üzrə ödənişlərin alınmasını tələb etmək hüququ verməyən imtiyazlı səhmlərdir.

Ölkəmizin kommersiya bankları emissiya şərtlərinə görə sahiblərinə ödənilməyən dividendləri daim toplanan və qeyri-kumulyativ müddətsiz imtiyazlı və adi səhmlər üzrə dividendlər ödənilməzdən əvvəl ödənilən, habelə emitentə dividendlərin ödənilməsi vaxtının müəyyən müddətə təxirə salınması hüququ verən *kumulyativ müddətsiz imtiyazlı səhmlər* də buraxa bilər. Onlar, bankın II dərəcəli kapitalına daxildir.

Kumulyativ və qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər bankın məcmu kapitalının tərkibindəki *hibrid elementlərin* bir hissəsini təşkil edir. Digər hissəyə bankın *subordinasiya borc öhdəlikləri* daxildir. Bu, emissiya şərtlərinə görə ödəmə vaxtı çatdıqda ödənilən, bankın aktivlərinin girovu ilə təmin edilməyən, sahibinin tələbi ilə geri alınmayan, son ödəmə müddəti başa çatana kimi bu öhdəlik üzrə ödəmə (faiz və ya əsas borc) baş tutmadığı təqdirdə bankı müflis elan etmək və ya ləğv etmək hüququ verməyən, bank ləğv edilərkən onların ödənilməsi əmanətçilərin və bankın digər kreditorlarınınn tələbləri tam ödənildikdən sonra icra olunan öhdəliklərdir.

İstiqrazlarını buraxmaqla bank əlavə borc kapitalı cəlb edir. Qeyd etmək vacibdir ki, banklar tərəfindən borc kapitalının cəlb edilməsini zəruri edən qısa və uzun müddətli səbəbləri fərqləndirirlər. Qısamüd-

dətli səbəblər kassa boşluğunun, yəni banka daxil olan pul vəsaitələrinin həcmi və zaman quruluşu bankın müştərilər üçün aparmalı olduğu hesablaşmalara uyğun gəlməməsinin yaranması ilə bağlıdır. Uzunmüddətli səbəblər isə bankın resurs bazasının tələbləri ilə bağlı olur. Məhz belə hallarda banklar özlərinin əsaslı borc öhdəliklərindən olan bank istiqrazlarını emissiya edə bilər.

Adətən onlar subordinasiyalı öhdəliklər hesab edilir, çünki bank iflasa uğrayanda onun aktivləri onun kreditorları arasında növbəlilik qaydasında bölüşdürülür. Bu növbədə istiqrazlar üzrə öhəliklər bank müştərilərindən (depozit sahiblərindən) sonra gəlsə də, bankın səhmdarlarından qabaqdır.

Müddətsiz qiymətli kağız olan səhmlərdən fərqli, bank subordinasiya borc öhdəliklərini labüd olaraq yerinə yetirməlidir, yəni istiqraz emissiyası yolu ilə səfərbər etdiyi borc vəsaitləri geri qaytarmalıdır. Lakin, istiqrazların adətən uzun müddətə, bir çox hallarda emitent bankın səhmlərinə mübadilə imkanı ilə buraxılması, əvvəlki istiqraz emissiyası üzrə öhdəliklərin yeni istiqraz emissiyası hesabına dəfələrlə ödənilməsinin mümkünlüyü bankın subordinasiya borc öhdəliklərini onun məcmu kapitalının tərkibində əlavə (II dərəcəli) kapitalın tərkib hissəsi kimi nəzərə alınmasına əsas verir.

Bank səhmləri ilə müqayisədə, istiqrazlar daha az riskli olduğundan, onların gəlirlilik səviyyəsi də səhmlərə nisbətən aşağı olur. Həmçinin, səhm emissiyası ilə müqayisədə istiqraz emissiyası bank kapitalının artırılmasının nisbətən az məsrəfli, ucuz yoludur. Amma o da vacibdir ki, konkret dövlətin qanunvericiliyi ilə banklar üçün istiqraz emissiyasından istifadə imkan və şərtləri necə müəyyən edilir. Məsələn, bir çox ölkələrdə istiqraz emissiyasına bankların nizamnamə kapitalı tam ödənildikdən sonra icazə verilir. Bu, Azərbaycan Respublikasında da belədir.

İstiqraz emissiyasının daha bir üsütünlüyü vergitutma ilə bağlıdır. Belə ki, istiqrazlar üzrə ödənilən faizlər bankın vergiyə cəlb olunan mənfəətindən çıxılaraq bankın xərclərinə aid edildiyi halda, səhmlər üzrə ödənilən dividendlərdən gəlir vergisi tutulur.

İstiqraz emissiyası yolu ilə səfərbər edilən resurslardan istifadə edən bankın əldə etdiyi gəlirin istiqraz emissiyası üzrə bankın faiz ödəmələrini üstələməsi bankın 1 səhminə olan mənfəət (*earnings per share, EPS*) göstəricisinin yüksək olmasına xidmət etmiş olur. Buna, borc kapitalından mənfəətin artırılmasından ötrü istifadə deyilir və dünya praktikasın-

da, həmçinin Azərbaycanda da leverec (*leverage), daha doğrusu maliyyə levereci adlanır. Maliyyə levereci əmsalı təsərrüfat subyektinin, məsələn bankın, borc kapitalı ilə xüsusi kapitalı arasındakı nisbəti və bu nisbətin xalis mənfəətə təsirini göstərir.*

Bir tərəfdən, borc kapitalı bankın xüsusi kapitalının yüksəlişinin, inkişafının vasitəsi kimi çıxış edir. Bununla belə, kənardan kapital cəlb edilməsinin bu yoluna həddən artıq aludə olmağın da təhlükəsi var. Belə ki, bankın xüsusi və borc vəsaitləri arasındakı nisbətin pisləşməsi bankın dayanıqlıqını təhlükə altına sala bilər ki, bu da bankın səhmlərinin məzənnəsinin səviyyəsinə mənfi təsir göstərə bilər. Maliyyə levereci əmsalının aşağı olması təsərrüfat subyektinin, məsələn bankın dayanıqlıqının daha möhkəm olmasını göstərir.

ARMB-nın "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na əsasən, leverec əmsalının (L) hesablanması aşağıdakı düsturla aparılır:

$$L = \frac{1DK - 1DKT}{(BA - İFK \times 0{,}5) + BKÖ}$$

Burada,

1DK – bankın I dərəcəli kapitalı;

1DKT – bankın I dərəcəli kapitalından tutulmalar;

BA – bankın balans aktivləri;

İFK – Azərbaycan İpoteka Fondu tərəfindən yenidən maliyyələşdirilmiş ipoteka kreditləri;

BKÖ – bankın balansdankənar öhdəlikləri.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30.08. 2010-cu il tarixli qərarı ilə təsdiqlənmiş "Emitentin istiqraz buraxılışının maksimal həcminə dair tələblər haqqında Qaydalar"ın tələblərinə cavab verməyən emitentlərin istiqraz buraxılışlarının dövlət qeydiyyatına alınmasına və ya onların istiqrazlarının və ya istiqrazlara hüquqları təsdiq edən qiymətli kağızların yerləşdirilməsinə və ya tədavülə buraxılmasına yol verilmir.

Bu qaydalara əsasən, Azərbaycan Respublikasında qeydiyyata alınmış, uzunmüddətli kredit reytinqi dərəcəsi «Standard & Poor's» və «Fitch» reytinq agentliklərinin təsnifatına görə ən azı «BBB–», «Moody's» reytinq agentliyinin təsnifatına görə «Baa3» və ya digər reytinq agentliklərinin bu reytinq dərəcələrinə ekvivalent olan korporativ emitentlər üçün təmin edilməmiş istiqrazlar buraxılışının maksimal həcm normati-

vinin əmsalı həmin emitentin xalis aktivlərinin dəyərinə nisbətdə 3 (üç), uzunmüddətli kredit reytinqi dərəcəsinə malik olmayan və ya uzunmüddətli kredit reytinqi dərəcəsi yuxarıda göstərilmiş reytinq dərəcəsindən aşağı olan emitentlər üçün isə 2 (iki) müəyyən edilir. Emitentin xalis aktivləri (kapital), bütün öhdəliklər çıxıldıqdan sonra emitentin aktivlərinin qalıq dəyəridir.

Bank vekseli maliyyə vekselinin növlərindən biridir. Onun emissiyası emitent bank üçün əlavə resurs cəlb edilməsinin bir yoludur. Banka müəyyən məbləqi yerləşdirən müştəri bunun müqabilində bankdan veksel alır. Pul bazarının alətlərindən olan bank vekseli üzərində göstərilmiş tarixdə sahibi tərəfindən ödənişə təqdim edilir, ənənəvi bank depozitindən fərqli olaraq onun alqısı üçün emitent bankda əlavə hesabın açılması tələb olunmur, gəlirliliyi isə bank depozitləri ilə müqayisə oluna bilər. Diskontlu bank vekseli variantında vekselsaxlayanın gəliri onun nominaldan aşağı olan alqı qiyməti ilə üzərindəki nominal arasındakı fərq şəklində çıxış edir.

Bank vekseli özündə ənənəvi bank depoziti və ödəniş vasitəsi kimi istifadə oluna bilən qiymətli kağız keyfiyyətlərini birləşdirir. Başqa sözlə, bank vekselindən hesablaşma aləti kimi istifadə edilə bilər. Həmçinin, zərurət olduqda girov təminatı kimi də çıxış edə bilər. Bu cür keyfiyyətlər bank vekselinin maliyyə aləti kimi yüksək likvidliyinə və onun kapitalist ölkələrində geniş yayılmasına xidmət edir.

Digər tərəfdən, bank vekselinə investisiya edilmiş vəsait adətən sığortalanmadığından, fiziki şəxs üçün bu cür investisiya ənənəvi bank depoziti ilə müqayisədə daha risklidir.

Qərb ölkələrində daha çox köçürmə vekseli olan bank trattalarından (*banker´s draft*) istifadə olunur. Çekdən fərqli olaraq, bank trattalarında vekselverənlə ödəyici eyni şəxsdir. Bir çox hallarda, əyalətdəki filial müştərinin xahişi ilə bank trattasını bankın mərkəzi ofisinin üzərinə yazır. Bununla da, müştəri başqa şəhərdə nağd pul almaq imkanı verən etibarlı maliyyə aləti əldə etmiş olur.

Bankların qiymətli kağızları arasında *çek* də var. Məlum olduğu kimi, üzərində yazılmış məbləqin təqdim edənə ödənilməsi barəsində bankdakı hesablaşma (cari) hesabı sahibi tərəfindən hesabın yerləşdiyi banka ünvanlandırılmış yazılı sərəncam *çek* adlanır. Çek, ödəniş və hesablaşma funksiyasını yerinə yetirən qiymətli kağızdır.

Azərbaycan Respublikasında çeklərin buraxılması hüququna yalnız

bank fəaliyyətinə lisenziya almış kredit təşkilatı malikdir. Azərbaycan Respublikasının ərazisində çeklərin buraxılışı və çek dövriyyəsi ilə bağlı digər məsələlər ARMB-nın "Azərbaycan Respublikasında çeklərin dövriyyəsi haqqında Əsasnamə"si ilə tənzimlənir.

Əvvəlki mövzularda deyildiyi kimi, çeklərin pullu və hesablaşma növləri mövcuddur. *Pullu çeklərdən* bankdan nağd pul almaqdan ötrü istifadə olunur. *Hesablaşma çekləri* isə nağdsız hesablaşmaların alətidir.

Eyni zamanda, vekseldə olduğu kimi, çeklərin adlı, təqdimatlı (adsız) və order növlərini də fərqləndirirlər.

Adlı çek, konkret bir şəxsin adına yazılan və digər şəxslərə indosamentlə ötürülməsi mümkün olmayan çekdir.

Təqdimatlı (adsız) çek, "təqdim edənə" şərti yazılmaqla verilən və digər şəxsə sadəcə olaraq verməklə ötürülən çekdir.

Orderli çek, öz sahibinə ödənişi almaq hüququnu indossament vasitəsilə başqa şəxsə ötürmək imkanı verir. Həmçinin, vekseldə olduğu kimi çekin də üzərində *avisto* qeydi edilə bilər.

Bank çeki, bir bankın başqa banka banklararası hesablaşmaların aparılması üçün təqdim etdiyi çekdir.

Yol seki, məntəqədə verilmiş çekdə imza nümünəsi göstərilən çek sahibinə çekdə yazılmış məbləği ödəməyi üzərinə götürən təşkilatın öhdəliyi olan və digər məntəqədə nağdlaşdırılan çekdir. Yol çeklərinin ödənilməsi sahibinin imzası əsasında çekin emitenti, onun filialı və yaxud emitentin göstərdiyi digər təşkilat tərəfindən həyata keçirilir.

Vekseldə olduğu kimi, çek üzrə protest və reqress mümkündür.

Çek üzrə *protest*, ödəyicinin ödənişə vaxtında təqdim edilmiş çekin ödənilməsindən imtina etməsi və bu imtinanın notarius tərəfindən rəsmi təsdiqlənməsidir.

Reqress isə çek sahibinin çekverənə, çekin üstünü yazana, o cümlədən, indossantlara, avalçılara qarşı çek məbləğinin ödənilməsi haqqında tələbidir.

Vekseldə olduğu kimi, çek üzrə də aval, allonj, indossament mümkündür.

Lakin çeki köçürmə vekselindən fərqləndirən aşağıdakı cəhətləri də unutmaq olmaz:

- çek təqdim edildikdə ödənildiyi halda, veksel həm təqdimatlı, həm də müddətli ola bilər;
- çek bank tərəfindən akseplәşdirilmir, veksel isə ödəyici tərəfin-

dən mütləq akseplәşdirilmәlidir;

- orderli növünün də olmasına baxmayaraq, çek ödənişə əsasən birbaşa olaraq banka təqdim edilir. Başqa sözlə, çek tədavül edən ödəniş vasitəsi kimi çox az hallarda çıxış edir. Veksel isə bir qayda olaraq birindən digərinə keçir, bu onların adi halıdır;
- çekin üzərindəki imzanın saxtalaşdırılması onun ödənilməsindən imtina hüququ verir. Veksel verənin veksel üzərindəki imzasının saxtalaşdırılması isə akseptantı vekseli ödəmək vəzifəsindən azad etmir.

Səhm, istiqraz, veksel və çekdən başqa banklar tərəfindən depozit və əmanət sertifikatları buraxıla bilər. Onların emitenti yalnız banklardır.

Depozit sertifikatları (*certificate of deposit*) və əmanət sertifikatları (*saving certificate*) müvafiq olaraq ənənəvi müddətli və əmanət bank depozitlərinin növləridir. Həm depozit, həm də əmanət sertifikatı qiymətli kağız olmaqla, sahiblərinin sertifikatın blankında göstərilmiş məbləqi faizlərlə birlikdə elə həmin blankda göstərilmiş tarixdə emitent bankdan almaq hüququnu təsdiqləyir. Sertifikatlar üzrə faiz dərəcəsi məbləq və müddətdən asılı olaraq dəyişir.

AR QKDK-nin "Kredit təşkilatlarının depozit sertifikatları haqqında Əsasnamə"yə görə depozit sertifikatı, əmanətçi tərəfindən depozitin kredit təşkilatında yerləşdirilməsini və əmanətçinin, yaxud onun hüquqi varisinin, həmin depoziti və depozit üzrə faizləri kredit təşkilatından qeydsiz-şərtsiz almaq hüququnu təsdiqləyən qiymətli kağızdır.

Həm depozit, həm də əmanət sertifikatları bütün inkişaf etmiş ölkələrdə geniş yayılıb. Buraxılma, tədavül və öhdəliyin icrası baxımından oxşarlıqları çox olan bank sertifikatlarının ən əsas fərqi odur ki, depozit sertifikatları ilk növbədə hüquqi şəxslər, əmanət sertifikatları isə fiziki şəxslər üçün nəzərdə tutulur. Onların tədavül müddətində də fərq var. Əksər hallarda depozit sertifikatların tədavülü daha qısamüddətli olur, əsasən 1 il ilə məhdudlaşır. Əmanət sertifikatlarının müddəti isə əsasən 1 ildən yuxarı olur.

AR QKDK-nin "Kredit təşkilatlarının depozit sertifikatları haqqında Əsasnamə"yə görə, depozit sertifikatlarının müddəti 10 ildən artıq ola bilməz.

Sertifikatların vaxtından əvvəl ödənişi onların emissiya şərtlərində nəzərdə tutulduğu halda, faizlər ilkin dərəcədən aşağı səviyyədə ödənilir. "Kredit təşkilatlarının depozit sertifikatları haqqında Əsasnamə"yə görə,

depozit sertifikatı vaxtından əvvəl ödənilməsi üçün təqdim edildikdə kredit təşkilatı sertifikatda belə hallar üçün müəyyən edilmiş faiz dərəcəsi ilə hesablanmış faizləri və depozitin məbləğini qeydsiz-şərtsiz ödəyir.

Müddətinin bitməsinə baxmayaraq ödənişə təqdim edilməmiş sertifikat müddətsiz (onkol) hala düşür. Belə sertifikat üzrə faizlərin hesablanması müddət bitdikdən sonra dayandırılır, sertifikatın təmsil etdiyi əmanət isə faizsiz depozitə çevrilir. Sahibi tərəfindən istənilən an ödənişə təqdim edilə bilən belə sertifikat ona hesablanmış faizlərlə birlikdə emitent bank tərəfindən dərhal ödənilməlidir.

Depozit və əmanət sertifikatlarının tədavül edən (ötürülən – *negotiable certificates*) və etməyən (ötürülməyən – *nonnegotiable certificates*) növləri buraxıla bilər. Birincilər ilk sahibi tərəfindən bazarda satılaraq başqa şəxsə keçə bilər. İkincilər isə bütün müddəti ərzində yalnız bir şəxsdə qalır. Buna görə də, depozit və əmanət sertifikatlarının adlı və təqdimatlı (adsız) növlərini fərqləndirirlər.

Adsız sertifikatlar üzrə hüquqların başqa şəxsə ötürülməsi sertifikatın həmin şəxsə verilməsi ilə həyata keçirilir.

Adlı sertifikatların tədavülü isə tsesiya (tələb hüququnun ötürülməsi) qaydasında həyata keçirilir. *Tsessiya*, malik olduğu hüquqların sertifikat sahibi, yəni kreditor (*tsedent*) tərəfindən başqa şəxsə (*tsessionari*) təslim edilməsidir. Tsesiya sertifikatın arxa tərəfində və ya sertifikatın ayrılmaz hissəsi olan və nömrələnmiş əlavə səhifələrdə, tələb hüququnu ötürən şəxs (tsedent) və tələb hüququnu əldə edən şəxs (tsesionari) arasında ikitərəfli razılıq şəklində rəsmiləşdirilir. Sertifikatın əvvəlki sahibi (tsedent) sertifikatın emitenti tərəfindən öhdəliklərinin yerinə yetirilməsinə görə yeni sahibi (tsessionari) qarşısında məsuliyyət daşımır. Kredit təşkilatı sertifikat üzrə tsesiyaların qeydiyyatını aparır.

AR QKDK-nin "Adlı sənədli qiymətli kağızlar üzrə hüquqların ötürülməsi zamanı qiymətli kağızın sertifikatının yeni sahibin adına rəsmiləşdirilməsi Qaydaları"na əsasən, tsessiya qaydası ilə özgəninkiləşdirilən qiymətli kağızın (kağızların) sertifikatının yeni sahibin adına rəsmiləşdirilməsi həmin sertifikatın arxa tərəfində və ya ona əlavə olunmuş səhifələrdə tərəflərin müvafiq qeydlərinin edilməsi ilə həyata keçirilir. Hər bir tsessiya tsedent tərəfindən ardıcıl olaraq nömrələnməli və qiymətli kağızların sahiblərinin reyestrində əks olunmalıdır.

Sertifikatların emissiyası yolu ilə səfərbər edilən vəsaitlər bankın yüksək likvidli və çevik idarə edilən passivlərini təşkil edir. Belə ki, emi-

tent bank buraxdığı sertifikatların məbləqi, müddəti və faiz dərəcələrini istədiyi kimi dəyişə bilər. Hər iki sertifikatın tədavül edən variantlarına üstünlük verilsə də, bir qayda olaraq onların bu növlərindən hesablaşma və ödəniş vasitəsi kimi istifadə olunmur.

Bankların səhm və istiqrazları kapital bazarının, veksel, çek, depozit və əmanət sertifikatları isə pul bazarının alətləridir. Veksel, çek, depozit və əmanət sertifikatalarının emissiyası bankların ən vacib təyinatlarından olan, pul vəsaitlərinin səfərbər edilməsi və ödəniş vasitələrinin yaradılması vəzifəsinin yerinə yetirilməsi ilə bilavasitə bağlıdır.

11.5. Dövlətin qiymətli kağızları ilə bank əməliyyatları

Qiymətli kağız emitentlərindən biri də dövlətdir, daha doğrusu mərkəzi hökumətdir. Dövlət qiymətli kağızları (DQK) maliyyə alətlərinin xüsusi qrupunu təşkil edir. Onlarının hamısı dövlətin adından buraxılmış və onun tərəfindən zəmanətləndirilmiş borc öhdəliyidir.

DQK-rı bazar və qeyri-bazar növlərini də ayrılır. Sərbəst tədavül edə bilməyən qeyri-bazar DQK-rı əsasən əhali üçün nəzərədə tutulur. Onlardan fərqli olaraq, DQK-rın bazar növlərinə xəzinə veksellərini, ortamüddətli istiqrazlar (notlar) və uzunmüddətli dövlət borc öhdəliklərini aid edirlər.

Daxili dövlət borcunun formalaşmasının əsas mənbəyi olan DQK-rın sosial-iqtisadi inkişafda oynadığı rol onların yerinə yetirdiyi fiskal və iqtisadi funksiyalarla müəyyənləşir.

DQK-rın fiskal funksiyası cəmiyyətdəki müvəqqəti sərbəst maliyyə vəsaitlərinin bir hissəsinin səfərbər edilərək dövlətin sərəncamına verilməsindən ibarətdir. Dövlət isə bu maliyyə resusrlarını cəmiyyət qarışısındakı vəzifələrinin səmərəli yerinə yetirilməsinə yönəldir. Deməli, DQK-rın fiskal funksiyası onların iqtisadi funksiyasını şərtləndirir. Başqa sözlə, fiskal funksiya iqtisadi funksiyaya transformasiya olunur.

Onu da qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə fond bazarındakı durumu əhəmiyyətli dərəcədə DQK seqmentindən irəli gələrək müəyyən edirlər. Bu baxımdan, fond bazarının DQK seqmentində baş verənlərə ölkə həyatındakı dəyişkliklərin aynası kimi baxılır.

Dövlət tərəfindən qiymətli kağızların buraxılışı bir sıra məsələlərin

həllinə xidmət edə bilər:

- dövlət büdcəsi kəsirinin örtülməsi;
- vergilərin daxil olması ilə xərclərin edilməsi arasındakı uyğunsuzluq nəticəsində büdcədə qısa müddətə yaranan kassa boşluğunun örtülməsi;
- irimiqyaslı layihələrin həyata keçirilməsi üçün resursların cəlb edilməsi;
- hökumətin məqsədli xərclərinin təmin edilməsi üçün əlavə resursların cəlb edilməsi;
- əvvəl buraxılmış dövlət borc öhdəliklərinin ödənilməsi;
- yerli kommersiya bankları üçün likvidli aktivlər mənbəyinin yaradılması.

Geniş mənada isə, DQK-nın vasitəsilə maliyyə bazarının seqmentləri arasında kapital axınlarına dəstək olur, digər qiymətli kağızların gəlirlilik səviyyəsinin formalaşmasına təsir göstərir, pul kütləsi və inflyasiyanın tənzimlənməsini həyata keçirir.

DQK-rın digər qiymətli kağızlarla müqayisədə mühüm üstünlükləri var. Belə ki, DQK-rın investisiyalar üçün ən yüksək nisbi etibarlıq səviyyəsi, müvafiq olaraq investisiyanın və ona olan gəlirin itirilməsi riskinin minimal olması nəzəri cəlb edir. DQK-rın bu keyfiyyətlərini onlarla keçirilən əməliyyatlardan əldə olunan gəlirlərə güzəştli vergiqoymanın tətbiqi və hətta verginin tamamilə tutulmaması daha da gücləndirir. Digər qiymətli kağız növləri ilə müqayisədə DQK-rın həm gəlir/gəlirlilik, həm də risk dərəcəsi ən aşağı səviyyədə olduğundan, onlara əsasən mühafizəkar investorlar meyl edirlər.

Azərbaycan Respublikasının qanunvericiliyinə görə, ölkə ərazisində DQK-nın emitenti kimi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Respublikasının qanunvericilik aktlarının tələblərinə müvafiq digər orqanlar çıxış edə bilərlər.

DQK-nın növü, emissiyanın həcmi, yerləşdirmə və dövriyyə şərtlərini, gəlirin müəyyən edilməsi və ödənişin həyata keçirilməsi üsulları, tədavül və ödəmə müddətləri, vasitəçisi və sair xüsusi şərtləri mövcud qanunvericilik aktlarına müvafiq QKDK və ya emitent tərəfindən QKDK ilə razılaşdırmaq şərti ilə müəyyən edilir.

Qısamüddətli dövlət borc öhdəliklərinin ən yayılmış növü 3, 6 və 12 ay müddətinə buraxılan və pul bazarının alətlərindən olan *xəzinə veksel-*

ləridir (*treasury bill*). Inkişaf etmiş ölkələrdə xəzinə veksellər qüsamüddətli inıvestisiyaların ən geniş yayılmış obyektidir. Emitent tərəfindən öhdəliyin yerinə yetirilməməsi (defolt) riski cüzi olan xəzinə veksellər qısammüdətli olduqlarından məzənnə riskinə də az məruz qalırlar.

İnkişaf etmiş ölkələrdə xəzinə veksellərinin buraxılışı və ödənilməsi müntəzəm olaraq maliyyə nazirliyinin (xəzinədarlıq) tərəfindən keçirilir. Onların emitenti maliyyə nazirliyi (xəzinədarlıq) olduğu halda, emissiyanın texniki tərəfini mərkəzi bank həyata keçirə bilər.

QKDK-nin "Azərbaycan Respublikasinda xəzinə veksellərinin buraxilmasi və dövriyyəsi Qaydaları"na görə xəzinə vekseli, dövlət büdcəsindən verilməli olan vəsaitlərin möhlətlə ödənilməsi və ya qısa müddətə hüquqi şəxslərdən sərbəst pul vəsaitlərinin cəlb edilməsi məqsədi ilə buraxılmış, ödəmə müddəti 180 gündən artıq ola bilməyən, yalnız onun buraxıldığı büdcə ili ərzində ödənilməli olan, təkrar bazarda müvafiq qanunvericiliyə riayət etməklə satılıbalına bilən sadə vekseldir.

Bir qayda olaraq, xəzinə veksellər hüquqi şəxslər, o cümlədən kommersiya bankları arasında nominaldan diskontla yerləşdirilir, nominal dəyərlə isə geri alınır. Müddət bitdikdən sonra xəzinə veksellər üzrə borc öhdəliyi dövlət (maliyyə nazirliyi / xəzinədarlıq) tərəfindən ödənilir və bu zaman da işin texniki tərəfini mərkəzi bank həyata keçirə bilər.

Xəzinə vekseli hüquqi şəxslər, o cümlədən kommersiya bankları tərəfindən büdcəyə olan vergi və ya digər borcları əvəzinə xəzinədarlığa təqdim edilə bilər, ödəmə vaxtı çatmazdan əvvəl xəzinədarlıqa ödəniş üçün təqdim oluna bilməz və müvafiq qaydada uçot təşkilatında uçot edilə bilər.

Ortamüddətli (1-10 il) dövlət borc öhdəlikləri müxtəlif ölkələrdə fərqli adlandırılır. Məsələn, ABŞ-da *xəzinə notları* (*treasury notes*), Yaponiyada ortamüddətli istiqrazlar, Almaniyada ortamüddətli xəzinə öhdəlikləri adlanır. Bütün hallarda onların da emitenti maliyyə nazirliyidir (xəzinədarlıq).

Daha çox ABŞ-da tətbiq olunan xəzinə notlarının 10 illik növü bu ölkənin dövlət istiqrazları bazarının dinamikasının dəyərləndirilməsindən ötrü ən çox müraciət edilən maliyyə alətidir, çünki makroiqtisadi gözləmələr baxımından bazar durumunu daha dəqiq əks edir. Xəzinə istiqrazları kimi, xəzinə notları qısamüddətli DQK-rın ödənilməsi və büdcə kəsirinin maliyyələşdirilməsindən ötrü buraxılır. Hər ikisi ixtisaslaşdırılmış elektron ticarət sistemləri vasitəsilə keçirilən hərraclardan satılır.

Hər ikisi xəzinə vekselləri ilə müqayisədə yüksək riskli və aşağı likvidli olduğundan gəlir səviyyəsi də nisbətən yüksəkdir.

2004-cü ildən etibarən ARMB tərəfindən qısamüddətli notlar buraxılır. Qısamüddətli notlar, ARMB tərəfindən bir ilədək müddətinə buraxılan adlı sənədsiz dövlət güzəştli qiymətli kağızlarıdır. Notlar dövriyyədə olan pul kütləsinin tənzimlənməsi üçün pul-kredit siyasəti vasitəsidir. Qısamüddətli notların sahibləri yalnız ARMB-n lisenziyası əsasında fəaliyyət göstərən banklar ola bilər.

Təkrar bazarda qısamüddətli notlarla alqı-satqı, qirov, REPO və digər əqdlərin bağlanmasına yol verilir. Qısamüddətli notların təkrar bazarda tədavülü fond birjası vasitəsilə və ya bilavasitə banklar arasında bağlanılmış əqdlər əsasında həyata keçirilir.

Uzun müddətə (10 ildən yuxarı) buraxılan dövlət borc öhdəlikləri *xəzinə istiqrazları* (*treasury bonds*) adlanır. Sərbəst tədavül üçün nəzərədə tutulan xəzinə istiqrazları adlı və təqdimatlı variantlarda buraxıla bilər və əsasən əhali arasında nominal dəyərlə yerləşdirilir. Bütün müddət ərzində faiz gəliri kuponlar üzrə ödənilir.

Qeyd etmək lazımdır ki, ədəbiyyatda dövlət istiqrazları (*government bonds*) və suveren istiqrazlar (*sovereign bonds*) anlayışlarından da istifadə olunur. Hər ikisi büdcə kəsirinin örtülməsi məqsədilə mərkəzi hökumətin yaxud yerli hakimiyyət orqanı adından buraxılmış və mütləq hökumət zəmanətinə malik qiymətli kağızları bildirir. Xəzinə istiqrazları isə sırf xəzinədarlıqın buraxdığı qiymətli kağızdır.

QKDK-nin "Dövlət istiqrazlarının emissiyası və tədavülü Qaydaları"-na əsasən dövlət istiqrazı, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən buraxılan adlı, sənədsiz istiqrazdır və onun növləri aşağıdakılardı:

- qısamüddətli istiqraz – tədavül müddəti 1 ilədək;
- ortamüddətli istiqraz – tədavül müddəti 1 ildən 5 ilədək;
- uzunmüddətli istiqraz – tədavül müddəti 5 ildən artıq.

İstiqrazların kütləvi təklif üsulu ilə yerləşdirilməsi, onların fond birjası vasitəsi ilə hərraca çıxarılması yolu ilə həyata keçirilir. İstiqrazların qapalı yerləşdirməsi emitent tərəfindən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan broker vasitəsi ilə həyata keçirilir. Kütləvi təklif üsulu ilə yerləşdirilən istiqrazlar Azərbaycan Respublikasının rezidentləri və qeyri-rezidentləri tərəfindən məhdudiyyətsiz əldə olunur.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən dövlət

daxili uduşlu istiqrazları da buraxılır. Bu, onlar üzrə keçirilən uduş tirajlarının nəticələrindən asılı olaraq uduş şəklində gəlir əldə etmək və müəyyən edilmiş müddət ərzində istiqrazın nominal dəyərini almaq hüququnu təsbit edən qiymətli kağızdır.

2009-cu ildən etibarən ARMB nəzdindəki İpoteka Fondu maliyyə vəsaitlərinin cəlb olunması məqsədilə ipoteka ilə təmin olunmuş istiqrazlar emissiya edir. Cəlb edilən vəsaitlər ipoteka portfelinin genişləndirilməsinə yönəldilir. 2014-cü ilin dekabrında AİF faizli, sənədsiz, adlı, təmin edilmiş istiqrazlarının 9-cu emissiyasını QKDK-də qeydiyyatdan keçirmişdir.

Kommersiya banklarının DQK ilə əməliyyatları bankların pul və kapital bazarlarındakı fəaliyyət istiqamətləri ilə bağlıdır. Yuxarıda deyildiyi kimi, QKB-lə banklar emitent, investor, peşəkar iştirakçı və əməliyyat xidmətləndiricisi kimi çıxış edə bilər.

DQK-rın emissiyasını maliyyə nazirliyi (xəzinədarlıq), mərkəzi bank və qanunvericiliklə müəyyən edilmiş digər qurumlar keçirsələr də, bir çox inkişaf etmiş ölkələrdə DQK-rın ilkin yerləşdirilməsinə vasitəçilər qismində investisiya bankları ilə yanaşı kommersiya bankları da cəlb olunur. Lakin, elə ölkələr də var ki, bankların bu cür vasitəçiliyinə qadağalar qoyulur.

Banklar yeni dövlət borclarının bazarda ilkin yerləşdirilməsində iştirakla yanaşı investor kimi də çıxış edə bilər, yəni mərkəzi hökumətin borc öhdəliklərinin bir hissəsini ala bilər.

Seqmentləşmiş bank strukturunu tətbiq edən ölkələrdə kommersiya banklarına real sektorun şirkətlərinin səhm və istiqrazlarına investisiya etməyə sərt məhdudiyyətlər və hətta qadağalar qoyulur. Odur ki, belə ölkələrdə kommersiya banklarının investisiya portfelinin əksər hissəsini DKQ-rı təşkil edir.

Cədvəl 2

Azərbaycan Respublikasının dövlət qiymətli kağızlarının bəzi göstəriciləri

Adı	**Emitent**	**Növü**	**Nominal**	**Tədavül müddəti**	**Yerləş-dirilməsi və tədavülü**	**Depozitar uçotu**	**Klirinq və hesab-laşmaların keçirilməsi**
DQİ	AR Maliyyə Nazirliyi	Diskontlu sənədsiz adlı Istiqraz	00 AZN	35 gün, 91 gün, 182 gün, 364 gün	Bakı Fond Birjası	Milli Depozit Mərkəzi	Milli Depozit Mərkəzi
DOİ	AR Maliyyə Nazirliyi	Faizli sənədsiz adlı Istiqraz	100 AZN	728 gün, 1092 gün	Bakı Fond Birjası	Milli Depozit Mərkəzi	Milli Depozit Mərkəzi
GDİ	AR Maliyyə Nazirliyi	Faizli sənədsiz adlı Istiqraz	100 AZN	364 gün	Bakı Fond Birjası	Milli Depozi Mərkəzi	Milli Depozi Mərkəzi
MBN	AR Mərkəzi Bankı	Diskontlu istiqraz	100 AZN	28 gün	Bakı Fond Birjası	Milli Depozit Mərkəzi	Milli Depozit Mərkəzi
ASİ	AR İpoteka Fondu[41]	Faizli, təmin edilmiş	1000 AZN	3600 gün	Bakı Fond Birjası	Milli Depozi Mərkəzi	Milli Depozi Mərkəzi

Mənbə: www. bfb. az
DQİ – Dövlət Qısamüddətli İstiqrazları.
DOİ – Dövlət Ortamüddətli İstiqrazları.
GDİ – Geriyə çağrılmaq hüququna malik olan birillik Dövlət İstiqrazları.
MBN – Mərkəzi Bankın notları;
ASİ – adlı sənədsiz istiqrazlar.

Məsələn, xəzinə veksellləri emisiyyasının bir hissəsi bazar üçün nəzərdə tutulduqda, onlar hərraclar vasitəsilə yerləşdirilir. Emissiyanın bir hissəsinin alıcısı kimi Mərkəzi bank da çıxış edə bilər. Mərkəzi banklar özlərinin açıq bazar əməliyyatlatında xəzinə veksellərindən kredit sistemində faiz dərəcələrinin və likvidliyin tənzimlənməsinin vacib aləti kimi istifadə edir. Kommersiya bankları üçün isə xəzinə veksellləri likvidliyin təmin olunması məqsədilə qisamüddətli investisiyalar obyekti kimi maraqlıdır. Buna görə də, kommersiya bankları xəzinə veksellərinin alqı-satqısı yolu ilə həm öz portfellərini təkmilləşdirir, həm də lazım olduqda əlavə nağd pul vəsaitləri əldə etmiş olur. Kommersiya banklarının bu cür fəallığı xəzinə veksellərinin çevik ikinci bazarını təmin edir.

Fond bazarında institutsional investor kimi çıxış edən banklar isə xəzinə veksellərindən törəmə alətlər (derivativlər) üzrə marjinal tələblərin təmin edilməsindən ötrü istifadə edir. Lakin, inkişaf etmiş QKB-a malik ölkələrdə mərkəzi hökumətin qiymətli kağızlarının orta və uzunmüddətli növlərinin təkrar tədavülü fond bazarının birjadankənar seqmentində baş verir. Məsələn, ABŞ-da DQK-rı ilə əməliyyatlar üzrə müvəkkil dilerlər arasında ölkənin ən iri bankları da var. ABŞ-ın mərkəzi bankı olan Federal Ehtiyat Sistemi özünün monetar siyasəti daxilində açıq bazar əməliyyatlarını məhz onlarla keçirir.

XII FƏSİL.

BANK MENECMENTİ VƏ MARKETİNQ

– Prof. **R.M.Rzayev** (12.1.)
– mütəxəssis **E.Z.Zeynalov** (12.2.)

12.1. Bank menecmenti
12.2. Bank marketinqi

12.1. Bank menecmenti

Bazar iqtisadiyyatı şəraitində istənilən fəaliyyət sahəsinin, o cümlədən bank sahəsinin müəssisəsi, şirkəti, korporasiyası idarəetmə tələb edir. İdarəetmə və ya menecment bazar konyunkturasının dəyişmə uçotunu, rəqabət qabiliyyətinin təmin edilməsini, effektiv, səmərəli, sosial yönlü fəaliyyətə meyli nəzərdə tutur. "Bank menecmenti" termininin izahları müxtəlifdir. Bu termin daha çox bazar iqtisadiyyatı şəraitində bank idarəetməsi kimi başa düşülür. Bank menecmentinin elmi tərifi konkret fəaliyyət sahəsinin - bank fəaliyyətinin idarəetməsində nəzəri və metodik əsasları nəzərdə tutur.

Sual meydana çıxır. Nə üçün tarixi inkişafın müəyyən mərhələsində menecmentə, o cümlədən bank menecmentinə kəskin tələbat yarandı?

Bank menecmentinin yaranması 1929-1933-cü illərin böhranı ilə bağlıdır. Bu dövrdə bir çox kommersiya bankları ya müflisləşdi, ya da ciddi fəlakətə məruz qalıb, zərərə düşdü. Bank menecmenti qərb ölkələrindəki bütün menecment kimi İkinci dünya müharibəsindən sonra, mikro və makro səviyyələrdə iqtisadiyyatın tənzimləmə sistemi güclənən zaman intensiv şəkildə inkişaf etməyə başladı.

Dövrü dəyişmələr və böhranlar kapitalist ölkələrini iqtisadiyyatın tənzimləmə yollarını axtarmağa vadar etdi. Bu yollardan biri də mikro səviyyədə menecmentdir. Qeyd etmək lazımdır ki. SSRİ-də planlaşdırma təcrübəsi bu məsələdə böyük rol oynadı. Sonralar qərb ölkələrində menecmentin nəzəri bazası yarandı. Onun əsası isə firmadaxili planlaşdırma olur. Nobel mükafatı laureatı. amerikalı iqtisadçı Q. Markovisin effektiv portfel nəzəriyyəsi daha çox tanınır. Onun konsepsiyasına əsasən, şirkətin ümumi riski portfeldə (kredit və valyuta portfelləri, qiymətli kağızlar portfeli) riskli aktivlərin birləşməsi hesabına əhəmiyyətli şəkildə azaldıla bilər. Bununla belə iki nəticə xüsusi əhəmiyyət kəsb edir:.

Riskin minimallaşdırılması məqsədilə səhmdarlar riskli aktivləri portfeldə birləşdirməlidirlər: Aktivlərin hər bir ayrıca növü üzrə risk səviyyəsini (bazar riski) bütövlükdə risk portfeli ilə sıx əlaqədə ölçmək lazımdır. Markovisin nəzəriyyəsinin əsasında effektiv portfel anlayışı durur. Porfelin effektivliyinin əsas meyarı gözlənilən gəlirliliyin və ya mənfəətliliyin təmin edilməsidir (istənilən riskdə rentabelliliyin təmin edilməsi və istənilən gözlənilən gəlirlilikdə riskin minimallaşdırılması).

Qeyd etmək lazımdır ki. bank menecmenti sistemində effektiv port-

fel nəzəriyyəsi xüsusi yer tutur. çünki bu halda söhbət cəlb edilmiş vəsaitlərdən gedir. Məhz buna görə də bankın kredit-borc, investisiya, valyuta, lizinq və digər effektiv portfellərinin formalaşması bank menecmentinin çox mühüm elmi-praktiki vəzifəsidir. Markovisin portfel nəzəriyyəsi qərb iqtisadçıları, xüsusilə C.Mites, Y.Moyssin, U.Şarf tərəfindən hazırlanmış maliyyə aktivlərinin gəlirliliyinin qiymətləndirmə modelləri ilə tamamlanmışdır.

Menecmentin nəzəri əsası həm də 1950-ci illərin axırlarında F. Modilyani və M. Miller tərəfindən hazırlanmış kapital quruluşu nəzəriyyəsi oldu. Bu konsepsiyaya əsasən, şirkət özünün müstəqil optimal kapital quruluşuna, yəni xüsusi (özünümaliyyələşdirmə) və borc vəsaitlərinin optimal nisbətinə malik olmalıdır.

Bu nisbət iqtisadi konyuktura dəyişmələrinin təsiri altında dəyişə bilər. Bu nəzəriyyə şirkətə kapitalın optimal quruluşunu əvvəlcə qiymətləndirmək, sonra isə təyin etmək imkanı verir. Kapitalın optimal quruluşunun əsas göstəricisi, bir qayda olaraq, şirkətin səhmlərinin kursu ilə (bazar qiyməti) ifadə olunmuş qiymətinin yüksəlməsidir. Kapital dedikdə bank resurslarının (xüsusi və cəlb edilmiş) məcmusu başa düşülürsə. bu konsepsiya banklar üçün də tamamilə qəbul ediləndir.

Menecmentin nəzəri əsaslarına həmçinin müvəkkil münasibətləri nəzəriyyəsini aid etmək lazımdır. Bu münasibətlər bir tərəfdən səhmdarlarla menecerlər arasında, digər tərədən səhmdarlarla kreditorlar arasında qarşılıqlı münasibətləri açır. Konsepsiyanın əsas ideyası ondan ibarətdir ki, bütün qarşılıqlı münasibətlər potensial münaqişənin mənbəyidir. Belə ki, səhmdarların əsas məqsədi səhmlərin qiymətinin (bazar qiyməti və dividentlərin artımı daxil olmaqla) yüksəlməsi hesabına şirkətin qiymətinin maksimallaşdırılmasıdır. Bununla belə menecerlərin əsas məqsədi şirkətin ölçülərinin, hakimiyyət səlahiyyətlərinin, xüsusi statusunun və gəlirlərinin (mükafatlar) artmasıdır.

Bu cür münaqişənin həll edilməsi üçün səhmdar ya menecerlərin səlahiyyətlərinin məhdudlaşdırılması üçün alətlər toplusuna malik olmalı, ya da effektivliyin yüksəldilməsi məqsədilə onların fəaliyyətini maddi baxımdan stimullaşdırmaq imkanına malik olmalıdır. Səhmdarlarla kreditorlar arasında da ziddiyyətlər mövcuddur. Səhmdarlar idarəedənlər vasitəsilə riskli əməliyyatlar həcminin artması hesabına şirkətin qiymətinin yüksəlməsinə nail olur və eyni zamanda kreditorların maraqlarını məhdudlaşdırırlar. Bu halda menecerlər həm səhmdarların, həm də kre-

ditorların agentləri olmalıdırlar ki, maraqlar balansını formalaşdırsınlar və şirkətin fəaliyyət prosesində yaranan ziddiyyətləri aradan qaldırsınlar. Nəzərdən keçirilən idarəetmə nəzəriyyəsi ümumi menecmentin ayrıca bir sahəsi kimi bank menecmentinin formalaşması üçün əsasdır.

Müasir idarəetmə nəzəriyyəsinin tərkib hissəsi olan bank menecmenti iqtisadiyyatda bankların mahiyyətini və rolunu, bank idarəetməsində məqsəd və vəzifələri, bank menecmenti obyektlərinin, üsullarının və alətlərinin spesifikliyini nəzərdən keçirir. Elm inkişaf etdikcə bank fəaliyyətinin yeni aspektləri yarandıqca bank menecmenti tədriclə inkişaf edir və təkmilləşir. Bundan başqa onun nəzəri əsası qismində psixologiya, işgüzar etika. sosiologiya, riyazi və statistik modellər bank fəaliyyətinin ayn-ayn idarəetmə sferalarına tətbiq olunaraq istifadə edilir. Bank menecmentinin hər bir bloku müəyyən istiqamətə malikdir. Bu, xüsusi kredit-maliyyə institutu kimi bank fəaliyyətinin spesifikliyi ilə şərtləşir.

Bank menecmentinin məqsədləri, bir qayda olaraq. bank fəaliyyətinin iqtisadi və sosial məqsədləri ilə müəyyən olunur. İstənilən bankın mühüm iqtisadi məqsədi gəlirin əldə edilməsidir və bu məqsəd kommersiya müəssisəsi kimi bankın təbiətilə obyektiv şərtlənir. Bankın mülkiyyətçiləri (səhmdarlar, payçılar) nizamnamə kapitalının formalaşdırır, əmanətçilərin pul vəsaitlərini mənfəətli şəklidə yerləşdirilməsini, dividend şəklində gəlir əldə etməyi nəzərdə tutur. Bu halda əmanətçilər də mənfəət götürməkdə maraqlıdırlar, çünki bankın rentabelliyi onun etibarlı və dayanıqlı olmasından xəbər verir. Bankın işçi heyəti də-idarəetmənin yüksək pilləsində menecerlərdən xırda qulluqçulara qədər-bankın mənfəətliliyində maraqlıdır.

Eyni zamanda bank mənfəətinin maksimallaşdırılması qısa müddətli xarakter daşıyıb, aşağıdakı prinsiplə ifadə oluna bilər: çox qazanmaq və xərcləri maksimal şəklidə azaltmaq. Bu yanaşma strateji məqsəd kimi uzunmüddətli perspektivə istiqamətlənməmişdir, çünki maksimal cari gəlirin mövcudluğunda texniki xidmətin yaxşılaşmasına, ehtiyatların artmasına, aşağı rentabelli, gələcəkdə perspektivli müəssisələrlə işgüzar əlaqələrin inkişafına xərc çəkmək tələb olunmur. Beləliklə, bank menecmentinin iqtisadi məqsədi maksimal cari gəlirin əldə edilməsində deyil, bank qiymətinin maksimallaşdırılmasındadır. Bu isə uzunmüddətli planda gəlirin əldə edilməsi, bank əməliyyatlarının potensial artımı, onun səhm qiymətlərinin artımı, stabil dividendlər, həmçinin kreditorlar üçün münasib risk səviyyəsinin təmin edilməsi deməkdir.

Bundan başqa, bank hüquqi və fiziki şəxslərin sərbəst pul vəsaitlərini toplayaraq cəlb edilmiş vəsaitlərin və əmanətlərin saxlanmasını təmin edir. Bu məqsədin reallaşdırılması cari likvtdliyin idarəetməsini, bank aktivlərinin və passivlərinin müddət, məbləğ və struktur etibarilə balanslaşdırılmasının təmin edilməsini, uyğun ehtiyatlara malik olmasını, kredit və depozit portfellərinin yüksək keyfiyyətini nəzərdə tutur.

Sosial məqsəd bank müştərilərinə göstərilən xidmətlərə (keyfiyyət və toplum etibarilə), sifarişlərin yerinə yetirilmə sürətinə, mədəni xidmətə olan tələbatların ödənilməsini nəzərdə tutur. Bu halda bankın idarəetmə sistemi bank məhsulları və xidmətlərinin, onların qiymətlərinin marketinq tədqiqatlarını daxil etməlidir. Sosial məqsədlərin reallaşdırılması müasir informasiya texnologiyalar və tədris proqramları olmadan mümkün deyil. Belə tədris proqramları bank heyətinin müştərilərlə ünsiyyətində xüsusi vərdişləri inkişaf etdirir. İqtisadiyyatın müxtəlif sferalarına, xüsusilə sənayeyə və regionlara resursların yatırılması yolu ilə iqtisadiyyatın inkişafına bankın köməyi də bank menecmentinin sosial məqsədlərinə aiddir. Banklar ictimai institut kimi öz fəaliyyətini ölkənin ümumi iqtisadi inkişafı ilə əlaqələndirməli və özünün gələcək əməliyyatlarının miqyaslarının genişləndirməlidir. Hərçənd sosial məqsədlərin bu aspekti banklar tərəfindən həmişə reallaşdırılmır, çünki onların fəaliyyətinə müəyyən ziddiyyətlər xasdır: bir tərəfdən qazanc dalınca qaçmaq, digər tərəfdən istehsal sektoruna investisiya qoymaqdan boyun qaçırmaq. Məsələ ondadır ki, qazancı spekulyativ əməliyyatlarda və ya investisiya qoyuluşundan daha əlverişli əməliyyatlarda da (məsələn, valyuta əməliyyatlarında) əldə etmək olar. Nümunə kimi, 1990-cı illərdə ölkəmizdə kommersiya banklarının fəaliyyətini göstərə bilərik. Bu banklar istehsal sahəsinə və yerli iqtisadiyyatın inkişafına qoyulan yatırımlara etinasız yanaşırdılar. Daha bir misal: yapon banklarının qulluqçuları üçün etika kodeksinin mövcudluğuna baxmayaraq. onun maddələrinə həmişə riayət olunmur və bank qulluqçuları rəhbərliyin təzyiqi altında bankların məhdud və eqoistik məqsədlərini reallaşdırırlar.

Ümumilikdə, sosial məqsədlərə etinasızlıq iri qərb bankları da daxil olmaqla müxtəlif ölkələrdəki kommersiya banklarının çoxu üçün xarakterikdir.

İqtisadi və sosial məqsədlər bank menecmentinin vəzifələrini müəyyən edir. Bank menecmentinin əsas vəzifələri aşağıdakılardır:

- **Mümkün risk səviyyəsində gəlirliliyin təmin edilməsi** mənfəət, gəlir və xərclərin, səhm qiymətlərinin, bankın passiv və ak-

tiv əməliyyatlarının struktur və obyektinin effektiv idarəetmə sisteminin təşkilini nəzərdə tutur;

- **Gəlir həcminin optimallaşdırılmasında likvidliyin saxlanması**, pul axınlarının idarəetməsi, passivlərin keyfiyyət strukturunun inkişafı və yaxşılaşması, yüksək likvidlik aktivlərin vəziyyətinə nəzarət, bankın likvidlik mövqeyinin proqnozlaşdırılması;
- risklərin idarəedilməsi həm yerli, həm də dünya iqtisadiyyatının ümumi inkişaf parametrlərinin proqnozunun təşkilini, müxtəlif bank risklərinin qiymətləndirmə parametrlərinin hazırlanmasını, yaxın gələcəkdə likvidlik proqnozunu nəzərdə tutur.

Heyətin təhsili, maddi cəhətdən stimmullaşdırılması və daxili nəzarətlə birlikdə, bank heyətinin effektiv fəaliyyətinin təmin edilməsi.

İdarəetmə nöqteyi-nəzərindən bank menecmentinin tərkibi planlaşdırmadan, analizdən, tənzimləmədən və nəzarətdən ibarətdir. Planlaşdırma bank rəhbərliyinə inkişaf parametrlərini, fəaliyyətinin məqsədlərini, miqyaslarını və potensial nəticələrini mümkün mənbələrin və xərclərin nəzərə alınması şərti ilə təyin etmək imkanı verir.

Planlaşdırma prosesi, bir qayda olaraq, perspektiv (uzunmüddətli) və cari (qisamüddətli) proqnoz planların hazırlanmasından ibarətdir. Bu plan proqnozlar aşağıdakıları təyin etmək imkanı verir:

- Bank inkişafının məqsədi,
- vəzifələri,
- strategiyası və taktikası,
- həmçinin onların reallaşdırma tədbirləri.

Bankın və onun heyətinin öz fəaliyyətini həyata keçirməli olan şərtlər və sərhədlər: Bank bazarında rəqabətin nəzərə alınması şərtilə bank fəaliyyətinin yeni sferaları: Fəaliyyətin son nəticələri. Bundan başqa planlaşdırma müxtəlif toplu göstəricilər vasitəsilə bank fəaliyyətinin bütün tərəflərini koordinasiya etmək imkanı verir.

Planlaşdırma prosesi strateji məqsəd və vəzifələrin hazırlanması, ölkədə və bank bazarında ümumiqtisadi vəziyyətin analizi, bank strategiyasının yaradılması ilə bağlı olub, ehtiyatların bölüşdürülmə mexanizminin mövcudluğunu və planların yerinə yetirilməsinə nəzarəti nəzərdə tutur. Bank fəaliyyətinin planlaşdırılmasında və nəzarətində əsas alətlərdən biri bankın ali orqanı (idarə heyəti) tərəfindən təsdiq olunan xüsusi sənədlərdir. Xüsusi sənədlər bankın strategiyasını və siyasətini müəyyənləşdirir, təşkilati strukturun təsvirini verir, bank rəhbərliyinin

və onun personalının öhdəlik və məsuliyyətini bölüşdürür, qərarların qəbul edilmə prosedurunu, risk limitlərinin təyin edilmə üsulunu, sənəd dövriyyəsi və qərarların yerinə yetirilmə mexanizmini göstərir, istifadə olunan alətlərlə onların tətbiqi üzrə təlimatların təsvirini, həmçinin uçot və hesabat prosedurlarının təsvirini verir.

Bank menecmentində tətbiq olunan analiz, bir qayda otaraq, faktiki əldə olunmuş nəticələrlə proqnoz nəticələr arasında həmçinin proqnozların və ən yaxşı bankların nəticələri ilə müqayisəyə istiqamətlənmişdir.

Bank tərəfindən həyata keçirilən analizin əsas istiqamətləri aşağıdakıların qiymətləndirilməsindən ibarətdir:

- Həcm göstəricilərinin-aktivlərin, passivlərin (xüsusilə depozitlərin). xüsusi kapitalın kreditlərin və gəlirlərin inkişafı,
- Ehtiyat bazanın qiymətləndirilməsi-xüsusi kapitalın, depozitlərin və banklararası kreditləşmənin əsas inkişaf tendensiyaları, struktur və həcmi daxil olmaqla,
- Aktivlərin vəziyyətinin qiymətləndirilməsi. onların həcmi. strukturu və əsas inkişaf tendensiyaları (kreditlər, investisiyalar. daşınmaz əmlak) daxil olmaqla,
- Bank likvidliyinin qiymətləndirilməsi, onun əmsallarının hesablanması, likvidliyə təsir edən faktorların üzə çıxarılması. aktiv və passivlərin müddət və məbləğ üzrə balanslaşdırılma dərəcəsinin təyini daxil olmaqla.
- Balans məlumatlarının analizi, gəlirlər və itkilər haqqında hesabat əsasında. bankın mənfəətliliyini və gəlirliliyini xarakterizə edən aktivlərdən istifadənin effektivliyini göstərən kəmiyyət və keyfiyyət göstəriciləri sisteminin hesablanması ilə bank gəlirliliyinin qiymətləndirilməsi,
- Tərəfdaş bankların kreditləşmə limitini müəyyən etmə imkanı verən fəaliyyətin qiymətləndirilməsi.

Bununla yanaşı, bank qiymətli kağızların kredit portfelini, borcalanların kredit qabiliyyətini, kapitalın kifayət qədər olub-olmamasını, ayrı-ayrı əməliyyatların gəlirliliyini və faiz marjını analiz edir və qiymətləndirir. Analizin nəticələri bankın rəhbərliyi (idarə heyəti) tərəfindən istifadə olunur, bütövlükdə və fəaliyyətin ayn-ayn sferaları üzrə strategiya və siyasətin hazırlanmasını nəzərdə tutur.

Bank menecmentində analitik tərəflə yanaşı bank fəaliyyətinin tənzimlənməsi və nəzarəti də geniş istifadə olunur.

Tənzimlənmə əsas etibarilə bank fəaliyyətinə dövlət nəzarətini nəzərdə tutur. Bu nəzarətə bank lisenziyalaşma tələbləri, bank fəaliyyət sferalarının məhdudlaşdınlması, kifayət qədər kapitalın və likvidliyin təmin edilməsi, məcburi ehtiyatların formalaşdırılması və bank əmanətlərinin sığortalanması üzrə tələbləri birləşdirir. Ona görə də bankdaxili tənzimləmə ilk növbədə ölkənin mərkəzi bankı tərəfindən müəyyənləşdirilən tələb və normativlərin riayət olunmasına istiqamətlənmişdir.

Bununla bərabər bankdaxili tənzimləmənin xüsusi istiqamətləri də ola bilər:

- Bankın təşkilat quruluşunun təkmilləşdirilməsi,
- Yeni təlimatların və metodiki materialların hazırlanması fəaliyyət göstərən təlimatların və metodiki materialların təkmilləşdirilməsi, bank fəaliyyətinin effektivliyini yüksəldən qərarların qəbuledilmə prosedurunun hazırlanması,
- Bank strategiyası və taktikası (siyasəti) üsullarının, prioritetlərinin və məqsədlərinin təshih edilməsi,
- Əməliyyatların ayrı-ayrı növləri üzrə risk həcmlərinin məhdudlaşdırılması və risklərdən müdafiə sisteminin yaradılması üzrə konkret tədbirlərin qəbulu,
- Personalın təhsili və ona daxili nəzarətlə birlikdə kadr siyasətinin təkmilləşdirilməsi.
- Kredit, depozit və investisya portfellərinin həcm və strukturunun dəyişilməsi üzrə tədbirlərin həyata keçirilməsi,
- Xüsusi kapitalın həcm və strukturunun həmçinin ehtiyat fondu həcminin dəyişilməsi. Bankda nəzarət öz növbəsində xarici və daxili nəzarətə bölünür: xarici nəzarət mərkəzi bankın və xarici auditor şirkətlərinin nəzarəti ilə bağıdır. Daxili nəzarət adətən bankın direktorlar şurası və ya menecerlər tərəfindən həyata keçirilir. Bu menecerlər bankın rəhbərliyi tərəfindən təyin olunub. daxili nəzarətin həyata keçirilməsi üzrə səlahiyyətlərə malikdirlər. Bankdaxili nəzarətin əsas məqsədi mərkəzi bankın normativ aktlarının. mövcud qanunvericiliyin və bankdaxili təlimatların yerinə yetirilməsində kənara çıxmaların operativ aşkarlanma sisteminin təşkili yolu ilə investorların bankların və bank müştərilərinin maraqlarının müdafiəsidir. Bankdaxili nəzarət banka öz fəaliyyətindəki mənfi tendensiyaları və qüsurları aşkarlayıb aradan qaldırmaq imkanı verir.

Bank fəaliyyətinin həyata keçirilməsi böyük risklərlə bağlıdır. Bankların pul vəsaitlərinin toplanması və formalaşdırılması, sonrakı mərhələdə yatırılması bir qayda olaraq müxtəlif faktorlardan asılıdır: ölkənin iqtisadi konyunkturası, siyasi stabillik, infilyasiya səviyyəsi, kreditorların və investorların etibarlılıq səviyyəsi, qiymətli kağızlar bazarının dayanıqlılığı. Ona görə də bankların fəaliyyəti dövlət tərəfindən daha çox tənzimlənən müəssisələrə aiddir ki, fiziki və hüquqi şəxslərin bank əmanətləri müdafiə oluna bilsin.

Bununla əlaqədar olaraq bank fəaliyyətinin əsas üsulu bank nəzarəti orqanlarının normativ sənədlərinin və qanunvericiliyin icrasıdır. Bu qanunverici aktlar bank fəaliyyətini həm mərkəzi, həm də yerli hakimiyyət səviyyəsində tənzimləyir. Bütövlükdə bu. Ölkənin inzibati quruluşundan asılıdır. Hərçənd hal-hazırda bazar iqtisadiyyatı olan istənilən ölkədə mərkəzi bank, müflisləşmə və yenidən strukturlaşma haqqında qanunlar fəaliyyət göstərir. Bu qanunların təşkil etdiyi hüquqi sənədlərin birinci bloku bank fəaliyyətinin təşkilinə olan tələbləri müəyyənləşdirir və təyin edir.

Normativ sənədlərin ikinci bloku qismində ölkənin mərkəzi banlarının hüquqi aktları çıxış edir. Onlar fəaliyyət göstərən bankların bütün növlərinə(kommersiya, əmanət, investisiya, ipoteka və s.) qarşı prosessual norma və tələbləri müəyyənləşdirir. Bu normalar vasitəsilə bankların üzləşdiyi risk həddinin tənzimlənməsi baş verir, bankların dayanıqlığı və etibarlılığı təmin olunur. Bir qayda olaraq, mərkəzi bankların normativ aktlarında bankların qeydiyyatı və lisenziyası, mühasibat uçotunun və hesabat işinin təşkili, kredit və investisiya əməliyyatlarının yerinə yetirilməsi, qeyri-nağd hesablaşmalar və müxbir əlaqələri üzrə konkret tələbləri müəyyənləşdirir.

Normativ sənədlərin üçüncü bloku bankların özləri tərəfindən hazırlanıb, bank menecmentinin tərkibini müəyyənləşdirir. Onlara, bir qayda olaraq, bankların siyasətini bütövlükdə və fəaliyyətinin konkret istiqamətləri üzrə, əməliyyatlar və xidmətlər (məsələn, trast, lizinq, faktorinq və s.) üzrə müəyyənləşdirir. Bundan başqa, banklar analitik iş üsulunu, bankdaxili nəzarət qaydasını. sənədlərə və sənəd dövriyyəsinə olan tələbləri hazırlayır. Bank menecmentinin hüquqi bazası, bir qayda olaraq, bank bazarındakı dəyişmələrin təsiri altında dəyişir, genişlənir və təkmilləşir. Bütün bunlar bank rəhbərliyindən və menecerlərdən yüksək peşəkarlıq tələb edir.

Qərb ölkələrində bankın idarəetmə keyfiyyəti mükəmməl analizə və qiymətləndirməyə məruz qalır, çünki bankın fəaliyyətinin nəticələri, etibarlılıq səviyyəsi bundan asılıdır.

Bankın fəaliyyətinin nəticələri, bir qayda olaraq, bank menecmenti keyfiyyətinin qiymətləndirilmə meyarlararından biridir.

Fəaliyyət nəticələrinin analizində bank növləri keyfiyyət xarakteristikalarını nəzərə alır:

- Kapitalın kifayətliliyi;
- Aktivlərin keyfiyyəti;
- Yaradılmış ehtiyatların kifayətliliyi;
- Likvidlik və gəlirlilik vəziyyəti.

Menecment keyfiyyətinin digər meyarları aşağıdakıları əhatə edir:

- Menecerlərin peşəkarlığı;
- Liderliyə cəhd göstərmə;
- Milli və dünya iqtisadi konyunkturasının dəyişmələrinə bankın operativ reaksiya göstərmək və planlaşdırmaq qabiliyyəti
- Bankın həyata keçirdiyi siyasətin xarakteri, onun effektivliyinin qiymətləndirilməsi
- İnsayder razılaşmalarının riski
- Heyəti idarəetmə effektivliyi

Yuxarıda göstərilən meyarlar və göstəricilər üzrə müsbət qiymətlərin əldə edilməsi ümumilikdə bank menecmentini yaxşı kimi təyin edir. Məsələn, qərb ölkələrində azad mütəxəssislərin sorğusu nəticəsində bankın müasir idarəetməsində doqquz əsas xarakteristika aşkar edilmişdir.

1) Mədəniyyətə aşkarlıq;
2) Ümumi dəyərlərin mövcudluğu;
3) Mənfəətliliyə istiqamətlənmə;
4) Müştəri tələbatlarının təmin edilməsinin vurğulanması;
5) Vəsaitləri yeni məhsullara yatırmaq arzusu;
6) Strateji və ardıcıl rəhbərlik;
7) Heyətin ixtisaslaşmış seçimi və hazırlığı;
8) Bank məhsulları və xidmətləri haqqında yaxşı qurulmuş informasiya sisteminin mövcudluğu;
9) Kredit riskinin effektiv idarə edilməsi.

Bank menecmenti effektivliyinin qiymətləndirilməsində qeyri effektiv idarəetmə faktorlarının aşkarlanmasına böyük diqqət yetirilir. Xüsusi halda neqativ idarəetmənin bir neçə növü diqqəti cəlb edir. Birinci növ bankın pis idarəedilməsidir. Onun əlamətləri aşağıdakılardır:

- Bank kapitalı ilə müqayisədə suda əməliyyatlarının həddən artıq genişləndirilməsi;

- Pis kreditləşdirilmə;
- Bir müştəriyə və ya öz aralarında iştirak sistemi ilə əlaqədar olan müştəri qrupuna təqdim olunan suda vəsaitlərinin böyük payı;
- Sudaların kütləvi şəkildə uzadılması üzündən kredit və depozit müddətlərinə riayət edilməməsi
- Kredit prosesi təşkilinin aşağı səviyyəsi nəticəsində bank rəhbərliyi tərəfindən borc alanın krediti qaytara bilmək imkanını real şəkildə qiymətləndirmək qabiliyyətinə malik olmaması
- Daxili auditin aşağı keyfiyyətli işi ilə informasiya sistemlərinin çatışmazlıqları ilə şərtlənmiş daxili nəzarətin olmaması.

İdarəetmənin bu növü mümkün dəyişmələrin və qeyri əlverişli vəziyyətlərin əvvəlcədən duyulması deyil, kortəbiiliyə hesablanmış faktordur: bankın bütün problemlərini zaman özü həll edər. İdarəetmənin ikinci tipi kosmetik idarəetmədir. O vaxtı udub nəzarəti saxlamaq məqsədilə keçmiş və indiki itkilərin gizlədilməsindən ibarətdir. İdarəetmənin əsas üsullarından biri gəlirlərin bölüşdürülməsi ilə monupulyasiya etmədir.

İdarəetmənin üçüncü tipi pulsuz rəhbərlik adlanır. O sırf zahiri dəyişmələrdən, qiymətli kağızlarla bir sıra sərfəli spekulativ razılaşmaların həyata keçirilməsindən, yüksək faiz altında depozitlərin cəlb edilməsindən və riskli sudaların verilməsindən ibarətdir.

Dördüncü tip möhtəkirlikdir. Möhtəkirlik bank təşkilatçılarının şəxsi tamahkar maraqları əsasında həyata keçən fəaliyyəti xarakterizə edir.

1970-1990-cı illərdə Qərbi Avropada, Cənub-Şərqi Asiya, Latın Amerikası ölkələrində və Rusiyada baş verən bank böhranları, həmçinin 2008-ci ildə başlamış dünya maliyyə böhranı bankların etibarlılığının və stabilliyinin təmin edilməsi üçün effektiv menecmentin vacib olduğunu göstərdi. Ona görə də mərkəzi banklar xarici auditin həyata keçirilməsində bankın idarəetmə sisteminin aşağıdakı meyarlarla qiymətləndirilməsini tövsiyə edir:

- Bank əməliyyatlarının növləri və həcmləri üzrə bankın idarəetmə strukturunun uyğunluğu;
- Kredit siyasətinin analizi və qiymətləndirilməsi, kredit risklərinin idarəetmə keyfiyyəti;
- Qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin növləri üzrə hesabatın və daxili uçot vəziyyətinin qiymətləndirilməsi;
- Qiymətli kağızlar bazarında əməliyyatlar üzrə risklərin idarəetmə analizi;

- Bank ehtiyatlarının bütövlüyünün qiymətləndirilməsi;
- Bank filialları daxil olmaqla, bankdaxili nəzarəti sisteminin effektivliyi.

Bank aktivlərinin idarə edilməsi

Bank menecmentinin əsas tərəflərindən biri kommersiya bankları aktivlərinin idarə edilməsidir. Hal-hazırda dünya bank təcrübəsi aktivlərin idaəredilməsinin üç əsas üsulunu göstərir.

- Vəsaitlərin bölüşdürülməsinin ümumi üsulu və ya vəsaitlərin ümumi fondu;
- Aktivlərin bölüşdürülmə üsulu və ya vəsaitlərin konversiyası;
- Aktivlərin idaəetməsinin elmi üsulu.

Birinci üsulun mahiyyəti ondan ibarətdir ki, bank passiv əməliyyatlar yolu ilə yığılan vəsaitlərdən ümumi fond yaradır və bu fond passiv əməliyyat əmanətlərinin müddəti hesaba alınmadan yerləşdirilir.

Vəsaitlərin ümumi fondu səhmdar kapitaldan, tələbli əmanətlərdən, əmanət yığımlarından, təcili əmanətlərdən təşkil olunur. Ümumi fondun (pulun) vəsaitləri sonradan bankın aktiv əməliyyatlarında yerləşdirilir. Vəsaitlərin yerləşdirilməsi aşağıdakı maddələr üzrə həyata keçirilir:

- İlkin ehtiyatlar – nağd pullar, çeklər, inkassasiya prosesində digər ödəniş vasitələri, mərkəzi bankdakı hesablar, digər kommersiya banklarında müxbir hesablardakı vəsaitlər;
- Təkrar ehiyatlar – dövlət qiymətli kağızlan. bəzən suda hesablanndakı vəsaitlər;
- Sudalar;
- özəl şirkətlərin qiymətli kağızlan;
- Binalar və qurğular.

Bu üsul vəsaitlərin bölüşdürülməsində ən ümumi prioritetləri verir. Şəkil 12.1-də də göstərilən sxem onun bariz nümunəsidir.

Vəsaitlərin ümumi yerləşdirilmə üsulu çox risklidir, çünki bankın likvidliyinə zərbə vura bilər. Bu üsulu əsasən iri banklar tətbiq edir. Onlar böyük pul ehtiyatlarına malik olduqlarına görə əmanətlərin müddətlərinə riayət etməyə də bilərlər. Orta və xırda banklar isə vəsaitlərin belə proporsional yerləşdirilməsinə yol verə bilməzlər. Əks halda onları ciddi problemlər gözləyir.



Şəkil 12.1 *Kommersiya bankları vəsaitlərinin ümumi bölüşdürülmə üsulu*

Bankların əksəriyyəti aktivlərin bölüşdürülmə üsulu və ya vəsaitlərin konversiyasından istifadə edirlər. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, banka lazım olan likvid vəsaitlərin ölçüsü müddət üzrə cəlb olunan fondların mənbələrindən asılıdır. Bu üsulun köməyi ilə məcburi ehtiyatların normalarına və onların dövretmə (dövretmə qabiliyyəti) sürətinə uyğun olaraq vəsaitlərin mənbələrini ayırmaq cəhdi edilir. Məsələn, təcili əmanətlərlə və əmanət yığımları ilə müqayisədə tələbli əmanətlər məcburi ehtiyatların daha yüksək normasını tələb edir. əmanətlərin digər növləri ilə müqayisədə onların dövriyyə sürəti də yüksəkdir. Ona görə də tələbli əmanətlər üzrə pullar əsasən ilkin və təkrar ehtiyatlara. daha az isə investisiyalara, yəni özəl qiymətli kağızlara yerləşdirilməlidir.

Beləliklə, aktivlərin yerləşdirilmə üsulu bankın daxilində bir neçə "likvidlik-mənfəətlik mərkəzi" yaradır və bankların müxtəlif mənbələrdən cəlb etdiyi vəsaitlərin yerləşdirilməsi üçün istifadə olunur. Dünya bank təcrübəsində belə mərkəzlər "banklar içində banklar" adlanır. Hər bir mərkəzdən vəsaitlərin yerləşdirilməsi digər mərkəzlərdən vəsaitlərin yerləşdirilməsindən asılı olmayaraq həyata keçirilir, yəni sanki tələbli əmanətlər bankı, əmanət yığımları bankı, təcili əmanətlər bankı, əsas kapital bankı mövcuddur.

Bu üsulun əsas üstünlüyü ondan ibarətdir ki, birincisi, əmanətlərlə onların aktivlərə yerləşdirilməsi arasında müddətlərinin koordinasiyası müşahidə olunur. İkincisi, likvid aktivlər azalır, suda və investisiyalara əlavə yatırımlar artırılır (özəl qiymətli kağızlar) və bu, mənfəət normasının artmasına gətirib çıxarır. Bu üsul likvid aktivlərin artıqlığını ara-

dan qaldırmağa imkan verir. Belə artıqlıq isə əmanət yığımlarına və təcili əmanətlərə, həmçinin əsas kapitala qarşı durur.

Əmanətlərin yerləşdirilmə üsulu onların dövriyyə sürətinə əsaslanır. əmanətlərlə onların aktiv əməliyyatlara yatırım müddətləri arasındakı koordinasiyanı həyat keçirmək imkanı verir. Bu. şəkil 12.2 də əks olunmuşdur. Dünya bank təcrübəsinə görə bu üsulun da bir neçə nöqsanı var. Birincisi, əmanətlərin ayrı-ayrı qrupları ilə ümumi məbləğ arasında sıx əlaqə yoxdur. İkincisi. vəsaitlərin mənbələri onların istifadə yollarından asılı deyil, çünki banklar istəsə eyni müştərilər banka pul qoyar və bankdan borc götürər.



Şəkil 12.2. *Aktivlərin bölüşdürülməsi üsulları.*

Banklar bu üsulun istifadəsində likvidlik səviyyəsinin son həddinə yox, orta həddinə əsaslanırlar. Nəzərdən keçirilən iki üsulun ümumi nöqsanları da var. Hər iki üsul, bir qayda olaraq. məcburi ehtiyatların likvidliyinə və əmanətlərin götürülməsinin mümkünlüyünə diqqət verir, müştərilərin kredit sifarişlərini təmin edilmə zəruriliyinə az diqqət verirlər. Lakin iqtisadi yüksəliş şəraitində həm əmanətlər, həm kreditlər artır və banklar üçün likvid vəsaitlər az tələb olunur. Bundan başqa kreditə olan tələbat əmanətlərin artımını qabaqlaya bilər. İqtisadi eniş şəraitində isə depozitlərin artımı daha yüksəkdir. Digər nöqsan ondan ibarətdir ki, hər iki üsul likvidlik səviyyəsinin son həddinə yox orta həddinə əsaslanır.

Dünya bank təcrübəsində aktivlərin elmi idarəetmə üsulundan da istifadə olunur. Onun əsasını məqsədli funksiyanın tədqiqi təşkil edir.

Bank öz yatırımlarını aşağıdakı düsturla hesablayır:

$$P(n)= 0,04x_1+0,05x_2+ 0,06x_3+ +0,07x_4+0,12x_5+0,13x_6,$$

Burada P- mənfəət, x_{1-16}-ivestisiya məbləğləri, 4, 5, 6, 7, 12, 13- uyğun olaraq qısamüddətli dövlət istiqrazları, uzunmüddətli dövlət istiqrazları, birinci dərəcəli kommersiya sudaları, təcili sudlar, istehlak kreditləri, ipoteka krediti üzrə faizlərdir.

Bu üsulun məqsədi mənfəətin maksimallaşdırılmasıdır. Elmi üsul ondan ibarətdir ki, likvidlik tələbi ilə əlaqədar olmayan və investisiya üçün heç bir məhdudiyyətə malik olmayan riskin istənilən səviyyəsində bank yüksək faiz dərəcələrindən çıxış edərək yatırımlar edir (bu halda 12 və 13%). Lakin bankın başqa müştəriləri də var və bank həm də mərkəzi bankın tənzimləmə normalarına riayət etməli, ehtiyatlı olmalıdır, çünki bazar istənilən sürprizlər göstərə bilər.

Bununla əlaqədar olaraq bank bütün vəsaitləri faizin yüksək olduğu sferaya yatırmayacaq, yatırımları kifayət qədər müntəzəm apararaq öz vəsaitlərinin böyük hissəsini daha yüksək faizlərin mövcud olduğu sferalara yerləşdirəcək. Beləliklə, bank kifayət qədər mənfəət əldə edəcək və likvidliyi lazımı şəkildə saxlayacaq.

Aktivlərin hər üç idarəetmə üsulu dünya bank təcrübəsində bankın bazardakı vəziyyətindən asılı olaraq istifadə olunur. Məqsədli funksiya əsasında aktivlərin idarəetmə üsulu ən effektiv üsuldur.

Banklarda təhlükəsizliyin idarə edilməsi

Bank təhlükəsizliyinin idarəetməsinin məzmunu bazar iqtisadiyyatı şəraitində bank fəaliyyətinin xarakteri ilə şərtlənir. Təsərrüfat fəaliyyətini həyata keçirən banklar müxtəlif müəssisələrlə qarşılıqlı münasibətlərə girirlər. Bankın təhlükəsizlik qorxusu onun müştəriləri, partnyor şirkətləri və bütün cəmiyyət üçün potensial təhlükə yaradır. Bu təhlükələr, bir qayda olaraq, bankların, bank sisteminin maliyyə vəziyyətində pis əks olunur və ölkənin də maliyyə sisteminin pozulmasına gətirib çıxara bilər. Ona görə də bank təhlükəsizliyinin təminatı dövlətin. bank təsisçilərinin və onun icraedici orqanlarının öhdəliklərinə qanunvericiliklə daxil edilir.

Bank təhlükəsizliyinin təminatında əsas məqsəd bankın məruz qala biləcəyi təhlükənin xəbərdarlığı və ya azaldılmasıdır. Bank işində "təh-

lükə" termini dedikdə bankın müəyyənləşdirilmiş iş qaydasına, əmlakına, infrastrukturuna və personalına ziyan vura bilən, bankın nizamnamə məqsədlərinə çatmasına mane olan, fəaliyyətin kəsilməsinə, bank əmlakının ləğvinə gətirib çıxara bilən hərəkətlər və ya vəziyyətlər başa düşülür. Bankın təhlükəsizliyi dedikdə elə vəziyyətlər nəzərdən keçirilir ki, həmin vəziyyətlərdə təhlükəli hərəkətlər və şəraitlər olmur, yaxud onların ehtimal olunan nəticələri elə bir səviyyəyə gətirilir ki, bu təhlükələr bankın müəyyənləşdirilmiş iş qaydasına, əmlakına, infrastrukturuna və personalına ziyan vurmaq iqtidarında olmurlar.

Bu və ya digər hərəkətin və yaxud şəraitin bank üçün təhlükə ölçüsünü müəyyənləşdirmək məqsədi ilə "risk" termindən istifadə olunur. Risk termini ziyana gətirib çıxara bilən təhlükəli hadisənin başlama ehtimalını göstərir. Təhlükəli hadisələrin baş vermə ehtimalı obyektiv və subyektiv xarakterli faktorlardan asılıdır. Risklərin idarəetməsi də, öz növbəsində, banka zərər verə bilən hərəkət və vəziyyətlərin aşkar edilməsinə və xəbərdar edilməsinə yönəlmiş tədbirlər toplusu kimi nəzərdən keçirilir.

Bank sisteminin təhlükəsizliyini təmin etmək üçün dövlət qanunverici və nəzarət xarakterli tədbirlər həyata keçirir.

Bank fəaliyyəti təhlükəsizliyinin təminatı ilə bağlı olan hüquqi normalar, bir qayda olaraq, bank və bank fəaliyyəti barədə qanunlarda, digər qanun və normativ aktlarda, həmçinin xüsusi texniki sənədlərdə ifadə olunur. Hüquq normalan bank təhlükəsizliyinin təminatına qarşı tələb xarakteri daşıyır və bu tələblər bank fəaliyyətinin bütün subyektlərinin icrası üçün məcburi olur. Məcburi tələb və normaların təcrübədə reallaşdırılması dövlət üçün və bankın idaərəetmə orqanları üçün ümumi vəzifədir.

Bank fəaliyyəti təhlükəsizliyinin idarəetməsində dövlətin iştirakı xüsusi müvəkkil orqanlar tərəfindən daimi nəzarət və yoxlama formasında həyata keçirilir. Onlar bank tərəfindən qanunvericiliyin və Mərkəzi bankın normativ aktlarının icrasına nəzarət edirlər. Nəzarət və xüsusi icazə funksiyaları mərkəzi banklar tərəfindən bilavasitə reallaşır və ya mərkəzi bankların yaratdıqları bank nəzarəti orqanları tərəfindən həyata keçirilir. Bankın mühüm təhlükəsizlik göstəriciləri onun bazar stabilliyi, əmanətçi və kreditorların əmlak hüquqlarının və maraqlarının müdafiəsidir. Ona görə də təhlükəsizlik tələbinin pozulması "Mərkəzi banklar haqqında "qanunların xüsusi maddələri ilə nəzərdə tutulmuş məcburi tədbirlərin aparılması üçün əsasdır.

Təhlükəsizliyin müvafiq səviyyəsini təmin etmək imkanı verən tam dəyərli bank ehtiyatlarının formalaşmasında banklara hərtərəfli kömək etmək dövlətin əsas prioritet funksiyasıdır. Qeyd etmək lazımdır ki, bank resursları anlayışına əmlakla yanaşı ixtisaslaşmış idarə heyətinin də daxil edilməsi qəbul olunur.

Bankların və bank sisteminin maliyyə stabilliyinin təminatında dövlətin iştirakının digər istiqaməti onların fəaliyyəti üçün lazım olan qaydanın müəyyənləşdirilməsi və saxlanmasıdır. Bu məqsədlə hazırlanan normativ təlimatlarda bank əməliyyatlarının həyata keçirilmə qaydası, bank risklərinin idarəetmə qaydası və bankın daxili kapitalının təşkilat qaydası müəyyən edilir.

Təhlükəsizlik tələblərinin təminatında bankın iştirakı onun icraedici və səlahiyyətli orqanları tərəfindən federal qanunların və digər normativ hüquqi aktların, həmçinin mərkəzi bankın normativ sənədlərinin maddələrinin şərtsiz icrasından ibarətdir. Bankın icraedici orqanları aşağıdakıları yerinə yetirməlidirir:

1) Ayrı-ayrı bank əməliyyatlarının yerinə yetirilməsi daxil olmaqla bankın fəaliyyət qaydasına riayət etməsinə nəzarəti həyata keçirmək;

2)Təhlükələrin reallaşdırma ehtimalının azalmasına istiqamətlənmiş zəruri tədbirləri həyata keçirmək, əgər bu mümkün deyilsə, arzuedilməz nəticələrin ağırlığını azaltmaq;

3)Bankın maraqlarına zərər vura biləcək hadisələrin səbəblərinin daxili araşdırmasını həyata keçirmək;

4)Bankın maraqlarına dəyə biləcək təhlükə və zərəri minimallaşdırmaq üçün xüsusi tövsiyələrin işlənib hazırlanması ilə məşğul olmaq.

Elmi cəhətdən əsaslandırılmış təsnifat bank risklərinin ümumi sistemində hər bir riskin yerini dəqiq təyin etməyə imkan verir. Bu isə onların effektiv idarə olunmasına zəmin yaradır. Bank risklərinin əsas növlərini bir neçə kateqoriyaya aid etmək olar:

1)iqtisadi səhvlər riski;

2) təşkilati səhvlər riski;

3) qanuna zidd hərəkətlər riski, bir qayda olaraq, ya qanuna zidd qəsdlər, ya da vətəndaş hüquq pozuntusu (delikt) kimi göstərilir.

Risklər əmələgəlmə faktorlarına görə iqtisadi, siyasi, kriminal, inzibati-hüquqi və texnogen faktorlara bölünürlər, öz növbəsində onlar daxili və xarici ola bilərlər.

Risklərin mənbəyi aşağıdakılar ola bilər:

- Maliyyə vəziyyətləri bankın təhlükəsizliyinə qorxu yarada biləcək və ona zərər verə biləcək banklar və onların partnyor-kompaniyaları;
- Bankın fəaliyyətinə bu və ya digər üsulla təsir göstərə bilən kriminal strukturlar;
- Banka qarşı iqtisadi casusluq üsulları tətbiq edən vicdansız rəqiblər;
- Öz şəxsi tamahkar və kommersiya maraqlarına görə bankın maraqlarına ziyan vura biləcək bank əməkdaşları.

Bank fəaliyyətinin indiki dövrdə ən qiymətli və təhlükəsizlik cəhətdən ən zəif yeri informasiyadır. Bankın informasiya resursları kredit-maliyyə sahəsinə aid olan faktlar, hadisələr barədə sənədləşdirilmiş informasiyaların bilavasitə yaradılması, yığılması, təkmilləşdirilməsi və saxlanması vasitəsilə formalaşır. Banklar öz bölmələrinin, müştəri və müxbirlərin, həmçinin dövlət orqanlarının informasiya tələbatını təmin etmək üçün. bir qayda olaraq, informasiya sistemlərindən, informasiya texnologiyalarından və onların təminat vasitələrindən (informasiyanın təkmilləşdirilməsini, saxlanmasını və ötürülməsini təmin edən hesablama və rabitə texnikası vasitələri ilə) istifadə edir. Cinayət xarakterli təhlükələrdən qanunvericiliklə müdafiə olunan bank informasiyasını iki hissəyə bölmək olar:

l) kommersiya və ya bank sirri olan məxfi xarakterli məlumatlar;

2) kompüter məlumatları.

İnformasiyaya qarşı cinayət qəsdi (informasiyanın yayılması, satılması, rəqiblərə məxfi məlumatların çatdırılması) bankın iqtisadi fəaliyyətinin nəticələrinə mənfi təsir edən əsas risk faktorları arasında ilk yerlərdən birini tutur.

Bankın kadrlan və ya kadr təminatı təşkilati səhvlər riskinə aid olan mühüm daxili risk mənbəyidir. Burada ilk növbədə personalın qəbul etdiyi səhv qərarlarla bağlı risklər nəzərdə tutulur. Personalın hüquqa zidd hərəkətləri ilə şərtlənmiş təhlükələr də istisna edilmir. Personalı bankın maraqlarına zidd hərəkətlər etməyə məcbur etmək, həmçinin iqtisadi casusluğu həyata keçirən şəxslərin bank personalına daxil olması bank üçün təhlükədir. Bank fəaliyyətinin təhlükəsizlik təminatı nöqteyi-nəzərdən bankın kadr tərkibinin öyrənilməsi isə bu elementin bank fəaliyyətinin ümumi qaydasından və xüsusi istiqamətlərindən birbaşa asılılığını müəyyən edir.

Qeyri-maddi aktivlərə qarşı hüquqa zidd hərəkətlərin obyektləri çox vaxt kommersiya bankının işgüzar nüfuzu və işgüzar əlaqələri olur.

Müxtəlif kateqoriyalı risklərin öyrənilməsi və onların minimallaşdırma tədbirləri ənənəvi bank fəaliyyəti çərçivəsindən kənara çıxan xüsusi üsul və vasitələrin tətbiqini tələb edir.

Bankların çoxu yüksək risk səviyyəsinə baxmayaraq iqtisadiyyatın real sektorunda kredit əməliyyatların miqyasını artırır. Bununla əlaqədar olaraq risklərin aşkar edilməsi, qiymətləndirilməsi və idarəetməsi banklar üçün birinci dərəcəli əhəmiyyət kəsb edir. Bank məhsulları mürəkkəbləşdikcə, məlumatların yığım, saxlanma, işlənmə və ötürülmə sistemləri ağırlaşdıqca, banklar beynəlxalq bank sisteminə daxil olduqca risklərin bəzi növləri artır. Bank risklərinin aşkar edilməsi və qiymətləndirilməsi (monitorinq) daim həyata keçirilib. Bankın öz üzərinə götürdüyü bütün risklər monitorinqdən keçməlidir.

Kommersiya bankında **riskin idarəetməsi** dedikdə uyğun riskin minimallaşdırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi, gəlirliliklə risk arasında optimal nisbətin tapılması başa düşülür.

Təcrübədə riskin idarəetmə prosesi bir neçə mərhələdən ibarətdir.

1) Risklərin aşkar edilməsi və qiymətləndirilməsi;

2) Risklərin tənzimlənməsi;

3) Riskin idarəetmə nəticələrinin retrospektiv analizi və təshihlərin daxil edilməsi. Riskin qiymətləndirilməsi risklərin idarə oluna bilməsinin və idarə otuna bilməməsinin analizini nəzərdə tutur, yəni bank tərəfindən nəzarət olunan və nəzarət olunmayan riskləri göstərir. Bank tərəfindən təsirə məruz qalan və tənzimlənən risklər əsasən daxili risklərdir. Bank təhlükəsizliyinin idarəetmə prosesi aşağıdakı əsas istiqamətlərdən ibarətdir: risklərin analizi, təhlükələrin analizi, aparılmış analizin nəticələri əsasında təşkilati xarakterli tədbirlərin həyata keçirilməsi.

Risklərin təhlili bankın təşkilati strukturunun elə elementlərini aşkar etmək imkanı verir ki, onlar potensial risklərin obyekti olsun. Bu analiz həmin obyektlərə təhlükə törədən təhlükələrin növünü. həmçinin risklərin reallaşdırlmasının ehtimal olunan nəticələrini üzə çıxarır. Analizin yekununda bankın rəhbərliyi və təhlükəsizlik xidməti ümumi bir sənəd hazırlamalı bu sənəddə risklərin tam və hərtərəfli qiymətləndirilməsi, onların aradan qaldırılma üsulları əks olunmalıdır.

Həmin sənəddə risklərin reallaşdırılmasında neqativ nəticələrin xəbərdarlığına yönəldilmiş tədbirlərin kifayətliliyi, həmçinin bankın müəyyənləşdirilmiş təhlükəsizlik tələblərini yerinə yetirmək hazırlığı göstərilməlidir.

Burada həmçinin təhlükənin reallaşdırılma halında ziyanın ölçüsünü aşağı salmağa istiqamətlənmiş zəruri tədbirlərin siyahısı verilməlidir. Bankın məruz qaldığı cinayət tərkibli təhlükələrin analizi hər bir təhlükənin fərdi xüsusiyyətlərini üzə çıxarmağa, bankın müdafiə olunacaq struktur elementləri ilə təhlükə arasında əlaqələrin mümkün təsvirini verməyə imkan verir. Təhlükələrin spesifik xüsusiyyətlərinin ciddi-cəhdlə öyrənilməsi onları 5 əsas qrupda sistemləşdirməyə imkan verir və hər birinin ardıcıl olaraq tərkib hissələrə ayrılmasını, praktiki tələbatlara uyğun olaraq ayrı-ayrı təhlükələrin identifikasiyasını nəzərdə tutur. Təklif edilən sistemləşdirmənin əsasında təhlükələrin birləşdirilməsi durur:

1) Onların aktivlik obyektinə nəzərən (təhlükə obyekti),
2) təhlükənin üsuluna görə (reallaşma mexanizmi),
3) təhlükənin reallaşmasında əli olan şəxslərə qarşı,
4) bu və ya digər şəxslərin təhlükənin reallaşmasına münasibətinə görə,
5) təhlükənin reallaşma nəticələrinə görə.

Bank təhlükələrinin əsas növlərinin identifikasiyası bankın potensial təhlükə obyekti kimi təsəvvür edilməsi ilə bilavasitə bağlıdır. Bu səbəbdən təhlükələrin analizini onların bank struktur elementləri ilə əlaqəsindən başlamaq lazımdır. Təhlükələrin bank fəaliyyətinin növlərinə görə təsnifatlanması onun fəaliyyətinin əməliyyat (bank əməliyyatlarının yerinə yetirilməsi) və əməliyyatdan kənar (bank əməliyyatlarının aparılması ilə birbaşa əlaqəsi olmayan) fəaliyyətə bölünməsini nəzərdə tutur.

Təhlükələrin şəxslərə görə bölünməsi təhlükələrin reallaşdırılmasında əli olan şəxslərin bank işçilərinə və kənar şəxslərə bölünməsinin məqsədəuyğunluğunu təsdiq edir.

Subyektin bank maraqlarına təhlükə yaradan hərəkətləri haqqında cinayət qəsdlərinin təsnifatı həmin hərəkətlərin icrası zamanı subyektin əldə rəhbər tutduğu məqsədlərə və motivə olan marağına əsaslanır. Ümumi halda motivləri iç qrupa bölmək olar:

1. subyekt bankın maraqlarını nəzərə almadan ya *öz* maraqlan, ya da üçüncü şəxsin maraqlan naminə hərəkət edirdi;
2. banka münasibətində düşmən mövqeli motivlərə əsaslanırdı;
3. subyekt bank maraqlarından hərəkət edirdi (o cümlədən yanlış şəkildə düşünülmüş maraqlardan).

Bank maraqlarına qarşı qəsdi həyata keçirən subyektin rəhbər tutduğu məqsədlər öz əksini reallaşdırılmış təhlükələrin nəticələrində məlum dəqiqliklə tapır. Ümumiləşmiş halda bankın maraqlarına qarşı yönəlmiş

cinayət qəsdlərinin məqsədini iki qrupa ayırmaq olar:

1. bank əmlakını (əmlak hüququ ilə) öz şəxsi mülkiyyətinə çevirmək məqsədlə ələ keçirmək;
2. rəqib-bankın fəaliyyətinin məhdudlaşdırılması və ya onun bank xidmətləri bazarından kənarlaşdırılması.

Bununla əlaqədar olaraq informasiyanın əhəmiyyətini və kredit təşkilatının təhlükəsizliyinə onun təsirini qeyd etmək lazımdır. Əksər iflasların səbəbi daha çox məlumatlandırılmanın pis olmasıdır. Faktların gizlədilməsi, qəsdən təhrif olunması, çaşdırmaq məqsədilə və qərəzlə yayılan yalan, - bunlar məlumat qüsurlarından cinayət silahı qismində istifadə olunmasıdır.

Maraq doğuran məlumatların əsas hissəsini açıq mənbələrdən almaq olar. Dağınıq şəkildə olan faktları mükəmməl informasiyaya çevirmək üçün böyük analitik iş aparmaq lazımdır:

- əldə edilmiş məlumatlara qarşı tələblərin riayət olunması (mötəbərliyi, obyektivliyi, birmənalı olması, məlumatın tamlığı);
- kəmiyyət xarakteristikasının təyini (məlumatın tamlığı. məlumatın relevantlığı);
- bütöv xarakteristikanın təyini (məlumatın aktuallığı və dəyəri);
- məlumat mənbəyinin və onun alınma üsullarının təyini;
- məlumatın reallaşmasının imkan və sferasının təyini.

Metodiki tövsiyələrin və digər bankdaxili normativ sənədlərin hazırlanmasını və reallaşdırılmasını, planların tərtib edilməsini, təşkilati-ştat qərarların işlənib hazırlanmasını, bank maraqlarının müdafiəsinə yönəlmiş hüquqi, kriminoloji və kriminalistik tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Bank fəaliyyəti təcrübəsində kriminal xarakterli risklər iki növ cinayət qəsdində təzahür olunur.

1) əmlaka qəsd, xüsusi və cəlb olunmuş pul vəsaitlərindən, valyuta qiymətlilərindən və qiymətli kağızlardan, bank fəaliyyəti obyektlərinin əmlak hüquqlarından (girov əşyaları, binalar, avadanlıqlar və investisiyalar) ibarətdir; mülkiyyətə qarşı yönəlmiş cinayətin növləri-xidməti oğurluq, oğurluq. möhtəkirlik, israfçılıq, soyğunçuluq, quldurluq, zorakılıq, aldatma və etibardan sui-istifadə etməklə əmlaka zərər vurmaq;

2) bankın infrastrukturuna qəsd etmə. əmlak, hüquqi və təşkilati xarakterli elementlərin toplumundan və bankın stabil fəaliyyətini təmin edən əlaqələrdən ibarətdir; bu halda daxili və xarici infrastruktur elementlərini fərqləndirirlər.

Daxili infrastrukturun elementləri kriminal aspektdə maraq kəsb edir və aşağıdakılardan ibarətdir: bankın fəaliyyət qaydasını təyin edən qanunverici və digər hüquqi normalar; bank əməliyyatlarının və bank maraqlarının həyata keçirildiyi (yəni bank texnologiyalarının müdafiəsi) daxili qaydalar; bank fəaliyyətinin idarəetmə qaydası (müasir kommunikasiya sistemləri bazasında verilənlərin kompüter araşdırmasının analitik bazası, uçotu və hesabatı).

Xarici infrastruktur elementlərinə bankın məlumat və kadr təminatı, bankın qeyri-maddi rifahı və ya qudvilli (bankın işgüzar nüfuzu və partnyorlarla işgüzar əlaqəsi) aiddir.

Bank təhlükəsizliyinin əsas təminat üsulu xüsusi təhlükəsizlik xidmətlərinin səlahiyyətlərinin genişləndirilməsi, onlara ayn-ayn təhlükələrə qarşı kompleks qarşıdurma üzrə baş bölmə statusunun verilməsidir (koordinasiya orqanı). Təhlükəsizlik xidmətinin fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

- iqtisadi kəşfiyyat;
- bankın daxili təhlükəsizliyi;
- məlumat-analitik təhlükəsizliyi;
- fiziki təhlükəsizlik;
- bank sirri olan məlumatların qorunması;
- təbliğatın təmin olunması;
- texniki təhlükəsizlik;
- rabitənin təhlükəsizliyi;
- kompüter təhlükəsizliyi;
- psixoloji-sosioloji sistem;
- yanğın təhlükəsizliyi;
- daşınma təhlükəsizliyi;
- radiasiya-kimyəvi təhlükəsizlik.

Lakin bank fəaliyyətinin təhlükəsizliyini təmin edən bütün problemləri təkcə bankın öz təhlükəsizlik xidmətləri vasitəsilə həll etmək mümkün deyil.

Dünya bank təcrübəsi göstərir ki, bank təhlükəsizliyi probleminin həlli yalnız bank sisteminin keyfiyyətcə inkişaf etdirilməsi və elə orqanın yaradılması ilə bağlıdır ki, bu orqanda təhlükəsizlik və hüquq mühafizə orqanlarından alınan məlumatlar sistemləşdirilsin və dəqiqləşdirilsin. Azərbaycanda belə orqan rolunu kredit bürosunun analoqları oynaya bilər. Onlar bankın təhlükəsizlik xidmətindən və digər mənbələrdən alı-

nan məlumatlan müqayisə edib hər bir borcalan üçün kart açırlar.

Bank təhlükəsizliyinin əsasını kredit təşkilatlarının təhlükəsizlik xidmətləri tərəfindən təqdim edilmiş və AR mərkəzi bankın iştirakı ilə hər hansı bir orqan tərəfindən sistemləşdirilmiş açıq məlumat təşkil etməlidir Kredit büroların yaradılması üzrə tədbirlərin təqribi siyahısı:

1)Potensial iştirakçıların kredit bürosunun yaradılmasında maraqlılığı ilə əlaqədar anketləşdirilməsi və ayrı-ayrı borcalanlar üzrə məlumatların mümkün siyahısı,

2)Vəziyyətin qiymətləndirilməsinə görə işçi qrupun formalaşması və kredit bürosunun istiqamətləri, prinsipləri, standartları, biznes-planın hazırlanması barədə qərarın qəbul edilməsi,

3) AR mərkəzi bankla, icraedici və qanunverici hakimiyyət orqanları ilə məsləhətlərin aparılması,

4)Hüquqi şəxsin yaradılması,

5)normativ sənədlərin hazırlanması; bu sənədlər həm borcalanlar barədə məlumatların kredit bürosuna təqdim edilməsini, həm də uyğun potensial ssuda alanlar barədə məlumatların kredit bürosundan onların ünvanına göndərilməsini banklara və digər kredit təşkilatlarına imkan verir,

6)Bütün maraqlı təşkilatların iştirakı ilə ayrıca fiziki və hüquqi şəxslər üzrə borcalanın kredit tarixinin standart formasının hazırlanması,

7)Müştərinin kredit tarixinin mövcudluğunun zəruriliyi barədə banklarla, sığorta şirkətləri ilə danışıqların aparılması.

Beynəlxalq təcrübənin nəzərə alınması şərti ilə möhtəkirliyin yeni formaları və cinayətkar gəlirlərin leqallaşdırma üsulları barədə kredit təşkilatlarının erkən xəbərdarlıq sisteminin yaradılması məqsədəuyğundur. Təhlükəsizlik xidməti məlumatlarının planlaşdırılmasında uçotun olmaması. onun reallaşdırma qaydasının pozulması əlavə risklərin əmələ gəlməsinə və ya mənfəətin müəyyən hissəsinin itirilməsinə gətirib çıxara bilər. Kredit riski borcalanın bank qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi və ya istəməməsi ehtimalı ilə bağlı olan itkilərin pul ifadəsi kimi nəzərdən keçirilir. Bu bank üçün potensial təhlükəli risklərin növlərindən biridir. Çünki kommersiya banklarının müflisləşməsi əsasən kredit riski ilə şərtlənir.

Kredit riskinin xarici faktorlarının analizində Ölkə iqtisadiyyatının vəziyyəti ilə perspektivləri, dövlət pul-kredit siyasəti və dövlət tənzimlənməsində mümkün dəyişmələr nəzərə almır. Kredit riskinin daxili faktorları bank tərəfindən tənzimlənə bilir. Bunlar borcalanın nüfuzu,

maliyyə vəziyyəti və təsərrüfat fəaliyyətinin nəticələri. bankda kredit işinin təşkili. kreditin təminat keyfiyyətidir. Bank risklərinin mövcudluğu risklərin idarəetmə sisteminin hazırlanmasını nəzərdə tutur və bankın öz kredit siyasətini formalaşdırılması ilə ifadə olunur.

Kredit riskinin tənzimlənməsi bank porfelinin xüsusi idarəetmə üsullarının (sindikatlaşdırılmış kreditlərin verilməsi, sığorta) və müxtəlif maliyyə alətlərinin (kredit törəmələr) istifadəsini nəzərdə tutur. Bu istiqamətlər Rusiya bankı tərəfindən risklərin bölüşdürülmə mexanizmlərinin inkişafında prioritet kimi müəyyənləşir. Bununla yanaşı bank sektorunun inkişaf strategiyası nəzərdə tutur ki, banklar risklərin daimi monitorinqini təyin etməli, idarəetmə sistemlərinin və daxili nəzarətin effektiv fəaliyyətinə nail olmalı. bank əməliyyatlarının həyata keçirilməsi ilə bağlı düşünülməmiş qərarların qəbulunu istisna etməlidir.

Kredit əməliyyatları miqyasının artması borcalanların maliyyə vəziyyətinin nəzarəti ilə, onlar tərəfindən öhdəlikləri yerinə yetirməmə riskinin obyektiv qiymətləndirilməsi ilə müşayiət olunmalıdır. Banklar mümkün itkilərin nəzərə alınması şərti ilə ehtiyatların zəruri həcmini formalaşdırmalı, bank nəzarəti üzrə Bazel komitəsinin tövsiyələrindən, beynəlxalq bank təcrübəsində tətbiq olunan risklərin idarəetmə üsullarından aktiv istifadə etməli, həmçinin bank üçün əlverişsiz hadisənin baş vermə ehtimalının iqtisadi-statistik qiymətləndirilməsini tətbiq etməlidirlər.

Beləliklə, müasir şəraitdə kredit riskinin tənzimlənməsi müxtəlif maliyyə alətlərinin tətbiqini nəzərdə tutur. Borcalanın kredit qabiliyyəti isə bank-kredit riskinin əsas azalma üsulu və bank təhlükəsizliyinin təminat üsulu olmaqda davam edir.

Kredit ödəmə qabiliyyəti dedikdə borcalana xas olan bacarıq, yəni imkanla birləşən istək, göstərilən etimadı doğrultmaq, götürülmüş vəzifəni qüsursuz yerinə yetirmək, verilmiş öhdəliyi vaxtında ödəmək başa düşülür. Borcalanın kredit ödəmə qabiliyyətinin analizi bankın kredit portfelinin effektiv formalaşmasının və idarə olunmasının təmin olunmasına imkan yaradır. Bankın kredit portfelinin keyfiyyəti kredit ödəmə qabiliyyətinin təhlili keyfiyyətindən asılıdır. Kredit portfelinin idarəetmə elementlərinin hər biri, necə olursa-olsun, kredit ödəmə qabiliyyətinin analizinin keyfiyyəti ilə əlaqədardır.

l. Kredit ödəmə qabiliyyətinin analizində yadda saxlamaq lazımdır ki, bankın kredit portfeli müştərilər, müştərilər qrupu, sahə aidiyyati və coğrafi zonalar arasında bölünməlidir.

2. Bankın kredit siyasətində bankın kredit sahəsinin bütün prioritetləri əks olunmalı və onlardan müştərinin kredit ödəmə qabiliyyətinin analizində istifadə olunmalıdır.

3. Kreditin verilməsi barədə qərarın qəbul olunma proseduruna əməl etmək lazımdır. Bu prosedurun elementlərindən biri müştərinin kredit ödəmə qabiliyyətinin analizi olmalıdır.

4. Kredit dosyesinin məzmununun keyfiyyəti potensial borcalanın kredit ödəmə qabiliyyətinin əsaslı və peşəkar qiymətindən asılıdır.

5. Kredit ödəmə qabiliyyətinin bir elementi kimi borcalanın maliyyə vəziyyətinin daimi monitorinqi təklif olunur.

6. Kredit riskinin idarəetmə sistemi kredit riski ilə əməliyyatın gəlirliliyini tutuşdurmalıdır. Bu isə kredit riskinin səviyyəsinin qiymətləndirilməsinə və proqnozlaşdırmasına imkan yaradan kredit ödəmə qabiliyyətinin qiyməti olmadan mümkün deyil.

7. Kreditin qaytarılmaması ilə məşğul olan xidmətin effektiv işi üçün zəruri şəraiti yaratmaq lazımdır.

Müştərinin iflasa uğramasını və kreditin geri qaytarılmamasını qabaqcadan görmək mümkün deyil, lakin krediti ödəmə qabiliyyətinin vaxtında aparılan analizi həyəcan siqnalını ilkin mərhələdə təyin etməyə (idarəetməni zəif siqnallara görə həyata keçirmək) və problemli sudalarla əlaqədar işə başlamağa imkan verir.

Bank risklərini qiymətləndirərkən krediti ödəmə qabiliyyətini də qiymətləndirmək lazımdır. Hərçənd kredit ödəmə qabiliyyətinin analizi və qiymətləndirilməsi bəzi çətinliklərlə bağlıdır. Birincisi, borcalanın krediti ödəmə qabiliyyəti bir çox faktorlardan asılıdır. Bu isə qiymətləndirməni və analizi öz-Özünə çətinləşdirir, çünki hər bir faktoru üzə çıxarmaq və onun kəmiyyətini ölçmək lazımdır. İkincisi, ümumiləşmiş yekun qiymətdə hər bir faktorun nisbi çəkisini təyin etmək lazımdır. Bu isə o qədər asan iş deyil. Borcalanın qarşıdakı dövrdə krediti ödəmə qabiliyyətini təyin edən faktorların dəyişmə perspektivini müəyyənləşdirmək daha çətindir. Borcalanın sudanı ödəmə qabiliyyəti kreditor üçün o zaman əhəmiyyət kəsb edir ki, gələcək dövrə aid olsun. Bununla bərabər, təcrübədə tətbiq olunan kredit Ödəmə qabiliyyətinin göstəriciləri ötən dövr üçün hesablanır, yəni keçmişə yönəlmişdir.

Kredit ödəmə qabiliyyətinin qiymətləndirilməsində əlavə çətinliklər kəmiyyət etibarilə ölçülə bilməyən faktorların mövcudluğu ilə əlaqədar yaranır. Məsələn, borcalanın nüfuzu, mənəvi siması, rəhbərliyin peşəkar-

lıq səviyyəsi bu qəbildəndir. Borcalanın borcu ödəmək qabiliyyətini xarakterizə edən (kapitalın və aktivlərin dövr etmə qabiliyyəti) göstəriciləri təhrif edə məlumatlar, dövriyyə həcminin ölçülə bilməyən dinamikası (məsələn, reallaşan məhsulun qiymət artımı onu qabaqlayırsa), qalıqların qiyməti (əsas vəsaitlərin, ehtiyatların) də hesablamaları əhəmiyyətli şəkildə mürəkkəbləşdirir Bu halda müxtəlif hesabat dövrləri üçün hesablama göstəricilərinin müqayisə problemi meydana çıxır.

Sadalanan çətinliklər kredit ödəmə qabiliyyətinin qiymətləndirilməsi üzrə metodoloji yanaşmalarda öz əksini tapır və kredit ödəmə qabiliyyətinin analizində aradan qaldırılır. Hərçənd rəqəmli və rəqəmsiz məlumatlar əsasında borcalanın kredit ödəmə qabiliyyətinin vahid, süni qiymətləndirilməsini əldə etmək çətindir.

Borcalanın kredit ödəmə qabiliyyətinin qiymətləndirilməsi kəmiyyət və keyfiyyət xassəli olub, bir-birilərini tamamlayırlar. Xarici və Rusiya təcrübəsinin təsiri göstərir ki, kredit Ödəmə qabiliyyətinin qiymətləndirilmə problemində xarici metodoloji yanaşmalarla onların rus analoqları arasında böyük fərqlər var. Yerli yanaşmaların xarakterik cəhəti kəmiyyət qiymətlərinin üstünlüyüdür və bu kəmiyyət qiymətlərinin əsasını maliyyə göstəricilərinin hesablama sistemi təşkil edir. Xarici metodologiyanın əsas fərqi keyfiyyət yanaşmasının tətbiq edilməsindən ibarətdir. Bu halda borcalanın iqtisadi analizi kredit ödəmə qabiliyyətinin elementi kimi çıxış edir. Bank işinin xarici təcrübəsində müştərinin kredit ödəmə qabiliyyətinin qiymətləndirilmə metodologiyasının dərinliyinə baxmayaraq, beynəlxalq təcrübədə təklif olunan metodik həllər rus analoqu ilə müqayisədə daha kompakt və sadədir. Digər fərq xarici bank mənbələri üçün müştərilər barədə əsas məlumatların əlçatan olmasıdır: arxiv materialları, yerli soraq kitabçaları, informasiya agentliklərinin hesabatlan. digər kredit təşkilatlan barədə məlumatlar. təchizatçılar və rəqiblər barədə məlumatlar, ən əsası isə, potensial borcalanlar barədə məlumatlar, vahid kartotekalar.

Kredit riskinin idarəetmə metodologiyası maliyyə əmsallarının hesablanma sistemi əsasında Rusiya müəssisəsinin kredit ödəmə qabiliyyətinin qiymətləndirilməsində elmi əsaslandırılmış kompleks yanaşmadan istifadə etməlidir. Müəssisənin kredit ödəmə qabiliyyətinin qiymətləndirilməsində təcrübi reallaşdırılma modeli kredit ödəmə qabiliyyətinin nisbi dəqiq nəticəsinin əldə edilməsi məqsədilə ekspress analizin aparılmasına imkan verir və Excel avtomatlaşdırılmış kompüter proqramı şəklində göstərilə bilir.

Qısamüddətli sudanın verilməsində müəssisənin kredit ödəmə qabiliyyətinin qiymətləndirilmə proseduru aşağıdakı qaydalara əsaslana bilər:

1. Qiymətləndirmə meyarlarının seçiminin nəzəri cəhətdən əsaslandırılması və onların kəmiyyətlərinin məhdudluğu.

Maliyyə əmsalları sistemi, heç olmazsa, üç göstəricidən ibarət ola bilər:

- ödəmənin ümumi əmsalı,
- xüsusi və borc vəsaitlərinin nisbət əmsalı.
- xüsusi dövriyyə vəsaitləri ilə ehtiyatların təminat əmsalı;

2. Konkret müəssisənin fərdi göstəricilərin hesablanması vasitəsilə müqayisə etalonu probleminin metodik həlli.

Adətən. hesablanmış maliyyə göstəriciləri ilə məlum normativ qiymətlərin müqayisəsi təcrübədə aparılır. Bütün müəssisələr üçün müəyyən sabit kəmiyyət normativ kəmiyyət kimi qəbul olunur. Bəzən müəssisənin hansı sahəyə və coğrafi məkana məxsusluğundan asılı olaraq, maliyyə əmsallarının normativ qiymətlərinin differensiallanması həyata keçirilir. Suda alanın kredit ödəmə qabiliyyətinin qiymətləndirilməsində yeni metodik yanaşmaların səciyyəvi xüsusiyyəti göstəricinin faktiki qiymətləri ilə fərdi səviyyələrinin müqayisəsini təmin etməkdir.

3. Kreditləşmə haqqında qərar qəbul edərkən iqtisadi effektivliyin hesablanması.

Kredit ödəmə qabiliyyətinin qiymətləndirilməsinin əsasında kreditin bu və ya digər borcalana təqdim olunması üçün iqtisadi məqsədyönlülük prinsipi və cəlb olunmuş vəsaitlərdən səmərəli istifadə olunma prinsipi olmalıdır. Bu məqsədlə maliyyə vasitəsinin effekt konsepsiyası tətbiq olunur. Maliyyə vasitəsinin effektinin hesablanması borc alanın kredit ödəmə qabiliyyəti haqqında yekun mühakimə yürütməyə imkan yaradır.

Maliyyə vasitəsinin effekti kredit faizlərinin ödənilmə şərti ilə kreditdən istifadə nəticəsində borcalanın xüsusi kapitalının rentabelliyinin artımını və azalmasını ifadə edir. Borc maliyyə mənbələrinin payı artdıqca müəssisənin xüsusi vasitələrinin rentabelliyi artır. Bu o vaxta qədər davam edir ki, vergi və rüsumların ödənişindən sonra kredit faizinin ölçüsü mənfəəti və ona uyğun olaraq aktivlərin rentabelliyni üstələməsin.

Maliyyə rıçaqının effekti aşağıdakı məsələlər barədə mühakimə yürütmək imkanı verir: krediti cəlb etməyin mənası varmı? Krediti cəlb etmək iqtisadi effektlilik mövqeyindən özünü doğruldurmu? Müəssisə borc resurslarına görə vergidən sonrakı ödənişləri verə biləcəkmi?

Nəticədə demək lazımdır ki, borcalanın krediti ödəmə qabiliyyətinin

adekvatlığı bankın özündən, personalın peşəkarlığından və təcrübəsindən, menecerlərin vəziyyətin inkişafını əvvəlcədən görmək və əldə edilmiş məlumatlar, aparılan hesabatlar əsasında adekvat qərarlar qəbul etmək bacarığından asılıdır.

12.2. Bank marketinqi

Hazırki dövrdə heç kəs Azərbaycanda bank sektorunun təsərrüfatla əlaqələrinin günü gündən inkişafı faktını inkar edə bilməz. Banklara da məlumdur ki, daim faktiki müştərilərin qorunub saxlanılması inkişaf üçün hazırda kifayət deyil, bazar payının artırılması isə xidmət həcmində artımlara səbəb olsa da bəzi çətinliklər yaradır. Hazırda bazarda bankların təklif etdiyi xidmətlərin kəmiyyət və keyfiyyəti demək olar ki, eynidir və onlar arasında olan rəqabət müxtəlifliyi yoxdur. Marketinq yeni konsepsiya olmasa da o, banka rəqiblərini üstələməyə və böyük bazar payına nail olmağa strateji bir silah ola bilər. Buna görə də bank, marketinq proqramını zamanla operativ olaraq müştəri tələblərinə uyğun yenidən qurulmalı və yeni müştəriləri belə cəlb edə biləcək rəqabətlilik qabiliyyətli xidmətlərini artırmalıdır.

Bank marketinqi - bankın hədəflənmiş müştəri və qrupların kapital ehtiyacları, belə ki, bankın təklif etdiyi məhsul və xidmətlərdən maksimum məmnuniyyətlə nail olunması üçün başa düşülən təşkilati və idarəetmə sistemidir. Bu hədəflər isə mənfəətin maksimum səviyyədə təmin olunması məqsədini daşıyan siyasətlər əsasında seçilir.

Ilk öncə marketinq, xidmət və xidmət marketinq planının əsas mənalarına nəzər salaq, daha sonra isə vəziyyətin analizi, marketinq məqsədləri, seqmentləşdirmə, hədəf və yönləndirmədən ibarət olan teoretik yanaşmada daha detallı marketinq planı barədə sohbət açacağıq. Bu məqsədə nail olmaq üçün, bir neçə zəruri sualların siyahısı öyrənilmiş və ümid edirik ki, bu müddəa bank marketinq idarəçiliyinin qiymətləndirmələri və həllərinin hazırki vəziyyəti barədə bütün ehtiyac duyulan məlumatları təmin edəcəkdir:

- Xidmət marketinqi anlayışı nədir?
- Bank marketinqi anlayışı nədir?
- Nəzəriyyədə bank marketinq strategiyası nədir?
- Bank marketinqin idarəedilməsində nəyi təhlil etmək lazımdır?
- Praktiki vəziyyətdə bank marketinq planı varmı?

12.2.1. Tədqiqatın metodologiyası və məlumatların toplumu

İki növ araşdırma üsulu vardır, Kəmiyyət və Keyfiyyət. Keyfiyyət üsulu deduktiv kimi görüldüyündən kəmiyyət üsulu ümumilikdə induktiv kimi görülür (Frankel & Devers 2000, 251-261). Statistik təhlil və şərh etmə Kəmiyyət üsullu araşdırmanın məqsədləri olduğundan, Keyfiyyət üsullu araşdırmaya müsahibə və müşahidə nəticəsində toplanmış mətnlər, şəkillər və məlumatlar daxildir.

Hər iki növdə olan araşdırma problemlərin həlli üçün nəzərdə tutulmuşdur, lakin burada müxtəlif üsullardan istifadə edilir. Kəmiyyət növlü araşdırmaya məlumatlar toplusu üçün adətən ədədi və ya sayıla bilən dəyərdə olan sorğu, nümunə və suallar daxildir. Araşdırmanın bu növü məlumatları təhlil etmək üçün müxtəlif riyazi və statistik üsulları yerinə yetirir, sonra isə bütün tədqiqatı cəmləşdirmək və ya hesablamaq üçün ədədi dəyərdən istifadə edir. Kəmiyyət növlü araşdırmanın ən zəruri hissəsi araşdırmanın iştirakçısı ilə dəyişkənlik arasındakı əlaqədir (Neili 2007).

Keyfiyyət araşdırması tam fərqli olaraq məlumatları müşahidə etmək üçün daha asan olan mətn, şəkillər ilə emal edir. Tədqiqatçı və iştirakçılar arasındakı əlaqəni birləşdirərkən Keyfiyyət Kəmiyyətdən daha səmərəlidir. Keyfiyyətin ən zəruri amili dəyişkən olmamasıdır, lakin araşdırma problemləri ilə məşğu olmaq üçün vəziyyət araşdırılması ən yaxşı vasitədir. Keyfiyyət ilk olaraq araşdırmanın bütün problemini daha dərindən təsvir edir və problemi həll etmək üçün nəzəri çərçivəyə əsaslanır.



Şəkil 1: *Keyfiyyət və kəmiyyət üsulları*
(Keyfiyyət və kəmiyyət araşdırması 2011-ci il)

Əsasən iki növ araşdırma yanaşması vardır: Deduktiv və İnduktiv. Belə deyilir ki, bu iki araşdırma yanaşmasının növünün başa düşülməsi araşdırma probleminin həll edilməsində əhəmiyyətli rol oynayır. Deduktiv və İnduktiv arasında bir neçə fərqli əsas hissələr vardır. Ümumilikdə, Deduktiv araşdırma yanaşması pozitivzm nümunəsi ilə əlaqələndirilərkən, digər tərəfdən İnduktiv araşdırma yanaşması interpretivizm (aparıcılıq) izləyir (Crowther və Lancaster 2009, 74-75). Bu o deməkdir ki, deduktiv yanaşma ümumi ideyaya əsaslanan xüsusi vəziyyətə nail olur halbuki İnduktiv yanaşma vəziyyəti ehtimal etməzdən əvvəl xüsusi ideyanı izləyir.

Vasitələri baxımından, Dedutkiv metodologiya tətdiqatçıya nəzəriyyədən fərziyyə əmələ gətirməsinə imkan verir, lakin induktiv metodologiya xüsusi müşahidədən daha geniş ümumiləşdirməyə və nəzəriyyələrə "aşağı-yuxarı" yanaşma kimi hərəkət edir.



Şəkil 2: *Deduktiv və induktiv tədqiqat yanaşmaları (keyfiyyət və kəmiyyət araşdırması planı 2006-cı il)*

Bu nəzəriyyə keyfiyyət və kəmiyyət üsulundan istifadə edir.

Fakt budur ki, bütün məlumatlar əsas mənbə kimi müşahidələrə əsaslanır. İkinci mənbə isə kitablar, məqalələr, jurnallar və şirkətin illik hesabatının qaynaqlanır. Bundan başqa, keyfiyyət üsulu əsasən müsahibə və müşahidədən əldə edilmiş və ədədi olmayan məlumatlar ilə işləyir, lakin Kəmiyyət

üsulu asan toplanan məlumatları ilə işləyir. Buna görə də problemi həll etmək üçün keyfiyyət araşdırmasından istifadə edildi. Müəlliflər əsas şirkətdə təcrübə təlimləri keçərkən real müşahidədən bəhrələnirlər və əsas şirkətin gələcəkdə üzləşəcəyi problemlər barədə proqnoz verərkən və həlli yollarını təklif edərkən məntiqi təfəkkür məlumatların toplanmasına əsaslanır. Buna görə də deduktiv üsuldan istifadə edilməlidir.

12.2.2. Xidmət marketinq idarəçiliyi

Bu fəsil marketinq idarəçiliyinin bütün əsas təhlilini əhatə edir. Ilk hissə marketinq, xidmət, xidmət marketinq planının əsas anlayışının verilməsi haqqındadır. İkincihissə isə vəziyyətin təhlili; marketinq məqsədləri; seqmentasiya (hissələrə ayrılma), hədəf, istiqamət və marketinq birləşməsindən ibarət olan nəzəri yanaşmada ətraflı marketinq planı üzrə cəmləşmə haqqındadır.

12.2.2.1. Xidmət marketinqi

Xidmət marketinqi anlayışı ümumiyyətlə aşağıdakı marketinq ideyası və xidməti ideyasını birləşdirməklə başa düşülə bilər. Bundan əlavə, xidmət marketinqi ideyasını və xidmətlərin xüsusiyyətlərini əldə etmək zəruridir.

Marketinq anlayışı

Philip Kotlerə (P. Kotler 2010, 7) görə, marketinq aşağıdakı kimi başa düşülür:

“Marketinq fərdlərin və qrupların digərləri ilə dəyəri pulsuz olan məhsullar və xidmətləri yaratmaqla, təklif etməklə və mübadilə etməklə ehtiyacı olduqlarını və istədiklərini əldə etdikləri sosial prosesdir. ” (Sosial anlayış)

Amerika Marketinq Assosasiyasına görə: Marketinq planlaşdırma prosesi, konsepsiyanın yerinə yetirilməsi, fərdi və təşkilati məqsədi razı salan mübadilələri əmələ gətirmək üçün ideyanın, malların, xidmətlərin təbliğatı və paylanmasını bildirir (P. Kotler 2010, 7)

Ümumiyyətlə, marketinqin müxtəlif sadə anlayışları vardır, lakin marketinq mənfəətdə müştəri məmnuniyyətinin təmin edilməsi kimi görülə bilər.

3-cü şəkildə göstərildiyi kimi, marketinq proseduru müxtəlif mərhələlərə bölünə bilər. Birinci mərhələ müştərinin nəyə ehtiyacı olduğunu, istədiyini və tələb etdiyini müəyyən etməkdir. Bu müxtəlif müştəri seqmentləri arasında dəyişə bilər. Növbəti addım müştərinin mümkün ehtiyacları və istəklərini təmin etmək üçün məhsul və ya xidmətləri yaratmaq və ya inkişaf etdirməkdir.

Bunun ardınca, satın almanı irəli çəkmək üçün şirkətlər həmin mənfəətləri irəli sürməli və ya bildirməlidir. Bu mərhələyə müştərinin tələbini qarşılamaq üçün düzgün marketinq kanalını tapmaq daxildir; məhsulları düzgün yerdə əlverişli etmək mübadiləni asanlaşdırmaq deməkdir. Bu mərhələ uğurludursa və müştərilər xidmətlərə doğru maraq göstərirsə, müştərilərin məhsullardan razı qalması, həmçinin məhsulların dəyəri və keyfiyyəti üzrə müştəri məmnuniyyətini təmin etmək üçün növbəti məqsəd düzgün səviyyədə qiymət verməkdir. Sonuncu zəruri mərhələ müştərilərin məmuniyyət səviyyəsini izləməklə və buna cavab verməklə, məsələn sadiq müştəriləri kiçik mənfəətlər ilə təmin etməklə müştərilər ilə uzun müddətli əlaqələrin qurulmaqsıdır (Kotler & Armstrong 2010, 29-30).

Şəkil 3: *Əsas marketinq anlayışı (aprel 2011)*

Xidmət anlayışı

Xidmətlər ənənəvi olaraq müəyyən etmək üçün çətin olmuşlar. Bu xidmətləri qəbul edənin adından istənilən dəyişikliyi verməklə müştərilər üçün mənffətlər əmələ gətirən yerinə yetirmə və ya hərəkət kimi qəbul edilə bilər (Lovelock & Wright 2001, 4-10).

Xidmət bugünki iqtisadiyyatın əsas hissəsini təşkil edir. Xidmət sektorları inkişaf etmiş ölkələrdə əsasən yeni işləri nəzərə alır. aşağıdakı 4-cü şəkil bunu doğru təsvir edir.

Xidmət iqtisadiyyatında artım

Dünya Bankına görə xidmətlərdəki artım dərəcəsi dalğa kimidir. Şəkildən göründüyü kimi, məşğulluğun kənd təsərrüfatı, xidmət və sənaye arasındakı payı dramatik şəkildə dəyişmişdir. Xidmət getdikcə iqtisadi inkişafda daha da mühüm rol oynayır. Kapital gəlir artdığından, xidmət getdikcə məşğulluq üzərində üstünlük təşkil edir.



Şəkil 4. *Xidmət sektorunda artım*
(maliyyə kapitalizminin ilk səfəri 2009-cu il)

Aviaşirkət, hotel, bank, hətta B2B xidmətləri və restoranlar, camaşırxanalar, taksi kimi bir sıra yerli mülkiyyətdə olan və ya kiçik biznes

kimi çox böyük beynəlxalq korporasiyalardan ibarət olan... təhsil, maliyyə xidmətləri, əyləncə, ərzaq xidmət, hotelçilik sənayesi, nəqliyyat, səhiyyə, tikinti kimi iqtisadi xidmətin müxtəlif növləri vardır.

Xidmət marketinq planı

Marketinq planı şirkətlər və ya xüsusi məhsul qrupları üçün qısa müddətli və orta müddətli əsas strateji məqsədləri müəyyən edən bazar mühitinin təhlilindən əldə edilən yazılı sənəddir. Bundan sonra, bu məqsədləri və hərəkətləri həyata keçirmək, nəhayətdə isə maliyyə taktikalarının müəyyən edilməsinə yardım etmək üçün gəlir və xərcləri hesablamaq üçün zəruri vasitələri müəyyən edirlər. (Kotler & Keller 2006, 10)

Marketinq planı yaratmaq üçün necə müxtəlif fikirlər vardır. Kotler (Kotler 2000, 169) görə marketinq planı vəziyyətin təhlili, marketinq məqsədləri və hədəfləri, marketinq strategiyası, marketinq fəaliyyət planı və marketinq nəzarətindən ibarət olmalıdır. Halbuki, Woodun fikrincə (Wood, Marketinq Planı Dərsliyi 2011, 64) Marketinq Planı həmçinin bazar mühitinin təhlili, marketinq məqsədi və strategiyaları, marketinqin yerinə yetirilməsi, qiymətləndirmə və nəzarətdən ibarət olmalıdır. Dəyişdirilmiş Wood modeli aşağıdakı şəkildə istifadə olunur.

***Şəkil 5.** Marketinq planı (Wood, Marketinq Planı Dərsliyi 2011, 64)*

5-ci şəkildə göstərildiyi kimi, marketinq planının əvvəlində bazar mühitində rəqabət qabiliyyətini saxlaya bilməsi və inkişaf etdirməsində şirkətin qabiliyyətinə təsir edə bilən amilləri və qüvvələri dərk edə bilməsi üçün şirkətlər ilk olaraq vəziyyətin təhlilini aparırlar. Müştərilərinin tələbatına uyğun olaraq məhsullara düzəliş etməklə yanaşı istehlkçıların narahatlıqlarını, motivasiyalarını dərk etmək üçün bazar mühitini başa düçmək zəruridir. Bazar tədqiqatının iki səviyyəsi olan daxili və xarici mühit biznes üçün güclü, zəif cəhətləri, imkanları və təhlükələri müəyyən etməyə yardım edəcəkdir.

Növbəti addım marketing məqsədləri müəyyən etməkdir. Marketinq məqsədləri şirkətin uzun müddətli məqsədlərinə doğru aparan qıza müddətli hədəflərdir. Bu sizin marketinq vasitəsilə fəaliyyətləri istədiyiniz şeylərdir. Səmərəli marketinq məqsədlərini nəzərə alarkən bir neçə mühüm amillər vardır. İlk olaraq, onlar vəziyyətin təhlili, marketinq məqsədli seqmentasiya, hədəfləmə və marketinq strateqiyalarının istiqamətləndirilməsi, ölçülə bilən, vaxta bağlı, realistik və əldə oluna bilən olmalıdır. İkincisi isə onlar marketinq strateqiyaları ilə sıx əlaqəyə malik olmalı və şirkətin qabiliyyətinə uyğun olmalıdır (marketinq nədir 2011)

Bunu izləmək marketinqin seqmentasiya mərhələsi deməkdir. Bu strateji marketinq planlaşdırmasının məntiqi perspektivinin izah edilməsi və həyata keçirilməsində əsas dinamika kimi görülə bilər. Bu mərhələyə seqmentasiya, hədəfləmə və istiqamətləndirmə daxildir. Bu üsul vasitəsilə, şirkət müxtəlif oxşarlıqlara görə bazarı alt-qruplara bölür. Bu şirkətə onun təminatına ən uyğun olan seqmenti müəyyən etməsində yardım etmiş olur (Middleton 2009, 99-101)

Nəhayət, marketinq strategiyalarının müəyyən edilməsidir. Xüsusilə müştərilər və rəqiblər bazar mühiti barədə dərin anlayışa malik olduqdan sonra, şirkət marjetinq strategiyalarını müxtəlif marketinq vasitələri ilə müəyyən etməlidir. Adətən bir şirkət öz məhsulu üçün qoyulan tələblərin üzərində təsirinə yardım etmək üçün marketinq birləşdirmə stratqgiyası kimi 4Ps və ya 7Ps marketinq vasitələrindən istifadə edir.

12.2.2.2 Xidmətin xüsusiyyətləri

Aydındır ki, xidmətlər "Beş I-nin xidməti" adlanan əsas xüsusiyyətlər ilə iza edilə bilər. Bu aşağıdakı şəkildə göstərilmişdir. Şəkildə verildiyi kimi, məhsullar fiziki məqsədlər və ya qurğular kimi görüldüyündən xidmətlər yerinə yetirmə və ya aktlar kimi təsvir edilmişdir. Xidmətlərə toxunmaq, iyləmək və ya baxmaq olmur. Buna görə də, daşınan və ya saxlanan ehtiyaclar yoxdur. Xidmətlərin istehsalı və istehlakı eyni vaxtda baş verməsi səbəbindən xidmətlər də həmçinin gələcəkdə satılmalı olan məhsullar kimi saxlanıla bilməz. Onlar müştərilərin zövq ala bildikləri performanslardır, beləliklə xidmətlər üçün ehtiyatlar yoxdur.



Şəkil 6. *Beş I-nin xidməti (Lovelock & Wright 2001, 5-7)*

Xidmət tədarüklərinin avtomatik ola bilmələrinə baxmayaraq, xidmət provayderləri xidmətləri müştəri üçün diqqətlə hazırlayıb və paylaşması səbəbindən xidmətlər bir-birindən ayrılmazdır. Xidmət provayderləri həmçinin ehtiyatları, sistemləri təyin etməklə və çatdırılma prosesi üzərində diqqətli olmaqla xidməti ehtiyatlı şəkildə hazırlamalıdır. Əlavə olaraq, müştərilər də həmçinin istehsal prosesinə cəlb olunurlar. Adətən, müştərilər xəstəxanalar, saç salonları kimi özünə xidmətlər və ya digər xidmətlərin yaradılmasında dəstək ola bilərlər.

Xidmətlər indi müxtəlif növlərə ayrılır. Hər bir xidmətin öz unikallğı vardır və digərlərindən fərqlidir. O eyni yerdə, eyni vaxtda əmələ gəlmə və ya istehlakda üst-üstə düşə bilməz. Yuxarıda qeyd edildiyi kimi, xidmətlər bir-birindən ayrılmazdır. Müştəri də həmçinin xidmət prosesinin hissəsidir - müştərilərin xidmət sektorunda kritik şəkildə cəlb edilməsi. Bu ən zəruri xüsusiyyətlərin birində görülə bilər. Müxtəlif paylama kanallarına malik olduğundan xidmətin çatdırılması olduqca çətindir. Biznesin digər növlərindən fərqli olaraq, xidmət biznesi elektron kanallardan istifadə edə bilər və ya xidmət fabrikini və istehlak məntəqəsini tək məkanda birləşdirə bilər. Bu idmət xüsusiyyətlərinin hamısı bank işinin mahiyyətində aydın şəkildə təhlil ediləcəkdir (Lovelock & Wright 2001, 5-7)

Beləliklə, xidmət marketinqi öz təbii xüsusiyyətlərinə görə digər biznes növlərindən tamamilə fərqlənir. Xidmət marketinqi satınalma, dərk etmə, qiymətləndirmə prosesləri və hədəf bazarının xüsusi tələblərinin daxil olduğu bazara xidmət etmək üçün uyğunlaşdırılmış nəzəriyyə sistemidir. Bu proseslər bütöv xidmət təchizatı və istehlak prosesində strategiya, ölçü sistemi təmin edilməklə həyata keçirilir. Marketinq biznes, istehlakçılar və cəmiyyət arasındakı maraqların tarazlaşdırılması əsasında xidmət və istehlakçıların tələbləri və fəaliyyətləri arasında dinamik qarşılıqlı əlaqədə saxlanılır.

12.2.3. Bank marketinqi

12.2.3.1. Dünyada bank marketinqinin tarixi

Əvvəllər, banklara sadəcə " pul saxlayan seyf" kimi baxılırdı. Bank əməliyyatları aparılan zaman, müştərilər uzun müddət gözləməli olduqlarına görə bezirdilər.

Bir çox digər şirkətlər marketinq strategiyaları tətbiq etdiyi və daha çox uğur qazandığı halda, bank menecerlərinin başı müştəri ehtiyaclarını, həmçinin cəmiyyət tələblərini nəzərə almayaraq hələ də öz şəxsi əməliyyatlarına qarışmışdı. Lakin, biznes mühiti dəyişdiyi zaman, bank fəaliyyətlərində artan güclü rəqabət bank menecerlərini marketinqə maraq göstərməyə vadar etdi. 20-ci əsrin 60-cı illərindən bu marketinq bazar sektoruna daxil olmağa başladı. ABŞ-da 60-cı illər parakəndə bank əməliyyatları marketinqinin inkişafında bir dövr rolunu oynayırdı. Avropada isə 70-ci ilədək bu hal hələ baş verməmişdi, belə ki, marketinq İngiltərə bankında geniş şəkildə müzakirə olunan mövzuya çevrilmişdi. (Uppal, bank məhsullarında yaranan problem və strategiyalar marketinqi 2009, 35-42)

Lakin, ilk dəfədən marketinq tətqiqatının heç bir qaydası və uyğun məqsədi yox idi. Tədqiqat marketinqi tədricən inkişaf edə biləcək çoxlu mərhələlərdən keçmişdir. İlk olaraq, bank menecerləri müştərilərin cavablarını öyrənmiş və onlarla bağlı tədqiqatlar aparmış və daha sonra xidmət proseduralarını, onun yerlərini, vaxtını və keyfiyyətini tədricən daha da inkişaf etdirmişdirlər. Bundan əlavə, müştəri cəlb etmək üçün, mehriban münasibət, mehriban atmosfer yaratmaq yolu ilə müştərinin razı salınması siyasətini yürütməyə başladılar. Xüsusilə, bank menecer-

ləri müştərilərin zövqlərinə uyğun məhsul istehsal etmək üçün axtarışlar aparırdılar.

Beləliklə, uzun müddət bank marketinqi səmərəli şəkildə istifadə olunmadığı üçün bank sisteminin təsirliliyini kəskin şəkildə məhdudlaşdıran marketinqə çevrilmişdi. Lakin, bank menecerləri marketinqin vacibiyini dərk edən kimi, onun perspektivi getdikcə daha çox artdı. Marketinq banklara müvəffəqiyyət qazandıran ən vacib faktorlardan birinə çevrildi.

12.2.3.2 Bank marketinqinin vacibliyi

Bank marketinqi anlayışı

Bank marketinqinə dəqiq anlayış vermək heç də asan deyil, çünki bank marketinqinin bir çox anlayışları vardır.

Bank marketinqini hədəf müştərilərin ehtiyaclarını ən yaxşı şəkildə qarşılaya biləcək bank işi xidmətlərinin təmin edilməsi prosesinə təsir edən bank işi strategiyaları sistemi kimi başa düşmək olar. Bank marketinqi banklar, müştərilər və cəmiyyət arasındakı mənfəətlərin nəzərə alınması əsasında məhsullar, müştərilərin tələbləri və rəqiblərin fəaliyyətləri ilə xidmətlər arasındakı mühüm qarşılıqlı əlaqədə saxlanılır. (Shodhganga 2009, 1-12)

Banklarda marketinqin rolu

- Marketinq bank biznesinin əsas iqtisadi problemlərinin həll edilməsində iştirak edir. Kommersiya bankı maliyyə bazarları ilə bağlı valyutanın istifadə edilməsi üçün təşkil olunmuşdur. O əsas ticarət funksiyaları ilə ölkə daxilində və xaricdə bir çox əməliyyatlar yerinə yetirir. Eyni zamanda, banklar iqtisadi baxımdan-maliyyə xidmətlərinin təmin edilməsi üçün pul vəsaitlərinin təşkil edilməsi və çatdırılmasında əsas vasitələrdir. Banklar maliyyə iqtisadiyyatlarında ən mühüm təşkilatlar hesab edilir. Beləki, biznesin digər növləri kimi, banklar da marketinqin fəal dəstəyi ilə biznes fəaliyyətinin əsas iqtisadi problemlərini seçməli və onları həll etməlidirlər. (Adillawa 2011)
- Marketinq menecerləri informasiya topanılması, müştəri tələblərinin araşdırılması, məhsullarına rəqiblərinin öyrənilməsi, insanların və müəssisə müştərilərinin məhsullardan istifadəsinin araşdırılması kimi fəaliyyətlər vasitəsilə bankların bazar tələbləri üçün təmin

etdiyi xidmət və məhsul növlərini müəyyənləşdirən daha yaxş qərarlar verə bilərlər..... Bu, bank menecerlərinə bazarlarda hansı növ məhsulların buraxılması və hansı xidmətlərin göstərilməsi ilə bağlı qərar verməkdə kömək edəcək. (Gupta 2012)

- Marketinq məhsul və xidmətlərin keyfiyyətinin artırılmasına, geniş nüfuzun yaradılmasına və banklar arasında rəqabətliliyinin artırılmasına böyük imkan yaradır. Marketinq bank məhsulları və xidmətlərinin təmin edilməsi istiqamətində avadanlıqlar, mühəndislik texnologiyası, işçilər və müştərilər kimi bir çox metodlara sahibdir. Xüsusilə, marketinq strateji texnoloji inkişaf texnikaları, insan resursarı təlimi üzrə strategiyalar və müştəri strategiyaları vasitəsilə hər bir elementdən istifadə edir. (Gupta 2012)
- Marketinq menecerləri banklara müştəri gəlirləri, işçilər və banklar arasında uyğun münasibətin qurulmasında kömək edir. Banklar və müştərilər arasında münasibətin və biznes fəaliyyətlərinin motivasiya prosesini qoruyub saxlamaq çox çətindir.

Bank marketinqinin funksiyaları

Bank marketinqi bankın inkişafına mühüm töhfə verən dörd əsas ardıcıl funksiyadan ibarətdir. Bu funksiyalar aşağıdakı şəkildə göstərilə bilər:



Şəkil 7. *Bank marketinqi funksiyası*
(Uppal, Bank məhsulu marketinqi 2009, 35-42)

7-ci şəkildə göstərildiyi kimi, ilkin funksiya bazar tələblərinə uyğun bank məhsulları və xidmətlərinin hazırlanmasıdır.

Marketinq bazar tələblərini, istəklərini və istiqamətlərini, müştərilərin ehtiyacları ilə bağlı hər hansı dəyişiklikləri müəyyən etmək üçün bazarı tədqiq edir. Bu səbəbdən, onlar müxtəlif bazarların artan ehtiyaclarını ödəmək üçün daha çox cəlbedici olan və daha çox xeyir gətirən yeni məhsullar və xidmətlər hazırlaya bilər. Və eyni zamanda, onlar rəqabətli vəziyyət yarada bilərlər. (Uppal, bank məhsullarında yaranan problem və strategiyalar marketinqi 2009, 35-42)

- **Paylama funksiyası**

Bank marketinqinin paylama funksiyası seçilmiş müştərilər üçün bank məhsulları və xidmətlərinin təşkil edilməsi prosesini əhatə edir. Onun məzmununa potensial müştərilərin araşdırılması və seçilməsi, bank məhsulları/xidmətlərinin seçilməsi və istifadəsində müştərilərin istiqamətləndirilməsi və onlara köməklik göstərilməsi, müştəri xidməti sahələrində fəaliyyətlərin təşkil edilməsi, müştərilərin tələblərini qarşılamaq üçün yeni paylama kanallarını inkişaf etdirməkdən ötrü axtarışlarınhəyata keçirilməsi daxildir.

- **İstehlak funksiyası**

Məhsullar bir çox faktorlardan ibarətdir, lakin onlar arasında ən mühümü məhsul/xidmətlərin keyfiyyəti və münasib qiymətlərdir.

Bu funksiya həmçinin tam şəkildə müəyyən edir ki, əməliyyatlar göstərilənlərə: müştərilərin başa düşülməsi, müştərilərlə əlaqələrin qurulması, müştərilərə yaxınlaşmaq, təlimat prosedurlarından istifadə edərək məhsul/xidmətlərin təqdim edilməsinə uyğun yerinə yetirilməlidir.

- **Təminat funksiyası**

Üç funksiyanı yerinə yetirmək üçün əlverişli şəraitin yaradılması ilə bağlı funksionallığıntəmin edilməsi bank biznesində marketinqin mühüm funksiyasıdır. Təmin edilmiş fəaliyyətlərə reklamlar, təbliğat və müştəri konfransları daxildir. (Uppal, bank məhsullarında yaranan problem və strategiyalar marketinqi 2009, 35-42)

Bank biznesində marketinqin vacibliyi

- Məhsulların xarakteristikası

Bank xüsusi əmtəə olan valyuta ticarəti üçün təşkil olunur. Bankın məhsulları müştərilər üçün təmin olunmuş valyuta bankları ilə əlaqədar xidmətlərdir. Bundan başqa, bankın məhsulları tam xarakterli xidmətlər

yerinə yetirir və aşağıda göstərilən əsas xüsusiyyətlərə malikdir:

- Xüsusi obyektlərə nəzərən proses olan bank məhsul və xidmətləri gözəgörünməzdir. Digər tərəfdən, onlar birbaşa olaraq pulla bağlıdırlar, pul bank məhsulları yaradan əsas tərkib hissədir. Ümumilikdə, onlar bazar məlumatına və müştəri psixologiyasına qarşı çox həssasdırlar. Faiz göstəricilərində hər hansı kiçik dəyişiklik bank məhsulları və xidmətlərinin seçilməsində müştəri psixologiyasına ciddi şəkildə təsir göstərir. (Lovelock və Wright 2001, 4-10)

İstehsal və istehlak eyni anda baş verir, məsələn məhsul və xidmətlərin təmin edilməsi istiqamətində müştərilərin birbaşa cəlb edilməsi buna misaldır. Bank məhsulları və xidmətləri zamanın heterogenliyi və şərti fəaliyyyətlərin icrası təşkil olunmaqla, müxtəlif sahələrdə təşkil olunur.

Bank məhsulları getdikcə müxtəlifləşir, yeni məhsul və xidmətlərın əsası qoyulur. Bank məhsulları sosiallaşmaya doğru gedir, belə ki, məhsulların təmin edilməsində hər hansı kiçik yalnış (məs. nəğd ödənişin olmaması, ödəniş qarışıqlığı və yaxud da qüsurlu ATM sistemi) bankların nüfuzuna təsir göstərə bilər. (Kotler və Armstrong 2010, 269-270)

- Müştərilərin xüsusiyyətləri

Müştəri komponenti bankların qurulmasında və onların inkişafında çox mühüm xarakter daşıyır. Müştərilər təkcə bank məhsulları və xidmətlərinin təmin edilməsi prosesində yox, həmçinin məhsul və xidmətlərin istifadəsində birbaşa iştirak edə bilərlər. Buna görə də, müştərilərin tələbləri, məhsul/xidmət tələbatları məhsul/xidmətlərin miqdarı, strukturu və keyfiyyəti baxımından bank əməliyyatlarında qərar amili mütləq olmalıdır. Bank müştəriləri müxtəlif və qarışıqdır və bir çox müxtəlif seqmentasiya meyarlarından ibarətdir. Müştərilərdən başqa, bank xidmətlərinə olan tələblər eyni deyil, onlar daha çox dəyişkəndir. (Kotler və Keller 2006, 269-275)

- Rəqabətin xarakteristikaları

Bazar iştirakçılarının sayı artdığı və bank məhsul portfili davamlı şəkildə genişləndiyi zaman, bank sektorunda rəqabət kəskinləşir. Rəqabət təzyiqi rəqabətcil marketinq fəaliyyətləri, texnologiya formasında və cədvələ əsasən (rəqabətlilik qabiliyyətini artırmaq üçün birləşmə, ittifaq qurma və yaxud bir araya gəlmə üzrə) təsvir edilmiş banklar arasında hazırki və gələcək tendesiyalarda real artımlı bank məhsulları yaratmaq üçün təkan rolunu oynayır.

12.2.3.3. Vəziyyətin analizi

Marketinq mühiti nəzarət altında deyil, bu səbəbdən şirkətlər marketinq strategiyalarının qurulmasına xüsusi diqqət yetirməlidirlər. Marketinq mühiti yalnız marketinq şöbəsini idarə etmək bacarığına təsir göstərə biləcək şirkətdən kənar fəal mövzu və fəaliyyətlər toplusudur, belə ki o hədəf müştərilərlə daha yaxşı əlaqələr qurur və qoruyub saxlayır. Vəziyyətin analizi prosesi aşağıdakı şəkildə ümumiləşdirilə bilər:

8-ci şəkildə göstərildiyi kimi, situasiyanın təhlili işində, şirkət təşkilatın imkanlarını, müştəriləri və biznes mühitini dərk etmək üçün təşkilatın daxili və xarici mühitini təhlil etməlidir. Bu bir sıra analiz metodundan ibarətdir: SWOT analizi, Porterin beş qüvvə analizi və Porterin dəyər zənciri. Bu müştərilərlə uzun-müddətli əlaqələrin qurulmasında, mühit daxilində şirkətin təşkilati və məhsul vəziyyətini göstərmək üçün əhəmiyyətli mərhələ hesab edilə bilər. Bu baxımdan, şirkətlər öz situasiya analizlərini ümumiləşdirməklə bazarda öz bacarıqlarını dərk edə bilərlər. (Streenburgh və Avery 2010).



Şəkil 8. *Vəziyyətin analizi (SWOT (güclü tərəflər, zəif tərəflər, imkanlar, təhlükələr- analizi til besvaer 2011)*

Aşağıdakı şəkil biznes əməkdaşlığına birbaşa və ya dolayı yolla təsir edəcək faktorları aydınlaşdıracaq. Menecerlər güvənə biləcəyi güclü tərəflərini və yaxud da düzəldilməsi yada rəqabət faktorları kimi kiçik dəyişikliklər edilməsi lazım olan zəif cəhətlərini müəyyən etməlidirlər.



Şəkil 9. *Vəziyyətin analizi (Hazırki vəziyyətin qiymətləndirilməsi 2010)*

Şəkildə göstərildiyi kimi, strateji marketinq planının hazırlanmasında şirkətin təhlil etməli olduğu bir çox daxili və xarici faktorlar vardır. Bu faktorlar aşağıda geniş şəkildə göstəriləcək.

12.3.1. Daxili mühit

Daxili analiz müvəffəqiyyət qazanmaq üçün şirkətin missiyasını, hədəflərini, maliyyə gücünü, biznes münasibətlərini və amillərini nəzərdən keçirir. Daxili faktorların təhlil edilməsi şirkətlərin öz güclü yönlərindən istifadə edə bilməsi və zəif cəhətlərini inkişaf etdirə bilməsi üçün onlara öz zəif və güclü tərəflərini müəyyənləşdirməyə kömək edəcək və nəticədə bu şirkətlər ən yaxşı müştəri xidməti təmin edəcək. (Wood 2011, 30-31) Daxili faktorların əsas xüsusiyyəti uzunmüddətli bacarıqların müəyyən edilməsində, rəqabət üstünlüklərinə nail olmaqda və yenilik, təsirlilik, keyfiyyət və müştəri cavabdehliyinə daha çox dəyər verilməsində şirkətlərə kömək etməsidir. (Porterin dəyər zənciri 2013)

Dəyər zənciri şirkətin öz güclü və zəif tərəflərini müəyyən etməsi üçün analiz etməli olduğu bütün fəaliyyətlərin sadələşdirilmiş izahını verir. İlkin fəaliyyətlərə birbaşa olaraq sərhəddaxili loqistika, əməliyyat, sərhəddən kənar loqistika, marketinq və satışlar kimi istehsal etmə, satış, paylama və ya müştərilərə xidmət etmə daxildir. Təchizat fəaliyyətləri ilkin fəaliyyətləri yerinə yetirmək iqtidarında olan fəaliyyətlər daxildir. İnsan resursu işçilərin təşkilata işə götürülməsi, onların təlimatlandırılmasıvə təltif olunması yoludur. Və sonuncusu isə şirkətin əməliyyatlar üçün istifadə olunan mədaxilləri almaq və onları saxlamaq, həmçinin təchizatçılar və əməkdaşlarla daha yaxşı əlaqələrin qurulması üçün ehtiyacı olduğu tədarük prosesidir. (Porter 1985, 11-15)

Maliyyə gücü, texnologiya, heyət idarəçiliyi, şəbəkə, şirkətlərdə müxtəlif şöbələr kimi daxili faktorlar və bu şöbələr arasındakı münasibət aşağıda təhlil olunacaq. (Singh 2012). Maliyyə vəziyyəti: Güclü maliyyə vəziyyəti bazarda şirkətin rəqabət gücünü artırır. Uğurlu strategiya yeritmək üçün, şirkətin güclü maliyyə vəziyyətinə malik olması çox vacibdir. Bu şirkətin risklərə qarşı müqavimət göstərmək gücünün olduğu mənasına gəlir. Bundan başqa, texnoloji investisiya böyük məbləğdə kapital tələb etdiyi haldafilial şəbəkəsində sərmayə tutumu, İT infrastruktur texnologiyası biznes inkişafı üçün çox mühüm tələbdir. Buna uyğun olaraq, şirkətin maliyyə vəziyyəti onun inkişafında mühüm rol oynayır.

İdarəçilik bacarıqları və heyət: Şirkətin idarə heyəti çox mühüm xarakter daşıyır, bu heyət şirkətin uğursuzluğunun və ya qələbəsinin əsas amilidir. Dərhal və ağıllı şəkildə qərarlar qəbul etmək üçün onlar nizamlı olaraq bazarı gözdən keçirməlidirlər. Təkcə idarə heyətindən ixtisaslı

olmaq tələb edilmir, həmçinin işçilər də müəyyən biliyə sahib olmalıdırlar, çünki onlar şirkətin üzüdürlər. Bir işçinin hər hansı səhlənkarlığı və yaxud da səhvi şirkətin keyfiyyətini müəyyən edir. Şirkət şəbəkələri: böyük bazar payına sahib olmaq, daha çox məhsul və xidmət satmaq üçün şirkətlər tez- tez geniş filial şəbəkəni inkişaf etdirir və müştərilər üçün müxtəlif məhsul və xidmətlər təmin etmək üçün hazırlıqlar görürlər.

Şirkət departamentləri arasında əlaqə: Şirkətlərin təşkilat strukturu marketinq strategiyasının həyata keçirilməsində mühüm rol oynayır. Təşkilat strukturu hər şöbə və işçiyə məxsus rolları və tapşırıqlar bölgüsünü müəyyən edir. Şirkətlərin bölgüsü təşkil olunması və nizama salınması üçün şöbələr arasında əlaqə olmalı və onlar bir-birini dəstəkləməlidir.

Bu faktorlar bazarda şirkətlərin rəqabət mövqeyini gücləndirməklə, bazar tələblərini qarşılamaq üçün şirkətləri əməliyyatlarla təmin edir. Bu vacib daxili resurslardan istifadə etmək üçün uyğun strategiyaya malik olan marketinq şöbəsi tələb edir. (Thomas 2011, 52)

12.2.3.4. Xarici mühit

Xarici mühit demoqrafik, iqtisadi, təbii, texniki, siyasi və mədəni amillər kimi mikro- mühitə təsir edən daha böyük sosial səviyyəli qüvvədir. Bu vəziyyətdə, bank marketinq əməliyyatına təsir edən xarici faktorları təhlil etmək üçün PESTEL vasitəsindən istifadə olunmalıdır. (Arpit 2011).



Şəkil 10. *Pestel analizi (Arpit 2011)*

Yuxarıda göstərilən şəkildən də göründüyü kimi, PESTEL analizi makro –mühitün siyasi, iqtisadi, sosial, texnoloji, ekoloji, hüquqi amillərini təhlil edən faydalı strateji vasitədir. Belə ki, şirkətlər bu amilləri nəzərə almalıdır. Nəticədə, onlar bazar artımı və ya tənəzzülünü, biznes vəziyyətini, əməliyyatlar üzrə potensial və istiqaməti tam şəkildə başa düşə bilərlər. Buna görə də, onlar təşkilat üçün imkanları maksimum səviyyəyə çatdırmaq və yaranan bütün təhlükələri azaltmaq imkanı əldə edə biləcəklər. (Pastel analizi 2010)

Siyasi və hüquqi

Hökümətin iqtisadiyyat üçünmaneçilik törətdiyi nə varsa hamı əsasən siyasi faktorlardır. Siyasi sahə ilə bağlı faktorlara vergi siyasəti, əmək qanunu, ətraf mühit qanunu, tarif, ticarət məhdudiyyətləri daxildir. Hüquqi faktorlar ümumilikdə biznesə və xüsusi olaraq istehlakçı qanunvericiliyi, məşğulluq qanunvericiliyi kimi yaşayış tikinti sənayesində fəaliyyət göstərən bizneslərə tətbiq olunan qanun növlərini bir-birindən ayırır. Bu faktorlar şirkətin necə fəaliyyət göstərməsinə, onun xərclərinə və məhsullarına olan tələbə təsir edəcək (Pest bazar analizi vasitəsi 2010).

Şirkət əməliyyatlarına qanunvericilik və hakimiyyət orqanı tərəfindən ciddi nəzarət edilir. Şirkətin fəaliyyətləri adətən qanun müddəalarına uyğun şəkildə tənzimlənir. Bu səbəbdən, hökumətin tənzimləyici siyasətindəki dəyişikliklər biznes və şirkətlərin məhsul portfilində şirkətlərə birbaşa və dolayı yolla təsir göstərir. Hökümət siyasətində və qanun nizamnamısindəki dəyişiklik şirkətlər üçün imkanlar yaratmışdır. Marketin şöbəsi yeni qaydalara uyğun olaraq, biznes fəaliyyətlərin nizama salmaq üçün qanun dəyişiklərindən müntəzəm olaraq xəbərdar olmalıdır. Cari mühit inteqrasiyasında marketinq şöbəsi ASEAN, APEC, WTO kimi şirkət fəaliyyətləri ilə bağlı beynəlxalq müəssisəələrin qanunlarını bilmək üçün qanunvericilikdə ekoloji dəyişiklik meyillərini təhlil etmək və onları əvvəlcədən proqnozlaşdırmaqdan ötrü araşdırmalar aparmalıdır. (Marketinq nəzəriyyələri pestel analizi 2009)

İqtisadi faktorlar

İqtisadi faktorlar təşkilatın bizneslə məşğul olmasına və onun necə gəlir qazandığına əhəmiyyətli şəkildə təsir edir. Buna iqtisadiyyat və onun vəziyyətinin bütün əsas faktorları daxildir. İqtisadi faktorlar dedik-

də faiz göstəriciləri, iqtisadi dövrün mərhələsi, ödənişlərin balansı, fiskal siyasət və valyuta nəzərdə tutulur. Bu faktorlar çox geniş olduğuna görə şirkət əməliyyatlarına birbaşa təsir edən xüsusi təsirləri müəyyən etmək üçün onlar seçilməlidir. (Marketinq nəzəriyyələri pestel analizi 2009).

Sosial faktorlar

Hər bir ölkə fərqlidir və hər birinin xüsusi yanaşması var. Sosial faktorlara demoqrafiya (əhali səviyyəsi, əhali artımı, yaş, cins, gəlir bölgüsü.......), yaşayış standartı, həyat tərzi uyğunluğu, sosial dəyişiklik daxildir. Bu faktorlara biznes bazarının strukturu və istehlakçı növü aiddir. Sosial faktorun dərk edilməsi bazar vəziyyətini anlamaqda, yeni potensial müştəri seqmentasiyasının meydana gəlməsi və yaxud da müştəri artımını və ya durğunluğunu müəyyən etməkdə şirkətlərə kömək edəcək. Bundan əlavə, tendensiyaların tədqiqatı potensial olaraq yeni biznes imkanlarını yarada bilər. (Wood 2011, 36).

Texnoloji faktor

Buraya avtomatlaşdırma, texnoloji stimuullar və dəyişiklik göstəricisi kimi aspektlər daxildir. Texnoloji mühit sürətli şəkildə dəyişir, yeni texnologiya nəinki yeni imkanlar yaradır və həmçinin bazar köhnə bazarı əvəz edir. Buna görə də, şirkətlər məhsulları/ xidmətlərinin köhnəlməməsi üçün daim yeni məqsədlər həyata keçirməlidir. Bu səbəbdən də, texnoloji amillər şirkət marketinqinə təsir edəcək və onun xidmət/ məhsullarını üz müxtəlif yolla qoruyub saxlayacaq. Bunlara hədəf bazarında istehsal etmə, paylama və kommunikasiya qurmaq yolları daxildir. Bundan əlavə, texnoloji amillər adətən xərclərə, keyfiyyətə təsir edir və yeniliyə gətirib çıxarır. (Kotler və Armstrong 2010, 106-107).

Elm və texnologiyanın inkişafı şirkətlərdən yenilik gətirmək və məhsul portfelini inkişaf etdirməyi tələb edir. Bu şirkət əməliyyatlarına yeniliklər gətirən ən güclü vasitədir, belə ki müştəri onlarla bağlı münasibəti şirkətlərin texnikadan istifadə etməsindən asılıdır. Bu səbəbdən də, marketinq şöbəsi yerli, regional və qlobal texnologiyanın inkişaf meyillərini izləməlidir, belə ki onlar bazar inkişafına nail ola biləcək və istehlakçıların texnoloji istiqamətlərə necə münasibət göstərdiyini və onlardan öz mənfəətləri üçün necə istifadə etdiklərini müəyyən edə biləcəklər. (Pestel analizi: biznes ekoloji analizi 2008).

Ekloji amillər

Ekoloji amillərə iqlim dəyişikliyi (suyun səviyyəsinin qalxması, daşqın, quraqlıq...), həmçinin enerji istifadəsi və tullantıların atılması daxildir. İqlim dəyişiklikləri hər bir sənayenin ticarətini və bazarda edilən təkliflərə müştərilərin reaksiyasını dəyişir. İqlim dəyişikliyinin potensial təsirləri ilə bağlı xəbərdarlığın artırılması bank əməliyyatına təsir edən əsas amillər olan PESTEL analizi, rəqabət və bazar analizi istisna olmaqla, digər mövcud amilləri azaldaraq və yaxud da aradan qaldıraraq və yeni bazarlar yaradaraq şirkətlərin fəaliyyətinə və onların istehsal etdikləri məhsula öz təsirini göstərəcək.



Şəkil 11. *Porterin 5 qüvvəsi (Wood 2011).*

Şirkətlərin sayı artdığından hər kəs öz məhsul portfelini genişləndirməyə və şirkətin nüfuzunu qaldırmağa çalışır. Şirkətlər arasındakı rəqabət getdikcə artır və kəskinləşir. İdarə başçıları bütün diqqıti "rəqabət qabiliyyətini" gücləndirməyə yönəltməli və rəqiblərini hərtərəfli şəkildə müəyyən etməlidir. Daim rəqiblərin izində olmaq şirkətlərə məhsul portfellərini inkişaf etdirməkdə kömək olacaq. Bundan əlavə, bazarda rəqabət şirkətlərin yeni məhsulmüxtəlifliyi, bolluğu yaratmaqla bazara sürətli şəkildə cavab verməsində hərəkətverici qüvvə rolunu oyanır. Belə ki, məhsulların müxtəlifliyi, bolluğu müştərilərin ehtiyaclarını ödəməkdən daha yaxşıdır. Rəqabət analiz vasitələrin biri olan Porterin beş qüv-

vəsi biznes sahəsinin məhsuldarlığını və cəlbediciliyini müəyyən edən bir modeldir. Porter modelinə rəqiblər tərəfindən törədilə biləcək hər hansı təhlükəyə görə ətraf mühiti nəzərdən keçirmək və rəqiblərin törətdiyi hər hansı təhlükəni minimallaşdırmaq üçün problemləri tez şəkildə müəyyən edilməsi daxildir. Bu bizneslərə öz gəlirliliyini və vəziyyətini digər rəqiblərə qarşı müqayisə və təhlil etməkdə kömək edir.

Sənayedə bütün şirkətlər üzrə gəlirliliyi aşağı sala biləcək yeni iştirakçıların olması, istehlakçıların onlar arasından daha çox seçim etmək hüququ olduğundan, şirkətlər öz məhsullarını satmaq və yaxud da alıcının sayı onların istehsal etdiyi məhsuldan asılıdır. Xidmətlərin əvəzedici məhsul təhlükəsi bank əməliyyatlarına təsir edir, çünki əksər şirkətlər oxşar və yaxud eyni məhsul yaxud da xidmətə sahibdir. Təchizatçı qüvvələri ilə razılaşma təchizatçlların yeni məhsul ya da xidmət yaratmaq üçün təmin etdikləri ehtiyatlardan şirkətlərin asılı olmasıdır. Bu baxımdan, şirkətlər çox da böyük təsirə məruz qalmayacaqlar, çünki onlar valyuta və bununla əlaqəli olan xidmət ticarəti ilə məşğul olurlar. Bu səbəbdən də, təchizatçı qüvvəsi pulunu şirkətlərdə investisiya qoyan eyni müştəri qüvvəsidir. Əsas hissədə, rəqiblər arasındakı rəqabət sənayənin rəqabət qabilyyətinin başlıca amilinə çevriləcək. Onlar bazarda ağalıq etmək və biznesdə qalmaq, eyni zamansa gəlir əldə etmək üçün mübarizə aparacaqlar. (Porter 2008)

SWOT analizi

"Mükəmməl" vəziyyətdə olan bir şirkət yoxdur. Şirkət üzrə çevik və yaradıcı marketinq planı yaratmaq üçün, marketinq menecerləri öz şirkətlərinin həm güclü, həm də zəif tərəflərini, o cümlədən öz imkanlarını və onu gözləyən təhlükələrihərtərəfli şəkildə təsvir etməlidir. Bu səbəbdən, bu problemləri strukturlu, analitik və tam şəkildə həll edəcək bir vasitənin olması çox vacibdir. (Böhm 2009, 1)

"SWOT analizi marketinq analizinin ən sadə və geniş şəkildə istifadə olunan növlərindən biridir. (Dibb və Simkin 1996).

Dibb və Sibminə görə SWOT analizi şirkət və bir çox ekoloji faktorlar arasındakı əlaqədən ibarət tam şəkilli yanaşma təmin edir. SWOT-un məqsədi mümkun marketinq strateji seçimlərə yanaşmazdan əvvəl şirkətin daxili güclərini və onun zəif cəhətlərini, həmçinin şirkətin xarici imkanları və təhlükələrini nəzərdən keçirməkdir. (Böhm 2009, 1-2)

ŞirkətlərdəSWOT analizinin məqsədi bütün xarici və daxili gücləri,

zəiflikləri, imkanları və təhlükələrin siyahısını yaratmaqdır və beləki, bank müdirlər strateji marketinq planına shib ola bilər. PESTEL analizin nəticəsi SWOT-da təhlükələr və yaxud da imkanlar kimi kateqoriyalaşdırıla bilər, daxili amillər isə şirkətin güclü və zəif cəhətləri hesab oluna bilər. (SWOT –daxili və xairici analiz 2013).

Bəs effektiv SWOT analizi hansıdır?

Əsasən, effektiv SWOT analizinə biznesin daxili və xarici amillərinin, o cümlədən ona təsir göstərən meyillərin qısa, maraqlı və oxunabilən xülasəsi daxil olmalıdır. Buna görə də, SWOT analizinə əlavə edilən məlumat hərtərəfli, uyğun və xüsusi olmalıdır. (Dibb & Simkin 1996, 30-31)

Bundan əlavə, SWOT analizinin təmərküzləşmə səviyyəsi mümkün qədər çox olmalıdır. Şirkətlər bütün diqqəti müştəri seqmenti səviyyəsində toplaya bilər və buda şirkətlərin öz müştərilərini qazanması üçün nəyə ehtiyacı oladuğunu aşkara çıxarır. Bundan başqa, güclü və zəif tərəflərin qiymətləndirilməsi rəqiblərlə müqayisədə şirkətlərin vəziyyətini də əks etdirməlidir. Əlavə olaraq, bir əsas məqam da qeyd edilməlidir ki, bu rəqiblərin aspektlərini müqayisə etməkdən daha yaxşıdır. (Dibb & Simkin 1996, 30-31)

12.4. Marketin hədəfləri

Açıq-aşkar görürünür ki, gələcəyi olan marketinq strategiyası üçün biz ehtiyac duyulan bütün amilləri təhlil etməliyik. Beləki, şirkət hədəf istiqaməti olmadığı halda heç vaxt düzgün istiqamətdə hərəkət etməyəcək. Faktlara əsasən, təkcə analiz marketoloqlara həll yolu göstərmir, marketinq hədəfləri şirkətin gələcəkdə xüsusi zamanlarda olmaq istədiyi yeri alternativ olaraq göstərir. (Ferrell & Hartline 2010, 89).

Janes Quinn gələcək planlarla bağlı hədəflər müəyyən etmiş və onun nəticələri əldə olunan zaman “ bu nəticələrin necə əldə olunması” qeyd edilməmişdir. James bildirmişdir ki, hansı məhsullar (və ya xidmətlər) hansı bazarlarda olmalı və əlbəttə ki, müştərilən tələblərini və ehtiyaclarını qarşılamalıdır. Və həmçinin məhsul və bazarlar arasında əlaqə ümumi və hər bir ətraflı strategiyada marketinq strategiyaları üçün çox mühüm xarakter daşıyır. (Quinn 1980, 192-193)

Bu səbəbdən qiymətlərin müəyyənləşdirilməsi, paylama və təsisatla bağlı hədəflər daha aşağı səviyyədədir, bu hədəflər marketinq hədəfləri

ilə eyni tutulmamalıdır. Onlar marketinq hədəflərinə çatmaq üçün istifadə olunan marketinq strategiyalarının bir hissəsidir. Effektiv yanaşmada bu hədəflər ölçülə bilən olmalıdır. Bu ölçü vahidi xidmət məmnunluğundan, marka dəyərindən, bazar payından və bank xidmətinin faiz göstəricisindən ibarət olmalıdır. (Quinn 1980, 192-193). Ölçülə bilən marketinq hədəfinə " bir ay ərzində şəhər müştəriləri üçün yeni debit xidmətinin təmin edilməsini" nümunə gətirmək olar.

Marketinq hədəfləri bütün diqqəti əsasən şirkətlərin maliyyə hədəfləri üzərində toplamalı və daha sonra onu əlaqəli marketinqin ölçü sistemlərinə çevirməlidir. Bu hədəflərə çatmaq üçün marketinq strukturundan istifadə edilməlir.

12.5. Seqmentləşdirmə, hədəf müəyyən etmə və yerləşdirmə

Hədəf bazara daxil olmaq üçün müvafiq media vasitəsilə mesajın çatdırılması vacibdir. Hədəf marketinqi daha geniş auditoriyada xüsusi bazar seqmentlərinin müəyyənləşdirilimәsi, daha sonra onların reklam vasitəsilə "ovlanmasıdır". Bu proses marketinqdə mühüm rola malikdir və şirkətlərə reklam investisiyaları üçün reklam xərclərini azaltmaqla daha çox dəyər əldə etməkdə kömək edir. Yalnış hədəfləmə prosesi şirkətin marketinq büdcəsini yararsız hala salır. Tarixi satış yanaşması mümkün qədər çox alıcıya reklamasiya etdiyi halda, müasir dövrdə hədəf marketinqi "hədəf alınmış" müəyyən bazarlara yönəlmişdir. Belə ki, həmin bazarlar şirkətlərə öz müştəriləri üçün dəyər yaratmaqla vaxta və büdcəyə qənaət etməkdə kömək edir. Hədəf marketinqinə 3 əsas amil daxildir:

Seqmentləşdirmə

Seqmentləşdirmə bazarı fərqli və ardıcıl meyarlara görə ayıran bir üsuldur ki, hər bir seqment (hissə) ayrıca marketinq siyasəti vasitəsilə hədəf kimi seçilə bilər. (Kotler & Keller 2006, 25-29). Həmin seqment şirkət üçün bazarda alıcıların müxtəlif ehtiyaclarını, eləcə də şirkətlərlə əlaqəsi olmayan alıcıların ehtiyaclarını müəyyənləşdirməyə şərait yaradır. Bu halda, Seqmentasiya əsas məsələ, yəni, yüksək rəqabət şəraitində Marketinqin ürəyi hesab olunur. Seqmentləşdirmə prosesi aşağıdakı ŞƏKİLda təsvir olunur:



Şəkil 12. *Bazarın seqmentləşdirilməsi prosesi*
(Dörd mərhələli bazar seqmentləşdirilməsi 2009).

Yuxarıdakı təsvirdən də göründüyü kimi, ilk seqmentləşdirmə mərhələsi şirkət missiyası və biznesin müəyyənləşdirilməsi çərçivəsində bazar parametrlərini şərtləndirən bazarın təyin edilməsi və analizidir. Növbəti mərhələ isə potensial seqment bazarların seçilməsi üçün ən yararlı ölçülərə əsaslanacaq potensial seqmentlərin müəyyən edilməsi və təsviridir. Bundan əlavə, hər bir qrupun xüsusiyyətləri aydınlaşdırılmaq və müəyyənləşdirilməklə alıcılar eynicinsli qruplarda birləşdirilir və həmin qrupların bir çox üzvlərini birləşdirən oxşarlıqlar və onları ayıran fərqlər analiz edilir. Dördüncü mərhələdə isə alıcılar, məhsullar və ya xidmətlər və rəqiblər analiz edilməklə bazar imkanları dəyərləndirilir. Alıcının (müştərinin) profili şirkətin imkanları, missiya və məqsədləri ilə uyğunluq təşkil etməklə seqmentləşdirilmiş bazarın müəyyən edilməsində şirkətlərə yardımçı olacaqdır. Bazar, potensial seqmentləşdirilmiş bazarlar və müştəri profillərinə dair bütün tədqiqatlar, araşdırmalar və dəyərləndirmələr seqmentləşdirilmiş bazarın müəyyən edilməsində şirkətlərə şərait yaradacaqdır. Sadalanan bütün mərhələləri tamamlamaqla şirkətlər daha asanlıqla strateji marketinq plan və bazarda rəqabət kampaniyasına yaxşı hazırlıq imkanı əldə edə biləcəklər. (Dörd mərhələli bazar seqmentləşdirilməsi 2009).

Effektli seqmentləşdirmə prosesində şirkətlər hər bir seqmenti ölç-

məli və müəyyən edə bilməli, asanlıqla müştəri cəlb etməli, bazar kifayət qədər əhəmiyyət daşımalı, seçilmiş seqmentdə olan müştərilər məsuliyyətli olmalı və seqmentlərin xüsusiyyətləri uzun müddət ərzində sabit qalmalıdır. Seqmentləşdirmə prosesini dəyişənlərin (parametrlərin) yararlılığına əsaslanmaqla istehlak bazarının, işgüzar bazarın, eləcə də beynəlxalq bazarın seqmentləşdirilməsi daxil olmaqla 3 qrupa ayırmaq olar. İstehlak bazarları da aşağıdakı qeyd olunan obyektiv və subyektiv vahidlərdən ibarət seqmentlərə bölünürlər:

Şəkildən göründüyü kimi, coğrafi seqmentləşdirmə müştərinin yaşadığı qitə, ölkə, dövlət, əyalət, şəhərlərə görə bazarı coğrafi vahidlərə bölür. Demoqrafik seqmentasiya yaşına, cinsinə, təhsil, ailə tərkibi, ailə həyatı dövrü, iş və mədəni keçmişinə görə müştərilərin xüsusiyyətlərinə yönəlir. Psixoqrafik seqmentasiya sosial sinif, həyat tərzi və ya şəxsi əlamətlərə aid edilir. Davranış seqmentasiyası isə alıcıları onların biliyinə, eləcə də hadisələr, istifadəçi statusu və sadiqlik statusu kimi məhsul və ya xidmətlərə münasibəti və cavabdehliyinə əsaslanmaqla qruplara bölür. Bununla belə, heç bir parametr seqmentləşdirilmiş bazarı kifayət qədər ətraflı müəyyən etmir. Buna görə də hədəf bazarın seçilməsində müxtəlif parametrlərin birləşdirilməsi vacibdir. (Bazarın təhlili 2010).



Şəkil 13. *Müştəri seqmentləşdirməsi (Steenburgh & Avery 2010)*

İşgüzar bazar da müştəriləri oxşar ehtiyaclarına və daha böyük miqyasda rast gəlinən alış davranışlarına görə qruplara bölür. Demoqrafik, coğrafi, davranış və psixoloji göstəricilər həmçinin biznes seqmentləşdirilməsində təhlil ediləcək xüsusi vahidlər hesab olunur. Demoqrafik seqmentasiya satışına, işçilərinin sayına, yerinə və alıcının məhsuldan istifadə qaydasına görə şirkətin ölçüsünü təhlil edir. Bununla yanaşı coğrafi göstəricilər xarici və daxili bazarlarda iş yerini müəyyənləşdirir. Psixoloji göstəricilər məhsullar və ya xidmətlərin alışında yekun qərar verəcək fərd və qruplara tətbiq edilir.

Nəhayət ən önəmlisi, davranış seqmentasiyası adətən texnologiya, istifadə, əlaqəli parametrlər, alış vəziyyəti kimi dəyişənlərə əsaslanır (Kotler & Armstrong 2010, 7-12).

Beynəlxalq bazarların seqmentləşdirilməsi coğrafi məkanlara, iqtisadi, siyasi-hüquqi, eləcə də coğrafi amillərə əsaslanır. Bu növ seqmentasiya çoxsaylı xarici bazarlarda müştərilər arasında olan oxşarlıqları səmərəli şəkildə müəyyənləşdirməkdə şirkətlərə yardımçı olur. (Müştəri seqmentasiya bazasının seçimi 2012).

Hazırda seqmentasiya təhlili üçün istifadə edilə biləcək bir sıra idarəetmə vasitələri vardır. VALS (Values and Lifestyle – Dəyərlər və həyat tərzi) istehlakçını səkkiz həyat tərzi seqmentinə görə təsnif edəcək psixoqrafik bazar seqmentasiyası üçün xüsusi tədqiqat metodikasıdır. Burada əsas diqqət özünüistiqamətləndirmə və resurslara əsaslanan istehlakçı münasibəti və dəyərlərinə yönəlir. Bu metodika şirkətə potensial istehlakçıya müraciət etmək üçün məhsulları və ya xidmətləri ona uyğunlaşdırmaqda yardımçı olur. Sözügedən metodika aşağıdakı ŞƏKİL-da aydın şəkildə izah olunmuşdur. (ABŞ quruluşu və VALS növləri 2009)

12.5.3. Qiymət strategiyaları

Qiymət marketinq kompleksində şirkətlərin dövriyyəsinə birbaşa təsir edən ən mühüm amillərdən biridir. Məhsula qiymət vermə haqda qərar verərkən, şirkətlər sabit və dəyişən dəyər, rəqabət, şirkət məqsədləri, təklif olunan mövqeləmə strategiyaları, hədəf qrupu və ödəmə istəyi kimi müxtəlif amilləri nəzərə almalıdırlar. Marketinq kompleksində tətbiq edilə bilənəcək müxtəlif qimyət strategiyaları vardır. Ancaq hazırda 7 əsas qiymət strategiyası daha çox tətbiq olunur.



Şəkil 14. *Qiymət strategiyaları (Monroe 2003, 30-45)*

Şirkətlər tərəfindən istifadə olunan "bazara nüfuz" qiymət strategiyası təzəlikcə bazara daxil olub. Bazar payını əldə etmək və müştəri cəlb etmək məqsədilə, şirkətlər aşağı qiymətlər müəyyənləşdirilər, daha sonra bazar payını əldə etdikdən sonra qiymətləri tədricən artırırlar.

Qiymətlərin tədricən azaldılması strategiyası ilə şirkətlər əvvəlcə yüksək qiymətlər təyin edirlər və daha geniş bazara daxil olmaq üçün qiymətləri tədricən azaldırlar. Bu strategiya adətən investisiya kapitalını əhatə edəcək məhdud müddətdə tətbiq olunur.

Rəqabət qabiliyyətli qiymət strategiyası rəqiblərlə müqayisədə qiymətləri müəyyən edir. Bu zaman qiymətlər şirkətlərin strateji planı və məqsədlərindən asılı olaraq yüksək və ya aşağı ola bilər. Premium qiymət alıcılar arasında yaxşı anlayışları təşviq etmək məqsədilə məhsulun eksklüzivliyi əks etdirən yüksək qiymətdir. Bağlama şəkilli qiymət strategiyası ilə şirkətlər bir qrup məhsulları toplam bağlayıb aşağı qiymətə satır. Ümumi metodlara "birini alana digəri pulsuz" kampaniyaları daxildir. Seçiməbağlı qiymət strategiyası vasitəsilə dövriyyəni artırmaq məqsədilə məhsul ilə yanaşı seçimə görə əlavə malın satışı həyata keçirilir.

Sərfəli qiymət strategiyası ilə alıcıya sərfəli qiymətli məhsullar təqdim edilir və burada istehsal xərcləri və ya hər hansı başqa amil nəzərə

alınmır. Bu strategiya çox vaxt məhsulun və ya xidmətin dəyərindən çox alıcıya dəyər verildiyi yerdə tətbiq edilir. (Monroe 2003, 40-45)

Qiymət strategiyaları şirkətlər arasında rəqabət amilləri olmaqla yanaşı istehlakçılar arasında məhsul seçiminə güclü təsir edən bir vasitədir. Şirkətlərin qiymətləri, təmin etdikləri xidmətlərin istifadəsi və müştəri vəsaitlərinin istifadəsi üçün istehlakçıların onlara ödədikləri dəyərdir. Bu, marketinqin ikinci əsas amili olub şirkət xərclərinin qiymətləndirilməsi ilə onların gəlirinin müəyyənləşdirir. (Wykes 2010).

Hər bir istehlakçı qrupuna uyğun qiymət əldə etmək şirkətə mənfəət qazandırmaqla yanaşı, rəqiblərin qiymətləri ilə də balans təşkil edir. Qiymət strategiyası aşağıdakı mərhələlərdən ibarətdir:

1. Bazarı müəyyənləşdirmək;
2. Tələbi dəyərləndirmək;
3. Tələbi analiz etmək;
4. Qiymət rəqiblərini araşdırmaq;
5. Qiymət təyin etmə metodunu seçmək;
6. Qiymətin səviyyəsini müəyyənləşdirmək;
7. Qiymət haqqında qərarlar.

Marketinq taktikaları və strategiyaları vaxtaşırı olaraq qiymət qoyma, qablaşdırma kimi minimum çətinlikləri dəyişdirə bilər. Lakin hansı məhsulun müştəriyə təklif olunacağı müəyyənləşdirildikdən sonra məhsul paylanması dəyişiklik etmək üçün çox çətin tapşırıq kimi görünə bilər. Müxtəlif bölüşdürmə vasitələri vardır ki, şirkət öz məhsullarını yerləşdirmək üçün onlardan istifadə edə bilər:

- Pərakəndə satış yerləri;
- Topdan satış yerləri;
- Birbaşa elektron poçt;
- Telefonla birbaşa marketinq;
- TV kanalları, evdən alış-veriş;
- Özəl satış formasında.

Fiziki məhsulla oxşar olaraq xidmət biznesi kitablar və qısa məlumatlar vasitəsilə təklif edilə bilər; elektron poçt ünvanının reklamı: Pərakəndə satılan; və yaxud telefonla, faksla və s.. … Ən yaxşı bölüşdürmə seçimi etmək üçün bir çox zavod marketoloqları misal olaraq aşağıdakıları yoxlamalıdırlar:

- Rəqibin bölüşdürmə vasitələrinin yoxlanılması
- Hər bir kanal seçimi üçün xərclərin qiymətləndirilməsi.

- Şirkətin marketinq strategiyasına ən çox uyğun olan formanı müəyyənləşdirmək.

12.6. Yeni bank xidmətləri və məhsulları

Bank xidməti və bank məhsulu anlayışları, onların strukturlaşması və diversifikasiyası.

Bank əməliyyatı, bank məhsulu və bank xidməti məfhumlarının təbiətinə ən müxtəlif tədqiqatçıların nəzəri baxışlarının, bu məfhumların kommersiya bankları-nın fəaliyyəti ilə qarşılıqlı əlaqəsinin təhlili göstərir ki, onların məna yükü məsələ-sində fikir yekdilliyinə hələ də gəlinməmişdir, bir sıra mübahisəli aspektlər möv-cuddur. Belə ki, əksər postsovet müəllifləri bank xidmətlərini bank əməliyyatla-rının növü hesab edir və bütün xidmətləri onlara aid elir. Qərb alimləri isə, əksinə, məhz bank əməliyyatlarını bank xidmətlərinin bir növü olaraq səciyyələndirir.

Bu problemin öyrənilməsi bank xidməti, bank əməliyyatı və bank məhsulu anlayışlarının aşağıdakı təriflərinin verilməsini mümkün edir:

a) *bank əməliyyatı* – bankın maliyyə xidmətləri sferasının subyekti kimi, bank müştəriləri olan təsərrüfat subyektlərinin və əhalinin maliyyə-iqtisad tələbatlarının ödənilməsinə yönəlmiş hərəkətlər kompleksidir. Konkret bank əməliyyatının ger-çəkləşməsi konkret bank xidmətlərinin göstərilməsini nəzərdə tutur.

b) *bank xidməti* – bankın texniki-texnoloji, maliyyə-iqtisad və peşəkar-intel-lektual imkanlarının məcmusudur. Onlar lazımi qədər təmin edilmədikdə bank əməliyyatlarının müştərilər və bankın özü üçün səmərəli həyata keçirilməsi müm-künsüz olur.

c) *bank məhsulu* isə bank əməliyyatının və müvafiq bank xidmətlərinin müş-tərilərin tələbatlarının ödənilməsi üçün lazım olan tərzdə maddiləşməsinə imkan verən ünsürlərin məcmusudur. Bankın müştərilərinə təqdim etdiyi bank məhsulla-rının məcmusu bank xidmətləri portfeli kimi səciyyələndirilir.

Bank məhsul və xidmətlərinin təsnifləşdirilməsi onlar haqqında daha dəqiq tə-səvvürlərin formalaşmasına xidmət edir. Normativ sənədlərdə bank məhsul və xidmətlərinin təsnifləşdirilməsinin vahid meyarları verilmir. Bu məsələ iqtisad ədəbiyyatında da lazımınca işlənilməmişdir, baxmayaraq ki, bank əməliyyatlarının kifayət qədər təfərrüatlı təsnifatı mövcuddur.

Cədvəl 1

Bank məhsul və xidmətlərinin parallel təsnifatı

Təsnifat meyarları	Təsnifat qrupları			Təsnifat meyarları	Təsnifat qrupları
Spesifiklik	- klassik - innovasiyalı	**Bank xidmətləri**	**Bank məhsulları**	Yenilik dərəcəsi	- ənənəvi - yeniləşmiş - innovasiyalı
Müştəri sinifi	- fərdi - korporativ			Müştəri istiqamətliliyi	- korporativ - pərakəndə
Xidmətləndirmənin müntəzəmliyi	- müntəzəm - birdəfəlik - qeyri-müntəzəm			Kütləvilik	- kütləvi - fərdi
Müştəri üçün əhəmiyyəti	- strateji - cari - operativ - xüsusi			Məqsəd funksiyası	- depozit - kredit - investisiya - hesablaşma-kassa və b.
Hüquqi əsas	- formal - qeyri-formal			Funksional istiqamət	- kommersiya yönümlü - sosial yönümlü
Maliyyələşmə mənbəyi	- bankın depozit resurslarından maliyyələşən - bankın kredit resurslarından maliyyələşən - bank müştərilərinin maliyyələşdirdiyi			Tələbin səviyyəsi	- artan tələbli - məhdud tələbli - tələbsiz
Maliyyələşmənin zəruriliyi	- maliyyələşməni tələb edən - maliyyələşməni tələb etməyən			Bazardakı pay	- yüksək - orta - kiçik
				Gəlirlilik səviyyəsi	- yüksəkgəlirli - aşağıgəlirli - zərərli
Ödənişin zəruriliyi	- ödənişli - ödənişsiz			Sekürləşmənin mümkünlüyü	- standartlaşdırılmış - standartlaşdırılmamış

T Ə Y İ N A T				
fərdi şəxslər üçün	Kiçik və orta biznes üçün	VİP müştərilər üçün	iri biznes üçün	maliyyə təşkilatları üçün

Bank əməliyyatları və xidmətlərindən fərqli olaraq, bank məhsullarına onları bir-birindən fərqləndirən konkret fərdi adlar verilə bilər. Məsələn, pərakəndə bank xidmətlərindən olan depozit xidməti əmək haqqı hesabı, tələb olunanadək əmanət, universal əmanət, artırılan depozit və fiziki şəxslər üçün nəzərdə tutulmuş digər bank məhsulları vasitəsilə gerçəkləşir. Müştərilərin xidmətləndirilməsinin düzgün təsnif edilməsindən ötrü bankların pərakəndə və korporativ əməliyyatlarının bir-birindən dəqiq ayrılması zəruridir. Bankın korporativ əməliyyatlarının nisbətən sadə quruluşa malik olması onların təsnifləşdirilməsini pərakəndə bank əməliyyatları ilə müqayisədə asanlaşdırır. Pərakəndə bank əməliyyatları isə daha böyük qrup təşkil etsə də, sərhədləri bir qədər səthidir. Müştərilərin tələbatlarına və dinamik ətraf mühitə uyğunlaşmaq zərurəti labüd olaraq banklar qarşısında bank məhsul və xidmətləri portfelinin diversifikasiyası vəzifəsini də qoymuş olur. Dünya bank bazarında rəqabətin kəskinləşdiyi şəraitdə banklar istehlakçılara bank məhsul və xidmətlərin maksimal geniş çeşidini təklif etməyə çalışır. Onların diversifikasiyasının ən vacib istiqamətini, fikrimizcə, bank innovasiyalarının tətbiqi təşkil edir. Ölkəmizin kredit təşkilatları bu baxımdan lider dövlətlərin «maliyyə supermarketləri»-ndən nəzərə çarpacaq dərəcədə geri qalsalar da, bu geriliyin aradan qaldırılmasının əhəmiyyəti onlardan bank sferasında in-novasiyaların tətbiq edilməsi istiqamətində qəti tədbirlərin görülməsini tələb edir.

Bank məhsul və xidmətlərinin marketinq tədqiqatının əhəmiyyəti və imkanları

Müasir iqtisadiyyatda kommersiya bankının fəaliyyəti onun məhsul və xid-mətlərinə tələbatın olmasından asılıdr. Tələb konyunkturasından irəli gələrək, bank konkret marketinq strategiyasını işləyib hazırlayır və ardıcıllıqla onu gerçəkləş-dirir. Dünya bank təcrübəsində onun əsas tərkib hissələrini artıq mövcud olan bank məhsul və xidmətlərinin təkmilləşdirilməsindən başqa onların yeni növlərinin yaradılması və tətbiqi təşkil edir. Bunun hesabına bankların dayanıqlı inkişafı və rəqabətqabiliyyətliliyi təmin olunur. Bu baxımdan, innovasiyalı bank məhsul və xidmətlərin tətbiqi proqramının hazırlanması üçün geniş və əsaslandırılmış platformanın yaradılmasına istiqamət-lənmiş marketinq tədqiqatları böyük rol oynayır. Bank biznesi fəlsəfəsi baxımından, sürətlə dəyişən bazar tələbatlarını hərtərəfli nəzərə almaqla onlara inkişaf strategiyasından yanaşdıqda isə hər şeyi bankın satış

və assortiment siyasəti müəyyən edir.

Qeyd etmək lazımdır ki, bank elmi və təcrübəsinin inkişafı zamanı marketinqin tətbiqinin bir neçə istiqaməti formalaşmışdır. Məsələn, istehsalat konsepsiyası ənənəvi xidmətlərə əsaslandığı halda, ticarət konsepsiyası mövcud bank məhsulla-rının irəliləməsi və son istehlakçıya çatdırılması istiqamətində səylərin intensive-ləşdirilməsi üzərində qurulur. Ənənəvi konsepsiya isə üstünlüyü əhalinin konkret təbəqələrinin tələbatlarının ödənilməsinə verir. Məhsul konsepsiyası innovasiyalı bank marketinqinə tətbiq edilməklə ən böyük əhəmiyyət kəsb edir. O, bankın təklif etdiyi məhsul və xidmətlərin fasiləsiz ye-nilənməsi zərurətindən irəli gəlir. Bu konsepsiya çərçivəsində bankın assortiment siyasəti hazırlanır. Belə ki o, baza və cari çeşidin formalaşması üzərində təşkil olunur. Onu da nəzərə almaq lazımdır ki, cari çeşid faktiki olaraq gündəlik düzəlişlərə məruz qalır, lakin onun baza istiqamətlənməsi dəyişmir. Cari çeşiddəki bu cür düzəlişlər *assortiment çevikliyi* siyasəti adlanır. Marketinq tədqiqatının yekunları bankın məhsul və xidmətlərinə cari və gələcək tələbin formalaşmasından, onun biznesinin və bütövlükdə milli bank sektorun inkişaf perspektivlərinin proqnozlaşdırılmasından ötrü həlledici əhəmiyyətə malikdir.

Bank məhsul və xidmətləri bazarında interaksiyanın əhəmiyyəti

Qlobal bazar məkanında və ölkə iqtisadiyyatı səviyyəsində baş verən dəyişikliklər bank biznesinə də əhəmiyyətli təsir göstərir. Məsələn, dinamik və yüksək-rəqabətli bazar şəraitində bank sferasındakı marketinq prosesi ciddi dəyişikliklərə məruz qalır, yəni bank məhsul və xidmətləri bazarında iqtisadi subyektlər arasın-dakı qarşılıqlı təsir prosesi ön plana çıxır. Bu zaman, bank marketinqinin istiqamət-lənməsinə güclü təsir göstərən tranzaksiya məsrəfləri amili həlledici əhəmiyyətə malikdir. Bununla əlaqədar, məlum marketinq konsepsiyaları (istehsalat, ticarət, ənənəvi) ilə yanaşı, *interaksiya* və ya qarşılıqlı təsir konsepsiyası meydana gəlmişdir.

Bank məhsul və xidmətləri bazarında interaksiya marketinqinin təyinatı müm-kün tranzaksiya məsrəfləri baxımından bank ilə alıcının qarşılıqlı təsirinin aşağı-dakı mərhələlərinin aşkarlanması kimi müəyyənləşdirilə bilər:

- ənənəvi marketinq alətləri vasitəsilə potensial müştərilərdə ban-

kın məhsul və xidmətlərinə marağın yaradılması;

- bankın konkret məhsul və xidmətinin konkret müştəriyə satılması. Bu mər-hələdə ənənəvi marketinqin imkanları interaksiya marketinqinin imkanları hesabı-na genişləndirilir. Bankla onun məhsul və xidmətlərinin potensial alıcısı arasında rabitənin nəticələri müsbət olduqda, onların qarşılıqlı təsir prosesi davam edir;
- bankın, müştərinin seçdiyi məhsulun (xidmətin) istehlakı zamanı yaranan problemlərini həll etməyə qadir olması və istehlakdan sonra ona xidmətlər göstərə bilməsi. Bu, müasir şəraitdə müştərinin ona göstərilən xidmətin keyfiyyətindən məmnun qalması dərəcəsini müəyyən etmiş olur. Bununla əlaqədar, bank məhsu-lunun istehlakı prosesinin həmin məhsul ilə bağlı bankın verdiyi vədlərin yerinə yetirilməsindən asılılığı müşahidə olunur. Nəticədə, məhsul və xidmətlərin məc-musu zəminində bankın özünəməxsus iş üslubu formalaşır.

Beləliklə, bank məhsul və xidmətləri bazarında interaksiyanın marketinq həlli məhsulun imici ilə bankın nüfuzu arasında əlaqə yaratmış olur. Eyni zamanda, ban-kın məhsul çeşidinin diversifikasiya dərəcəsi nə qədər yüksəkdirsə, bankın iqtisadiyyatda və bütövlükdə cəmiyyətdəki rolu bir o qədər çoxşaxəli olur. Bununla da, tamamilə yeni bir fenomenin, yəni *bank brendinin* təməli qoyulur. Lakin bu halda da, məsrəflərin minimallaşdırılması amili əhəmiyyətini saxlayır, çünki bu, konkret əməkdaşlarının simasında bankın potensial yaxud həqiqi müştəri ilə ünsiyyətinin idarə olunmasını nəzərdə tutur. Bank məhsul və xidmətləri bazarında interaksiyanın daha bir marketinq həlli kimi tranzaksiya məsrəfləri (obyektiv məfhum) ilə insan amili (subyektiv məfhum) arasındakı qarşılıqlı əlaqə çıxış edir. Bank servisinin keyfiyyəti bank personalının müştərilərə yaxşı xidmət və münasibət göstərilməsində nə dərəcədə maraqlı olma-sından çox asılıdır. Bank haqqında müsbət rəyin formalaşması məhz bundan asılıdır ki, bu da bazar münasibətləri şəraitində bank məhsul və xidmətlərinin təkrar satış-ları statistikasında öz əksini tapır.

Bank məhsul və xidmətləri bazarında interaksiyanın müsbət marketinq həlli-nin göstəricisi kimi onların *pozisiyalaşdırılmasından* istifadə oluna bilər. Pozisiya-laşma bazarda genişlənmə və dərinləşmə arasında optimal nisbətin müəyyən edil-məsinə xidmət edir və öz növbəsində bankın rəqabətqabiliyyətliliyini möhkəmləndirir.

Bankla müştərilər arasında qarşılıqlı təsir mexanizminin əhəmiyyəti

Müasir bankçılığın keyfiyyət tərəfini bank marketinqi fəlsəfəsinin transfor-masiyası təşkil edir. Belə ki, bankın məhsul və xidmətlərinin bazara yeridilməsi zamanı bankla müştərilər arasında qarşılıqlı təsirin və tərəfdaşlıq münasibətlərinin yaradılmasının əhəmiyyəti həlledici olur. Bu səbəbdən, *kommunikasiyalar* bank marketinqi kompleksinin aparıcı elementinə çevrilir. Bank məhsul və xidmətləri üzrə optimal «qiymət-keyfiyyət» nisbətinin təmin edilməsi üçün onların potensial istehlakçıları fərdi qaydada baş verən kommunika-siya interaksiyası vasitəsilə planlaşdırılan nəticə ilə əlaqələndirilməlidir. Bu, bank məhsul və xidmətlərinin tələb olunan istehlakçı zümrəsini müəyyən etmək imkanı yaradır. Başqa sözlə, interksiya marketinqinin məqsəd və vəzifələrinin reallaşması bankla müştərilər arasında məhz ikitərəfli rabitə olduqda mümkündür. Bank, məhsul və xidmətləri barəsində öz müştərilərini məlumatlandırmaqla kifayətlənir-sə, onda bu, potensial satıcı ilə potensial alıcı arsındakı münasibətlərdir. Əslində isə bank öz müştərilərinin ona qarşı olan tələbləri və ehtiyacları barəsində hərtərəfli informasiyaya malik olmalıdır. Belə olduqda, bankla müştəri arasında tərəfdaşlıq münasibətləri yaranır, yəni *interaksiya* baş verir. Bununla da, kommunikasiya pro-sesi bankla müştəriləri arasındakı interaksiyanın keyfiyyətcə yeni, daha yüksək sə-viyyəyə çıxarılmasına xidmət etmiş olur. Xarici və daxili mühitin dəyişkən olmasına bankların yüksək həssaslı olması-nın vacibliyi ilə yanaşı, bank marketinqi çərçivəsində kommunikasiya prosesinin çoxamilli və çoxelementli olması da vurğulanmalıdır. Bank məhsul və xidmətləri bazarında interaksiya marketinqinin kommunikasiya bölməsinin amil və elementlərinin yekun səmərəsi sinergetik səciyyəlidir. Səmərəni isə bankın dinamik xarici mühitə uyğunlaşması bacarıqı təşkil edir. Bankın uyğunlaşma bacarıqı ilə bank marketinqi çərçivəsindəki kommunikasiya prosesinin elementləri arasında yüksək rabitə mövcuddur. Bu isə, *təşkilati mədəniyyətin* bank üçün birinci dərəcəli olmasına dəlalət edir.

Qloballaşmanın yeni bank məhsul və xidmətlərin inkişafına təsiri

Son onilliklərdə qloballaşma (ilk növbədə, onun maliyyə tərəfi) bütün sosial-iqtisadi proseslərin müəyyənedici qüvvəsi və eyni zamanda obyektiv fonu olaraq çıxış edir. O, dünya iqtisadi münasibətlərin miqyaslarını, inkişaf

istiqaməti və sür-ətini, transformasiyasının daxili məntiqini müəyyənləşdirir.

Qloballaşmanın bank sferasına şamil edilməsi maliyyə bazarlarının liberal-laşdırılması mənasına gəlir. Bu isə, xarici kapitalın, o cümlədən, bank kapitalının milli bazarlara miqrasiyasındakı müxtəlif məhdudiyyətlərin sayının və tətbiq miqyaslarının əsaslı azaldılmasını, hətta tam aradan qaldırılmasını nəzərdə tutur. Bankların xarici filial şəbəkəsinin inkişafı vasitəsilə maliyyə liberallaşması bey-nəlxalq bank biznesinin formalaşmasına, bank sferasınakı rəqabətin güclənməsinə xidmət edir.

Maliyyə liberallaşmasının genişlənməsi və dərinləşməsi seqmentləşməyə söy-kənən bank fəaliyyətindən onun universallaşması istiqamətində baş verir. Rəqa-bətin kəskinləşməsi bank biznesinin ən müxtəlif istiqamətləri üzrə innovasiyaların kütləvi tətbiqi ilə müşaiyət olunur ki, bu da bankların həm milli, həm də qlobal müştəriləri xidmətləndirmək imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Məh-sul, texnoloji, təşkilati, idarəetmə innovasiyaların parallel tətbiqi isə müasir bank-ları yüksək texnoloji bazar komplekslərinə çevirir. Bunun ən güclü drayveri isə informasiya texnologiyaları sahəsindəki tərəqqidir. Yeni məhsul və xidmətlərin inkişaf etdirilməsi və tətbiqinə xidmət edən idarəetmə innovasiyaları müasir bankların müştərilərlə daha sıx təmasda olmasına imkan verir və bununla da, prioriet bank innovasiyalarının müəyyən edilməsi vəzi-fəsinin həllini asanlaşdırır. Məsələnin maliyyə tərəfi də əhəmiyyət kəsb edir, yəni ərazi bölmələri şəbəkəsinin kəmiyyətcə və keyfiyyətcə təkmilləşdirilməsinə edilən xərclərə əhəmiyyətli qənat edilir, bankın əməliyyat xərcləri optimallaşdırılır. Bu isə onun mənfəətinin və rentabelliyinin artmasına şərait yaradır.

Dünya təcrübəsinin öyrənilməsi və nəzəri cəhətdən ümumiləşdirilməsi göstə-rir ki, qloballaşma iqtisadi inkişafı kəskin sürətləndirir, bu isə yüksək risklər və de-məli böyük məsrəflər deməkdir. Maliyyə-bank sferasında kəskin rəqabət şəraiti ye-ni məhsul və xidmətlərin yaradılmasını və tətbiqini tələb edir və bunu məhz fasiləsiz proses kimi qəbul etmək lazımdır. Bank innovasiyalarının idarəolunması məsələləri böyük aktuallıq əldə edir. *İnnovasiya menecmentinin* artan əhəmiyyəti kommersiya banklarının səmərəli idarəetmə mexanizminin yaradılmasını nəzərdə tutur. Bu zaman bankın məhsul strategiyasının və müştərilərlə iş strategiyasının səmərəliliyi meyar kimi çıxış edir. Bununla əlaqədar, belə bir mühüm cəhəti də nəzərə almaq lazımdır ki, nəinki dünya miqyasında, hətta inkişaf etmiş ölkələrdə bank sferasında məhsul, layihə və texnoloji innovasiyaların inkişafı və yayılması son dərəcədə qeyri-bərabər baş verir.

İnnovasiyalı bank fəaliyyətinin inkişafındakı əsas dünya meylləri

Dünya bank biznesinin müasir innovasiya təkamülünün ən görkəmli hadisə-lərinin analitik ümumiləşdirilməsi və onun başlıca istiqamətlərinin fərqləndirilməsi göstərir ki, informasiya texnologiyaları sahəsində baş verən elmi-texniki tərəqqi demək olar ki hər yerdə elektron bankçılıq dövrünün başlanmasını bildirir. İlk vaxtlar *internet-bankçılıq* inkişaf tapdığı halda, son illərdə *elektron bank-çılıqın* başqa istiqaməti olan virtual bankçılıq geniş yayılır. Bank biznesində in-formasiya texnologiyalarının tətbiqi peşəkar bank dilini Internet-bankçılıq, virtual bank, e-bankçılıq, home-banking, online-bankçılıq, PC-bankçılıq, telebankçılıq, rəqəmsal televiziya bankçılıqı, mobil bankçılıq, WAP-bankçılıq, SMS-bankçılıq, məsafəli bankçılıq, distant bankçılıq və s. məfhumlarla zənginləşdirmişdir.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, yeni bank məhsul və xidmətlərin inkişaf etdirilməsinin baza istiqamətlərini internet-bankçılıq və *mobil bankçılıq* təşkil edir. Şəbəkə mühitinin anlaşıqlı, universal, çevik olması, kompüter və telekommunikasiya avadanlıqının qiymətinin tədricən ucuzlaşması internet-bankçılıqın xeyrinə işləyir. Mobil bankçılıqın üstünlüklərini təşkil edən daşınıqlıq, fərdilik, hesablayıcı imkanlar, informasiyanın rahat daxil edilməsi, displey ekranın olması informasiyanın verilməsinin əyaniliyini, sadələyini və əlverişliliyini təmin etmiş olur. Dünya praktikasında artıq banklararası differensiyalaşmanın nümunə-ləri var. Məsələn, *çoxkanallı banklar* əhəmiyyətli müsbət maliyyə səmərəsi əldə etmədən də müştərilərinin sayını artırır. Halbu ki, digər banklar üstünlüyü məsrəf-lərin minimallaşdırılmasına, həmçinin internet və b. elektron çıxış kanalları vasitəsilə işləyən əlahiddə virtual bankın yaradılmasına verir.

İnformasiya texnologiyalarının sürələ inkişafı zəminində yaranmış imkanlar artıq məlum olan və geniş yayılmış bank məhsul və xidmətlərin müasir texnoloji əsaslara keçirilməsini, həmçinin rəqabətin artması və müştəri uğrundakı daimi mü-barizə şəraitində yeni xidmət yanaşmalarının inkişafını mümkün edir. *Avtomat-laşdırılmış bank filialını* yaxud avtomatlaşdırılmış bank sistemini (ABS) və *müş-tərilərin idarəolunması sistemini* (CRM – Customer Relationship Management) buna misal göstərmək olar.

Bankın idarəolunmasının təşkili forması olaraq, müasir informasiya texnolo-giyalarının geniş tətbiqinə əsaslanan ABC-nin dünya təcrübəsinin təhlili onu gös-tərir ki, bu istiqamətin perspektivliyi bank məhsul və

xidmətlərin əlverişli olmaları və yeni müştərilərin cəlb edilməsi imkanlarının aşkarlanması ilə şərtlənir.

Bank CRM-in vacib keyfiyyətini onun tərəfindən özünəxidmət sistemlərinin dəstəklənməsi təşkil edir. Bunu, inteqrasiyanın hazır alətlərinin CRM-ə daxil edil-məsi və müştərilərlə müxtəlif rabitə kanallarından (özünəxidmət köşkləri, mobil bankçılıq, internet-bankçılıq və b.) istifadə edilməsi hesabına təmin etmək olur. Bütün bunlar müştərinin özü tərəfindən hesabların idarə olunmasına, zərurət yaran-dıqda bank məhsuluna sifarişin tərtib edilməsinə, sifarişə bankdan cavab almasına, ödənişlərin vəziyyəti, xüsusi təkliflər və s. haqqında informasiyanın əldə olunma-sına imkan yaradır.

Elektron bank sistemlərinin və bank biznesindəki texnoloji inqilabın ən vacib elementi olan plastik kartlar zəminində innovasiyalı bank məhsul və xidmətlərin dünya bank praktikasındakı aktuallığı güclənməkdədir. İnkişaf etmiş ölkələrdə çek-ləri durmadan sıxışdıran plastik kartların pul dövriyyəsinin təşkilindəki əhəmiyyəti tədricən və hər yerdə həlledici olmuş, lakin onların müxtəlif növlərindən istifadə miqyasları fərqlidir.

Bununla belə, bank sferasındakı innovasiya prosesləri mənfi hallarla da mü-şaiyət olunur. Bu cür yeniliklərin yüksək texnoloji əsasa malik olması səbəbindən bankların avtomatlaşdırma sistemlərində baş verə bilən pozuntular qarşısındakı acizliyini buna misal göstərmək olar.

Azərbaycanın bank praktikasında innovasiyalı məhsul və xidmətlər

Azərbaycanda yaxın illər ərzində bank biznesinin inkişafının aparıcı istiqa-məti kimi bank riteylinin genişlənməsi üçün ümumən müsbət olan makroiqtisadi ilkin şərtlər formalaşmışdır. Bütün yerli banklar bu və ya digər miqyaslarda həm korporativ, həm də pərakəndə xidmətlər təklif edir və göstərir. Onların aktiləri, ka-pitalı və kredit qoyuluşları, həmçinin pərakəndə əməliyyatları ildən-ilə artır. İnki-şafında pərakəndə bankçılıqa üstünlük verən bankların sayı artmışdır. Onların məhsul və xidmət çeşidi, xüsusilə də innovasiyalı olanların sırası hətta orta inkişaf səviyyəli ölkələrlə müqayisədə dəfələrlə kiçik olsa da, lakin bu göstərici, tədricən artır, bankların filial şəbəkəsi genişlənir, bank servisi təkmilləşir.

Bununla yanaşı, Azərbaycanda güclü hüquqi zəmin də yaradılmışdır. Belə ki, 1997-ci ildə ödəniş sistemlərin inkişafının konseptual əsasları və

strategiyası qəbul edilmiş, sonrakı illərdə isə elektron xidmətlər, elektron ticarət, informasiya cəmiyyətinin, informasiya və kommunikasiya texnologiyaların inkişafı sahəsində və b. bir sıra ümummilli əhəmiyyətli hüquqi aktlar və məqsədli proqramlar reallaşdırıl-mışdır.

Azərbaycan Respublikasının bank sferasında innovasiyaların inkişafının diaq-nostikası aşağıdakı meylləri aşkarlamışdır:

- Azərbaycanın bank sferasında yeni məhsul və xidmətlərin, həmçinin texno-logiyaların inkişafındakı dağınıqlıqa baxmayaraq, bu prosesin miqyasları tədricən artır. Əsas meyl olaraq pərakəndə bank biznesində informasiya-kommunikasiya texnologiyaların tətbiqi, nağdsız ödənişlər infrastrukturunun inkişafı çıxış edir.
- yerli bankların məhsul, xidmət və texnologiyalarının hazırki səviyyəsində Azərbaycanda korporativ kreditləşdirmə bazarı artıq doymaq üzrədir. Fitch Ratings beynəlxalq agentliyinin 2013-cü ilin nəticələrinə görə hesabatında qeyd edildiyi kimi, buna yaxşı keyfiyyətli borcalanların çatışmazlıqı nişan verir. 2014-cü ilin göstəricilərindən də bunu görmək olar. Belə ki, banklar tərəfindən bütün kredit qoyuluşlarının təqribən 11% sənaye və istehsal sektorunun inkişafına yönəldildiyi halda, ticarət, xidmət sahəsi və pərakəndə sektor üzrə müvafiq göstərici 58, 5% təşkil etmişdir.
- Azərbaycan iqtisadiyyatının bank sektorunun pərakəndə seqmentinin inkişaf səviyyəsi hələ də kifayət deyil. Müxtəlif rəylərə görə, respublika əhalisinin təq-ribən 80% pul köçürmələri istisna edilməklə başqa bank xidmətlərindən istifadə etmir. Bank pərakəndə məhsul və xidmətlərin yayılma əmsalı (pərakəndə kreditləşdirmənin ÜDM olan nisbəti) 2014-cü ilin əvvəlinə 11% çataraq 2001-ci ilin mü-vafiq göstəricisini 7, 5 dəfədən artıq üstələmişdir (müqayisə üçün, Rusiya – 10%, Braziliya – 13%). Yüksək dinamikaya rəğmən, Azərbaycan bu göstərici üzrə də başqa ölkələrdən geri qalır (məsələn, Macarıstan – 30%, Polşa – 33%, Böyük Britaniya – 105%).
- Azərbaycanda pərakəndə kreditləşmənin artım sürətinin əhalinin nominal gəlirlərinin artım sürətini əhəmiyyətli dərəcədə üstələməsi əhalinin borclarının art-masına səbəb olur. Bank məhsul və xidmətlərin şəffaflığının və açıqlıqının təmin edilməsi, bankların əhalinin bank təklifləri haqqında məlumatlı olmamasından sui-istifadə etməməsi üçün Azərbaycan Mərkəzi Bankı yerli banklara prudensial tələb-lər qoymuşdur. 2014-cü il ərzin-

də Azərbaycan Mərkəzi Bankının tənzimləyici tədbirlərinin təsiri ilə istehlak kreditlərinin artım sürəti əvəlki ilə müqayisədə 1, 9 dəfə, o cümlədən avtomobil kreditlərinin həcmi 31% azalmışdır.

- son illərdə istehlak kreditləşməsinin genişlənməsi baş verir. 2014-cü ilin əv-vəlinə ölkənin bütün kredit təşkilatları üzrə istehlak kreditləri 45, 4% artaraq əhaliyə verilmiş kreditlərin 77, 6%-ni təşkil etmişdir. İstehlak kreditləri Azərbaycanın qeyri-neft ÜDM-nun təqribən 14%-ni, bütün əhalinin borcları isə əhalinin nominal gəlirlərinin 17% həddindədir.

Cədvəl 2

Pərakəndə kreditləşdirmənin
və əhalinin nominal gəlirlərinin dinamikası

İl	Kreditlər			Gəlirlər	
	Cəmi, mln. manat	Artım, əvvəlki ilə qarşı%	Kredit qoyuluşlarındakı çəkisi,%	Cəmi, mln. manat	Artım, əvvəlki ilə qarşı%
2009	2328, 9	99, 7	27, 7	22 601, 1	112, 6
2010	2700, 8	115, 9	29, 5	25 607, 0	113, 3
2011	3315, 0	122, 7	33, 7	30 524, 6	119, 2
2012	4316, 7	130, 2	35, 3	34 723, 9	113, 7
2013	6214, 7	143, 9	40, 3	37 555, 5	108, 1
2014	7731, 8	124, 4	44, 0	39 360, 7	104, 8

Mənbələr: www. cbar. az; www. stat. gov. az

- bank biznesində müasir hesablaşma texnologiyaların tətbiqi kreditlərin verilməsindən başlayaraq onların qaytarılmasına qədər kommersiya banklarının bütün fəaliyyət silsiləsi boyunca özünü göstərir. Azərbaycanın kommersiya bankları tərə-findən fəal surətdə tətbiq edilən müxtəlif plastik kartlar burada əhəmiyyətli rol oynayır. 2014-cü ilin əvvəlinə Azərbaycanın 43 bankından 40 ödəniş kartlarını emissiya edir, kart sahiblərinin sayı 5,1 mln. nəfərdir, emissiya edilmiş kartların sayı 5,7 mln. ədəd təşkil edir.
- Azərbaycanda ölkə bankların əksəriyyəti emissiya prosesində iştirak etsə də, plastik kartlardan hesablaşmalarda istifadə səviyyəsi aşağı

olaraq qalmaqdadır. Orta hesabla hər 1 əmək qabiliyyətli vətəndaşa 1, 2 ödəniş kartı və 0,3 əmək haqqı kartı düşür. Bütövlükdə, 1 nəfərə 0,6 kart düşür. İnkişaf etmiş və bəzi postsovet öl-kələrlə müqayisədə bu çox kiçik göstəricidir. Məsələn, Latviya – 1,08, Belarus – 1,16, Litva, Estoniya, Ukrayna – 1,3-1,4, Rusiya – 1,67.

- 2010-2013-cü illərdə Azərbaycanda kredit kartlar bazarı 7 dəfə böyümüşdür. 2012-ci ilin əvvəlində bütün ödəniş kartların yalnız 4% kredit kartları təşkil edir-disə, 2014-cü ilin ilk yarısının nəticələrinə əsasən bu göstərici 19% çatmışdır. İn-kişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, məhz kredit kartlar nağdsız ödənişlərin mütləq və nisbi göstəricilərinin artmasında həlledici rol oynayır.
- hal-hazırda əhalinin təqribən 60% bank (əmək haqqı, pensiya və s.) kart-larına malik olsa da, onların yalnız 6-7% kartlardan fəal istifadə edir. Etiraf etmək lazımdır ki, yerli istehlakçı üçün bank kartı ilk olaraq nağd pulun çıxarılması alə-tidir və ödəniş aləti kimi çox az tətbiq edilir. Tranzaksiyaların ümumi sayının 93-94% vəsaitlərin nağdlaşdırılması, yalnız 6-7% isə digər əməliyyatlardan ibarətdir. Bu cür durumun əsas səbəbi kimi əhalinin az məlumatlandırılması və maliyyə savadının aşağı olması, həmçinin nağd puldan istifadənin kök salmış vərdiş halını alması göstərilə bilər.
- Azərbaycan Mərkəzi Bankının rəyinə görə, nağd pulun çıxarılması ilə birlikdə bankomatlardan keçən kart əməliyyatların həcmi ölkədəki ödəniş əməliy-yatlarının 10% və daxili istehlak bazarının 0,5% təşkil edir ki, bu da respublikada nağdsız ödənişlərin həvəsləndirilməsi istiqamətində dövlət səviyyəsində həyata keçirilən tədbirlərin kifayət etmədiyini göstərir.
- Azərbaycanda hər 10 nəfərə cəmi 1 kredit kartı düşür. Buna görə də, bundan sonrakı artım bankların kredit məhsul və xidmətlərinin genişlənməsindən asılı ola-caq. Son 13-14 ildə Azərbaycanda kredit kartları bazarı 7 dəfə artsa da, yerli bankların pərakəndə kreditlər portfelində kredit kartların xüsusi çəkisi 2,2-3,3% civarında tərəddüd edib. Halbu ki, inkişaf etmiş bazarda bu göstərici 25%-dən az deyil.
- Azərbaycanda yerli bankların ekvayrinq xidmətlərinin tarifləri nisbətən yüksəkdir. POS-terminallar üzrə aylıq əməliyyatlarının həcmi 1000 manatdan az olan müştərilər üçün xidmət haqqı sabitdir. Müvafiq əməliyyatların aylıq həcmi 1000 manatdan yük-

sək olan təsərrüfat subyektləri üçün xidmət haqqı əməliyyat məbləqinin 1-3% təşkil edir. Müqayisə üçün, Rusiya Federasiyasında bu göstərici əməliyyat məbləqinin 1-1,5%-dən 2% qədər, Ukraynada – 1-2% və 2-2,8%, Qa-zaxstanda – 0,5-2% və 1,5-3%, Moldovada – 1,8 və 2,8% təşkil edir. Avropada isə ekvayrinq xidmətlərinin dəyəri 0,4%-dən 0,6%-ə qədərdir.

Cədvəl 3

Plastik kartların təsnifatı (01.01.2015)

Göstərici	Miqdarı, min ədəd	%
Cəmi, o cümlədən	5 965, 0	100, 0
Debet	4 663, 0	78, 2
onlardan:		
- sosial	2 425, 0	40, 7
- əmək haqqı	1 444, 0	24, 2
- digər	794, 0	13, 3
Kredit	1 302, 0	21, 8

Mənbə: www. cbar. az

- plastik kartların xidmət infrastrukturunun kəmiyyət göstəriciləri (bankomatlar və POS-terminalların mütləq sayı) Azərbaycanda yüksək sürətlə artır. Buna baxmayaraq, 2014-cü ilin əvvəlinə ölkə əhalisinin hər 3,9 min nəfərinə 1 bankomat və 0,3 min nəfərinə 1 POS-terminal düşür. Bu, Avropa İttifaqının hətta ən böhranlı ölkələri ilə müqayisədə çox aşağıdır.
- Azərbaycanda bankların virtual bankçılıqa keçidi ləng gedir və bu hal əhalinin nağdsız hesablaşmalara zəif maraqlı olması ilə əlaqədardır.

Bununla belə, ölkə bankları mobil bankçılıq, SMS-məlumatlandırma, e-tica-rət, internet-bankçılıq, elektron depozit, kart transfer, Cash by Code, Cash to Any Card və Cash In, internet bankçılıq sistemində qeydiyyat üçün SMS-lə birdəfəlik parolun və internetdə bank plastik kartı ilə ödəniş etməkdən ötrü 3D Secure parolunun alınması, virtual ödəniş kartının SMS vasitəsilə sifarişi, kreditlərin on-line ödənilməsi, VISA Personal Payments, PIN Set,

PIN Activation və GPRS ATM modem və s. xidmətlər göstərilir və tədricən təkmilləşdirilir. 2015-ci ilin əvvəlinə Azərbaycanda mobil bankçılıq 44 bankdan 15-i, internet (on-line) bankçılıq isə 23-ü tərəfindən təklif olunur.

Cədvəl 4

Azərbaycanda internet və mobil bankçılıqın dinamikası

İl	İnternet-bankçılıq		Mobil bankçılıq	
	Əqdlərin həcmi, mln. manat	Əqdlərin sayı, min.	Əqdlərin həcmi, min. manat	Əqdlərin sayı, min.
2011	25, 3	26, 6	-	-
2012	23, 8	28, 6	785, 4	5, 2
2013*	171, 4	28, 3	283, 3	19, 0
2013**	54, 9	15, 7	441, 0	4, 5

Mənbə: www. cbar. az

* Yanvar-iyun ayları; ** Yanvar-sentyabr ayları

- internet-bankçlıqın üstünlüklərinin reallaşması rəqəmsal imza məsələsinin həllindən də asılıdır. 01.12.2014-cü il tarixinə 27 536 e-imza sertifikatı verilmişdir ki, bunun da 16616 sertifikat dövlət qurumlarında alınmışdır və yalnız 6392 sertifikatın sahibi fiziki şəxslərdir. Göründüyü kimi, Azərbaycan Respublikasının «Elektron imza və elektron sənəd» haqqında Qanunun qəbul edilməsindən 10 ildən artıq vaxtın keçməsinə baxmayaraq, electron imza sertifikatlarının 60%-dən çoxununun sahibi dövlət qulluqçularıdır. Deməli, elektron rəqəmsal imza respublika əhalisi arasında geniş yayılmış innovasiyaya çevrilə bilməmişdir.

Yekun olaraq belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan banklarında innovasiya fəaliyyətinin hal-hazırki inkişafı kifayət deyil və onun tətbiqi və inkişafı üçün hələ böyük işlərin görülməsi tələb olunur. 25 ilə yaxın müstəqil inkişaf təcrübəmizə baxmayaraq, respublikanın milli bank sistemində hələ də vahid innovasiya strategiyası mövcud deyil və bu, ölkə banklarında innovasiyaların tətbiqinin sistemli olmamasını səbəbləndirir.

XIII FƏSİL.

BANK FƏALİYYƏTİNDƏ RİSKLƏR

– i.e.n., dosent **Z.H.İbrahimov** (13.1, 13,2, 13.3, 13.5, 13.6, 13.7)

– i.e.d. **Ş.T.Quliyeva** (13.4)

13.1. Bank risklərinin mahiyyəti
13.2. Bank risklərinin növləri
13.3. Əməliyyat risklərinin mahiyyəti və növləri
13.4. Əməliyyat risklərinin idarə edilmə xüsusiyyətləri
13.5. Bank risklərinin ölçülməsi metodları
13.6. Əməliyyat risklərinə görə ehtiyatların qiymətləndirilməsi və yardılması sahəsində Bazel Komitəsinin tövsiyələri

13.1. Bank risklərinin mahiyyəti

Bank riskləri tədqiqat obyekti kimi yalnız müasir dövrə aid deyildir. Bank risklərinin bank fəaliyyətinin tənzimlənməsindəki əhəmiyyəti hələ XVIII, XIX əsrlərdə tədqiqatçılar tərəfindən qeyd edilmişdir. Məşhur rus professoru N. X. Bunqe kredit və banklara dair tədqiqatlarda qeyd etmişdir: «Sığortalama mükafatını (uçot faizi) riskin qiymətləri ilə tutuşdurmaq lazımdır. Bu məsələ çox nadir hallarda nəzərə alınır. Lakin sığortalama mükafatının zəmanətin etibarlılığı ilə tutuşdurulması daha doğru olardı.

Şübhəsiz ki, öhdəliklərin düzgün və səlis yerinə yetirilməsi də risklərin azaldılmasında böyük əhəmiyyət kəsb edir».

Müasir cəmiyyətdə rəqabətin kəskinləşdiyi bir şəraitdə bank risklərinə xüsusi diqqət yetirilir. Banklar çox vaxt bir-birlərinə qarşı aqressiv mövqedə olurlar və riskli əməliyyatlara və sövdələşmələrə daha çox yer verirlər.

Odcur ki, risklərin azaldılması və aradan qaldırılması ideyalarına həm bank elmində, həm də bank təcrübəsində böyük ehtiyac duyulur. Bank fəa1iyətinin idarə edilməsinə dair heç bir nəşr «riskin tənzimlənməsi» anlayışı olmadan başa gəlmir və bu təsadüfi deyildir. Bank fəaliyyəti iqtisadi fəaliyyət kateqoriyasına aiddir və şübhəsiz ki, iqtisadi subyektlər arasındakı qarşılıqlı münasibətlərdə risk amili iştirak edir. Bununla belə, bu o demək deyildir ki, risk yalnız bank fəaliyyətinə xasdır. Ən müxtəlif iqtisadi əməliyyatların yerinə yetirilməsində əlverişsiz hallar yarana bilər. Eyni zamanda, həm də bu o demək deyildir ki, əlverişsiz hallar iqtisadi münasibətlərin, o cümlədən bank işinin mütləq atributlarıdır. Bank riskləri banklara xas olan elə bir xüsusiyyətdir ki, hadisələrin mənfi gedişatının qaçılmaz nəticəsi deyil, düzgün qurulmayan fəaliyyətin mənfi nəticələri kimi ortaya çıxır.

Bank risklərinin çox mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq onun mahiyyətinin açıqlanması hələ də mübahisə mövzusudur. Bir çox hallarda onların mahiyyəti yaranma səbəbləri kimi qələmə verilir. İ. V. Bernar və J. K. Kolliyə görə kredit riskləri bank risklərinin bir növüdür və borcun qaytarılmasına qədər meydana çıxan gözlənilməyən hallardır. İngilis iqtisadçısı Onqa görə isə kredit riski – əgər sövdələşmə üzrə kontragent öhdəliklərini vaxtında ödəməzsə, itkilərə məruz qalmaq riskidir. Çox vaxt riskin mahiyyəti bu və ya digər sövdələşmədə yaranan qeyri-müəyyənliklə əlaqələndirilir.

Riskin, kontragentin riski kimi xarakterizə edilməsi onun mahiyyəti barədə daha geniş yayılmış mühakimələrdəndir. Bank tənzimlənməsi və nəzarəti üzrə Bazel Komitəsi də bu fikirlə həmrəydir. Kapitalın kifıyətliliyi xarakterizə edilərkən kredit riskləri «kontragentin öz öhdəliklərini yerinə yetirməməsi riski» kimi, yəni «kontragentin riski» kimi nəzərdən keçirilir.

Elmi ədəbiyyatlarda riskin ən müxtəlif təriflərinə rast gəlmək olar. Adətən risk dedikdə təhlükə, uğursuzluq, eyni zamanda uğurlu sonluğa ümidlə hərəkət başa düşülür.

Terminologiya baxımından «risk» - italyanca «risico» - sözündən olub təhlükə deməkdir. Maliyyə-kredit lüğətində bank riski kredit müəssisələri tərəfindən həyata keçirilən bank əməliyyatlarının xüsusiyətlərindən irəli gələn «itkilər təhlükəsi» kimi şərşh edilir. Professor A. A. Xandruyevə görə risk arzu olunmayan hadisələr nəticəsində meydana gələn mümkün itkilər və ya təhlükədir. Y. V. Mişalçenko və İ. O. Krolliyə görə risk bankın öz vəsaitlərinin bir hissəsini itirməsi, gözlənilən gəlirlərn əldə edilməsi ehtimalı və ya planlaşdırılmış maliyyə əməliyyatlarının həyata keçirilməsində yaranan əlavə xərclərdir. V.T.Sevrukun fikrincə bank riski bank fəaliyyətinin nəticələrinin qeyri-müəyyənliyini və uğursuz fəaliyyət nəticəsində yaranan əlverişsiz nəticələrin mümkünlüyünü ifadə edir.

Bank risklərinin mahiyyəti barədə yuxarıda göstərilən çoxsaylı mühakimələrdən görünür ki, müəlliflər onu qeyri-müəyyənlik, gözlənilməyən təhlükələr, itkilərə məruz qalma, gözlənilən gəlirlərin adə edilməməsi və ya itkilərin yaranması ehtimalı kimi şərh edirlər. Əlbəttə, göstərilən cəhətlər bu və ya digər dərəcədə bank riskəri ilə bağlıdır, lakin bizim fikrimizcə, onun xüsusiyyətlərini ifadə etmir.

Bizim fikrimizcə, bank riski hər şeydən əvvəl xüsusi fəaliyyət növüdür. Risk qeyri-müəyyənliyin özü deyil, iqtisadi obyektlərin qeyri-müəyyən şəraitdə fəaliyyət göstərməsidir. Müştərilərə xidmət göstərən bankların bu fəaliyyəti əmtəə istehsalçılarının fəaliyyəti ilə sıx bağlıdır. Bank kapitalının xüsusiyyəti, məlum olduğu kimi, ondan ibarətdir ki, öz təbiəti etibarilə sənaye və ticarət kapitalının xüsusiləşmiş hissəsi olan borc kapitalından təşkil olunur. Bank kapitalının, məsələn, kreditləşmə zamanı geri qayıtması həm vəsaitlərin borcalanın təsərrüfatında dövr etməsinin başa çatması, həm də borcalanın təsərrüfatından sərbəstləşən vəsaitlərin bank-kreditora ötürülməsi hesabına baş verir. Bank bir tərəfdən müştəri ilə birlikdə risk edir, digər tərəfdən isə ona məxsus olmayan resurs-

ları müvəqqəti istifdəyə verən müstəqil subyekt kimi risk edir. Beləliklə, bankların üzərinə götürdüyü risk ikiqat artır.

Bank fəaliyyətinin mahiyyəti ilə bağlı olan bank risklərinin xüsusiyyəti ondan ibarətdir ki, o həm istehsal prosesini, həm də ictimai məhsulun dövriyyəsini əks etdirməklə həm mübadilə, həm də ödəniş dövriyyəsində özünü göstərir. Məlumdur ki, bankların fəaliyyəti, yəni onun məhsulları və xidmətləri pul ilə bağlıdır. Bank öz mahiyyətinə görə ödəniş dövriyyəsini nağd və nağdsız formada tənzimləyən ictimai pul-kredit institutudur. Bu o deməkdir ki, bank fəaliyyətində risk baxımından iqtisadi münasibət subyektlərinin dəyər nisbətinə, tələb və təklif nisbətlərinə riayət etməsi çox mühüm əhəmiyyət kəsb edir.

Bank riskləri daha çox sosial mənşəli proseslərdir. Bank təkcə öz xüsusi vəsaitləri ilə deyil, borc vəsaitləri ilə risk etdiyi halda nəticələr daha kəskin olur. Bank uğursuzluğa düçar olduqda təkcə bank deyil, bankın müştəriləri – bankda pul vəsaitlərini yerləşdirən fiziki və hüquqi şəxslər də itkilərə məruz qalırlar. Bank böhranları bu halda daha ağır nəticələrə gətirib çıxarır, nəinki istehsal böhranları. Belə ki, bank böhranları pul-kredit öhdəlikləri ilə bir-biri ilə zəncirvari bağlı olan iştirakçıların çoxsaylı maliyyə itkilərinə səbəb olur.

Riskin mahiyyətini açıqlayarkən əsas diqqəti bu və ya digər bank sövdələşməsi nəticəsində meydana çıxan itkilərlə mübarizəyə deyil, kreditorların və borcalanların maraqlarını təmin edən sistemin yaradılmasına yönəltmək lazımdır. Risk əslində sirli qeyri-müəyyənlik deyildir, hər hansı subyektin qeyri-müəyyənlik şəraitində mənfi amilləri aradan qaldırıb arzu olunan nəticələrə nail olmaq inamı ilə fəaliyyətdir. Bank riski arzuolunmaz hadisələr və onların təhlükəsi ehtimalı deyil, yüksək nəticələrə nail olacağına inamlı olan iqtisadi subyektin fəaliyyətidir.

Bank riskinin bu anlamda şərh edilməsi onun mahiyyətini dəyişmir. Əlbəttə, bank fəaliyətində yaranan mənfi nəticələrlə mübarizə aparmaq, bank kapitalının düzgün idarə olunmamasından yaranan nəticələri yumşaltmaq olar. Lakin başqa istiqamətdə də hərəkət etmək olar: bank fəaliyyətini elə qurmaq olar ki, mənfi nəticələrin qarşısı alınmış olsun, tənzimləmə prosesində arzuolunmaz nəticələrin qarşısını almaqla təklif olunan məhsulların səmərəli fəaliyyəti təmin olunsun. Beləliklə, bank risklərinin idarə olunma mərkəzi müştəri ilə qarşılıqlı münasibətlərin ilkin mərhələsinə keçmiş olur. Məsələn, bank kredit verməzdən əvvəl bunun bankın kredit siyasəti ilə, riskin qiymətləndirilməsi nəticələri ilə (müş-

təridən alınan anket forması, kreditləşmə məsələsinin həlli üçün tələb olunan sənədlər paketi, bankın kənardan – digər kredit təşkilatlarından, xüsusi agentlərdən və xidmətlərdən, mətbuatdan əldə etdiyi məlumatlar əsasında əldə edilən nəticələrlə) nə dərəcədə uzlaşdığını müəyyən etməlidir. Burada maliyyə əmsalları, pul axını və işgüzar riskə əsasən müştərinin kredit qabiliyyətinin təhlili mühüm rol oynayır.

Bankın uğurlu fəaliyyətinin zəminləri təkcə onun maddi, pul, intellektual resurslara malik olması deyil. Risk o zaman özünü doğruldur ki, müvafiq zəminlərə malik bankın fəaliyyəti yüksək nəticələrə gətirib çıxrır və bu nəticələr çəkilən xərcləri üstələyir. Beləliklə, risk qeyri-müəyyən şəraitdə müvəffəqiyyətə hesablanmış və iqtisadi subyektdən mənfi halları aradan qaldırmaq bacarığının və biliyinin olmasını tələb edən fəaliyyətdir.

13.2. Bank risklərinin növləri

Bank fəaliyyətinin genişlənməsini və bank məhsulları və xidmətlərinin çoxşaxəliliyini nəzərə almaqla bank risklərinin təsnifləşdirilməsi mühüm əhəmiyyətə malikdir. Bank risklərini müəyyən meyarlardan asılı olaraq aşağıdakı kimi göstərmək olar (cədvəl 1.1.).

Cədvəl 1.1.

Bank risklərinin təsnifləşdirilməsi

Təsnifləşdirmə meyarı	Bank risklərinin növləri
Risk səviyyəsinə görə	– Makrosəviyyədə risklər – Mikrosəviyyədə risklər
Bank məhsulu, xidmət və əməliyyatlarının xarakterinə görə	– Balansarxası əməliyyatlar üzrə risk – Kredit riski – Hesablaşma riski – Valyuta riski – Əməliyyat riski və s.
Bankın dayanıqlı inkişafının təminatı səviyyəsinə görə	– Balanslaşdırılmamış likvidlik riski – Faiz riski – Gəlirin itirilməsi riski – Rəqabət qabiliyyətinin itirilməsi riski – Kapital bazası riski – Risk-menecment

Risk əmələ gətirən amillərə görə	– Xarici risklər (siyasi, iqtisadi, demoqrafik, sosial, coğrafi və digər) – Daxili risklər (əsas və köməkçi fəaliyyətdə, bank aktivləri və ya passivləri ilə bağlı, maliyyə xidmətlərinin satışı və idarə olunmasının keyfiyyəti ilə bağlı)
Riskin təsir dairəsi və miqyasına görə	– Ölkədən irəli gələn risk – Müəyyən bank tipinin fəaliyyəti ilə bağlı risk – Maliyyə məsuliyyəti daşıyan mərkəzlərin fəaliyyəti ilə bağlı risk – Bank əməliyyatlarından, o cümlədən: müəyyən növ əməliyyatlar qrupundan (məcmu risk) və müəyyən müştəri ilə ayrı-ayrı əməliyyatlardan irəli gələn risklər
Yaranma zamanına görə	– Retrospektiv risklər – Cari risklər – Perspektiv risklər
Riskin bankdan asılılıq səviyyəsinə görə	– Bankın fəaliyyətindən asılı olar risk – Bankın fəaliyyətindən asılı olmayan risk
Bankın növünə görə	– İxtisaslaşmış bankın riski – Sahə bankının riski
Riskin qiymətinə görə	– Aşağı risklər – Mülayim risklər – Tam risklər
Müştəri bazasının tərkibinə görə	– İri, orta və xırda müştərilərdən irəli gələn risk – Müştərilərin sahə strukturundan irəli gələn risk

Hər şeydən əvvəl, riskləri səviyyələrinə görə ayırmaq lazımdır. Belə ki, bank riski təkcə bir bankla bağlı risk olmadığından riskləri həm mikro-, həm də makromünasibətlər baxımından nəzərdən keçirmək məqsədəuyğun olardı. İtkilərin həcmi böhran vəziyyətindən çıxış amilləri və müddətinə görə hər bir halda fərqli ola bilər, həm də idarətmə alətləri müxtəlif ola bilər. İqtisadiyyatın bank sektorunda risk bütövlükdə ölkə iqtisadiyyatı və siyasəti, qanunvericilik bazası, idarəetmə sistemi ilə bağlıdır. Ayrıca götürülmüş bankın iqtisadiyyatını əhatə edən risklər (mikrosəviyyədə, bank-müştəri) bankın konkret fəaliyyəti ilə, onun pul axınlarını səmərəli idarəetmə bacarığı ilə bağlıdır.

Bankların məhsul və xidmətlərin yaradılması üzrə fəaliyyəti və əməliyyatların yerinə yetirilməsi ilə bağlı riskləri də özünü müxtəlif şəkildə

büruzə verir.

Göstərilən riskləri minimuma endirməklə banklar bir tərəfdən öz məhsul və xidmətlərinin siyahısını genişləndirir, fəaliyyətini diversifikasiya edir, digər tərəfdən isə öz əməliyyatlarının keyfiyyətini yüksəldir.

Bank fəaliyyətinin səmərəliliyini yüksəltmək üçün onun dayanıqlı inkişafının təminatı baxımından risklərin təsnifləşdirilməsi mühüm əhəmiyət kəsb edir. Bankların ölkə iqtisadiyyatında balanslaşdırılmış və dayanıqlı fəaliyyət göstərməsi kredit təşkilatının kapital bazasını formalaşdırmağı və öz likvidliyini idarə etməsindən, aktiv və passiv əməliyyatlar üzrə faiz siyasətini uzlaşdırmasından, bank məhsulları və xidmətləri bazarında öz işini qurmasından və yüksək rəqabət qabiliyyətliliyini təmin etməsindən asılıdır. Çox təssüf ki, bank fəaliyyəti üzrə əsas parametrlərin idarə edilməsi səviyyəsi müasir iqtisadiyyatın tələb etdiyi səviyyədə deyildir.

Bank fəaliyyətində risklərin idarə edilməsi məqsədilə risklərin asılı olduğu amilləri göstərmək mühüm əhəmiyyət kəsb edir. Burada daxili və xarici riskləri fərqləndirirlər. Hər bir ayrı-ayrı hallarda onlar arasındakı nisbət müxtəlif ola bilər.

Xarici risklərə adətən siyasi, iqtisadi, sahə, demoqrafik, sosial, coğrafi və digər risklər aiddir.

Siyasi risklər bank fəaliyyətinə mənfi təsir göstərir və aşağıda göstərilənlərlə əlaqədardır:

- siyasi rejimin dəyişməsi, kapital itkisinə müvafiq kompensasiyalar edilmədən əmlakın milliləşdirilməsi;
- yerli valyutanın sərbəst konvertasiya edilən valyutalara dəyişdirilməsinə və xaricə aparılmasına mümkün məhdudiyyətlərin qoyulması;
- bank kontragentinin yerləşdiyi dövlətin icra orqanlarının qərarlarına əsasən müqavilələrin pozulması, sərhədlərin bağlanması;
- müharibə, hərcmərclik və s.

Siyasi amillər bank proseslərinə müsbət təsir də göstərə bilər. Belə ki, sahibkarlıq fəaliyyətinə dəstək verən hökumətin iqtidara gəlməsi iqtisadi konyukturun yaxşılaşmasına və bank risklərinin azalmasına gətirib çıxara bilər. Qanunvericilikdəki dəyişikliklər, pozuntular və ya sahibkarlıq fəaliyyəti üçün qanunvericilik normalarının olmaması ilə bağlı olan hüquqi risklər siyasi risklərə daha sıx yaxındır.

Makrosəviyyədə iqtisadi risklər bütövlükdə ölkə iqtisadiyatındakı

dəyişikliklərlə, o cümlədən bazar konyukturunun (idxal və ixrac üzrə qiymətlər), tədiyə balansının, valyuta məzənnəsinin və s. dəyişməsi ilə bağlıdır. Qanunvericilikdəki dəyişikliklər, Mərkəzi Bankın kredit müəssisələrinin fəaliyyət normalarını – ehtiyat normalarını, yenidənmaliyyələşdirmə şərtləri və s. əhatə edən normativ aktlara yenidən baxılması da bank fəaliyyətinin miqyasına əhəmiyyətli təsir göstərə bilər. Bunlar hüquqi normalar olduğundan kredit müəssisələrinin fəaliyyətinə təsir göstərir. İqtisadi risklər sırasında sığorta risklərini də göstərirlər ki, bunlar da adətən qəzalar, yanğınlar, oğurluq halları vasitəsilə əlaqədar olur.

Konkret bankla onun müştərisi arasındakı münasibətlərə də çoxlu sayda risklər təsir göstərir. Bunlar borcalanın kredit qabiliyyətinin dəyişməsi nəticəsində kredit müqaviləsinə yenidən baxılması ilə yaranan dəyişikliklər, kredit müəssisəsinin maliyyə vəziyyətində, onun bank siyasətində yaranan dəyişikliərlə bağlı ola bilər. Bu risklərin bir hissəsi həm daxili, həm də xarici səbəblər nəticəsində yarana bilər. Mikrosəviyyədə xarici səbəblər – borcalanın iflası, kreditorların borcların ödənilməsi tələbi, oğurluq, möhtəkirlik, ailə problemləri, işsizlik (əgər söhbət bankla fiziki şəxslər arasındakı münasibətlərdən gedirsə) və s. ola bilər. Həmçinin təbii fəlakətlərlə - zəlzələ, subasma, fırtına və s. ilə bağlı risklər də ola bilər. Bank üçün xarici risklər yeni xidmət və əməliyyat növlərinin yaranması, digər kredit təşkilatları tərəfindən icra edilən əməliyyatların qiymətinin aşağı düşməsi, bank xidmətlərinin keyfiyyətinə qarşı tələblərin yüksəldilməsi ilə şərtlənən risklər ola bilər.

Bundan başqa, inflyasiya, milli pul vahidinin qeyri-sabitliyi, saxta ödəniş sənədlərindən istifadə edilməsi ilə bağlı yaranan risklər də xarici risklər sırasındadır.

Məsələn, kredit risklərini formalaşdıran daxili səbəblər adətən aşağıdakılar hesab edilir: təminatın çatışmazlığı, müştərinin kredit üçün ərizəsinin səhv qiymətləndirilməsi, kreditləşmə prosesinə zəif nəzarət, xəbərdarlıq siqnallarına adekvat münasibət göstərilməməsi. Göstərilən daxili səbəblər kreditləşmədə baş verən itkilərin əsas amilləridir və onların kredit təşkilatının fəaliyyətinin nəticələrinə təsiri 60%-dən çoxdur. Kredit siyasətinin səmərəliliyinə mənfi təsir göstərən daxili amillərdən biri də təminatın keyfiyyətinin aşağı olmasıdır.

Risklərin təhlilində bank risklərini fəaliyyət sferası və miqyasına görə də ayırmaq lazımdır. Bank riskləri çox vaxt bankın müştərilərinin hansı ölkədən olmasından asılı olaraq artır və ya azalır. Ölkə riski adla-

nan bu risk ölkədəki ümumi siyasi və iqtisadi vəziyyəti özündə əks etdirir və banka həmin ölkədən olan müştərilərlə münasibətləri qurmaqda istiqamət verir. Beynəlxalq reytinqə uyğun olaraq hər bir ölkə müvafiq etibarlılıq dərəcəsinə malikdir.

Əlbəttə, bankın riski təkcə onun tərəfdaşının olduğu yerdən deyil, həm də onun maliyyə dayanıqlığı və etibarlılığından da asılıdır. Burada tərəfdaş müəssisənin (bankın) likvidliyinin, gəlirliliyinin vəziyyəti, aktivlərin keyfiyyəti və kapital bazası mühüm əhəmiyyətə malikdir. Ola bilər ki, müəssisənin fəaliyyət göstərdiyi ölkə investisiya cəlbediciliyi reytinqinə görə yüksək mövqe tutmur, lakin təşkilatın özü yaxşı maliyyə göstəricilərinə, mötəbər mütəxəssis-menecer heyətinə malikdir ki, bu da ona öz ölkəsi daxilində etibarlılıq reytinqinə görə yüksək mövqe tutmağa imkan verir. Belə bir sövdələşmədə vəsait alan müəssisə yüksək zəmanətə malik olduğundan bank-investor üçün vəsait qoyuluşu zaman yaranan risklər aşağı olacaqdır. Riskin təyini zamanı ölkə riski, tərəfdaş-müəssisənin maliyyə etibarlılığı ilə bağlı risklə yanaşı bankın maliyyələşdirəcəyi əməliyyatın özünə də diqqət yetirməsi məqsədəuyğun olardı. Burada bankın vəzifəsi müştəri ilə müəmmalı sövdələşmələrdən, üçüncü şəxsin etibarsız zəmanətindən, vəsaitlərin qeyri-rentabelli qoyuluşundan çəkinməkdir.

Bankların fəaliyyət təcrübəsində bank riskinin yaranma zamanı, böyük əhəmiyyətə malikdir. Bu meyara görə riskləri retrospektiv (keçmiş), cari və perspektiv risklərə bölürlər. Retrospektiv risklərin alınması banka cari və gələcək riskləri daha dəqiq hesablamağa imkan verir. Bank sövdələşmələrində həmişə ödənişlərin edilməsi və qoyulmuş vəsaitlərin qaytarılması arasında vaxt fasiləsi vardır. Buna görə də gələcək itkilər çox vaxt cari riskin düzgün hesablanmasından asılı olur. Təcrübə göstərir ki, əməliyyat müddəti nə qədər çox olarsa, risk də bir o qədər yüksək olar. Belə bir şəraitdə keçmiş risklərin və səhvlərin aradan qaldırılması ilə risklərin proqnozlaşdırılmasının rolu əhəmiyyətli dərəcədə artır.

Asılılıq dərəcəsinə görə risklər bankdan asılı və asılı omlayan risklərə bölünür. Bankdan asılı olmayan risk bir qayda olaraq, siyasi və ümumi iqtisadi amillərin təsiri ilə, qanunvericilikdəki gözlənilməz dəyişikliklərlə bağlıdır. Banklardan asılı olan risklər müştəri ilə münasibətlər səviyyəsində (mikrosəviyyə) yaranır və buna görə də burada çox şey bankın özündən asılı olur. Keçid xarakterli iqtisadi sistemlərdə bankdan asılı olan və asılı olmayan risklər çox vaxt paralel yaranır və bank kapi-

talının hərəkətində əhəmiyyətli ziddiyyətlərə, lokal bank böhranlarına səbəb olaraq ümumi iqtisadi artımı ləngidir.

Bank risklərinin hesablanmasında bankın növü də mühüm rol oynayır. İxtisaslaşmış bankın riski çox vaxt kredit müəssisəsinin ixtisaslaşdığı spesifik məhsulla bağlı olur. Bu halda bu məhsula olan tələb, onun keyfiyyəti bankın riskini və səmərəli inkişafını təyin edən həlledici amil kimi çıxış edir. Bir qayda olaraq, ixtisaslaşmış bankın pul-kredit xidmətlərinin keyfiyyəti daha yüksək olur ki, bu da müəyyən müştərilər dairəsini cəlb etməyə imkan yaradır. Lakin təcrübədə müştəriyə kompleks xidmətlər (1-2 deyil, bir neçə əməliyyatların aparılması) göstərilməsi tələb olunur ki, bu da bankları öz xidmətlər spektrini genişləndirməyə məcbur edir. Bəzi banklar bu və ya digər məhsullar üzrə deyil, müştəri bazası, müəyyən sahələrə xidmətlər göstərməsi üzrə də ixtisaslaşırlar. Bu halda yaranan sahə riskləri əsasən müvafiq sahədəki vəziyyətdən asılı olur.

İxtisaslaşmış bankların riskləri və sahə riskləri ilə yanaşı universal bankların risklərini də fərqləndirirlər. Çoxşaxəli bank xidmətləri və əməliyyatlarına tələb irəli sürməklə müştərilər bankları universallaşmağa vadar edirlər. Bu üzdən ölkədəki kommersiya bankları öz fəaliyyətlərində universallaşmağa doğru yol almışlar.

Bank risklərini təsnifləşdirərkən onların qiymətinə görə də fərqləndirilməsi müəyyən rol oynayır. Burada risklər, aşağı, mülayim və tam risklər kimi fərqləndirilirlər. Hər bir ayrıca götürülmüş subyekt üçün itkinin həcmi bu və ya digər əməliyyatın miqyasından asılı olaraq müxtəlif ola bilər. Bununla yanaşı bəzi hallarda müəyyən sərhədlər təyin edilə bilər.

Beləliklə, kredit əməliyyatlarının icrası zamanı hesablanmış mənfəətin 0-0, 25%-i həcmində itkilərə səbəb olan risk minimal hesab edilir; hesablanmış mənfəətin 25-50%-i həcmində itkilər yüksək; 50-75%həcmində itkilər kritik risk və nəhayət, itkilər hesablanmış mənfəətin 75-100%-i həcmindədirsə, bu yolverilməz risk hesab edilir.

Bank risklərini miqyasına görə kompleks (məcmu) və xüsusi (fərdi) risklərə bölürlər. Məsələn, kredit əməliyyatları həyata keçirilərkən kompleks risklər o risklər olacaqdır ki, borcalanların istifadə etdiyi bütün kreditləri əhatə etsin. Praktiki olaraq bu halda kompleks risk kommersiya bankının bütün verilən kreditlərindən təşkil olunan kredit portfelinin riski olacaqdır.

Bank riskləri bankın müştərilərinin tərkibinə görə də fərqləndirilə bilər. Burada riskin iki növünü fərqləndirirlər:

- iri, orta və kiçik müştərilərlə bağlı risk;
- müştərilən sahə strukturundan irəli gələn risk.

Birinci halda iri müştəri iri risk demək deyil. Əksinə, böyük dövriyyəsi olan və bankla əməliyyatlar aparan iri müştəri banka daha çox gəlir gətirir. Lakin təhlükə ondan ibarətdir ki, iri müəssisəyə bank kreditləri verilərsə, həmin müəssisənin maliyyə vəziyyəti pisləşdikdə kreditor-bank böyük itkilərə məruz qala bilər. Bazar münasibətləri şəraitində istehsal və məhsul satışı sahəsində ciddi tərəddüdlərə məruz qalan kiçik müəssisələrə görə də müəyyən itkilər yarana bilər.

Müştərilərin sahə strukturundan irəli gələn risklər də nəzərə çarpacaq dərəcədədir. Qeyd etdiyimiz kimi, sahə riski müvafiq sahənin iqtisadi inkişaf səviyyəsi ilə bağlıdır. Bankın bir sahəyə, hətta çiçəklənməkdə olsa belə, (məsələn, neft və ya qaz) investisiya qoyması makroiqtisadiyyat baxımından bütövlükdə iqtisadiyyata mənfi təsir göstərə bilər. Belə ki, sənayenin emal sahələrinə ziyan vuraraq milli iqtisadiyyatı xammal yönümlü edir.

Bankın icra etdiyi əməliyyatlara görə riskin iki növünü: balans əməliyyatlarına görə risk və balansdankənar əməliyyatlara görə riskləri fərqləndirirlər. Hər iki halda risk kredit müəssisəsinin həm aktiv, həm də passiv əməliyyatlarına aid edilir. Aktiv əməliyyatlar yerinə yetirilərkən inflyasiya riski, faiz riski, portfel riski, kredit, faktorinq və digər risklər meydana gələ bilər. Passiv əməliyyatlar üzrə risklər kapitalın və onun strukturunun formalaşması və onun mənfəət hesabına artması ilə bağlı ola bilər. Cəlb edilmiş resursların bank tərəfindən nəzərə alınmayan axını depozit əməliyyatları üzrə risklərə səbəb ola bilər. Təcrübə göstərir ki, iri depozitlərin müəssisələr tərəfindən bankdan çıxarılması bankları ödənişlə bağlı çətinliklərə düçar etmiş və hətta, müflisləşməsinə səbəb olmuşdur.

Balans riskləri bankın kapitalın yetrəliliyi normativinə riyayət etmədiyi halda öz likvidliyini itirməsi ilə bağlı ola bilər. Balansdankənar risklər çox vaxt bankın valyuta sövdələşmələri, buraxılmış qiymətli kağızlar üzrə öhdəliklərinə əməl etmədiyi halda yaranır. Balansdankənar risklər müştərilər müflisləşdikdə balans əməliyyatları üzrə risklər hesabına daha da güclənə bilər. Təcrübə göstərir ki, bank risklərinin müxtəlifliyinə və çoxnövlülüyünə baxmayaraq, onlar kredit müəssisəsinin spesifikasını əks etdirir və onların varlığı bankdan fəaliyyətini planlı və məqsədyönlü şəkildə qurmasını və bu risklərin idarə edilməsi sisteminə malik olmasını tələb edir.

13.3. Maliyyə riskləri və onların idarə edilməsi

Risk obyektiv bir haldır, risk təbiəti etibarilə gələcək hadisələrin birmənalı olmaması ilə şərtlənir. Risk itkilərlə, zərərlərlə, əldən çıxmış imkanlarla əla-qədardır. Zərərlər, itkilər baş verməmişdən əvvəl risk potensial bir təhlükə sayılır. Mürəkkəb iqtisadi təzahür forması olan riskin aşağıdakı xarakteristikaları vardır: gələcək nəticələrin məlum olmaması (qeyri-müəyyənliyi), fəaliyyətin mənfi nəticələrinin ehtimalı və həcmi, qəbul ediləcək qərar üçün neqativ nəticələri.

Riski doğuran başlıca səbəb olan qeyri-müəyyənliyi daxili və xarici mühit vəziyyətlərinin çoxluğu kimi xarakterizə etmək olar. Məqsədin reallaşdırılması zamanı əvvəlcədən düşünülmüş qərarlar yeganə ən yaxşı qərar kimi seçilir. Bu-rada əsas çətinlik ondan ibarətdir ki, bu və ya digər qərar qəbulunun nəticələri qeyri-məlum situasiyadan asılıdır. Bu nəticələrin yararsızlığı səviyyəsi, şərti vahidlərlə – itkilərlə ölçülür. Qeyri-müəyyənlik riski törədir. Risk – insanın istə-nilən qeyri-aktiv fəaliyyətinə xas olan, aydın olmayan, çoxcəhət bir anlayışdır. Risk-ehtimal xarakterli bir kateqoriyadır, ona görə də riskin qeyri-müəy-yənliyinin və kəmiyyətinin müəyyən edilməsində ehtimal tipli hesablamalardan istifadə edilir.

İqtisadiyyatda optimal qərarlar seçimi məsələlərinin ehtimal xarakteristikası real situasiyaları əks etdirir. Ona görə də əksər hallarda ehtimal xarakterli mo-dellərin tətbiqi ən səmərəli qərarlar seçimində riski azaltmağa imkan verir. Onu da qeyd edək ki, iqtisadi göstəricilərin ehtimal bölgüsü çox vaxt məlum olmur.

Riskin idarə edilməsi çoxpilləli bir proses olub, əlverişsiz hadisələrin baş verdiyi zaman obyektə dəyə biləcək zərərlərin azaldılmasını öz qarşısına məqsəd qoyur. Zərərlərin minimuma endirilməsi və riskin azaldılması müxtəlif anlayışlardır. Riskin azaldılması mümkün zərərin azaldılması, ya da əlverişsiz hadisələrin başvermə ehtimalırını aşağı salınması deməkdir. Eyni zamanda idarəetmənin müxtəlif maliyyə mexanizmləri mövcuddur. Məsələn, siğortalama nə riskin miqyasına, nə də əlverişsiz hadisələrin başvermə ehtimalına təsir etməyərək zərərlərin kompensasiyasını təmin edir.

Riskin idarə edilməsi prosesinin əsas mərhələləri aşağıdakılardır:

1) riskin təhlili; 2) riskə təsir edən metodların müqayisə yolu ilə

səmərə-liliyinin qiymətləndirilməsi ilə seçimi; 3) qərar qəbulu; 4) riskə birbaşa təsir; 5) idarə prosesinə nəzarət və idarəetmə prosesi nəticələrinə düzəlişlər.

Riskin təhlili başlanğıc mərhələ olub, obyektin xüsusiyyətləri, strukturu və mövcud risklər haqqında zəruri informasiyanın toplanmasını qarşıya qoyur. Yığılmış informasiya gələcək mərhələdə adekvat qərarlar qəbul etmək üçün kifayət qədər olmalıdır. Riskin təhlili risklərin aşkara çıxarılması və qiymətləndirilməsindən ibarətdir.

Riskin qiymətləndirilməsi aşkar edilmiş risklərin kəmiyyətcə təsviridir ki, bu zaman da mümkün zərərlərin ehtimalı və miqyası müəyyən edilir. Eyni zamanda əlverişsiz situasiyaların inkişafının ssenariləri formalaşır və müxtəlif risklər üçün zərərlərin başvermə ehtimalının bölüşdürülməsi funksiyaları müəyyən edilir. Risklərin aşkara çıxarılması və qiymətləndirilməsi bir-birlə sıx əlaqədardır. Adətən təhlil risklərin qiymətləndirilməsindən aşkara çıxarılmasına doğru istiqamətdə müəyyən edilir. Əgər bu proses risklərin qiymətləndirilməsindən risk-lərin aşkar edilməsinə doğru gedirsə, demək artıq zərərlər məlumdur və onların səbəblərini aşkar etmək zəruridir. Əksinə, əgər bu proses risklərin aşkar edilməsindən risklərin qiymətləndirilməsinə doğru gedirsə, onda sistemin təhlili əsasında risklər və habelə mümkün ola biləcək nəticələr aşkar edilir.

Sonrakı mərhələ isə gələcəkdə mümkün ola biləcək zərərlərin aşağı salınması üçün riskə təsir metodlarının seçilməsi mərhələsidir. Adətən hər bir riskin azaldıl-masının 2-3 ənənəvi metodu mövcud olur. Buna görə də riskə təsir metodlarının müqayisə ilə səmərəliliyinin qiymətləndirilməsi qarşıya çıxır və bunlardan da ən səmərəlisi seçilir. Konkret risklərin təhlili nəticəsində optimal üsulların seçimindən sonra risklərin idarə edilməsinin ümumi strategiyasını formalaşdırmaq mümkün olur. Bu mərhələ qərarların qəbulu mərhələsi adlanır, burada tələb olunan maliyyə və əmək resursları müəyyən olunur, menecerlər arasında vəzifələr bölüşdürülür, müvafiq uyğun bazarın təhlili həyata keçirilir, mütəxəssislərdən məsləhət alınır. Riskə birbaşa təsir 3 əsas üsulla həyata keçirilir: Riskin aşağı salınması, riskin dayandırılması, riskin ötürülməsi.

Nəhayət, riskin idarə edilməsinin son mərhələsi yeni informasiyaları nəzərə almaqla seçilmiş strategiyanın reallaşdırılmasının nəticələrinə nəzarət və düzəliş hesab edilir. Nəticələrə nəzarətin mahiyyəti baş vermiş zərərlər və onların minimuma endirilməsi tədbirləri haqqında me-

necerlərdən informasiyanın toplan-masından ibarətdir. Bu özünü risk səviyyəsini dəyişə bilən yeni şəraitin aşkar edilməsində, bu məlumatların sığorta şirkətinə verilməsində, təhlükəsizliyin təmin edilməsi sisteminin səmərəliliyinin yüksəldilməsində göstərir.

Riskin aşağı salınması dedikdə ya mümkün ola biləcək zərərin azaldılması, ya da əlverişsiz hadisələrin başvermə ehtimalının azıldılması başa düşülür. Adətən riskin aşağı salınmasına xəbərdarlıq xarakterli təşkilati – texniki tədbirlərin həyata keçirilməsinin köməyilə də nail olunur. Riskin mövcud olan səviyyədə saxlanılması, dayandırılması hər hansı bir istənilən fəaliyyətdən imtina etmək deyildir. Bu halda mümkün ola biləcək zərərləri kompensasiya etmək üçün müəssisədə ehtiyat fondları yaradılır ki, bu da özünüsığortalama adlanır. Bu zaman lazım gəldikdə həm də xarici mənbələrdən vəsaitlər də cəlb edilir. Bunu aşağıdakı sxemdən görmək olar:



Riskin ötürülməsi üsulundan istifadə zamanı üçüncü şəxslərə müəyyən haqq ödəmək şərtilə şəxsi cavabdehliyi bir növ sığortalamaq üçün riskin sığortalanması həyata keçirilir. Bu zaman xüsusi müqavilələr əsasında risk digər tərəfə ötürülür.

Riskin idarə edilməsi üzrə bütün tədbirlər əlverişsiz hadisələrin baş verməsinə qədər olan tədbirlərə və əlverişsiz hadisələrin baş verməsindən sonrakə tədbirlərə bölünür. Əlverişsiz hadisələrin baş verməsinə qədər olan tədbirlərə sığortalanma, özünüsığlortalama, xəbərdarlıq xarakterli təşkilati-texniki tədbirlər, riskin ötürülməsi üzrə hüquqi müqavilə və digər tədbirlər aiddir. Əlverişsiz hadisələrin baş verməsindən sonrakı tədbirlərə zərərlərin ləğvi üçün maliyyə köməyi kimi vəsaitlərin alınması aiddir. Risklərin saxlanılması, dayandırılması və ötürülməsi üzrə bir çox tədbirlər mahiyyətcə maliyyə mexanizmləridir, lakin bu əslində əlverişsiz hadisələrin meydana gəlməsinə və onların kompensasiyasına qədər olan itkilərin miqyasına təsir etmir.

Maliyyə risklərinin idarə edilməsinin spesifik metodlarından biri xedcələş-mədir ki, bu da öz növbəsində aktivlər portfelinin dəyərinin azaldılması şəklində zərərlərin baş verməsi tezliyinə təsir etmir, lakin xüsusi tədbirlərin həyata keçirilməsi yol uilə zərərlərin həcmini azaldır.

Riskin idarə edilməsi dedikdə ənənvi olaraq ilk növbədə sığortalama prosesi başa düşülür. Bu üsul hər zaman özünü doğrultmuşdur. Lakin, bazar iqtisadiyyatı yoluna yenicə qədəm qoymuş ölkələrdə sığortalama ilə əlaqədar vəziyyət bir o qədər də qənaətbəxş deyildir. Bu oununla əlaqədardır ki, bütün postsovet ölkələrində olduğu kimi, Azərbaycanda da uzun illər boyu iqtisa-diyyatın mərkəzləşdirilmiş idarə edilməsi mövcud olmuşdur ki, bu da müəssi-sələrə dayaq kimi əsasən dövlət ehtiyatlarının formalaşdırılmasını nəzərdə tuturdu. Faktiki olaraq bu, bütün ölkə miqyasında sığortalamada hamı üçün bə-rabər bir hal idi. Belə bir şəraitdə maliyyə və kommersiya riskləri praktiki olaraq yox idi.

Bazar iqtisadiyyatı şəraitində riski əvəzləmək baxımından dövlət köməyinin həcmi dəfələrlə azalır. Özəl müəssisələr kritik situasiyaların başvermə zamanı zərərlərin ləğvi üçün özləri tədbir görməlidirlər. Və bu zaman sığortalama bazar nöqteyi nəzərindən ən əlverişli mexanizm kimi qarşıya çıxır. Lakin sığorta şirkətləri heç də çox olmayan xüsusi kapitala malikdirlər, bu da iri risklərin ləğvi üzrə onların imkanlarını məhdudlaşdırır.

Bir sıra ölkələrdə, ayrı-ayrı təşkilatlarda və firmalarda riskin idarə edilməsi üçün xüsusi bir sektor, bölmə – riskin idarə edilməsi bölməsi yaradılır ki, bu bölməyə də risk meneceri rəhbərlik edir, risk meneceri yalnız riskin idarə edilməsi problemləri ilə məşğul olur, rsikin tənzimlənməsi və mümkün zərərlərin ödənilməsini təmin etmək məqsədilə fəaliy-

yəti yönəldir.

Riskin idarə edilməsi strukturunun yaradılmasının üç əsas təşkilati aspekti var:

1) aparıcı risk - menecerin fəaliyyəti;
2) riskin idarə edilməsi bölməsinin fəaliyyəti;
3) bu bölmənin təşkilatın digər strukturları ilə qarşılıqlı əlaqəsi.

Firma və şirkətlərdə risk - menecerlərinin funksiyaları çox genişdir. Risk me-neceri iqtisadi təhlükəsizliyin təmin edilməsi və riskə nəzarət üçün, eləcə də bura-xılan məhsulun keyfiyyətinin təmin edilməsinə nəzarət üçün məsuliyyət daşıyır. Risk - meneceri riskin idarə edilməsinin təşkilati strukturunu formalaşdırır və bu fəaliyyətlə əlaqədar əsas qaydaları işləyib hazırlayır. Müəssisədə risk - menecerin başlıca vəzifəsi rsikin idarə edilməsi strategiyası və prinsiplərinin işlənib hazırlan-masıdır ki, bu da öz əksini daxili normativ sənədlərdə tapır. Bu sənədlərdən ən əsasları riskin idarə edilməsi qaydaları və riskin idarə edilməsinə rəhbərlik sənəd-ləridir. Riskin idarə edilməsi qaydaları müəssisədə riskin təhlilinin nəticələrini və müəyyən bir sahədə müəssisənin idarəetmə strategiyasının başlıca istiqamətlərini özündə birləşdirir. Burada mövcud risklərin aşağı salınması, mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyat fondları və ya sığorta sisteminin yaradılmasını nəzərdə tutulur. Bu qaydalarda müxtəlif struktur vahidləri arasında səlahiy-yətlərin bölügüsü, riskin idarə edilməsinin müəyyən aspektinə görə konkret olaraq kimin məsuliyyət daşıması öz əksini tapır.

Riskin idarə edilməsi qaydalarından fərqli olaraq riskin idarə edilməsinə rəh-bərlik – konkret bir fəaliyyəti müəyyən edən sənəddir. Bu sənəddə riskin idarə edilməsi üzrə hər bir konkret vəzifənin hansı yollarla həll edilməsi üzrə göstərişlər də öz əksini tapır. Riskin idarə edilməsinə rəhbərlikdə risklərlə əlaqədar bütün informasiya toplamalıdır. Riskin idarə edilməsi bölməsinin funksiyaları firma və şirkətlərin strategiyasının praktiki reallaşdırılmasında özünü göstərir. Bu funksiyalardan ən başlıcası risk səviyyəsinin qiymətləndirilməsi, digəri isə sığortalamanın həyata keçirilməsi ilə bağlıdır.

Onu da qeyd etmək lazımdır ki, risk normativlərinin tətbiqi bütün hallarda deyil, risk mənbəi və amillərinin dəqiq və konkret olaraq identifikasiyasından sonra həyata keçirildikdə effektli olur. Bundan başqa, risklərin limitləşdirilməsi iri layihələrin, yəni, yeni məhsul buraxılışı üzrə innovasiyalı, elmi-texniki-tex-noloji layihələrin tətbiqi zamanı daha

önəmli olur. Risklərin limitləşdirilməsi də, göründüyü kimi, adicə bir normativlərin hazırlanması texnologiyası deyildir. Limitləşdirmə müxtəlif risklərin qarşılıqlı asılılığı və təsirinin idarəedilməsi kimi çox çətin məsələləri əhatə edir. Lakin bəzən buna sadəcə olaraq bir normativ aktı kimi yanışılır. Risklərin limitləşdirilməsi bəzi hallarda vençur problemi ilə, vençur müəssisəsinin (qurumunun) yaradılması, iri elmi-tədqiqat işlərinin aparılması, digər strukturların yaradılması, maliyyə əməliyyatlarına proqramlı-məqsədli qay-dada yanaşmağı, borc vəsaitlərinin hüdud həcminin, xüsusi çəkisinin, aktivlərin yüksək likvidlik formasında minimum həcminin, xüsusi çəkisinin müəyyən edilməsini, qiymətli kağızlara maksimum vəsait qoyuluşunun müəyyən edilməsi və bu kimi problem məsələləri əhatə edir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, belə problemlər və onlardan irəli gələn limitləşdirmə prosesi hardasa bu risklərə dövlətin tənzimləmə aspektindən yanaşmağına imkan yaradar.

Hər bir müəssisə bazar sistemi şəraitində – kapitalı cəlb edib onun artımını təmin edən bir təkrar istehsal strukturu kimi çoxlu sayda qeyri-müəyyənliklərlə üzləşir. Eyni zamanda müəssisə öz maliyyə öhdəliklərini yerinə yetirmək üçün belə bir situasiyada öz maliyyə ehtiyatlarını düzgün yerləşdirməyə çalışır. Burada onun tədiyə problemləri başlıca olaraq kapitalının yerləşdirilməsi və səmərəli istifadəsi ilə əlaqədar olur. Öhdəliklər – müəssisənin sərəncamında olan bu borc vəsaitləri, başqa sözlə, passivlər – müəssiənin öhdəlikləri problemidir. Müəs-sisənin nə dərəcədə gəlir əldə etməsi öz passivlərinin aktivlərdə necə yerləşdirməsindən birbaşa asılıdır. Maliyyə resurslarını hərəkəti balansda öz əksini tapır. Qeyri-müəyyənlik şəraitində bu sahədə çevik qərarvermə çox çətindir. Çünki bu həm də maliyyə resurslarının artımı pul axını artımının istənilən potensial istiqamətlərinin meydana gəlməsi ilə şərtləşir. Məsələn, ehtiyat-ların və maliyyə qoyuluşlarının (investisiyaların) azalması, kreditor borcunun artırılması, debitor borcunun azaldılması, əlavə kapitalın artımı və s. belə şəraitdə mürəkkəb bir situasiyalarla üzləşir. Ona görə seçim etmənin də burada tənzimlənmənin, qərar vermənin özü bir növbəti problemə çevrilir.

Pul axınları mənbəyi potensilanın azaldılması – maliyyə resusrlarının qeyri optimal yerləşdirilməsi ilə bağlı olur. Məsələn, kreditor borcunun azaldılması, debitor borcunun artması, material aktivlərinin artımı, cari və uzunmüddətli passivlərin azaldılması bununla bağlıdır. Əldə edilən gəlirin öhdəliklərin ödəniləmsinə yönəldilməsi üçün müxtəlif tədiyələr

üzrə düzgün bölüşdürülməlidir, başqa sözlə, pul axını tənzimlənməlidir. Pul axınının zəif halda tənzimlənməsi müəssisənin tədiyə qabiliyyətini də zəiflədir. Pul axınının tənzimlənməsinə aşağıdakılar tələb olunur:

1) gəlirin planlaşdırılması; 2) gəlirin plan həcminin cari öhdəliklərin həcmi ilə əlaqələndirilməsi; 3) müəssisə daxili əsas və dövriyyə vəsaitlərinin, ehtiyatlarının səfərbər edilərək gəlirin artımına yönəltmək; 4) həm də cari öhdəlik-lərin ümumi məbləği gəlirə proporsional olaraq müəyyən çərçivədə saxlanmalıdır.

Firma və şirkətlərin maliyyə vəziyyəti, onun likvidlik və tədiyyə qabiliyyəti göstəriciləri – cari aktivlərə qoyulan vəsaitlərin real pula nə dərəcədə tez bir zamanda çevrilməsindən birbaşa asılıdır.

Bir qayda olaraq cari aktivlərin dövrlülük əmsalı aşağıdakı kimi hesablanır:

$$Ə_{cad} = \frac{\textbf{realizasiyadan əldə olunan gəlir}}{\textbf{cari aktivlərin müəyyən dövrdə orta həcmi}}$$

Dövriyyə vəsaitlərinin çatışmamazlığı ilə əlaqədar risklər aşağıdakılardır:

1) İstehsal tsiklinin müddətinin artırılması və məsrəflərin artımının nəticəsi kimi xammal və materiallarla tədcizatda kecikmələr; 2) Hazır məhsul ehtiyatının çatışmamazlığı üzündən satış həcminin azalması; 3) Maliyyələşdirməyə əlavə xərclər.

Dövriyyə vəsaitlərinin daha çox olması, qaydasızlığı ilə əlaqədar risklər:

1) ehtiyatlar fiziki və mənəvi cəhətdən köhnələ bilər; 2) ehtiyatların artıq hissəsinin saxlanması ilə əlaqədar xərclər; 3) borclular borcu ödəməkdən imtina edə bilərlər; 4) pul vəsaitləri saxlanılan banklar iflasa uğraya bilərlər; 5) əmtəə-material ehtiyatları və hazır məhsulun daha yüksək həcmi əmlaka vergini artırır; 6) inflyasiya debitor borcunun və pul vəsaitlərinin real dəyərini həddən artıq çox azalda bilər.

Yuxarıda sadalananlar sadəcə risk törədiciləri deyillər, həm də hər biri müstəqil bir problemdir. Dövriyyə vəsaitlərinin optimal səviyyəsi isə, əksinə likvidliyin və kommersiya riskinin müəyyən səviyyəsində mənfəəti maksimuma çatdırmağa imkan verir. Likvidlik riskinin yaranmasının səbəbləri təşkilatın qeyri-qənaətbəxş menecmentindən, pul axınlarının düzgün strukturlaşdırmamaqla onların keyfiyyətinin təmin edilməməsindən irəli gəlir. Məlumdur ki, hər bir müəssisənin üç vacib

göstəricisi vardır: realizasiyadan əldə edilən gəlir, mənfəət və pul vəsaitləri axını. Pul vəsaitləri axını - müəyyən dövr ərzində müəssisə tərəfindən əldə edilən bütün pul vəsaitlər ilə ödənilən pul vəsaitləri arasındakı fərqdir. İnflyasiya və böhran şəraitində pul axınlarının idarə edilməsi maliyyə riskinin idarə edilməsini ən aktual vəzifələrindən biridir. Bu, bir qayda olaraq aşağıdakı kimi tənzimlənir:

Pul vəsaitlərinin idarə edilməsi özündə aşağıdakıları birləşdirir:

- pul vəsaitləri hərəkətinin uçotu;
- pul vəsaitləri axınının təhlili;
- pul vəsaitləri büdcəsinin təhlili.

Pul axınları təhlilinin əsas vəzifəsi pul vəsaitlərinin çatışmamazlığının (və ya artıqlığının) səbəblərini aşkar etməkdən ibarətdir. Təhlil zamanı pul vəsaitləri axını 3 fəaliyyət növü üzrə (əsas, investisiya, maliyyə) baxılır.

Müəssisənin əsas, investisiya və maliyyə fəaliyyəti arasında aşağıdakı əlaqə mövcuddur:

Likvid pul axını müəssisənin maliyyə vəziyyətini qiymətləndirən göstəricilərdən biridir. Likvid pul axını müəssisənin müəyyən dövr ərzində xalis kredit mövqeyindəki dəyişikliklə səciyyələnir. Xalis kredit mövqeyi – müəssisənin aldığı kreditlərin məbləği ilə pul vəsaitləri arasındakı fərqdir. Qısamüddətli kreditlərin verilməsi mümkünlüyü məsələsinə baxarkən bankı əsasən müəssisə aktivlərinin likvidliyi və kreditlər üzrə tədiyyələrin ödənilməsi üçün pul vəsaitlərinə çevrilmə qabiliyyəti maraqlandırır. Likvid pul axını müəyyən həddi xarakterizə edən maliyyə göstəriciləri ilə sıx əlaqədardır və yalnız məhz bu həddə qədər müəssisə fəaliyyəti bank kreditləri hesabına yaxşılaşdırıla bilər.

Maliyyə sferasında firma və şirkətlərin maliyyə axınlarını nəzərdən keçirməsi, ona nəzarət və bütövlükdə axının idarə edilməsi maliyyə menecmenti baxımından mühüm əhəmiyyət kəsb edir. Əslində maliyyə axınlarının idarə edilməsi bütövlükdə maliyyə fəaliyyətinin tənzimlənməsinin özəyini təşkil edir. Dünya maliyyə böhranı, Amerika və bir sıra inkişaf etmiş ölkələrdə şirkətlərin 100 milyonlarla zərərə düşməsi halları bir daha göstərdi ki, firma və şirkətlərdə pul vəsaitlərinin daxil olması və ödənilməsinə nəzarətsizlik və yaxud kifayət qədər nəzarətin olmaması həmin şirkətlərdə risklərin potensial qaydada formalaş-ması və aşkara çıxarılmasına bir növ şərait yaratmışdır. Bütün iqtisadi sistem-lərdə və yarım-sistemlərdə, o cümlədən göstərdiyimiz yarım-sistemlərdə hər

hansı bir ünsürün zəifliyi, neqativliyi, real vəziyyətin lazımi səviyyədə olmaması, biz deyərdik ki, bütövlükdə bütün sistemin, indiki halda maliyyə axını yarımsisteminin fəaliyyətini əhəmiyyətli dərəcədə zəiflədə bilər. Maliyyə axınları isə öz növbəsində istehsal olunan məhsulun satışı yarımsistemi ilə bağlıdır. Əgər məhsula tələbat azalarsa və yaxud məhsul satılmazsa, onda hazır məhsul debitor borcuna və yaxud pul vəsaitinə çevrilə bilməz. Bəzi hallarda bu itginin və yaxud demək mümkündürsə, bu boşluğu doldurmaq üçün şirkətlər bir qayda olaraq bir sıra resurslardan – xüsusi kapitaldan, kredit borclarından, istiqrazlardan istifadə etmək məcburiyyətində qalırlar. Doğurdan da bu əsasən məcburiyyət üzündən baş verir. Çünki, buraxılan məhsul realizasiya olunmursa və demək şirkətin hesabına pul vəsait daxil olmursa başqa bir çıxış yolu qalmır. Bununla belə pul vəsaitlərinin axını sonsuz olaraq uzun müddət dondurulmuş vəziyyətdə qala bilməz. Əgər belə vəziyyət uzun müddət davam edərsə, onda bu şirkət məhsul istehsalını dayandırmalı, ya da yeni məhsul istehsalına keçməyə məcbur olma-lıdır. Nəticədə həmin firma və ya şirkət ya bütövlükdə, ya da qismən tədiyyə qabiliyyətinə malik olmur, ya da bütövlükdə iflasa yğrayır. Bu isə mülkiyyət sahiblərinin və yaxud səhmdarların maksimum mənfəəti əldə etmək, şirkətin səhmlərinin bazar dəyərini artırmaq məqsədinə nəinki xidmət etmir, hətta belə təşkilatın özünün mövcud olması imkanına kölgə salır. Bazar iqtisadi sistemində mənfəət və satış arasında necə deyərlər mütləq, biz deyərdi ki, amansız bir əlaqə vardır. Baxmayaraq ki, iqtisadi ədəbiyyatlarda maliyyə problemlərindən da-nışarkən ön planda mənfəət durur, lakin satış problemi ondan da az əhəmiyyət kəsb etmir. Çünki, bu zaman nəinki mənfəəti maksimuma qaldırmaq mümkün ol-mur, ümumiyyətlə mənfəətin özü olmur. Bu o deməkdir ki, birinci planda firma və şirkətlərin təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması və düzgün idarə edilməsi qarşıda durmalıdır, maliyyə resursları əvvəlcədən, vaxtlı-vaxtında investisiyalaşdırma ilə, innovasiya tədbirləri ilə əlaqələndirilməlidir. Bunun üçün optimal maliyyə, investisiya və satış taktikası və strategiyası olmalıdır. Əlbəttə burada da yenə də firma və şirkətlərin tədiyyə qabiliyyətləri, imkanları problemi meydana çıxır. Ona görə də, hər hansı bir risklə üzləşməmək üçün ilk növbədə onların maliyyə və investisiya imkanları, kommersiya fəaliyyəti nəzərə alınmalıdır. Belə imkanlar olmadıqda nəinki istehsalı genişləndirmək, elmi-texniki baxımdan rekonstruksiya tədbirlərini həyata keçirmək mümkün olmur, hətta normal və yaxud ən aşağı səviyyədə gəlir

əldə edilməsi böyük problemə çevrilir. Ona görə də elə etmək lazımdır ki, müəssisələrin bütün iqtisadi göstəriciləri bir-birilə lazımi səviyyədə və əlaqədə koordinasiya oluna bilsin və bu nəticə etibarilə pul vəsaitlərinin optimal qaydada formalaşması və istifadəsi ilə üzvi əlaqə-ləndirilsin. Burada yeri gəldikdə maliyyə göstəricilərinin, pul hərəkətinin monitoriqini həyata keçirmək olar. Bu monitorinq həm də bu sahədə tədbirlər və tənzimlənmənin nəzarət forması kimi qiymətləndirilə bilər. Göründüyü kimi, maliyyə axınlarının idarə olunması geniş əhatəli məsələni özündə birləşdirir. Yuxarıda deyilənlərlə yanaşı bütövlükdə maliyyə axınının idarə olunması maliyyə göstəricilərinin vəziyyətinin təhlili, aktivlərin bazar dəyəri göstəricilərinin (qimyətli kağızlar bazarında), tədiyə qabiliyyəti və likvidlik səviyyəsinin və digər göstəricilərin qiymətləndirilməsinin kompleks təhlilini tələb edir, burada şübhəsiz risk problemi, istehsalla bağlı gəlirlərin, mənfəətin olmaması ehtimalı – kommersiya riskləri, kreditorla investorlar arasındakı əlaqələrdən irəli gələn risklər, əməliyyat riskləri, istehsalı davam etdirmək üçün firma və şirkətlərin maliyyə və yaxud pul ehtiyatlarının səviyyəsi nəzərə alınmalıdır.

İqtisadi risklərdən müdafiə müasir dövrün ən böyük problemidir. Bu da təbiidir. Ona görə ki, bu bütün miqyasılarda – istər firma və şirkət və istərsə də makro milli iqtisadiyyat və qlobal səviyyədə iqtisadi təhlükəsizliyin təmin edilməsinin başlıca şərtdir. Çünki rsiklərin yolverilən həddən artıq çoxalması iqtisadi təhlükəsizliyə mane olur.

Risklərdən müdafiə səviyyəsi, dərəcəsi əslində iqtisadi sistemin, iqtisadi mo-delin özündən də asılıdır. Ona görə ki, də belə iqtisadi model, sistem, stoxastik, təsadüfi iqtisadi proseslər və hadisələrlə əlaqədardır. Bu halda yuxarıda göstərilən hallardan, risklərdən müdafiə səviyyəsi aşağı olur. Bu, böyük hətta biz deyərdik prinsipial bir qanunauyğunluqdur. Belə olan halda yəni, iqtisadi sistem daha çox təsadüfilərlə bağlı olduqda iqtisadi itkilərin, zərərlərin çoxalması ehtimalı da yüksək olur, iqtisadi tarazlığın makro-iqtisadi pozulması da nisbətən tez-tez baş verir. Həm də bu digər risklərin, məsələn, sosial risklərin baş verməsinə imkan yaradır, iqtisadiyyatda və sosial proseslərdə harmoniyanı pozur, emmerdljenlik, sinergetik meyilləri zəiflədir. Beləliklə, yuxarıdakı hallara neqativ qanunauyğunluluq, itkilərin artmasının mühüm amili kimi yanaşmaq lazımdır. Ona görə idarəetmədə burada risklərin səviyyəsi, onların meydana gəlməsi ehtimalı, iqtisadi proseslərə, obyektlərə təsiretmə dərəcəsi və bütövlükdə bunun iqtisali itkilərə, sosial proseslərə kəmiyyət

və keyfiyyətcə müdaxiləsi nəzərə alınmalıdır. Əks təqdirdə həmin risklər daha da dərinləşər və genişlənər, dağıdıcı xarakter alar, böyük itkilərə gətirib çıxara bilir. Həm də nəzərə almaq lazımdır ki, digər risklərdən fərqli olaraq (məsələn, ekoloji) iqtisadi risklər obyektiv kateqoriyalar olsalar da, onların meydana gəlməsi və inkişafı həm də insan amilindən, korporativ mənafelərdən, korporativ fəlsəfədən, bəzən spekyativ meyillərdən də asılı olur. Ona görə də burada risk-menecment, makro idarəetmə mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, 2009-cu ilin fevralın axırlarında sənayecə inkişaf etmiş ölkələrin toplantısında (burada Amerikanın yeni maliyyə naziri də iştirak edirdi) risk-menecment probleminə indiyənə qədər lazımı dərəcədə diqqət yetirilməməsi xüsusi olaraq nəzərdən keçirilmişdir. Yeri gəlmişkən qeyd edək ki, İspaniyanın baş naziri dövlətlərarası münasibətlərdə maliyyə etikasına lazımı dərəcədə fikir verilməməsini xüsusi olaraq qeyd etmiş-dir. Doğrudan da iqtisadi risk-menecmentdə maliyyə risk-menecmenti, ümumiy-yətlə maliyyə menecmenti mühüm yer tutur. Çünki maliyyə menecmenti adından də bəlli olduğu kimi firma və şirkətlərin biznes-planı, sahibkarlıq fəaliyyətilə birbaşa bağlı olsa da, həm də yalnız maliyyə nəticələri baxımından deyil, həm də təsərrüfat - idarəçilik metodları ilə bağlıdır. Başqa cür desək, onların missiyası, məqsədli funksiyası ilə əlaqədardır. Burada optimal seçim və taktiki, strateji yanaşmalar da mühüm əhəmiyyət kəsb edir. Ona görə də burada idarəçilik qərarlarının, varinatlarının seçimi ən vacib problemlərdən biridir. Bu, o deməkdir ki, taktiki risk-menecment strateji risk-menecmentlə düzgün halda əlaqələndiril-məlidir, təsərrüfat situasiyalarını özündə şəffaf şəkildə əks etdirməlidir. Maliyyə baxımından gəlirlə zərər, gəlirlə risk arasında optimal əlaqə olmalıdır. Həmin əlaqə optimal şəkildə təmin edildikdən sonra isə mütləq hər hansı mövcud kənarlaşmaların özünün də optimallığını təmin etməyə çalışmaq lazımdır. Bu, həm də təsərrüfat, iqtisadi nəticələrin optimal ehtimalını artırmış olar, daha səmərəli nəticələrə gətirib çıxara bilir. Ona görə də risk-menecmentdə optimal ehtimala xüsusi diqqət yetirmək lazımdır. Çünki bunlar (kənarlaşmalar) nəticə etibarı ilə dispersiyalar, orta kvadratik kənarlaşmalar, variasiyalar əmsalı ilə bağlı olduğuna görə həmin optimal əlaqələndirmə xeyli dərəcədə səmərəli risk-menecmenti tələb edir ki, burada həddindən artıq kənarlaşmaların yol verilən həddə saxlamasına köməklik edir. Bu, yenə də yuxarıda göstərdiyimiz kimi iqtisadi, təsərrüfat situasiyaları ilə şərtləşir. Təsərrüfat situasiyaları nə qədər koknret və aydın olsa on-

ların dərk edilməsi, qiymətləndirilməsi və idarə edilməsi də bir o qədər yüngülləşər, optimal qərarlar qəbul etmək mümkün olar, stabilliyin pozulmasının qarşısını almaq, operativ tədbirlər görmək də mümkün olar. Belə halda iqtisadi proseslərdə alqoritmikliyi də təmin etmək olar. Təəssüf ki, qeyd etmək lazımdır ki, iqtisadi sistemlərdə indiyinə kimi termodinamik qanunları, xaostikliyi əsas götürən bir çox müəlliflər, o cümlədən iqtisadiyyat üzrə bir çox Nobel mükafatı laureantları risk-menecmenti əsasən mövcud olan, baş verən həmin tipli proseslərlə əlaqələndirilmişlər. Ona görə də son vaxtlar belə yanaşma hələ də davam etsə də eyni zamanda yeni paradiqma meydana çıxmış – yəni risk-menecement antiböhran menecment paradiqması ilə əlaqələndirilmiş, əvəz edilmişdir. Bu o demək deyildir ki, guya artıq baş vermiş, formalaşmış situasi-yalar üçün risk-menecment lazım deyildir. Lakin bununla belə baş verməməsi və yaxud bu kəskin forma almamış antiböhran menecmentini daha önəmli hesab etmək lazımdır. Bu isə məlum olduğu kimi müəyyən taktiki və strateji məqsədlərlə, problemlərlə, həmin problemlərin optimal qaydada həlli ilə bağlıdır. Şübhəsiz ki, burada məqsədlər ağacı, məqsədlərin şaxələnməsi, idarə edən və idarə olunanlar, yarım sistemlər arasındakı əlaqə və qarşılıqlı əlaqələr, təsir və qarşılıqlı təsir istiqamətləri, obyekt və subyektlərin bu məsələlər üzrə konkret funksiyaları, iqtisadi münasibətlərin məzmunu və xarakteri baxımından nəzərə alınmalıdır. Lakin bir sıra hallarda risklərin həll olunmasında, sığortalanmasında, hər hansı bir tədbirin görülməsində yuxarıda göstərilən cəhətlər idarəedicilər və idarə olunanlar tərəfindən lazımı dərəcədə nəzərə alınmır, risk-menecment bütün hallarda idarəetmənin koordinasiya, təşkiletmə, tənzimlənmə və digər ümumi və konkret funksiyalırı ilə lazımı dərəcədə əlaqələndirilmir ki, bu da istər iqtisadi risklər və istərsə də idarəetmə obyektləri və subyektləri arasında neqativ münasi-bətlərin, kənarlaşmaların meydana gəlməsinə səbəb olur. Halbuki risk-menecment bütövlükdə iqtisadiyyat, maliyyə sahəsində yuxarıda göstərilən kənarlaşmanın ilkin, əvvəlcədən müəyyən edilməsini, bu halların proqnozlaşdırılmasını nəzərdə tutmalıdır. Burada doğrudan da, həm təşkiletmə, adamların fəaliyyətini birləşdirmək, sistemlərarası əlaqə yaratmaq, həm koordinasiya, (obyekt və subyektlərin fəaliyyətindəki vəhdətli təminetmə, müəyyən əlaqələndirilmə işlərinin həyata keçirilmə), həm də tənzimetmə (kənarlaşmaları aradan qaldırılma, tənzimləyici tədbirlər görülmə) və digər ümumi və konkret, xüsusi funksiyaları icra etmək lazımdır. Bütün bunlar, bu funksiya-

lar, habelə nəzəretmə funksiyası da digər funksiyalarla birlikdə iqtisadi risklərin azaldılmasına gətirib çıxar bilir. Əslində risk-menecment yalnız idarəetmə orqanları, idarəetmə strukturunun formalaşması və fəaliyyəti ilə deyil, həm də əvvəllərdə göstərdiyimiz kimi biznes, sahibkarlıq fəaliyyəti ilə, bu fəaliyyətin yaxşılaşdırılması, təkmilləşdirilməsi ilə də bağlıdır. Burada ən çətin problemlərdən biri sahibkarlıq fəaliyyətində, investisiya, elmi-texniki layihələr və digər layihələrin həyata keçirilməsində həm də idarəçilik funksiyalarının icrasıdır, idarəçilik funksiyalarının fərqləndirilməsi və əlaqələndirilməsidir. Bu sahədə olan nöqsanlar riskoloji problemləri əhəmiyyətl dərəcədə kəskinləşdirə bilər, həmin layihələrin həyata keçirilməsinə maneçilik törədə bilər. Ona görə burada həm iqtisadi münasibətlər, iqtisadi normativlər, qaydalar, psixoloji amillər və həm də qanunçuluq aktları dəqiq nəzərə alınmalıdır.

Bazar risklərinin iqtisadi, iqtisadi-riyazi ədəbiyyatlarda, necə deyərlər stan-dart tərəfi, məzmunu vardır. Bununla belə hər bir ölkənin bazar sistemindən, bazar tipindən və həmin bazarların formalaşmasından asılı olaraq iqtisadi risklə-rin xarakteri müxtəlif ola bilir, daha doğrusu olur. Bazar riskləri, bir qayda ola-raq daha çox bazar amilləri ilə, bazar konyukturası ilə müəyyən olunur və poten-sial qaydada real uyğunsuzluq üçün ilkin şərt rolunu oynayır. Bu, bəzən əlverişsiz şəraitlə də şərtləşə bilir. Lakin burada əlverişsiz şərait anlayışının özü üçün standart meyarın tapılması həmişə, bütün halarda mümkün olmur. Məsələn, investor üçün qiymətli kağızların hansı səviyyədə, intervalda gəlir verməsi daha çox konkret şəraidən asılı olur. Əgər bu şərait, bu interval bazar riskləri səviyyəsində pozulursa qiymətli kağızlar portfeli müəyyən risklərlə üzləşməli olur. Risklərdə böyük kənarlaşmalar baş verir ki, bu da həmin mənfi, neqativ kənarlaşma diapozondan irəli gəlir. Ona görə də burada istər-istəməz qeyri müəyyənlik halları özünü göstərmiş olur. Daha doğrusu, bu kənarlaşmalar əsasən bazar konyukturasından irləi gəlir. Çünki burada sözün əsl mənasında substisional iqtisadi proseslər, o cümlədən qiymət və valyuta məzənnəsi, faiz risk-ləri, likvidlik və onların firma və şirkətlərin aktivləri ilə, gəlirləri ilə və yaxud zərərləri ilə bilavasitə və yaxud dolayısı yolla əlaqədar olan proseslər gedir.

İqtisadi, riyazi-iqtisadi ədəbiyyatlarda bazar risklərinin idarə edilməsinə portfel qaydada yanaşmağa böyük əhəmiyyət verilir. Bu özünü risklər öyrənilər-kən ayrı-ayrı firma və şirkətlər fəaliyyətinə onların aktiv və passivlərinin əlahitdə halında deyil, sinergetik vəhdət halında

öyrənilməsində öz təsdiqini tapır. Əslində bu hal aktiv və passivləri sistemli halda öyrənir, təhlil edir, onların kənarlaş-masına nəzarətin bir vacib forması olur. Bu mənada portfel yanaşmanı sistemli, sinergetik yanaşmanın davamı, həmin konsepsiyaların firma və şirkətlərin təcrübəsində həyata keçirilməsi forması kimi də qiymətləndirmək olur. Doğrudan da portfel yanaşmada firma və şirkətlərin aktiv və passivləri bütöv bir iqtisadi sistemin, çoxluğun bir ünsürü kimi nəzərdən keçirilir, başa düşülür. Passivlər bütövlükdə və habelə onların tərkibi, strukturu qarşılıqlı, müqayisəli halda nəzərdən keçirilməlidir, gəlir və zərərin hansı ünsürlərin hesabına baş verməsi araşdırılmalıdır, müəyyənləşdirməlidir. Ona görə də, iqtisadi ədəbiyyatlarda qəbul olunmuş terminlə desək portfelin tərkibi, (aktivi, passivi) azalması, çoxalması, mübadilə və s.) sinergetik, sistemli qaydada təhlil edilməli, idarəçilik baxımından ondan müvafiq nəticələr əldə ediməlidir. Ona görə də sinergetik baxımından da aktiv və passivlərin riskli vəziyyətləri araşdırılmalı, müəyyən edilməlidir. Çünki istər risklər, istərsə də gəlirlər, itkilər, zərərli hallar heç də mücərrəd məkanda, sfe-rada deyil, məhz portfelin müvafiq ünsürləri üzrə və bazar konyukturasında, sferasında baş verir. Burada risk subyektlərinin də (iqtisadi agentlərin) rolunu nəzərə almaq lazımdır. Çünki bazarda portfel və risk subyektləri birgə çıxış edirlər. Və bu nəticə etibarı ilə bazar konyukturasına, konyuktura isə onlara təsir göstərir. Ona görə də onların özlərinin idarə olunması, idarə edilməsi meyarları, portfelin risk parametrləri sistemli halda nəzərdən keçirilməlidir. Burada belə bir asıllığı aşağıdakı halda vermək olar: Riskin subyekti → Portfelin risk parametrləri → Bazar. Və yaxud əksinə olan sxem kimi vermək olar. Yalnız bunun əsasında portfelin riskini nəzərə almaqla onun müəyyən elmi meyarlar əsa-sında optimallaşmasında, bütövlükdə maliyyə indikatorlarının, göstəricilərinin, sinergetik sintezinə nail olmaq mümkündür. Burada aktiv və passivlərin dəyərlə-rinin pul axını ilə əlaqəsi cari və strateji dövr üçün düzgün proqnozlaşdırılmalıdır, investisiya, vergi-ödəmələri, bütövlükdə risk-menecment və onun effektli nəti-cələri ilə əlaqələndirilməlidir. Bu o deməkdir ki, cari bazar şəraiti perspektiv bazar şəraiti ilə vəhdət halında müəyyən olunmalıdır, həm də dəyər göstəriciləri, bazar parametrləri, mənfəət, xərclər, rentabellik və bunun əsasında risklərin minimuma endirilməsi problemi ilə əlaqələndirilməlidir. Nəticədə bütün bunlar nəinki firma və şirkətlərin, hətta qiymətli kağızların reytinqi, risklərin xarakteri, ayrı-ayrı maliyyə vasitələrinin kotirovkası, bəzi akivlərin az və yaxud

çox gəlir yaratması, firma və şirkətləri dinamik inkişafı və yaxud iflasa uğraması, onların pul qıtlığı və yaxud çoxluğu problemləri ilə qarşılıqlı halda əlaqələndirilməlidir.

İqtisadiyyata dövlətin təsiri probleminə yanaşma metodologiyası indi, xüsusilə bir neçə onilliklər əvvəl problem səviyyəsində olmuşdur. Bu fikirlər nəticə etibarilə aşağıdakı zidiyyətli variantlarda, konsepsiyalarda öz ifadəsini tapmışdır.

1. Bazar iqtisadi sisteminin tənzimlənməyə ehtiyacı yoxdur.
2. Bazar sistemi yalnız özünütənzimlənməyə, özünümaliyyələşdirməyə əsaslanır.
3. Dövlət iqtisadiyyata müdaxilə etməməlidir. Bu, bazar prinsiplərinə ziddir.
4. Dövlətin iqtisadiyyata müdaxiləsi bazar mexanizminin zəif işləməsindən irəli gəlir.
5. Dövlət tənzimlənməsi bazar mexanizminin nöqsanlı olması, özünü doğrultmamasından irəli gəlir.
6. Dövlət tənzimlənməsi mövcud nöqsanlara, makro və mikro tarazlığın pozulmasına olan bir reaksiyadır, tarazlığın təmin edilməsindən irəli gələn bir zərurətdir.
7. Bazar iqtisadi sistemi qeyri müəyyənliyi, riskləri çox olan bir iqtisadi mexanizmlər toplusudur və s.

Göründüyü kimi, yuxarıda irəli sürülən fikirlərin müəyyən pozitiv cəhətlər olsa da həm də ziddiyyətli və bir-birinə alterantivdirlər. Bəziləri isə dövlətin bazar sisteminə müdaxiləsini eyni qaydalı, standart yanaşma kimi qiymətləndirir. Bu fikirlə qismən razılaşmaq olar. Doğrudan da hər bir dövlətin milli iqtisadiyyata müdaxiləsi eynimənalı prinsipləri, proseduraları tələb edir. Bununla belə hər bir ölkənin milli iqtisadiyyatının spesifik xüsusiyyətləri səbəbindən buna həmişə universal qaydada istinad etmək olmaz. Bu, problemin bir cəhətidir. Digər cəhəti ondan ibarədir ki, bəzi dövlət qurumlarının sistem əmələ gətirən amillər, kompanentlər ilə sıx əlaqə mexanizmləri (iqtisadi, inzibati-sərəncam və s.) hələ də lazımı dərəcədə dərk edilməmişdir, hakimiyyət, o cümlədən iqtisadi hakimiyyət münasibətləri riskləri lazımı dərəcədə nəzərə alınmamışdır. Nəzərə almaq lazımdır ki, dövlət yalnız siyasi sistem deyildir, iqtisadiyyat, xüsusi olaraq müasir iqtisadiyyat, müasir iqtisadi problemlər dövlətin atribut səciyyəli funksiyasıdır və bu funksiya bazar mexanizmləri ilə düzgün əlaqələndirilməlidir, onlar bir-birini tamamlamalıdır.

Risklərin idarəedilməsi çoxaspektli problemləri, istiqamətləri əhatə edir. Onun bu səciyyəsi fəaliyyətin və obyektin özünün təbiətindən də irəli gəlir. Risklərin təhlili və ölçülməsi, onların əsasında idarə edilməsi praqmatik əhəmiy-yətə malikdir. Onun praqmatik əhəmiyyəti həmin prosesin idarə olunmazlılığı zəruriyyəti və həm də itkilərin azaldılması, iqtisadi təhlükənin minimuma en-dirilməsi və gəlirlərin çoxaldılması ilə əlaqədardır.

Bəzən risklər dağıdıcı nəticələrə gətirib çıxarından sonra firma və şirkətlər, banklar, dövlət orqanları bu haqda düşünür, tədbir görməyə çalışırlar. Əlbəttə, əgər artıq risk baş vermişsə onu araşdırmaq lazımdır. Lakin bu əvvəlcə, priventiv, qabaqlayıcı qaydada aparırsa daha səmərəli olar. Beləliklə, gələcək risklərin əvvəlcədən qiymətləndirilməsi doğrudan da son dərəcədə vacibdir. Əlbəttə, risklərin gələcək proqnozunu vermək üçün həmin fəaliyyət növnünün öz məzmu-nunu sistemli halda dərk etmək lazımdır. Bunun üçün dərin təfəkkürdən başqa, həm də peşəkar biliyə malik olmaq lazımdır. Şübhəsiz ki, burada bərabər şəriat daxilində rəhbər işçinin, mütəxəssisin uzun illərdə topladığı təcrübənin, şəxsi intuisiyanın da müəyyən rolu vardır. Lakin burada ən başlıca məsələ proqnozların verlməsinin elmi metodudur. Burada informasiyanın, aprrior məlumatların dəqiqliyi, habelə firma və şikrətlərin antirisk tədbirlərinin mövcud vəziyyətə adekvatlığı mühüm əhəmiyyət kəsb edir. Əslində antirisk tədbirlərinin özü də dəqiq məlumatlara, səlist məntiqə əsaslanmalıdır. Burada yalnız riyazi-statistik, dinamik məlumatların proqnozlar üçün mücərrəd şəkildə verilməsi, hazırlanması kifayət deyildir. Burada mövcud və baş verə biləcək iqtisadi proseslərin situasiyalı təhlili və idarəedilməsi də mühüm əhəmiyyət kəsb etməlidir. Bunun üçün, birinci növbədə rasional menecment, idarəçilik konsep-siyası, davranışı vacibdir. Ona görə də baş verəcək hər hansı bir itkinin məqsədli qaydada idarə olunması da vacibdir. İdarəetmədə istər əldə ediləcək mənfəətin, gəlirlər məbləğinin və istərsə də itkilərin miqdarı, strukturu da nəzərə alınmalıdır. Əlbəttə burada belə bir cəhəti də nəzərə almaq lazımdır ki, informasiyanın tam dəqiqliyi, qeyri müəyyənliyin olmaması özü-özlüyündə hələ risklərin aradan qaldırılması demək deyildir. Şübhəsiz informasiyanın dəqiqliyi, səhihliyi müəyyənlik üçün xüsusi əhəmiyyət kəsb edir. Lakin əgər iqtisadi proseslərin, qiymətli kağızlar bazarında və digər sferalarda və proseslərdə baş verən və baş verə biləcək əməliyyatlar, sövdələşmələr və s. öz təbiəti etibarı ilə qeyri-xətti, spontan xarakter daşıyırsa bizim on-

lar haqqında informasiya məlumatlarımız həmin xaotik halların aradan qaldırılması üçün əsasən qarantiya ola bilməz. Olsa olsa xaotik hadisələr, proseslər haqqında biliyimiz hardasa onların müəyyən yol verilən həddə çatmasına kömək edə bilər. Bu köməklik, informasiyanın belə əhəmiyyəti özünü bir çox istiqamətlərdə göstərə bilər: 1. İnformasiyalar əsasında bu və ya digər əməliyyatlara başlamağın tez və gec olmasını və yaxud vaxtından əvvəl başlamağın qərara alınması. 2. İdarəçilik qərarının özünün əsaslandırılması və onun antirisk, antiböhran səciyyə daşıması. 3. İqtisadi əməliyyatların özünün şəffaflığının təmin edilməsi. 4. Riskli situasiyaların ayrı-arı əməliyyatlar və digər iqtisadi fəaliyyət növləri üzrə tədqiq edilməsi, araşdırılması. 5. Riskli situasiyalar sistemində ən kritik nöqtələrin tapılması, müəyyən edilməsi. 6. Bütün bunlar əsasında ayrı-ayrı əməliyyatlar, fəaliyyət növləri üzrə və bütövlükdə, məcmuu halda firma və şikrətlər, ayrı-ayrı təşkilatlar, banklar və s. üzrə risk potensialının aşkara çıxarılması, müəyyən edilməsi. Bütün bunlar riskləri törədən və yaxud da törədəcək amillərin (obyektiv, subyektiv) özünün sinergetik, sistemli və çoxcəhətli araşdırılmasını zəruri edir. Həm də nəzərə almaq lazımdır ki, istər subyektiv və istərsə də obyektiv risklər onların məzmunundan və xarakterindən asılı olaraq proqnozlaşdırma və idarə olunma səviyyəsinə görə də bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Bu mənada idarə olunmaqlılığı hətta risklərin mühüm meyarı kimi qiymətləndirmək lazımdır. Bu mənada bizə elə gəlir ki, kompyüterlər-də hər bir risklərin özlərinin nomenasiyalı-identifikasiyalı kodlarının əks etdrilməsi önəmli olardı. Bu nomenasiya-identifikasiyada obyektiv və subyektiv amillər və onların tərkib hissələrini müəyyən istiqamətdə qruplaşdırılsa daha önəmli olar. Çünki belə olduqda informasiyaları risk baxımından bir-birindən daha dəqiq ayırmaq mümkün olar. Məsələn, belə ayırma, hüdudqoyma bir sıra istiqamətlərdə də, o cümlədən aşağıdakı istiqamətlərdə aparılsa daha məqsədə uybun olar: 1. Bütövlükdə obyektiv amillər üzrə; 2. Bütövlükdə subyektiv amillər üzrə; 3. Mənfəətə, gəlirə, iqtisadi artıma səbəb ola biləcək işgüzar risklər üzrə; 4. İtkilərə, zərərə səbəb ola biləcək risklər üzrə; 5. İnvestisiya risklər üzrə; 6. İstehsal risklər üzrə; 7. Kommersiya risklər üzrə; 8. Maliyyə risklər üzrə; 9. Kredit risklər üzrə; 10. İdarə oluna bilən risklər üzrə; 11. İdarə oluna bilməyən risklər üzrə; 12. ayrı-ayrı əməliyyatlar və fəaliyyət növlər üzrə və s. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, belə nomenasiya-identifikasiya yalnız iqtisadi situasiyaları öyrənmək, idarəetmə baxımından deyil, həm də həmin no-

menasiyalar üzrə müvafiq, uyğun proqnozların aparılması baxımından da son dərəcədə vacibdir. Çünki burada ayrı-ayrı nominasiyalar üzrə eynicinsli, bir-birinə uyğun gələn prosesləri öyrənmək və müəyyən nəticə çıxartmaq mümkündür. Həm də burada bütün səbəbləri araşdırıb yekun qiymət vermək üçün əsaslı məlu-matlar əldə edilmiş olur. Burada həm də risklərin meydanaçıxma imkanlılığı (ehtimalı), təhlükə yaratmaq dərəcəsi ilə bir-birilə müqayisə etmək baxımından da bu qaydalı yanaşma əlverişlidir. Həm də ona görə ki, hər bir risk növü müəyyən proqnozlaşdırma qaydasını, metodunu nəzərdə tutur, həm də onların müxtəlif ne-qativ nəticələri olur, həm də müvafiq daşıyıcıları, məsuliyyət dərəcəsi olur. Bütün bunlar onu göstərir ki, doğurdan da proqnozlaşdırılma məqsədli tədqiqat tələb edir və müvafiq idarəçilik qərarları ilə şərtləşir, tamamlanır. Qəribə də olsa risklərin, həm də psixoloji tərəfləri, sosial məzmunu da olur. Bir sözlə, risklərin menecmenti, idarəedilməsi onların meydana gəldiyi bütün səviyyələrdə müəyən konseptuallığa, məqsədyönlülüyə əsaslanır və onlar arasında qarşılıqlı əlaqə və təsirlərin sistemli təhlilini tələb edir. Bu baxımından bəzi fəaliyyət növləri öz təbiəti etibarilə əvvəlcədən riskli hesab olunurlar. Nəinki ayrı-ayrı əməliyyatlar və yaxud fəaliyət növləri, bundan asılı olaraq bütövlükdə təşkilatın özü də riskli təşkilat hesab oluna bilər. Yəni burada risklərin ehtimallığı daha çox özünü göstə-rə bilər.

13.4. Əməliyyat risklərinin mahiyyəti və növləri

İqtisadi ədəbiyyatlarda əməliyyat riskləri haqqında birmənalı təsəvvürlər yaradılmamışdır və bu da əməliyyat risklərinin mahiyyətinin və onların idarə olunmasının müxtəlif şərhlərinə səbəb olmuşdur. Əməliyyat risklərinin təyinatında onun aşağıda göstərilən təzahürlərinə diqqət yetrilir:

- informasiya sistemlərində və daxili nəzarət sistemlərində maliyyə itkilərinə səbəb olan kənaraçıxmaların yaranması. Bu risklərə insan amili, sistemlərdə yaranan durğunluqlar və qeyri-səmərəli nəzarət sisteminin olmaması səbəb olur;
- daxili proseslərə xas olan, yəni daxili proseslərdə yaranan problem və kənaraçıxmalarla bağlı olan çatışmazlıqlar;

- kapital və gəlirlər iski; bu risklər xidmətlərin göstərilməsi və məhsulların satışı ilə bağlı olan risklərdir.

Xarici iqtisadi ədəbiyyatlarda geniş yer almış 4 əsas nəzəri baxışlara diqqət edəcəyik.

Əvvəlcə, əməliyyat risklərinə maliyyə risklərinin digər risklərdən (məsələn, bazar və kredit riskləri) fərqlənən növlərini aid edirdilər. Aydındır ki, bu cür təyinat çox geniş anlamdadır, belə ki, kredit təşkilatlarının qarşılaşdığı digər risklərin siyahısı çox genişdir, məsələn, biznes-risklər – biznesin aparılması aspektlərini əhatə edən inkişaf stretegiyasının seçilməsi, bazardakı mövqe, menecmentin səriştəliliyi, nou-hau və s. ilə bağlı olan risklərdir. Risklərin göstərilən yaranma sahələri, bir qayda olaraq menecerin bilavasitə risk komptensiyasına daxil olmur.

Əməliyyat risklərinin təyini üzrə digər nəzəri baxışlar risklərin yaranma sahəsi, hər şeydən əvvəl maliyyə əməliyyatlarının həyata keçirilməsi ilə bağlıdır. Bu riskin mənbələri məlumatların işlənməsi zamanı buraxılmış səhvlər, informasiya sistemlərində durğunluqlar, avadanlığın texniki nasazlığı, əməliyyatın düzgün yerinə yetirilməməsi ola bilər.

Bu halda əsas diqqət əməliyyatın mərhələlər üzrə icrası prosedurlarına yönəldilir və müəssisə daxilində möhtəkirliklə bağlı, maliyyə alətlərinin qiymətləndirilməsində düzgün modelin seçilməməsi ilə bağlı risklər nəzərə alınmır.

Üçüncü yanaşmada əsas diqqət təşkilat tərəfindən əməliyyat risklərinə nəzarətin həyata keçirilməsinə yönəldilir. Əməliyyat riskləri dedikdə, təşkilat daxilində daxili nəzarət sisteminin qeyri-səmərəli fəaliyyət göstərməsi nəticəsində yaranan (biznes-risklər istisna olmaqla) risklər başa düşülür. Əməliyyat risklərinin bu cür şərhində, məsələn, xərici möhtəkirlik, təbii qəzalar, təhlükəsizlik sisteminin qırılması və s. kimi hallar diqqətdən yayınır.

Nəhayət, dördüncü yanaşmada əməliyyat riskləri biznes proseslərinin düzgün qurulmaması, daxili nəzarətin səmərəsiz prosedurları, texnoloji durğunluqlar, işçi personalın sanksiyalaşdırılmamış hərəkəti və ya xarici təsir nəticəsində birbaşa və ya dolayı itkilər riski kimi şərh edilir.

Əməliyyat risklərinin bu cür təyin edilməsi yuxarıda göstərilən təyinatlardan fərqli olaraq əməliyyat risklərinin xüsusiyyətlərini, yaranması mənbələriin və onun nəticələrinin kredit təşkilatının fəaliyyətinə təsirini daha dəqiq və tam şəkildə xarakterizə edir. Lakin 2001-ci ildə Bazel Komitəsinin yeni müəyyən edilən qaydalarında öz əksini tapan əməliyyat

risklərinin tərifi hamı tərəfindən qəbul edildi.

Kapitala görə yeni Bazel Komitəsinin (Bazel -2) son redaksiyasına müvafiq olaraq «əməliyyat riski daxili proseslərin gedişində əməkdaşlar tərəfindən yol verilən səhvlər və çatışmazlıqlar, informasiya sistemlərinin və texnologiyalarının fəaliyyətində baş verən çatışmazlıqlar, eləcə də xarici hadisələr nəticəsində yaranan itkilər riski kimi müəyyən edilir». Bazel Komitəsinin materiallarında hüquqi risklərin də əməliyyat risklərinin tərkibinə daxil olduğu göstərilir. Ümumilikdə, əməliyyat risklərinin Bazel Komitəsinin materiallarında göstərilən tərifi onun mahiyyətini kifayət qədər açıqlayır və universal xarakter daşıyır. Bu tərif həm kommersiya banklarına, həm də digər maliyyə institutlarına eyni dərəcədə şamil edilir. Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olur ki, əməliyyat riskinin Bazel Komitəsinin materiallarındakı tərifi daha dolğun və lakonikdir.

Ənənəvi olaraq hesab edilir ki, risk fəaliyyət göstərən təşkilatlar üçün arzuolunmaz fəsadların mənfi nəticələrinin mümkünlüyünü əks etdirir. Risklər adətən 3 müxtəlif mövqedən təhlil edilir: birincisi, risk qeyri-müəyyənlikdir; ikincisi, risk özündə yeni imkanlar daşıyır, hansı ki, təşkilata üstünlüklərə nail olmaq imkanı yaradır; üçüncüsü, risk şirkətin (bankın) fəaliyyətinə dağıdıcı təsir göstərə bilər. Təsərrüfat subyektlərinin qarşılaşdığı risklərin rəngarəngliyini nəzərə alaraq onu 3 kateqoriyaya bölmək olar: 1) hadisə rikləri (biznes-risklər); 2) maliyyə riskləri; 3) əməliyyat riskləri.

Kredit təşkilatları üçün göstərilən bütün risklər səciyyəvidir, lakni qeyd etmək lazımdır ki, həm ölkə daxilində, həm də xaricində əsas diqqət maliyyə risklərinə yönəldilir. Belə ki, onların mahiyyəti bank biznesindən irəli gəlir və bazar konyunkturunun tərəddüdləri ilə, müxtəlif bazarlarda aparılan əməliyyatların xarakteri ilə, likvdliyn qorunması tələbi ilə şərtlənir. Eyni zamanda onu da qeyd edək ki, strateji və əməliyyat risklərinə bu gün kifayət qədər diqqət yetirilmir, halbuki onların təzahürü və fəsadları nisbətən az olsa da, yaranma ehtimalı kifayət qədər yüksəkdir. Buna görə də əməliyyat risklərinin təsnifləşdirilməsi, onların yaranma mənbələri və sferalarının dəqiqləşdirilməsi ilə bağlı problemlərin işlənməsi və əməliyyat risklərinin metodoloji səviyyədə idarə olunması sistemlərinin və obyektiv qiymətləndirmə metodlarının işlənib hazırlanması kredit təşkilatının cari fəaliyyətini müşayiət edən neqativ nəticələri aradan qaldırmağa imkan yaradar.

Risklərin, o cümlədən əməliyyat risklərinin də təsnifləşdirilməsi seçilmiş meyarlar əsasında aparılır. Bu meyarlar kimi risklərin yaranma mənbələri, risk sferası, kredit təşkilatının fəaliyyət növü çıxış edə bilər.

Əməliyyat risklərini yaranma mənbələrinə görə sxematik olaraq aşağıdakı kimi göstərmək olar (cədvəl 2.1.).

Cədvəl 2.1

Əməliyyat risklərinin yaranma mənbələri



Cədvəldən göründüyü kimi, əməliyyat risklərinin yaranma mənbələri idarəetmənin qeyri-qənaətbəxş keyfiyyəti, sistemin fəaliyyətindəki çatışmazlıqlar, işçi heyətin davranışları, proseslərin təşkili, eləcə də fors-major halları ilə əlaqədar ola bilər.

Göstərilən təsnifləşdirmədən bəlli olur ki, əməliyyat risklərinin əsas hissəsi insan faktoru ilə bağlıdır. Məsələn, birbaşa və dolayı itkilər işçi heyətin daxili reqlament və prosedurlara riayət etmədiyi halda yaranan səhvlər, idarəetmə qərarlarının qəbulundakı səhvlər, sui-istifadələr, oğurluq, kadrların səriştəsizliyi və ixtisas səviyyəsinin aşağı olması nəticəsində yaranır. Bundan əlavə, hətta, telekommunikasiya, hesablama texnikası və informasiya sistemlərinin işindəki nasazlıqlar nəticəsində yaranan itkilərin də əksər hallarda səbəbi insanların səhvləri olur.

Menecerlər unutmamalıdırlar ki, işçi heyət şirkətin başlıca aktividir və onun saxlanması üçün yüksək xərclər tələb olunur. İşçi heyətlə bağlı

riskləri səciyyələndirən bir sıra konkret mənbələri göstərmək olar. Bu hər şeydən əvvəl insanların yol verdiyi səhvlərdir ki, bunun da nəticəsi çox acınacaqlı ola bilir. Bu, hər şeydən əvvəl idarəetmə sahəsində yaranan və qəbul edilən qərarların keyfiyyəti ilə bağlıdır. Aydındır ki, burada konkret mənbə kadrların ixtisas səviyyəsinin aşağı olması, qərarların qəbul edilməsində məhdud dairədə məlumatlardan istifadə olunması, xəbərdarlıq siqnallarına əhəmiyyət verilməməsi və s. olur.

Digər mənbə qrupu biznes-proseslərin pozulması ilə şərtlənir. Məsələn, bank-kontragent düzgün göstərilmədikdə vəsaitlərin səhvən digər banka köçürülməsi baş verir. Vəsaitlərin səhvən, hətta, normal işləyən banka köçürüldüyü halda onların geri qaytarılması kifayət qədər vaxt və cəhd tələb edir. Vəsaitlər səhvən problemli, yaxud rəqib banka göndərilərsə, nə kimi problemlərin yaranacağını təsəvvür etmək çətin deyil.

Bankın daxili biznes-prosesləri ilə bağlı əməliyyat risklərinin digər təzahürlərinə misal olaraq idarəetmə sistemində pozuntuları və kredit təşkilatında daxili nəzarətin keyfiyyətinin qeyri-qənaətbəxş və ya aşağı olmasını göstərmək olar.

İşçi personalla bağlı əməliyyat risklərinin yaranmasının digər bir mənbəyi əməkdaşın yol verdiyi möhtəkirlik, sui-istifadələr və sui-istifadə imkanını istisna edən prosedurların keyfiyyətinin aşağı olmasıdır. Möhtəkirliyin baş verməsi üçün buna imkanın olmasıdır. Belə bir imkan isə daxili problemlər və səhvlər nəticəsində yaranır. Möhtəkirliyə misal kredit təşkilatının kriminal və kölgə iqtisadiyyatı ilə kommeriya münasibətlərinə cəlb edilməsini, məqsədli sövdələşmələrin aparılması və banka dəyən zərərin qəsdən gizlədilməsini göstərmək olar.

Riskin digər təzahürü kimi bilik və təcrübənin bir adamda cəmlənməsi ola bilər. Məhdud sayda əməkdaşdan asılı vəziyyətdən olmaq bankların problemlərindən biridir. Kifayət qədər tez-tez rast gəlinən hallardan biri odur ki, bankda işləyən proqramçı «əvəzedilməz» olur və onun işdən getməsi ilə texnoloji proses dayanır və bank kifayət qədər itkilərə məruz qalır. Bundan əlavə, çox vaxt müştərilər bu və ya digər bir menecerlə işləməyə adət edir və təbii ki, bu menecer vasitəsilə bir sıra müştərilər banka cəlb edilir. Aydındır ki, müştəriləri cəlb edən bu menecer işdən getdikdə bank bir sıra müştərilərini itirmək riski ilə qarşılaşır.

Keyfiyyətsiz hüquqi sənədləşmə də bankirlərə əhəmiyyətli dərəcədə ziyan vurur. Əlbəttə, banklarda qəbul olunmuş qaydaya görə müqavilə və prosedurlara hüquqşünasın dərkənar qoymasının mütləq şərt olması

bu riski azaldır. Problemlər hüquqi xidmət işçilərinin ixtisas səviyyəsinin qeyri-qənaətbəxş olması, ya da onların diqqətsizliyi ucbatından yarana bilər. Bundan başqa, qanunvericilikdə tez-tez baş verən dəyişikliklər şəraitində sənədləşmədəki dəyişiklikləri vaxtında aparmaq üçün kifayət qədər çalışmaq lazım gəlir. Bu halda problemin həlli normativlər bazasına monitorinqin qoyulması ilə həyata keçirilir, eləcə də hüquqşünasların əsas diqqəti əhəmiyyətli pul vəsaitləri itkisinə malik olan əməliyyatların üzərində cəmləşdirməsi də problemin həllində mühüm rol oynayır.

İnformasiya sistemlərinin işində pozuntular, o cümlədən kompüter proqramlarında baş verən səhvlər nəticəsində yaranan risk mənbələri xüsusi yer tutur. İnformasiya texnologiyalarının tətbiqi bankda proseslərin səmərəliliyini yüksəltməyə kömək edir. Lakin bununla yanaşı, onlar əməliyyat risklərinin yaranması mənbəyinə də çevrilirlər. Belə ki, texniki nasazlıqlarla bağlı lazım olan vaxtda sistemə girişin qeyri-mümkünlüyü, hakerlərin hücumundan qorunmağın təmin edilməsinin aşağı səviyyədə olması, avtorizə olunmamış girişlər və viruslar və s. səbəblərdən əməliyyat riskləri yarana bilər.

İnformasiya sistemlərində yaranan durğunluq hallarında iş planı olmazsa və yaxud aşağı keyfiyyətdə olarsa, bu, əhəmiyyətli dərəcədə itkilərə və idarəetmə qərarlarının alınmasında ləngimələrə səbəb ola bilər. Əməliyyat risklərinadir hallarda baş verən hadisələr nəticəsində də yarana bilər və bu külli miqdarda maddi itkilərə səbəb ola bilər. Bu, təbii qəzalar, terror aktları, maliyyə bazarlarının bağlanması və s. ola bilər.

Əməliyyat risklərini digər meyarlara, məsələn, bank fəaliyyətinin məzmununa və ya risklərin yaranma sferasına görə də təsnifləşdirmək olar.

Əməliyyat risklərini bank fəaliyyətinin məzmunundan asılı olaraq təsnifləşdirən zaman bankın bütün fəaliyyətini şərti olaraq 2 hissəyə bölürlər: idarəetmə fəaliyyəti və istehsal fəaliyyəti. İdarəetmə fəaliyyəti bankın qarşıya qoyduğu məqsədlərinə nail olmağa və vəzifələrini yerinə yetirməyə yönəldilir. İstehsal fəaliyyəti isə müxtəlif növ aktivləri və passivləri formalaşdırmaq üçün ilkin və törəmə maliyyə alətlərindən istifadə etməklə müştərilərə xidmət göstərmək üçün, bankdaxili və təsərrüfat fəaliyyətini təmin etmək üçün bank personalının həyata keçirdiyi əməliyyatlar üzrə fomralaşdırılmış prosedurlardır.

Bankın bu fəaliyyətini müəyyən bloklardan ibarət proseslər kimi göstərmək olar. İdarəetmə sahəsində belə bloklara planlaşdırma, təşkilati işlər, motivləşdirmə və nəzarət aiddir. Bu bloklarda proseslərin təş-

kilində yaranan durğunluqlar idarəetmə qərarlarının keyfiyyətinə təsir göstərir

İstehsal fəaliyyti ilə bağlı proseslərə aşağıdakı bloklar daxildir:

- fəaliyyət növü ilə (təsərrüfat subyektlərinin və fiziki şəxslərin kreditləşdirilməsi, müştərilərin və bankların vəsaitlərinin cəlb edilməsi) bağlı əməliyyatlar, banklararası bazarda və valyuta bazarında əməliyyatlar, likvidlik mövqeyinin qorunması, qiymətli kağızlarla ticarət əməliyyatları, balansarxası əməliyyatlar və s.
- bank əməliyyatlarının və uçotunun texnologiyası, məsələn, əməliyyat xidmətləri və digər xidmətəlrin göstərilməsi, plastik kartların prosessinqi, inkassasiya, mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının tərtib edilməsi və inzibati-təsərrüfat fəaliyyətinin digər növləri və s.;
- informasiya bazası, informasiya sistemləri və proqramları;
- istehsal fəaliyyətinin subyektləri.

Bankın yuxarıda göstərilən fəaliyyətinə uyğun olaraq əməliyyat risklərinin obyektlərini 2 qrupa ayırmaq olar:

- bankın fəaliyyət növü ilə bağlı proseslər;
- aktivlər, passivlər və bank bazarı və bank texnologiyası alətləri.

Birinci qrup risk obyektləri əməliyyat riskinin aşağıdakı amilləri ilə bağlı ola bilər:

- bankın düzgün strategiya seçməməsi;
- idarəetmə proseslərinin mükəmməl olmaması;
- daxili qaydaların olmaması yaxud aşağı keyfiyyətdə olması;
- xarici hadisələr.

İkinci qrup risk obyektləri, müvafiq olaraq digər risk amilləri ilə bağlı ola bilər:

- personalın səhvi;
- informasiya sistemlərində dayanmalar;
- texnoloji səhvlər;
- nəzarət prosedurlarının aşağı səviyyədə olması.

Əməliyyat risklərinin Bazel Komitəsi tərəfindən irəli sürülən təsnifləşdirilməsinin əsasını bu amillər təşkil edir. Əməliyyat risklərinin Bazel Komitəsi tərəfindən irəli sürülən və bütün bazar iştirakçıları tərəfindən standart kimi qəbul edilən tərifində əməliyyat risklərinin mənbələri dəqiq göstərilir və onu aşağıdakı kimi təsnifləşdirmək olar:

- işçi personalın səhvləri;

- informasiya sistemlərində dayanmalar;
- texnoloji səhvlər;
- xarici hadisələr.

Eyni zamanda, qeyd edildiyi kimi, digər meyarlar üzrə təsnifləşdirmələr də irəli sürülür.

Bir sıra xarici institutlar əməliyyat risklərinin Bankers Trust tərəfindən təşkil edilən təsnifləşdirmədən istifadə edirlər. Bu təsnifləşdirmənin əsas meyarı risk sferasıdır: əməliyyat riskləri daxili və xarici əməliyyat risklərinə bölünür (şəkil 3.1.).



Şəkil 3.1. *Əməliyyat risklərinin təsnifləşdirilməsi*

Daxili risklər:

- işçi personalla bağlı risk – şirkətin əməkdaşları ilə bağlı olan bütün risklər, məsələn, sərişt əsizlik, ayrı-ayrı mütəxəssislərdən asılılıq, qeyri-şərtsiz davranışlar və s.
- texnoloji risk – informasiya sistemləri, proqramları və ya məlumatlar bazasında, informasiyanın ötürülməsi sistemində və şirkətin fəaliyyəti üçün digər avadanlıqlarda yaranan durğunluqlarla bağlı risklər;
- fiziki itki riski – təbii fəlakətlər nəticəsində və ya müştərilərlə münasibətlərdə yaranan risk;
- daxili nəzarətin yetərsizliyi.

Xarici risk – baş təşkilatların, fiziki şəxslərin qərəzli davranışları nəticəsində, eləcə də dövlət siyasətində, qanunvericilikdə, idarəetmə orqanlarının tələblərində baş verən dəyişikliklər nəticəsində yaranan risklərdir.

Bank riskləri bir-biri ilə sıx bağlıdır və onların qarşılıqlı təsiri bütövlükdə bank portfeli rskinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

13.5. Əməliyyat risklərinin idarə edilmə xüsusiyyətləri

Əməliyyat risklərinin idarə olunması həm maliyyə, həm də bank sferasında ən çox müzakirə olunan məsələlərdən biridir. Bu risklərin idarə olunmasının məqsədi kredit təşkilatının cari fəaliyyətində yarana biləcək mənfi halların aradan qaldırılmasından, biznes-proseslərə nəzarətin gücləndirilməsindən ibarətdir.

Aydındır ki, menecment nəzəriyyəsində idarəetmə funksiya kimi nəzərdən keçirilir. Eyni zamanda onu da qeyd edək ki, idarəetmə risklərinin identifikasiyasına (eyniləşdirilməsinə), qiymətləndirilməsinə, qərarların qəbul edilməsi və monitorinqə əsaslanan kəsilməz bir prosesdir. Bundan əlavə, idaretmə sistemləri prosedur, yəni, əməliyyat risklərinin idarə edilməsi müəyyən elementlər toplusundan ibarət bir sistemdir.

Əməliyyat risklərinin idarə olunması prosesini sxematik olaraq aşağıdakı kimi göstərmək olar:



Şəkil 4.1. *Əməliyyat risklərinin idarə olunması prosesi*

Şəkildən göründüyü kimi, əməliyyat risklərinin idarə olunmasının təşkilinin əsasını kommersiya banklarının işgüzar siyasəti təşkil edir və siyasət proseslərin optimallaşdırılmasına, təkmilləşdirilməsinə yönəldilir. İdarəetmə prosesinin başlanğıcı riskin eyniləşdirilməsi mərhələsidir, sonra onun qiymətləndirilməsi həyata keçirilir və bu mərhələ xüsusi mürəkkəbliyi ilə seçilir.

Aydındır ki, maliyyə risklərinin qiymətləndirilməsi üçün kommersiya bankında kifayət qədər informasiya vardır, belə ki, bu informasiyaya əsasən bankın məlumatlar bazası formalaşdırılmışdır ki, bu da mənfəət və ya itki qanunauyğunluğunu və həcmini müəyyən etməyə imkan yaradır. Əməliyyat risklərinin səciyyəvi xüsusiyyətləri ondan ibarətdir ki, onları meydana gətirən əsas amillər daxili əməliyyat mühitinə aiddir, buna göərə də əməliyyat itkilərinin həcmi və ehtimalı arasında dəqiq riyazi-statistik əlaqəni təyin etmək çətinlik törədir. Üçüncü mərhələdə riskin qiymətləndirilməsi başa çatdıqdan sonra müvafiq idarəetmə qərarları qəbul edilir və bu qərarlar sonradan növbəti mərhələdə monitorinqin predmeti olur. Şəkil 4.1.-də göstərildiyi kimi, sonrakı mərhələ «iqtisadi kapital» adlanır. Bu mərhələnin mahiyyəti ondan ibarətdir ki, bütün digər risklər kimi əməliyyat risklərinin də nəticələri 2 mühüm alternativə: mənfəət və ya zərərə gətirib çıxarır. Buna görə də banklar bir tərəfdən, bu risklər üzrə mümkün itkilərə görə ehtiyatlar yaratmalı, digər tərəfdən əməliyyat riskləri mənfəət yaratmalıdır və menecmentin vəzifəsi məhz ondan ibarətdir ki, bu risklər mənfəət gətirsin və bankın iqtisadi kapitalını formalaşdırsın.

Yuxarıda qeyd etmişdik ki, əməliyyat risklərinin idarə olunması eyni

zamanda müəyyən elementlər toplusundan ibarət bir sistemdir. Risk menecmentini əməliyyat riskləri sahəsində qrafik olaraq aşağıdakı kimi göstərmək olar:



Şəkil 4.2. *Əməliyyat risklərinin risk-menecment sistemi*

Sxemdə risk-menecmentin 3 elementi göstərilmişdir: kontrollinq, daxili proseslərə əməliyyat nəzarəti və xəbərdarlıq siqnalları sistemi. Kontrollinq (nəzarət) məqsədin müəyyən edilməsini, informasiyanın toplanması və riskin yaranma sahələrinin aşkar edilməsi məqsədilə işlənməsini, müvafiq informasiya axınlarının təşkilini nəzərdə tutur. İkinci element – daxili sistemə nəzarəti, daxili və xarici nəzarət normalarına riayət olunmasına nəzarəti, eləcə də əməliyyat risklərinin mənfi təsirindən müdafiə tədbirlərinin işlənib-hazırlanmasını nəzərdə tutur.

Sistemin üçüncü elementi risk barədə xəbərdarlıq siqnallarının identifikasiyasına yönəldilir. Bu məqsədlə potensial risk sahələri və onların yaranma səbəbləri müəyyən edilir. Xəbərdarlıq siqnallarına əsasən ilkin təsir tədbirləri hazırlanır, məsələn, informasiya sistemlərinin həddən artıq yüklənməsinin qarşısının alınması, əməkdaşların sağlamlığının qorunması, işçi personalın iş rejiminin yaxşılaşdırılması və s. Xəbərdarlıq siqnallarının təhlilinə əsasən yekun nəticə çıxarılır və adekvat tədbirlərin görülməsi məqsədilə yüksək ranqlı menecerlərə ötürülür.

Xarici kommersiya bankları xəbərdarlıq siqnalları sahəsində risk indikatoru işləyib hazırlayırlar və onu səviyyəsindən asılı olaraq 3 zonaya bölürlər (şəkil 4.3.).

Absis oxu üzrə risk indikatoru, ordinat oxu üzrə isə müşahidə periodu, bizim misalda rüblük tarixlərdir. Qrafikin yuxarı hissəsi ən böyük həcmdə itkiləri göstərir və zona kritik zona kimi qiymətləndirilir. Bu o deməkdir ki, menecment bu itkilərin qarşısını almaq üçün tədbirlər işləyib hazırlamalıdır. Qrafikin orta hissəsi yol verilə bilən risk zonasını əks etdirir, yəni bank bu həcmdə itkilərə yol verə bilər və aşağı nöqtə ən əlverişli zonadır, belə ki, IV rübdə əməliyyat risklərinə görə itkilər ən aşağı səviyyədə olmuşdur.



Şəkil 4.3. *Müxtəlif risk zonaları indikatoru*

Bu qrafik svetofor prinsipi üzrə qurulmuşdur və məlum olduğu kimi, Bazel Komitəsi tərəfindən idarəetmə orqanlarına kommersiya bankları tərəfindən istifadə olunan bazar risklərinin fərdi qiymətləndirilməsi modellərinin adekvatlığının qiymətləndirilməsi üçün tövsiyə edilmişdir. Qırmızı zona (Bazelə görə) fərdi modelin qeyri-adekvatlığını göstərir, sarı zona – onu göstərir ki, risk yolverilləndir, lakin bu halda nəzarət orqanları ehtiyatların həcmini artırmaq məqsədi ilə cərimə əmsallarından istifadə edirlər, nəhayət, yaşıl zona - istifadə edilən modelin müəyyən edilmiş meyarlara adekvatlığını göstərir. Aydındır ki, əməliyyat risklərinin qiymətləndirilməsinə yanaşmalar hələ yaradılma mərhələsindədir. Onların inkişafı üçün ən azı 2 qiymətləndirmədən istifadə olunmalıdır: itkinin həcmi və itki ehtimalı.

Əsas problem məhz bu informasiyanın əldə edilməsi və qeydə alınmasıdır. Onun həlli üçün, məsələn Böyük Britaniya, Almaniya və Fransa əməliyyat riskləri haqqında məlumatların toplanması üzrə öz səylərini birləşdirmişlər. Anonim əsaslarla onlar bir-birinə daxili risklər barədə

informasiyanı ötürürlər ki, bu da müəyyən dərəcədə əməliyyat risklərinin yaranma ehtimalını qiymətləndirməyə imkan yaradır.

Konkret situasiyanın dərk edilməsi risklərin idarə edilməsi üzrə müvafiq tədbirlərin işlənib hazırlanmasını tələb edir. Risklərin idarə edilməsinin bir-birinə zidd 2 üsulu məlumdur: risklərdən yayınmaq və riskləri idarə etmək. Əgər bank əməliyyat risklərini qəbul edirsə, o halda o, risklərin idarə edilməsi metodlarını işləyib hazırlamalıdır. Risklərin idarə edilməsi metodlarına aşağıdakıları aid edirlər: kifayət qədər ehtiyatların yaradılması, sığorta, risklərin minimuma endirilməsi, kapitalın artırılması. Risklərin idarə olunmasının mümkün metodlarını sxematik olaraq aşağıdakı kimi göstərmək olar (şəkil 4.4.).

Əməliyyat risklərinin istisnası qeyri-mümkün olduğundan, menecment əsas diqqətini risklərin idarə olunması üsullarında cəmləşdirməlidir. Risklərin kredit təşkilatının etibarlılığına mənfi təsirini yumşaltmaq məqsədilə ənənəvi olaraq əsas kapitalı qoruyan ehtiyatlar yaradılır. Bununla əlaqədar Bazel Komitəsi riskin qiymətləndirilməsi üzrə rəsmi yanaşma və eyhtiyatların yaradılması tələblərini təklif etmişdir. Ciddi itkilərə yol verməmək üçün kredit təşkilatı ehtiyatların yaradılması ilə bağlı olan xərclərə qənaət etməli, risklərin minimallaşdırılmasına yönəldilmiş siyasət yürütməli, yaxud da kapital bazasının artım mənbəyi olan mənfəət və gəlirlərin artımına nail olmalıdır.



Şəkil 4.4. *Əməliyyat risklərinin idarə olunması üsulları*

13.6. Bank risklərinin ölçülməsi metodları

Müasir dövrdə əməliyyat riskləri maliyyə institutları üçün ən böyük təhlükələrdən birinə çevrilmişdir. Təkcə onu demək kifayətdir ki, son illərdə böyük maliyyə institutları nadürüst işçilər və ya daxili fırıldaqlar səbəbindən bəzən milyardlarla ölçütən itkilər vermişlər. Bunlara misal olaraq, 2008-ci ildə SocGen-in 4, 9 milyard avro, 2002-ci ildə Birləşmiş İrlandiya Bankının (Allied Irish Bank) 691 milyon dollar, 1996-cı ildə Sumitomo bankın 2, 6 milyard dollarlıq və 1995-ci ildə Barinqs (Barings) bankın iflası ilə nəticələnən 1, 3 milyard dollarlıq itkiləri göstərmək olar.

Hələ 2001-ci ildə araşdırmalar nəticəsində məlum olmuşdu ki, 1981-ci ildən 2001-ci ilə qədər olan dövrdə açıqlanmış əməliyyat itkilərinin həcmi 200 milyard dollar həcmində olmuşdur və 50 halda bu itkilər 500 milyon dolları keçmişdir. Belə məlumatlar əməliyyat risklərinin idarə olunmasının nə dərəcədə əhəmiyyətli olduğuna bir işarədir.

Əməliyyat risklərinin idarə olunmasının əhəmiyyəti Bank Nəzarəti üzrə Bazel Komitəsi tərəfindən də tanınır və Bazel 2 standartlarından başlayaraq Komitə bu risklərin idarə olunması üçün xüsusi kapital chtiyatının olmasını nəzərdə tutur.

Bazel Komitəsi əməliyyat risklərini belə müəyyən edir: «Əməliyyat riski qeyri-adekvat və ya xətalı firmadaxili proseslərdən, insanlardan, sistemlərdən və ya müəssisədənkənar hadisələrdən qaynaqlanan itkilərlə bağlı riskdir». Məsələnin belə qoyuluşu hüquq riskləri və təbii fəlakətlərlə bağlı riskləri də əməliyyat riski kateqoriyasına aid edir, lakin reputasiya və strateji risklər bura daxil edilmir. Bazel Komitəsi bir qədər də irəli gedərək əməliyyat risklərini risk hadisələrinin növlərinə görə və biznes xəttinə görə qruplara ayırır.

Bazel Komitəsi 7 risk hadisəsi tipi müəyyən edir:

- Daxili fırıldaqlarla bağlı;
- Xarici fırıldaqlarla bağlı;
- İşəgötürmə qaydaları və iş yerinin təhlükəsizliyi ilə bağlı;
- Müştərilər, məhsullar və iş qaydaları ilə bağlı;
- Aktivlərə dəyən fiziki zərərlə bağlı;
- Biznesdə dayanmalar və sistem xətaları ilə bağlı;
- İcra, çatdırılma və proseslərin idarə olunması ilə bağlı

Digər tərəfdən risk hadisələri baş verdiyi biznes xəttinə görə də ayrılırlar:

- Korporativ maliyyə;
- Bazar əməliyyatları və satış;
- Fiziki şəxslərlə iş;
- Kommersiya bankçılıq;
- Ödəniş və hesablaşmalar;
- Ageritlik xidmətləri və saxlama-seyf xidmətləri;
- Aktivlərin idarə olunması;
- Fərdi brokerlik xidmətləri

Bazel Komitəsinin hadisə tipləri və biznes vahidləri əsasında əməliyyat risklərini matris formasında bölmək mümkündür və ideal olaraq əməliyyat risklərini matris formasında bölmək mümkündür və ideal olaraq əməliyyat risklərinin matrisin hər bir xanası üçün ayrı-ayrılıqda modelləşdirilməsinə ehtiyac var.

Əməliyyat risklərinin ölçülməsi metodları davamlı olaraq inkişaf etsə də, bu metodlar bazar və kredit rlsklərinin ölçülməsi metodlarında olduğu qədər dəqiq və geniş deyil. Bu baxımdan əməliyyat risklərinin dəqiq ölçülməsindən daha çox on-lann dəyərləndirilməsi müzakirə mövzusudur və bunun üçün bank-dakı ümumi voziyyətdən daha yaxşı xəbərdar olan rəhbərliyin proscsdə yaxından iştirakı çox vacibdir.

Əməliyyat risklərinin ölçülməsinin xüsusi data (məlumat bazası) ehti-yacları var. Ümumiyyətlə, əməliyyat riski hadisələri yüksək tezlikli -zəif təsirli (YTZT) və aşağı tezlikli - böyük təsirli (ATBT) hadisələrə ayrılırlar. YTZT hadisələr tez-tez rast gəlinir və elə də böyük ol-mayan itkilərlə nəticələnir. Öz növbəsində, ATBT hadisələr nadir hallarda rast gəlinir, lakin onların nəticələri maliyyə institutu üçün fəlakət həddinə çata və hətta müflisləşmə ilə nətjcələnə bilər.

Əməliyyat risklərinin dəqiqliklə ölçülməsi üçün hər iki hadisə qrupunun məlumat bazasında adekvat formada təmsil olunmasına ehtiyac var. Adətən, daxili məlumatlar ATBT hadisələrin az təmsil olunması ilə xarakterizə olunur ki, bu da risk ədəbiyyatında «salamatqalma meyli» adlandırılır. Belə ki, araşdırılan dövrdə fəaliyyət göstərən institutlar böyük ehtimalla həmin dövrə qədər ATBT hadisələrə məruz qalmamışlar, bu baxımdan onlarda bu qrup üzrə data olmur. Belə olan halda data tələbatını ödəmək üçün adətən xarici məlumat bazalarından və ya müəssisənin top menecmenti tərəfindən hazırlanmış müxtəlif ssenarilərdən istifadə edirlər.

Göstərmək yerinə düşərdi ki, qlobal maliyyə institutları və müxtəlif ölkələrin banklan data problemini həll etmək üçün assosiasiyalar və təşkilatlar yaradır və anonimlik prinsipi əsasında özlərində baş verən əməliyyat itkilərini bu məlunıat bazasına yerləşdirirlər. Bu, öz növbəsində, onlara həmin məlumat bazasında onlara lazım olan məlumatları almağa imkan verir. Qərargahı İsveçrənin Sürix şəhərində yerləşən ORX (Operational Riskdata Exchange), Britaniya Banklar Assosiasiyasının nəzdində GOLD (Global Operational Loss Database), İtaliya Banklar Assosiasiyasının nəzdində fəaliyyət göstərən DIPO (Database Italiano Perdite Operative) və digərləri buna misal ola bilər. Azərbaycan bankları da belə bir təcrübədən istifadə edib vahid baza yaratsalar onlar üçün əməliyyat risklərinin idarə olunması prosesi bir qədər asanlaşar.

Bununla belə, xarici datanın istifadə edilməsinin də öz çətinlikləri var. Belə ki, qaydalara görə banklar və digər institutlar bazalara məlumat yerləşdirərkən müəyyən limit həddindən aşağı olan itkiləri bura daxil etmirlər. Üstəlik, məlumat yerləşdirən banklar, bir qayda olaraq, qoyulmuş limitdən yuxarı olsa belə, bəzi itkiləri gizlətməyə meyllidirlər, lakin böyük itkilər adətən, qalmaqallara səbəb olduğu üçün onların gizlədilməsi mümkün deyil. Nəticədə YTZT hadisələr bazada daha az təmsil olunur ki, bu da əməliyyat riskləri üçün daha böyük kapital tələbinin formalaşmasına səbəb ola bilər və nəticədə banklar vəsaitlərdən səmərəli istifadə edə bilməzlər.

Ümıımilikdə, əməliyyat risklərinin ölçülməsinə iki yanaşma mövcuddur: yuxarıdan-aşağıya və aşağıdan-yuxarıya yanaşma. Yuxarıdan-aşağıya yanaşma daha çox institutların əməliyyat risklərinin hissələrinə ayrılmadan ölçülməsi üçün istifadə olunur. Yuxarıdan-aşağıya ölçülmə metodları ilə risk üzrə iqtisadi kapitala olan ehtiyacı müəyyən etmək olar, lakin bu kapitalın müəssisənin ayrı-ayrı biznes istiqamətləri üzrə ayrılması üçün digər alətlərdən istifadə edilməsinə ehtiyac var.

Yuxarıdan-aşağıya metodların tətbiqi prinsipi bundan ibarətdir: əvvəlcə müəssisə üçün risk əlaməti olan bir göstərici (dəyişən) müəyyənləşdirilir və o asılı dəyişən kimi qəbul edilir. Bu göstərici gəlirlər, xərclər, mənfəət və s. ola bilər. Sonra bazar və kredit risk fak-torlan ilə bu göstərici arasında olan statistik əlaqə reqressiya yolu ilə modelləşdirilir. Modeldə izahedici dəyişənin variasiyasının (dispersiyasının) izah olunmayan hissəsinin əməliyyat risklərinin nəticəsində meydana çıxdığı qəbul edilir. Yuxarıdan-aşağıya modellərə növbəti bir neçə modeli misal göstərmək olar:

$$Rt = a0+a1F1t +a2F2t +a3F3t +... + et,$$

Burada ***Rt*** dövründə müəssisənin səhm kapitalı üzrə mənfəət faizi, F1t dövründə xarici risk faktorları (faiz dərəcələri, makroiqtisadi göstəricilər, valyuta məzənnəsi, səhm bazarı (göstəriciləri və s), isə et dövrünün qalıqları olub verilmiş faktorlarla izah olunmayan hissəni bildirir. Bu halda əmaliyyat riskinin göstəricisi kimi qalıqların variasiyası (dispersiyası) kənarlaşması istifadə olunur.

Çoxfaktorlu modellər - səhmdar cəmiyyətlər üçün istifadə olunur və əsas risk daşıyan göstərici kimi səhmlərin gəlirliliyi qəbul olunur. Gəlirə əsaslanun modellər - burada risk göstəricisi kimi müəssisənin gəlirləri qəbul edilir və çoxfaktorlu modellərdəki kimi reqressiya qurulmaqla gəlirlərin volatilliyinin tərkibindən bazar və kredit risk faktorlarının təsirləri çıxarılır, qalan volatillik əməliyyat riski hesab olunur.

Xərcə əsaslanan modellər -xərclərin əməliyyat risklərinin əsas göstəricisi olması ideyası üzərində qurulub və xərclərin volatilliyi müəyyən düzəlişlərdən sonra əməliyyat riski kimi qəbul edilir. Bu modellərin əsas çatışmayan cəhəti ondan ibarətdir ki, əməliyyat risklərinin hər biri özünü xərclərdə biruzə vermir və üstəlik bəzi xərclər əməliyyat risklərinin azalmasına səbəb olur (məsələn, proqressiv proqram təminatının alın-ması, sığorta xərcləri və s.).

Ssenari analizi - daha çox subyektiv seçim və mühakimələr əsasında bankların rəhbərliyi tərəfindən əməliyyat risklərinin dəyərləndirilməsini nəzərdə tutur. Rəhbərlik bankda əməliyyat risklərinə yol aça biləcək potensial hadisələri qiymətləndirir və onlara qarşı müxtəlif həll yollarını fikirləşir. Bu metodun çatışmayan cəhəti ondan ibarətdir ki, hər hansı risk hadisəsinin ehtimallarını təyin etmir və bu baxımdan bankın kapital ehtiyacları haqqında hər hansı fikir yürütməyə imkan vermir. Bu baxımdan ssenari analizi daha çox digər əməliyyat riski metodlarının həssaslığını test etmək üçün istifadə olunur.

Risk profili modelləri - bu modellər digərlərindən fərqli olaraq əməliyyat riski göstəricisi kimi birbaşa əməliyyat riski ilə bağlı göstəriciləri araşdırır. Bu göstəricilərə müəyyən dövr ərzində səhv aparılmış əməliyyatların sayı, bunlar nəticəsində yaranan itkilər, işçilərin dövriyyə əmsalı, vakansiyaların ümumi iş yeri sayına nisbəti, vaxtından artıq iş saatlarının miqdarı, işçilərin orta yaşı və s. Bu göstəricilərin bir qismi birbaşa əməliyyat hadisələrinin nəticəsində yaranırsa, digər bir qismi onlara yol açan

göstəricilərdir. Aşağıdan-yuxarıya modellər daha çox əməliyyat risklərini bankın müxtəlif biznes vahidləri, bölmələri arasında mikrosəviyyədə axtarılması ilə bağlıdır. Aşağıdan-yuxarıya modellər özləri də iki qrupa bölünür: proseslər yanaşması və həqiqi yanaşma.

Proseslər yanaşması bankda hər hansı əməliyyatı tərkibinə daxil olan proseslərə görə ayırır. Məsələn, sadə halda bankdan hüquqi şəxsə nağd pul verilməsi banka nağd pul çekinin gətirilməsi, onun əməliyyatçı tərəfindən yox-lanması, şöbə müdiri tərəfindən təsdiqlənməsi və sonda müştərinin təqdim etdiyi kontrol marka əsasında kassa tərəfindən vəsaitin verilməsini özündə birləşdirir. Bank burada əməliyyat riskinin mənbəyi olaraq proseslərin hər hansı birində işçilər tərəfindən yol verilmiş və ya çekdə işçilər tərəfindən təyin edilməmiş səhvlərin sayını, və yaxud da belə hadisələr zamanı banka dəyən ziyanı qəbul edə bilər. Belə riskləri qiymətləndirmək üçün səbəb-nəticə şəbəkələri, əlaqə modelləri etibarlılıq modelləri istifadə oluna bilər. Son nəticə olaraq əməliyyat riskinə səbəb olan biznes vahidi və ya bölmə müəyyən edilir və problemin aradan qaldırılması üçün tədbirlər görülür.

Həqiqi yanaşma daha çox statistikanın elementlərini özündə birləşdirir və əməliyyat itkilərinin ehtimal paylanmalarının qurulmasını nəzərdə tutur. Bu metoda empirik və parametrik itki paylanmalarının qurulması kimi iki yanaşma mövcuddur. Empirik yanaşma sadəcə itkilərin məlumat bazası əsasında əməliyyatlar üzrə Riskə Məruz Dəyərin təyin olunmasını nəzərdə tutur.

Parametrik yanaşma daha detallı analizdir. Əvvəldə qeyd etdiyimiz kimi, əməliyyat riski hadisələri həm tezliyi, həm də təsir gücü ilə xarakterizə olunur və əksər hallarda təsir və tezlik bir-birinə tərs mütənasib olur. Parametrik yanaşma hadisələrin tezliyi və təsirinin ayrı-ayrılıqda modelləşdirilməsi, onlar üçün ehtimal paylanmaları qurulması və alınmış iki ehtimal paylanmasının müxtəlif kopulaların (xüsusi funksiyalar) köməyi birləşdirilərək vahid funksional formaya gətirilməsini nəzərdə tutur. Adətən, hadisələrin tezliyi üçün Binomial və ya Puasson paylanma-ları, təsirinin modelləşdirilməsi üçün isə Loqnormal və ya Vaybul paylanmaları istifadə olunur. Əlavə olaraq böyük maliyyə institutları əvvəldə adı çəkilən matrisin hər bir xanası üzrə bunu həyata keçirirlər və sonda korrelyasiya əmsalları əsasında müxtəlif xanaları birləşdirərək bank üçün ümumi risk ölçüsü müəyyən edirlər.

13.7. Əməliyyat risklərinə görə ehtiyatların qiymətləndirilməsi və yardılması sahəsində Bazel Komitəsinin tövsiyələri

Artıq qeyd edildiyi kimi, rəqabətin kəskinləşməsi, böhranların miqrasiyası, bank məhsulları və xidmətlərinin mürəkkəbləşməsi, yeni maliyyə alətlərinin yaranması, kifayət qədər n əzarət olmadan bəzi proseslərin bəzi müəssisələrə transferti, maliyyə institutlarının texniki biliklərin yaranması və s. bütün dünyada bank sistemlərinin sabitləşdirilməsinə ciddi çağırışdır. Bütün bu prosesləri nəzərə almaqla Bazel Komitəsi bank fəaliyyətinin tənzimlənməsi üçün yeni yanaşmalar irəli sürmüşdür.

Bu tələblər çərçivəsində bank sistemlərinin sabitliyinin şərti kimi 3 tələb əsas baza tələbi kimi göstərilir: kredit institutlarının kapital bazasının risklərə adekvatlığı, idarəetmə orqanlarının nəzarət fəaliyyətinin keyfiyyətinin yüksəlməsi və bazar intizamına riayət edilməsi.

Kapitalın yetərliliyi barədə yeni Bazel razılaşmasına görə bankın kapitalı kredit, bazar və əməliyyat risklərinin kapitalla örtülməsi üçün tələblərin cəmi kimi müəyyən edilməlidir. Bununla bağla ıolaraq Bazel Komitəsi əməliyyat risklərinə görə ehtiyatlar üuçün kapitalın həcmini 3 yanaşma əsasında müəyyən etdiyi tövsiyə edir:

- baza indikatoru;
- standart yanaşma;
- əməliyyat riskinin qiymətləndirilməsinə mütərəqqi yanaşma.

Əməliyyat risklərinə görə ehtiyat kapitalın həcminin sadələşdirilmiş baza indikatoru yaanşmasına əsasən hesablanmasında əməliyyat risklərinin bankın fəaliyyət miqyasından birbaşa düz mütənasib asılılığı nəzərdə tutulur. Lakin bu halda nə daxili nəzarət prosedurları, nə də digər fəaliyyətlər çərçivəsində riskə məruz qalma ehtimalları nəzərə alınmır. Eyni zamanda, ehtiyatların hesablanmasında sadələşdirilmiş yanaşmanın tətbiqi müəyyən kəmiyyət almağa imkan verir ki, bunu əməliyyat riskləri üzrə mümkün itkilərə görə ehtiyat göstəricisi kimi qəbul etmək olar. Kredit t əşkilatının fəaliyyətini xarakterizə edən ümumiləşdirici göstərici kimi ümumi gəlir (Gİ) götürülür. Bazel Komitəsi bu göstəricini xalis faiz gəlirləri və xalis qeyri-faiz gəlirlərinin cəmi kimi müəyyən edir ki, bu da daha çox ümumi gəlir anlayışına uyğundur.

Əməliyyat risklərinə görə ehtiyat kapitalın həcmi (ORC) sabit kəmiyyət olan α əmsalı ilə təyin edilir və Bazel Komitəsi tərəfnidən müəyyən

edilir:

$$\boldsymbol{ORC = Gİ \times \alpha} \qquad \textbf{(2.1.)},$$

Burada, ***Gİ*** – ümumi gəlirdir (son 3 il ərzində orta qiymət kimi hesablanır);

α - ehtiyat kapital əmsalıdır.

Ehtiyat kapital əmsalı əməliyyat riskləri nəticəsində gözlənilməyən itkilərin əldə edilən gəlirlərə nəzərən orta səviyyəsini əks etdirməlidir. İlk öncə Bazel Komitəsi α əmsalını ümumi gəlirin 30%-i həcmində müəyyən etməyi təklif etdi. Bu halda əməliyyat risklərinə görə ehtiyat kapital kapitalın yetərliliyi üzrə məcmu minimal normativin təqribən 20%-nə bərabər olmalı idi. Sonradan bu kəmiyyəti əsassız dərəcədə yüksək hesab edən banklar birliyinin təzyiqləri altında Bazel Komitəsi onu ümumi gəlirin 12%-i həcmində müəyyən etdi ki, bu da kapitalın yetərliliyi üzrə məcmu minimal normativin 17-20%-nə uyğun idi. Bank birliyi ilə uzunmüddətli məsləhətləşmələr və empirik tədqiqatların təhlilindən sonra Bazel Komitəsi bu göstəricini son 3 il müddətində ümumi gəlirin orta qiymətinin 15%-i həcmində müəyyənləşdirdi.

Baza indikatoruna əsaslanan yanaşma ən sadə yanaşmadır, kiçik təşkilatlarda tətbiq edilə bilər.

Hər bir bank bu yanaşmanı öz təcrübəsində heç bir şərt olmadan tətbiq edə bilər. Eyni zamanda, bu yanaşma fəaliyyətin istiqamətlərində əməliyyat risklərinin yaranma xüsusiyyətlərini əməliyyat risklərinin yaranma xüsusiyyətlərini nəzərə almağa imkan vermir.

Standart yanaşma bankda birneçə standart fəaliyyət istiqamətlərinin seçilməsinə və bu istiqamətlərin hər biri üzrə ayrı-ayrılıqda ehtiyat kapitalın həcminin müəyyən edilməsinə əsaslanır və əvvəlki yanaşma ilə müqayisədə daha dəqiqdir. Bu yanaşmaya bankın bütün əməliyyatları standart fəaliyyət istiqamətləri üzrə üzrə bankın bütün əməliyyatları standart fəaliyyət istiqamətləri üzrə təsnifləşdirilir və onların hər biri üzrə ümumi gəlir hesablanır və b əmsalı müəyyən edilir; bu əmsalın köməyi ilə isə ehtiyat kapitalın həcmi hesablanır. Bütövlükdə bank üzrə kapital bütün fəaliyyət istiqamətləri üzrə ehtiyatların cəmi kimi hesablanır:

$$\textbf{ORC} = \sum (G I_i \times \beta_i) \qquad \textbf{(2.2.)}$$

Burada, Gİi – i-ci növ fəaliyyətdən ümumi gəlirdir və son 3 il ərzində

gəlirlərin orta qiyməti kimi hesblanır; bi – i-ci növ fəaliyyət üççün nəzərdə tutulmuş ehtiyat kapital həcmidir.

Bazel Komitəsi 8 fəaliyyət istiqaməti üzrə təsnifləşdirməni və onlara müvafiq b əmsallarının qiymətlərini təklif etmişdir (cədvəl 2.1.)

Cədvəl 2.1.

Standart fəaliyyət istiqamətləri üçün β əmsalının qiyməti.%-lə

Fəaliyyət istiqaməti	b
Korporativ maliyyə	18
Ticarət əməliyyatları	18
Pərakəndə bank xidmətləri	12
Kommersiya xarakterli bank xidmətləri	15
Ödəniş və hesablaşmalar üzrə xidmətlər	18
Anket xidmətləri	15
Aktivlərin idarə edilməsi	12
Broker əməliyyatları	12

Bu təsnifləşdirmə standartdır və bu yanaşmadan istifdə edən bütün banklar üçün ümumidir.

Eyni zamanda Bazel Komitəsi tərəfindən Milli Bank nəzarəti orqanlarına «alternativ standart yanaşma»dan istifadə etmək hüquq vermişdir. Öz fəaliyyətində «alternativ standart yanaşma»nın tətbiqinin daha müvafiq olduğunu əsaslandıran banklar bu yanaşmadan istifadə etmək hüququna malikdirlər.

Alternativ yanaşmanın standart yanaşmadan yeganə fərqi ondan ibarətdir ki, burada iki fəaliyyt istiqaməti – pərakəndə və kommersiya tipli bank xidmətləri üçün riskə məruz qalma göstəricisi kimi ümumi gəlir yox, kreditlərin həcmi götürülür.

Alternativ standart yanaşma çərçivəsində banklar pərakəndə və kommersiya kreditləşmələrini bir istiqamətdə birləşdirə bilərlər və bu halda 15% həcmində müəyyən edilən yeganə b əmsalı tətbiq edilir. Öz ümumi gəlirini cədvəldə göstərilən yerdə qalan 6 fəaliyyət istiqamətləri üzrə üzrə bölüşdürə bilməyən banklar bu istiqamətlər üzrə ehtiyat kapitalı ümumi gəlirin b əmsalına hasili kimi (18%-ə bərabər) hesablaya bilərlər.

Əməliyyat risklərinin qiymətləndirilməsində standart və daha mürəkkəb yanaşmalardan istifadənin zəruri şərti aşağıda göstərilənlərə riayət olunmasıdır:

- direktorlar şurası və rəhbərliyin əməliyyat risklərinin qiymətləndirilməsi və idarə edilməsi proseslərində fəal iştirak etməlidir;
- bankda risk-menecment sistemi konseptual baxımdan düzgün olmalı və lazımi şəkildə istifadə olunmalıdır;
- bank seçilmiş yanaşmanın bütün fəaliyyət istiqamətlərində, eləcə də nəzarət və audit bölmələrində tətbiq etmək üçün kifayət qədər resurslara malik olmalıdır.
- Standart yanaşmadan istifadə edən banklara əməliyyat risklərinə aid bir sıra keyfiyyət tələbləri irəli sürülür və bunlar aşağıdakılardan ibarətdir:
- bankın təşkilati strukturunda əməliyyat risklərini idarə edən bölmə olmalı və əməliyyat risklərinin identifikasiyası, qiymətləndirilməsi, monitorinqi, nəzarət və aşağı salınması funksiylarını yerinə yetirməlidir;
- əməliyyat risklərinin qiymətləndirilməsi sistemi bankda risklərin idarə edilməsi prosesinin tərkib hissəsi olmalıdıp və bunun üçün bank əsas fəaliyyət istiqamətləri üzrə əməliyyat riskləri nəticəsində maliyyə və maddi itkilər barədə məlumatları toplamalı və təhlil etməlidir;
- əməliyyat riskləri nəticəsində itkilər barədə məlumatlar müntəzəm surətdə bankın bölmə rəhbərlərinə, daha yuxarı rəhbərliyə və direktorlar şurasına çatdırılmalıdır;
- bank əməliyyat risklərinin qiymətləndirilməsi qiymətləndirilməsində istifadə olunan sistem barədə müfəssəl sənədlərə malik olmalıdır;
- əməliyyat risklərinin qiymətləndirilməsi sistemi müntəzəm şəkildə həm bankın özünün müvafiq bölmələri, həm də xarici auditorlar və nəzarət orqanları tərəfindən yoxlanmalıdır.

Standart yanaşmanın məlum üstünlüyü ondan ibarətdir ki, ehtiyat üçün hesablanmış kapitalın həcmi baza indikator yanaşmasına əsasən hesablanan kəmiyytdən asılı ola bilər. Standart yanaşma bank fəaliyyətinin hər bir istiqaməti ilə bağlı əməliyyat riskini daha dəqiq qiymətləndirməyə imkan yaradır.

Kapitalın yetərliliyinin hesablanmasının yuxarıda göstərilən me-

todlarının çatışmazlıqlarını «əməliyyat risklərinin qiymətləndirilməsində mütərəqqi yanaşma»ya (AMA) keçməklə aradan qaldırmaq olar. Bu yanaşma banklarda əməliyyat risklərinin təhlili və əməliyyat itkilərinin monitorinqi üçün öz xüsusi modellərindən istifadə etməsini nəzərdə tutur. Bu modellərin köməyilə qiymətləndirilmiş itkilər kapitalın yetərliliyi tələbi kimi qəbul edilir. Banklar bu metodları o vaxt tətbiq edə bilər ki, onlar müəyyən keyfiyyət və kəmiyyət meyarlarına uyğun olsun və nəzrət orqanları tərəfindən icazə verilsin.

Əvvəlcə Bazel Komitəsi əməliyyat riskinin daxili qiymətləndirilməsinə əsaslanan yanaşma təklif etdi. Bu yanaşmada standart yanaşmaya analoji olaraq bank fəaliyyətinin bir neçə istiqaməti seçilirdi, bundan əlavə, bankın əməliyyat riskləri nəticəsində məruz qala biləcəyi əməliyyat istiqamətlərinin bir neçə növləri müəyyən edilirdi.

Beləliklə, əgər standart yanaşmada fəaliyyət növləri siyahısı və hər bir fəaliyyət istiqaməti üçün ehtiyat kapital əmsalı müəyyən edilirdisə, daxili qiymtləndirmə modelindən istifadə edildikdə hər bir fəaliyyət növü və əməliyyat itkiləri üçün özünün riskə məruz qalma göstəricisi və ehtiyat kapital əmsalı müəyyən edilir. Bu tələblərin məcmusunu aşağdıakı cədvəl şəklində göstərmək olar:

Cədvəl 2.2.

Standart fəaliyyət istiqamətləri və əməliyyat itkilərinin növləri

Fəaliyyət istiqaməti	Silinmə	Qaytarılmayan vəsaitlər	Kompensasiya	Xərclər	Cərimə və dəbbəpulu	Əmlaka dəyən zərər
Korporativ maliyyə						
Ticarət əməliyyatları						
Pərakəndə bank xidmətləri						
Kommersiya xarakerli bank xidmətləri						
Ödəniş və hesablaşmalar üzrə xidmətlər						
Anket xidmətləri						
Aktivlərin idarə edilməsi						
Broker əməliyyatları						

Əməliyyat itkilərinin göstərilən siyahısı Bazel Komitəsi tərəfindən təklif edilən standart variantdır. Bu yanaşma üzrə riskin daxili qiymətləndirilməsində hər bir fəaliyyət istiqaməti və əməliyyat itkisi kombinasiyası üçün əlavə göstəricilərin hesablanmasını nəzərdə tutur:

- riskin reallaşdığı halda itki səviyyəsi;
- əməliyyat riski ehtimalı.

Bu göstəricilərin hesablanması əməliyyat riskləri üzrə itkilər statistikasından əldə edilmiş məlumatlra, eləcə də təşkilatın bütün fəaliyyət xüsusiyyətlərini nəzərə almaqla bu göstəricilərin hesablanması metodikasına əsasən həyata keçirilməlidir. Bu metodika əməliyyat risklərinin həcminə və yaranma ehtimalına təsir göstərən daxili nəzarət prosedurlarını nəzərə almağa imkan yaradır.

Sonralar Bazel Komitəsi «riskin daxili qiyətləndirilməsi» şərhini genişləndirdi və bura itkilərin ehtimalının paylanmasına və «qiymətləndirmə kartları»na əsaslanan metodikanı daxil etdi. Bu və buna bənzər digər metodikalar riskin qiymətləndirilməsinə «mütərəqqi yanaşma» kimi ümumi ad altında birləşdirildi. Burada müxtəlif hadisələrin başvermə ehtimallarının və hər bir hadisəyə görə itki ehtimallarının paylanma parametrləri ayrı-ayrılıqda qiymətləndirilir. «Qiymətləndirmə kartları»na əsasən yanaşma əməliyyat risklərinin tezlik və miqyasının daxili nəzarət sistemindəki təkmilləşdirilmələrlə bağlı olan dəyişmələrdən asılı olaraq ilkin kapital səviyyəsini dəyişdirməyə imkan verir.

AMA yanaşmaların əsas üstünlüyü ondan ibarətdir ki, banklara sığortadan istifadə etməklə əməliyyat riskinin qiymətini və buna əsaslanaraq da kapitala olan tələbi aşağı salmağa icazə verir. Lakin sığorta əməliyyat riski üçün ayrılmış məcmu ehtiyat kapitalın 20%-dən çox olmamalıdır. Əməliyyat riskinin sığortalanması aşağıdakı şərtlərə cavab verməlidir:

- sığorta edən A və daha yüksək reytinqə malik olmalıdır (burada kredit reytinqi deyil, sığorta reytinqi nəzərdə tutulur, yəni sığorta müqavilələri üzrə ödənişlərin sığorta edən tərəfindən həyata keçirilməsini əks etdirən reytinq);
- sığorta polisinin ilkin müddəti bir ildən az olmamalıdır, burada əgər müqavilənin bitməsinə qədər qalan müddət 1 ildən azdırsa, bank sığorta ödənişlərinin məbləğini müvafiq şəkildə azaltmaqla kapitala olan tələblərin hesablanmasında bu azalmanı əks etdirməlidir;
- sığorta polisində müqavilənin ləğv edilməsi və onun uzadılmasından imtina barədə sığorta edən bankın məumatlandırılması

üçün müəyyən dövr nəzərdə tutulur;

- sığorta polisinə həm sığorta edən bank, həm də xarici idarə edən üçün onun ləğv edilməsi və ya məhdudlaşdırılması barədə qeyd-şərtlər nəzərdə tutulur;
- sığorta ödənişləri bankın bankın məhz əməliyyat riskləri üzrə məruz qaldığı amillərə şamil edilir;
- sığortaetmə banka görə müstəqil sığorta edən tərəfindən həyata keçirilir;
- kapitala qarşı tələblərin hesablanmasında əməliyyat risklərindən sığortanın uçot metodikası əsaslandırılmalıdır və lazımi qaydada rəsmiləşdirilməlidir;
- bank sığortanın köməyilə ehtiyat kapitalın həcminin azaldılması barədə məlumatların açıq şəkildə yayılmasını həyata keçirir.

Əməliyyat risklərinin qiymətləndirilməsinə mütərəqqi yanaşmalar təşkilatda əməliyyat risklərinin xüsusiyyətlərini daha dəqiq şəkildə nəzərə almağa, təşkilatın fəaliyyət miqyasına və risklərə müvafiq ehtiyat kapitalın məbləğini müəyyən etməyə imkan verir. Qeyd etmək lazımdır ki, bu yanaşmalar banklara etibarlı daxili nəzarət sistemindən istifadə etməklə əməliyyat risklərinə görə ehtiyatların səviyyəsini azaltmağa imkan yaradır. Bu daxili nəzarət sistemləri həm gözlənilən və gözlənilməyən itkilərin həcminə, həm də onların yaranma ehtimalına təsir göstərir.

Eyni zamanda onu da qeyd edək ki, təcrübi olaraq bu yanaşmaların tətbiqi bütün kredit təşkilatları üçün kifayət qədər mürəkkəbdir, belə ki, əməliyyat itkilərinin seçilməsi üçün metodoloji əsaslar və onların təhlilinin riyazi modelləri hələ ilkin işlənmə mərhələsindədir.

Bazar risklərinin qiymətləndirilməsi üzrə tövsiyələrdə olduğu kimi, kapitalın yetərliliyinin qiymətləndirilməsi məqsədilə əməliyyat risklərinin hesablanmasına dair yuxarıda göstərilən yanaşmaların 3-dən də kombinə edilmiş şəkildə istifadə olunmasını tövsiyə edir və aşğıdakı şərtlərin də yerinə yetirilməsini nəzərdə tutur:

- əməliyyat risklərinin bütün növləri bütün fəaliyyət istiqamətləri üzrə birləşdirilmiş əsaslarda nəzərə alır;
- seçilmiş yanaşma üzrə risklərin hesablandığı bank əməliyyatlrı bu yanaşma üçün müəyyən edilmiş bütün keyfiyyət meyarlarına cavab verirlər;
- AMA yanaşmasının tətbiq edilməsinə başlarkən bankın əməliyyat risklərinin əsas hissəsi bu yanaşmanın köməyilə hesablanır;

- bank bütün bölmələrdə və fəaliyyət istiqamətlərində əməliyyat risklərinin hesablanmasında mütərəqqi yanaşmaya keçid cədvəlini nəzarət orqanına təqdim etməlidir.

Yuxarıda deyilənləri yekunlaşdıraraq qeyd edək ki, idarəetmədə göstərilən yaanşmaların tətbiqi kreditorlar və əmanətçilər tərəfindən kredit təşkilatlarına etimadın möhkəmlənməsinə şərait yaradır.

Beləliklə, Bazel razılaşması bankları əməliyyat risklərini məhdudlaşdırmağa stimullaşdırmalıdır. Eyni zamanda əməliyyat risklərinin ölçülməsi və idarə edilməsi metodlarının təkmilləşdirilməsinə ehtiyac vardır.

Risklərin idarə olunmasının əlavə üsulu kimi əməliyyat risklərinin sığorta eilməsindən istifadə etməyin mümkünlüyü yuxarıda göstərilmişdi. Odur ki, Bazel Komitəsi sığorta polislərinin köməyilə risklərdən müdafiənin keyfiyyətnin adekvat qiymətləndirilməsinə imkan verən və eyni zamanda xüsusi kapitala qarşı tələblərin həddən artıq azalmasına da yol verməyən, çox da mürəkkəb olmayan üsullar axtarıb tampağa çalışır.

XIV FƏSİL.

BANKLARDA KORPORATİV İDARƏETMƏ SİSTEMİ

– i.e.n., dos. **H.İ.Həmidov,** (14.1.)
– prof, i.e.d. **Z.F.Məmmədov** (14.2., 14.3.),
– dosent **S.T.Qəndilova** (14.4.),
– dosent **T.İ.Kərimova** (14.5.)

14.1. Korporativ İdarəetmənin təşkili prinsipləri
14.2. Bank fəaliyyətinin təşkili qaydaları
14.3. Bankların idarəetmə strukturu
14.4. Banklarda insan resurslarının idarə edilməsi
14.5. Banklarda qiymət strateqiyası

14.1. Korporativ İdarəetməнин təşkili prinsipləri

Beynəlxalq iqtisadi qurumların araşdırmaları 4 əsas EKİ prinsipini fərqləndirir:

- *Dürüstlük:* sərmayəçilər öz əmlaklarının, sərmayələrinin etibarlı qorunmasından əmin olmalıdırlar;
- *Şəffaflıq:* müəssisə vaxtlı-vaxtında öz maliyyə vəziyyəti barəsində tam və düzgün məlumatı ictimaiyyətə açıqlamalıdır;
- *Hesabatvermə:* müəssisənin menecerləri müəssisənin sahiblərinə və ya onlar tərəfindən təyin olunan menecerlərə və auditorlara hesabat verməlidirlər.
- *Məsuliyyət:* müəssisə cəmiyyətdəki qanunlara və etik normalara əməl etməlidir.

Effektiv Korporativ İdarəetmə sisteminin əsas elementlərinə aşağıdakılar daxildir:

Zahiri (ölkəyəməxsus) faktorlar:

- iqtisadiyyatın ümumi vəziyyəti;
- mədəniyyət ənənələri;
- normativ-hüquqi aktlar və onların icra mexanizmi:
- müxtəlif təşkilati hüquqi formalı müəssisələrin yaradılması və fəaliyyəti, investorların hüquqlarının müdafiəsi, müf-lisləşmə və qiymətli kağızlar bazarları haqqında qanunvericilik;
- qiymətli kağızlar bazarının tənzimlənməsi;
- informasiya infrastrukturu: maliyyə hesabatları və audit standartları, məlumatların vaxtında, tam və düzgün verilməsinə dair tələblər;
- bazarlar: səhm və suda kapitalı, əmək və digər bazarlar.

Daxili faktorlar (müəssisənin faktorları):

- Müəssisənin təsis sənədləri: əsas strateji qərarların qəbul olunmasında, direktorlar şurasının və idarə heyətinin təyin olunmasında səhmdarların və kreditorların iştirak hüququ, şirkət əməkdaşlarının əməllərindən qorunma mexanizmi, mülkiyyət hüquqla-rının qorunması və s.
- Şəffaflıq: müəssisənin maliyyə vəziyyəti, öhdəlikləri və mülkiyyət

strukturuna dair məlumatların tam, düzgün və vaxtında açıqlanması (Azərbaycan üçün xüsusilə beynəlxalq maliyyə hesabatları standartlarına keçmək məsələsi gündəlikdə dayanır);

Direktorlar Şurasının və idarə heyətinin seçilməsi və fəaliyyəti proseduru:

- Kİ təcrübəsinin aşağı səviyyədə olması sərmayələrin cəlb olunmasına mənfi təsir göstərir, eyni zamanda, milli və regional səviyyədə sistem xarakterli daha böyük problemlərin ortaya çıxmasına səbəb olur. Buna görə də, Kİ reytinqinin müəyyən olunması vacibdir.
- Kİ reytinqinin yaradılması həm şirkətlər üçün, həm sərmayəçilər üçün, həm də şirkətin səhmdarları üçün çox vacibdir. Reytinq şirkətlərə aşağıdakılar üçün lazımdır:
- Kİ standartları haqqında informasiyaların açıqlanması hesabına investorların baxışlarındakı fərqlilik;
- Kapitalın cəlb edilməsi prosesində sərmayəçilərin əlavə məlumatlandırılması (korporativ istiqrazların buraxılması və ilkin yerləşdirilməsi);
- Kİ prosedurunun təkmilləşdirilməsində reytinqin hədəf qismində istifadə olunması.
- Potensial sərmayədarlara reytinq aşağıdakılar üçün lazımdır:
- Şirkətin fəaliyyətinin xüsusiyyətlərini anlamaq və müvafiq xarakteristik riskləri qiymətləndirmək üçün;
- Səhmdarların maraqlarının qeydiyyata alınması ilə əlaqədar şirkət rəhbərliyi tərəfindən tətbiq edilən metodları anlamaq;
- Strateji və portfel investorları ilə sərmayə qərarlarının qəbul olunması zamanı əlavə məlumatlar almaq;
- Şirkətin şəffaflıq dərəcəsini anlamaq.
- Reytinq səhmdarlara aşağıdakılar üçün lazımdır:
- Səhmdarların mülkiyyət hüququnun qorunma səviyyəsini anlamaq;
- Səhmdarların və şirkətin özünün maraqları çərçivəsində menecmentin şirkəti idarəetmə qabiliyyətini anlamaq.

Korporativ idarəetmə strukturu ali idarəetmə orqanı olan Səhmdarların Ümumi Yığıncağından, şirkətin idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirən müşahidə şurasından, audit işini təşkil edən audit komitəsi və məsul icra orqanı olan İdarə Heyətindən ibarətdir. İdarəetmə orqanlarının

yaradılması, onların üzvlərinin yararlığına və fəaliyyətlərinə dair əsas tələblər "Korporativ idarəetmənin prinsipləri ilə tənzimlənir. Təşkilati struktur səhmdarların ümumi yığıncağı və ya onun verdiyi səlahiyyətlər əsasında müşahidə şurası tərəfindən təsdiq edilir. Təşkilati strukturun tərkibinə ən azı aşağıdakı funksiyaları daşıyan bölmələr daxil edilməlidir:

- müştərilərlə birbaşa iş;
- risklərin idarə edilməsi;
- funksional strukturların əsas əməliyyatları;
- inzibati və yardımçı xidmət.

Təşkilati struktur rəhbərliyə təqdim edilir. İdarəetmə fəaliyyəti ilə əlaqədar müxtəlif risklərin səmərəli idarə edilməsi məqsədilə *daxili komitələr yaradılır*. Hər bir komitəyə idarə heyətinin bu sahəyə cavabdeh olan üzvü sədrlik edir. Hər bir idarəetmə orqanlarının və struktur bölmələrin fəaliyyətini tənzimləyən əsasnamələr tərtib edilir. Əsasnamələrdə idarəetmə orqanlarının və struktur bölmələrin tərkibi, funksiya və səlahiyyətləri, fəaliyyət qaydaları müəyyən edilir. Əsasnamələr və onlara edilən bütün dəyişikliklər rəhbərliyə təqdim edilir.

İdarəetmə orqanlarının əsasnamələri səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edilir. İdarəetmə orqanlarının əsasnamələrində ayrıca olaraq onların sədrlərinin səlahiyyətləri müəyyən edilməlidir. Səlahiyyətlərin həcmi müəyyən edilərkən qanunvericiliyin tələbləri və bank fəaliyyətində risklərin azaldılması məsələləri nəzərə alınmalıdır.

Ümumi nəzarəti həyata keçirən müşahidə şurası Səhmdarların Ümumi Yığıncağının verdiyi səlahiyyətlər əsasında bankın bütün siyasətlərinin və fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir. Səhmdarlar qarşısında bankın ümumi fəaliyyətinə görə müşahidə şurası, cari fəaliyyətə görə idarə Heyəti məsuliyyət daşıyır.

Daxili komitələrin əsasnamələri müşahidə şurası tərəfindən təsdiq edilir. Komitələrin əsasnamlərində qərarların qəbul edilmə qaydası göstərilməlidir. *Bütün filial, şöbə və nümayəndəlikləri istisna olmaqla digər struktur bölmələrin əsasnamələri idarə heyəti tərəfindən, daxili audit bölməsinin əsasnaməsi isə Audit Komitəsi tərəfindən təsdiq edilir.* Hər bir fəaliyyət növü üzrə əməliyyatın həyata keçirilməsi və risklərin idarəedilməsi ilə bağlı daxili qaydalar və prosedurlar *idarə heyəti tərəfindən* tərtib olunur və müşahidə şurası tərəfindən təsdiq edilir. Bu sənədlərdə hər bir fəaliyyət növünün həyata keçirilməsi qaydası tam və açıq müəyyən olunur. Hər bir vəzifə üzrə vəzifə təlimatı olmalıdır. Vəzifə təlimatları

struktur bölmələrin rəhbərləri tərəfindən təsdiq edilir və işçilər tərəfindən imzalanır. Vəzifə təlimatında vəzifə üzrə funksiya, səlahiyyətlər və məsuliyyət müəyyən olunmalıdır.

Korporativ idarəetmə sisteminin təşkili idarəetmə orqanları vasitəsilə həyata keçirilir. Bu orqanları Səhmdarların Ümumi Yığıncağı, Müşahidə Şurası, İdarə Heyəti, Səhmdarlarının Ümumi Yığıncağına tabe olan Audit komitəsi formalaşdırır. Qeyd edilənləri nəzərə alaraq, korporativ idarəetmədə səciyyəvi təşkilati struktur kimi təşkil olunur вə hər bir struktur vahidinin əsasnaməsi və fəaliyyətin icra mexanizmlərini təsvir edən sənədlər hazırlanır. Şirkətlər fəaliyyət göstərdikləri müddət ərzində səhmdarların (investorların) və digər maraqlı şəxslərin hüquqlarına təsir edə bilən qərarlar qəbul edir və tədbirlər həyata keçirir. Bunlara ümumilikdə *korporativ hərəkətlər* deyilir.

Korporativ hərəkətlər: hüquqi şəxslər tərəfindən fəaliyyətdə olduqları dövrdə həyata keçirilən, bu şəxslərin hüquqi şəxs kimi statusunu müəyyən edən, nizamnamə kapitalını və idarəetmə orqanlarını formalaşdıran, habelə digər şəxslərin onların nizamnamə kapitalında və idarəetmə orqanlarında iştirakı ilə bağlı tədbirləri nəzərdə tutur.

Korporativ hərəkətlər məqsədindən asılı olaraq aşağıdakı kimi təsnifləşdirilir:

1. Hüquqi şəxsin təsis edilməsi (yaradılması), yenidən təşkili və ləğv edilməsi;
2. Hüquqi şəxsin filial və nümayəndəliklərinin yaradılması və ləğv edilməsi;
3. Nizamnamə kapitalının həcminin müəyyən edilməsi;
4. Korporativ qiymətli kağızların emissiyası;
5. Hüquqi şəxsin idarəetmə orqanlarının yaradılması;
6. Hüquqi şəxsin idarəetmə orqanlarının iclaslarının çağırılması və keçirilməsi;
7. Hüquqi şəxsin əqdlərinin razılaşdırılması;
8. Hüquqi şəxsin sənədlərinin qəbul edilməsi;
9. Hüquqi şəxs tərəfindən digər hüquqi şəxsin (hüquqi şəxslərin) paylarının əldə edilməsi;
10. Hüquqi şəxsin təsərrüfat fəaliyyətinin nəticələrinin yekunlaşdırılması;
11. Hüquqi şəxsin fəaliyyəti barədə məlumatın açıqlanması.

İnvestorların (səhmdarların), digər maraqlı şəxslərin hüquqlarının təmin edilməsi baxımından korporativ hərəkətlər maksimal açıqlıq və şəffaflıq şəraitində həyata keçirilməlidir.

Qeyd edilən korporativ hərəkətlərin bir çoxu qanunve-ri-cilikdə öz əksini tapmışdır. Bununla belə, həmin hərəkətlərin həyata keçirilməsi təsərrüfat cəmiyyətlərinin fəaliyyətindən və digər xüsusiyyətlərindən asılıdır. Bu baxımdan, bu hərəkətlərin dəqiq reqlamentasiyasını həyata keçirmək üçün tövsiyə xarakterli korporativ idarəetmə sənədlərinin (Məcəllə, Prinsiplər, Qaydalar və s.) qəbul edilməsi zəruridir. Bu cür sənədlər korporativ hərəkətlərin qanunvericilik aktlarında nəzərdə tutulmayan aspektlərini əks etdirərək, təsərrüfat cəmiyyətinin fəaliyyətinə aydınlıq gətirir, səhmdarların hüquqlarının qorunması baxımından əlavə üsullar müəyyən edir.

Korporativ hərəkətlərin yuxarıda qeyd edilən növləri bir-birindən fərqlənsə də, onları birləşdirən ümumi xüsusiyyətlər də mövcuddur. Belə ki, bu hərəkətlər aşkarlıq, hesabatlıq, maraqlar toqquşmasının qarşısının alınması, qanunvericiliyə riayət olunması şəraitində həyata keçirilməlidir.

Getdikcə bazarın tələbatı və şirkətlərin istehsal və xidmət fəaliyyətləri artır və buna görə də fəaliyyət və əməliyyatların bir nəfər tərəfindən idarə olunması qeyri-mümkün olurdu. Bunun nəticəsində bir çox insanlar bu sahəyə cəlb olunurdular və müxtəlif ticarət fəaliyyəti fərdi fəaliyətin yerini tuturdu. Nəticədə iri təşkilatlarda bir nəfər aparıcı rəhbər kimi nəzərdə tutulub və digər şəxslər də müxtəlif səviyyə və dərəcələrdə ona kömək göstərmək üçün nəzərdə tutulurdu.. Bu əsasda müxtəlif fəaliyyət sahələri inkişaf edilib. Fəaliyyət sahələri genişləndirilib və beləliklə işləri icra etmək üçün bir çox insanlara ehtiyac yaranıb. Bunun nəticəsidir ki, dünyanın tanınmış şirkətləri kompyuterlərə və kompyuter poqramlarına böyük həcmdə kapital qoyuluşunu həyata keçirirlər.

Müasir biznes-mühitdə şirkətin uğurlu fəaliyyəti üçün korporativ resursların kompleks idarə edilməsini həyata keçirəcək vahid informasiya məkanının yaradılması vacibdir. Bu məsələ, şirkətin təşkilati strukturunun bütün səviyyələrində biznes-proseslərin idarə edilməsi üçün vahid aralıq həllər formalaşdıran inteqrasiya edilmiş informasiya sistemlərinin tətbiqini tələb edir. Bu və ya digər aktual məsələlərin həlli üçün ERP konsepsiyası (Enterprise Resource Planning) – müəssisənin resurslarının planlaşdırılması nəzərdə tutulub.

ERP – müəssisə sahəsinin spesifik xüsusiyyətlərini və konkret biznes-məsələlərini, onun fəaliyyət infrastrukturunu, miqyasını və coğra-

fiyasını nəzərə alan kompleks idarəetmə strategiyasıdır. O, idarəetmə əməliyyatlarının qlobal standartlaşdırılmasını, texnoloji proseslərin avtomatlaşdırılmasını və biznesin effektivliyinin artırılmasını təmin etməyə imkan verir. ERP uğurla ümumdünya standartına çevrilir. Bu, həmin sinifdən olan sistemlərin geniş imkanları ilə bərabər ERP tətbiqi ilə şirkətin bazarda nüfuzunun artması ilə bağlıdır.

Son illər yerli şirkətlər ERP sistemlərinə böyük maraq göstərməyə başlayıblar. Bu sinifdən olan həllərə tələbatın yaranması ERP sistemlərinin biznes inkişafının kritik alətinə çevrildiyini sübut edir. Müəssisə və sahəmiqyaslı güclü, tez uyğunlaşa bilən, tam funksional ERP həllərinin tətbiqinə zərurət yaranıb.

ERP-nin insan resursları modulu - bütün kadr məlumatlarının qruplaşdırılması, uçotu, dövriyyəsi, rəsmiləşdirilməsi, saxlanması və icra edilməsi məntiqi çərçivəsində hazırlanmış olub, orta və böyük biznes subyektlərinin strukturuna tam uyğunlaşdırılabilən proqram təminatıdır.

14.2. Bank fəaliyyətinin təşkili qaydaları

Banklar iqtisadiyyatın pul və kredit ehtiyacını ödəyən qurumlardır.

Mərkəz bankı pul təklifini iqtisadiyyatın pul tələbinə, iqtisadi və sosial siyasətin hədəflərinə görə ayırmağa çalışır; banklar iqtisadiyyatda gerçəkləşdirilə bilən pul borc verə bilir, fondları ticarət, sənayə və kənd təsərrüfatına, tikinti və s. kimi sektorlara kredit formasında dağıdaraq bir qrup iqtisadi vahidlərin likvid çoxluğu ilə, digərlərinin likvid ehtiyaclarının ödənilməsinə yığım edilən pulların bazara axmasını saxlamaq şərti ilə iqtisadi fəaliyyətlərin davamlılığına və genişlənməsinə xidmət edirlər.

Bank—fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Yəni, banklar iqtisadi vahidlərin məlum bir müddət xərcləmədikləri pulları əmanət formasında toplayaraq və başqa formalarda borc alaraq saxladıqları borcu verə bilər. Fondları kredit vermək, qiymətli kağızlar satın almaq, müxtəlif əməliyyatlarda iştirak etməklə işlədirlər, pul yaradaraq iqtisadiyyatın pul tələbinin (likvid ehtiyacının) önəmli bir bölü-

münü ödəyir, ödəmələrə vasitəçi olmaq, pul həvalə etmək, sənəd qəbul etmək, kassa icarələmək kimi təklif edirlər.

Günümüzdə krdit alqı-satqısı böyük bir əhəmiyyətə malikdir. Malları istehsal edən, malların topdan və pərakəndə satışını həyata keçirən bir yerdən digər yerə daşınmasını saxlayan firma və şirkətlər arasında, bunlarla ev idarələri arasında çeşidli formalarda kredit verilir, kredit alınır. Toplum içində alınan və verilən kreditlərin önəmli bir bölümünə banklar vasitəçi olurlar. Çünki kredit zəmanətə və etimada əsaslanır. Banklar kredit tələb edənlərin kreditlərini ölçmək, verdikləri kreditlərin vaxtında qaytarılmasını zəmanəti altına salmaq şərti ilə bu etimadı saxlayarlar.

Həqiqətən, banklar hər şeydən öncə kredit alış-verişinin əsası olan girovu saxlayan qurumlardır. Toplum içində pulu olub borc verməyə hazır kimsələr və kredit axtaranların sayı sonsuzdur. Ancaq bunların arasında bir kredit alış-verişinin meydana gəlməsi üçün borc alana ətimad əsas şərtdir. Bank kredit almaq istəyəndə alınan kreditləri ölçmək və verdiyi krediti zəmanət altına almaq üçün gərəkli texniki alətlərə malikdir.

Banklar kiçik, orta, böyük borc verə bilən fondları toplayaraq böyük fondların yığımına xidmət edirlər. Bununla müasir böyük şirkətlərin və dövlətlərin kredit tələblərini ödəmək imkanına sahibdirlər. əgər banklar olmasa idi müasir iri şirkətlərin və dövlətin böyük həcmdəki kredit tələblərini ödəyə bilmək üçün yüzlərlə əmanət sahibinə müraciət edilməsi gərəkərdi.

Avropa birliyi ölkələrinin ədəbiyyatlarında banklar - xalqın əmanətlərini və ya da geri ödənməsi gərəkli pulları qəbul etmə və öz hesabına kreditlər açan qurumlar kimi səciyyələndirilir. Iqtisadi anlamda bank anlayışı iqtisadiyyata (banknot və qeydiyyatlı pul kimi) ödəmə vasitələri saxlayan, nağd sərmayə və sərmayə təmsil edən xalqlarla (daşınar dəyərlərlə) ilgili ticarət əlaqələrini davamlı olaraq aparan qurumlardır.

Türkiyənin banklar haqqında qanununda haqsız olaraq bank kəlməsini ünvanında işlədənlər cəzalandırılır və iş yerləri keçici və ya davamlı olaraq bağlanılır, elan və reklamları dayandırılır.

İsveçrə qanunlarında da reklamlarında haqsız yerə bank kəlməsinin istifadəsinə görə cəza nəzərdə tutulur. Dünya üzrə ən yeni müasir bankçılıq qanunu sayıla bilən Avropa birliyinin banklar haqqında qanununda bank əməliyyatları aşağıdakı kimi sıralanmışdır:

- Əmanət olaraq pulların qəbulu (depozit qəbulu);
- Başqalarına aid cari hesablar formasında nağdsız ödəmə işləri-

nin aparılması;
- Kredit əməliyyatı;
- Çek və veksellərin satın alınması, özəlliklə veksellərin diskontosu;
- Valyuta əməliyyatları;
- Qaranti əməliyyatı;
- Qiymətli kağız əməliyyatları;
- İnvestisiya əməliyyatı;
- Faktorinq əməliyyatı;

Bank əməliyyatlarının klassik bölgüsü balansa görə aparılır. Buna görə bank əməliyyatarı bank balansının aktiv ya da cədvəlində yer almasına görə fərqləndirilir. Bank balansının öhdəliklər və kapital tərəfində bankların öz və cəlb etdikləri vəsaitləri yer alır. Məcmu kapitalın strukturuna birinci (I) dərəcəli və ikinci (II) dərəcəli kapital daxildir. birinci (I) dərəcəli kapitalın strukturuna daxildir: nizamnamə kapitalı, səhmlərin emissiyasından əlavə vəsait, bölüşdürülməmiş xalis mənfəət. ikinci (II) dərəcəli kapitalın strukturuna daxildir: cari ilin mənfəət, ümumi ehtiyatlar, kapitalın digər vəsaitləri, məcmu kapitaldan tutulmalar.

Bankların aktivlərində kreditlər və likvid dəyərlər ən önəmli payı təşkil edir.

Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini Mərkəzi Bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilə bilər. Depozit əməliyyatları yalnız banklar *və* poçt rabitəsinin milli operatoru tərəfindən həyata keçirilə bilər. Bu Qanunun 3.4-cü və 42-ci maddələri istisna olmaqla, digər müddəaları «Kredit İttifaqları haqqında» Azərbaycan Respublikasının Qanununa və digər qanunvericiliyə müvafiq olaraq, lisenziyalaşdırılan və tənzimlənən kredit ittifaqlarına və başqa bank olmayan kredit təşkilatlarına şamil olunmur. Bank olmayan kredit təşkilatlarının bank fəaliyyətinin lisenziyalaşdırılması və tənzimlənməsi qüvvədə olan qanunvericilik və Mərkəzi Bankın normativ xarakterli aktları ilə həyata keçirilir. Bank olmayan kredit təşkilatlarına rəhbərlik edən işçilərin peşə ixtisasına və təcrübəsinə dair tələblər Mərkəzi Bank tərəfindən müəyyən edilir.

Bank ən azı üç hüquqi və/və ya fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Bank yalnız adlı səhmlər buraxa bilər. Bankın imtiyazlı səhm sahibləri

səs hüququna malik ola bilməzlər. Bankın təsisçiləri olan səhmdarları onun sonrakı səhmdarlarına nisbətən hər hansı əlavə üstünlüklərə malik ola bilməz və ya hər hansı əlavə vəzifələr daşıya bilməzlər.

Banklar, Mərkəzi Bankdan aldığı bank lisenziyasında qadağan edilməmişdirsə, aşağıdakı fəaliyyət növləri ilə məşğul ola bilərlər:

1. tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
2. kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
3. fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
4. klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
5. ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə veksellәri) buraxılması;
6. öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), xarici valyutanın, qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması;
7. qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
8. öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
9. qiymətli kağızlar bazarında peşəkar fəaliyyət;
10. maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
11. kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
12. sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

13. qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi.

Heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməz.

Bankların fəaliyyəti sənaye, aqrar, tikinti və nəqliyyat müəssisələrindən çox fərqlidir. Bunu aşağıdakı şəkildə sıralaya bilərik:

1. quruluş yönündən bankların fəaliyyət göstərməsi üçün digər kommersiya şirkətlərindən fərqliliyi onların lisenziyalarının Mərkəzi Bankdan alınması şərtidir;
2. bankın qurucularının şəxsiyyətləri, vicdan və xarakterləri özəl bir araşdırma mövzusudur;
3. öz kapital və cəlb edilmiş sərmayə nisbəti çox fərqlidir. Ümumiyyətlə banklarda borc vəsaiti öz sərmayəyə nisbətən çoxdur. Lakin, bu çoxluq hududsuz deyil, qanunla tənzimlənir;
4. banklar mal deyil, satınalma gücü istehsal edir. Bankçılıq pul ticarəti deməkdir. Bir tərəfdən ucuz faizlə aldığı pulları, digər tərəfdən nisbətən daha yüksək faizlə satmaq nəticəsində mənfəət əldə etməyə çalışır.
5. banklar digər müəssisələrdən fərqli olaraq, rentabellik likvidlik və riskin bölüşdürülməsi prinsiplərinə çox bağlıdırlar. Banklar mümkün olduğu qədər ucuz bir faizlə, hətta yerinə görə faizsiz təmin edərək, ən yüksək faizlə ehtiyacı olan iqtisadi vahidlərə borc olaraq vəsait verir. Bu borc müəyyən bir təminata bağlı olaraq verilir. Bu təminat maddi olduğu kimi şəxsin etibarına görə də müəyyən edilə bilər. Banklar əlindəki pulu mümkün olduğu qədər çox fiziki və hüquqi şəxslərə paylamaq üçün kassasındakı aktivlərinin müəyyən bir hissəsini nağd pul şəklində saxlayır;
6. dövlət orqanları tərəfindən çox ciddi nəzarət altındadırlar;
7. qanun, banklara kassalarında borclarına qarşı hər an likvid varlıqların nisbətini təsbit etdiyi halda, digər müəssisələrdə belə bir məcburiyyət yoxdur;
8. banklar pul yaratmaqla tədavüldə pulun miqdarına təsir edərək qiymət mexanizminə təsir edə bilir, lakin digər müəssisələrin belə bir təsir etmə imkanları mümkün deyildir;

9. bankların quruluş sərmayələrinin böyük olması tələb edilir. Hazırda, Azərbaycanda yeni bank açmaq üçün 50 milyon manat tələb edilir;
10. Bankların iflası zamanı dövlət tərəfindən lazımi tədbirlər və proqramlar hazırlanır.

Bankçılığın təməl prinsipi aşağıdakılardır: likvidlik, təhlükəsizlik və mənfəət. Bankçılıqda likvidlik bir bankın minimum zərər ilə, ola biləcək əmanət çəkimlərini ödəyəbilmə və eyni anda bazarın kredit ehtiyacını qarşıyabilmə gücüdür. Bankçılıqda təhlükəsizlik, öz sərmayənin yetərli və aktivlərinin keyfiyyətli olması şəklində iki tərəflidir. Bank kapitalının yetərli olması əmanətçilərin banka olan güvənini, bankın kredit müştərisinin keyfiyyəti isə bankın təhlükəsizliyini təmin edir.

Bu səbəblə, finans sisteminin mərkəzində kredit həcmini, yığım miqdarını, qiymətli kağız qiymətini müəyyən edən və bunların fəaliyyətinə tənzimliyən finans bazarı mövcuddur.

Bankların mənfəəti, kredit müştərisindən aldığı faiz ilə əmanətçiyə ödədiyi faiz arasındakı fərqdir. Bazar prinsipləri çərçivəsində fəaliyyət göstərən və biznes quruluşu olan bankların ən son məqsədləri, təhlükəsizlik və likvidliyi arasında optimallığı təmin edərək bankın mənfəətini maksimizə etməkdir. Ancaq bu üç prinsipin bir biri ilə asanca uyğunlaşmamağı da bir həqiqətdir. Bankın təşkilat strukturu onun böyüklüyü ilə, təklif edilən xidmətlərin çeşidliliyi və şəxsi heyətin nüfuz dərəcəsi ilə yaxından bağlıdır. Kiçik sərmayəli bankların təməl fünksiyaları kreditlər və müştəri xidmətləridir. Bunun həcmi artdıqca ixtisaslaşma və verdiyi kreditlərin çeşidi də artar (kommersiya, istehlak, inşaat kreditləri kimi) və eyni zamanda, müştəri xidmətləri çoxalar.

Banklar faiz və komisyon formasında təşkil edilən gəlirlərini artıra bilmək üçün təklif etdikləri xidmətlərin çeşidlərini çoxaldırlar. Bankların məhsul birləşimini üç təməl qrupa ayıra bilərik: kreditlər; əmanətə yönəlik xidmətlər; investisiya (pul bazarı alətləri). Müştəri qrupları -müştəri bazarları istehlakçılar (pərakəndə bankçılıq, digər banklar (müxbir bankçılıq) rəsmi müştərilər və qurumlardan (topdansatış bankçılıq) ibarətdir.

Banklar ən əsas kredit, əmanət və ödənişlərə aid geniş xidmətlər spektrini təklif edən və iqtisadiyyatda istənilən müəssisəyə çeşidli maliyyə xidmətlərini göstərən kredit təşkilatlarıdır.

Əmanət funksiyası. Hər bir bank aktiv əməliyyatları (kredit qoyuluşu qiymətli kağızlar alqısı və s.) həyata keçirmək üçün öz kapitalı ilə yanaşı (nizamnamə, ehtiyat fondu, bölüşdürülməmiş mənfəət) bank öhdəliklərinin əsas hissəsini təşkil edən əmanət cəlbi ilə də məşğul olur. Geniş mənada əmanətlərə müştərilərin banka müəyyən müddətə daha yüksək faizlə qoyduqları pul vəsaitləri ilə yanaşı fiziki və hüquqi şəxslərıı cari hesablarında olan resurslar da aiddir. Müxtəlif subyektlər gələcəkdə dövrün xərcləri üçün qazancları akumulyasiya edir və bu da bankın əmanət yığma imkanlarını artırır. Banklar əhalinin sıx məskunlaşdığı yaşayış və iş yerlərində şöbələr, hesablaşmaları asanlaşdıran plastik kartlar vasitəsilə sərbəst pul vəsaitlərini toplayıb əmanət bazasını genişləndirir.

Kredit funksiyası. Banklar yığdıqları vəsaitə görə müəyyən haqq verir və ya məsrəfləri ödəyir. Bu xərcləri üstələmək və mənfəət qazanınaq üçün banklar istehsal, ticarət sahələrinə kredit verir. Əmanət və kredit funksiyası ilə banklar iqtisadiyyatda vasitəçi rolunu oynayaraq qənaətli təsərrüfatdan defisitli təsərrüfata pulu öz zəmanəti ilə ötürür.

Köçürmə və hesablaşmalar funksiyası. Hər bir müəssisənin bank hesabı var. Onun vasitəsilə o, ödənişlərini aparır və başqa subyektlərdən ödənişləri qəbul edir. Hesablaşmaların nağdsız formasının banklar vasitəsilə təhlükəsiz, operativ və ucuz və bu əməliyyatların bankdan kənarda mümkün olmadığı üçün bankların vacib funksiya olaraq qəbul edilir.

Nağd vəsaitlərin idarə edilməsi. Bank müəssisələrin ödənişlərinin inkassasiyasını və məxrəcinin aparılmasını öz üzərinə götürür. Artıq nağdi hissəsini isə qısamüddətli qiymətli kağızlara qoyur. Müştəriyə nağdiyyə lazım olduqda isə əks əməliyyat keçirilir. Son vaxtlaradək hüquqi şəxslərin nağdiyyəsi idarə olunurdusa, indi fiziki şəxslərlə də analoji əməliyyatlar aparılır.

Trast funksiyası. Banklar müəyyən haqda şəxslərin (personal trast xidmətləri) və müəssisələrin mülkiyyəti (kommersiya və qeyri-kommersiya trast xidmətləri) və maliyyə resurslarını idarə edir.

Bank investoru və ya anderayter. Anderaytinq qiymətli kağızın emitentdən alınması və mənfəət əldə edilməsi məqsədilə başqasına sa-

tılması deməkdir. Bu əməliyyat ənənəvi bank xidmətlərindən risklidir. Buna görə 1933-ci ildə ABŞ konqresi banklara eyni vaxtda investisiya və kommersiya əməliyyatları ilə məşğul olmağı qadağan etdi. Sonralar isə firmalar bank kreditləşməsindənsə, öz qiymətli kağızlarını emissiya edib yerləşdirməyi üstün tutdular. Banklar köhnə müştərilərini qaytarmaq üçün investisiya əməliyyatları ilə məşğul olmaq zərurətini aydınlaşdırdı. Bu xidmət iri müəssisələrin birləşməsi, özəlləşmə proseslərinin sürətlənməsi nəticəsində artmağa meyl etdi.

Broker funksiyası. Banklar müştərilərinə broker xidmətini göstərərək dilerlərə müraciət etmədən səhm, istiqraz və sair qiymətli kağızları almaq imkanını verir. Banklar daşınınaz əmlaka broker əməliyyatlarını apararaq yaşayış və kommersiya tikililərini satıb sonradan onları maliyyələşdirir. Banklar broker firmaları ilə müqavilə bağlayaraq öz təşkilatlarında broker büroları yaradır. Bununla brokerlər bank müştərilərinə, banklar isə brokerlərin biznes dairəsinə yaxınlaşır. Yaşayış yerini dəyişən insanlar «öz bankını» tapmamış, ev və kommersiya tikilisi axtararaq brokerə müraciət edir. O isə öz növbəsində müştərini banka səmtləndirir. Birbaşa faiz dərəcələri ilə əlaqədar olmayan brokerlər bankların partnyoruna çevrilir. Eləcə də banklar artıq bu əməliyyatlar üzrə ixtisaslaşmış broker firmalarını alır. Bankların inkişafinda bu istiqamət də əhəmiyyətli sayılır.

İnvestisiya planlaşdırma funksiyası. Banklar müştəriləri üçün investisiya layihələrini planlaşdırır. Banklar daim iqtisadi cəmiyyətdə gedən prosesləri təhlil obyektində saxlamalı və güclü maliyyə-hüquqi ekspertlər ilə müştərilərinə professional planlaşdırma xidməti göstərməlidirlər.

Kredit pullarının emissiyası. Banklar depozit-kredit emissiyasını həyata keçirərək dövriyyədəki pul kütləsini artırır. Müştəriyə verilmiş kredit onun tələb edilənədək hesabına yazılaraq bankın öhdəliyini artırır. Hesabın sahibi vəsaiti nağdlaşdıraraq dövriyyədəki nağd pul kütləsini artıra bilər. Amma iqtisadiyyat müəyyən həcmli pul kütləsi tələb etdiyindən bankların bu funksiyası mərkəzi banklar tərəfindən ya məhdudlaşdırılır, ya da stimullaşdırılır.

Məsləhət xidməti. Ənənəvi olaraq müştərilər banklara müraciət edərək kreditin, əmanətin, investisiyaların optimal istifadəsini onlarla

müzakirə edir. Banklar vergi deklarasiyalarını və biznes-planları tərtib etməkdən tutmuş daxili və xarici bazarlarda marketinq araşdırmaları, mal və xidmətlərin bazarda irəliləməsi barədə məsləhətlər verir. Banklar hesablaşma əməliyyatı, əmanət qoyanların, kredit götürmək istəyənlərin arasında vasitəçi olaraq külli miqdarda informasiyanı təhlil edir. Məhz bu qabiliyyət göstərilən fimksiyanı daşımaqda bankları başqa uyğun subyektlərdən fərqləndirir.

Dəyərli əşyaların saxlanması. Qədimdən bankların əsas xidmət növlərindən biri də dəyərli əşyaların saxlanmasıdır. Zinət əşyaları, sənədlər və s. şəxsi ləvazimatlar yanmayan seyflərdə qorunur. Bankın mühafizəsi müştərilərin rahat dincəlmə ehtimalını artırır.

Valyuta mübadiləsi. Bu xidmət növü də bank təkamülündə əhəmiyyətli rol oynamışdır. Bu gün dünya maliyyə bazarının riskli olması bu əməliyyatların geniş mənada iri banklar tərəfindən aparılmasına gətirib çıxarıb. Buna səbəb vəsaitin likvidliyi problemi və zəngin təcrübənin vacibliyidir. Geniş mənada aparılan bu əməliyyatlar dilinq adlandırılır.

Lizinq xidməti. Banklar müştərilərinə avadanlıq almaq üçün kredit əvəzinə lizinq təklif edir. Yəni bank öz vəsaiti olaraq onu icarəyə verir. Lizinq ödənişləri tam ödənildikdən sonra avadanlıq ya bankın, ya da müştərinin sərəncamında qalır.

Vençur kapitalının təklifi. Banklar getdikcə riskli sahələrin finansmanına vəsait ayırır. Vençur kapitalı əsasən yüksək texnologiyalar siyahısma aid layihələrdir ki, ənənəvilikdən uzaq iflasa uğramaq ehtimalı çox olan, lakin yüksək gəlir də gətirə bilən biznes-planlar əsasında həyata keçirilir.

Pensiya təminatı. Banklar pensiya fondlarının maraq dairəsinə daxil olaraq vətəndaşların qocalığının təmini ilə məşğul olur. Bu, bilavasitə şəxslərlə, ya da müəssisələrlə bağlanan müqavilə əsasında olur. Daxil olan vəsait akumulyasiya edilərək investisiyalara yönəldilir. Vətəndaşlar təqaüd yaşına çatdıqda və ya onlar əmək qabiliyyətini itirdikdə ödənişlər başlanır. Bu resurslar uzunmüddətli vəsait kimi bankların investisiya fəaliyyətində mühüm rol oynayır.

Mərkəzi Bank bank lisenziyalarının verilməsində və ləğv edilməsində, habelə filiallar, şöbələr və nümayəndəliklər açmaq üçün banklara icazə verilməsində və verilmiş icazələrin ləğv edilməsində müstəsna hüquqlara malikdir. Bank lisenziyaları və icazələr yazılı formada müddətsiz olaraq verilir. Bank lisenziyaları və icazələr yalnız onları almış şəxslər tərəfindən istifadə edilə bilər və üçüncü şəxslərə verilə bilməz **(**Banklar haqqında Azərbaycan Respublikasinin Qanunu - Maddə 6).

Mərkəzi Bank Bank lisenziyasında və ya icazəsində kifayət qədər təşkilati-texniki hazırlığa və ya ixtisasa malik olmayan bankın bəzi fəaliyyət növlərini məhdudlaşdmaq huququna malikdir.

Mərkəzi Bankın «Bank lisenziyalarinin və icazələrin alinmasi üçün müraciət qaydalari haqqinda təlimat» Azərbaycan Respublikasının ərazisində banklara və xarici bankların yerli filiallarına bank lisenziyasının, habelə yerli bankların filiallarına, xarici nümayəndəliklərinə və xarici bankların yerli nümayəndəliklərinə icazənin alınması üçün müraciətlərin və onlara əlavə olunan sənədlərin forma və məzmununu müəyyən edir.

Bank lisenziyasının alınması üçün ilkin müraciət. Bank lisenziyasının alınması üçün ilkin müraciət bankın bütün təsisçiləri tərəfindən və ya onların müvafiq qaydada vəkil etdikləri şəxs tərəfindən imzalanır və imza(ları) notariat qaydasında təsdiq olunur.

Bank lisenziyasının alınması üçün ilkin müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın təklif edilən nizamnamə kapitalının miqdarı, bankın nizamnamə kapitalında təklif edilən hər bir səhmdarın payı haqqında məlumat;
2. bankın səsvermə hüququ olan səhmlərini əldə edəcək hər bir sahibi üçün:

Həmin sahib hüquqi şəxs olduqda:

1. onun adını, ünvanını, kommersiya fəaliyyətinin növünü, onun digər təşkilatlarda mühüm iştirak paylarını, habelə onun kapitalında digər şəxslərin mühüm iştirak paylarını göstərən məlumat;
2. dövlət qeydiyyatı haqqında sənədlərin (nizamnamənin, şəhadətnamənin) və nəzərdə tutulan iştirak payının əldə edilməsi barədə səlahiyyətli idarəetmə orqanının qərarının notariat qaydasında təsdiq edilmiş surəti;

3. azı son üç maliyyə ilini (hüquqi şəxs üç ildən az müddətdə yaradıldıqda isə son maliyyə illəri və ya ili) əhatə edən və auditor yoxlamasından keçmiş maliyyə hesabatlarının (balansın, mənfəət və zərər haqqında hesabatın, nağd pulun hərəkəti barədə hesabatın) və auditor rəyinin əslləri və ya notariat qaydasında təsdiq edilmiş surətləri.

Həmin sahib xarici hüquqi şəxs olduqda:

1. bu Təlimatın 2.1.2-ci yarımbəndinin üçüncü abzasında nəzərdə tutulan məlumat;
2. onun yerləşdiyi ölkədə dövlət qeydiyyatından keçdiyini təsdiq edən sənəd, nizamnamə (əsasnamə), ən azı son üç maliyyə ili üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı (balans, mənfəət və zərər haqqında hesabat, nağd pulun hərəkəti barədə hesabat) və auditor rəyi;

Həmin sahib fiziki şəxs olduqda:

1) onun soyadını, adını, atasının adını və vətəndaşlığını, şəxsiyyət vəsiqəsinin və ya şəxsiyyətini təsdiq edən digər sənədin məlumatlarını, daimi yaşayış yerini, məşğuliyyət növünü, habelə digər təşkilatlarda onun mühüm iştirak paylarını göstərən məlumat;

2) şəxsiyyət vəsiqəsinin və ya şəxsiyyətini təsdiq edən digər sənədin surəti;

3) məşğuliyyət növünü təsdiq edən sənədin notariat qaydasında təsdiq edilmiş surəti;

- Həmin sahib əcnəbi olduqda – bu Təlimatın 2.1.2-ci yarımbəndinin doqquzuncu - on ikinci abzaslarında nəzərdə tutulan sənədlərdən başqa rezidenti olduğu ölkənin bir və ya bir neçə maliyyə təşkilatlarının müsbət tövsiyyələri (bu şəxslə hansı vaxtdan işgüzar münasibət yaratdığını, ödəmə qabiliyyətli müştəri olmasını və ya maliyyə vəziyyətini xarakterizə edə bilən digər müsbət göstəriciləri əks etdirə bilər) və/və ya bank hesablarından çıxarışlar;
- bankda mühüm iştirak payının təklif edilən sahibi hüquqi şəxs olduqda:
  - onun icra orqanlarının rəhbərlərinin siyahısı;
  - hər rəhbər üçün onun tərəfindən imzalanmış və imzası notariat

qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə;

- Rəhbər əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq hakimiyyət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş arayış;
- əgər mühüm iştirak payının sahibi olan hüquqi şəxs şirkətlər qrupuna daxildirsə bu qrup haqqında məlumatlar, o cümlədən qrupa daxil olan digər təşkilatlarda mühüm iştirak payına malik şəxslər, bu şəxslərin inzibatçıları haqqında məlumatlar (sərbəst formada ətraflı və dürüst şəkildə tərtib olunmalı, fiziki və hüquqi şəxslərin adları ixtisarsız yazılmalıdır);
- Bankda mühüm iştirak payının təklif edilən sahibi fiziki şəxs olduqda onun tərəfindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş, vətəndaş qüsursuzluğuna dair ərizə.
- Mühüm iştirak payının sahibi əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq hakimiyyət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş arayış;
- Bankın yaradılması, onun nizamnaməsinin qəbul edilməsi və idarəetmə orqanlarının formalaşdırılması haqqında bütün təsisçilər tərəfindən imzalanmış qərarın notariat qaydasında təsdiq edilmiş surəti və bankın təsisçiləri və ya onların səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş nizamnaməsi.

Nizamnamədə bankın adı, olduğu yer, buraxdığı səhmlərin kateqoriyası, onların nominal dəyəri və miqdarı, səhmdarların hüquqları, idarəetmə orqanlarının tərkibi, fəaliyyət müddəti və salahiyyətləri, habelə könüllü ləğv etmə qaydaları öz əksini tapmalıdır.

- bankın kommersiya strategiyasını, nəzərdə tutduğu fəaliyyət növlərini, təşkilati strukturunu, o cümlədən daxili nəzarət sistemini və ilk üç il üçün maliyyə proqnozlarını (balans, mənfəət və zərər haqqında hesabatı) müəyyənləşdirən biznes-plan;
- bankın təklif edilən inzibatçılarının siyahısı, habelə onların hər biri üçün peşə ixtisası və təcrübəsi haqqında məlumatın göstərildiyi sənədlərin (təhsil və əmək fəaliyyəti haqqında) notariat qaydasında təsdiqlənmiş surətləri, həmin şəxslər tərəfindən doldurulmuş anket, bankda və digər hüquqi şəxslərdə onların mühüm iştirak paylarının miqdarı və siyahısı, tərəflərindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuz-

luğuna dair ərizə;

- İnzibatçı əcnəbi olduqda, rezidenti olduğu ölkənin müvafiq hakimiyyət orqanları tərəfindən onun cinayət məsuliyyətinə cəlb olunub-olunmadığı barədə verilmiş arayış;
- xarici bank və ya xarici bank holdinq şirkəti yerli törəmə bank təsis etdiyi halda bu Təlimatın 2.3-cü bəndində göstərilmiş sənədlər;
- ilkin müraciətə baxılması üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən bank sənədi.

Xarici bankın yerli filialının açılmasına dair ilkin müraciətə (bankın səlahiyyətli şəxsi tərəfindən imzalanmalıdır) aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın nizamnaməsi və filialın yaradılması barədə səlahiyyətli idarəetmə orqanının qərarının surəti;
2. bankın mühüm iştirak paylarına malik olan sahiblərinin payı göstərilməklə siyahısı;
3. əgər bank şirkətlər qrupuna daxildirsə, bu qrup haqqında məlumatlar, o cümlədən qrupa daxil olan digər təşkilatlarda mühüm iştirak payına malik şəxslər, bu şəxslərin inzibatçıları haqqında məlumatlar (sərbəst formada ətraflı və dürüst şəkildə tərtib olunmalı, fiziki və hüquqi şəxslərin adları ixtisarsız yazılmalıdır);
4. bankın ən azı son üç maliyyə ili üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı (balans, mənfəət və zərər haqqında hesabat, nağd pulun hərəkəri barədə hesabat) və auditor rəyi;
5. bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilmiş filialın əsasnaməsi. Əsasnamədə filialın adı, olduğu yer, fəaliyyəti ilə bağlı digər məlumatlarla yanaşı təsisçi bank tərəfindən filiala ayrılmış, kapitala bərabər tutulmuş vəsaitin miqdarı, bank fəaliyyəti növləri, filialın idarəetmə strukturu və rəhbərlərinin səlahiyyətləri, bank tərəfindən filial üzərində nəzarətin həyata keçirilməsi və bankın öz qərarı ilə ləğv edilməsi qaydası göstərilməlidir;
6. filialın kommersiya strategiyasını, nəzərdə tutduğu fəaliyyət növlərini, təşkilati strukturunu, o cümlədən daxili nəzarət sistemini, habelə filialın işinin ilk üç ili üçün maliyyə proqnozlarını (balansı, mənfəət və zərər haqqında hesabatı) müəyyənləşdirən biznes-plan;

7. bankın səlahiyyətli şəxsi tərəfindən imzalanan filialın öhdəlikləri üçün bankın məsuliyyət götürməsini təsdiq edən sənəd;
8. filiala təyin edilməsi təklif olunan inzibatçılar haqqında Bank lisenziyalarinin və icazələrin alinmasi üçün müraciət qaydalari haqqinda Təlimatın 2.1.8-ci yarımbəndində göstərilmiş sənədlər;
9. Bank lisenziyalarinin və icazələrin alinmasi üçün müraciət qaydalari haqqinda Təlimatın 2.3-cü bəndində göstərilmiş sənədlər;
10. ilkin müraciətə baxılması üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən bank sənədi.

Xarici bankın və xarici bank holdinq şirkətinin yerli törəmə bankına, xarici bankın yerli filialına bank lisenziyası alınması üçün ilkin müraciətə bu Bank lisenziyalarinin və icazələrin alinmasi üçün müraciət qaydalari haqqinda Təlimatın 2.1-ci və 2.2-ci bəndlərində göstərilmiş sənədlərdən başqa aşağıdakı sənədlər də əlavə olunmalıdır:

- xarici bankın törəmə bankı və ya filialı üçün – təsisçi xarici bankın yerləşdiyi ölkənin bank tənzimləməsi və nəzarəti orqanının bankın həmin ölkədə fiziki və hüquqi şəxslərdən depozitlər və digər qaytarılan vəsait cəlb etmək üçün icazənin olması, habelə həmin tənzimləmə və nəzarət orqanının banka nəzarəti həyata keçirməsi barədə yazılı bildirişi və bu orqanın törəmə bankın təsis edilməsinə və ya filialın, açılmasına yazılı icazəsi;
- xarici bank holdinq şirkətinin törəmə bankı üçün - bank holdinq şirkətinin yerləşdiyi ölkənin bank tənzimləməsi və nəzarəti orqanının bu şirkətə nəzarəti həyata keçirməsi, bu şirkətin fiziki və hüquqi şəxslərdən depozitlər və digər qaytarılan vəsait cəlb etməsi üçün həmin ölkədə lisenziyası olan bir və ya bir neçə bankının olması və ya onları idarə etməsi barədə yazılı bildirişi və bu orqanın törəmə bankın təsis edilməsinə yazılı icazəsi.

Təsis edilən bank və ya Azərbaycan Respublikasında filialını açan xarici bank ilkin müraciətinə müsbət baxılması haqqında Mərkəzi Bankın qərarının qəbul edildiyi gündən 180 təqvim günü müddətində ilkin nizamnamə kapitalının minimum miqdarını (kapitala bərabər tutulmuş vəsaiti) Mərkəzi Bankda bu məqsədlər üçün açılan hesaba ödəməli və qanunvericiliyə müvafiq qaydada dövlət qeydiyyatından keçərək "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq korpora-

tiv idarəetmə sistemlərini təşkil etməli, texnili-təchizat və təhlükəsizlik tədbirlərini tamamlamalıdır.

Bank lisenziyası alınması üçün yekun müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın və ya xarici bankın yerli filialının dövlət qeydiyyatı haqqında sənədlərin (nizamnamənin, şəhadətnamənin) notariat qaydasında təsdiq edilmiş surəti;
2. bankın səlahiyyətli idarəetmə orqanının qərarı ilə təsdiq edilmiş bankın reqlamenti; Reqlament bankın təşkilati və idarəetmə strukturunu, struktur vahidlərinin tabeçilik və hesabatını, habelə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş digər məlumatları əks etdirməlidir;
3. bankın yaradılması, nizamnamənin qəbul edilməsi və inzibatçıların təyin edilməsi haqqında səhmdarların ümumi yığıncağının qərarının notariat qaydasında təsdiq edilmiş surəti;
4. bank lisenziyasının alınması üçün ilkin müraciətə müsbət baxılması haqqında Mərkəzi Bankın qərarında şərtlər qoyulduqda, həmin şərtlərin yerinə yetirildiyini təsdiqləyən sənəd (sənədlər);
5. Mərkəzi Bankın müvafiq normativ xarakterli aktlarına uyğun olaraq bankın korporativ idarəetmə sistemlərinin formalaşdırılmasını təsdiq edən məlumat və sənədlər;
6. bankda texniki-təchizat və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini təsdiqləyən məlumat və sənədlər (belə məlumat və sənədlər bankın inzibati binasının iş yerləri, informasiya texnologiyaları vasitələri və hesablama texnikası ilə təchiz olunmasını, əməliyyat və uçot işlərinin həyata keçirilməsini təmin edəcək proqram təminatının mövcudluğunu, pul vəsaitlərinin və digər qiymətlilərin saxlanması üçün Mərkəzi Bankın müvafiq normativ xarakterli aktlarının tələblərinə cavab verən kassa qovşağının qurulmasını, bankın mühafizə siqnalizasiya vasitələri ilə qorunmasını əks etdirməlidir);
7. bankın və ya xarici bankın yerli filialının hüquqi ünvanını təsdiq edən sənədin (icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən sənəd və s.) notariat qaydasında təsdiq edilmiş surəti;
8. ilkin müraciət olunarkən Mərkəzi Banka təqdim edilmiş məlumatlarda və sənədlərdə əhəmiyyətli dəyişikliklər olduqda həmin dəyişikliklərin müfəssəl şərh edildiyi məlumat;

9. 9. bank lisenziyasının verilməsi üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən bank sənədi.

Yerli bankların yerli və xarici filiallarının və xarici nümayəndəliklərinin açılmasına icazə almaq üçün müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın filial və ya nümayəndəlik açmaq barəsində səlahiyyətli idarəetmə orqanının qərarının notariat qaydasında təsdiq edilmiş surəti və ya iclas protokolundan çıxarış;
2. filialın və ya xarici nümayəndəliyin bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilmiş əsasnaməsi; Əsasnamədə digər məlumatlarla yanaşı filial və ya xarici nümayəndəliyin adı, ünvanı, filial üçün bank fəaliyyəti növləri, inzibatçıların səlahiyyətləri, bank tərəfindən nəzarətin həyata keçirilməsi, filial və ya nümayəndəliyin bankın öz qərarı ilə ləğv edilməsi qaydası göstərilməlidir;
3. yerli filialın hüquqi ünvanını təsdiq edən sənədin (icarə müqaviləsi, mülkiyyət hüququnu təsdiq edən sənəd və s.) notariat qaydasında təsdiq edilmiş surəti;
4. filialın kommersiya strategiyasını, nəzərdə tutduğu fəaliyyət növlərini, təşkilati strukturunu, habelə filialın ilk üc ili üçün maliyyə proqnozlarını müəyyənləşdirən biznes plan (Əlavə N 9);
5. filialın və ya xarici nümayəndəliyin inzibatçılarının (rəhbərlərinin) təyin edilməsi barədə bankın səlahiyyətli idarəetmə orqanının qərarının notariat qaydasında təsdiq edilmiş surəti və ya protokoldan çıxarış.
6. filiala təyin edilməsi təklif edilən inzibatçıların siyahısı, habelə onların hər biri üçün peşə ixtisası və təcrübəsi haqqında məlumatın göstərildiyi sənədlərin (təhsil və əmək fəaliyyəti haqqında) notariat qaydasında təsdiqlənmiş surətləri, həmin şəxslər tərəfindən doldurulmuş anket, bankda və digər hüquqi şəxslərdə onların mühüm iştirak paylarının miqdarı və siyahısı, tərəflərindən imzalanmış və imzası notariat qaydasında təsdiqlənmiş vətəndaş qüsursuzluğuna dair ərizə;

Xarici filialını və ya nümayəndəliyini açan yerli bank onların fəaliyyətinə yerləşdiyi ölkədə müvafiq icazə aldıqdan sonra bu barədə Mərkəzi

Banka 5 gün müddətində yazılı bildiriş göndərməlidir. Bu zaman əvvəlcədən müraciət edilərkən Mərkəzi Banka təqdim edilmiş məlumatlarda əhəmiyyətli dəyişikliklər olduqda həmin dəyişiklikləri müfəssəl şərh edən məlumat da təqdim olunmalıdır.

Filialın və ya nümayəndəliyin açılmasına icazə almış bank həmin qurumlar haqqında məlumatı onun alındığı gündən 5 təqvim günü müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq dövlət reyestrinə təqdim etməlidir.

Xarici bankın yerli nümayəndəliyinin açılmasına icazə almaq üçün müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

1. bankın nizamnaməsi və yerli nümayəndəliyin açılması barədə bankın səlahiyyətli idarəetmə orqanının qərarının surəti;
2. bank, onun təşkilati strukturu və xarici bankın nümayəndəlik açmaq barəsində səlahiyyətli orqanı da göstərilməklə idarəetmə orqanları haqqında məlumat;
3. bankın mühüm iştirak paylarının sahiblərinin onlara məxsus səsli səhmlər payı göstərilməklə siyahısı;
4. bankın son maliyyə ili üçün auditor yoxlamasından keçmiş maliyyə hesabatı (balans, mənfəət və zərər haqqında hesabat, nağd pulun hərəkəri barədə hesabat) və auditor rəyi;
5. yerli nümayəndəliyin səlahiyyətləri və ünvanı göstərilməklə bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilmiş əsasnaməsi;
6. nümayəndəliyə təyin edilməsi təklif olunan inzibatçıların peşəkar keyfiyyətləri və məhkumluqlarının olub-olmaması barədə arayış;
7. xarici bankın yerləşdiyi ölkənin bank tənzimləməsi və nəzarəti orqanının bankın həmin ölkədə fiziki və hüquqi şəxslərdən depozitlər və digər qaytarılan vəsait cəlb etmək üçün icazəsinın olması, həmin tənzimləmə və nəzarət orqanının banka nəzarəti həyata keçirməsi barədə yazılı bildirişi və bu orqanın xarici bankın yerli nümayəndəliyinin açılmasına yazılı icazəsi.

Xarici bankın yerli nümayəndəliyi dövlət qeydiyyatına alındıqdan sonra icazə almaq üçün müraciətə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- xarici bankın yerli nümayəndəliyinin qanunvericiliyə müvafiq

olaraq dövlət qeydiyyatına alınması haqqında sənədlərin (əsasnamənin və şəhadətnamənin) notariat qaydasında təsdiq edilmiş surəti;

- ilkin olaraq Mərkəzi Banka təqdim edilmiş məlumatlarda və sənədlərdə əhəmiyyətli dəyişikliklər olduqda həmin dəyişikliklərin müfəssəl şərh edildiyi məlumat.

14.3. Bankların idarəetmə strukturu

Korporativ idarəetmə - şirkətin rəhbərliyi, müşahidə şurası, səhmdarları və digər maraqlı şəxslər arasında qarşılıqlı münasibətlər kompleksidir. Korporativ idarəetmə sistemi şirkətin idarə edilməsi və ona nəzarət üçün nəzərdə tutulmuş struktur və proseslərdən ibarət olub, əsas məqsədi şirkətlərdə ədaləti, şəffaflığı və qarşılıqlı cavabdehliyi təşviq etməklə davamlı inkişafa nail olmaqdır.

İlkin olaraq Standartlara riayət etmək könüllü şəkildə həyata keçirilir. Dünya təcrübəsində sonradan "riayət et və ya izah et" prinsipinin tətbiqi məsləhət görülür. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, şirkətlər Standartlara riayət etməlidirlər, əks təqdirdə isə səbəbini izah etməli və açıqlamalıdırlar.

Standartların strukturu ашаüыдакылардан ibarətdir:

1. Səhmdarların (iştirakçıların) ümumi yığıncağı
2. Səhmdarların hüquqları
3. Müşahidə şurası
4. İcra orqanı
5. Maliyyə hesabatlığı, şəffaflıq və məlumatların açıqlanması
6. Daxili nəzarət sistemi, daxili audit funksiyası və risklərin idarə edilməsi
7. Korporativ idarəetmə üzrə müşavir
8. Maraqlı tərəflər

Bank ən azı üç hüquqi və/və ya fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Bank yalnız adlı səhmlər buraxa bilər. Bankın imtiyazlı səhm sahibləri səs hüququna malik ola bilməzlər. Bankın təsisçiləri olan səhmdarları onun sonrakı səhmdarlarına nisbətən hər hansı əlavə üstünlüklərə ma-

lik ola bilməz və ya hər hansı əlavə vəzifələr daşıya bilməzlər (Banklar haqqında Azərbaycan Respublikasının Qanunu -maddə 19).

Bankın nizamnaməsinin notariat qaydada təsdiqlənmiş surəti, bank tərəfindən təsdiqlənmiş daxili reqlamenti, habelə bankın bank fəaliyyəti ilə əlaqədar müqavilələri imzalamaq səlahiyyəti verilmiş vəzifəli şəxslərin siyahısı bank tərəfindən Mərkəzi Banka bir nüsxədə təqdim edilir və Mərkəzi Bankda saxlanılır Banklar haqqında Azərbaycan Respublikasının Qanunu - maddə 20).

Bank məcmu kapitalını, xarici bankın yerli filialı isə məcmu kapitala bərabər tutulmuş vəsaitini daimi olaraq Mərkəzi Bankın banklar üçün müəyyən etdiyi məcmu kapitalın minimum miqdarından aşağı olmayan səviyyədə saxlamalıdır. Bankın məcmu kapitalının, xarici bankın yerli filialı üçün isə məcmu kapitala bərabər tutulmuş vəsaitin strukturu, komponentləri və hesablanması qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir. Bankın və ya xarici bankın yerli filialının inzibatçıları məcmu kapitalın və ya məcmu kapitala bərabər tutulmuş vəsaitin miqdarının Mərkəzi Bankın banklar üçün müəyyən etdiyi məcmu kapitalın (məcmu kapitala bərabər tutulmuş vəsaitin) minimum miqdarının 25 faizinə və ya onun adekvatlıq əmsalının 3 faizə çatdığını müəyyən etdikləri bütün hallarda dərhal bu barədə Mərkəzi Banka bildiriş göndərməlidirlər(Banklar haqqında Azərbaycan Respublikasının Qanunu maddə21).

Hər hansı bir şəxs bankın nizamnamə kapitalında mühüm iştirak payını, o cümlədən nizamnamə kapitalındakı mövcud payını mühüm iştirak payına çatdıran əlavə payı, habelə mühüm iştirak payını artıraraq səsvermə hüququ olan səhmlərin və ya nizamnamə kapitalının 20 faizinə, 33 faizinə, 50 faizinə çatmasına və ya bu miqdarı keçməsinə, yaxud bankın həmin şəxsin törəmə strukturuna çevrilməsinə gətirib çıxaran iştirak payını bu Qanunla müəyyən edilmiş qaydada əldə edə bilər(Banklar haqqında Azərbaycan Respublikasının Qanunu maddə22).

Bankların idarəetmə strukturu- Hər bir bank ali idarəetmə orqanı olan səhmdarların ümumi yığıncağı, onun idarə olunmasına və işinə nəzarəti həyata keçirən orqan olan Müşahidə Şurası, bankda audit işini təşkil edən AuditnKomitəsi və məsul icra orqanı olan İdarə Heyəti tərəfindən idarə olunur (Banklar haqqında Azərbaycan Respublikasının Qanunu maddə23).

Bankın təşkilati strukturu Səhmdarların Ümumi Yığıncağı və ya

onun verdiyi səlahiyyətlər əsasında Müşahidə Şurası tərəfindən təsdiq edilir. Təşkilati strukturun tərkibinə ən azı aşağıdakı funksiyaları daşıyan bölmələr daxil edilməlidir:

- müştərilərlə birbaşa iş;
- risklərin idarə edilməsi;
- bank əməliyyatları;
- inzibati və yardımçı xidmət.

Bankın təşkilati strukturu Mərkəzi Banka təqdim edilir.

Bank fəaliyyəti ilə əlaqədar müxtəlif risklərin səmərəli idarə edilməsi məqsədi ilə Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydalarına müvafiq daxili komitələr yaradılır. Hər bir komitəyə İdarə Heyətinin bu sahəyə cavabdeh olan üzvü sədrlik edir. Hər bir bankda idarəetmə orqanlarının və struktur bölmələrin fəaliyyətini tənzimləyən əsasnamələr tərtib edilir. Əsasnamələrdə idarəetmə orqanlarının və struktur bölmələrin tərkibi, funksiya və səlahiyyətləri, fəaliyyət qaydaları müəyyən edilir. Əsasnamələr və onlara edilən bütün dəyişikliklər Azərbaycan Respublikasının Mərkəzi Bankına (bundan sonra – Mərkəzi Bank) təqdim edilir.

İdarəetmə orqanlarının əsasnamələri Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edilir. İdarəetmə orqanlarının əsasnamələrində ayrıca olaraq onların sədrlərinin səlahiyyətləri müəyyən edilməlidir. Səlahiyyətlərin həcmi müəyyən edilərkən qanunvericiliyin tələbləri və bank fəaliyyətində risklərin azaldılması məsələləri nəzərə alınmalıdır.

Bankın fəaliyyətinə nəzarəti həyata keçirən Müşahidə Şurası Səhmdarların Ümumi Yığıncağının verdiyi səlahiyyətlər əsasında bankın bütün siyasətlərinin və fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir. Səhmdarlar qarşısında bankın ümumi fəaliyyətinə görə Müşahidə Şurası, bankın cari fəaliyyətinə görə İdarə Heyəti məsuliyyət daşıyır.

Banklarda korporativ idarəetmə standartlarinin tətbiqi qaydaların 10-cu bölməsinə uyğun olaraq yaradılan komitələrin əsasnamələri bankın Müşahidə Şurası tərəfindən təsdiq edilir. Komitələrin əsasnamlərində qərarların qəbul edilmə qaydası göstərilməlidir. Bankın filial, şöbə və nümayəndəlikləri istisna olmaqla digər struktur bölmələrin əsasnamələri İdarə Heyəti tərəfindən, daxili audit bölməsinin əsasnaməsi isə Audit Komitəsi tərəfindən təsdiq edilir. Bankda hər bir fəaliyyət növü üzrə əməliyyatın həyata keçirilməsi və risklərin idarə-edilməsi ilə bağlı daxili qaydalar və prosedurlar İdarə Heyəti tərəfindən tərtib olunur və Müşahidə Şurası tərəfindən təsdiq edilir. Bu

sənədlərdə hər bir fəaliyyət növünün həyata keçirilməsi qaydası tam və açıq müəyyən olunur. Bankda hər bir vəzifə üzrə vəzifə təlimatı olmalıdır. Vəzifə təlimatları struktur bölmələrin rəhbərləri tərəfindən təsdiq edilir və işçilər tərəfindən imzalanır. Vəzifə təlimatında vəzifə üzrə funksiya, səlahiyyətlər və məsuliyyət müəyyən olunmalıdır.

Səhmdarlarin Ümumi Yiğincaği – bankın ali idarəetmə orqanı kimi

Bank səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

1. bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;
2. bankın reqlamentini qəbul etmək və reqlamentə əlavə və dəyişikliklər etmək;
3. bankın faiz dərəcələri, aktivlərin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətini, habelə bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətini müəyyənləşdirmək;
4. digər hüquqi şəxslərin kapitalında bankın iştirakı barədə qərarlar qəbul etmək, bankın filiallarını və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək;
5. növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək;
6. bankın büdcəsini qəbul və təsdiq etmək;
7. bankın İdarə Heyətinin üzvlərini təyin və azad etmək, İdarə Heyətinin əsasnaməsini təsdiq etmək;
8. bankın Müşahidə Şurasının və Audit Komitəsinin üzvlərini təyin və azad etmək, həmin idarəetmə orqanlarının əsasnaməsini təsdiq etmək, bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək;
9. Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla, bankın inzibatçılarının bank adından və bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirmək;
10. bu Qanunun 28-ci maddəsinə əsasən bank inzibatçılarının kommersiya maraqlarını açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələri qəbul etmək;

11. bankın törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, başqa bankın satın alınması barədə qərarlar qəbul etmək;
12. nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
13. bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividendlərin ödənilməsi barədə qərar qəbul etmək;
14. bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;
15. Bu Qanunla və bankın nizamnaməsi ilə səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək;

Bank haqqında Qanunun 24.1.2 - 24.1.7-ci maddələri ilə səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər həll edilmək üçün bankın Müşahidə Şurasına verilə bilər.

Bankın təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətli sayılır. Səhmdarların sonrakı ümumi yığıncaqları bütün səsvermə hüququ olan səhmlərin azı 60 faizinin sahibi olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır.

Bankın təsis yığıncağında onun yaradılması, nizamnaməsinin qəbul edilməsi və idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar yekdilliklə qəbul edilir. Nizamnaməyə əlavə və dəyişikliklər edilməsi, Müşahidə Şurası və İdarə Heyəti üzvlərinin təyin və azad edilməsi, bankın satılması, yenidən təşkili, başqa bankın alınması və bankın fəaliyyətinə xitam verilməsi məsələləri üzrə qərarlar yığıncaqda təmsil edilən səhmdarların 75 faiz səs çoxluğu ilə qəbul olunur. Bütün digər qərarlar yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul olunur.

Səhmdarlar bankın nizamnamə kapitalındakı paylarına mütənasib səs hüququna malikdirlər. Hər bir səhmdar səhmdarların ümumi yığıncağında özünün səs hüququnu həm şəxsən, həm də səlahiyyətli nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Etibarnamə yazılı şəkildərəsmiləşdirilir və yığıncağın protokoluna qoşulur. Etibarnamə yığıncaq başlananadək verilir.

Səhmdarları qanuni əsasda təmsil edən şəxslər üçün ayrıca etibarnamə tələb olunmur. Həmin şəxslər bu cür səlahiyyətlərini təsdiqləyən sənəd təqdim edirlər.

Səhmdarların növbəti və növbədənkənar yığıncaqları keçirilə bilər. Səhmdarların hər bir ümumi yığıncağının keçirilməsi günü, yeri, vaxtı və gündəlik üzrə materiallarla tanış olma qaydası barəsində bildirişlər, habelə həmin yığıncağın gündəliyi yığıncağın keçirilməsi gününə ən azı 45 təqvim günü qalmış səhmdarlara göndərilir və bu barədə kütləvi informasiya vasitələrində məlumat dərc etdirilir. Bildirişlə birlikdə göndərilən gündəliyə daxil edilməmiş məsələlər üzrə qərar qəbul olunmasına yol verilmir. Növbəti yığıncaqlar ildə bir dəfədən az olmayaraq keçirilir. Növbəti yığıncaqlar bankın hər il üçün maliyyə hesabatı tərtib edildikdən və kənar auditor yoxlamasından kecdikdən sonra ən geci iki ay ərzində keçirilir.

Növbədənkənar yığıncaqlar səsvermə hüququ olan səhmlərin azı 5 faizinin sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə çağırıla bilər.

Növbədənkənar yığıncaqların çağrılması qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

Səhmdarların yığıncağında səsvermə hüququna malik olan bütün səhmdarlar təmsil olunmuşdursa, yığıncaq onun çağırılması vaxtından və üsulundan asılı olmayaraq səlahiyyətli sayılır. Səsvermə hüququna malik olan səhmdarların hamısı yekdilliklə razılıq verərsə, bu yığıncaq gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər.

Müşahidə Şurası - Bankın idarə olunmasına və işinə nəzarəti həyata keçirən orqan kimi

Müşahidə Şurası bankın struktur bölmələrinin, habelə törəmə təsərrüfat cəmiyyətlərinin fəaliyyətinin qanunvericiliyə müvafiq qaydada həyata keçirilməsini təmin etmək məqsədi ilə İdarə Heyətinin işinə nəzarət edir. Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti daha da səmərəli həyata keçirmək üçün Müşahidə Şurası İdarə Heyətindən bankın bütün fəaliyyəti haqqında istənilən hesabatlar və məlumatlar tələb edə bilər. Müşahidə Şurası bankda risklərin idarə edilməsinə nəzarətin tətbiq edilməsi məqsədi ilə İdarə Heyətindən asılı olmayan və müstəqil qərarlar qəbul edə bilən daxili komitələr yaradır. Bu komitələrin əsas funksiya-

sı bankın gündəlik fəaliyyətinin həyata keçirilməsində İdarə Heyətinə köməklik göstərməkdir. Daxili komitələr qərar qəbul etmək səlahiyyətinə malikdir və bu qərarlar barədə İdarə Heyətinə məlumat verir. Daxili komitələrin üzvləri Müşahidə Şurasının dəvəti ilə onun iclaslarında iştirak edir və Müşahidə Şurası qarşısında hesabat verir. Komitələrə verilən səlahiyyətlərdən asılı olmayaraq bankın bütün fəaliyyətinə nəzarətin həyata keçirilməsinə Müşahidə Şurası məsuliyyət daşıyır.

Bankın Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

1. bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən bankın İdarə Heyətindən hesabat almaq;
2. səhmdarların ümumi yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;
3. səhmdarların ümumi yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;
4. Bank tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə, bun pozuntu barəsində səhmdarların ümumi yığıncağını, Audit Komitəsini və İdarə Heyətini xəbərdar etmək, Mərkəzi Banka isə bank qanunvericiliyinin və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması faktları barədə bildiriş göndərmək;
5. bu Qanuna müvafiq olaraq, İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq, səhmdarların ümumi yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq bu Qanunun 10-cu maddəsinin tələblərinə cavab verən başqa şəxslərlə əvəz etmək;
6. bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda bankı idarə və təmsil etmək;
7. bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və tətbiq etmək;
8. bankın kapital ehtiyatları yaradılması haqqında qərar qəbul et-

mək;

9. bankın nizamnamə kapitalının 50 faizindən artıq məbləğdə və bankın nizamnaməsində nəzərdə tutulmuş hallarda bank adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;
10. banka aidiyyəti şəxslər və aidiyyəti şəxs adından hərəkət edən şəxslər ilə əqdlər bağlanmasını təsdiq etmək;
11. bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərar qəbul etmək;
12. kənar və daxili auditorların, habelə Mərkəzi Bankın yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
13. bu Qanunla, bankın nizamnaməsi və Mərkəzi Bankın normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

Müşahidə Şurası bu Qanunun 25.1.6-cı maddəsində nəzərdə tutulan səlahiyyəti icra etməzdən əvvəl Mərkəzi Banka əsasları göstərməklə yazılı bildiriş göndərir və səhmdarların ümumi yığıncağının növbədənkənar iclasını çağırır. Mərkəzi Bank Müşahidə Şurasının qərarına dair öz münasibətini bildirə bilər.

Müşahidə Şurasının bu Qanunun 25.1.5, 25.1.6 və 25.1. 8-ci maddələrinə əsasən qəbul etdiyi qərarlar səhmdarların ümumi yığıncağının növbəti iclasının gündəliyinə daxil edilməli və müzakirə olunmalıdır.

Bankın Müşahidə Şurası 3 nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Şuranın üzvləri bankın səhmdarlarının ümumi yığıncağı tərəfindən səhmdarlardan və/və ya kənar şəxslərdən 4 ildən çox olmayan müddətə təyin edilən fiziki şəxslərdir. Şuranın üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların ümumi yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir. Müşahidə Şurası üzvlərinin muzdu bankın bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında səhmdarların ümumi yığıncağında təyin edilə bilər.

Bu Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə uyğun gəlməyən fiziki şəxslər bankın Müşahidə Şurasının üzvü ola bilməz və bank səhmdarlarının ümumi yığıncağının qərarı ilə Müşahidə Şurasının üzvləri vəzifəsindən azad edilməlidirlər.

Müşahidə Şurası onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İclaslarının keçirilməsi qaydası bankın nizam-

naməsində və ya Müşahidə Şurası haqqında əsasnamədə müəyyən edilir.

Müşahidə Şurasının iclasları ən azı üç ayda bir dəfə keçirilir. İclasların nəticələrinə dair protokol Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq qaydada tərtib edilir.

Müşahidə Şurasının qərarları yığıncaqda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Müşahidə Şurası sədrinin səsi həlledici sayılır.

1. mümkün zərərlərin hesablanması daxil edilməklə qeyri-işlək aktivlər, o cümlədən yüksək risklə təsnifləşdirilmiş aktivlər;
2. kreditlər üzrə öz öhdəliklərini pozmuş borcalanları müvafiq kateqoriyalara daxil etməklə bütün vaxtı keçmiş və faizləri hesablanmayan kreditlər, onların gecikmə müddətləri və səbəbləri;
3. əvvəlki rüb ərzində yüksək risklə təsnifləşdirilmiş bütün aktivlər, belə təsnifləşdirmələrin səbəbləri, hər bir yüksək risklə təsnifləşdirilmiş aktiv üzrə mümkün zərərlər üçün ehtiyatın yaradılmasına ayırmaların məbləği;
4. iri kreditlərin məbləği və sahələr üzrə cəmləşməsi;
5. problemli aktivlərin keyfiyyətinin yaxşılaşdırılması üzrə təkliflər;
6. restrukturizasiya olunmuş kreditlərin təsviri;
7. inzibatçılara və onlarla əlaqədar maraqları olan şəxslərə verilmiş bütün kreditlərin təsviri.

Aktiv və passivləri idarəetmə komitəsi tərəfindən Müşahidə Şurasının növbəti iclasına vəsaitlərin və likvidliyin idarə edilməsi haqqında hesabat təqdim edilir Bu hesabata aşağıdakı məlumatlar daxil edilir:

1. faiz dərəcələrinin dəyişilməsinə həssas olan aktiv və passivlərin cari faiz dərəcəsinin yenidən müəyyənləşdirilməsi zamanı onların arasında mövcud olan fərqlər;
2. faiz dərəcəsi riskinin idarə edilməsi üçün istifadə edilən və ya təklif olunan bütün balansdankənar əməliyyatlar və öhdəliklər, habelə ehtimal olunan xərclər;
3. bankin maliyyə vəsaitlərinə əlavə tələbatı və onların əldə edilməsi üçün planlar, mənbələr və qiymətlər;
4. bankın cari və proqnozlaşdırılan likvidlik əmsalları.

İnformasiya texnologiyaları komitəsi tərəfəindən Müşahidə Şurası-

nın növbəti iclasına idarəetmə informasiya sistemləri və əməliyyatlara dəstək barədə hesabat təqdim edilir. Bu hesabata bütün idarəetmə informasiya sistemləri, avadanlıqlar üçün ehtiyat prosedurları və qiyməti 10 min manatdan artıq olan kompüter avadanlıqlarının, proqram təminatının alınmasına və ya icarəsinə müraciət barədə məlumat daxil edilir.

Audit Komitəsi tərəfindən Müşahidə Şurasının növbəti iclasına qanunvericiliyin tələblərinə riayət edilməsi barədə hesabat təqdim edilir. Bu hesabata aşağıdakı sənədlər və məlumatlar daxil edilir:

1. qanunvericiliyin tələblərinə əməl edilməsi, aşkar olunmuş qanun pozuntuları haqqında məlumat və onların aradan qaldırılması üçün fəaliyyət planı;
2. daxili nəzarətin vəziyyətinin yoxlanması barədə hesabat və onun səmərəliliyinin artırılması barədə tövsiyələr, habelə kənar audit hesabatı və rəhbərliyə verilən təkliflər daxil olmaqla, kənar auditlə əlaqədar bütün yazışmalar;
3. banka, onunla əlaqədar şəxslərə təsir edə biləcək gözlənilən məhkəmə icraatı haqqında məlumat;
4. banka aid ola bilən hər hansı bir qanunvericilik aktı haqqında məlumat.

Müşahidə Şurasının digər inzibatçılarla münasibətdə fidusiar vəzifələri

Müşahidə Şurasının hər bir üzvü aşağıdakılara əməl etməlidir:

1. bankın maliyyə vəziyyətindən, habelə onun bütün mühüm əməliyyatlarından, işin xüsusiyyətlərindən və miqyasından daimi xəbərdar olmalı, İdarə Heyəti və digər inzibatçılar tərəfindən təqdim olunmuş hesabatları mütəmadi olaraq müstəqil şəkildə təhlil etməlidir;
2. öz vəzifələrini lazımi qaydada icra etməsi üçün zəruri olan vaxt və səylərini həsr etməli, bank və maliyyə sektorunda baş verən hadisələr və mövcud olan meyllər haqqında hər zaman mümkün qədər məlumata malik olmalı, bank sektorunda mövcud olan inkişafdan geridə qalmamaq məqsədi ilə lazım olan tədbirlərin həyata keçirilməsinə səy göstərməlidir;
3. bankın daxili və kənar audit hesabatları, bankla kənar auditorlar arasında bütün rəsmi yazışmalarla tanış olmalıdır.

Müşahidə Şurasının hər bir üzvü öz təhlilində və səsvermədə məntiqli, ehtiyatlı və konservativ olmalıdır. O, bankın mənafeyinə uyğun olmayan və ya uzun müddətli risklər hesabına, qısa müddətli gəlir əldə etmək perspektivinə yol verməməlidir.

Müşahidə Şurasının hər bir üzvünün işlərin müstəqil şəkildə idarə olunmasına dair aşağıdakı fidusiar vəzifələri yerinə yetirməlidir:

1. bankın mənafelərini qorumaq məqsədi ilə yalnız öz şəxsi mühakiməsinə və daxili inamına əsaslanaraq qərar qəbul etməli və səs verməlidir;
2. səsvermə və ya qərar qəbul etmə zamanı hər hansı bir səhmdarın və ya səhmdarlar qrupunun maraqlarına üstünlük verməməli və ya onların göstərişləri ilə hərəkət etməməlidir.

Müşahidə Şurasının hər bir üzvü işləri vicdanla, qərəzsiz və məxfiliyin qorunmasını gözləməklə aşağıdakı fidusiar vəzifələri yerinə yetirməlidir:

1. banka qarşı ədalətli olmalı və hər bir imkandan istifadə edərək bankın maraqlarını qorumalıdır. O, bankı, Şuranın digər üzvlərini və bankın digər inzibatçılarını içtimaiyyət qarşısında tənqid etməməlidir;
2. vəzifə borcunu yerinə yetirərkən ona məlum olan biznes imkanlarını əvvəlcədən Şuraya açıqlamadan və bu imkanları öz bankına təklif etmədən özünün və ya digər əlaqədar şəxslərinin mənafeyi üçün istifadə etməməlidir;
3. vəzifə borcunu yerinə yetirərkən ona məlum olan bank, onunla əlaqədar şəxslər, müştərilər və bankla biznes əlaqəsi olan başqa şəxslər haqqında hər hansı bir məxfi məlumatı, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, heç bir şəxsə açıqlamamalıdır.

Müşahidə Şurasının hər bir üzvünün İdarə Heyəti ilə münasibətlərindən irəli gələn aşağıdakı fidusiar vəzifələri yerinə yetirməlidir: ildə ən azı bir dəfə İdarə Heyəti üzvlərinin peşəkarlığını, onların bankın mənfəətlə işləməsinə və maliyyə vəziyyətinin sabit olmasına, strateji məqsədlərə vaxtında nail olunmasında xidmətləri, habelə tutduqları vəzifəyə uyğunluğunu qiymətləndirməlidir.

Müşahidə Şurasının hər bir üzvü Audit Komitəsi və daxili auditorlar ilə münasibətlərindən irəli gələn aşağıdakı fidusiar vəzifələri yerinə ye-

tirməlidir:

1. bankda daxili nəzarət, maliyyə fəaliyyətinin nəticələri və bankın Strateji Plana (Biznes Plana) əməl etməsi ilə bağlı problemləri müzakirə etməli və onları aradan qaldırmaq üçün Audit Komitəsi ilə mütəmadi olaraq görüşlər keçirməlidir;
2. Audit Komitəsinin və ya onun hər hansı bir üzvünün işinə heç bir şəkildə müdaxilə etməməli və onların İdarə Heyətindən, digər inzibatçılardan və səhmdarlardan müstəqil olmasını təmin etməlidir;
3. daxili auditorların fəaliyyətinə müdaxilə etməməli, yalnız Audit Komitəsinə daxili audit planının əsas istiqamətlərini müəyyən edən tövsiyələr verməli və daxili audit bölməsinin Audit Komitəsinə tabe olmasını təmin etməlidir;
4. daxili auditorlara bank və bankla əlaqədar şəxslər haqqında bütün zəruri olan məlumatların verilməsini və sənədlərin nəzərdən keçirilməsini, habelə onların zəruri əməkdaşlarla görüşməsini təmin etməlidir.

İdarə Heyəti - Bankın məsul icra orqanı kimi

Bankın İdarə Heyəti bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır. İdarə Heyəti 3 nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. İdarə Heyətinin üzvləri bank səhmdarlarının ümumi yığıncağı tərəfindən 4 ildən çox olmayan müddətə təyin edilirlər. Onlar növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların ümumi yığıncağı İdarə Heyətinin üzvlərindən birini İdarə Heyətinin sədri təyin edir. İdarə Heyəti sədrinin səlahiyyətləri İdarə Heyətinin əsasnaməsində müəyyən edilir.

Bu Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə uyğun gəlməyən fiziki şəxslər bankın İdarə Heyətinin üzvü ola bilməz və səhmdarların ümumi yığıncağının qərarı ilə İdarə heyətinin üzvləri vəzifəsindən azad edilməlidirlər.

İdarə Heyəti onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin qərarları yığıncaqda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda İdarə Heyətinin sədrinin səsi həlledici sayılır.

İdarə Heyətinin iclasları ən azı ayda bir dəfə keçirilir. O, fəaliyyəti

ilə əlaqədar Müşahidə Şurasına hesabat verir. İdarə Heyəti bankın idarə olunması və fəaliyyətinin, o cümlədən Strateji Planın (Biznes Planın) həyata keçirilməsi üçün məsuliyyət daşıyır. İdarə Heyəti bankın maliyyə nəzarəti sisteminin maliyyə idarəetməsi və hesabatlıq tələblərinə uyğun olmasını, büdcənin yerinə yetirilməsini təmin etməli və bankın qarşılaşdığı və proqnozlaşdırdığı risklərin idarə edilməsi üçün lazım olan prosedurları tətbiq etməlidir. Bu məqsədlə İdarə Heyəti ona həvalə olunmuş hüquqlar çərçivəsində funksiya və məsuliyyətin bölüşdürülməsini, idarəetmə hesabatlıq sisteminin təşkilini və bankın səmərəli idarə edilməsini təmin edən təşkilati strukturu tətbiq etməli və fəaliyyətini dəstəkləməlidir.

Audit Komitəsi - bankda audit işini təşkil edən orqan kimi

Hər bir bankda müstəqil Audit Komitəsi və daxili audit bölməsi (departament, şöbə və s.) fəaliyyət göstərir. Daxili audit bölməsinin əməkdaşı İdarə Heyətinin üzvü ola bilməz.

Bankın Audit Komitəsi üç nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Komitənin üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən 4 ildən çox olmayan müddətə təyin edilir. Komitənin üzvləri növbəti müddətə yenidən seçilə bilər. Səhmdarların Ümumi Yığıncağı Komitənin üzvlərindən birini Komitənin sədri təyin edir. Audit Komitəsinin üzvlərinin əmək haqqı formasında muzdu Səhmdarların Ümumi Yığıncağı tərəfindən təyin edilir.

Bank haqqında Qanunun 10-cu maddəsinin müvafiq tələblərinə uyğun gəlməyən fiziki şəxslər bankın Audit Komitəsinin üzvü ola bilməz və Səhmdarların Ümumi Yığıncağının qərarı ilə Audit Komitəsinin üzvləri vəzifəsindən azad edilməlidirlər.

Audit Komitəsi onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

İclasların keçirilməsi qaydası Audit Komitəsi haqqında təsdiq edilmiş əsasnamədə müəyyən edilir. Audit Komitəsinin qərarları yığıncaqda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir, üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Audit Komitəsi sədrinin səsi həlledici sayılır.

Daxili audit bölməsi (departament, şöbə və s.) Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir və bankın icra orqanı ilə qarşılıqlı surət-

də bankda daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyinə fasiləsiz nəzarəti həyata keçirir;

Daxili audit bölməsinin rəhbəri və əməkdaşları Audit Komitəsinin təqdimatı ilə bankın Müşahidə Şurası tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur. Bankda Audit Komitəsinin və daxili audit bölməsinin fəaliyyətinin standartlarını və qaydalarını Mərkəzi Bank müəyyən edir.

Audit Komitəsinin iclasları ən azı üç ayda bir dəfə keçirilir. Audit Komitəsi daxili audit bölməsinin fəaliyyətini təşkil və onun fəaliyyətinə nəzarət edir. Daxili audit bankın bütün fəaliyyət sahələrini əhatə edir. Audit Komitəsi qanunla müəyyən edilmiş səlahiyyətlərdən başqa aşağıdakı vəzifələri yerinə yetirir:

1. daxili audit bölməsinin əsasnaməsini təsdiq edir;
2. bankın inzibati, əməliyyat, uçot siyasəti və prosedurları üçün müvafiq daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər verir;
3. əməliyyatlarla bağlı vəzifələrin və məsuliyyətin bölüşdürülməsinin və əməliyyatlar üzrə ikili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər verir;
4. daxili audit bölməsinin büdcəsi, daxili auditorların vəzifədə irəliləyişi, işdən kənarlaşdırması və ya azad olunması, habelə mükafatlandırılması barədə bankın Müşahidə Şurasına təkliflər verir;
5. bankdaxili nəzarətin vəziyyətinin bankın reqlamentinə və fəaliyyətinin Strateji Plana (Biznes Plana) uyğunluğunun yoxlanılmasına dair audit hesabatlarını, habelə auditin müstəqilliyini və onun nəticəsinin əsaslandırılmasını qiymətləndirir və təsdiq edir;
6. daxili audit yoxlamasının nəticələrini, rəy, təklif və tövsiyələrini Müşahidə Şurasına təqdim edir və birgə təhlil edir. Aşkar edilmiş səhvlərin, nöqsanların, uyğunsuzluqların və pozuntuların aradan qaldırılması barədə Müşahidə Şurasına təkliflər verir;
7. kənar auditin gedişi zamanı bankın fəaliyyətinə dair mühüm fakt və məlumatların kənar auditora təqdim edilməsini təmin edir;
8. kənar auditordan audit zamanı aşkar olunan mühüm faktlar və hadisələr haqqında məlumatın dərhal ona verməsini tələb edir;
9. bankın daxili nəzarətinə və maliyyə vəziyyətinə dair mühüm məlumatları əks etdirən kənar auditorun hesabatının İdarə Heyətinə təqdim edilməsini təmin edir;
10. kənar auditor, İdarə Heyəti və digər inzibatçılarla birlikdə he-

sabatı müzakirə və təhlil edir, çatışmazlıqların və pozuntuların aradan qaldırılması üçün tədbirlər planlarının hazırlanması üzrə təkliflər verir;

11. zərurət yarandıqda mühüm məsələlərin müzakirə edilməsi məqsədi ilə Mərkəzi Bankın, bankın digər idarəetmə orqanlarının və kənar auditorun iştirakı ilə görüşlərin keçirilməsini təşkil edir.

Daxili komitələr

Müşahidə Şurasının vəzifəsinə bankın fəaliyyətindəki risk sahələrinin müəyyənləşdirilməsi və onların düzgün idarə edilməsinə nəzarət, İdarə Heyətinin vəzifəsinə isə risklərin idarə edilməsi prosedurlarının hazırlanması və tətbiqi daxildir. Müşahidə Şurası İdarə Heyəti ilə məsləhətləşmələrdən sonra bankda risklərin idarə edilməsi prosesini səmərəli həyata keçirmək məqsədi ilə müvafiq daxili komitələr yaradır və onun üzvlərini təyin edir. Komitələrin tərkibi, funksiya və səlahiyyətləri, habelə fəaliyyət qaydaları onların əsasnamələri ilə müəyyən edilir.

Bank fəaliyyətində mövcud olan risklərin idarə edilməsi məqsədilə bankda kredit risklərinin səmərəli idarə edilməsi ilə bağlı Kredit komitəsi, likvidlik və bazar risklərin idarə edilməsi ilə bağlı Aktiv və passivləri idarəetmə komitəsi yaradılmalıdır. Bankın informasiya texnologiyaları sistemlərinin səmərəli və təhlükəsiz işini təmin etmək, habelə bankın qarşılaşdığı diğər risklərin tənzimlənməsi məqsədilə müvafiq olaraq İnformasiya texnologiyaları komitəsi və digər komitələr yaradıla bilər. Komitə sədrlərrinin və üzvlərinin təyin edilməsi Müşahidə Şurasının səlahiyyətindədir.

Riskləri idarəetmə komitəsi

Risklərin idarə edilməsi üzrə müstəqil qərarlar qəbul edə bilən Riskləri idarəetmə komitəsi bankın İdarə Heyətinin ən azı bir üzvünün, eləcə də bankın struktur bölmələrinin rəhbər işçilərinin işçtirakı ilə tək sayda üzvlərdən ibarət olmaqla yaradılmalıdır. Riskləri idarəetmə komitəsinin səlahiyyətləri Mərkəzi Bankın müvafiq normativ xarakterli aktları ilə tənzimlənir.

Kredit komitəsi

Kredit komitəsi bankın İdarə Heyəti üzvlərindən və struktur bölməsinin rəhbərlərindən təşkil olunur. Komitəyə İdarə Heyətinin üzvü rəh-

bərlik edir. Bankın Baş Maliyyə İnzibatçısı və mühasibat xidmətinin vəzifəli şəxslərindən biri komitənin üzvü olmalıdır.

Kredit komitəsinin başlıca vəzifələri aşagıdakılardan ibarətdir:

1. Müşahidə Şurasının müəyyən etdiyi limitlərdən artıq kreditlərin verilməsi və kredit öhdəliklərinin götürülməsi, habelə onların şərtlərinin dəyişdirilməsi və restrukturizasiyasını təsdiq etmək;
2. kreditlərin cəmləşmələrinə nəzarət etmək;
3. müxtəlif fəaliyyət növlərinin və sahələrin kreditləşməsi üçün qaydaların hazırlanması və tətbiq edilməsini təmin etmək;
4. kreditlərin və kredit öhdəliklərinin faiz dərəcələrini müəyyən etmək;
5. vaxtaşırı kredit portfelinin qəflətən monitorinqini həyata keçirmək;
6. girovların müntəzəm olaraq yenidən qiymətləndirilməsini təmin etmək;
7. kreditlərin verilməsi üzrə səlahiyyətlərə və prosedurlara riayət edilməsini təmin etmək;
8. kreditlərin qaytarılması üçün görülən bütün tədbirlərin icrasına rəhbərlik etmək;
9. kreditlər üzrə mümkün zərərlər üçün yaradılmış ehtiyatların yetərliyini (adekvatlığın) yoxlamaq və təhlil etmək;
10. ayda bir dəfədən az olmamaq şərti ilə kreditlərin alınması üçün ərizələri nəzərdən keçirmək;
11. ən azı ayda bir dəfə kredit portfelinə aid riskləri təhlil etmək;
12. Mərkəzi Bankın qaydalarına uyğun şəkildə bütün kreditlərin təsdiqi, təsnifatı, ehtiyatların yaradılması, vaxtında və tam həcmdə ödənilməsi üçün struktur bölmələri tərəfindən hazırlanmış qayda və prosedurlara baxmaq və təsdiq olunması üçün Müşahidə Şurasına təqdim etmək.

Aktiv və passivləri idarəetmə komitəsi

Aktiv və passivləri idarəetmə komitəsi likvidliyinin və bütövlüklə aktiv və passivlərin idarə edilməsi üçün məsuliyyət daşıyan bankın İdarə Heyəti üzvlərindən və struktur bölmələrin rəhbərlərindən təşkil olunur. Komitəyə bu sahədə təcrübəsi olan İdarə Heyətinin üzvü rəhbərlik edir.

Aktiv və passivləri idarəetmə komitəsinin başlıca vəzifələri aşagıdakılardan ibarətdir:

1. Müşahidə Şurası tərəfindən təsdiq edilmiş qaydalara əsasən likvidlik və bazar risklərinin, habelə maliyyə vəsaitlərinin idarə edilməsi istiqamətlərini və hədəflərini müəyyən etmək;
2. onun səlahiyyətlətinə aid edilmiş risklərin idarə edilməsi ilə əlaqədar istiqamət və hədəflərlə bağlı qanunveriçiliyə riayət edilməsini təmin etmək.

İnformasiya texnologiyaları komitəsi

İnformasiya texnologiyaları komitəsi İdarə Heyəti üzvlərindən və müvafiq struktur bölmələrin rəhbərlərindən təşkil olunur. Komitəyə informasiya texnologiya sistemlərinin idarəedilməsi təcrübəsinə malik olan İdarə Heyətinin üzvü rəhbərlik edir.

İnformasiya texnologoyaları komitəsinin başlıca vəzifələri aşagıdakılardan ibarətdir:

1. bankın idarəetmə informasiya və digər avtomatlaşdırılmış sistemlərinin mükəmməl və fasiləsiz işini təmin etmək və monitorinqini aparmaq;
2. mühasibat uçotu və menecment informasiya sisteminin məlumatları üzrə adekvat ehtiyat nüsxələrinin (ehtiyat nümunələrinin) yaradılması üçün "Gözlənilməz hallar üzrə tədbirlər planının" işlənib hazırlanmasını təmin etmək;
3. informasiya texnologiyaları üzrə prosedurların hazırlanmasını təmin etmək.

İnformasiya texnologiyaları üzrə prosedurlar aşagıdakı sahələri əhatə edir:

1. informasiya texnologiyalarının tətbiqi;
2. informasiya təhlükəsizliyinin idarə edilməsi;
3. məlumatlara daxil olma hüququ;
4. informasiya texnologiyaları vasitələrinin fiziki təhlükəsizliyi;
5. tətbiq etmə üzrə nəzarət mexanizmləri;
6. fövqəladə hallar və ehtiyat mərkəzi.

İnformasiya texnologiyaları komitəsinin sədri informasiya texnologiyalarının səmərəli fəaliyyəti üçün məsulliyyət daşıyır. İnformasiya texnologiyaları üzrə struktur bölmənin rəhbəri İnformasiya texnologiyaları komitəsinin rəhbərinə hesabat verir.

İnformasiya texnologiyaları üzrə bütün mühüm məsələlərə İnformasiya texnologiyaları komitəsi tərəfindən müsbət rəy verildikdə və həmin məsələlərə İdarə Heyətinin razılığı olduqda Müşahidə Şurası bu məsələlər üzrə müvafiq qərar qəbul edir.

İnformasiya texnologiyaları komitəsinin sədri Müşahidə Şurasına əvvəlcədən müvafiq məlumat vermədən heç bir kənar şəxsi bankın informasiya texnologiyaları sistemlərinə xidmət göstərməyə cəlb edə bilməz.

Maliyyə idarəetməsi və hesabatlıq

Bankın maliyyə idarəetməsi və hesabatlığı aşağıdakı tərkib hissələrdən ibarətdir:

1. uçotun idarə edilməsi prosedurları;
2. rəhbərliyə məlumat;
3. maliyyə nəzarəti.

Maliyyə idarə etməsi və hesabatlığı üzrə vəzifələr aşağıdakı kimi bölüşdürülür:

1. Müşahidə Şurası bankın maliyyə idarəetməsinin və hesabatlığının üsullarını və qaydalarını müəyyən edir, onların lazımi qaydada və vaxtında yerinə yetirilməsinə nəzarət edir;
2. illik maliyyə hesabatları Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edilir. Müşahidə Şurası illik maliyyə hesabatlarının əsas istifadəçilərə vaxtında çatdırılmasını, Audit Komitəsi isə onların mötəbərliyini və aydınlığını təmin edir;
3. İdarə Heyəti Müşahidə Şurası tərəfindən təsdiq edilmiş büdcə və maliyyə planlaşdırılması sistemini yaradır və proqnozlaşdırılan mənfəətliyin vaxtaşırı təhlilini aparır;
4. Baş Maliyyə Inzibatçısı bankın mühasibat, hesabatlıq və maliyyə nəzarəti funksiyalarının lazımi qaydada təşkil edilməsini və onlara əməl edilməsini təmin edir;
5. Baş Maliyyə İnzibatçısı mühasibat prosedurlarının idarə edilməsini və bütün maliyyə və vergi hesabatlarının vaxtında hazırlanmasını və təqdim edilməsini təmin edir;
6. struktur bölmələrin rəhbərləri Müşahidə Şurası tərəfindən təsdiq edilmiş daxili qaydalara uyğun olaraq maliyyə nəzarətini həyata keçirmək üçün məlumatın hazırlanmasını və təqdim edilməsini təmin edir.

Bankın bütün struktur bölmələri və mühasibat xidmətinin əməkdaşları məhsul və xidmətlər haqqında cari məlumat bazasını yaradır. Müşahidə Şurası, İdarə Heyəti və ya bankın hər bir inzibatçısı bu məlumat bazasında saxlanan məlumatlarla istənilən zaman tanış olmaq hüququna və imkanına malik olmalıdırlar.

Filial və şöbələrin əməliyyatları bankın mühasibat kitablarında real vaxt rejimində və mərkəzləşdirilmiş qaydada əks etdirildikdə həmin filial və şöbəyə baş mühasibin təyin olunması məcburi deyildir.

Büdcənin hazırlanması

Büdcə növbəti təqvim ili üçün il başlanmazdan əvvəl tərtib olunur. Büdcənin hazırlanması ilin əvvəlinə bir ay qalmış başa çatdırılır. Büdcə Baş Maliyyə İnzibatçısının rəhbərliyi altında hazırlanır, İdarə Heyəti ilə razılaşdırılır və bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilir. Büdcənin icrasına məsul olan şəxslər və müddətlər müəyyən edilir.

14.4. Banklarda insan resurslarının idarə edilməsi

İqtisadiyyatın qloballaşması və beynəlmiləlləşməsinin güclənməsi, texniki tərəqqi, informasiya texnologiyasının inkişafı, rəqabətin gücləndirilməsi və eyni zamanda əməkdaşlıq, əmək bazarında demoqrafik və maarifləndirici irəliləyişlər nəticəsində iqtisadiyyatda və bankların iqtisadi strategiyasında növbəti struktur irəliləyişlər olur:

- demərkəzləşdirmə və qərarların qəbul olunmasının struktur bölmələrə verilməsi vasitəsi ilə bankların struktur uyğunlaşması güclənir;
- bankların iqtisadi beynəlmiləlləşdirilməsi artır;
- fəaliyyətin effektivliyi və fəaliyyətin təminatına xərclərin minimallaşdırılması bankların strategiyasının ən əhəmiyyətli məqsədinə çevrilir.

Bu dəyişikliklər, öz növbəsində, bankların işçi heyəti ilə iş təcrübəsində dəyişikliklərə səbəb olur. Onlardan ən əhəmiyyətlisi aşağıdakılardan ibarətdir:

- innovasiya qabiliyyəti, yaradıcılıq və uzunmüddətli oriyentasiya bankların menecmentinin lazımi komponentinə çevrilir;

- idarəetmə üslubu, dəyərlər sistemi və bankların menecerlərinin ixtisas-davranış profili bürokratikdən sahibkara qədər dəyişir;
- insanlar və onların qabiliyyətləri - bankların ən qiymətli ehtiyatlarıdır. Personaldan istifadənin effektivliyinin artması bankların strateji məsələsidir. Insanın potensial (intellektual və sosial) inkişafı dövlət banklarında olduğu kimi xərclər deyil, investisiyalar maddəsinə çevrilir;
- kadrlarla ənənəvi iş bankın insan ehtiyatlarının iqtisadiyyatına dəyişir.

Bankın insan ehtiyatlarının iqtisadiyyatının mahiyyəti ondan ibarətdir ki, insanlara rəqabət mübarizəsində bankın əmlakı kimi baxılır ki, onları strateji məqsədlərə nail olmaq üçün yerləşdirmək, əsaslandırmaq, başqa ehtiyatlarla (maliyyə, informasiya) birlikdə inkişaf etdirmək lazımdır.

İşçi heyətin iqtisadiyyatının ənənəvi funksiyası kimi kadrlarla iş növbəti xüsusiyyətlərə malikdir:

- *fraqmentarlıq, epizodiklik və ya, ən azı, hər bir ayrı- ayrı əməkdaşla işdə dəyişkənlik.* Kadrlar xidmətləri ayrı-ayrı işçilərlə gündəlik məşğul olmur və əsasən tələb olunduqca, marketinqdən və işəgötürmədən başlayaraq işdən azad ilunmaya və ya pensiyaya gedişin rəsmiləşdirilməsinə qədər məşğul olur;
- *fəaliyyətin əsasən köməkçi xarakteri*. Kadrlarla iş onların bilavasitə idarə edilməsindən deyil, işçi heyətin seçilməsi, təlimi və konsultasiyasından ibarətdir;
- *Rəhbər səlahiyyətlərin müqayisəli məhdudluğu*. Kadrlar şöbəsinin rəhbərləri ümumiyyətlə bölmə rəhbərlərindən daha az rəhbərlik səlahiyyətlərinə malikdirlər. İnsan ehtiyatlarının iqtisadiyyatı funksiyalarının reallaşdırılması zamanı bankın personalıyla iş üzrə departamentin vəzifələri bunlardır:
- bank strategiyasının hazırlanmasında iştirak;
- əməkdaşların seçilməsi, işə götürülməsi və yerləşdirilməsi;
- əməkdaşların motivasiyası və mükafatlandırılması;
- əməkdaşların attestasiyası, əməyinin nəticələrinin qiymətləndirilməsi;
- korporativ iqlimin formalaşması;
- təlim və insan ehtiyatlarının inkişafı;
- işçilərin ixtisasının artırılması.

Son zamanlar insan resursları iqtisadiyyatına yüksək diqqətin səbəbləri arasında bunlar ayrılır: bankın strategiyası ilə personalın inkişaf proseslərinin obyektiv əlaqəsi, ixtisaslaşdırılmış menecerlərin işə götürülməsində çətinliklər, əməkdaşların ixtisaslaşdırılmanın yeni məqsədlərinə daha elastik, daha asan uyğunlaşma ehtiyacı, işçi heyətin bank biznesinin məqsədləri ilə sıx əlaqəsi, nəticələrin və onların mükafata təsirinin qiymətləndirilməsinə böyük aksent, işçi heyətin planlaşdırılmasında daha mükəmməl metodologiya və təcrübəyə ehtiyac.

İqtisadi cəhətdən effektiv şirkətlərin təcrübəsi insan resursları iqtisadiyyatının əsasını təşkil edən bir sıra əhəmiyyətli prinsipləri təklif etməyə imkan verdi:

- əməkdaşların seçilməsi, işəgötürülməsi və yerləşdirilməsinin effektiv sistemi;
- əməkdaşlara münasibətdə motivasiya və əmək haqqının ödənilməsi sistemi ədalətlidir, başqa firmalara münasibətdə rəqabətə davamlıdır və yaxşı idarə olunandır;
- mükafat fərdi əməyinin və bölmənin/qrupun effektivliyinin nəticələrinə əsaslanır;
- işçilərin vəzifədə inkişafı, təlimi, yerdəyişməsi və vəzifə artımı onların əməyinin nəticələrinə, ixtisaslaşmasına, qabiliyyətlərinə maraqlarına və firmanın ehtiyaclarına uyğun olaraq həyata keçirilir;
- məşğulluq biznesin ehtiyaclarıyla, məhsuldarlığın fərdi səviyyəsiylə, qabiliyyətlərlə və ixtisaslaşma ilə bağlıdır;
- fərdi problemlər tez, ədalətli və effektiv həll edilir.

Sadalanan prinsiplər tam ölçüdə həmçinin bankların insan ehtiyaları iqtisadiyyatına aid edilə bilər. Bankın işçi heyəti ilə praktik iş olduqca müxtəlifdir və şərti olaraq növbəti tərkib hissələrinə bölünə bilərlər: kadr siyasətinin hazırlanması və həyata keçirilməsi; kollektivin sosial inkişafının idarə edilməsi; bürokratik kadr işi. Bankın kadr siyasətinin hazırlanması və həyata keçirilməsinə fəaliyyətin aşağıdakı növləri daxildir:

- kadrlarla işin konsepsiyasının hazırlaması;
- kadrların inkişafının planlaşdırılması;
- bankın və aparatın ali rəhbər kadrlarının seçilməsi və yerləşdirilməsi;
- ali rəhbər edən vəzifələrə kadrların ehtiyatının hazırlığı konsepsiyanın formalaşması və planlaşdırılması;

- rəhbərlər və onların müavinləri vəzifəsinə kadr ehtiyatının hazırlanması;
- orta ixtisaslı və mütəxəssis kadrların hazırlanması və yenidən ixtisaslaşması;
- kadrların hazırlanması və yenidən ixtisaslaşması sahəsində ali məktəblərlə, ixtisasın artırılması mərkəzləriylə və digər strukturlarla əlaqə;
- hazırlıq və kadrların yenidən hazırlanması sisteminin maliyyələşdirilməsi.

Bank kollektivinin sosial inkişafının idarə edilməsinə fəaliyyətin aşağıdakı növləri daxildir:

- bankın sosial proqramlarının hazırlanması və koordinasiyası;
- əməkdaşların əmək haqqının ödənilməsi konsepsiyasının hazırlanması; * əməkdaşların əmək haqqının ödənilməsi və tarifləri üzrə normativ materialların hazırlanması;
- kollektiv müqavilələrin və tarif razılaşmalarının hazırlanması, tariflərin və maaşın koordinasiyası;
- sosial stimulların və zəmanətlərin reallaşdırılmasında vahid siyasətin təminatı, əməkdaşlara xidmətin göstərilməsi;
- tibbi xidmətin koordinasiyası;
- əmək kollektivlərinin şuralarıyla əlaqə.

Bankın işçi heyəti ilə bürokratik kadr işinə daxildir:

- kadrların (qəbulu, çıxarılma, yerdəyişməsi) hərəkətinin rəsmiləşdirilməsi, müqavilələrin hazırlanması;
- kadrlarla iş üzrə korporativ normativ və metodik materialların hazırlanması;
- pensiyaların rəsmiləşdirilməsi.

Bankın işçi heyətinin iqtisadiyyatının funksiyasının inkişafında kadrların iqtisadiyyatından insan resurslarının iqtisadiyyatına təkamülün tendensiyalarını qeyd etmək olar ki, onlar personalla iş üzrə bölmənin əməkdaşlarının funksiyalarının dəyişikliyində növbəti tendensiyalara yaxınlaşırlar:

1. Biznes planın istehsal aspektlərinə reaksiyalar kimi kadrların planlaşdırılmasından - bankın biznes-planlaşdırmasına tamamilə inteqrasiya etmiş insan resurslarının planlaşdırılmasına qədər

2. Kadr siyasətinin aksenti kadrların seçimindən və yerləşməsindən bankın formalaşmasıda və insan resurslarının inkişaf strategiyasının reallaşdırılmasında iştiraka doğru yerini dəyişir. Əgər qiymət rəqabəti bankın məqsədirsə, əmək bazarı isə iş qüvvəsinə ehtiyacları təmin edə bilmirsə, o zaman işçi heyətin iqtisadiyyatının innovasiya sistemi kimi insan ehtiyatlarının iqtisadiyyatı insan ehtiyatlarının lazımi keyfiyyətinin təmin edilməsi üçün əməkdaşların inkişafı və motivasiya və bank və işçi heyətin məqsədləri arasında balansın nailiyyəti yoluyla ən yaxşı mexanizmə çevrilir. İnsan ehtiyatları iqtisadiyyatına strateji yanaşma zamanı işi daha yaxşı yerinə yetirə bilənlərin cəlb edilməsi, motivasiyası, inkişafı və onların dəstəklənməsi bankların innovasiya strategiyalarına keçidi zamanı vacib işdir. Əməkdaşların məqsədyönlü, ziyalı və yaradıcı komandası bu gün tez-tez bankları bir-birindən əlverişli fəqrləndirir.

3. Fraqmentar kadr funksiyalarının icra edilməsindən bank menecmentinin insan resurslarının iqtisadiyyatı məsələlərinin və işçi heyətin menecment problemlərinin həllinə köməyə cəlb edilməsinə qədər. Bir sıra əvvəlki kadr funksiyalarını arxada saxlayaraq, bankın işçi heyəti ilə iş üzrə şöbəsi özünə yeni əhəmiyyətli funksiyanı əlavə etdi - ona tabe olan insan resurslarının inkişafında və ən yaxşı istifadəsində menecmentə yardım etmə. Menecmentin bankın gələcək insan potensialının inkişafına fəal cəlb edilməsi bu funksiyanın bir hissəsidir. İnsan resurslarının iqtisadiyyatı sahəsində mütəxəssis idarəetmə problemlərini və həll etməyə və əməkdaşlara rəhbərlik etməkdə kömək edən yüksək ixtisaslı məsləhətçi və ali menecment məsləhətçisi olmalıdır. Bununla əlaqədar insan ehtiyatlarının iqtisadiyyatı sahəsində mütəxəssislər əməkdaşların seçilməsində, onların motivasiyasında, karyeranın inkişafında və müxtəlif təşkilatı-mədəni dəyişikliklərin həyata keçirilməsində daha çox daxili məsləhətçiyə çevrilirlər.

4. İnsan ehtiyatlarının iqtisadiyyatını idarə edən şəxs funksiyalarının ixtisaslaşdırılması. İnsan ehtiyatlarının iqtisadiyyatını idarə edən şəxsən artan rolu, onun statusunun idarə etmənin ali dərəcəli menecerinə qədər artması seçmə, yerləşdirmə, inkişaf, motivasiya, irəliləmə və insan potensialından istifadə texnikasının mürəkkəbləşməsi bu peşəni bankın dirçəlməsi və müvəffəqiyyəti üçün ən əhəmiyyətli peşələrdən biri edir.

5. Bankın xarici mühitə uyğunlaşmasına böyük aksent. Uyğunlaşmaya elastiklik və qabiliyyət bu gün bank biznesinin əsas xarakteristikalarını təşkil etdiyindən, və şirkətin insan ehtiyatları - insanlar əsas baryer olduğundan (dəyişikliklər amili kimi) insan resurslarının iqtisadiyyatı-

nın ən əhəmiyyətli funksiyalarından biri işçi heyətin bankda təşkilat dəyişikliklərinə uyğunlaşma qabiliyyətinin inkişafı olur.

Bir qayda olaraq, uyğunlaşma qabiliyyəti işçi heyətin daha yüksək təhsil səviyyəsi, daha geniş ixtisaslaşdırılma, yenidən öyrənmək qabiliyyəti, yaradıcılıq səviyyəsi və innovasiyalılığı ilə bağlıdır. Bu bankın əməkdaşlarının qiymətləndirilmə və seçilməsi, treninqi və intellektual və sosial potensialının inkişafı metodları və texnikası nöqteyi-nəzərindən daha mürəkkəb məsələləri qarşıya qoyur.

6. Sosial əməkdaşlıq və əmək münasibətlərinin genişlənməsi və dərinləşməsi insan ehtiyatları iqtisadiyyatının daha əhəmiyyətli funksiyasına çevrilir. Bazar iqtisadiyyatında sosial əməkdaşlıq yalnız etik anlayış kimi deyil, həm də təşkilat prinsipi kimi nəzərdən keçirilir. O sosial kontekstdə qarşılıqlı asılılığın və həmrəyliyin tanınmasını, həmçinin ayrı-ayrı müxtəlif növ ictimai qrupların sosial marağının tanınması və nəticə kimi onlara idarə etmə qərarlarının qəbulunda iştirak etmək hüquqlarının verilməsini bildirir. Bankın miqyaslarında bu sahiblərin, menecmentin və əməkdaşların qarşılıqlı asılılığının tanınmasını və əməkdaşlara onların statusunun dəyişməsinə aid olan idarə etmə qərarlarının qəbulunda iştirak etmək hüquqlarının verilməsini bildirir.

7. İnsan ehtiyatlarının inkişafı və səmərəli istifadəsinin ən əhəmiyyətli amilləri kimi prinsiplər və motivasiya sistemi əhəmiyyətli dərəcədə dəyişir. Sosial bazar iqtisadiyyatı şəraitində motivasiyanın ən əhəmiyyətli prinsipi bunlardır:

- qarşılıqlı etibar atmosferinin yaradılması, qəbul edilən qərarların inandırıcılığı və menecment və əməkdaşlar kollektivinin əks əlaqəsi;
- işçi heyətin məşğulluğunun saxlanılması;
- məşğulluq, vəzifədə irəliləmə, əməkdaş tərəfindən nail olunmuş nəticələrdən asılı olaraq əmək haqqının artımı üçün bərabər imkanlar;
- sağlamlığın müdafiəsi, normal əmək şəraitinin təmin edilməsi;
- təlim;
- əmək məhsuldarlığının artmasından gəlirlərin muzdlu işçilər və sahibkarlar arasında ədalətli bölgüsü.

Bankın insan resursları iqtisadiyyatı üç ən əhəmiyyətli hissədən ibarətdir:

- insan ehtiyatlarının inkişafı;
- insan resurslarından istifadə;
- insanın və onun potensialının inkişafı üçün ətraf mühitin, həmçinin istifadə üçün əlverişli şəraitin formalaşması.

Strategiyanın hazırlanmasından başqa, bankın insan resurslarının inkişafına bilavasitə işçi heyətin proqnozlaşdırılması və planlaşdırılması, yeni işçilərin ixtisasının vaxtında artırılması, təlim və treninq üzrə başqa təşkilatlarla əlaqələrin möhkəmləndirilməsi, personalın attestasiyası və tədris ehtiyaclarının müəyyən edilməsi, peşəkar irəliləyiş sistemi daxildir.

İnsan ehtiyatlarının inkişafın sistemində fəaliyyətin yeni sferası korporativ mədəniyyət, onun daimi təhlili və yaxşılaşdırılmasıdır. Belə mədəniyyətin əhəmiyyətli xarakteristikaları, məsələn, açıq işgüzar ünsiyyət və horizontal əlaqələr, qəbul edilən qərarların izahatına, ali menecmentin əlçatanlığına, qeyri-formallığa, innovasiyalara və yaradıcılığa yönəlmiş idarəetmə üslubu ola bilər.

İnsan resurslarının inkişafı xərclər maddəsindən investisiyalar obyektinə çevrildiyindən, istənilən investisiyalar kimi, o kapital verilməsinin daimi qiymətləndirilməsini tələb edir, yəni insan ehtiyatlarının inkişafına xərclərin bankın effektivliyinə necə təsir etdiyini və gələcəkdə necə təsir edəcəyinin qiymətləndirilməsini tələb edir.

Sosial bazar iqtisadiyyatı şəraitində bankın işçi heyəti ilə işdə xüsusiyyətlər mövcuddur. İqtisadiyyatın bank sahəsinin nəticələri və spesifikasına əsaslanaraq onlardan bəzilərinin qısa təhlilini göstərək.

Bank əməkdaşlarının işəgötürmə və işdən çıxarılması şərtlərinin elastikliyi. Əgər əvvəl SSRİ-də insanlar demək olar ki, yalnız müddətsiz əmək müqavilələri şərtlərində işləyirdilərsə, hal-hazırda müəyyən müddətlə məhdudlaşdırılmış müqavilələr üstünlük təşkil edir. Bundan başqa, əmək müqavilələrinin əksəriyyətində sınaq müddəti müəyyən edilir ki, işçi təqdim edilən tələblərə uyğun olmadıqda dərhal işdən çıxarılmasını mümkün edir. İşçi heyətin seçiminin yeni formaları, məsələn lizinq (başqa təşkilatdan işə götürülmüşl işçilərdən istifadə), işçilərin əsas tərkibini azaltmağa və prinsip etibarilə, personalın sayının bankın ehtiyaclarına uyğunlaşmasına nail olmağa imkan verirlər.

Elastik iş vaxtı. Banklar həm fərdi iş vaxtının (məsələn müvəqqəti işçilər üçün) müəyyən edilməsi üçün, həm də onların qərarları tarif razılaşması çərçivəsində qeyd edilmiş müddəaları pozmursa əməyin mü-

vəqqəti rejiminin müəyyən edilməsi üçün daha geniş imkanlardan istifadə edə bilər.

Əmək haqqının elastik siyasəti. Banklar tarif razılaşmaları normalarından əlavə əmək haqqı və əlavə ödənişlər haqqında müstəqil qərarlar qəbul edir. Əməkdaşların müəyyən qrupları üçün onların maaşı və əmək müqaviləsi bütovlükdə müzakirə olunurlar və fərdi (söhbət tarifdənkənar əməkdaşlar haqqında gedir) razılaşdırılır. Bu həmçinin bu əməkdaşlara sosial ödənişlərə də aiddir.

Bankda namizədin iş yerinə seçimi əvvəl olduğundan, bu gün başqa prinsiplər üzrə baş verir. Bu halda çoxsaylı namizədlərdən təqdim edilmiş tələblərə daha uyğun uyğun olanını seçmək üçün seçimi əvvəl olduğundan daha çox şəxsi keyfiyyətlərə diqqət yetirirlər.

İşçi heyətin iqtisadiyyatı üzrə müasir ədəbiyyatda bu barədə fikir birliyi mövcuddur ki, işçi heyətin iqtisadiyyatının idarə edilməsi sahəsində qərarların qəbul olunması zamanı həm iqtisadi aspektlər (məsələn, işçi heyətə xərclər), həm də sosial aspektlər nəzərə alınmalıdır (məsələn, ədalətli əmək haqqı, kafi əmək şəraiti və s.) Məqsədə nailiyyət dərəcəsi qərarın keyfiyyətinin meyarı olduğundan, göstərilən aspektlər bankın işçi heyətinin idarə edilməsinin effektivliyinin məqsəd və meyarlarının formulunda öz əksini tapmalıdır. Məqsəd müəyyən vaxt müddəti vasitəsilə istənilən idarəetmə obyektinin arzu olunan vəziyyətinin təsviri deməkdir. Məqsədlərin yönəldici funksiyanı yerinə yetirməsi üçün onlar konstruktiv xülasə edilmiş olmalıdır, yəni məqsədin nailiyyəti dərəcəsini müəyyən etməyə imkan verən (məhsuldarlığın) effektivliyinin meyarlarının təsvirini özündə əks etdirməlidir.

Bankın işçi heyətinin iqtisadiyyatı sahəsində məqsədlərin konstruktiv təsviri üçün aşağıdakıları müəyyən etmək lazımdır:

- bank təşkilatının inkişafı üçün işçi heyətin iqtisadiyyatının idarə edilməsinin məqsədlərinin rolu necədir;
- işçi heyətin iqtisadiyyatı sahəsində kim və hansı iqtisadi məqsədlərə nail olmaq istəyir və bu məqsədlərdən hansıları bankın məqsədinə çevrilir;
- bankın işçi heyətinin iqtisadiyyatının idarə edilməsi sayəsində iqtisadi və sosial effektivliyin meyarları necə konkretləşir;
- hansı amillər bu məqsədlərin nailiyyətinə təsir edirlər;
- onların uyğunsuzluğu zamanı iqtisadi və sosial məqsədlərdə əks etdirilmiş maraqların balansına necə nail olunur.

Görünür ki, işçi heyətin idarə edilməsinin məqsədləri bankın inkişafının məqsədlərinin bir hissəsidir. Bankın səhmdarları, menecmenti, əməkdaşları və müştərilərinin tələbləri, həmçinin xarici sistemlərin (dövlət, iqtisadi, korporativ, ictimai və s.) bankın «davranışına» tələbləri məqsəd güman etmə prosesinin başlanğıc nöqtəsidir.

Bankın Direktorlar şurası tərəfindən səlahiyyət verilmiş orqan tərəfindən (şəxs tərəfindən) həyata keçirilməli olan məqsəd güman etmə prosesində, bankın davamlı inkişaf trayektoriyasının formalaşması əsasında tələblərin balansı əldə edilir. Bu trayektoriya bankın məqsədli vəziyyətlərinin konstruktiv təsvirlərinin vaxtı üzrə qarşılıqlı əlaqəlilər sistemini təşkil edir. Təsvirin konstruktivliyi iqtisadi və sosial effektivliyin meyarlar sisteminin formalaşmasını bildirir ki, onlar bankın işinin və onun menecment keyfiyyətinin qiymətləndirilməsi zamanı qarşıya qoyulmuş məqsədlərin nail olunması dərəcəsinin qiymətləndirilməsi üçün istifadə olunmalıdır. Bankın işçi heyətinin idarə edilməsi sahəsində məqsəd güman etmə prosesinə bunlar daxildir: əgər iqtisadi və sosial məqsədlər bir-biri ilə rəqabət aparırsa, onda adətən iqtisadi məqsədlər qrupu sosial məqsədlər qrupundan üstündür, çünki, bankın kapitalının sahiblərinin nisbi hakimiyyəti muzdla işləyənlərdən daha güclüdür və bankın (top-menecerlər) rəhbərliyi öz maraqlarında əməkdaşlardan çox sahibkarlara yönəlirlər. Qərarlar qəbul edən (menecerlər və işçi heyət şöbəsinin əməkdaşları, bankın idarə heyəti) şəxslərin öz fəaliyyətlərində hazırlanmış məqsədləri rəhbər tuta bilməsi üçün, iqtisadi və sosial effektivlik meyarları konkretləşdirilməlidir.

14.5. Banklarda qiymət strateqiyası

Qiymət siyasəti bankın apardığı marketinq strategiyası ilə üst-üstə düşməlidir. Adətən marketinq strategiyasını aşağdakı formalara bölünür: Bazara daxil olmaq və ya bazara nüfuz etmə yolları; Bazarın inkişafı; Bazarm seqmentləşdirilməsi; Yeni məhsulun istehsalı və ya modernləşdirmək yolu ilə yeni bazarlara müdaxilə.

Qiymət strategiyasının formalaşmasını üç mərhələyə bölürlər:

I. İlkin məlumatın toplanması;

II. Strategiyanın təhlili;

III. Strategiyanın formalaşması.

Qiymət strategiyasının formalaşması üç mərhələdə on əsas fəaliyyət dairəsinin öyrənilməsini tələb edir:

1. Xərclərin müəyyənləşdirilməsi;
2. Müəssisənin maliyyə vəziyyəti və məqsədi
3. Potensial müştərilərin müəyyən edilməsi;
4. Marketinqstrategiyasmm dəqiqləşdirilməsi;
5. Potensialrəqiblərin müəyyən olunması;
6. Maliyyə təhlili;
7. Bazar seqmentlərinin təhlili;
8. Rəqilələrin təhlili;
9. Dövlətin tənzimləyici rolu;
10. Nəticə olaraqstrategiyanın müəyyən olunması.

Qiymət strategiyasının işlənməsi mərhələsində bazarda şəraitin dəyişməsi və ya yeni məhsulun bazara çıxarılması zamanı mütəxəssis nə etməli olduğunu bilməlidir.

I. İlkin informasıyanın toplanması.

Menecment üçün bazarda rəqabət şəraitində İnformasiyanın nə dərəcədə əhəmiyyət kəsb etməsi məlumdur. Qiymət strategiyasının əsaslandırılmasında kompleks informasiya daha əhəmiyyətli rol oynayır. İnformasıyanın lazımı şəkildə dəyərləndirilməməsi, qiymət strategiyasının müəyyən olunmasında müxtəlif səhvlər buraxılmasma və bu isə, öz növbəsində, bankın zərərlə işləməsinə səbəb olur. Düzgün qiymət təyin etmək üçün dörd əsas amilli nəzərə almaq lazımdır:

- xərclər;
- müştərilər haqqında məlumat;
- rəqiblər haqqında məlumat;
- hökümətin qiymət sıyasətı.

1. Xərclərin müəyyənləşdirilməsi. Xərclərin müəyyən edilməsində əsas məqsəd hər bir məhsulun hazırlanması prosesində çəkilən xərcləri müəyyən etməklə məhsulun hansı miqdarda satılması nəticəsində bankın öz məsrəflərini hesablayıb mənfəətini müəyyən etməsidir. Məhsulun həcmindən asılı olan xərclərin düzgün qiymətləndirilməsinə xüsusi fikir vermək lazımdır. Belə ki, bəzi xərclər istehsalın həcmindən asılı oldugu halda, elə xərclər da var ki, istehsalın həcmindən asılı deyil.

2. Müəssisənin maliyyə vəziyyəti və məqsədi. Qiymət strategiyasının

hazırlanmasına başladıqda, qiymətlə məşğul olan qurum, maliyyə və digər menecerlərlə birlikdə müəssisənin maliyyə vəziyyətini və məqsədini müəyyən etməlidir. Bank bir məhsulun istehsalından hansı səviyyədə min. mənfəət əldə etməyini bilməklə yanaşı, yüksək mənfəət götürmək üçün hansı istiqaməti secməklə daha çox mənfəət əldə etmək istiqamətini müəyyən edərək uzunmüddətli plan qurmalıdır.

3. Potensial müştərilərin müəyyən edilməsi. Potensial müştərilərin müəyyən olunmasmda məqsəd təkcə o deyil ki, həmin müştəriləri hansı xidmət maraqlandınr. Məhsulun onlar üçün nə dərəcədə lazımlılığının öyrənilməsindən savayı, hansı amillər alıcının qiymət səviyyəsinə (büdcə məhdudiyyətləri, alıcılıq qabiliyyəti və. s)təsir göstərə biləcəyinin öyrənilməsi də çox vacibdir.

4. Marketinq strategiyasının dəqiqləşdirilməsi. Marketinq strategiyası ilə qiymət strategiyası öz-özlüyündə bir-birini tamamlayır. Belə ki, bazara yeni məhsulun çıxarılması və ya yeni bazara müdaxilədə, yeni müştərilərin cəlb olunmasında, bazarın müəyyən seqmentləri vasitəsi ilə müştərilərin tələbatlarının ödənilməsində qiymət marketinq ilə six bağlıdır. Qiymət ayrıca bir strategiya olmasına baxmayaraq marketinq strategiyasının ümumi elementlərindən biri kimi də çıxış edir. Ona görə də qiymət strategiyası ümumilikdə marketinq proqramının həll olunmasına istiqamətlənməlidir.

5. Potensial rəqiblərin müəyyən edilməsi. Bu məsələnin həlli üçün indiki və ya gələcək rəqiblərin məhsulun satılmasına təsir göstərə bilmək dərəcəsini müəyyən etmək lazımdır. Potensial rəqibə bankların bu gün və ya gələcəkdə hansı tarif dərəcələrindən istifadəsi, onların real müştərilər ilə bağlılıqları müqavilələrdə tarif dərəcələrinin nə qədər real olması haqqında məlumatlar olmalıdır. Qiymət strategiyasında rəqiblər ilə müqayisədə, rəqiblərin hansı zəif və güclu tərəflərini (tarif dərəcələrinin yüksək və ya aşağı olması; reytinqləri; xidmətləri daha təkmildir və ya xidmət növləri daha çoxdur) müəyyən etmək lazımdır.

Maksimum obyektiv informasıya almaq üçün informasiyalar müxtəlif mənbəbrdən daxil olmalıdır. İnformasiyanın bir mənbədən daxil olması səhv nəticəyə gətirib çıxara bilər.

II. Strateji təhlil

Son qiymət strategiyasmı müəyyən etmək üçün əvvəllər toplanılmış bütün məlumatlar bir daha ətraflı nəzərdən keçirilərək təhlil edilməklə

qiymət strategiyasını müəyyən etmək olar.

6. Maliyyə təhlili. Maliyyə təhlili aparılması üçün qiymətin mümkün variantlarını dəqıqləşdirməklə bankın mövcud və gələcəkdə satılacaq məhsullarına çəkilən xərclərin müəyyən olunması lazımı şərtlərdəndir.

Bank əvvəlcədən real və potensial müştərilərinə rəqiblərə nisbətən hansı üstunlüklərdən istifadə etməklə onların tələbatlarını dolğun ödəyəcəyini bilməlidir. Maliyyə təhlili vasitəsi ilə bank bilməlidir ki, bazarın hansı sektorunun üçün daha münasib və sərfəlidir. Bank hansı məhsulun satılmasını daha yüksək təşkil edib və gələcəkdə satacağı məhsullarin keyfiyyətini yaxşılaşdırmaq üçün əlavə xərclər sərf ediləcəyini bilməlidir. Bank rəqiblərə nisbətən məhsulun maya dəyərinə çəkilən xərcləri azaltmaqla və xidmətləri daha çox təkmilləşdirməklə rəqiblərlə müqayisədə üstünlük əldə etmiş olur.

Nəticəyə gəlmək üçün mütəxəsislər müəyyən bir məhsuldan əldə edilən uduşu, qiymətlər düşərsə xidmətlərin həcmi nə qədər artmalıdır ki, bankın həmin məhsula görə mənfəətlə işləməsini, şərti daimi xərclərin artmasını əvəzləşdirmək üçün, qüvvədə olan qiymətlər qalmaq şərti ilə nə qədər əlavə xidmət göstərmək lazım olmasını, qiymətlər qalxdıqda, nə qədər satışı ixtisar etmək lazım olmasını, şərti daimi xərclərin artımını doğrultmaq üçün, hansı miqdarda məhsul istehsalına nail olmaq lazım olmasını nəzərə almalıdırlar.

7. Bazarın seqmentlərinin təhlili. Bu təhlilin aparılmasından məqsəd qiymət və marketinq üzrə mütəxəsislərin bazar şəraitində bank məhsullarını qiymətləndirmək, bazarm konkret seqmentləri öyrənilməklə məhsulun qiymətini necə daha çox diferensiallaşdırma yollarını oyrənməkdir. Bunun üçün alıcının alçılıq qabiliyyətinin qiymətin səviyyəsinə yaxm olması, alıcıların birmənalı olaraq ayrı-ayrı tələbatlarının ödənilməsi kimi məsələlər meydana çıxır ki, onların da həlli üçün bazarın müxtəlif seqmentlərində, müştərilərin vaxtından əvvəl müəyyən olunmasmı, ayrı-ayrı hissələrinin qiymətin birinin artıb-azalmasının digər seqmentə təsir göstərməməsini necə təşkil edilməsini, qiymətlərin diskriminasiyası baş verdikdə qüvvədə olan qanunvericilik aktlarını pozmamaqla həll etməklə mümkün olmasıdır.

8. Rəqiblərin təhlili. Rəqiblərin bazardakı mövqeyini hərtərəfli təhlil etməklə hazırki şəraitdə və gələcəkdə rast ola bilən uğursuzluqların əvvəlcədən qarşısını almaq, istehsal olunacaq məhsulların qiymətinə rəqiblərin göstərəcəyi təsirlərin aradan qaldırılmasına kömək etmək

mümkündür. Bank göstərdiyi xidmət və əldə etdiyi mənfəətin hansı səviyyəyə qalxdıqdan sonra rəqiblərin diqqətini cəlb etməsini bilməlidir. Bank öz strategiyasını elə qurmalıdır ki, real rəqiblərlə mübarizədə həyata keçirmək üçün onlara informasiya təsiri göstərə bilməklə, məhsulun satış həcmini və mənfəətliliyini təmin etmək üçün bazarın eyni seqmentlərindən istifadə edərək rəqiblərə nisbətən daha stabil təminatlılıq yaratmaqla, elə seqmentdən istifadə etməlidir ki, rəqiblər ilə rəqabət şəraitində resursları daha çox rentabelli sahələrə yönəltməyə nail olsun.

9. Dövət tənzimlənməsinin təsirinin qiymətləndirilməsi. Belə bir strateji təhlilin aparılmasından məqsəd bankm qiymət strategiyasına dövlətin necə təsir göstərdiyini öyrənməkdir. Bank tərəfindən aparılan qiymət siyasətini tənzimləməkdə dövlətin məqsədi bankın müştərilərinin vəziyyətinə, bazarın seqmetlərinə təsir göstərə bilməsini və necə göstərə bilməsini, dövlətin təbii inhisarçılığı tənzimlənməsi, bankın çəkilən xərclərə təsir edə bilməsini və edə biləcəyi təqdirdə necə etməsini, dövlətin xarici bankların fəaliyyətini tənzimləmək sahəsində dəyişikliklər edə bilməsini **və** bunun qiymətə necə təsir etdiyini öyrənməkdir.

III. Strategiyanın formalaşması

Qiymətiniqtisadiyatda mühüm rol oynamasınının əsas şərti onun gəlirlərə mühüm təsir göstərmək qabiliyyətidir.

Marketinq baxımından xidmətlərin satışı mərhələsində müştərilər tərəfindən soruşulan qiymət məhsulun maya dəyərinin kalkulyasiyası nəticəsində yaranan qiymət deyil, əksər hallarda ona yaxın götürülən bir qiymətdir.

Respublikada, əsasən, rəqiblərin qiymətlərini əsas götürərək banklar öz qiymətlərini tətbiq edirlər. Bu metod depozitlərin cəlb edilməsi, kreditlərin və nəğd vəsaitlərin verilməsi kimi əməliyyatlarda yanlışlıqlara, ziyana gətirib çıxarır.

Azərbaycan Respublikası Beynəlxalq Bankı tərəfindən ilk dəfə olaraq respublika bank sistemində daxili qiymətlərə əsaslanaraq məhsulların maya dəyərinə çəkilən xərcləri hesablamaq metodu qismən və həmçinin rəqiblərin qiymətlərindən istifadə metodlarından da istifadə etməklə tətbiq edilmiş və büdcə prosesinin formalaşmasında, məhsulların qiymətinin təyin olunmasında, tarif dərəcələrinin, cəlb edilmiş resursların və yerləşdirilmiş vəsaitlərin qiymətlərinin müəyyən olunmasında istifadə edilmişdir.

Bütün yuxarıda göstərilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olur ki, banklarda məhsulun istehsalına çəkilən xərclərin təyin edilməsi və rəqib qiymətlərindən istifadə etmə metodları əsas metodlar kimi istifadə edilə bilər.

Məhsulun istehsalına çəkilən xərclərin təyin edilməsi metodundan istifadə etdikdə bank məhsulları və xidmətlərinin qiymətinin formalaşmasına təsir edən amillərin nəzərdən keçirilməsi zərurəti meydana çıxır.

Bankların məhsulları olan müxtəlif xidmət növlərinin müştərilərə təklif olunması baxımından xidmətlər arasında müəyyən asılılıq vardır. Bəzən müştərinin bir xidmət növündən istifadəsi üçün bankın digər məhsullarından istifadə etmək zərurəti yaranır. Bankların göstərdikləri xidmət növləri arasındakı bağlılığa görə aşağıdakı kimi qruplaşdırmaq olar:

- Bir xidmətin göstərilməsində digər xidmət yardımçı rol oynayır;
- Bir xidmətin göstərilməsi üçün başqa xidmətlərin mövcudluğunun labüdlüyü;
- Bir -biri ilə əlaqəsi olmayan və ya eyni vaxtda göstərilən xidmətlər;
- Bir-biri ilə kompleks bağlı olan xidmətlər (paket).

Dünya Bank sistemi təcrübəsində 200-dən artıq növdə xidmət mövcud olmasına baxmayaraq, adətən aşağıdakı əsas xidmət növlərini fərqləndirmək olar:

- Resursların cəlb edilməsi və yerləşdirilməsi;
- Qiymətli kağızlarla əlaqədar əməliyyatlar;
- Müştərilərin vəsaitlərinin bu və ya digər formada saxlanılması;
- Nəğd pul xidmətləri;
- Qiymətlilərin saxlanılması və ya daşınması;
- Müştərilər arasında hesablaşmaların aparılması.

Bankməhsullarının bazarrəqabətliliyini müəyyən etmək üçün bankməhsullarını ayrı-ayrılıqda nəzərdən keçirilməsi məqsədəuyğundur.

Məlum olduğu kimi, banklar gəlirlərinin əsas hissəsini kredit əməliyyatlarından əldə etdiklərinə görə kredit məhsulunun növləri ayrı-ayrılıqda baxılıb tədqiq edilməlidir. Bununla əlaqədar qeyd etməliyik ki, Respublka iqtisadiyyatının maliyyələşməsinə banklar vasitəsi ilə kredit qoyluşlarının əsas hissəsi Beynəlxalq bankın payına düşür. Belə ki, 31 dekabr 2000-ci il tarixinə müştərilərə verilmiş kreditlər və avanslara görə faiz dərəcəsi 15%-22%, Azəriqazbank tərəfindən verilən kreditlərin faiz dərəcəsi 12%-28%, MBank tərəfindən verilən kreditlərin faiz dərəcəsi

8%-10%, Azərdəmiryolbank tərəfindən verilən kreditlər 16%-30% təşkil edib.

Beynəlxalq bank tərəfindən müştəri hesablarının qalıqlarına faiz hesablanması fərdi müqavilə əsasında aparılır ki, adətən bu 1% təşkil edir.

Hesablaşma hesablarında olan vəsaitlərə faiz hesablanması banklar tərəfindən əsasən fərdi şəkildə bağlanılır.

Beynəlxalq bank tərəfindən hüquqi və fiziki şəxslər üçün konvertasiya əməliyyatlarına görə 0, 8% komisiya, rezident və qeyri rezident banklar üçün konvertasiya əməliyyatlarına görə 0, 3% komisiya tutur. Arkobank müştərilərə SDV-ya konvertasiya əməliyyatlarına görə 0, 7% komisiya, MDB ölkələrinin valyutasına konvertasiyasına və ya əksinə 1% komisiya tutur. Ülpərbank tərəfindən müştərilərin konvertasiya əməliyyatları 0, 7% komisiya tutmaqla aparılır.

Dəmiryolbank tərəfindən müştərilərdən konvertasiya əməliyyatlarına görə 0, 5-1%), Azəriqazbank müştərilərin vəsaitlərinin konvertasiyasına görə 0, 3%) min 30-max 150 ABŞ dolları komisiya tuturlar.

Apardığımız təhlil banklar tərəfindən müxtəlif komisiyon dərəcələrinin tətbiq edilməsini doğuran səbəbləri aşkar etməyə imkan verir və bu səbəblər aşağıdakılardan ibarətdir: bankların hər birinin qiymət strategiyasının müxtəlifliyi:

- banklar məhsullar üzrə xərclərini tələb olunan səviyyədə təhlil etmirlər və ya edə bilmirlər;
- qiymətləri müəyyən edən struktur bölmənin olmaması və ya olan strukturun lazımı səviyyədə işləməməsi;
- bankların müəyyən müştəriləri güzəştli şərtlərlə cəlb etməkdə maraqlı olması;
- bankın rəhbərliyinin bank işini tələb olunan səviyyədə təşkil edə bilməməsi;
- informasiya bazasının məhdud olması.

Bazar seqmentinin təhlilində ən azı aşağıdakı əsas istiqamət üzrə məsələlər şərh olunur:

1) Hədəfə alınan bazar seqmentinin təsviri. Bazarın seçimi keçmişdə müşahidə olunmuş meyllərə, gələcək proqnozlara, xidmət olunmayan bazarın təhlilinə, bazar tədqiqatlarına, digər bazar iştirakçıların təcrübəsinə və sairlərinə əsaslanır. Məsələn; bank əsas diqqətini məzunlara yönəltməyi, yəni təhsili davam etdirmək üçün və ya ilkin biznes fəaliyyətinə başlamaq üçün kreditlər verməyi qərara alır. Bu növ bazar seqmen-

tində iştirak etmək üçün faktiki köməklik digər banklar tərəfindən bu növ müştərilərin kreditləşməsi təcrübəsinin öyrənilməsi ola bilər.

2) Hədəfə alınan bazar seqmentində əhalinin demoqrafik vəziyyətinin müzakirəsi. Hədəfə alınan bazar seqmentində əhalinin demoqrafik vəziyyəti müzakirə edilir: məsələn yaş, təhsil və məşğuliyyət növü. Hədəfə alınan bazar seqmentinin qiymətləndirməsini əsaslandırmaq üçün təhlilə demoqrafik, statistik və digər məlumatlar daxil edilir. Təhlilə tələb olunan cədvəllər əlavə edilə bilər.

- İqtisadi komponentin təhlilində əsasən aşağıdakı əsas məsələlər şərh olunur:
- İqtisadi proqnozun təsviri. Strateji planda ən azı 3 il üçün iqtisadi proqnoz təsvir edilir. Strateji planda mümkün olan maksimum variantlar əhatə edilir və iqtisadi vəziyyətin mümkün pisləşmə halları nəzərdən keçirilir. Məsələn, növbəti ildə iqtisadi vəziyyətin pisləşməsi gözlənildiyi halda, bank xərclərini azaltmaq məqsədilə hansı tədbirlər görəcək.

Bundan əlavə bankın inzibatçıları öz proqnozlarını əvvəlki dövrlərdə iqtisadi fəaliyyətin və göstəricilərin meyllərinə əsaslanaraq tərtib edə bilər.

Bankın fəaliyyətinə təsir göstərə bilən hər hansı milli, regional və ya yerli iqtisadi amillərin təsviri. Bankın fəaliyyətinə təsir göstərə bilən hər hansı milli, regional və ya yerli iqtisadi amillər göstərilir. Bazarda gözlənilən dəyişikliklər, bu dəyişikliklərin səbəbləri və onların banka göstərəcəyi təsir təhlil edilir.

Bankın maraq ğöstərdiyi istiqamətlərin cari iqtisadi xüsusiyyətləri. Hədəfə alınan bank xidmətlərinin, bazar seqmentlərinin cari iqtisadi xüsusiyyətləri əks edilir. Məsələn, ölçüsü, gəlirliyi, coğrafi yerləşmə xüsusiyyətləri və sairləri. İqtisadi komponentin təhlilində bank tərəfindən təklif olunacaq məhsullara və xidmətlərə təsir göstərən iqtisadi amillərin təsviri. Məhsullara və xidmətlərə təsir göstərə biləcək iqtisadi amillərə xüsusi diqqət yetirilməlidir. "Fəaliyyətin təsviri" bölməsində müxtəlif bazar seqmentləri üçün müxtəlif xidmət növləri müəyyən edildikdə məhsullara və xidmətlərə təsir göstərə biləcək iqtisadi amillərin daha ətraflı təhlilinin aparılması tələb olunur.

Rəqabətin təhlilində əsas diqqət hədəfə alınan bazar seqmentində cari və potensial rəqabət şəraitinin şərhinə yönəldilir. Bu bölmədə oxşar xüsusiyyətli bankların fəaliyyətini təhlil etmək və müzakirə etmək daha məqsədəuyğun sayılır.

Rəqabətin təhlili aşağıdakı suallara cavab tapmaq üçün həyata keçirilir:

Bazar seqmentinin əsas iqtisadi xüsusiyyətləri hansılardır?

1.1. Bazar seqmentinin həcmi;

1.2. Rəqabətin əhatə sahəsi: yerli, regional, milli;

1.3. Bazar seqmentinin artım dərəcəsi və inkişaf mərhələsi (məsələn; ilkin inkişaf, sürətli inkişaf və yüksəliş, ilkin yetkinlik, yetkinliyin son dövrləri, durğunluq və köhnəlmə, pisləşmə və tənəzzül);

1.4. Rəqiblərin sayı və onların bazarın həcmində nisbi payı (məsələn; hər hansı bir sahədə çoxlu sayda kiçik banklar üstünlük təşkil edir və ya orada bir neçə iri bank cəmləşmişdir və onlar üstünlük təşkil edir).

Rəqiblər kimlərdir və onlar nə dərəcədə güclüdür?

2.1. Banklar arasında rəqabət (məsələn; kreditlərdəki, depozitlərdəki xüsusi çəkisi və s.);

2.2. Bir maliyyə təşkilatının rəqib tərəfin müştərisini (müştərilərini) cəlb etmək üçün bazardakı cəhdləri;

2.3. Yeni rəqiblərin yaranması potensialı;

2.4. Depozitorlar və kreditorlar (irəlidə-təchizatçılar) tərəfindən tətbiq edilə bilən təsir vasitələri. Məsələn: bank təchizatçılarının güclü və ya zəif olması təchizat sahəsinin (bazarın) bazar şəraitindən və onların təchiz etdiyi vəsaitin zərurətindən asılıdır. Təchizatçılar elə şəxslər, şirkətlər və banklardır ki, (Azərbaycan Respublikası Mərkəzi Bankı daxil olmaqla), onlar bankları depozit və kreditlərlə təmin edirlər. Hazırkı dövrdə təchizatçıların banka təsiri azdır, çünki təhcizat sahəsindən (bazardan) vəsaitlərin əldə edilməsi nisbətən asandır) və;

2.5. Bank məhsullarının alıcısı tərəfindən tətbiq edilə bilən təsir. Məsələn, bank məhsullarının alıcıları və ya müştərilər bir çox hallarda təsirli vasitələrə malikdirlər. Ən aydın nümunə isə iri müştərilərin olması və onların bank məhsullarının əhəmiyyətli hissəsini almasıdır. Müştərilər nə qədər iri olarsa, onların bankla sövdələşməsində təsiri bir o qədər yüksək olur.

Bank sektorunda dəyişikliklərə təkan verən amillər hansılardır və bu amillərin təsir imkanları?

Bank sektorunda dəyişikliklərə səbəb olan və ya təsir edən xüsusi amilləri müəyyən etmək üçün ciddi təhlil aparmaq tələb olunur. Sektorda

ən üstün qüvvələr aparıcı qüvvələr hesab olunur. Bu qüvvələr sektorda və rəqabət şərtlərində hər hansı bir növ dəyişikliklərin baş verəcəyinə ən çox təsir göstərir. Aparıcı qüvvələrin təhlili iki mərhələdə aparılır:

3.1. aparıcı qüvvələrin müəyyən edilməsi;

3.2. Onların sektora göstərəcəkləri təsirin qiymətləndirilməsi.

Aparıcı qüvvələr aşağıdakılara əsasən müəyyən oluna bilər:

3.2.1. yeni məhsulun təqdim edilməsi (yeni məhsulun təqdim edilməsi sektorun müştəri bazasını genişləndirə bilər);

3.2.2. texnoloji inkişaf (texnologiyanın inkişafı sektoru mühüm dərəcədə dəyişə bilər, aşağı maya dəyəri ilə yeni və/və ya daha da təkmilləşdirilmiş məhsulların istehsalına imkan yarada bilər və sektor üçün yeni imkanlar aça bilər);

3.3.3. iri bankların bazara daxil olması və bazardan çıxması (əvvəllər yerli bankların üstünlük təşkil etdiyi bazara xarici bankların daxil olması demək olar ki, hər zaman rəqabət şərtlərini dəyişdirir).

Hansı banklar ən güclü və ya zəif mövqeləri tutur?

Bankların rəqabət üstünlüyünü təhlil etməkdə məqsəd rəqib bankların bazar mövqeyinin öyrənilməsidir. Bunun üçün oxşar bankların (məsələn; aktivlərin həcminə görə) göstəricilərinin müqayisə edilməsi üsulundan istifadə edilə bilər.

Rəqiblərdən növbəti olaraq kim və hansı addımı atacaqdır?

Bankın ən yaxın rəqiblərinin hərəkətlərinin, tədbirlərinin və fəaliyyətlərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Bank rəqiblərinin fəaliyyətini hərtərəfli və yaxından öyrənmədən və onların növbəti dəfə hansı addımı atacağını qabaqcadan müəyyən etmədən rəqiblərini qabaqlaya bilməz. Rəqiblərin istifadə etdikləri strategiya və görəcəyi tədbirlər bankın öz strateji tədbirlərinə birbaşa təsir göstərən amillər kimi qiymətləndirməlidir. Bu məlumatların yığılması prosedurları göstərilməlidir.

Uğurlu rəqabətin əsas amilləri hansılardır?

6.1. Məhsulun yeniləşdirilməsi bacarığı;

6.2. Aşağı maya dəyəri ilə məhsul istehsalı;

6.3. Yüksək əmək məhsuldarlığı;

6.4. Güclü filial şəbəkəsi;

6.5. Yüksək keyfiyyətli informasiya sistemləri;

6.6. Ofislərin münasib yerlərdə yerləşməsi və;

6.7. Nəzakətli və müştərilərlə xoş rəftar edən işçilər;

6.8. Bankın məhsulları haqqında müştərilərin məlumatlandırılması.

Mənfəətliliyin orta göstəricidən yüksək olması nöqteyi-nəzərindən sektor nə dərəcədə cəlbedicidir?

Rəqabət təhlilinin son mərhələsi ümumilikdə sektorda vəziyyətin təhlil edilməsi və sektorun həm uzun müddət, həm də qısa müddət baxımından nisbi cəlbedici olub-olmamasından əsaslandırılmış nəticələrin çıxarılmasıdır. Daha zəif banklar isə sektoru tərk edəcək və ya rəqiblə birləşmək və ya ona qoşulmaq məcburiyyətində qalacaqlar. Güclü banklar daha cəlbedici və maraqlı fəaliyyət növünə keçmək şansı qazanmış olurlar.

Fəaliyyətin uğurlu olması barədə nəticə çıxararkən bankın rəhbərliyi aşağıdakıları nəzərə almalıdır:

7.1. sektorun artım potensialını;

7.2. üstünlük təşkil edən aparıcı qüvvələrin sektora əlverişli və ya əlverişsiz təsir göstərməsini;

7.3. iri bankların bazara daxili olmasını və ya bazardan çıxması perspektivlərini;

7.4. tələbin sabitliyini (məsələn; fəsli, biznes dövrünü, müştərilərin istəklərinin dəyişkənliyini və s. təsiri nəzərə alınmalıdır);

7.5. rəqiblərin güclənməsini və ya zəifləməsini;

7.6. sektorun gələcəyi ilə bağlı riski və ya qeyri-müəyyənliyi.

XV FƏSİL.

BANK FƏALİYYƏTİNDƏ MALİYYƏ NƏTİCƏLƏRİNİN TƏHLİLİ

– prof. **S.C.Qəhramanov** (15.1., 15.2., 15.3., 15.6.),
– i. f. d., dosent **Z.H.Zeynalov** (15.4., 15.5.)

15.1. Bank fəaliyyətinin təhlili vəzifələri
15.2. Bankların passiv əməliyyatlarının təhlili
15.3. Aktiv əməliyyatların təhlili
15.4. Kommersiya banklarının gəlirlərinin təhlili
15.5 Kommersiya banklarının xərclərinin təhlili
15.6. Kommersiya banklarının mənfəəti və rentabelliyi

15.1. Bank fəaliyyətinin təhlili vəzifələri

Bankların fəaliyyətinin təhlili onların maliyyə-iqtisadi vəziyyətinin hərtərəfli öyrənilməsi məqsədlərini daşımaqla, işindəki meyllərin müəyyən edilməsinə, təsir göstərən müsbət və mənfi amillərin, proseslərin aşkara çıxarılmasına xidmət edir.

Banklarda aparılan təhlilin məqsədləri ilə bu təhlilin qarşısında duran vəzifələr arasında sıx əlaqə və bağlılıq vardır. Bu mənada bank fəaliyyətinin təhlilinin yalnız banklara lazım olduğunu güman etmək olmaz. Belə ki, bu sahədə alternativ təhlillər aparmada maraqlı olan bir sıra digər subyektlərin tərəfmüqabillərin, digər bankların və bank olmayan kredit təşkilatlarının, dövlət vergi xidmətinin, hakimiyyət orqanlarının, auditor firmalarının, hazırki və gələcək müştərilərin, fiziki şəxslərin olduğunu vurğulaya bilərik.

Banklardakı maliyyə nəticələrinin sistematik təhlilinin aparılmasında Mərkəzi Bankın xüsusi yeri olduğunu qeyd etmək lazımdır.

Bununla belə, həmin təhlillərin istiqamətləri, həcmi, dərinliyi və meyarları arasında fərqlər vardır ki, onlar göstərilən subyektlərin işinin xarakterindəki tələblərdən irəli gəlir. Məsələn, bankın müştəriləri və müxbir banklar açıq olan məlumatlar əsasında bankın möhkəmliyini, dayanıqlığını, maliyyə vəziyyətinin ümidvericiliyini, ümumiyyətlə perspektivli olmasını və onunla əlaqələrin davam etdirilməsinin mümkünlüyünü yəqin edirlər. Bankın potensial müştərilərini də bu məsələlər marqlandırır.

Mərkəzi bankın apardığı təhlillərə gəldikdə, burada onun bilavasitə vəzifələrindən irəli gələn məsələlər: kommersiya banklarının təyin edilən məcburi iqtisadi normativlərə riayət etmələri, fondlara ayrılmaların düzgünlüyü və maliyyə hesabatlarının təhlili mühüm əhəmiyyət kəsb edir.

Kommersiya bankları özləri fəaliyyətinin təhlili sayəsində zəif cəhətləri aradan qaldırmaq, müsbət təsirləri gücləndirməklə, kommersiya maraqlarını hərtərəfli güdür, aktivlərin və passivlərin strukturunu təkmilləşdirərək, mənfəətini çoxaltmağa səy göstərirlər. Onların apardığı təhlilin istiqamətləndirilməsi, məzmunca bankın fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə, əməliyyat növləri üzrə birmənalı şəkildə gəlirliyin təmin edilməsinə yönəldilir.

Banklar üçün risklərin olmasını nəzərə almaq, böhranlı vəziyyətlərə qarşı hazır olmaq üçün lazımı səviyyədə aparılan təhlilin böyük əhə-

miyyəti vardır. Böhranların təsiri həmişə olmasa da, risklər və rəqabət şəraitində olmaq banklar üçün həmişə qalmaqdadır. Odur ki, banklarda təhlil aparılmaqla onların maliyyə vəziyyəti, dayanıqlığı və ümidvericiliyinin müəyyən edilməsi ardıcıl xarakter daşımalı, hələ üstəlik olaraq müştərilər və əlaqədar kredit təşkilatlarında bu cəhətdən vəziyyət aydınlaşdırılmalıdır. Bunlar qaçılmaz vəzifələrdir. Bankın fəaliyyətinin fasiləsizliyini təmin etmək, onun bütün xərclərinin ödənilməsinə və qazanca çıxmasına nail olmaq, xüsusən də zərərsiz işləmək üçün yollar aramaq təhlilin qarşısında duran vəzifələr sırasındadır. Bu baxımdan, nəzəri cəhətdən hər bir bankın fəaliyyəti təhlilin obyektidir. Eyni zamanda, əlaqədar təşkilatlar tərəfindən ölkədəki bankların fəaliyyətinə arazilər üzrə, fuknsional əlamətlərə görə və başqa cəhətlərdən təhlili də qarşıya qoyula və ondan praktik yönümlü nəticələr əldə oluna bilər.

Sözgəlişi, banklarda aparılan təhlil sadəcə açıqlama deyil, bunu qismən bank statistikası da edir. Təhlil banklarda operativ idarəetmə üçün, habelə gələcək (qarşıdakı) dövr üçün idarəetmə qərarlarının qəbuluna şərait yaratmalıdır. İdarəetmə qərarlarının qəbulu üçün təhlildən irəli gələn vəzifələr səhvlərdən yayınmağa, real şəraitə görə hərəkət etməyə, uyğunsuzluqların aradan qaldırılmasına xidmət etməlidir.

Bankların apardığı təhlil əhatəliliyi cəhətdən həm bank fəaliyyətinin daxili şəraitini və həm də xarici təsirləri nəzərdə tutur. Xarici təsirlər dövlətin apardığı iqtisadi siyasətin bilavasitə bank işinə aid istiqamətlərini və eləcə də, sözsüz olaraq Mərkəzi Bankın həyata keçirdiyi nəzarətin tələblərini əhatə edir. Bankların fəaliyyətinin daxili şəraitinə gəldikdə, bu onların maliyyə vəziyyətində (təbii ki, aidiyyətli göstəricilərlə), bankın texniki imkanlarında, bankqabağı bazar məkanındakı proseslərdə öz ifadəsini tapır. Bankın təşkilati strukturu və işçi heyəti də həmin imkanlara aidiyyətlidir.

Qeyd etmək olar ki, banklar arasında rəqabətin getdiyi, habelə böhran təsirlərindən qorunmaq zərurəti şəraitində dövlət orqanlarının nəzarətinin güclənməsi də nəzərə alınmaqla, bank fəaliyyətinə xarici şəraitin təsirləri də öz rolunu oynayır. Bunlarla yanaşı, banklarda beynəlxalq standartların tətbiqi və onların yerinə yetirilməsi də nəzərə alınmalı olur.

Banklarda aparılan təhlil bütünlükdə banka və eləcə də onların ayrı-ayrı əməliyyatlarına şamil edilir. İkinci halda bank fəaliyyətinin maliyyə nəticələrinə əməliyyat növlərinin ayrı-ayrılıqda təsiri, hər birinin mənfəətliyi aşkara çxarılmalıdır.

İqtisadiyyatda baş verən inkişaf və ciddi dəyişikliklər banklarda aparılan təhlilin qarşısında müvafiq tələblər qoyur. Bu onunla şərtlənir ki, təhlilin məna və məramı bank işindən irəli gəlir. Məsələn, bu və ya digər bankda ənənəvi olmayan bir əməliyyat növü yerinə yetirilməyə başladıqda onun təhlilinə də tələb yaranır, bu və ya digər səbəbdən dayandırılan əməliyyatın təhlilinə ehtiyac qalmır.

Bazarda bu və ya digər bank məhsullarına yaranan tələbat, ümumiyyətlə bazarın müvafiq dəyişiklikləri bankda aparılan təhlildə birbaşa nəzərə alınmalı olur.

Banklarda aparılan təhlilin vəzifələrində, onun praktik əsaslarında, aparılan təhlildən istifadənin böyük əhəmiyyəti vardır. Bu özünü onda göstərir ki, bankın fəaliyyətində hesabat dövründə baş verənlərin üzə çıxarılması və nəzərdə tutulanlarla müqayisəsilə problemlərin həllinə istiqamət müəyyən edilir, daxili ehtiyatlar aşkar olur, daha təkmil texnologiyalardan istifadə irəli sürülür. Odur ki, bankların keçən dövrlərdəki fəaliyyətinin təhlilindən gələcək dövrdə fəaliyyətin planlaşdırılması üçün istifadə olunmalıdır. Bu da banklarda təhlilin qarşısında duran və həllini tapa bilən məsələdir. Bunlarsız idarəetmə qərarları keyfiyyətli olmaz.

Yığcam şəkildə ifadə etsək, bank fəaliyyətinin təhlili onun aparıldığı anda mövcud iş nəticələrinin qiymətləndirilməsini, bu nəticələrin keçən dövrlərdəki müvafiq göstəricilələrlə müqayisə edilməsini, bu bankın fəaliyyət nəticələrinin analoji banklarla müqayisə olunmasını, təhlilin nəticələri ümumiləşdirilməklə idarəetmə qərarlarının qəbulu üçün təkliflər, məsləhətlər verilməsini əhatə edir. Bunlar ümumilikdə bankın səmərəli fəaliyyətinin davam etdirilməsinə, habelə yüksəldilməsinə yönəldilmiş olmalıdır.

Banklarda aparılan təhlil hərtərəfli informasiya bazası əsasında həyata keçirilir.

Xarakterinə görə bu informasiya müxtəlif mənbələrdən əldə edilən konkret və bəziləri ifadəli tərzdə olmaqla fərqlənir. Bunlar bu və ya digər bankın özündə olan informasiyadan və kənardan əldə edilən informasiyadan ibarət məlumatlar toplusudur. Ona görə, onlar təhlilin məqsədlərinə uyğun yönəldilir. Mənbələrin çox olmasına baxmayaraq, onarın müəyyən qaydada təsnifatsayağı ifadələrinə rast gəlinir. Bütün hallarda maliyyə hesabatlığı öndə durur ki, burada bankın balansı, ümumi maliyyə hesabatı, dövriyyə cədvəli, məcburi normativlər haqq-hesabı və digər maliyyə hesabatı formaları təmsil olunur. Sonra bankın yaradılması (təsi-

si) haqqında sənədlər və maliyyə sənədləri gəlir. İnformasiyanın bu qrupuna təsis müqaviləsi, bankın səhmdarlarının (payçıların) siyahısı, bankın lisenziyası, auditor rəyi, illik hesabatlar daxildir. Göstərilənlər daxili informasiya mənbələri olaraq səciyyələnir.

Bankların reytinqi haqqında məlumatlar, banklar haqqında jurnal və qəzetlərdəki obyektiv məqalələr, televiziya və radio verilişləri sahəsində aidiyyətli verilişlər, nəşr edilən illik hesabatlar, istehsal və istehlak haqqında statistik məlumatlar, ixtisaslaşdırılmış agentliklərdən alınan məlumatlar, habelə tanınmış mütəxəssislərin və müştərilərin fikir və təklifləri təhlil üçün informasiyanın xarici sistemi olaraq qəbul edilir.

Təhlil aparmaq üçün bankın informasiyalardan istifadə etmək imkanının təmin edilməsində onun öz statistik və mühasibat hesabatları, filialların məlumatları, bankdaxili işlər gedişində hazırlanan hesablamalar, tədqiqat və təftiş aktları, bəzi arayışlar mühüm mənbələrdir. Bunlar müxtəlif məsələlərin araşdırılmasında, aydınlaşdırılmasında öz rolunu oynayır.

Hesab edilir ki, kommersiya banklarının fəaliyyətinin təhlilində onların ümumi əsaslarda olan maliyyə hesabatları xüsusi əhəmiyyətə malikdir. Bu ondan irəli gəlir ki, ümumi maliyyə hesabatı kommersiya bankları tərəfindən Mərkəzi Bankın müəyyən etdiyi standartlarda tərtib olunmaqla yanaşı, onlar açıq mətbuatda dərc olunmaqla, maraqlanan bütün hüquqi və fiziki şəxslər tərəfindən baxılıb özünəməxsus sürətdə təhlil edilir. Xüsusən də, bu hesabatın Mərkəzi Bank tərəfindən və digər banklarda baxılmasının əhəmiyyəti və spesifikliyi qeyd edilə bilər.

Azərbaycan Respublikasında «Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları»na əsasən maliyyə açıqlığı və şəffaflığın təmin edilməsi üçün «Bank bütün mühüm məsələləri, o cümlədən maliyyə vəziyyyəti, fəaliyyət nəticələri, mülkiyyət və idarəedilmə üzrə məlumatları əsas istifadəçilərə vaxtında və dəqiq açıqlayır». (12.1)

«Bank ilin sonunda maliyyə hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq konsolidasiya əsasında hazırlanmış və kənar auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə əsas istifadəçilərə maliyyə ilinin qurtarmasından ən geci beş ay sonra təqdim edir. Bank illik maliyyə hesabatlarını kütləvi informasiya vasitələrində dərc etdirir». (12.2) Buradan da bankların maliyyə hesabatlarının yüksək dərəcədə məsuliyyətli və təhlil aparmaq üçün əvəzsiz əhəmiyyətə malik olması meydana çıxır.

Bununla belə, nəzərdən qaçırılmamalıdır ki, banklar tərəfindən məlumatların açıqlanması heç bir vəchlə «Banklar haqqında» Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş «Bank sirri»nin müddəalarının pozulmasına gətirib çıxarmamalıdır.

Eyni zamanda «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında» Qanuna əsasən «Mərkəzi Bank maliyyə sektorunun digər seqmentlərində tənzimləmə və nəzarət funksiyalarını həyata keçirən dövlət orqanları ilə qarşılıqlı əməkdaşlıq əsasında tənzimləmə və nəzarət obyektləri haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada məlumat mübadiləsi apara bilər, bu şərtlə ki, tərəflər aldığı informasiyanın məxfiliyini qoruyacaq və yalnız nəzarət məqsədləri üçün istifadə edəcəklər» (M.52).

Bank fəaliyyətinin maliyyə nəticələrinin təhlilində yuxarıda göstərilən bütün mənbələrin bu və ya digər dərəcədə əhəmiyyəti vardır. Ayrı-ayrı məsələlərin həllində informasiyanın bu və ya digər forması daha çox üstünlüyə malik olur. Lakin mütəxəssis iqtisadçılar, demək olar ki, bir səslə bankın balansının roluna üstünlük verirlər. Onlar haqlıdırlar. Hər bir bank onlar üçün müəyyən edilən müddətlərdə balansını, təsdiq edilən forma və məzmunda tərtib edir. Bankın mühasibat balansı onun maliyyə hesabatının tərkib hissəsi olaraq qiymətləndirilir. Azərbaycan Respublikasında «Bank və xarici bankın yerli filialı qanunvericiliyə və Beynəlxalq Mühasibat Standartlarına uyğun olaraq mühasibat uçotunu aparmalı, fəaliyyətini və maliyyə vəziyyətini əks etdirən hesabatları, o cümlədən illik maliyyə hesabatları tərtib etməlidirlər. Banklarda mühasibat uçotu qaydaları və hesabatların forma və məzmunu müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla Mərkəzi Bank tərəfindən müəyyən edilir». (M.43.1)

Digər tərəfdən, «Bankın maliyyə vəziyyətinin qiymətləndirilməsi məqsədilə, bank özünün və törəmə təsərrüfat cəmiyyətlərinin ayrıca olaraq və konsolidasiya əsasında prudensial və bank statistikası hesabatlarını Mərkəzi Banka təqdim etməlidir. Prudensial və bank statistikası hesabatlarının forması, məzmunu və təqdim edilməsi qaydası Mərkəzi Bank tərəfindən müəyyən edilir» (M.46.1.)

Banklarda aparılan təhlil üçün mühasibat balansının xüsusi əhəmiyyəti bir sıra cəhətlərdən irəli gəlir. Bankın mühasibat balansının xarakteristikası da diqqətə layiqdir. Lakin, burada sadəcə olaraq mütəxəssis iqtisadçıların məzmunca oxşar, ifadəcə fərqli qeydlərini qəbul etmək qənaətindəyik. Bu yanaşmalarla bankın balansı pul ifadəsi ilə onun re-

surslarının vəziyyətini, onların əmələ gəlmə mənbələrini və istifadə istiqamətlərini və eləcə də təhlil edilən dövrdə bankın maliyyə vəziyyətini xarakterizə edir. Bankın balansı iqtisadi təhlilin aparılması üçün əsas informasiya mənbəyi kimi qiymətləndirilir, o, maliyyə hesabatının mühüm bir hissəsi sayılır.

Burada banklarda maliyyə vəziyyətinin təhlili üçün onların balansının bütün imkanları verməsindən yox, mühüm əhəmiyyət kəsb etməsindən söhbət gedir. Belə ki, bankın balansında bir sıra məhdudluqlar vardır və məhz buna görə də yuxarıda göstərilən digər informasiya mənbələrindən istifadə edilməsilə təhlil tamamlanır, hər bir subyektə lazım olan anlaşma yaradılır. Bunun elə bir zərəri yoxdur və bankın balansının təhlil aparmaq üçün məhz üstünlükləri və vacib tərəfləri vardır. Balans elə bir fərqli maliyyə sənədidir ki, o, həm xarici maliyyə təhlilində və həm də bankdaxili təhlilin aparılmasında öz yerini, rolunu göstərir. Bankın balansı vasitəsilə onların xüsusi və cəlb edilmiş vəsaitlərinin mənbələrini, strukturunu və yerləşməsi vəziyyətini müəyyən tarixə, dinamika halında və müəyyən dövr üzrə müəyyən etmək mümkündür. Bankın balansının təhlili bu kredit təşkilatı üçün həyatı əhəmiyyətli olmaqla, onun gəlirliyinin, likvidliyinin, risk dərəcəsinin aşkara çıxarılmasına xidmət edir.

Bankların maliyyə-iqtisadi vəziyyətinin təhlili üçün informasiya mənbəyi olaraq onun balansının üstünlükləri mütəxəssis iqtisadçıların bəziləri tərəfindən göstərilmişdir. Bunlardan əsasən daha təsirli olanlarını ümumiləşdirərək ifadə etsək aşağıdakıları demək olar: bankın illik balansının (eləcə də mənfəət və zərərlər hesabının) qanunla hökmən nəşr etdirilməsi; bankların balans məlumatlarının Mərkəzi Bank tərəfindən pul-kredit siyasətinin əsas istiqamətlərinin hazırlanmasında və bank fəaliyyətinin tənzimlənməsində əsas mənbə olaraq istifadə edilməsi; bankın gəlirliyi, likvidliyi və risklərinin habelə bu kredit təşkilatlarının ixtisaslaşmasının müəyyən olunmasına xidmət etməsi; xüsusi vəsaitlərin vəziyyətini, resurs mənbələrinin və aktivlərin strukturu və dinamikasının müəyyən edilməsinə imkan verməsi; mühüm məsələ olaraq, bankın maliyyə vəziyyətinin bu və ya digər müddət ərzində dəyişilmə meyllərini təyin etmək üçün əsas verməsi və s. göstərilə bilər.

Bankın balansının təhlili onun iqtisadi potensialının kəmiyyətcə qiymətləndirilməsi, bankın kapitalı üçün təhlükə törədən risklərin meydana gəlməsinin müəyyən edilməsi, maliyyə vəziyyətində dəyişikliklərin və həmin dəyişikliklərin əmələ gəlmə amillərinin aşkara çıxarılması, bankın

fəaliyyətinin ümumilikdə və onun bölmələrində, habelə ayrı - ayrı əməliyyatlar üzrə qiymətləndirilməsi kimi məqsədlər daşımaqla, bunlardan irəli gələn vəzifələrin həllinə xidmət edir.

Bankların balansı onun üçün vacib olan tələblərə, prinsiplərə cavab verməlidir. Bununla belə, bu keyfiyyətlərə cavab verən balansın təhlil üçün qəbulundan ötrü və təhlilin aparılması üçün başqa mühüm şərtlərə də riayət edilməlidir. Təhlilin dəyərliyi də xeyli dərəcədə bundan asılıdır. Həmin ümumi şərtlər aparılan təhlilin operativliyinin, konkretliyi, sistematikliyi və obyektivliyinin təmin olunmasıdır. Bu tələblərə əməl etməklə, təhlilin aparılmasını banklar özləri münasib bildiyi şəkildə təmin edirlər. Bu halda işlərin bölgüsü, təşkili və gedişi əlbəttə ki, əməli cəhətdən fərdiləşir. Buna baxmayaraq, mövcud elmi nəzəri əsaslar mövcuddur ki, onlar yenə banklara kömək göstərir, banklar bu yolu qəbul etməklə hərəkət edirlər.

Bu mənada bankın balansının təhlili mərhələlərinin ardıcıl keçilməsi vacibdir. Həmin mərhələlərdə işlənilən informasiyalar fərqlənməklə yanaşı, aparılma vaxtına görə də fərqlənir. Kommersiya banklarının balansının təhlili mərhələlərinin göstərilməsində və izahında tanınmış elmi məktəblərin nümayəndələri eyni mövqedən çıxış edirlər. Biri birindən mənaca fərqlənməyən bu yanaşmalarda kommersiya banklarının balansının təhlili mərhələləri olaraq qabaqcadan olan mərhələ, təhlilin aparılma mərhələsi və yekunlaşdırma (başa çatdırılma) mərhələsinə ayrılması göstərilir.

Bankın balansının təhlilindən dəyərli nəticələr əldə edilməsi üçün bu ardıcıllığa riayət olunmalı və hər mərhələnin üzərinə düşən vəzifə yerinə yetirilməklə başa çatdırılmalıdır.

Təbii ki, qabaqcadan olan mərhələdən bankın balansının təhlilinə başlanır. Bu mərhələdə demək olar ki, dəqiqləşdirmələrlə bankın hesabatı təhlil üçün hazır vəziyyətə gətirilir. Bu zaman üzdə görünən sadə hesabi yoxlama aparılma təmin edilir. Yəni, bütün formaların və əlavələrin olması müəyyən edilir, balansın valyutası, hesabat formalarındakı göstəricilərin qarşılıqlı uyğunluğu, Mərkəzi Bankın müəyyən etdiyi normativlər və bankdaxili qaydalara riayət olunması yoxlanılır. Bu mərhələdə bankın balansı maddələrinin qruplaşdırılması təmin edilir. Bu məqsədlə aktiv və passiv maddələri müvafiq meyarlara görə qruplaşdırılır, sonra aktiv və passivlərin müvafiq qruplarının müddətlər üzrə, xərc növləri və onların mənbələri, habelə tərəfdaşlar üzrə uyğunluğu yoxlanılır. Qiymət-

ləndirmə və normativ göstəricilərinin haqq-hesabı aparılır. Təhlilə lazım gələn bu göstəricilər icmal cədvəldə əks edilənlərə əsaslanır.

Təhlilin məqsədlərindən asılı olaraq məlumatalrın daha yaxşı əks etdirilməsini təmin edən forma və tərkibdə fərqlənən cədvəllərdən istifadə olunur. Bankın fəaliyyət istiqamətləri xarakterizə olunur.

Balans təhlil üçün hazırlandıqdan sonra təhlilin aparılma metodikası müəyyən edilir. O, məqsədə müvafiq olmalıdır. Əslində maliyyə təhlilinin birinci mərhələsinə aid məsələlərdən biri olmaqla, bütün hallarda bilavasitə təhlilə başlanmazdan qabaq balansın strukturlaşması, yəni iqtisadi xarakterindən irəli gəlməklə, hesabların aktivlərdə və passivlərdə formalaşması təmin edilməlidir. Hesabların bu qruplaşdırılmasının düzgünlüyü əldə edilən sonrakı nəticələrə bərk təsir göstərir.

Bankın maliyyə vəziyyətini bu və ya digər cəhətdən səciyyələndirə bilən mütləq və nisbi göstəricilər də məhz strukturlaşdırılmış informasiya əsasında götürülür.

Bank fəaliyyətinin maliyyə təhlilinin birinci mərhələsində onun aktivlərinin keyfiyyəti, kapitalının yetərliyi, maliyyəcə sabitliyi, mənfəətliyi, və işgüzar fəallığı kimi göstəricilərin hesablanması qaydası təyin olunur. Təhlili aparmaq üçün hazırlanan cədvəllərin növləri və sayı, təhlilin aparılma metodları, araşdırılan göstəricilərin dinamikasını və strukturunu əks etdirməli formalar və hesablanma qaydası müəyyən olunur.

Təhlilin ikinci mərhələsi bilavasitə təhlil adlanır. İşin çoxunun düşdüyü bu mərhələ təhlilçilərdən də daha artıq bacarıq tələb edir. Bu mərhələdə hər cür lazımlı hesablamalar (haqq-hesablar) aparılmaqla, təhlilin ardıcıl təsviri verilir, nəticələrə gəlinir. Bundan sonra analitik qeydiyyatlar, kommentariyalar və məruzələr işlənib hazırlanır. Bu mərhələdə hesablanmış göstəricilərin həcmi, dinamikası və qarşılıqlı əlaqəsinin müəyyən edilməsi təhlilin yekunları üzrə nəticələrin hazırlanmasında mühüm əhəmiyyət kəsb edir.

Bankların fəaliyyətinin təhlilində yekun mərhələsində bankın maliyyə vəziyyəti qiymətləndirilir və onun fəaliyyətinin təkmilləşdirilməsi üzrə təkliflər hazırlanır. Bu mərhələdə müxtəlif ekspertlər də dəvət oluna bilər.

Qeyd edildiyi kimi, təhlilin təşkili və aparılmasında ayrı-ayrı banklarda fərdi hərəkətlər varsa da, ümumilikdə bankların balansının və ümumilikdə maliyyə vəziyyətinin təhlilində işin müvəffəqiyyəti təhlil prosedurlarının aparılmasının keyfiyyətindən asılıdır. Həmin prosedur-

ların ən mühüm tərəflərindən biri təhlilin metodlarının seçilməsi və yerli - yerində olmasıdır. Buna təhlilin metodiki təminatı deyilir. Bankların maliyyə-iqtisadi təhlili onlarvn fəaliyyətinin kompleks surətdə, bununla yanaşı qarşılıqlı əlaqəli şəkildə tədqiq edilməsi kimi qiymətləndirilir. Bu vəzifənin yerinə yetirilməsi yuxarıda xarakterizə edilən informasiyanın statistik, uçot və riyazi üsullardan aidiyyətli istifadə edilməklə, bacarıqla işlənməsi olaraq səciyyələndirilə bilər.

Təhlil prosesi ayrı-ayrı əməliyyat növlərinin əməliyyatın məzmununa uyğun olan təhlil metodlarından istfiadə edilməklə, mərhələli ardıcıllığa riayət edilməklə aparılır.

Qabaqcadan aparılan təhlil mərhələsində balans maddələrinin strukturlaşdırılması əməliyyatı balansın aktiv və passiv maddələrinin qruplaşdırılmasını təmsil edir. Bunun üçün qruplaşdırma metodu yeganə əlverişli metod sayılır. Bunun ardınca təhlilçilər nəzarəti həyata keçirməlidir. Bunu təmin etməkdən ötrü aparılan əməliyyatın məzmunu aktiv və passivlərin ayrı-ayrı maddələrinin təhlilin müxtəlif istiqamətləri üzrə uyğunluğunun yoxlanmasıdır. Bu məqsədə çatmaq üçün ən əlverişlisi müqayisə və iqtisadi-statistik təhlil metodları hesab olunur.

Növbəti əməliyyait növü kalkulyasiyadır ki, bu əməliyyatın xarakteri qiymət qoyulmalı göstəricilərin və normativ göstəricilərinin haqq-hesabından (hesablanmasından) ibarətdir. Bunun təmin edilməsi üçün mütləq və nisbi kəmiyyətlər metodundan, bir də əmsallar metodundan istifadə edilməsi vacib sayılır.

Müqayisə ayrıca məlumat növü kimi aparıldıqda, bu əməliyyatın məzmunu hesablanmış göstəricilərin müqayisəli xarakteristikasından ibarət olur. Müqayisə əməliyyat növünün yerinə yetirilməsi üçün təhlilin bir neçə metodundan götür-qoyla istifadəsi lazım gəlir.

İxtisaslı iqtisadçılar müəyyən etmişlər ki, bu məqsədlə müqayisə metodundan başqa, dinamika sıralarının təhlili metodundan, kənarlaşdırma metodundan və indeks metodundan istifadə olunmalıdır.

Bank fəaliyyətinin təhlili gedişatında əyaniləşdirilməli materialların, yəni müvafiq cədvəllər və qrafiklərin hazırlanması başa çatdırılır. Bu əməliyyat növünün məzmunu tədqiq edilən göstəricilərin dinamikası və strukturunun əyaniləşdirilən massivlərinin seçilməsindən və əyani təsvir formasının müəyyən olunmasından ibarət olur. Buna nail olmaq üçün istifadə edilən təhlil metodu sadəcə olaraq – alınan nəticələrin əyani təsviri metodu adlandırılmışdır.

Bankın maliyyə vəziyyəti təhlilin yekunlarında qiymətləndirilməklə, mövcud olanların yekunu olaraq öz ifadəsini tapır. Təcrübədə maliyyəsi sabit olan banklar və işində problemlər yaranmış banklar olması meydana çıxır. Maliyyəcə sabit banklara fəaliyyətində çatışmazlıqlar olmayan banklar və bəzi çatışmazlıqları olan banklar aid edilə bilər. Problemli banklar isə maliyyəsindəki problemlərin dərinliyindən asılı olmaqla, ciddi maliyyə çətinlikləri olan banklar və artıq kritik maliyyə vəziyyətinə düşən banklar kimi qruplaşdırılır.

Qeyd etmək lazımdır ki, bank sisteminin dayanıqlığı ölkədəki bankların fəaliyyətinin nəticələrindən qaynaqlanır. Amma, onu da bilmək lazımdır ki, bir və ya bir neçə bankın maliyyə vəziyyətinin əngəlli olması bank sisteminin dayanıqlı olmadığını ifadə edə bilməz. Neçə bankın və nə dərəcədə maliyyə vəziyyəti problemli olduqda ölkənin bank sisteminin böhranlı olması, böhranqabağı vəziyyətdə olması, təhlükəli olması (digər şərtlər sabit qalmaqla) bank sisteminin ümumi potensialından və bir sıra başqa təsirli amillərdən asılıdır.

Azərbaycan Respublikasında bank sistemində dayanıqlığın təmin edtilməsi üzərində nəzarətin həyata keçirilməsində çox mühüm vəzifələri Mərkəzi Bank yerinə yetirir. «Mərkəzi Bankın fəaliyyətinin məqsədi, həmçinin, bank və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etməkdir». (Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Qanun, M.41.2). Bununla yanaşı, Mərkəzi Bankın funksiyalarından biri olaraq müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının «Banklar haqqında» Qanuna, «Mərkəzi Bank haqqında» Qanuna və onlara müvafiq olaraq qəbul etdiyi normativ aktlarına uyğun olmaqla, Mərkəzi Bank «Qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir» (M.5.0.7.). Bunlar ümdə xarakterli vəzifələrindən biridir. Bank fəaliyyətinin təhlilinə Mərkəzi Bankın qatılması bankların maliyyə vəziyyətinin sabitliyinin və bank sistemində dayanıqlığın təmin edilməsi nöqtieyi-nəzərindən olduqca əhəmiyyətli iqtisadi-hüquqi əsaslardır.

Bank sistemində dayanıqlığın təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankı bir sıra iqtisadi normativlər müəyyən edir ki, onlar kommersiya bankları üçün məcburi və həm də hesabat xarakterlidir. İqtisadi normativlər tapşırılan kəmiyyətlər olmaqla, müəyyən əmsallarla ifadə olunur, beynəlxalq qaydalara uyğunlaşdırılmışdır.

Kommersiya bankları tərəfindən iqtisadi normativlər mühasibat balansının məlumatları əsasında, əmsallar metodundan istifadə edilməklə

hazırlanır. Hesabat xarakterli olan bu normativlərdən bir sıra məqsədlər üçün istifadə olunur. Bunları hazırlayan bank və Mərkəzi Bank öz məqsəd və vəzifələrinə uyğun olaraq onlardan istifadə edirlər.

Mərkəzi Bank burada onu nəzərdə tutur ki, hər bir kredit təşkilatı tərəfindən mərkəzləşdirilmiş ehtiyatlara normativlərə uyğun olaraq vəsaitin köçürülməsi və digər normativ göstəricilərinin müəyyən edilən səviyyəsinin təmin edilməsi ölkədə bank sisteminin maliyyə dayanıqlığı üçün vacibdir. Ona görə də, hər bir kommersiya bankı iqtisadi normativlərin yerinə yetirilməsi haqq-hesabını sistematik il boyu, hər ay aparmalı olur. Bu haqq-hesabın aparılması ilə banklarda iqtisadi normativlərin təhlili həyata keçirilir. Bunun əməli işdə məzmunu ondan ibarət olur ki, normativ göstəriciləri faktiki göstəricilərilə müqayisə olunur, təhlil edilən göstiəricilərin dinamik dəyişmələri bildirilir, normativlərin yerinə yetirilməsinə təsir edən amillər aşkara çıxarılır. Müvafiq cədvəllər tərtib olunur, hər bir göstəricinin onun normativ kəmiyyətinə uyğunluğu yoxlanılır.

Mövcud vəziyyətin dayanıqlı xarakter daşıdığını müəyyən etmək üçün göstəricilərin ardıcıl dəyişmələri nəzərdən keçirilir. Kənarlaşmalar ayrı-ayrı amillər üzrə müəyyən edilir. Mənfi hallar olduqda onun təsadüfi xarakterdə olması bir sıra illərin göstəricilərinə baxılmaqla aydınlaşdırılmalıdır.

Beləliklə, bank sisteminin dayanıqlığı və kommersiya banklarının dayanıqlığı arasında rabitə yaradılır, əlaqələndirilir. Banklarda aparılan təhlil bilavasitə onların möhkəmliyinə birbaşa xidmət etməklə yanaşı, bank sisteminin dayanıqlığına öz imkanları çərçivəsində təsir göstərir.

Bununla, bank fəaliyyətinin təhlili qarşısında duran vəzifələrin xarakterini, məqsədləri, istiqamətləri, metodları, informasiya mənbələri, əhəmiyyəti və gedişatı mərhələlərini insafən, yetərincə bildirdik.

Müəyyən edilən vəzifələrin bilinməsindən sonra, bank fəaliyyətinin maliyyə nəticələrinin təhlili ayrı-ayrı istiqamətlər üzrə aparılır, onların sayəsində tamamlanır.

Bank fəaliyyətinin maliyyə nəticələrinin təhlili üzrə növbəti məsələlərin düzgün dərk edilməsi üçün onun parametrlərini müəyyən etmək, paralellərini cözmaq lazımdır. Bundan irəli gələrək, qeyd edilməlidir ki, bankların passiv və aktiv əməliyyatlarının mahiyyət və məzmunca xarakteristikasının əvvəlki fəsillərin predmeti olması, prudensial normativlər, bank fəaliyyətinə dair tələblər, habelə bankların likvidliyi göstəricilərinin müvafiq paraqraflarda verilməsi, yüklü olması nəzərə alınmışdır.

15.2. Bankların passiv əməliyyatlarının təhlili

Bank əməliyyatlarının bilavasitə təhlilinə passivlərin təhlilindən başlanması qanunauyğun bir hal almışdır. Çünki passiv əməliyyatlar bank resurslarından istifadənin şəraitini və formalarını istiqamətləndirməklə, aktiv əməliyyatların tərkibinə və strukturuna təsir göstərən amil kimi çıxış edir.

Eyni zamanda bank passivlərinin təhlilində bank kapitalından başlanması qəbul edilir. Xatırladaq ki, bankın passivləri ümumiyyətlə, xüsusi kapitaldan (və ona bərabər tutulan maddələrdən), cəlb edilən və borc edilən mənbələrdən ibarət olmaqla, qrupa ayrılır. Təbii ki, təhlil zamanı resursların detallaşdırılmış növləri müvafiq haqq-hesablarda öz yerini tapır. Buna imkan verən odur ki, bankın balansının passivində onun mənfəətli istifadə məqsədlərilə səfərbərliyə aldığı bütün resurs mənbələri öz əksini tapır.

Indiki dövrdə Azərbaycan Respublikasında bankların kapitalının təhlili onların nizamnamə kapitalının, emissiya gəlirlərinin, yenidən qiymətləndirmə üzrə ehtiyyatlarının və mənfəətinin təhlilini əhatə edir.

Nizamnamə kapitalının tərkibi adi səhmlər və imtiyazlı səhmlərdən ibarət olmaqla müvafiq surətdə 50020 saylı və 50021 saylı hesablarda vəsaitlərinin varlığı və hərəkətini araşdırmaqla aparılmalıdır. Bunun ardınca adi səhmlər üzrə emissiya gəlirlərini təmsil edən 50030 saylı və imtiyazlı səhmlər üzrə emissiya gəlirlərini əks etdirən 50031 saylı hesablar üzrə təhlil aparılmalıdır.

Əsas vəsaitlər və qeyri-maddi aktivlərin yenidən qiymətləndirilməsi üzrə ehtiyatların təhlili məqsədilə müvafiq surətdə 50060 və 50061 saylı hesabların təhlili aparılmalıdır. Həmin ehtiyatların tamamilə bank kapitalı sinfinə aid olduğu bilinməlidir.

Satış üçün mövcud olan qiymətli kağızların yenidən qiymətləndirilməsi üzrə ehtiyatların təhlili 50090 saylı hesabın, digər yenidənqiymətləndirmə üzrə ehtiyatların təhlili üçün isə 50100 saylı hesabın təhlili aparılmalıdır.

Təhlil zamanı kapital ehtiyatının təhlilində 500111 saylı hesaba əsaslanmaq lazımdır. Onunla eyni qrupda yerləşən 50110 saylı hesaba əsasən keçmiş illərin mənfəəti araşdırılmalıdır.

Bundan əlavə təsdiq olunmamış mənfəətə diqqət verilməlidir. Belə-

liklə, keçən ilin təsdiq olunmamış mənfəətinin təhlili 50120 saylı hesab əsasında, cari ilin təsdiq olunmamış mənfəətinin təhlili 50130 saylı hesabın təhlili üzrə aparılmalıdır.

Kommersiya banklarının yaratmış olduğu fondlar (ehtiyat fondu və digər fondlar) onların xüsusi vəsaitlər mənbələri olaraq qəbul edilir.

Bankların öz kapitalının strukturunda I dərəcəli və II dərəcəli kapitalının fərqləndirilməsi Azərbaycan Respublikasında bank kapitalının təhlilində tətbiq edilir.

Səhmdar kommersiya banklarının I dərəcəli kapitalının və II dərəcəli kapitalının təfsilatı xarakteristikasının əvvəlki fəsillərdə verilmiş olmasını nəzərdə tutmaqla, bu barədə yığcam bir açıqlama veririk. Azərbaycan Respublikasında bankların birinci dərəcəli kapitalına nizamnamə kapitalı, səhmlərin emissiyasından əlavə vəsait və bölüşdürülməmiş mənfəət aid edilir. İkinci dərəcəli kapital isə, cari ilin mənfəəti, ümumi ehtiyatlar, kapitalın digər vəsaitlərindən ibarət tərkibdədir.

Burada göstərilənlər Azərbaycan Respublikasında bank sektorunun məcmu kapitalının strukturunu səciyyələndirir. Dünya təcrübəsində bankların xüsusi kapitalının iki yerə ayrılmasında formaca fərq vardır. Belə ki, bəzi ölkələrdə I dərəcəli kapital və II dərəcəli kapital əvəzində bankın əsas kapitalı və bankın əlavə kapitalı adlandırılan bölgü qəbul edilmişdir. Bunları eyni mənalı hesab etmək olar.

Kapitalın real faktlara görə təhlilinin verilməsi epizodik nümunə olmaqla yanaşı, təhlildə əyaniləşdirmənin nümunəsi rolunu oynayır. Konkret banklarda kapitalın təhlilinə gəldikdə, onlar bir sıra incəliklərin olması ilə səciyyələnir.

İlk növbədə hər bir bankın Mərkəzi Bankın müəyyən etdiyi minimal məbləğdə kapitala malik olması yoxlanılır. Məsələn, müəyyən edilmişdir ki, Azərbaycan Respublikasında bank sektorunda bu göstəricini təmin edən (məcmu kapital > 10 mln. manat) bankların böyük əksəriyyətini təşkil edir. Onların ümumi bank kapitalında xüsusi çəkisi 01.01. 2009-cu ildə 98, 6%, 01.01.2010-cu ildə 98, 7% 1911-ci ildə 98, 9%, və 1912-ci ildə 99, 4% olmuşdur.

Bank fəaliyyəti praktikasında bankların iqtisadi cəhətdən möhkəmliyini təmin etmək məqsədilə, kapitalın yetərliyi göstəricisindən istifadə olunur ki, bu da Azərbaycan Respublikasının banklarından tələb olunur. Mərkəzi Bankın müəyyən etdiyinə görə bank sektorunda kapitalın adekvatlıq əmsalı təyin olunmuş normativdən və beynəlxalq təcrübədə qəbul

olunmuş normativdən xeyli yuxarıdır.

Bankların likvidliyinə gəldikdə, o, bank sistemində sabitliyin təmin edilməsində mühüm rola malikdir. Azərbaycan Respublikasının bankları üzrə ümumilikdə likvidlik göstəricisi təyin olunmuş normativ göstəricisindən xeyli yuxarı olması ilə səciyyələnir.

Konkret bank baxımından bankın kapitalının ümumi vəziyyətinin onun kapitalına yönəli tələblərə görə bilinməsi kifayət deyildir. Xüsusi (öz) kapitalının bütün vacib əlamətlərini təhlil zamanı aşkara çıxarmaq lazımdır. Buna görə də xüsusi vəsaitlərin təhlilində hətta bankın səhmdarlarının (digər variantda payçılarının) tərkibini də təhlil etmək lazım bilinir. Bankda olan məlumatlara əsasən səhmdarların şəxsi hesabları, bankın buraxmış olduğu səəhmlərin alqı-satqısı üzrə əməliyyatlar diqqətə alınmaqla, onların maraqlarını da işdə nəzərə almaq məqsədəuyğun hesab edilir.

Təcrübədən belə bir fakt da məlumdur ki, xüsusi kapitalın bütün elementləri deyil, xüsusi vəsaitlərin müəyyən hissəsindən fəal istifadə etmək mümkündür. Bu nöqteyi - nəzərdən xüsusi vəsaitlərin brutto və netto olmaqla, iki yerə ayrılması faktı əsas götürülməlidir.

Kapital-brutto nizamnamə fondu və digər fondlardan və bankın mənfəətindən ibarətdir.

Kapital–nettonun hesablanması üçün brutto-kapitaldan müəyyən çıxılmalar edilir. Bunlar səhmdarlardan alınmış səhmlər, amortizasiya istisna olmaqla qeyri-maddi aktivlərə qoyuluşlar və köhnəlmə istisna olmaqla əsas vəsaitlərə qoyuluşların onları formalaşdıran mənbələrdən artıqlığından ibarət olur.

Kommersiya banklarının kapitalı onların xüsusi vəsaitləri olaraq təhlil edildiyi üçün bu vəsaitlərin həcmindən başqa, onların istifadə üçün nə dərəcədə yararlı olmasını müəyyən etmək lazımdır. Çünki bunlar brutto-xüsusi vəsaitlərindən və netto-xüsusi vəsaitlərindən ibarət olur. Brutto-xüsusi vəsaitlərinin tərkibində həm netto – xüsusi vəsaitləri və həm də immoblizasiya olunmuş xüsusi vəsaitlər vardır.

İmmobilizasiya olunmuş xüsusi vəsaitlərə investisiya aktivləri, bankın xərcləri və zərərlər aid edilir. Bunlar müəyyən edildikdən sonra bankın netto-xüsusi vəsaitləri təyin olunur. (Paraqrafın sonunda verilən düsturlar siyahısına bax).

Bunun bank işində böyük əhəmiyyəti ondadır ki, təhlilin bu momenti sayəsində real olaraq bank fəaliyyəti üçün istifadə edilə biləcək xüsusi

vəsaitlərin həcmi təyin olunur. Bu da məhz netto-xüsusi vəsitlərindən ibarət olmaqla müəyyənləşdirilir.

Əmsallar metodikası tətbiq edilməklə bankın xüsusi kapitalının tərkibi keyfiyyətcə qiymətləndirilə bilər: (Düsturlar siyasısına bax).

İmmobilizasiya əmsalının ayrı-ayrı dövrlərdəki vəziyyəti bankın gəlirliyinə təsir edir. Azalma müsbət, artma mənfi xarakterlidir.

Bankın xüsusi vəsaitlərindən istifadənin səmərəliliyi isə 1 manatlıq kredit qoyuluşuna düşən xüsusi vəsaitlərin qədərini bilməklə aydın olur. Onun müəyyən edilməsi üçün müvafiq əmsal hesablanmalıdır. (Düsturlar siyahısına bax).

Banklarda kapitalın tərkib hissələrinə onların nizamnamə fondu, iqtisadi həvəsləndirmə və s. fondlar, habelə mühüm elementlərdən biri olmaqla mənfəət daxildir. Onların sırasında hüquqi cəhətdən nizamnamə fondu mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında bankların nizamnamə kapitalı səhmdarların milli valyutada ödədiyi pul vəsaitləri hesabına formalaşdırılır. Xarici bankların yerli filiallarının nizamnamə fonduna bərabər tutulan vəsaitlərinə də bu qayda tətbiq olunur. Bu o deməkdir ki, məcmu kapitalda onun strukturu və komponentlərinə, hesablanmasına AMB tərəfindən qoyulan qaydalar, o cümlədən minimal ölçülər nizamnamə fonduna da şamil edilir. Buna müvafiq olaraq, onların vəziyyətinə təhlil zamanı baxılması lazım gəlir.

Kommersiya banklarının xüsusi vəsaitləri təhlil edilməklə, nizamnamə fondunun və digər mənbələrin bank kapitalının tərkibindəki xüsusi çəkisi və əvvəlki dövrlərdəkinə nisbətdə dəyişmələri müəyyən edilir. Nizamnamə fondunun təhlilinə xüsusi əhəmiyyət verilməsi ondan irəli gəlir ki, kommersiya bankında bu fondun artım tempi onun fəaliyyətinin miqyasına təsir göstərir. Bu cəhətdən, təcrübədə nizamnamə fondunun artım tempinin müəyyənləşdirilməsi qaydası qəbul edlmişdir.

Nizamnamə fondunun artım tempi faktiki ödənilmiş olan nizamnamə fondu məbləğinin bankın nizamnaməsində ilkin təsbit edilmiş məbləğinə bölünməsi yolu ilə müəyyən edilir.

Nizamnamə fondunun bankın malik olduğu xüsusi vəsaitlərin məbləğinə nisbəti (Düsturlar siyahısına bax).

Balans valyutasında nizamnamə fondunun xüsusi çəkisi qiymətləndirilməsi təmin edilməlidir. (Düsturlar siyahısına bax).

Hər iki halda hesablanan göstəricinin artması bankın mövqeyinin yüksəlməsi kimi təhlilin nəticələrində əksini tapmalıdır.

Bank passivlərinin təhlilində onun xüsusi kapitalının formalaşmasında səhmdar kapitalının iştirakı səviyyəsinin müəyyən edilməsi müvafiq əmsaldan istifadə olunmaqla təhlil edilir. (Düsturlar siyahısına bax)

Bankın nizamnamə kapitalının təhlilinin daha da detallaşdırılması və bunların illər üzrə müqayisə edilməsinin də təhlilin variantları olaraq tətbiq edilməsi təcrübəsi də diqqəti cəlb edir. Bu hallarda bankın səhmdarları tərəfindən faktiki ödənilən nizamnamə fondu məbləği, faktiki ödənilməyən məbləği, ödənilmə dərəcəsi, bir səhmin nominal dəyəri, nizamnamə fondunun ümumi məbləğində bir səhmin xüsusi çəkisi təhlil olunur. Bundan əlavə, bankın nizamnamə fondundan bir manatlıq aktiv əməliyyatlara, kredit qoyuluşuna, xüsusi vəsaitlərə, borc vəsaitlərinə, cəlb edilən vəsaitlərə, bankın öhdəliklərinə, bir səhmdara, bankın balans valyutasına düşən kəmiyyətlər müəyyən edilib qiymətləndirilir.

Bankların passiv əməliyyatlarının təhlilində xüsusi (öz) vəsaitləri ilə yanaşı cəlb edilmiş və borc edilmiş vəsaitlərin təhlili böyük əhəmiyyət kəsb edir. Cəlb edilmiş vəsaitlərin təhlili üçün onların iqtisadi mənalandırılmasını, xüsusiyyətlərini, əlaqələrini və s. cəhətlərini bilmək lazımdır. Bu məsələlər kitabın əvvəlki müvafiq fəsillərinin predmetidir.

Əlbət ki, aidiyyətli anlayışların adı çəkilməklə, onlara bəzi istinadlar burada ola bilər. Lakin, ağırlıq mərkəzi bu fəslin predmetinin üzərinə düşməlidir.

Bank işinin təcrübəsi cəlb edilən vəsaitlərin bank resurslarının formalaşdırılmasında böyük kəmiyyət üstünlüklərinə malik olduğunu göstərir. Azərbaycan Respublikasında da bu reallıq təsdiqini tapmışdır. İndisə qeyd edəcəyimiz kimi, borc edilmiş vəsaitlərə də bank passivləri sırasında yol açıqdır.

Kommersiya banklarının cəlb edilən və borc edilən vəsaitləri təhlil məqsədlərindən asılı olaraq müxtəlif əlamətlərə görə qruplarda birləşdirilə, ayrıla və lazım olsa detallaşdırıla bilər.

Eyni mənbələrdə bu nöqteyi - nəzərdən yanaşmalarda bəzi fərqlər varsada, bunlar mövqelərin yaxınlığını inkar etmir, kəskin diskusiya yaratmır. Zatən, bank passivlərinin yuxarıda qeyd edilən bu böyük toplumu kommersiya banklarının öhdəlikləri olaraq qəbul edilir.

Azərbaycan Respublikasında kommersiya banklarının öhdəlikləri milli valyutada və xarici valyutada öhdəliklərə bölünür.

Təhlilin incəliklərini aydınlaşdırmazdan əvvəl qeyd edək ki, Azərbaycan Respublikasında rəsmi oalraq kredit təşkilatlarının aşağıdakı öhdə-

liklərinin əmələ gəlməsinə yol verilir və onlara yönəli təhlil aparıla bilər:

- AMB qarşısında öhdəliklər;
- maliyyə sektoru qarşısında öhdəliklər;
- beynəlxalq maliyyə institutları qarşısında öhdəliklər;
- dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlar qarşısında öhdəliklər.
- xarici dövlətlərin rəsmi idarələri qarşısında öhdəliklər;
- dövlət mülkiyyətində olan hüquqi şəxslər qarşısında öhdəliklər;
- fiziki şəxslər və fərdi sahibkarlar qarşısında öhdəliklər;
- buraxılmış borc qiymətli kağızları;
- digər əməliyyatlar;
- mənfəət vergisi üzrə öhdəliklər;
- digər öhdəliklər;
- törəmə maliyyə alətləri üzrə passivlər;
- xaric olunan qrup üzrə passivlər;
- imtiyazlı səhmlər və pay formasında buraxılmış maliyyə öhdəlikləri;
- subordinasiya borc öhdəlikləri.

Bank öhdəliklərinin göstərilən sinifləri üzrə öhdəliklərinin bu və ya digər bankda necə olmasından asılı olaraq onlar aparılan təhlilin predmeti ola bilir.

Bankların cəlb etdiyi vəsaitlər onların aktiv əməliyyatlarının həyata keçirilməsində böyük rol oynadığı üçün onların təhlili hərtərəfli olmalıdır. Bu vəsaitlər müştərilərin tələbi və təklifi ilə açılan cari hesablarda, depozit hesablarında, fiziki şəxslərin əmanət hesablarında və s. hesablarda yerləşir.

Həmin hesablardakı vəsaitlər həcmcə dəyişmələrinə görə, struktur etibarı ilə, mülkiyyətçilərə məxsusluğuna görə, müddətləri etibarı ilə təhlil edilməlidir. Çünki, bu istiqamətlərdən hər birinin konkret mənası vardır və bank fəaliyyətinə bu və ya digər cəhətdən öz təsirini göstərir.

Depozitlərin müddətə görə təhlili onların tələb edilənədək və müddətli depozitlərə ayrılması baxımından əhəmiyyət kəsb edir. Bu ondan irəli gəlir ki, bankların resurs bazası təhlil edildikdə, onların sabitliyinin müəyyən edilməsi başlıca vəzifələrdən biridir. Ona görə də, depozitlərin müddətinə və əmanətçlərə görə, əmanətlərin şərtlərinə görə, ödənilən faizlərin həcminə görə və başqa mənalarda təhlili aparılmalıdır.

Depozitlərin strukturu təhlil edildikdə struktur əmsallarından istifa-

də edilə bilər (düsturların siyahısına bax).

Depozitlərin təhlilində bank üçün vacib olan cəhətlər vəsaitlərin məbləği və müddətləri olduğu üçün, onların ümumi məbləğinin və banklarda qalma müddətlərinin müəyyən edilməsi ortaya çıxır.

Depozitlərin cari dövrdəki məbləği keçən illərin məlumatları ilə müqayisə edilməklə, mütləq və nisbi dəyişmələr təyin edildikdən sonra onlara təsir edən amillər aydınlaşdırılır.

Müəssisə və təşkilatların cari hesablarından keçən vəsaitlər pul axınlarında mühüm yer tutduğu kimi, buradakı vəsait qalıqları depozitlərin mühüm bir hissəsini (tələb edilənədək qəbilindən olan depozitləri) əmələ gətirir. Baxmayaraq ki, bu vəsaitlər tez hərəkət etməsi, yaxud qalıqlarının dəyişilməsi (tərəddüd etməsi) ilə xarakterizə olunur, çoxsaylı hesabların açılıb aparılması ilə bağlı olaraq, bank üzrə ümumilikdə bu vəsaitlər əhəmiyyətli resurs mənbəyidir, və onların mütləq məbləği demək olar ki, sabitliyə yaxın hesab olunur. Müəssisə və təşkilatların müddətli depozitlərinə gəldikdə, bunlar təhlil zamanı qiymətləndirilir, hüquqi şəxslərin depozitlərinin strukturunu müəyyənləşdirən göstəricilərdən biri kimi səciyyələndirilə bilər.

Fiziki şəxslərin depozitləri də həcmcə və strukur etibarı ilə təhlil edilməklə yanaşı, digər əlaqədar göstəricilərə nəzərən nisbi göstəricilərlə də müqayisə olunur. Digər depozitlər kimi fiziki şəxslərin əmanətləri də müddətli və müddətsiz əmanətlərə bölünür, onların dinamikası və xüsusi çəkisi təyin olunur.

Hər halda, geniş yayılmış müddəa ondan ibarətdir ki, bankların cəlb etdikləri vəsaitlər sırasında nisbətən uzun müddətlərə kredit verilməsinə imkan verməsi cəhətdən müddətli depozitlərə üstünlük verilir.

Kommersiya bankları depozitlərinin sabitliyini qiymətləndirmək üçün pul vəsaitlərinin saxlanmasının orta müddəti göstəricisindən istifadə edə bilərlər (düsturların siyahısına bax).

Müxtəlif mənbələrdə bu göstəricidən hesablardakı vəsaitlərdən qısamüddətli kreditləşdirmənin həyata keçirilməsində istifadə edilə biləcəyini qiymətləndirmək vasitəsi kimi tətbiq olunması məsləhət bilinir.

Bundan əlavə, əmanətlərə daxil olan vəsaitlərin burada qalması səviyyəsi də hesablanır. (düsturların siyahısına bax).

Bankların cəlb etdiyi vəsaitlərin təhlili onların resurs bazasının qiymətləndirilməsində istifadə olunur. Odur ki, təhlil istiqamətlərindən biri müştəri hesablarının bunlardakı qalığın məbləğinə görə təhli-

lidir. Çox vaxt və zəhmət tələb etdiyinə baxmayaraq, bəzi banklar bunu icra edirlər. Hesablardakı vəsait qalıqları məbləği hesabların keyfiyyəti göstəricisi nəzərə alınmaqla təyin edilə bilər.

Kommersiya banklarının vəsaitlərinin təhlilində cəlb edilən vəsaitlərdən istifadənin səmərəliliyi də əhatə olunmalıdır. Cəlb edilən vəsaitlərdən istifadənin səmərəliliyini təyin etmək üçün aşağıdakı düstürdan istifadə edilə bilər (düsturların siyahısına bax).

Məzmunca bu göstərici 1 manat kredit qoyuluşuna nə qədər cəlb edilən vəsaitin düşdüyünü səciyyələndirir.

Bank passivlərinin təhlilini borc edilən vəsaitlərin təhlili üzrə davam etdirmək lazım gəlir. Çünki müasir dövrdə bankların özlərinin bilavasitə ehtiyacı və təşəbbüsü ilə passivlərin təşkili üçün borc edilən vəsaitlərdən istifadə edilməsi heç də təsadüfi xarakter daşımır, o, tez-tez baş verən münasibətlərdən biri olaraq meydana çıxır. Həm də, borc vəsaitləri bankların əməliyyatlarında bəzən məbləğcə sanballı vəsaitdir. Onu da qeyd etmək yerinə düşər ki, borc vəsaitləri bəzi ədəbiyyatlarda «sair mənbələr» adlandırılmaqla təqdim olunur.

Borc vəsaitləri bankların passivlərinin təşkilində bankın digər banklardan aldığı kreditlər formasında və Mərkəzi Bankın kommersiya banklarına verdiyi kreditlər şəklində kommersiya banklarının istifadəsinə keçir.

Müasir dövrdə bankların biri-birinə kreditlər verməsi onlar arasındakı tərəfdaşlıq əlaqələrinin təzahürü kimi çıxış edir. Kommersiya banklarının kredit resursları artıqlıq etdikdə, bunun kreditləşmə prinsipləri əsasında vəsaitləri çatışmayan banka borc olaraq verilməsi qanunauyğun bir haldır. Bu borcların depozitlər formasında və kreditlər şəklində yerləşdirilməsi ümumən qəbul edilmişdir. Banklararası kreditlərin verilməsi borc vəsaitlərinə olan tələbi ödəmədikdə, yaxud bu və ya digər səbəbdən əlverişli olmadıqda kommersiya bankları Mərkəzi Banka borc almaq üçün müraciət edə bilərlər.

Bu proseslər ümumilikdə bank passivlərinin borc vəsaitləri qruplarının təhlilini qarşıya qoyur. Onu da qeyd etmək lazımdır ki, bank passivlərinin borc vəsaitlərinə aid edilə bilən bütün qrupları həm milli valyutadakı hesablarla və həm də xarici valyutada olan hesablarla təmsil olunurlar.

Burada təhlilin istiqamətləri ilk növbədə maliyyə sektorundan alınmış qısamüddətli kreditlərdir ki, borc vəsaitləri sırasında əsas yeri tutur. Əvvəlcə milli valyutada alınmış qısamüddətli kreditlər, ardınca xarici

valyutada alınmış bu növ kreditlər təhlil edilməlidir. Analoji olaraq maliyyə sektorundan alınmış uzunmüddətli kreditlərin təhlili aparılmalıdır. Aparılan təhlil banklararası kreditlərin qısamüddətli və uzunmüddətli növlərinin nisbətinin müəyyən edilməsini, onların birlikdə və ayrılıqda dinamikasını əks etdirməlidir. Borc vəsaitlərinin bank passivləri tərkibində xüsusi çəkisi müəyyən edilməlidir. Əlbəttə ki, passivlərin bu hissəsinin qiymət cəhətdən necə başa gəlməsi başqa mənbələrlə müqayisə edilməlidir.

Bundan sonra, alınan banklararası kreditlərin mənşəyinə görə quruluşu, dinamikası və dəyəri (xərc tutumu) müəyyən edilməlidir. Azərbaycan Respublikasının bank qanunçuluğundakı xüsusiyyətlər nəzərə alınmaqla, bu iş maliyyə sektorundan alınmış qısamüddətli və uzunmüddətli kreditlər qruplarında təmsil olunan hesablar əsasında aparılmalıdır. Belə ki, maliyyə sektorundan alınmış qısamüddətli kreditlər milli valyutada və xarici valyutada olmaqla–valyuta mənsubiyyətinə görə və mənbələr üzrə təhlil edilməlidir. Mənbələrinə görə təhlil aparıldıqda rezident banklardan alınmış qısamüddətli kreditlər, qeyri-rezident banklardan alınmış qısamüddətli kreditlər, digər maliyyə institutlarından alınmış bu növ kreditlər, habelə «Nostro» müxbir hesabları üzrə overdraftın təhlili təmin edilməlidir.

Maliyyə sektorundan alınmış uzunmüddətli kreditlərin təhlilinə gəldikdə, bu iş həmin mənbələrdən alınmış depozitlərin təhlililə paralel aparılmalıdır. Bu tələb ondan irəli gəlir ki, maliyyə sektorundan bankların aldığı kreditlər və depozitlər vahid qrupda təmsil olunur. Buna imkan verən bir də odur ki, uzunmüddətli kreditlər kimi maliyyə sektorundan alınan depozitlər də milli valyutada və xarici valyutada olan vəsaitlərdən ibarətdir. Alınan depozitlərin mənbələrinə gəldikdə, bunlar həm rezident banklardan və həm də qeyri-rezident banklardan alınan borclar kimi çıxış edir.

Banklararası kredit onun adına uyğun banklararası bazarda bankların müxbir əlaqələri dairəsində istifadə olunur. O, resursların nisbətən bahalı mənbəyi olduğuna baxmayaraq, banklarda rentabelliyin və likvidliyin təmin edilməsində müəyyən rola malikdir. Təhlil zamanı bu məsələlərə təhlilçilərin qiymət verməsi lazımdır.

Onu da qeyd etmək lazımdır ki, istənilən bank digər banklara kredit vermək imkanında olmur. Bunu ancaq maliyyə cəhətdən möhkəm olan banklar edə bilər.

Bu səbəbdən, olsun ki, digər ehtiyaclardan irəli gələrək kommersiya bankları Mərkəzi Bankdan kreditlər cəlb edə bilər. Təcrübə göstərir ki, bu kreditlər kommersiya banklarının borc edilən vəsaitləri qismində işlədilməklə passivlərin təşkilində gərəkli bir mənbə olaraq özünü tanıtmışdır. Passivlərin təhlili aparıldıqda Mərkəzi Bankın kreditlərinə də baxılmalıdır.

Mərkəzi Bankın kreditlərinin mahiyyəti, məzmunu, verilmə qaydaları və s. başqa xarakteristikası kitabın müvafiq əvvəlki fəsillərinin predmetinə aiddlir. Odur ki, burada həmin kreditlər bank passivlərinin borc edilən vəsaitlərdən biri olmasını qeyd etməklə, təhlildə onların necə yer almasını göstərməklə kifayətlənməliyik.

Kommersiya banklarının Mərkəzi Bankdan aldığı kreditlər təkrar maliyyələşdirmə sistemi çərçivəsində həyata keçirilməklə, öz xarakterinə görə borc olmaqla, bank resurslarının yüksək məsuliyyətli qismini təşkil edir. Belə baxanda, onun istifadəsi də yüksək səmərə ilə başa çatmalıdır. Bunun aydın edilməsi təhlilçidən böyük məharət tələb edir.

Azərbaycan Respublikasında Mərkəzi bank tərəfindən kommersiya banklarına qısamüddətli və uzunmüddətli kreditlər verilir. Analoji növlərdə kreditlərin banklararası kreditlər formasında da alınması nəzərə alındıqda təhlilin yalnız bu kreditlərin həcmi, dinamikası, xüsusi çəkisinin müəyyən edilməsi ilə bitirilməsi kifayət etməz. Burada təhlilin olsun ki, əsas istiqaməti təkrar maliyyələşdirmə dərəcələri ilə banklararası kreditlərin dərəcələrinin qarşılıqlı asıllığından törəyən təsirlərin müəyyən edilməsi olmalıdır.

Mütəxəssis iqtisadçıların araşdırmalarından ən əlverişli seçim, fikrimizcə yenidənmaliyyələşdirmə əmsallarının müəyyən edilməsindən ibarət ola bilər.

Bununla kommersiya bankının digər bankların verdiyi borclardan asılılığı dərəcəsi müəyyən edilir. Hesab edilir ki, yenidənmaliyyələşdirmə əmsalının kəmiyyətinin yüksək səviyyədə olması əlverişli göstərici deyil.

Lakin, banklararası kredit əlaqəsi lazımlı hesab olunur. Həmin yanaşmalar arasında ziddiyyət yoxdur. Çünki, bir tərəfdən hər bir bank mümkün qədər daha əlverişli resurs mənbəyindən istifadə etməyə çalışır, digər tərəfdən vaxtı çatmış öhdəlikləri yerinə yetirmək və müştərilərin digər tələblərini ödəmək zərurəti nəticəsində banklararası kreditə ehtiyac yaranır. Təhlildə bu cəhət də nəzərə alınmaıldır.

Qeyd edək ki, bank passivlərinin təhlilində bir qayda olaraq məcmu

kapitalın təhlilinə xüsusi yer verilir. Bunlan irəli gələrək və eləcə də onun icmal göstəricilərinin olması nəzərə alınmaqla, bu barədə əyaniləşdirmə verilməsi mümkündür.

Yəni, Azərbaycan Respublikasında bank sektorunun məcmu kapitalının strukturu və dinamikasının təhlili üçün aşağıdakı ardıcıllıqla verilən göstəricilərdən istifadə edilə bilər.

I dərəcəli kapital:

- nizamnamə kapitalı
- səhmlərin emissiyasından əlavə vəsait
- bölüşdürülməmiş xalis mənfəət.

II dərəcəli kapital:

- cari ilin mənfəəti
- ümumi ehtiyatlar
- kapitalın digər vəsaitləri
- məcmu kapitaldan tutulmalar
- tutulmalardan sonra məcmu kapital.

Bu göstəricilər ardıcıl illər üzrə göstərilməklə, onların illik artımı mütləq məbləğdə və faizlə ifadə oluna bilər. Eləcə də bir neçə ilin məlumatları tutuşdurulmaqla dinamikanın meylləri ümumilikdə və bankların kapitalının elementləri üzrə müəyyən edilə bilər.

Sonra kapitalın elementlərinin hər birinin tutulmalardan sonra məcmu kapitala nisbəti ilə bankların kapitalının hesabat dövründə formalaşan strukturu və onun bir neçə il ərzində dəyişmələrinin meyli aydınlaşdırıla bilər.

Azərbaycan Respublikasında bankların məcmu kapitalının artımında cari ilin mənfəətinin artması mühüm rol oynamışdır.

Azərbaycan Respublikasında 2010-cu ildə bankların məcmu kapitalı 138,2 mln. manat, artaraq 1897,1 mln. manata çatmışdır ki, bankın 1520, 5 mln. manatı və ya 80, 1% -i I dərəcəli kapitaldan ibarətdir. Həmin ildə məcmu kapitalın 7, 9% artmasına qarşı I dərəcəli kapitalın 18, 3% artması baş vermişdir. Kapitalın bu hissəsi nizamnamə kapitalı ilə yanaşı bölüşdürülməmiş mənfəətin 30, 4 mln. manat (12, 2%) artması sayəsində göstərilən səviyyəyə çatmışdır. Amma II dərəcəli kapitalın həcmi 2011-ci ilin əvvəlinə əvvəlki ilin həmin tarixindəkinə nisbətən 17, 1% azalmışdır. Bu azalma cari ilin mənfəəti və kapitalın digər vəsaitlərinin azalması hesabına baş vermişdir.

Buna baxmayaraq, I dərəcəli kapitalın artımının xeyli dərəcədə yuxa-

rı olması nəticəsində bank sisteminin məcmu kapitalı və I dərəcəli kapitalı yetərincə olmaqla, beynəlxalq təcrübədə qəbul olunmuş minimal səviyyəsindən və Azərbaycan Respublikası MB-nin müəyyən etdiyi minimal normadan xeyli yuxarı olması təmin olunmuşdur.

Bank passivlərinin təhlili üçün, xarici təcrübədə qəbul edilən düsturlar: (Azərbaycan dilinə uyğunlaşdırmaqla).

I. Bankın netto xüsusi vəsaitlərinin təyin olunması:

$$XV_H = XV_b - XV_{im}$$

Burada: XV_H -netto xüsusi vəsaitlər;
XV_b - brutto xüsusi vəsaitlər;
XV_{im} – immobilizasiya olunmuş xüsusi vəsaitlər.

II. Bankın xüsusi kapitalının tərkibinin kefiyyətcə qiymətləndirilməsi:

$$Ə_{im} = \frac{XV_{im}}{XV_b}$$

Burada: $Ə_{im}$ - immobilizasiya əmsalıdır.
III. Bankın xüsusi vəsaitlərinin istifadəsinin səmərəliyi

$$Ə_{is} = \frac{XV_m}{K_{qm}}$$

Burada: $Ə_{is}$ – xüsusi vəsaitlərinin istifadəsinin səmərələlik əmsalıdır.
XV_m - xüsusi vəsaitlərin məbləği;
K_{qm} - kredit qoyluşunun məbləği.

IV. Nizamnamə fondunun xüsusi vəsaitlərə nisbəti:

$$a_1 = \frac{NF}{XV_b} x\,100\%$$

Burada: a_1 - artım tempi;
NF – faktiki ödənilmiş olan nizamnamə fondu;

V. Balans valyutasında niazmnamə fondunun xüsusi çəkisi:

$$a_2 = \frac{NF}{BV} \times 100\%$$

Burada: a_2 - balans valyutasında nizamnamə fondunun xüsusi çəkisi;
BV – balans valyutasıdır.

VI. Bankın xüsusi kapitalının formalaşmasında səhmdar kapitalının iştirakı səviyyəsi:

$$K_{fə} = \frac{NF}{K}$$

Burada: $K_{fə}$ - kapitalın formalaşmasının əmsalı;
K – bankın xüsusi kapitalı məbləği.

VII. Depozit əmsalları:

$$Ə_{dt} = \frac{D_t}{C_v}; \qquad Ə_{dm} = \frac{D_m}{C_v}$$

Burada: $Ə_{dt}$ - tələb edilənədək depozitlər əmsalı;
$Ə_{dm}$ - müddətli depozitlər əmsalı;
D_m - tələb edilənədək depozitlər məbləği;
C_v - cəlb edilən vəsaitlər məbləği.

VIII. Əmanətlərin bankda saxlanmasının orta müddətli:

$$O_{sm} = \frac{Ə_{oq}}{Ə_{vd}} \times G$$

Burada: O_{sm} - orta saxlanma müddəti;
$Ə_{oq}$ - əmanətlərin orta qalığı;
$Ə_{vd}$ - əmanətlərin verilməsi üzrə ota dövriyyə;
G - təhlilin əhatə etdiyi günlərin sayı.

IX. Əmanətlərə daxil olan vəsaitlərin burada qalması səviyyəsi:

$$S = \frac{Ə_{da} - Ə_{də}}{Ə_{do}}$$

Burada: S - əmanətə daxil olan vəsaitlərin burada qalma səviyyəsi;
$Ə_{da}$ - əmanətə daxil olan vəsaitin dövrün axırına qalığı;

$Ə_{də}$ - əmanətə daxil olan vəsaitin dövrün əvvəlinə qalığı;
$Ə_{do}$ - əmanətə daxil olmalar.

X. Cəlb edilən vəsaitlərdən istifadənin səmərəliliyi:

Burada: $S_{ə}$ - cəlb edilən vəsaitlərdən istifadənin səmərəlik əmsalı;
KQ **–** kredit qoyuluşunun həcmi.

15.3. Aktiv əməliyyatların təhlili

Bu dərslik çərçivəsində onun planı, habelə «Bank işi» fənninin proqramı nəzərə alınmaqla, bank aktivlərinin ümumi və əməliyyatlarının növlərinin mahiyyət xarakteristikası bundan əvvəlki fəsillərdə verilmiş sayılır. Təhlilə gəldikdə, bunlar aktivlərə bilavasitə daxil edilən əməliyyatlar üzrə araşdırılmalı olur.

Burada müəyyən qeyd-şərt qoyulmadan, müxtəlif yanaşmalara, fərqli qruplaşdırma və bölgülərin olmasılə rastlaşırıq. Biz Azərbaycan Respublikasında bank aktivləri olaraq qəbul edilənlərə əsaslanmaqla təhlil aparılması yolunu tuturuq. Odur ki, onları göstəririk:

- nağd pul, digər ödəniş vasitələri və affinac edilmiş qiymətli metallar;
- Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə hesablaşmalar;
- ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan qiymətli kağızlar;
- satış üçün mövcud olan qiymətli kağızlar;
- ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli kağızlar;
- maliyyə sektorunda yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər;
- büdcə təşkilatları və dövlət fondlarına verilmiş kreditlər;
- beynəlxalq maliyyə institutları ilə hesablaşmalar;
- dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər;
- dövlət mülkiyyətinə olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər üzrə ehtiyatlar və tənzimləmələr;
- dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə verilmiş kreditlər;
- fiziki şəxslər və fərdi sahibkarlara verilmiş kreditlər;

- digər kreditlər və əməliyyatlar;
- cari mənfəət vergisi aktvləri;
- digər aktivlər;
- törəmə maliyyə alətləri üzrə aktivlər;
- xaric olunan qrup üzrə aktivlər;
- satış üçün nəzərdə tutulan aktivlər;
- əsas vəsaitlər, qeyri- maddi aktivlər və investisiya mülkiyyəti;
- investisiyalar və investisiyalar üzrə ehtiyatlar

Göstərilənlər bank aktivlərinin tərkibini iriləşdirilmiş şəkildə əks etdirir. Onların böyük əksəriyyəti milli valyutada və xarici valyutada olan aktivlərdir. Yalnız bəzi aktivlər yalnız milli valyutada olan aktivlərdir.

Bank aktivlərinin təhlili deyildikdə bank resurslarının istifadəsi istiqamətləri, onların məqsədləri, nə həcmdə, hansı müddətə yerləşdirilməsi və kimlərə verilməsi anlaşılmalıdır.

Elmi yanaşmalarda bank aktivlərinin təhlilinin aparılmasında aktivlərin daha böyük dairədə qruplarda birləşdirilməsi zəruri sayılmaqla, onların araşdırılması mümkündür. Lakin bu işin sonrakı gedişi prosesi detallaşdırmanı istisna etmir. Bu əsasda bank aktivlərinin strukturunun müəyyən edilməsi təcrübəsinə əsaslansaq onun nəzəri cəhətdən yararlığını görə bilərik:

I. Pul vəsaiti, bahalı qiymətdə metallar.

II. Mərkəzi Bankdakı hesablar.

III. Banklardakı müxbir hesablar.

O cümlədən:

- rezident kredit təşkilatlarında müxbir hesablar;
- qeyri-rezident banklarda müxbir hesablar;

IV. Bankların aldığı qiymətli kağızlar.

O cümlədən:

- borc öhdəlikləri;
- səhmlər;
- uçot edilmiş veksellər.

V. Ssudalar.

O cümlədən:

- kreditlər və yerləşdirilmiş başqa vəsaitlər.

VI. Əsas vəsaitlər və qeyri-maddi aktivlər.

VII. Sair aktivlər.

Aktivlərin bu tərkibdə verilən qruplarının bank aktivlərinin cəmi

məbləğinə nisbəti olaraq hesablanan, onların xüsusi çəkilərini əks etdirən göstəricilər bankın aktiv əməliyyatlarının cari strukturunu və struktur dəyişmələrində meylləri müəyyən etmək imkanı verir.

Aktivlərin strukturu ayrı-ayrı banklarda xeyli fərqlənir. Müxtəlif ölkələrin banklarında xeyli fərqlənir. Müxtəlif ölkələrin banklarında aktivlərin strukturunda fərqlər daha çox olmaqla yanaşı, iqtisadi durumla əlaqədar da ola bilər.

Bank aktivlərinin strukturunun təhlilində bunun real təsirlərinə diqqət yetirilməlidir. Belə ki, bankların gəlirliyi, likvidliyi və əməliyyatlarının riskliliyi xeyli dərəcədə aktivlərin keyfiyyətindən asılıdır. Elə, aktivlərin risqliliyilə bankın gəlirliliyi arasındakı asıllığın qeyd edilməsi bunun təsdiqi üçün kifayət edər. Eləcədə, bankların likvidliyi baxımından onların aktivlərinin üç qrupa, bəzən də daha artıq qruplara ayrılması praktikada özünü doğrultmuş meyarlar hesab olunur. Bunların bank fəaliyyəti üçün həlledici məsələlər sırasında olmasını qeyd etmək lazımdır. Odur ki, təhlil aparılarkən bank aktivlərinin hansı elementlərinin yüksək likvidli olması və onun nisbi kəmiyyəti, nə qədərinin likvid aktivlərdən və nə qədərinin az likvidli aktivlərdən ibarət olması müəyyən edilməlidir. Bunlar əslində bank idarəediciləri üçün qərarların qəbulu zamanı dəyərli məlumatlardır.

Az olmayan dərəcədə, bank aktivlərinin risklik dərəcəsinin müəyyən edilməsi istiqamətində aparılan təhlilin əhəmiyyəti vardır. Bank işi praktikasında risk dərəcəsinə görə bank aktivlərinin 0-dan 100%-dək olmaqla müxtəlif qruplara ayrılmasını göstərmək olar.

Likvidlik və risklik məsələlərinin artıq dərəcədə vacib və maraqlı olmasına baxmayaraq, onların artıq dərəcədə (əvvəlki fəsillərə və proqrama nəzərən) yüklü olmasından irəli gələrək, onlar barəsində deyilənlərlə kifayətlənməli oluruq. Bircə onu da əlavə etməliyik ki, likvidliyin təmin edilməsi və risklərin azaldılması Azərbaycan Respublikasında banklarda maliyyə sabitliyi üzrə siyasətin əsas məqsədləri arasında mühüm yer tutmuşdur. Bu da öz növbəsində, hətta dünya iqtisadi və maliyyə böhranın başlandığı və təsir göstərdiyi dövrdə bank sistemində sabitliyin qorunmasında öz rolunu oynamışdır. Əyani olaraq bunları bank aktivlərinin vəziyyətinin müvafiq təhlilindən görə bilərik.

Azərbaycan Respublikasında bank sistemi üzrə aktivlərin təhlili göstərir ki, 2007-2011-ci illərdə müştərilərə kreditlər aktivlərin 65-69%-ni təşkil edərək, birinci yer tutmuş, həm də başqa elementlərdən

sadə artıqlığı deyil, dəfərlərlə üstün olması ilə fərqlənmişdir. İkinci yerdə müxbir hesablar durur ki, onlar 7-11% arasında olmaqla dəyişilmişdir. Maliyyə sektoruna verilən kreditlər böyük yer tutmasa da, öz sabitliyi ilə fərqlənmişdir. Bu kreditlər bank aktivlərinin 7-8% -ni təşkil etmişdir. İnvestisiyaların xüsusi çəkisi müxbir hesablarda olduğu kimi 7-8% mövqeyində olmuşdur. Bank aktivlərində müqayisədə daha kiçik faizlə təmsil olunan nağd vəsaitlər əsasən 4%, yalnız 01.01.10-cu il tarixində 5% olmuşdur. Digər mənbələrə gəldikdə, onlar təhlil edilən dövrdə 7-10% arasında olmuş və meyli azalmağa doğru getmişdir.

Qeyd etmək lazımdır ki, təhlil edilən dövrdə Azərbaycan Respublikasında bank aktivlərinin strukturunda kəskin tərəddüdlər olmadığı, dəyişmələrin isə, bazar münasibətlərinin adi gedişatına xas olan tərzdən kənara çıxmadığı özünü göstərmişdir. Amma, bu bank aktivlərinin kəmiyyətcə dəyişməz qalması demək deyildir və hər bir faizin arxasında böyük məbləğ durur. Təhlil edilən dövrdə hər il bank aktivlərində əhəmiyyətli dərəcədə artım təmin edilmişdir. O cümlədən, 2008-ci ildəki artım 1843, 1 mln. manat, 2009-cu ildə 3096, 4 mln. manat, 2010-cu ildə 1625, 6 mln. manat olmaqla, müvafiq surətdə 78%, 27, 4%, 36% təşkil etmiş və 2011-ci ilin əvvəlinə 13290, 8 və 1912-ci ilin əvvəlinə 14259, 2 mln. manata çatmışdır.

Bunlar bank aktivlərinin demək olar ki, bütün elementlərindəki artımla müşayiət olunmaqla təmin edilmişdir.

Bank fəaliyyətinin maliyyə nəticələrinə aktivlərin strukturca dəyişilməsinin, aktivlərin ümumilikdə və təkib hissələri üzrə dəyişilməsinin təsiri vardır. Bunların incələnməsi üçün təhlilin müvafiq qaydalarına, metodlarına əsaslanmaqla, göstəricilərin haqq-hesabını aparmaq lazım gəlir.

Bankın balansında neçənci yerdə durmasından asılı olmayaraq, aktiv əməliyyatların təhlilində kredit əməliyyatlarını fikrimizcə əvvələ keçirmək lazımdır. Çünki kredit əməliyyatları ən çox gəlir gətirən əməliyyatdır, yatıb qalmayan (dövriyyədə olan) vəsaitləri təmsil edən qrupa aiddir, habelə ən çox üzdə olan, bankın fəaliyyətini daha qabarıq göstərən fəaliyyət istiqamətidir. Əhəmiyyətli cəhət bir də odur ki, adətən bank aktivlərində kreditlər üstün mövqeyə malik olur. Bütün banlara əsasən bank fəaliyyətinin maliyyə nəticələrinin təhlilində, xüsusən də aktiv əməliyyatların təhlili tapşırığı altında kredit əməliyyatlarının təhlilinə ciddi yanaşmaq lazım gəlir.

Bankların kredit əməliyyatlarının həcmini kredit qoyuluşları səciyyələndirir. Kredit qoyuluşlarının təhlili onun məqsədlərini, həcmini, ssudaların istifadəsi istiqamətlərini əhatə edir. Kredit qoyuluşunun ümumi məbləği aydınlaşdırılır, onun hansı ssuda növləri hesabına formalaşdığı müəyyən edilir, nə kimi istiqamətlərə yönəldiyi təyin olunur. Kredit qoyuluşunun həcminin müəyyən edilməsi üçün kreditlərin əks etdirildiyi çoxsaylı hesablarda vəsaitlərin necə yerləşməsi araşdırılmalıdır. Çünki, kreditlər bütün incəlikləri nəzərə alınmaqla sıralanmış hesablarda öz yerini tapır. Kredit əməliyyatlarının təhlilinə onun əhatə dairəsini bildikdən sonra başlamaq olar.

Göstərilən hesablardakı məbləğlərin ümumən və yeri gəldikcə ayrı-ayrı qruplar üzrə yığılması tələb olunur. Yəni, kredit qoyuluşunun həcmi hazır kəmiyyət deyildir, onu hesablamaq lazım gəlir.

Sonra kredit qoyuluşunun detallaşdırılmış təhlili aparıla bilər. Burada bank üçün çox əhəmiyyətli məsələ verilmiş kreditlərin qaytarılması məsələsidir. Ona görə də, kreditlərin ümumi məbləğindən sonra ssudalar üzrə vaxtı keçmiş borcların kəmiyyəti müəyyən edilməlidir. Onu da qeyd edək ki, bu göstərici qısamüddətli kreditlər üzrə və uzunmüddətli kreditlər üzrə müəyyən edilir.

Qısamüddətli kreditlər üzrə vaxtı keçmiş borcların təhlili üçün balansın 1801-1859 saylı, hesab qrupları üzrə əsas borclar araşdırılmalıdır. Vaxtı keçmiş uzunmüddətli kreditlərin həcmini təyin etmək üçün 1861-1889 saylı hesab qruplarındakı məbləğlər araşdırılmalıdır. Təhlilin bu yerində vaxtı keçmiş kreditlərin, o cümlədən, qısamüddətli və uzunmüddətli kreditlərin kredit qoyuluşuna görə və öz qrupuna görə xüsusi çəkisi, habelə milli valyutada və xarici valyutada olan kreditlər üzrə vəziyyəti aydınlaşdırılmalıdır.

Bankların kredit əməliyyalarının təhlili bankların kommersiya fəaliyyəti nöqteyi nəzərindən əhəmiyyətli olmaqdan əlavə, onların ictimai rolunu da göstərir. Bütün bu cəhətlər nəzərə alınmaqla kreditlərin hansı istiqamətlərdə istifadə olunduğunu müəyyən etmək lazım gəlir. Bu məqsədlə aşağıdakı geniş tərkibdə hesabların təhlili aparıla bilər.

I.

1. Dövlət muəssisələrinə, bələdiyyələrə və ictimai təşkilatlara verilmiş qısamüddətli kreditlər üzrə: 1801;1802; 1803; 1804; 1805;1805-1829 saylı hesab qrupları üzrə overdraftların təhli-

li, 1831-1859 saylı hesab qrupları üzrə qısamüddətli kreditlərin təhlili.

2. Dövlət müəssisələrinə, bələdiyyələrə və ictimai təşkilatlara verilmiş uzunmüddətli kreditlər üzrə: 1861-1865; 1866-1889 saylı hesab qruplarının təhlili.

II.

1. Fiziki şəxslərə və fərdi sahibkarlara verilmiş qısamüddətli kreditlər üzrə: 2101-2126 hesab qruplarının təhlili.
2. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilmiş qısamüddətli kreditlər üzrə: 21050A-21064A; 21140A-21164A; 21070A-21089A saylı hesabların təhlili.
3. Fiziki şəxslərə velilmiş uzunmüddətli kreditlər üzrə: 21210A-21229A sayli hesabların təhlili.
4. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi şəxslərə verilmiş uzunmüddətli kreditlər üzrə: 21240A-21264A saylı hesabların təhlili.

III. Maliyyə sektoruna verilmiş qısamüddətli kreditlər üzrə:

1. 15060A-15114A; 15120A-15114A, 15320A-15424A saylı hesabların təhlili.
2. Maliyyə sektoruna verilmiş uzunmüddətli kreditlər üzrə: 15540A-15584A; 15590A-15614A; 15620A-15644A saylı hesabların təhlili.

IV. Büdcə təşkilatlarına və Dövlət fondlarına verilmiş qısamüddətli kreditlər üzrə:

1. 16010A-16039A; 16110A-16139A; 16040A; 16110A; 16140A-16169A saylı hesabların təhlili.
2. Büdcə təşkilatlarına və Dövlət fondlarına verilən uzunmüddətli kreditlər üzrə: 16310A- 16339A; 16340A-16369A saylı hesabların təhlili.

Azərbaycan Respublikasında dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə verilən kreditlər bankların kredit əməliyyatlarında mühüm yer tutur. Həmin kredit əməliyyatları iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə kreditlərin verilməsini və kreditin əksər növlərini əhatə edir. Ona görədə bankın ma-

liyyə fəaliyyətində həmin kreditlərin rolu böyükdür.

Bundan irəli gələrək təhlilin dairəsi də bir o qədər genişdir. Bütün istiqamətlərdə kreditlərin təhlilində verilmiş kreditlər və onların ödənilməsi, hesablanmış faizlər və vaxtı kecmiş borcların təhlili aparılmalıdır. Təhlil zamanı həmin göstəricilərin rezidentlər və qeyri-rezidentlər üzrə vəziyyəti, o cümlədən milli valyutadakı kreditlər və xarici valyuta ilə verilmiş kreditlərin təhlili aparılmalıdır.

Qeyd etmək lazımdırki, verilən kreditlərin həlledici hissəsi milli valyutada və xarici valyutada verilmiş kreditlərin payına düşür və təhlil də bunların üzərində aparılmalı olur. Amma, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları nəzərə alınmaqla qiymətli metallarla da kreditlərin verilməsinə yol verilir və bu kimi hallar yarandıqda banklar öz hesabatlarında bunları göstərməklə yanaşı, onların təhlilini də aparmalıdırlar. Həmin təhlil dövlət mülkiyyətində olmayan rezident hüquqi şəxslərə qiyməli metallarla verilmiş kreditləri, hesablanmış faizləri, vaxtı keçmiş əsas borcları və vaxtı keçmiş faiz borclarını əhatə etməlidir.

Dövlət mülkiyyətində olmayan hüquqi şəxslərin cari hesabları üzrə milli valyutada overdraftların təhlili 20010A-20099A saylı hesabları üzrə, xarici valyutada həmin qəbildən təhlil isə 20110-20199 saylı hesabların araşdırılması ilə aparılmalıdır.

Bu və ya digər bankda dövlət mülkiyyətində olmayan hüquqi şəxslərin cari hesabları üzrə qiymətli metallarla overdraft olduqda 20210A-20214A saylı hesablardan başlayaraq 20290-20294 saylı hesablar daxil olmaqla ardıcıl surətdə araşdırma aparılmalıdır. Göstərilən bu hesab qruplarında vəsaitlərin olmaması bankda aparılan təhlilin gedişinə mane olmur və aparılan təhlilin keyfiyyətinə zərər yetirmir.

Mövcud kreditləşdirmə qaydaları əsasında dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə verilən müxtəlif qısamüddətli kreditlər də cari hesablar üzrə overdraftlarda olduğu kimi eyni qaydada şaxələndirilmişdir. Yəni burada da kredit alanların hansı hüquqi şəxslərdən ibarət olması, əsas borc, borclara görə faizlər, vaxtı keçmiş borclar aidiyyəti üzrə müəyyən edilməklə təhlili aparılmalı olur.

Analoji olaraq milli valyutada, xarici valyuta ilə və qiymətli metallarla verilən qısamüddətli kreditlərin təhlili xüsusi əhəmiyyət kəsb edir. Bu zaman ardıcıllıq gözlənilməklə, milli valyutada kreditlərin təhlili 20310A-20399A saylı hesablar üzrə xarici valyutada verilən qısamüddətli kreditlərin təhlili 20410A-20499A saylı bütün hesabları əhatə etməli-

dir. Bu və ya digər bank dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə qiymətli metallarla kredit vermişdirsə, onların təhlili 20510A-20594A saylı hesabların hamısının nəzərdən keçirilməsini tələb edir.

Dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə uzunmüddətli kreditlərin verilməsində və həmin kreditlər üzrə borcların bank hesablarında əks olunmasında qısamüddətli kreditlərin hərəkətini səciyyələndirən bütün bölgülərə yer verilmişdir. Odurki, təhlilin aparılmasında yuxarıda göstərdiyimiz ardıcıllığa əsaslanmaq olar.

Bu mənada dövlət mülkiyyətində olmayan hüquqi şəxslərə milli valyuta ilə verilən uzumüddətli kreditlərin, borcların və faizlərin ödənilməsi vəziyyətinin təhlili 20610A saylı hesabdan başlanmaqla 20699A hesabın təhlili ilə tamamlanmalıdır. Xarici valyutalarda verilən kreditlərin təhlili isə 20710A-20799A saylı hesablar üzrə vəsaitləri əhatə etməlidir.

Əgər qiymətli metallarla verilən kreditlər varsa, onları təhlili lazım gəlir. Bu halda 20810A-20894A saylı hesablar başdan-başa nəzərdən keçirilməlidir.

Yuxarıda baxılan kredit növlərinin kreditlərin ümumi həcmindəki xüsusi çəkisini hesablamaqla bankın kredit qoyuluşunun strukturu müəyyən edilə bilər. Eyni zamanda kreditlərin təsərrufat sahələri üzrə, ssudaların valyutası üzrə, borc alanların mənsubiyyəti üzrə və s. cəhətlərdən xarakteristikası təmin oluna bilər.

Aparılan həmin təhlillərdən istifadə olunmaqla kredit əməliyyatlarının dinamikası, meylləri açıqlanmaqla, bankın gəlirliyinə bunların təsislərinin müəyyən edilməsi, müvafiq praktik qərarların qəbulunda əhəmiyyətli rola malikdir.

Bütünlükdə aktivlərdə kreditlərin mövqeyi kreditlərin bank aktivlərinə nisbəti şəklində müəyyən olunur. Məsələn, bankın ssuda aktivləri 2 mln. manat, aktivlərin cəmi 6 mln. manat olarsa, kreditlər aktivlərin 1/3-ni təşkil etmiş olur. Ssuda aktivlərinin orta qalığının aktivlərin ümumi məbləğinə nisbəti göstəricisinə kredit qoyuluşunun səmərəliliyi kimi baxılır.

Banklar kredit aktivlərinin orta qalığının dinamikasına nəzarət etmək üçün onun hərəkətini keçən dövrlərdəkilərlə müqayisə edirlər. Bunun təhlili məlum riyazi üsulla aparılır. Yəni, artım tempi hesablanarkən cari ildə kredit qoyuluşunun orta məbləği 100-ə vurulub keçən ildəki kredit qoyuluşunun orta məbləğinə bölünür.

Kredit aktivlərinin təhlilində müəyyən edilən mühüm göstricilərdən

biri də ssuda aktivlərin artım tempinin aktivlərin ümumi artım tempi ilə müqayisəsinin təmin edilməsidir. Bunlardan birincisinin ikinciyə nisbəti ilə həmin əmsal müəyyən edilir.

Bu məsələyə banklarda önəm verilməsi onunla bağlıdır ki, kredit qoyuluşunun artım tempinin nisbi artımı bankın fəaliyyətində müsbət meyl kimi, azalması isə onun rəqabət imkanlarına mənfi təsir göstərən amil kimi qiymətləndirilir.

Banklarda kredit əməliyyatlarının təhlilində digər bir istiqamət kreditlərin yerləşdirilmə müddətləri ilə vəsaitlərin cəlb edilmə müddətlərinin müqayisəsidir. Bunu müəyyən tarixlərə etmək mümkündür. Bu məqsədlə, passivlərin müvafiq maddələrinin cəmi və aktivlərin müvafiq maddələrinin cəmi onların müddətləri üzrə (məsələn, 1-3 ay, 3-6 ay, 6-12 ay) qruplaşdırılmaqla şahmat cədvəli tərtib edilməlidir.

Banklarda kredit əməliyyatlarının təhlili ssudaların növləri üzrə, ssudaların təminatına görə də aparıla bilər. Bu istiqamətlər həmin məsələlərin məzmununa uyğun qurulmalıdır. Onların mahiyyəti əvvəlki fəsillərdə yer almışdır.

Bankların aktiv əməliyyatlarında və olsunki, ümumiyyətlə bank fəaliyyətində görkəmli yerlərdən birini qiymətli kağızlara investisiyalar tutur. Qiymətli kağızlar və onların bazarı barəsində əvvəlki fəsillərdə və proqramda qoyulmuş məsələlərə baxdıqda, burada o haqda danışılmağa yer qalmır.

Təhlil aparılmasına gəldikdə, Azərbaycan Respublikasında bu fəaliyyət növünün banklarda necə yer almasına baxmaq lazımdır. Bu cəhətdən qanunvericiliklə müəyyən edilmişdir ki, banklar qiymətli kağızlar bazarında peşəkar fəaliyyət göstərə bilər. Onlar kredit və debet kartlarını, yol çekləri və öz köçürmə veksellərini buraxa bilər. Eyni zamanda banklar «öz hesabına və ya müştərilərin hesabına maliyyə veksellərinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), xarici valyutanın, qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın olunması və satılması» kimi fəaliyyət növlərini həyata keçirə bilər. (Banklar haqqında Azərbaycan Respublikasının Qanunu, M.32).

Göstərilənlər faktiki vəziyyətə görə bankların qiymətli kağızlarla

apardığı əməliyyatlar üzrə təhlil aparılması istiqamətlərinin seçimi üçün əsas təşkil edir.

Bundan irəli gələrək, qiymətli kağızlarla bankın aktiv əməliyyatları onun mühasibat balansı əsasında (və qiymətli kağızlar bazarı haqqında aidiyyətli məlumatlar da cəlb edilməklə) həmin əməliyyatların varlığını əks etdirən bütün hesabların araşdırılması ilə təhlil olunmalıdır.

Qiymətli kağızlarının həm milli valyutada və həm də xarici valyutada olan hesabları təhlil edilməlidir. Bu məqsədlə müvafiq hesablarında olan qiymətli kağızların kəmiyyəti və tərkibi müəyyən edilməli, onların arasındakı nisbət və aktivlərin ümumi məbləğində tutduğu xüsusi çəkisi müəyyən edilməli, onların həcminin dinamikası və meylləri müəyyən olunmalıdır.

Bundan sonra qiymətli kağızların mənsubiyyəti və vəziyyəti təhlil olunmalıdır.

Ədalətli dəyərin dəyişməsi mənfəət və zərərdə əks olunmalı qiymətli kağızlar üzrə 12010-12542 saylı hesabların təhlili aparılmalıdır. Bunların sırasında əksər hesabların aktiv olması ilə yanaşı K-A tipli hesabların olması nəzərə alınmalıdır.

Satış üçün mövcud olan qiymıtli kağızların təhlili 13010-13542 saylı hesabları əhatə etməlidir. Eləcədə ödəmə müddəti tamamlananadək saxlanılan qiymətli kağızları təmsil edən 14010-14914 Salı hesabların təhlili aparılmaqla müvafiq nəticələr müəyyən olunmalıdır.

Göstərilən qruplar üzrə qiymətli kağızların müqayisəsilə milli valyutada qiymətli kağızlarla, xarici valyutada həmin növdəki qiymətli kağızlar arasındakı nisbət müəyyən olunur. Sonra digər qiymətli kağızlarla onların müqayisəsi aparılmalıdır. Bu zaman cəmdə və eləcə də milli və xarici valyutada olan qiymətli kağızların müvafiq kəmiyyətləri və nisbətləri aydınlaşdırılır.

Nəhayət, qiymətli kağızların cəmi məbləği əsas götürülməklə, onların bank aktivlərindəki mövqeyi müəyyən edilir. Bundan sonra qiymətli kağızlara investisiyaların kəmiyyətcə dinamikası və xüsusi çəkisinin dəyişməsi meylləri aşkarlanır. Bankların qiymətli kağızlara investisiyalarının gəlirliliyi təhlil edilməklə, bank vəsaitlərinin istifadəsinin səmərəliliyi cəhətdən bu əməliyyatların bilvasitə rolu, digər qoyuluşlarla müqayisədə nə dərəcədə faydalı olması aşkara çıxarılmaqla müəyyən edilən nəticələrdən bank fəaliyyətinin proqnozlaşdırılmasında, bank siyasətinin və xüsusən bankın investisiya siyasətinin formalaşdırılmasında istifadə

oluna bilir. Həmin prosesdə səhmlərin və istiqrazların gəlirliliyi əsas meyarlardan biri olaraq nəzərə alınır, digər qiymətli kağızlar üzrə də bank mütəxəssislərinin təşəbbüsü və bacarığı sayəsində əldə edilən nəticələrdən istifadə olunur. Bunlar bankın investisiya portfelinin formalaşdırılmasına və təkmilləşdirilməsinə xidmət edir.

Bankların aktiv əməliyyatlarında kassa əməliyyatları mühüm yer tutur və ona görə də təhlilin istiqamətlərindən birini təşkil edir. Kassa əməliyyatlarının nə cəhətdən xüsusi əhəmiyyət kəsb etməsi təhlilçinin diqqətində olmalıdır. Bu, kommersiya banklarının orada vəsaitlər yerləşdirənlər qarşısında müstəsna öhdəliyindən irəli gəlir. Hər bir vaxt (iş günlərində) bank müştərilərin tələb edilənədək kateqoriyalı əmanətlərini tam və ya qismən onların tələbi ilə verməyə hazır olmalıdır. Eyni zamanda təhlilçi bankın kassasındakı nağd pulun gəlir gətirmədiyini də diqqətə almalıdır. Beləliklə, bu xüsusiyyətlərə cavab verən kassa nəqdiyyəsinin saxlanması, onun optimal səviyyəsinin müəyyən edilməsi lazım gəlir. Banklar üçün kassa dövriyyələrini planlaşdırmaq xeyir gətirər. Bu iş normal təşkil olunduğu şəraitdə kassa dövriyyələrinin təhlili əlverişli nəticələrə gəlməkdə kömək edə bilər.

Bundan asılı olmayaraq, təhlil bankın nağd pul və digər ödəniş vasitələrini təmsil edən bütün hesablarını əhatə etməlidir. Bunlar 10010A-10030A, 10050A, 10070A, 10079A saylı milli valyutada hesablardan və 10020, 10040, 10080, 10089A saylı xarici valyutada hesablardan ibarətdir.

Bundan başqa, kommersiya banklarının Mərkəzi Bank qarşısında məcburi ehtiyatlar saxlaması üzrə tələblərini ödəmək üçün 11011A saylı milli valyutada və 11021A saylı xarici valyutada olan hesablarındakı vasitələrin lazımi səviyyədə olması müəyyən edilir. Mərkəzi Bankdakı «nostro» müxbir (11010A saylı milli valyutada, 11020A saylı xarici valyutada) hesablarının kommersiya bankının müvafiq əməliyyatlarının vaxtlı-vaxtında yerinə yetirilməsi üçün kifayət səviyyədə olması təhlil edilməklə lazımı nəticələr əldə edilir.

Kommersiya banklarının malik olduğu əsas vasitələr və qeyri maddi aktivlər bunların uçota alındığı 28010-28151saylı hesablar üzrə və investisiyalar 29010- 29915 saylı hesablar üzrə təhlil edilir. Təhlil zamanı onların bankın ehtiyaclarına uyğun olması və vəziyyəti xarakterizə edilir.

15.4. Kommersiya banklarının qəlirlərinin təhlili

Kommersiya banklarının öz möhkəmliyini, bazardakı mövqeyinin sabitliyini təmin etmək şərti ilə maksimum mənfəət əldə etməsi onların əsas məqsədini təşkil edir. Ən ümumi mənada onların mənfəətinin həcmi əldə etdikləri gəlirin məbləğindən və sərf etdikləri xərclərin kəmiyyətindən asılıdır.

Bankların müəssisə kimi xarakteristikasında onların requlyar sürətdə gəlirlərə malik olması, bu gəlirlər hesabına bütün xərclərinin ödənilməsi və mənfəət götürməsi başlıca əsaslardır.

Bu mənada, bankların gəlirlərinin təhlilində gəlirləri təmin edən fəaliyyət növlərini və gəlirlərin mənbələrini göstərmək lazımdır. Dünya təcrübəsində bank əməliyyatları növlərinin 200-300-ə qədər sayda olması haqqında məlumatlara əsaslansaq, bankların gəlir mənbələrinin ayrı-ayrı ölkələrdə fərqlənə bildiyini birbaşa qəbul edə bilərik. Eyni bir ölkədə bankların gəlirlərinin fərqlənməsi onların həyata keçirdiyi əməliyyat növləri üzrə, həcmcə, struktur etibarı ilə və s. cəhətlərdən ola bilər. Bankların gəlirlərinin iqtisadi mənalandırılmasında gəlirlər üçün əlamətdar olan ən ümumi cəhətlər, həm də müəyyən mənada müəssisələr üçün xarakterik olan yanaşmalar nəzərə alınmalıdır.

Ayrı-ayrı mənbələr üzrə gəlirlər bankın ümumi gəlirinin tərkib hissələridir. Hesabat ilində (dövründə) bankın bütün gəlirlərinin cəmi onların məcmu gəliri adlandırılır. Hər bir başqa müəssisələrdə olduğu kimi, bankların gəlirinin böyük hissəsi əsas fəaliyyətdən, qalanı isə köməkçi fəaliyyətdən əldə edilir. Habelə, adətən sair gəlirlərin olması da istisna deyildir. Gəlirlərin bu qismi təsadüfi xarakter daşıdığı üçün sair gəlirlər adlandırılır.

Bankların gəlirləri daxil olması xüsusiyyətlərinə görə sabit və qeyri sabit gəlirlərə ayrılır. Bankların əsas fəaliyyətindən gələn gəlirləri adətən sabit xarakter daşımaqla, il boyu daxil olur. Bunlar həmin bank əməliyyatları və xidmətlərinin mütəmadi olması ilə şərtlənir. Sabit olmayan gəlirlərə maliyyə bazarlarında qiymətli kağızlarla əməliyyatlardan, bankın təsadüfi gəlirlərindən və köməkçi (ikinci dərəcəli) fəaliyyət sayəsində əldə edilən gəlirlər aid edilir.

Bank fəaliyyəti üçün əhəmiyyətinə görə sabit gəlir mənbələrinin üstün yer tutması və bu üstünlüyün saxlanması mühüm hesab edilir. Bu-

nunla belə, qeyri-sabit mənbələrdən gəlirlərin əldə edilməsinə çalışılır. Digər əhəmiyyətli cəhət bank gəlirlərinin müntəzəm surətdə daxil olmasıdır.

Bankın dəyanətliyi onun əməliyyatlarının növlərindən asılı olduğu kimi, onun mənfəətini əmələ gətirən gəlirlərin sabitliyindən asılıdır. Bankın gəlirləri onun xərclərinin ödənilməsindən əlavə, eləcə də, xərclərdən artıq əmələ gələ bilən mümkün risklərə qarşı ehtiyatların yaradılmasını və mənfəət əldə edilməsini təmin etməlidir.

Bankın gəlirlərinin təhlilində faizlərdən əmələ gələn gəlirlər və faizsiz gəlirlərin fərqləndirilməsi də praktikada vardır. Faizli gəlirlərə o gəlirlər aid edilir ki, onlar müştərilərə kreditlər verilməsindən, bankın azad vəsaitlərinin başqa kommersiya banklarında və mərkəzi bankda yerləşdirilməsindən gələn gəlirlər və borc öhdəlikləri və qoyuluşlardan daxil olan gəlirlərdən və s. -dən ibarət olmaqla faizlə hesablanıb alınır. Bankların yerinə yetirdiyi lizinq, faktorinq, trast, uçot, forfeytinq kimi müxtəlif əməliyyatlardan faiz şəklində aldığı gəlirlər də faizli gəlirlər kimi qəbul edilir. Faizli gəlirlər üçün ümumi cəhət ondan ibarətdir ki, bu gəlirlər pul vəsaitlərinin müvəqqəti istifadəyə verilməsi və həmin vəsaitlərdən kəmiyyətcə asılı olaraq daxil olan faiz məbləğini təmsil edir.

Faizsiz gəlirlərə komisyon gəlirləri, maliyyə bazarındakı əməliyyatlardan əldə edilən gəlirlər və xarici valyutadakı vəsaitlərin yenidən qiymətləndirilməsindən əmələ gələn gəlirlər aid edilir.

Qeyd etmək olar ki, komisyon haqqlarının əhəmiyyəti ümumiyyətlə artmaqdadır. Çünki müştərilərə göstərilən (kredit xarakteri daşımayan) xidmətlər artmaqdadır. Bu kimi xidmətlərə görə faiz deyil, qoyulan tariflər əsasında məbləğlə haqq alınır. Komisyon haqqını müvafiq bank xidmətlərindən istifadə edən hüquqi və fiziki şəxslər ödəyir ki, bu cəhət komissiya gəlirlərinin dairəsinin genişliyinə gətirib çıxarmışdır. Bankların depozitar və broker xidmətləri, qarantiyalar verməsi, hesablaşma – kassa xidməti göstərməsi, plastik kartlarla əməliyyatlar və valyuta konversiyası indiki dövrdə ən çox istifadə olunan, komisyon gəliri götürməyə imkan verən xidmətlər kimi səciyyələndirilir.

Kommersiya banklarının faizsiz gəlirləri mənbələrindən olan, maliyyə bazarında əməliyyatlardan gəlirlər müvafiq alətlərin alınıb-satılması yolu ilə əldə edilən vəsaitlərdən əmələ gəlir.

Kommersiya banklarının sərəncamındakı xarici valyutaların məzənnəsi (kursu) bu və ya digər bankda onun üçün əlverişli istiqamətdə yük-

səldiyi şəraitdə gəlir əmələ gəlir. Belə hal valyuta məzənnəsindəki dəyişikliklərin əhəmiyyətli dərəcədə olduğu və valyuta bazarında bankın fəallığı lazımı səviyyədə olduğu şəraitdə yaranır.

Kommersiya banklarının köməkçi xarakter daşıyan fəaliyyətindən də müəyyən qədər gəlir götürülür. Buraya banka məxsus maşın, avadanlıq və binaların satılmasından gələn gəlir, icarəyə (arendaya) verilmədən gəlir, banka məxsus təşkilatlar varsa onlardan (məsələn, təhsillə bağlı) gəlir və s. aid edilə bilər.

Yuxarıda xarakterizə edilənlər bank biznesinin növləri üzrə gəlirləri əhatə edir.

Bunlardan əlavə bankların sair gəlirləri qrupu da vardır ki, onlar təsadüfi xarakter daşıyan gəlirlər adını daşıyır. Bir halda ki, onlar ola da bilər, olmaya da bilər, bankların gəlirləri planlaşdırıldıqda onlar haqq-hesaba daxil edilə bilməz. Amma faktiki olaraq bu kimi gəlirlər əmələ gəldikdə onlar gəlirlər haqq-hesabına daxil edilməlidir.

Bankların gəlirlərinin təhlilində əməliyyat gəlirlərinin ritmikliyi və artması, qeyri bank və sair əməliyyatlardan gəlirlər müəyyən edilir. Təhlil üçün müxtəlif nisbətlərdən istifadə edilməsi bank işi təcrübəsində tətbiq edilə bilər. Bu sahədən olan iqtisadi ədəbiyyat mənbələrindən seçim edilməklə həmin nisbətləri göstəririk:

$$1)\ \frac{\textit{Əməliyyat gəlirləri}}{\textit{Verilmiş kreditin məbləği}}$$

$$2)\ \frac{\textit{Ümumi gəlirlər}}{\textit{Aktivlərin orta məbləği}}$$

$$3)\ \frac{\textit{Bankın ümumi gəliri}}{\textit{Aktivlərin orta məbləği}}$$

Bu nisbətlərin hər birinin bank fəliyyətində, maliyyə nəticələrinin yekununa təsirində öz mənası vardır. Belə ki, göstərilən birinci nisbət bankın kredit əməliyyatlarının gəlirliyini əks etdirir. İkincisi, aktivlərin hər 1 manatına düşən əməliyyat gəlirlərinin kəmiyyətini ifadə edir. Üçüncüdə isə, bankın hər bir işçisinə düşən gəlir məbləği müəyyən olunur.

Bu göstəricilərin təhlilində bu fəslin əvvəlki paraqraflarında tətbiq edilən qaydalara, metodlara əsaslanmaq olar.

Təhlilin detallaşdırılmasına gəldikdə, bunlar ölkə qanunvericiliyinə

uyğun olaraq formalaşdırılmış gəlir qrupları və hesabların araşdırılmasına istinad etməlidir.

Azərbaycan Respublikasında kreditlər üzrə faiz gəlirləri dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara verilmiş kreditlər üzrə, maliyyə sektoruna verilmiş kreditlər üzrə, fiziki şəxslərə və fərdi sahibkarlara verilmiş kreditlər üzrə, digər kreditlər və əməliyyatlar üzrə aparılmalı olur. Bütün bu hallarda manatla və xarici valyutada olan kreditlər üzrə faiz gəlirləri hesaba alınmalıdır.

Bu yanaşma ilə dövlət mülkiyyətində olan hüquqi şəxslərə, bələdiyyələrə və ictimai təşkilatlara verilmiş kreditlər üzrə faiz gəlirlərinin təhlil üçün 62410-62417 və 62419 saylı, 62420-62427 və 62439 saylı hesablar təhlil edilməlidir.

Fiziki şəxslərə və fərdi sahibkarlara verilmiş kreditlər üzrə faiz gəlirlərinin təhlində 64010-64017 saylı, 64020-64027 saylı, 64030, 64032, 64035, 64037 və 64040, 64042, 64045, 67047 saylı hesablar əsas götürülməlidir. Digər kreditlər üzrə faiz gəlirlərinin təhlili 65010, 65011, 65019 saylı və 65020, 65021, 65029 saylı hesablardan istifadə edilməklə aparılmalıdır. Fiziki şəxslərə və fərdi sahibkarlara verilmiş kreditlər üzrə, vaxtı keçmiş borclar üzrə faiz gəlirləri 64710 və 64720 saylı hesablar üzrə təhlil edilməlidir.

AMB-də yerləşdirilmiş vəsaitlər üzrə faiz gəlirlərini təhlil etmək üçün bu vəsaitlərin milli valyutada və xarici valyutada verildiyini bilmək lazımdır. Əgər AMB-də yerləşdirilmiş vəsaitlər milli valyutada verilmişdirsə 61010, 61012 və 61014 saylı hesablar üzrə gəlirlərin təhlili aparılmalıdır. AMB-də yerləşdirilmiş vəsaitlər xarici valyutada verildikdə isə 61020, 61022 və 61024 saylı hesablar üzrə gəlirlərin təhlili tələb olunur, sonra alınan kəmiyyətlərin birləşdirilməsi və aidiyyətli nəticələr çıxarılması lazım gəlir.

Öz xüsusiyyətlərinə görə fərqlənən maliyyə sektoruna da yerləşdirilmiş vəsaitlər və verilmiş kreditlər üzrə vaxtı keçmiş borclar üzrə faiz gəlirlərinin təhlili 61710-61720 saylı hesabların təhlilinə əsaslanmalıdır.

Qeyd etmək lazımdır ki, indiki dövrdə Azərbaycan Respublikasının kommersiya bankları tərəfindən xarici ölkələrin banklarında vəsaitlərin yerləşdirilməsinə, kredit verilməsinə icazə verilir. Həmin kreditlər milli və xarici valyutada verilməklə, onların hərəkəti 61210 - 61214 və 61220 - 61224 saylı hesablardan bilinir və bu növdə əməliyyatlar yerinə yetirilmişdirsə, onların təhlili göstərilən hesablara əsasən aparılmalıdır.

İndiki dövrdə Azərbaycan Respublikası kommersiya banklarının beynəlxalq maliyyə institutları ilə hesablaşmalar aparmasına yol verilir. Bu hallarda əmələ gələn gəlirlər də təhlil edilməlidir. Bu məqsədlə aparılan təhlil gəlirlərin hansı valyutada olmasından asılı olaraq – əgər faiz gəlirləri milli valyutadadırsa 61510 və 61512 saylı hesablar əsasında, faiz gəlirləri xarici valyutadadırsa 61520 və 61522 saylı hesabların təhlili əsasında aparılmalıdır.

Kreditlər üzrə faiz gəlirləri bankların sabit gəlir mənbəyi olmaqla, göründüyü kimi, çox saylı hesablardan keçir və bir qayda olaraq üstün mövqeyə malikdir. Amma, o, faiz gəlirlərinin hamısını əhatə etmir. Faiz gəlirlərinin ikinci mühüm mənbəyi qiymətli kağızlar üzrə faiz gəlirləridir. Bunlar milli valyutada satış üçün mövcud olan qiymətli kağızlar üzrə gəlirləri təmsil edən 60110 -60115 saylı hesablar, xarici valyutadakı 60120-60125 saylı hesablar, ödəmə müddəti tamamlanana qədər saxlanılan qiymətli- kağızlar üzrə gəlirlərin əks olunduğu 60210-60214 və 60220-60224 saylı, ödəmə müddətli tamamlanana qədər saxlanılan qiymətli kağızlar üzrə diskontun amortizasiyası üzrə gəlirləri ifadə edən 60310-60314 və 60320-60324 saylı hesabların təhlili ilə müşayiət olunmalıdır.

Bankların faiz gəlirlərinin təhlili bütün istiqamətlərdə aparılmalıdır. Buraya kreditlərin başlıca istiqamətləri üzrə gəlirlərin təhlilini, müddətlərə görə kreditlərin gəlir gətirməsini, valyutalar üzrə gəlirlərin təhlilini, kreditlər üzrə faiz gəlirlərinin dinamik təhlilini aid etmək olar.

Qiymətli kağızlar üzrə faiz gəlirlərinin təhlilində onların ümumi məbləğinin bütün faiz gəlirləri ilə müqayisəsini, mütləq və nisbi kəmiyyətlərin dinamikasının təhlilini aparmaq, bunların bankın gəlirlərinin artmasına təsirinin aşkara çıxarılmasını təmin etmək lazımdır.

Bundan sonra, göstərilmiş xidmətlər üzrə haqq və komissiya gəlirləri milli valyutada və xarici valyutadakı hesablar üzrə təhlil edilməlidir. Bu məqsədlə müvafiq surətdə 67010-67017, 67019 saylı və 67020 -67027, 67029 saylı hesablar üzrə əldə edilən gəlirlər təhlil edilməlidir.

Digər əməliyyatlar üzrə haqq və komissiya gəlirləri milli valyutada 67030-67037, 67039 saylı hesablar və xarici valyutada 67040-67047, 67049 saylı hesablar əsasında aparılmalıdır.

Kommersiya banklarının dilinq əməliyyatları üzrə gəlirləri milli və xarici valyutada gəlirlərdən ibarətdir. Bu növ bank gəlirlərinin təhlili kredit təşkilatlarının 68010-68011, 68019 saylı və 68020-68021, 68029 saylı hesablarının təhlil olunmasını tələb edir.

Bankların dividend gəlirləri milli və xarici valyutada olmaqla, müvafiq surətdə 70130-70131, 70139 və 70140-70141, 70149 saylı hesabların, investisiyalar üzrə gəlilər milli valyutada 70017 saylı hesabın təhlilinin aparılması ilə təmin edilməlidir.

Kommersiya banklarında əsas vəsaitlər üzrə və qeyri-maddi aktivlər üzrə gəlirləri yalnız milli valyutada olmaqla 70014, 70015 saylı hesabların təhlili sayəsində təmin edilə bilər.

İncəsənət əsərləri, əşyaları, zərgərlik məmulatları və digər kolleksiya əşyaları üzrə və əsas vəsaitlər üzrə gəlirlər ayrı-ayrılıqda olmaqla, yalnız milli valyutada olan 70013-70014 saylı hesablardakı vəsaitlərin təhlilini tələb edir. Kommersiya banklarının digər gəlirləri isə milli valyutada 70110-70111, 70119 saylı hesabların və xarici valyutada 70120-70121, 70129 saylı hesabların təhlili əsasında xarakterizə edilməlidir. Onu da qeyd etmək olar ki, qeyri-adi gəlirlər digər gəlirlərdən fərqlidir. Ona görə də qeyri-adi gəlirlərin olub olmaması 72010 və 72020 saylı hesablara baxılmaqla müəyyən edilir.

Bütün yuxarıda göstərilən mənbələr üzrə gəlirlər müvafiq qruplar üzrə müəyyən edildikdən sonra bankın bütün gəlirlərinin təyin edilməsi imkanı yaranır. Bankın köməkçi gəlirlərinin və sair gəlirlərinin ümumi gəlirdəki payı müəyyən edilir. Müvafiq nisbətlər açıqlanır, bu gəlirlərin dinamikası, inkişafı meylləri müəyyən olunur. Baxmayaraq ki, bankların gəlirlərinin xarakteristikasında sabit gəlirlərin üstün yer tutması əlverişli hesab olunur, banklarda köməkçi fəaliyyətdən və sair mənbələrdən əldə edilən gəlirlərin kəmiyyətcə artması müsbət hal kimi qiymətləndirilir.

15.5. Kommersiya banklarının xərclərinin təhlili

Kommersiya banklarının xərcləri onların fəaliyyətinin təmin edilməsi və digər öhdəliklərinin yerinə yetirilməsi ilə əlaqədar onların pul vəsaitlərinin istifadəsidir. Bankların xərclərinin qruplaşdırılmasında gəlirlərin qruplaşdırılmasındakı yanaşma üsulunun tətbiqi özünü göstərir. Bunun həm bank işinin təşkili cəhətdən və həm də bankın fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə mənfəətlik səviyyəsinin, maliyyə nəticələrinin qiymətləndirilməsi üçün əhəmiyyəti vardır. Bankın xərclərinin təsnifləşdirilməsində gəlirlərin təsnifləşdirilməsi ilə uyğunluğu təmin et-

mək məqsədilə faiz xərcləri, qeyri faiz xərcləri, digər xərclərdən ibarət bölgünü qəbul etmək və təsərrüfat xərclərini əlavə etmək lazım gəlir.

Bankın xərclərinin xarakteristikasında bunların istehsal müəssisələrindəkindən fərqli spesifikası qeyd edilə bilər. Bunlar xammal və materiallara, əsas fondların istismarına xərclərin az olması və əmək haqqı xərclərinin nisbətən kiçik xüsusi çəkiyə malik olmasılə izah edilir.

Bu xüsusiyyətlər bank fəaliyyətinin incəlikləriIə bağlıdır. Onun əsasında duran isə, xərclərin necə törəməsidir. Bank resurslarının çox böyük hissəsi cəlb edilən, habelə borc vəsaitlərindən ibarət olduğu üçün bu vəsaitlərə görə ödənişlər aparılmalı olur və bunlar xərclərin əhəmiyyətli bir hissəsini təşkil edir. Bunların ödənişi forması faizlərin ödənişi olaraq qəbul edilmişdir və faiz xərcləri adlandırılır.

Bank xərclərinin böyük hissəsi faiz xərcləridir, o, məzmunca faizin ödənilməsilə nəticələnən bütün xərcləri əhatə edir. Buraya əhalinin əmanətlərinə görə, banklararası və mərkəzləşdirilmiş kreditlər, hüquqi şəxslərin depozitləri və buraxılmış borc öhdəliklərinə görə ödənilən faiz xərcləri aid edilir. Bunların arasında ən az xərc tələb edən müəssisə və təşkilatların cari hesabları üzrə ödənişlər ödənilən faizlərdən ibarətdir.

Banklararası kreditlər, əhalinin müddətli əmanətləri və hüquqi şəxslərin depozitlərinə görə faiz xərcləri yüksəkdir. Bu qeydlərin təhlil nöqteyi nəzərindən mənası ayrı-ayrı istiqamətlərdə faiz ödənişlərinin təhlil edilməsi və onların təsirlərinin aşkara çıxarılmasının zəruriliyilə izah edilə bilər.

Ümumi prinsip ondan ibarətdir ki, bankların faiz ödənişləri nə qədər çoxalarsa gəlirlərin azalmasına, azaldıqda isə gəlirlərin artmasına səbəb olur.

Kommersiya banklarının maliyyə bazarında əməliyyatlar aparması üçün sərf etdiyi xərclər qiymətli kağızların alınması, istiqrazlar üzrə kupon gəlirlərinin ödənilməsi və qiymətli kağızların yenidən qiymətləndirilməsi xərclərini əhatə edir.

Bankın fəaliyyətinin təmin edilməsi üçün sərf edilən xərclər iqtisadi nöqteyi – nəzərdən elə xərclərdir ki, onların birbaşa bankın bu və ya digər əməliyyatına aid edilməsi mümkün olmur, yaxud məqsədəuyğun sayılmır. Bu xərclərin həcmi bankın əməliyyatlarının ümumi həcmindən və bütünlükdə bankın fəaliyyətindən asılıdır.

Bankların xərcləri tərkibində digər xərclər adlanan qrup da vardır. Buraya cari ildə aşkara çıxarılan keçən illərdən qalma xərclər, kreditlər

üzrə borcların silinməsi ilə əlaqədar xərclər, ödənilən cərimələr, dəbbə, debitor borclarının silinməsi, müştərilərin iddiaları üzrə ödəmələr, əmlakların çatışmazlığı və mənimsəmələrin silinməsi xərcləri aid edilir.

Kommersiya banklarının xərclərinə eləcə də, müxtəlif itkilər və zərərlərin ödənilməsindən ötrü ehtiyatların yaradılması xərcləri də ayrıca qrup kimi aid edilir.

Müəssisələrdə olduğu kimi, banklarda da işçi heyətin saxlanması xərcləri mövcuddur. Lakin, banklardakı heyət, tərkibinə və işinin xarakterinə görə tamamilə fərqlidir. Bank işçilərinin əməyi intellektual əməkdir, spesifik bilik tələb edir. Fəaliyyət sferasına görə təşkil edilən bank daxili vəzifələrdə və şöbələrdə çalışan işçilərdən məsuliyyətli işlərin yerinə yetirilməsi tələb olunur. Yerinə yetirdikləri işlərdən asılı olmaqla, onlar müvafiq ad daşıyırlar. Məsələn kassirlər, əməliyyatçılar, iqtisadçılar, mühasiblər və s.

Banklarda işçi heyətin təşkili və idarə olunması məzmunca geniş, əlahiddə mövzudur.

Burada onun xərcləri məsələsini göstərmək lazımdır. Banklarda əməyin qiymətləndirilməsi, stimullaşdırılması dünya praktikasında yer almış məsələdir.

Banklarda işçi heyətinin əmək haqqı əsas əmək haqqından və əlavə əmək haqqından ibarətdir. Bank işçilərinin vəzifə maaşları əməyin ödənilməsinin əsas forması kimi çıxış edir. Əlavə əmək haqqı isə, əməyin yekun nəticələrinə görə müəyyən edilməklə, ayrıca işçiyə ya da kollektivə verilə bilir. Banklarda işçilərə çəkilən xərclər bu və ya digər bankda həcm və səviyyəsi cəhətdən fərqli ola bilər. Bu xərclərin xarakterinə və tərkibinə gəldikdə, burada ümumilik vardır.

Bankların xərcləri tərkibində digər əməliyyat xərcləri xüsusi yer tutur. Bura əsas vəsaitlər üzrə təmir və saxlanma xərcləri, əsas vəsaitlər və qeyri maddi aktivlər üzrə digər xərclər, inzibati xərclər (rabitə, reklam, ezamiyyə, məsləhət, audit, icarə), digər xərclər (mülki müdafiə xərcləri, ümidsiz borclar üzrə xərclər, hərrac xərcləri, ödənilmiş cərimə və dəbbə məbləğləri, məhkəmə, verqi və digər xərclər), qeyri adi xərclər və mənfəət vergisi üzrə xərclər aid edilir.

Bu xərclər bankların fəaliyyətinin nəticələrinə təsir göstərir və müvafiq əsaslarda təhlil edilməlidir.

Bankın bütün xərclərinin məcmusu müəyyən edildikdən sonra, təhlil hər bir xərc qrupu üzrə müvafiq sınanmış, məlum üsullarla aparılır.

$$\textit{Əməliyyat xərclərinin payı: } \frac{\textit{Əməliyyat xərcləri}}{\textit{Cəmi xərclər}}$$

$$\textit{Ödənilən faizlərin payı: } \frac{\textit{Bankın ödədiyi \%-lər məbləği}}{\textit{Cəmi xərclər}}$$

$$\textit{Cərimələr: } \frac{\textit{Cərimələrin məbləği}}{\textit{Cəmi xərclər}}$$

$$\textit{Heyətin xərcləri: } \frac{\textit{Heyətin saxlanmasına xərclər məbləği}}{\textit{Cəmi xərclər}}$$

Xərclərin təhlilində ayrı-ayrı xərclərin bank aktivlərinin hər 1 manatına düşən payının müəyyən edilməsi də qəbul edilir.

Bankların xərclərinin təhlili bütün növlərdə əməliyyatlar, xidmətlər və əlaqələrin təşkili və həyata keçirilməsi üçün sərf olunan xərcləri əhatə edir. Bu və ya digər bankda xərclərin tərkibi yalnız onun fəaliyyətində meydana çıxan xərclərlə məhdudlaşır.

Azərbaycan Respublikasında bankların xərclərinin geniş tərkibdə hesblarda əks etdirilməsi, yəni onların detallaşdırılmış konkret istiqamətləri müəyyən edilmişdir. Hər bir bankda bu xərclərin özünə aid olanlarının təhlili aparıla bilər.

I. Maliyyə sektoru və beynəlxalq maliyyə institutları qarşısında öhdəliklər üzrə faiz xərcləri:

- 1. AMB qarşısındakı öhdəliklər üzrə: 81010-81014 və 81020-81024 saylı hesablar əsasında faiz xərclərinin təhlili.
- 2. Beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə: 81510, 81511 81512 və 81520, 81521, 81522 saylı hesablar əsasında faiz xərclərinin təhlili.

II. Dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlar və xarici dövlətlərin rəsmi idarələri qarşısında öhdəliklər üzrə faiz xərcləri:

- 1. Dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və icti-

mai təşkilatlar qarşısında öhdəliklər üzrə 82310-82317, 82319, 82320-82327, 82329 saylı hesablar əsasında faiz xərclərinin təhlili.

- 2. Xarici dövlətlərin rəsmi idarələri qarşısında öhdəliklər üzrə 82610, 82611, 82619 saylı və 82620, 82621, 82629 saylı hesablar əsasında faiz xərclərinin təhlili.

III. Fiziki şəxslər və fərdi sahibkarlar qarşısında öhdəliklər və digər faiz xərcləri:

- 1. Fiziki şəxslər və fərdi sahibkarlar qarşısında öhdəliklər üzrə 84010, 84015, 84020, 84025 və 84030, 84035, 84040 saylı hesablar əsasında faiz xərclərinin təhlili.
- 2. Digər faiz xərcləri üzrə: 85130, 85139, 85140, 85149 saylı hesabların təhlili.

IV. Göstərilmiş xidmətlər üzrə haqq və komissiya xərcləri üzrə:

- 1. Göstərilmiş xidmətlər üzrə haqq və komissiya xərcləri 87010-87019 saylı, 87020-87029 saylı hesablar əsasında xərclərin təhlili.
- 2. Digər əməliyyatlar üzrə haqq və komissiya xərcləri: 87030-87039 saylı və 87040-87049 saylı hesablar əsasında xərclərin təhlili.
- 3. Beynəlxalq maliyyə institutları ilə hesablaşmalar üzrə haqq və komissiya 87110, 87119 saylı və 87120, 87129 saylı hesablar əsasında xərclərin təhlili.

V. Digər əməliyyatlar xərcləri:

1. İşçilərə sərf olunan xərclər: 90020-90029 saylı hesabların təhlilinə əsaslanır.
2. Nağd pul və nağd pulun ekvivalentləri üzrə xərclər: 90030-90033 və 90039 saylı hesabların təhlilinə əsaslanmalıdır.
3. Əsas vəsaitlərin köhnəlmə və qeyri-maddi aktivlərin amortizasiya xərcləri 90040-90048 saylı hesablarının təhlilinə əsaslanır.
4. Əsas vəsaitlərin təmiri və saxlanma xərcləri: 90050-90057 sayların təhlili əsasında əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə digər xərclər 90070-90077 saylı hesabların təhlili əsasında inzibati xərclər 90080-90089 saylı hesabların və digər xərclər

90110-90116, 90118 və 90119 saylı hesabların təhlili əsasında aparılmalıdır.

VI. Qeyri-adi xərclər üzrə:

- 92010 və 92020 saylı hesabların təhlili.

VII. Mənfəət vergisi üzrə xərc:

- 93010 saylı hesabın təhlilinə əsaslanmalıdır.

Kommersiya bankları yuxarıda göstərilən xərclərdən başqa demək olar ki, bütün əməliyyatları üzrə ehtimal olunan zərərlər üçün ehtiyatların yaradılmasına vəsaitlər ayırır ki, bunlar həmin kredit təşkilatlarının xərcləri kimi mənalandırılır. Onlar çoxsaylı hesablarla təmsil olunur və zərərin baş verdiyi təqdirdə onun ödənilməsinə yönəldilir. Əlahiddə hallarda, zərərlərin baş verdiyi təqdirdə müvafiq hesablar təhlil edilə bilər.

Aparılan təhlil sayəsində bankların xərclərinin dinamikası qiymətləndirilməli, alınan nəticələr analoji dövrlər üzrə gəlirlərin dinamikasının qiymətləndirilməsi ilə müqayisə edilməlidir. Bankın xərcləri tərkibində faiz ödənilməsi xərclərinin xüsusilə böyük yer tutması ilə əlaqədar olaraq, onun təhlili mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə ayrıca bir göstərici müəyyən edilmişdir. Faiz marjası adlandırılan bu göstərici bankın faiz gəlirləri ilə faiz xərcləri arasındakı fərq şəklində təyin olunur.

Bundan başqa məlum qaydada faktiki faiz marjası əmsalı hesablanır. Bu ibarətdir:

$$\frac{\textit{Faiz marjası}}{\textit{Gəlir gətirən aktivlərin orta kəmiyyəti}}$$

Həmin nisbi kəmiyyəti əmələ gətirən, bu göstəricinin hesablanmasında əsas götürülən məlumatlar eyni dövrü əhatə etməlidir. Analoji əmsallar bankın kredit əməliyyatları üzrə müəyyən edilə bilər.

Bankın hesabat dövrüdə yerinə yetirdiyi kredit əməliyyatları üzrə faiz marjasına görə əmsalın müəyyən edilməsi üçün mövcud qaydada qəbul edilir:

$$\frac{\textit{Kreditlər üzrə \% məbləği - kredir resurslarına görə ödəniş \%-lərin məbləği}}{\textit{gəlir gətirən aktivlərin orta qalığl}}$$

Bu kimi təhlilin rolunu artırmaq üçün onların faktiki göstəricilər əsasında hesabat dövrü üçün hesablanması ilə kifayətlənmək olmaz. Proqnozlaşdırılan haqq-hesablarda təhlilin bu kimi nəticələrindən istifadə etmək lazım sayılır. Söz yox ki, bankın gəlirlərinin və xərclərinin təhlili bankın maliyyə fəaliyyətinin incəliklərini, xüsusiyyətlərini aşkara çıxarır. Bu təhlil ümumilikdə bank fəaliyyətinin qiymətləndirilməsi yolunda mühüm mərhələ, yaxud prosesin astanasıdır.

Ona görə də, yuxarıda göstərilən üsullarla təhlil aparıldıqdan sonra bankın gəlirləri və xərclərinin qiymətləndirilməsi lazım gəlir.

Bank fəaliyyətinin qiymətləndirilməsinin onun səmərəliliyinə və rentabelliyinə əsaslanması, səmərəliliyin isə mənfəətin artırılmasından, bunun da öz növbəsində bankın gəlirləri və xərclərindən bilavasitə asılı olması əsas götürülməklə, zəncirvari əlaqələrdən yaranan bir-birindən asılı olan bağlantılardan nəticə çıxarmaq olar ki, gəlirlərin və xərclərin təhlili müvafiq qiymətləndirmələrlə yekunlaşdırılmalıdır.

Mütəxəssis iqtisadçıların mübahisəsiz qəbul etdikləri qaydalara görə, bankların gəlirləri və xərclərinin qiymətləndirilməsinin əsas üsulları onların struktur təhlilindən ibarətdir. Eyni zamanda, bu o şərtlə öz bəhərəsini verə bilər ki, araşdırma dinamika halında bir sıra illəri əhatə etsin, gəlirlər və xərclər kifayət qədər detallaşdırılmaqla, təsvirini tapmaqla qiymətləndirilsin.

Aparılan bu istiqamətli təhlil bankın gəlirlərinin və xərclərinin mövcud bank qabağı məkan, bazarın vəziyyəti və bankın imkanları nəzərə alınmaqla optimal strukturunun formalaşdırılmasına xidmət edir.

15.6. Kommersia banklarının mənfəəti və rentabelliyi

Bankların fəaliyyətinin səmərəliliyi onların mənfəətinin həcmi ilə, konkret hallarda onun digər əlaqədar göstəriciləri və mənfəəti arasındakı nisbətlərlə səciyyələnir. İstisnasız olaraq bankın mənfəəti onun fəaliyyətini əks etdirən ən əsas göstərici hesab olunur. Bank mənfəətinin əmələ gəlməsinin əsasını təşkil edən onun əldə etdiyi gəlirlə sərf edilən xərcləri arasındakı fərqdir. Çəkilən xərclərə nisbətən gəlirlərin çox olması mənfəət əldə edilməsinin zəruri şərtidir. Ona görə də, bank mənfəətinə təsir edən amillərin detallaşdırılmış xarakteristikası və izahı gəlir

mənbələrinin və xərc elementlərinin müfəssəl təhlillə səciyyələndirilməsində öz ifadəsini tapa bilər.

Həmin səpgidə xeyli məlumat elə bu fəslin bundan əvvəlki «Kommersiya banklarının gəlirlərinin təhlili» və «Kommersiya banklarının xərclərinin təhlili» başlıqları altındakı paraqraflarda verilmişdir. Bununla belə, bank mənfəətinin təhlilində bu təşkilatların gəlirləri və xərclərinin həlledici əhəmiyyətə malik olduğunu diqqətdə saxlamaq, bir daha vurğulamaq vacibdir. Çünki, mənfəət bunlarla hədsiz dərəcədə əlaqədardır.

Mənfəətin kommersiya banklarının maliyyə nəticəsi olmasını bilməklə yanaşı, onun əksi olan nəticələrin də unudulmaması lazımdır. Əgər bankın xərcləri onların gəlirlərini üstələyərsə, onda zərərin baş verməsi meydana çıxır ki, buna yol verilməsi bir sıra səbəblərdən irəli gələn haldır. Mənfəətin bank işində rolu sadəcə görüntü nəticəsi deyil, o keçən dövr ərzindəki fəaliyyətin qiymətləndirilməsi ilə bitmir. Mənfəət bankın bir sıra zəruri ehtiyaclarının ödənilməsinə xidmət etməklə, onun kapital bazasının möhkəmləndirilməsinə, potensialının gücləndirilməsinə xidmət edir. Mənfəət maliyyə nəticələrinin ümumiləşdirilmiş göstəricisi olmaqla, bankın gəlirlərinin cəmi məbləği ilə xərclərinin cəmi məbləği arasındakı fərqlə müəyyən olunur. Bu göstəriciyə ümumi mənfəət, yaxud balans mənfəəti kimi baxıla bilir.

Əslində bank mənfəətini əmələ gətirən onların gəlirlərinin bütün mənbələri və xərclərinin bütün istiqamətləri arasındakı fərqlərdən ibarətdir. Deyildiyi kimi, onların təfsilatı yuxarıda verilmişdir. Burada bank mənfəətinin qruplar halında ifadəsini vermək olar. Əməliyyat mənfəəti, komissiya mənfəəti, maliyyə bazarlarındakı fəaliyyətdən əldə edilən mənfəət, başqa fəaliyyət növlərindən əldə edilən mənfəət. Bunlar bankın məcmu mənfəətini birlikdə formalaşdırır.

Bankın mənfəətini formalaşdıran amillər (səbəblər) aidiyyəti üzrə çoxsaylı gəlir hesablarında və çoxsaylı xərc hesablarında yer almış olur. Mənfəətə gəldikdə, o, yaranma dövründən asılı olmaqla, «Keçmiş illərin mənfəəti, zərəri» sinifində və «Maliyyə ilinin mənfəəti, zərəri» sinfində əks etdirilir.

Bankın hesabat ilində əldə etdiyi mənfəət onun balans mənfəəti olmaqla özünəməxsus əhəmiyyət kəsb edir və digər bəzi göstəricilərə təsir göstərir. Amma, balans mənfəətindən başqa bankdakı mənfəəti qiymətləndirmək və ondan istifadə olunmasını təmin etmək, səciyyələndirmək üçün kommersiya bankının xalis (təmiz) mənfəəti müəyyən edilməlidir.

Başqa sözlə, xalis mənfəət bankın sərəncamında qalan mənfəət kimi xarakterizə olunur. Yəni, müəyyən olunmuş (habelə qanunlaşdırılmış) əsaslarla bankın ümumi mənfəətindən çıxılmalar vardır ki, onlar ayrılıb öz təyinatına görə köçürüldükdən sonra yerdə qalan məbləğ bankın xalis mənfəəti olaraq qəbul olunur. Kommersiya bankının xalis mənfəəti bankın gəlirinin məcmu məbləğindən onun bütün xərclərinin ödənilməsi məbləği çıxılmaqla müəyyən edilir. Bu xərclərə eləcə də ehtiyatların yaradılması, irəlicədən bilinməyən (görülməyən) xərclər və mənfəətdən vergilərin ödənilməsi daxildir.

Kommersiya banklarının mənfəətinin təhlilində buna təsir edən ən başlıca amillərin-gəlirlər, xərclər və dövlət büdcəsinə ödənilən vergilərdən ibarət olması əsas götürülməklə, həmin elementlərin artım tempinin müqayisə edilməsi ön planda durur. Bu müqayisə sayəsində onlardan hansının mənfəət məbləğinə müsbət, hansının mənfi təsir göstərdiyi müəyyən edilir. Belə yanaşma ilə mənfəətin təhlili bank əməliyyatlarının gəlirliyinin ümumi mənzərəsini bilməyə xidmət edir.

Kommersiya bənklarında xalis mənfəətin müəyyən edilməsinin formalaşmış və elmi məktəblər tərəfindən qəbul edilmiş qaydalarına əsasən, haqq-hesab aparılır: Xalis faiz gəlirləri və ona uyğun gəlirlər; xalis komission gəlirləri; cari gəlirlər; xalis cari gəlirlər (ehtiyatlar yaradılmazdan əvvəl və irəlicədən bilinməyən xərclər nəzərə alınmadan) və nəhayət mənfəətdən vergi ödənilənədək xalis gəlir müəyyən edilir. Bunların hər biri hesablanmaqla aşkara çıxarılır.

Bundan sonra hesabat ilinin xalis mənfəəti zərəri təyin edilir. Bu zaman vergi ödənilməzdən əvvəlki xalis gəlir məbləğindən çıxarılır: mənfəət vergisi; mənfəət vergisi üzrə ödənişi təxirə salınmış məbləğ; vergiyə cəlb edildikdən sonra irəlicədən bilinməyən xərclər.

Balans mənfəəti və xalis mənfəət bilindikdə onların nisbi kəmiyyətləri tapıla bilər.

Bir səhmə görə balans mənfəətini hesablamaq üçün balans mənfəətinin məbləği satılmış səhmlərin sayina bölünməlidir. Bir səhmə görə xalis mənfəətin həcmi isə bankın xalis mənfəətinin satılmış səhmlərin sayına bölünmasi ilə müəəyən edilməlidir. Bir bank işçisinə görə balans mənfəətin müəyyən edilməsindən ötrü balans mənfəətinin məbləği bankın işçilərinin sayına bölünür. Bir bank işçisinə görə xalis mənfəətin bankın xalis mənfəət məbləğinin bank işçilərinin sayına bölünməsi ilə müəyyən edilir.

Mənfəətə kommersiya banklarında maliyyə nəticələrinin göstəricisi kimi yanaşılmaqla, bank əməliyyatları üzrə ayrı-ayrılıqda maliyyə nəticələri müəyyən edilə bilər. Həmin əməliyyatlar üzrə gəlirlərin xərclərdən artıq olması bu əməliyyatın mənfəətini, əks təqdirdə bu əməliyyat üzrə zərərli nəticə olduğunu göstərir.

Bu məntiqlə aşağıdakı təhlil aparılmalıdır:

Bank fəaliyətinin maliyyə nəticələri

Gəlir gətirəbilən əməliyyat və xidmət növləri	Gəlirlər	Xərclər	Mənfəət
Qiymətli kağızlarla əməliyyatlar			
Maliyyə sektoru və beynəlxalq maliyyə institutları ilə hesablaşmalar			
Büdcə təşkilatları, dövlət fondları. dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlarla hesablaşmalar			
Dövlət mülkiyyətində olmayan hüquqi şəxslərlə hesablaşmalar			
Fiziki şəxslər və fərdi sahibkarlara verilmis kreditlər			
Göstərilmiş xidmətlər			
Dilinq əmliyyatları və törəmə maliyyə alətləri üzrə əməliyyatlar			
Digər əməliyyatlar			
Cəmi			

Təhlilin dərinləşdirilməsi üçün bankın gəlirlərini əmələ gətirən mənbələrin və xərclərini ifadə edən elementlərin daha detal təhlilini aparmaq olar. Bu məqsədlə, əvvəlcə bankın faiz gəlirləri üzrə planlaşdırdıqları ilə faktiki gəlirləri üzləşdirilməklə kənarlaşmalar müəyyən edilməlidir. Təhlilin bu mərhələsində, əldə edilən faiz gəlirlərinin ssuda növləri üzrə faktiki kəmiyyəti proqnoz göstəriciləri ilə müvafiq şəkildə müqayisə edilməklə kənarlaşmalar müəyyən olunur (+, -). Bu zaman qısamüddətli

ssudalar, uzunmüddətli və müddəti ötmüş ssudalar üzrə nəticələr (+, -) mənfəət baxımından qiymətləndirilir.

Xərclərin mənfəətə təsirlərinin müəyyən edilməsində faktiki xərclərin smetadan kənarlaşması və yol verilən artıq xərcləmələr aşkara çıxarıla bilir.

Xərclərin artmasının smetadakından kənarlaşması ilə yanaşı onun artım tempi, 1 manatlıq gəlirə düşən xərclər, habelə xərclərin artım tempi və onun gəlirlərin artım tempi ilə müqayisə edilməsi lazımdır. Xərclərin 1 manat artımına düşən gəlir artımı əhəmiyyətli bir məsələdir.

Hesab edilir ki, xərclərin faktiki proqnoz göstəricilərinin xərc maddələr ilə ardıcıl müqayisəsi vəsaitlərin məqsədli istifadəsini müəyyən etməklə yanaşı, xərclərdə qənaət üçün ehtiyatların aşkara çıxarılmasına xidmət edir. Aparılan təhlilin nisbətən dərinləşməsi ilə müşayiət olunan bu mərhələdə əməliyyat xərcləri və onun tərkib elementlərinin hər birinin ayrı-ayrılıqda olmaqla qənaətlə başa çatdırıldığı, yoxsa xərc artıqlığı ilə başa gəldiyi aşkara çıxarılır.

Anoloji olaraq, idarəetmə aparatının saxlanması xərcləri və onun tərkib elementlərinin faktiki kəmiyyətləri müvafiq proqnoz məbləğləri ilə müqayisə edilməlidir. Bu ondan irəli gəlir ki, bank mənfəətinin təmin edilməsi və artırılması üçün hər bir maddə üzrə yol vermiş artıq xərc müəyyən edilməlidir. Özünü doğrultmayan xərclər gələcəkdə qənaət üçün ehtiyatlar hesab edilməlidir, bu da öz növbəsində bankın gəlirinin artırılması üçün ehtiyatlara aid edilə bilir.

Bankın xərclərinin təhlili haq-hesabına əsasən bankın xərclərində qənaət ehtiyatları müəyyən edilə bilir. Əgər xərclərdə israfa yol verilmişsə, müvafiq qaydalarda bank rəhbərliyinin nəzarəti gücləndirməsi tədbirləri görülməli olur.

Bankın balans mənfəətinin təhlili vacib bir mərhələni təşkil edir. Bu məsələdə təhlil balans mənfəətini əmələ gətirən fəaliyyət istiqamətləri üzərində aparılır. Bu mənada təhlilin istiqamətləri kreditlərin realizasiyasından əldə edilən mənfəət, xidmətlərin göstərilməsindən mənfəət və satışdan kənar əməliyyatlardan əldə edilən mənfəətdən ibarət olur. Həmin göstəricilərin faktiki və proqnoz məbləğləri tutuşdurulmaqla kənarlaşmann mütləq məbləği və onun nə səviyyədə olması (faizlə) müəyyən olunur.

Sonra hər üç mənbə üzrə mənfəətin faktiki məbləğləri toplanmalı və balans mənfəətinin proqnoz kəmiyyəti ilə müqayisə olunaraq fərq müəy-

yən edilməlidir.

Həmin yanaşma bankın balans mənfəəti haqqında ümumiləşdirilmiş nəticəyə gəlmək imkanı verir. Eyni zamanda, balans mənfəətinin formalaşmasında mənbələrin xüsusi çəkisi təyin olunaraq onların rolu aşkara çıxarıla bilər. Mənfəətin artırılması üçün ehtiyatların müəyyən edilməsi bu sahədə təhlilin başa çatdırılmasını təmin etmiş olur.

Bank mənfəətinin təhlilində əvvəlki paraqraflarda öz ifadəsini tapmış olan metodlardan istifadə oluna, yəni mənfəətin mənbələrinin struktur təhlili, amillər üzrə (faktor) təhlili, maliyyə əmsallarının tətbiq edilməsi ilə mənfəətin təhlili aparıla bilər.

Mənfəətin struktur təhlili artıq elə bu fəsildə lazımınca yer almışdır. Amillər üzrə təhlil bankın rentabelliyi anlayışına gətirib çıxarır ki, bu məsələyə irəlidə baxılır.

Mənfəətin təhlilində maliyyə əmsalları sistemindən istifadəyə gəldikdə, burada məsələ bankın fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinə gəlib çatır. Bu halda təhlilin əhəmiyyəti bilavasitə mənfəətin təhlilindən, mənfəətin qiymətləndirilməsindən bankın fəaliyyətinin qiymətləndirilməsi səviyyəsinə yüksəlir. Bu özünü bank kapitalının gəlirliyi əmsalı ilə, bank aktivlərinin gəlirliyi əmsalı və s. -də göstərir.

Bank mənfəətinin əldə edilməsi, formalaşması əlbəttə ki, başlıca məsələdir. Onun bölüşdürülməsi və istifadəsi ilə bank mənfəətinin yaradılması məqsədlərinin öz həllini tapması başa çatdırılır. Əlbəttə ki, bu təkrarlanan proses olaraq davam etdirilir.

Kommersiya banklarının məcmu mənfəətindən, yaxud balans mənfəətindən dövlət büdcəsinə ölkənin vergi qanunvericiliyində müəyyən edilən qaydada vergilər və digər məcburi ödəmələr ödənilir. Bundan sonra qalan mənfəət bankın sərəncamında qalmaqla xalis (təmiz) mənfəət şəklini alır. Müxtəsər deyilsə, xalis mənfəət hər bir bankın özü tərəfindən bölüşdürülür. Bölüşdürmə, müəyyən olunmuş istiqamətlər üzrə mənfəətdən müvafiq məbləğin ayrılıb təyinatı üzrə köçürülməsi yolu ilə tamamlanıb başa çatdırılır. Bu zaman mənfəətdən yığım fondlarına ayrılır. Sonra xüsusi təyinatlı fondlara və ehtiyat fonduna vəsait yönəldilir, bankın səhmdarlarına dividendlər ödənilir.

Bankın yığım fonduna ayırdığı vəsait nizamnamə fonduna və əgər başqa yığım xarakterli fondlar varsa onlara daxil edilməlidir. Xüsusi təyinatlı fondlar da məqsədli xarakter daşıyır. Onlar istehlak məqsədlərinə xidmət edir. Yəni mənfəətdən xüsusi təyinatlı fondlara ayrılan vəsaitlər

bank kollektivinin sosial inkişafına, istehlakına və xeyriyyəçilik məqsədlərinə istifadə olunur.

Əgər banklarda xalis mənfəətin istifadəsinin təfsilatına varmaq istəsək, bu zaman geniş və rəngarəng mənzərə ilə qarşılaşarıq. Bu qəbildən əsas fondların yaradılması və yenidən qurulması xərclərini, büdcədənkənar dövlət fondlarına məcburi ayırmaları, sağlamlığın qorunması və digər sosial xərcləri, maddi kömək, mükafatlar, bankın filialları və nümayəndəliklərinin saxlanması ilə bağlı xərcləri, qanuni qaydalarda sanksiyalar əsasında dövlət büdcəsinə ödəmələri və s. -ni göstərmək olar.

Bütün bunlar bank mənfəətinin strukturu, həcmi, dinamikası, mənbələrinin təhlilindən sonra aydınlaşdırılaraq, onların bank qanunçuluğuna, smetaya, səhmdarların qəbul etdiyi qərarlara uyğunluğunun müəyyən edilməsi ilə öz təsdiqini tapır.

Bank fəaliyyətinin maliyyə aspektinin qiymətləndirilməsində rentabelliyin böyük əhəmiyyəti və yeri vardır. Demək olmaz ki, bununla həmin məsələdə mənfəətin rolu azdır. Yox, belə deyil. Mənfəət məbləği mütləq, həcm göstəricidir. O, bankın zərərsiz, səmərəylə işlədiyini göstərir. Amma, rentabellik vasitəsilə mənfəətin əlaqədar göstəricilərlə nisbəti ifadə olunur. Bazar iqtisadiyyatı şəraitində bankın mənfəti hansı vasitələrlə yəni, nə kimi vəsaitlərə malik olmaqla əldə etməsinin böyük iqtisadi mənası vardır. Bu cəhətdən mənfəətin bankın sərf etdiyi xərclərlə nisbi göstəricilər əsasında müqayisəsi bu təşkilatın rentabelliyinin təhlilini ifadə edir. Buradan da bankın mənfəətliliyinin xarakteristikasının tamamlayıcı göstəricisi olan rentabelliyin təhlilində təkcə bir göstəricidən yox, əlaqədar bir-neçə göstəricidən istifadə edilməsi zərurətinin olması meydana çıxır. Belə göstəricilər bank işinin dünya təcrübəsindən irəli gəlmiş, elmi dairələr tərəfindən qəbul edilmişdir. Bu cəhətdən kredit təşkilatlarının fəaliyyəti xüsusiyyətlərindən, zaman və məkandan, maliyyə vəziyyətindən asılı olmaqla, bu və ya digər göstəricinin nə dərəcədə əhəmiyyətli olması aydınlaşdırıla bilər. Bundan irəli gələrək, biz bankların rentabelliyini səciyyələndirən hesab etdiyimiz başlıca istiqamətləri seçib göstərməyi lazım bilirik.

Bank fəaliyyətinin səmərəliliyinin əsas dəyər göstəricilərindən biri olmaqla, rentabellik bir qayda olaraq əmsalların hesablanması ilə aşkarlanır. Bu əmsallardan ən birincisi olaraq bankın ümumi rentabelliyi göstəricisi təqdim oluna bilər. Paraqrafın axırında verilən düsturlar siyahısına bax.

Bu göstərici vasitəsilə bankın ümumilikdə rentabellik səviyyəsi qiymətləndirilir. Həm də, bu gəlirin hər 1 manatında neçə qəpik mənfəətin təmsil olunduğunu ifadə edir.

Bankın rentabelliyini ümumilikdə əks etdirən bu maliyyə göstiəricisinin (olsun ki, başqa əmsalların da) səviyyəsinin qiymətləndirilməsi həmin dövr üçün bankın kredit siyasətində təyin edilən standartlara əsaslanmalı olur.

Kommersiya banklarının rentabelliyinin təhlilində onun gəlirlərə görə müəyyən edilməsindən sonra maliyyə əmsallarının kapitala görə müəyyən edilməsinə əhəmmyyət verilir. Aydındır ki, burada söhbət bankın malik olduğu kapitaldan gedir. Bu cəhətdən dünya praktikasında bankın səhmdarlarının ödəmiş olduğu kapitala görə mənfəətlik gösiəricisi öndə durur (Düsturlar siyahısına bax).

Bu halda rentabellik balans mənfəəti və ya xalis mənfəət əsas götürülməklə müəyyən edilə bilər. Həmin maliyyə əmsalının əhəmiyyətinə gəldikdə, o, ödənilmiş səhmdar kapitalına görə mənfəəti xarakterizə etdiyi üçün, səhmdarları və olsun ki, bu bankın səhmdarı olmaq niyyətində olanları çox maraqlandırır. Çünki, burada bankın səhmdarları tərəfindən qoyulan kapitalın gəlir gətirməsi meydana çıxır. Hesab edilir ki, potensial investorlar müxtəlif banklarda R_1 –in vəziyyətini bilməklə münasib qərara gələ bilərlər.

Maliyyə göstəricisi bankın bütünlükdə xüsusi kapitalına görə müəyyən edilə bilər (Düsturlar siyahısına bax).

Rentabellik xüsusi kapitalın həcmindən asılı olaraq dəyişir.

Həmin göstəricinin lazımı səviyyədə olması bankın xüsusi kapitalının mənfəət gətirməyə qadir olduğunu göstərir. Digər tərəfdən isə, xüsusi kapitalın real artımına şərait yaradır. Bankın rentabelliyi eyni zamanda, onun aktivlərinin vəziyyətindən asılıdır. Aktivlərin rentabelliyi göstəricisi bankın rentabelliyinin qiymətləndirilməsi üçün mühüm maliyyə əmsallarından biridir. (Düsurların siyahısına bax)

Bu göstərici bank aktivlərinin mənfəət gətirmək qabiliyyətini səciyyələndirir. Yəni, aktivlərin keyfiyyəti hər bir halda mənfəətin əmələ gəlməsində mühüm amillərdən biri kimi özünü göstərir. Bununla belə, bankın öz aktivlərini necə idarə etməsinin rentabelliyə təsiri də əhəmiyyətli məsələdir.

Bank işi praktikasında cari və strateji məqsədlərdən asılı olaraq rentabelliyin təhlilində yuxarıda göstərilənlərdən əlavə digər variantlar

da tətbiq oluna bilər. Əlbəttə ki, bu, ayrı-ayrı bankların özlərindən asılı olan məsələdir.

Lakin dünyəvi təcrübədən bu sahədə başlıca istiqamət məlumdur. Bunlar bankın aktiv əməliyyatlarının ayrı-ayrı növləri üzrə rentabelliyin təhlilidir.

Həmin istiqamətlərdə bankın kredit, investisiya, valyuta və s. əməliyyatlarının rentabelliyi təhlil oluna bilər.

Kredit əməliyyatlarının gəlirliyi timsalında rentabelliyin təhlilində bir neçə əlaqədar əmsal hesablana bilər. (Düsturlar siyahısına bax).

Müvafiq surətdə, birinci əmsal kredit qoyuluşlarının bir manatına düşən mənfəəti göstərir. İkinci əmsal qısamüddətli kreditlərin bir manatına və üçüncü əmsal bir manatlıq uzunmüddətli kredit qoyuluşuna neçə qəpik mənfəət əldə edildiyini göstərir. Zahirən sadə görünsə də, bankların maliyyəsi üçün bunların böyük mənası vardır.

Əməliyyat növlərinin çoxluğu şəraitində hər bir eyni tipli əməliyyat üzrə gəlirlər müəyyən edilməklə, həmin aktiv əməliyyat növünün xərcləri ilə müqayisə edilir. Aktiv əməliyyatlardan hansının nə dərəcədə gəlir gətirdiyi nisbi göstəricilərdə öz ifadəsini tapa bilər. Bunlar birlikdə və ayrı-ayrılıqda baxılmaqla bank əməliyyatlarının rentabelliyinin yüksəldilməsi məqsədlərinə xidmət etməlidir.

Aparılan təhlil sayəsində müəyyən edilə bilir ki, aktivlərin rentabelliyi bankın fəaliyyətini əks etdirir. Amma, burada heç də bütün aktivlərin mənfəət gətirmədiyi kölgədə qala bilər. Ona görə də gəlir gətirməyən aktivləri kənara qoymaqla əlavə bir hesablamaya ehtiyac qalır. Yalnız gəlirli aktivlər əsasında bankın rentabelliyini müəyyən etmək olar. (Düsturlar siyahısına bax).

Bununla da gəlirli aktiv əməliyyatların hər 1 manatına düşən mənfəət məbləği (qəpiklə) müəyyən edilə birlər.

Yuxarıdakı təhlil üsullarından faydalanmaqla aparılan araşdırmalar ən mənfəətli, bankın maliyyə vəziyyətinin yüksəldilməsində başlıca rol oynayan əməliyyat növlərinin bilinməsi bankın fəaliyyətində, siyasətində, perspektiv inkişaf istiqamətlərin təyin olunmasında öz bəhrəsini verər.

Banklarda rentabelliyin təhlili üçün istifadəsi qəbul edilən düsturlar:

I. Ümumi rentabellik

$$ÜR = \frac{m}{bg} x100\%$$

Burada: ÜR –ümumi rentabellik;
m – mənfəət; ***bg*** – bankın gəliri

II. Ödənilmiş səhmdar kapitalına görə bankda rentabelliyin müəyyən edilməsi.

$$R_1 = \frac{m}{sk} x100\%$$

Burada: R_1 – rentabellik; ***sk*** – səhmdar kapitalı.

III. Bankın bütünlükdə xüsusi kapitalına görə mənfəətin müəyyən edilməsi.

$$R_2 = \frac{m}{xk} x100\%$$

Burada: R_2 – rentabellik; **xk** – xüsusi kapital.

IV. Bank aktivlərinin rentabelliyinin qiymətləndirilməsi.

$$R_3 = \frac{m}{ba}$$

Burada: R_3 – aktivlərin rentabelliyi;
ba – balans aktivlərinin orta illik məbləği.
Bankın kredit əməliyyatları üzrə rentabellik əmsalları.

V. 1. Bütün kreditlər üzrə rentabellik əmsalı

$$R_4 = \frac{km}{K}$$

Burada: R_4 – bütün kreditlər üzrə rentabellik əmsalı;
km – kredit əməliyyatlarından mənfəət;
K - verilən kreditlərin ümumi məbləği.

V.2. Qısamüddətli kreditlər üzrə rentabellik əmsalı

$$R_5 = \frac{qm}{kq}$$

Burada: R_5 – qısamüddətli kredit əməliyyatları üzrə rentabellik əmsalı;

qm – qısamüddətli kreditlər üzrə mənfəət məbləği;

kq – qısamüddətli kreditlərin məbləği.

V.3. Uzunmüddətli kreditlər üzrə rentabellik əmsalı.

$$R_6 = \frac{\text{um}}{\text{ku}}$$

Burada: R_6 – uzunmüddətli kreditlər üzrə rentabellik əmsalı;

um – uzunmüddətli kreditlər üzrə mənfəət məbləği;

ku – uzunmüddətli kreditlərin məbləği.

VI. Bankın gəlirli aktivlərinə görə rentabelliyi

$$RG_a = \frac{\text{m}}{\text{ga}}$$

Burada: RG_a – gəlirli aktivlərə görə rentabellik;

ga – gəlirli aktivlər;

XVI FƏSİL.

BANKLARDA UÇOT, NƏZARƏT VƏ AUDİTİN TƏŞKİLİ

– müəllim **İ.M.Hüseynov** (16.1.),
– müəllim **M.Ə.Abbasbəyli** (16.2.),
– müəllim **E.Ş.Aslanov** (16.3.)

16.1. Banklarda uçot işinin təşkili
16.2. Bankların fəaliyyətində nəzarət və tənzimlənmə məsələləri

16.1. Banklarda uçot işinin təşkili

Bank uçotu Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında – uçot işinin təşkili və əməliyyatların aparılması qaydalarını özündə əks etdirir

Banklarda mühasibat uçotu - bankın aktivləri, öhdəlikləri, kapitalı, gəlirləri və xərcləri haqqında məlumatların mühasibat hesablarında ikili yazılış üsulu ilə toplanması, qeydiyyatı və ümumiləşdirilməsi sistemidir.

Mühasibat uçotu sistemi – vəsaitlərin və təsərrüfat əməliyyatlarının dinamikasının pul formasında, sənədlərə əsaslanan fasiləsiz və bir-biri ilə əlaqəli əks etdirilməsidir. Dövlət idarəetmə orqanları tərəfindən qanuniləşdirilmiş statistik məlumat massivlərinin formalaşdırılması naminə vahid qayda və formalarda həyata keçirilir. Mühasibat uçotunun məlumatları əsasında mühasibat hesabatı – bankın hesabat dövrü (ay, rüb, il) üzrə vəsaitlərinin və maliyyə-təsərrüfat fəaliyyətinin vəsaitlərinin vəziyyətini xarakterizə edən göstəricilər sistemi tərtib olunur. Mühasibat uçotunun əsas məqsədi aşağıdakılardır:

1. kredit təşkilatının fəaliyyəti və onun əmlak vəziyyəti haqqında mühasibat hesabatının daxili rəhbərlər, təsisçilər, təşkilatın iştirakçıları, həmçinin kənar istehlakçıları – investorlar, kreditorlar və mühasibat hesabatının digər istehlakçıları üçün lazımi müfəssəl, dəqiq və dolğun informasiyanın formalaşdırılması;
2. bütün bank əməliyyatlarının, tələb və öhdəliklərinin mövcudluğu və hərəkətinin, kredit təşkilatı tərəfindən maddi və maliyyə ehtiyatlarının istifadəsinin müfəssəl, tam və dəqiq mühasibat uçotunun aparılması kredit təşkilatının maliyyə sabitliyinin təmin olunması, onun fəaliyyətinin mənfi nəticələrinin qarşısının alınması üçün təsərrüfatdaxili ehtiyatların üzə çıxarılması;
3. idarəetmə qərarlarının qəbul edilməsi üçün mühasibat uçotunun istifadə edilməsi.

Mühasibat uçotu sistemi dünya praktikasında qəbul olunmuş aşağıdakı prinsiplərə əsaslanır: tam sənədləşdirmə; inventarlaşdırma; informasiyanın hesablarda ümumiləşdirilməsi; iki hesablı qeydlər; balans və hesabatın tərtib edilməsi.

Bank, mühasibat uçotunun təşkilini həyata keçirərkən:

- uçot siyasətini;

- mühasib işinin təşkilati formasını (konkret təsərrüfat şərtləri əsasında);
- Azərbaycanda qüvvədə olan forma və metodlara əsaslanaraq, ümumi metodoloji prinsiplərə riayət etməklə mühasibat uçotunun forma və metodlarını, uçot məlumatının işlənməsi texnologiyasını;
- istehsaldaxili (idarəetmə) uçot, hesabat və nəzarət sistemini müstəqil surətdə müəyyən edə bilər.

Bank öz filiallarını, nümayəndəliklərini, şöbələrini ayrıca balansa ayıra bilər. Bankın uçot siyasəti dedikdə, onun seçdiyi mühasibat uçotunun aparılması üsullarının cəmi – ilkin müşahidə, dəyər əsasında ölçmə, təsərrüfat fəaliyyəti faktlarının cari qruplaşdırılması və yekun ümumiləşdirilməsi başa düşülür. Mühasibat uçotunun aparılması üsullarına təsərrüfat həyatının faktlarının qruplaşdırılması və qiymətləndirilməsi, aktivlərin dəyərinin ödənilməsi, sənəd dövriyyəsinin təşkili üsulları, mühasibat uçotu hesablarının istifadə üsulları, uçot registrləri sistemi, informasiyanın işlənməsi və digər üsul və metodlar aid edilir.

Uçot siyasətinin tərkibində aşağıdakılar təsdiq edilməlidir:

- kredit təşkilatında, onun filiallarında və tabe təşkilatlarında mühasibat uçotu hesablarının Mərkəzi Bankının təsdiq etdiyi hesablar planına əsaslanan iş planı;
- əməliyyatların rəsmiləşdirilməsi üçün istifadə edilən ilkin uçot sənədlərinin formaları, o cümlədən barəsində Azərbaycan Dövlət statistika komitəsinin albomlarında ilkin uçot sənədlərinin nümunə formaları nəzərdə tutulmayan daxili mühasibat hesabatı üçün sənədlərin formaları;
- öz filialları (struktur bölmələri) ilə hesablaşma qaydası;
- Mərkəzi Bankının qanunvericiliyinə və normativ aktlarına zidd olmayan ayrı-ayrı uçot əməliyyatlarının aparılması qaydası;
- inventarlaşdırmanın aparılması qaydası və əmlak növlərinin və öhdəliklərin qiymətləndirilməsi metodları;
- sənəd dövriyyəsi qaydaları və uçot informasiyasının işlənməsi texnologiyası;
- bank daxilində aparılan əməliyyatlara nəzarət qaydası;
- - analitik və sintetik uçot sənədlərinin çapa verilməsi qaydası və dövriliyi. Bu zaman gündəlik olaraq, balans mühasibat jurnalı,

üzərində əməliyyatlar aparılmış (əməliyyat aparılmış) şəxsi hesablar, həmçinin müştəri hesablarından çıxarışlar (şəxsi hesablardan 2-ci nüsxələr);
- mühasibat uçotunun aparılması üçün digər lazımi qərarlar.

Uçot siyasəti aşağıdakı tələblərə cavab verməlidir:
1. tamlıq, yəni mühasibat uçotunda təsərrüfat fəaliyyətinin bütün faktlarının əks olunmasının tamlığın təmin etməlidir;
2. vaxtlı-vaxtında olma, yəni təsərrüfat həyatının faktları uçotda vaxtlı-vaxtında əks edilməlidir;
3. ehtiyatlılıq, yəni itkilərin (xərclərin) və passivlərin uçotuna daha yüksək hazırlığı təmin etməlidir, nəinki mümkün gəlirlərin və aktivlərin uçotuna (gizli ehtiyatların yaradılmasına yol vermədən);
4. məzmunun forma qarşısında üstünlüyü, yəni təkcə hüquqi formasına deyil, həm də təsərrüfat fəaliyyəti faktlarının iqtisadi mahiyyətinə və təsərrüfatçılıq şərtlərinə əsaslanaraq, həmin faktların mühasibat uçotunda əks olunmasını təmin etməlidir;
5. qeyri-ziddiyyətlilik – analitik uçot məlumatlarının hər bir ayın birinci gününə sintetik hesabatın hesabları üzrə dövriyyə və qalıqları ilə, həmçinin mühasibat hesabatı göstəricilərinin sintetik və analitik uçot məlumatları ilə eyniliyini təmin etmək
6. səmərəlilik, yəni təsərrüfatçılıq şəraitinə və bankın böyüklüyünə əsaslanaraq, mühasibat uçotunun səmərəli və qənaətli aparılmasını təmin etmək.

Azərbaycan Respublikasının banklarında mühasibat uçotunun təşkilinin metodoloji mərkəzi ölkənin Mərkəzi Bankıdır.

Bankların mühasibat uçotunda rəqəmlərlə, konkret pul vahidləri ifadə olunmuş miqdar informasiyasından istifadə edilir. Zəruri hallarda, mühasibat hesabatlarında pulla ifadə edilməyən məlumatlar da ola bilər. Mühasibat uçotunun məlumatlarından bank fəaliyyətinin təhlili, nəzarət və idarəetmə üçün istifadə edilir.

Uçot siyasəti - Bankda mühasibat uçotunun formalaşdırılması və açıqlanmasının əsaslarını müəyyən edir.

Uçot siyasəti dedikdə mühasibat uçotunun təşkili və aparılması – təsərrüfat fəaliyyəti faktlarının ilkin müşahidəsi, dəyərinin ölçülməsi, cari qruplaşdırılması və yekun ümumiləşdirilməsi, habelə uçotun struk-

tur bölmələri üzrə təşkili istiqamətində Bankın tətbiq etdiyi üsulların məcmusu başa düşülür.

Mühasibat uçotunun aparılmasında bank aşağıdakıları təmin etməlidir:

1. bankın və müştərilərin pullarının və maddi qiymətlilərinin qorunmasını;
2. hesabat dövrü ərzində həyata keçirilən əməliyyatların, aktiv və öhdəliklərin qiymətləndirilməsinin əks olunmasını təmin edən uçot siyasətinin dəyişilməz olaraq qalmasını;
3. hesabat dövrü ərzində bankın bütün əməliyyatlarının, habelə aktivlərin və öhdəliklərin inventarizasiya nəticələri də daxil olmaqla uçotda tam şəkildə əks olunmasını;
4. hesablama metoduna uyğun olaraq gəlir və xərclərin aid olduğu hesabat dövrünə aid edilməsini;
5. kapital qoyuluşları üzrə uçotun və xərclərin uçotunun bir-birindən fərqləndirilməsini.

Bankın mühasibat uçotunun təşkili və aparılmasına, qanunvericiliyə riayət olunmasına bank rəhbərliyi məsuliyyət daşıyır. Bank rəhbərliyi mühasibat uçotunun düzgün aparılması üçün zəruri şərait yaratmalı, habelə uçot sənədlərinin və məlumatların rəsmiləşdirilməsi və təqdim edilməsi qaydası üzrə bankın uçot siyasətinin tələblərinin uçota aidiyyəti olan bütün bölmələr, xidmətlər və işçilər tərəfindən yerinə yetirilməsini təmin etməlidir.

Banklarda mühasibat uçotunun aparılmasına bankın baş mühasibi başçılıq edir və o, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun fəaliyyət göstərir. Bankın baş mühasibi vəzifəsinə «Banklar haqqında» Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş tələblərə cavab verən şəxs təyin edilir.

Bankın baş mühasibi qüvvədə olan qanunvericilik aktlarını, Mərkəzi Bankın normativ xarakterli sənədlərini, bankın daxili qaydalarını öz işində rəhbər tutur və MHBS-yə uyğun olaraq müəyyən olunmuş mühasibat uçotunun ümumi metodoloji prinsiplərə əməl olunmasına məsuliyyət daşıyır.

Baş mühasib aşağıdakıları təmin etməlidir:

1. bankın həyata keçirdiyi bütün əməliyyatlara, o cümlədən bankın özünün fəaliyyətinə aid əməliyyatlara nəzarəti və onların maliyyə hesabatlarında və Baş kitabda müvafiq uçot registrlərində əks

etdirilməsini;
2. şəxsi hesablarda olunan düzəlişlərə nəzarət edilməsini;
3. mədaxil və məxaric hesabları üzrə əməliyyatların aparılmasına nəzarət edilməsini;
4. bankın rəhbərliyinə mühasibat uçotu məsələlərinə dair operativ məlumatın verilməsini;
5. müəyyən olunmuş müddətlərdə maliyyə hesabatlarının tərtib edilməsini;
6. bankın maliyyə-təsərrüfat fəaliyyətinin iqtisadi təhlilinin həyata keçirilməsini (digər bölmələr və xidmətlərlə birlikdə).

Baş mühasib gündəlik olaraq aşağıdakıları yoxlamalıdır:
1. kassa əməliyyatlarının yekununu;
2. gündəlik balansı və dövriyyə məlumatlarını;
3. bank sənədlərinin, şəxsi hesabların, yoxlama cədvəllərinin, habelə hesabatların düzgün formalaşdırılmasını və saxlanmasını.

Baş mühasib bank rəhbərliyi ilə birlikdə mal və qiymətlilərin, pulların mədaxil və məxarici üçün əsas olan sənədləri, habelə hesablaşma sənədlərini imzalayır. Göstərilən sənədlər baş mühasibin imzası olmadıqda etibarsız sayılır və icraya qəbul edilmir. Bank rəhbərliyi ayrı-ayrı uçot sahələri üzrə sənədləri imzalamaq hüququnu yazılı sərəncamla digər müvəkkil şəxslərə verə bilər.

Təşkilatçılıq və nəzarət funksiyalarını icra edən bankın rəhbərləri müvəqqəti olaraq işdə olmadıqda baş mühasib onların vəzifələrini, habelə mühasibat əməliyyatlarının bilavasitə yerinə yetirilməsi üzrə vəzifələri həyata keçirə bilməz.

Mühasibat xidmətinin təşkili. Banklarda mühasibat xidmətinin işi, mühasibat bölməsinin (departamentinin, idarəsinin) yaradılması, ixtisaslaşdırılmış şöbələrin təşkil edilməsi, işçilərə əməliyyatçı hüquqlarının verilməsi prinsipi əsasında təşkil edilir.

Mühasibat bölməsinin vəzifələri aşağıdakılardan ibarətdir:
1. mühasibat işinin, sənəd dövriyyəsinin, pul və qiymətlilərin saxlanmasına, aparılan əməliyyatların qanuniliyinə və bankın müştərilərinə xidmət üzrə bankdaxili nəzarətin düzgün və səmərəli təşkil edilməsi;
2. xarici valyutada aparılan əməliyyatların mühasibat uçotunun və

bu əməliyyatlara nəzarətin düzgün təşkil edilməsi;
3. mühasibat uçotu üzrə bankın daxili audit və digər yoxlamaları zamanı müəyyən edilmiş nöqsanların aradan qaldırılmasına nəzarətin həyata keçirilməsi;
4. kreditor borcların ödənilməsi və debitor borcunun tutulması, habelə yaranmış zərərin silinməsi prosesinə nəzarətin həyata keçirilməsi və bu məbləğlərin maliyyə hesabatlarında əks olunması barədə rəyin hazırlanması;
5. uçot və əməliyyat məsələləri üzrə müştərilərin şikayətlərinə baxılması;
6. bankın maliyyə hesabatının yoxlanılması və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatının tərtib olunması;
7. mühasibat uçotu üzrə müvafiq kadrların hazırlanması, onların ixtisas və biliklərinin, iş təcrübəsinin təkmilləşdirilməsində iştirak edilməsi

Fəaliyyət göstərən kredit təşkilatlarında analitik, sintetik mühasibat uçotu

Bu Qaydaların məqsədləri üçün aşağıdakı hesab anlayışlardan istifadə olunur:

Analitik hesab - subhesabın daxilindəki məlumatların təfsilatı ilə açıqlanmasını və qruplaşdırılmasını təmin edən hesabdır.

Subhesab - analitik uçot məlumatlarını özündə əks etdirməklə sintetik hesabın daxilindəki məlumatların təfsilatı ilə açıqlanmasını və qruplaşdırılmasını təmin edən hesabdır.

Sintetik hesab - aktivlərin, öhdəliklərin, kapitalın, gəlirlərin və xərclərin debeti və krediti üzrə dövriyyələrinin ümumiləşdirilməsinə xidmət edən hesabdır.

Mühasibat uçotu registrləri - ilkin uçot sənədlərinə əsasən müvafiq mühasibat jurnallarında, kitablarda bank əməliyyatının sistemləşdirilməsidir.

Bank əməliyyatları – kredit təşkilatlarının əmlakını, öhdəliklərini, kapitalını, onların hərəkətini və ümumiyyətlə maliyyə vəziyyətini ayrı-ayrılıqda özündə əks etdirən faktlardır.

İlkin uçot sənədləri – bank tərəfindən əməliyyatların həyata keçirilməsi faktını təsdiqləyən və mühasibat yazılışlarına əsas verən sənəd-

dir. İlkin uçot sənədlərinə – ciddi hesabat blankları və özündə pul dövriyyəsini əks etdirməyən, lakin bu dövriyyələrin uçota alınmasına əsas verən digər mühasibat sənədləri daxildir.

Bank sənədləri - bank əməliyyatlarının həyata keçirilməsi üçün zəruri və kifayət qədər məlumatları əks etdirən, onun qanuniliyini təsdiq edən və əməliyyatların mühasibat uçotunda əks olunmasına əsas verən sənədlərdir. Bank sənədləri müştəri sənədlərinə və bankdaxili sənədlərə bölünür. Müştəri sənədlərinə - ödəniş sənədləri, bankdaxili sənədlərə - kassa və memorial sənədlər daxildir.

Analitik uçot - bankın aktivlərinin (tələblərinin), öhdəliklərinin və kapitalının təyinatını əks etdirməklə onların hər biri üzrə açılan analitik hesablarda aparılan əməliyyatların təfsilatı ilə qeydiyyatı və qruplaşdırılmasıdır.

Sintetik uçot - bankın aktivləri (tələbləri), öhdəlikləri və kapitalı, gəlirləri və xərcləri üzrə sintetik hesablarda toplanmış məlumatların ümumiləşdirilməsidir.

Avtomatlaşdırılmış bank informasiya sistemləri (ABİS) - obyektin səmərəli idarə olunması məqsədilə uçot prosesinin avtomatlaşdırılmasını təmin edən ardıcıl surətdə kağız və elektron daşıyıcıları vasitəsilə müvafiq maliyyə, iqtisadi və təhlil xarakterli digər məlumatların təqdim olunması sistemidir.

Məlumatların müasir texniki işlənmə vasitələri kompüter texnologiyası əsasında, bank məlumatlarının avtomatlaşdırılmış işlənmə sisteminin (BMAİS) yaradılması yolu ilə informasiya proseslərinin yerinə yetirilməsini təşkil etməyə imkan verir. Bu sistemlərin yaradılmasının əsas məqsədi bankın informasiya proseslərinin avtomatlaşdırılması və onların yerinə yetirilməsi formasının təkmilləşdirilməsidir.

Məlumatların müasir texniki işlənmə vasitələri prinsipcə yeni texnologiya əsasında informasiya proseslərinin yerinə yetirilməsini təşkil etməyə imkan verir. BMAİS əvvəllər çoxlu əmək, vaxt və xərc sərf etdiyinə görə həll edilməyən bank məhsullarının satışının perspektiv və operativ optimal planlaşdırılması kimi məsələləri həll etməyə imkan verir. İdarəetmə aparatının işi də yeni qaydada təşkil olunur. İdarəetmə işçisi elementi BMAİS olan insan-maşın idarəetmə sistemində ayrılmaz hissəyə çevrilir, onun əməyi daha dəqiq layihələndirilir, planlaşdırılır, tənzimlənir və yoxlanılır.

Sintetik uçot üzrə məlumatlar Baş kitab, kassa kitabı, dövriyyə cədvəlləri və balanslardan (gündəlik, aylıq və illik) ibarətdir.

Məlumatlar ABİS-də işlənilərkən, sistemə daxil olunan bank sənədlərini sonradan daxil edilmiş sənədlərin siyahısı ilə müqayisə etmək məqsədilə hesablama lentinə köçürülə bilər. ABİS vasitəsilə alınan balans və balansdankənar hesablar üzrə gündəlik dövriyyə-qalıq cədvəlində hesablar üzrə giriş qalığı, hesabın debeti və krediti üzrə dövriyyə, çıxış qalıq məbləğləri əks olunur. Təəhhüdlər və şərti balansdankənar hesablar üzrə dövriyyə-qalıq cədvəli icmal sənədlər əsasında tərtib olunur. Memorandum balansdankənar hesablar üçün isə mədaxil və məxaric haqqında jurnalın aparılması tələb olunur.

ABİS-də gündəlik olaraq qalıq cədvəlləri çap olunur, bankın baş mühasibi və rəhbəri tərəfindən imzalanır. Gündəlik olaraq, baş mühasib analitik uçot məlumatlarını sintetik uçot məlumatları ilə üzləşdirir və üzləşdirmənin aparılması faktını qalıq cədvəlində və balansda öz imzası ilə təsdiqləyir. Baş mühasibin tapşırığına əsasən üzləşdirməni digər mühasibat işçisi həyata keçirdikdə, həmin şəxs aparılmış üzləşmə haqqında sənədə imza edir. Üzləşmə zamanı hər hansı bir fərq müəyyən olunduqda, onun səbəbləri araşdırılır və uyğunsuzluğun aradan qaldırılmasına dair müvafiq tədbirlər həyata keçirilir. Əgər hər hansı səhv üzrə düzəliş mühasibat yazılışlarının aparılması tələb olunarsa, həmin yazılışlar Mərkəzi Bankın müvafiq normativ xarakterli aktları ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

BMAİS-in yaradılması və tətbiqi ona gətirib çıxarır ki, informasiya proseslərinə, onların təşkilinə, layihələndirilməsinə, hazırlanmasına və bankda yerinə yetirilməsinə istehsalatda olduğu kimi diqqət yetirilir. Bankın idarəetmə strukturunda ixtisaslaşdırılmış bölmə yaradılır və o, bankın informasiya proseslərinin qaydaya salınmasına, tənzimlənməsinə və bilavasitə yerinə yetirilməsinə cavabdehdir.

Məlumatların müasir texniki işlənmə vasitələri prinsipcə yeni texnologiya əsasında informasiya proseslərinin yerinə yetirilməsini təşkil etməyə imkan verir. BMAİS əvvəllər çoxlu əmək, vaxt və xərc sərf etdiyinə görə həll edilməyən bank məhsullarının satışının perspektiv və operativ optimal planlaşdırılması kimi məsələləri həll etməyə imkan verir. İdarəetmə aparatının işi də yeni qaydada təşkil olunur. İdarəetmə işçisi elementi BMAİS olan insan-maşın idarəetmə sistemində ayrılmaz hissəyə çevrilir, onun əməyi daha dəqiq layihələndirilir, planlaşdırılır, tən-

zimlənir və yoxlanılır.

BMAİS-in işlənib hazırlanmasının mahiyyəti – bankın informasiya axınları sisteminin (bütün idarəetmə sisteminin maddi əsası kimi), perspektiv və operativ qərarların hazırlanması və qəbul edilməsi sisteminin təkmilləşdirilməsidir. İdarəetmədə məhz informasiya funksiyalarının təşkili əhəmiyyətli dəyişikliklərə məruz qalır. Bankın lokal hesablama şəbəkəsində birləşdirilmiş kompüterlər bütün informasiya xarakterli işləri daim özünə çəkir və bankın vahid avtomatlaşdırılmış iş yerləri (AİY) kompleksinə çevrilir, burada idarəetmə mütəxəssislərinin bilik, təcrübə və bacarıqları informasiyanın avtomatik işlənməsi vasitələrinin sürətli işi ilə ən yaxşı şəkildə birləşir.

İnformasiyanın avtomatlaşdırılmış işlənmə sistemində müasir texniki vəsaitlərin köməyi ilə informasiya sistemlərinə xas proseslər reallaşır: istehsal-təsərrüfat fəaliyyətinin proseslərində baş verən informasiyanın qeydə alınması, bu fəaliyyətin vəziyyətinin və dinamikasının bankın informasiya modelinin funksiyasını yerinə yetirən əsas massivlərdə əks olunması. Bankın informasiya modeli BMAİS-nin riyazi təminatının proqram aparatının köməyi ilə bankın istehsalat-təsərrüfat fəaliyyətinin bütün mərhələləri haqqında müxtəlif sistemləşdirilmiş məlumatları əldə etməyə imkan verir. İnformasiya modeli iqtisadi proqnozlaşdırma və planlaşdırma məsələlərinin həll edilməsi zamanı həmçinin ilkin məlumatları təmin edir.

Texniki təminata BMAİS-də informasiya proseslərinin avtomatlaşdırılması və mexanikləşdirilməsi texnikası, həmçinin onların istismarına və etibarlı işinin təmin edilməsinə dair təlimatlar daxildir. İnformasiya təminatı BMAİS-də informasiyanın hazırlanması və axınlarını, bankın lokal hesablama şəbəkəsində informasiya proseslərinin yerinə yetirilməsinin təşkilini tənzimləyir. Təşkilati təminat BMAİS-ə münasibətdə bankın hər bir işçisinin hərəkətini tənzimləyir. Proqram təminatı xüsusi və ümumi olur. Xüsusi proqram təminatı istehsal-təsərrüfat əhəmiyyətli sənədlərin və məlumatların əldə edilməsinə yönəldilib. Ümumi proqram təminatına məlumatların, məzmunundan asılı olmayaraq, çevrilməsi (növlərə ayırma, qruplaşdırma, birləşmə) üçün proqramlar daxildir

Banklarda mühasibat uçotunun əsas vəzifələri aşağıdakılardır:

- bankın fəaliyyəti, aktivləri, öhdəlikləri və kapitalın vəziyyəti haqqında maliyyə hesabatlarının daxili istifadəçilərinə, rəhbərliyə, təsisçilərə, bankın iştirakçılarına (payçılarına, səhmdarları-

na) habelə xarici istifadəçilərə, investorlara, kreditorlara, nəzarət və dövlət orqanlarına, maliyyə hesabatlarının digər istifadəçilərinə dolğun, tam, düzgün və təfsilatı ilə məlumatların təqdim olunması;

- aparılan bütün bank əməliyyatları haqqında, tələb və öhdəliklərin mövcudluğu və bank tərəfindən istifadə olunan maddi və maliyyə resursları haqqında ətraflı, tam və düzgün uçotun aparılması;
- bankın aktivlərinin mövcudluğu və hərəkəti, nağd pul və digər qiymətlilərin saxlanması, əmək resurslarının, xüsusi və cəlb olunmuş vəsaitlərin səmərəli istifadəsi, habelə bank tərəfindən aparılan digər əməliyyatlar üzrə nəzarətin təmin olunması.

Banklar MHBS-yə müvafiq olaraq hər il fəaliyyətlərinin istiqamətləri üzrə uçot siyasətini tərtib və təsdiq edir. Bank rəhbərliyi tərəfindən habelə aşağıdakı sənədlər illik olaraq təsdiq olunmalıdır:

- aktiv və öhdəliklərin inventarizasiyasının aparılması qaydası;
- sənəd dövriyyəsinin və uçot məlumatlarının hazırlanması texnologiyasının aparılması qaydası;
- həyata keçirilən bankdaxili əməliyyatların aparılmasına nəzarət qaydası.

Banklarda mühasibat uçotunun təşkili və aparılmasına, bank əməliyyatlarının aparılması üzrə qanunvericiliyin təmin olunmasına, uçot siyasətinin formalaşdırılmasına, maliyyə hesabatlarının düzgün, tam və vaxtında təqdim olunmasına ilk növbədə bank rəhbərliyi məsuliyyət daşıyır. Banklarda mühasibat uçotu, bankın hüquqi şəxs kimi qeydiyyata alındığı gündən onun yenidən təşkili və ya qanunvericiliyə uyğun olaraq digər şəkildə ləğv olunması tarixinə qədər fasiləsiz olaraq aparılmalıdır.

Bank aktivlərin, öhdəliklərin, xüsusi kapitalın və onlar üzrə həyata keçirilən əməliyyatların uçotunu Hesablar Planına uyğun olaraq müvafiq balans və balansdankənar hesablarda ikili yazılış metodu ilə həyata keçirir. Banklarda mühasibat uçotu MHBS-yə əsasən müəyyən olunmuş prinsiplərə - hesablama metodu, fasiləsizlik, şəffaflıq (aydınlıq), əhəmiyyətlilik, etibarlılıq və müqayisəlilik prinsiplərinə uyğun həyata keçirilir.

Bank bütün əməliyyatlarının, aktivlərinin və öhdəliklərinin mütəmadi olaraq inventarizasiyasını aparmalı və nəticələri tam şəkildə mühasibat uçotu hesablarında əks etdirməlidir.

Bank tərəfindən aparılmış əməliyyatlar aid olduğu hesabat dövründə tanınmalı və bankın gündəlik balansında əks olunmalıdır. Hesabat dövrünün əvvəlinə olan balans və balansdankənar hesabların qalıqları əvvəlki dövrün sonuna olan qalıq məbləğlərinə uyğun olmalıdır. Mühasibat uçotunun aparılmasında bank aşağıdakıları təmin etməlidir:

- bankın və müştərilərin pullarının və maddi qiymətlilərinin qorunmasını;
- hesabat dövrü ərzində həyata keçirilən əməliyyatların, aktiv və öhdəliklərin qiymətləndirilməsinin əks olunmasını təmin edən uçot siyasətinin dəyişilməz olaraq qalmasını;
- hesabat dövrü ərzində bankın bütün əməliyyatlarının, habelə aktivlərin və öhdəliklərin inventarizasiya nəticələri də daxil olmaqla uçotda tam şəkildə əks olunmasını;
- hesablama metoduna uyğun olaraq gəlir və xərclərin aid olduğu hesabat dövrünə aid edilməsini;
- kapital qoyuluşları üzrə uçotun və xərclərin uçotunun bir-birindən fərqləndirilməsini;II. Analitik və sintetik uçot

Banklarda analitik uçot -Banklarda analitik uçot kağız və ya elektron daşıyıcıları vasitəsilə köməkçi mühasibat jurnallarında və ya şəxsi hesablarda aparılır. Köməkçi mühasibat jurnalları və ya şəxsi hesablar, analitik hesablarda uçota alınan hər bir növ üzrə vəsaitlərin və qiymətlilərin təyinatını və sahibini əks etdirməlidir. Köməkçi mühasibat jurnalının və şəxsi hesabların adı və nömrəsi müəyyən olunur.

Bank rəhbərinin hesab açılması barədə göstərişinə əsasən müştəriyə bank hesabının açılması üçün tələb olunan sənədlər mühasibatlığa (baş mühasibə və ya bankda müəyyən olunmuş qaydaya əsasən digər müvəkkil şəxsə) təqdim olunur.

Bank tərəfindən açılan bütün hesablar barədə qeydiyyat kitabında müvafiq yazılışlar aparılır. Bankın uçot siyasətinə müvafiq olaraq qeydiyyat kitabı kağız və elektron daşıyıcıları vasitəsilə aparıla bilər. Qeydiyyat kitabı elektron daşıyıcıları vasitəsilə aparıldıqda həmin məlumatlar sanksiya olunmamış müdaxilələrdən ciddi şəkildə qorunmalıdır.

Hesablar haqqında qeydiyyat kitabında yazılışlar aparılarkən, hər müştəriyə müəyyən sıra nömrəsi verilir və sonradan müvafiq müştəri üçün açılan bütün şəxsi hesabların verilməsində bu qaydadan istifadə olunur.

Şəxsi hesabların və müştəri kartlarının açılması, bağlanması və hər hansı düzəliş edilməsi bütün rekvizitləri əks etdirən yazılı ərizə əsasında mühasibatlıq (və ya rəhbərliyin göstərişi ilə digər bölmə) tərəfindən aparılır. Hesabın açılması, bağlanması və düzəliş aparılması haqqında məlumatların vahid bir ərizədə əks olunmasına yol verilmir. Bu əməliyyatlar üzrə ərizələr çıxış nömrəsi, göndərilmə tarixi, bankın filialının və ya struktur bölmənin adını əks etdirməklə ayrı-ayrılıqda tərtib və təqdim olunmalıdır. Ərizədə göstərilən tarix, onun mühasibatlığa təqdim olunma tarixinə uyğun olmalıdır.

Bek-ofis funksiyasını həyata keçirən bank filialının və struktur bölmənin hesab açılması barədə yazılı ərizələri mühasibatlığa, sonradan yazılı formada və ya əlbəəl fiziki şəkildə təqdimatı təmin olunmaqla, elektron poçt vasitəsilə təqdim edilə bilər. Ərizənin təqdim olunma qaydası mühasibatlıq tərəfindən müəyyənləşdirilir və aparılan dəyişikliklər barədə bütün filiallara və struktur bölmələrə məlumatlar verilir. Elektron ərizələrin rekvizitləri yazılı ərizədə olan rekvizitlərə uyğun olmalıdır. Əgər bu rekvizitlər arasında hər hansı bir uyğunsuzluq olarsa, yazılı ərizədə olan rekvizitlər əsas götürülür.

Müştəri hesabları bağlandıqda, qeydiyyat kitabında həmin hesabın bağlanması tarixi yazılır. Müştərinin ərizəsinə əsasən hesab başqa banka keçirildikdə, hesabın rəsmiləşdirilməsinə dair bütün sənədlər bankda saxlanılır, lakin müştərinin hesabına qarşı tələblər (müddətli öhdəliklər, ödənilməmiş hesablaşma sənədləri və s. ödəmə sənədləri) siyahı üzrə hesabı qəbul edən banka poçt vasitəsilə bildirişli sifariş məktubu ilə göndərilir. Bankda müştəri hesabları üzrə əməliyyatlara təkrar nəzarəti həyata keçirmək məqsədilə hesablardan çıxarışlar gündəlik olaraq çap oluna bilər. Müştəri tərəfindən tələb olunduqda, bu çıxarışlar müştəriyə verilmək (və ya göndərilmək) üçün çap olunmalıdır.

Şəxsi hesablarda yazılışlar yalnız lazımi qaydada rəsmiləşdirilmiş bank sənədləri əsasında aparılır. Şəxsi hesablardan çıxarışlar adətən aşağıdakı rekvizitləri əks etdirir, əməliyyatın aparılma tarixini, əməliyyatın adını, ödəniş sənədinin nömrəsini, valyutanın kodunu, hesabın nömrəsini, giriş qalıq məbləğini, debet və kredit dövriyyəsini və çıxış qalıq məbləğini. Müştərilərə verilmək üçün şəxsi hesablardan çıxarışlar bankın əməliyyatçısının ştampı və imzası ilə təsdiqlənir. Bir neçə vərəqdə tərtib edilmiş çıxarış müştəriyə verilərkən, çıxarışın hər bir vərəqi bankın əməliyyatçısının ştampı və imzası ilə təsdiq edilməlidir.

Müştərilərə verilmək üçün şəxsi hesablardan çıxarışlara hesab üzrə mühasibat yazılışlarının aparılmasına əsas verən ilkin sənədlər (onların surəti) əlavə edilə bilər. Çıxarışa əlavə olunan sənədlərə ştamp vurulur. Ştamp yalnız çıxarışın əsas əlavəsinə vurulmalıdır.

Əməliyyatçı (nəzarətçi işçi) şəxsi hesablardan çıxarışı imzalayarkən çıxarışa aid lazımi əlavə sənədlərin mövcudluğunu, habelə onların düzgün rəsmiləşdirildiyini müəyyən etməlidir.

Hesablardan çıxarışlar şəxsi hesab üzrə birinci və ikinci imza etmək hüququ olan şəxslərə və ya müəyyən olunmuş qaydada rəsmiləşdirilmiş etibarnamə üzrə onların nümayəndələrinə imza etdirildikdən sonra verilir. Hesabın sahibi hesabın debetinə və ya kreditinə səhvən yazılmış məbləğ barədə banka yazılı məlumatı təqdim etdikdə, müqavilədə ayrı şərtlər nəzərdə tutulmayıbsa, həmin ana bu hesab üzrə qanunvericiliyə uyğun olaraq mübahisəsiz ödənişlər aparılmadıqda, əks müxabirləşmələr verilir.

Müştəri şəxsi hesabın çıxarışını itirdikdə, çıxarışın dublikatı (hesabdan çıxarışın surəti) müştərinin ərizəsinə əsasən bankın rəhbərliyinin və ya onun müavininin rəsm icazəsi ilə müştəriyə verilə bilər. Bu zaman müştərinin ərizəsində çıxarışın itirildiyi vaxt və yer göstərilməlidir. Müştəri hüquqi şəxs olduqda, ərizə hesab üzrə sərəncam vermək hüququ olan şəxslər tərəfindən imzalanmalı və möhürlə təsdiqlənməlidir.

Müştəriyə verilən dublikatın titul hissəsində bu sözlər yazılır:

“___ ”___________ 20... tarixli çıxarışın dublikatı”

Çıxarışın dublikatı əməliyyatçı və baş mühasib (müştəri xidmətləri göstərən struktur bölmənin rəhbəri) və ya onun müavini tərəfindən imzalanıb möhürlə təsdiqlənir və müştərinin nümayəndəsinə imza etdirməklə təqdim olunur.

Dublikatın tərtib edilməsi üçün əsas götürülmüş şəxsi hesablardan çıxarışın titul hissəsində bu sözlər yazılır:

“___ ”___________ 20... tarixdə çıxarışın dublikatı verildi”.

Bu yazı baş mühasibin (müştəri xidmətləri göstərən struktur bölmənin rəhbəri) və ya onun müavininin imzası ilə təsdiq edilir.

Çıxarışlar müştərilərə verildikdən və ya göndərildikdən sonra hesabat dövrü üzrə şəxsi hesablardan çıxarışlar arxivə verilir. ABİS-də şəxsi hesablar üzrə məlumatlar bazası çap edilərək, kağız və ya elektron daşıyıcılarında əks olunmalıdır. ABİS-də isə həmin məlumatlar ən azı iki müxtəlif informasiya daşıyıcılarında saxlanılmalıdır.

Kağız və elektron daşıyıcılarda şəxsi hesablar üzrə məlumatlar qanunvericilikdə nəzərdə tutulmuş müddətə arxivdə saxlanılmalıdır.

Analitik hesablar üzrə analitik uçot məlumatlarının yoxlanılması həmin hesablara xidmət göstərən əməliyyatçılar və həmin əməliyyatlara sonradan nəzarəti həyata keçirən mühasibatlığın müvafiq işçisi tərəfindən aparılır. Bu zaman həmin işçilər şəxsi hesablardakı bütün qeydlərin bankın səlahiyyətli işçilərinin nəzərdən keçirməsini və əməliyyatlar aparılarkən, onlar tərəfindən imzalanmasını, müvafiq sənədlərlə əsaslandırılmasını, müvafiq rekvizitlərin və sənədlərdəki məbləğlərin şəxsi hesablara düzgün işlənilməsini yoxlayır. Əməliyyatçılar tərəfindən hər bir bank əməliyyatı üzrə (əməliyyatın növü, məbləği) sanksiyalaşdırma səviyyəsinə uyğun səlahiyyətli şəxslərin imzalarının olub-olmamasına xüsusi diqqət yetirilməlidir. Bankın filialı və ya struktur bölməsi tərəfindən təqdim olunmuş sifarişdə hər hansı bir rekvizit düzgün göstərilmədikdə, həmin ərizə səbəbi göstərilməklə «icra olunmamışdır» qeydi ilə geri qaytarılır.

Əlavə nəzarət tələb edən əməliyyatlar üzrə şəxsi hesablarda yazılışların yoxlanılması bu nəzarəti həyata keçirən işçilər tərəfindən həyata keçirilir. Analitik uçot hesabları üzrə əks olunan məbləğlər sintetik uçot üzrə əks olunan məbləğlərə uyğun olmalıdır. ABİS-dən alınan mühasibat balansı əməliyyat gününün sonuna tərtib olunur. Balans və balansdankənar hesablar üzrə gündəlik balansın düzgün tərtib olunması aktiv və passivlərin qalıqlarının cəminin bərabər olması ilə müəyyən olunur. Bankın balansı onu tərtib edən əməliyyatçı, baş mühasib və bank rəhbəri tərəfindən imzalanır. Kassa kitabı və gündəlik balanslar aylar üzrə bölünməklə müvafiq qovluqlara tikilir. Bank rəhbəri və baş mühasib balansın vaxtında və düzgün tərtib olunmamasına qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyır

Kreditlərlə bağlı aparılan əməliyyatların mühasibat uçotu

Kreditlər verilərkən aşağıdakı mühasibat yazılışı verilir:
Debet: Müvafiq verilmiş kreditlər hesabı;
Kredit: Kassa və ya müxbir hesab.

Kreditlər qaytarılarkən aşağıdakı mühasibat yazılışı verilir:
Debet: Kassa/ müxbir hesabı və ya müştərinin hesabı;
Kredit: Müvafiq verilmiş kreditlər hesabı.

Verilmiş kreditlər üzrə öhdəliklərin uçotu müvafiq balansdankənar hesabda aparılır.

Kreditlərin vaxtı keçdiyi zaman aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Müvafiq vaxtı keçmiş kreditlər hesabı;

Kredit: Müvafiq verilmiş kreditlər hesabı.

Razılaşdırılmış müqavilə əsasında vaxtı keçmiş kreditlərin müddəti uzadılarsa və ya kreditlər restrukturizasiya olunarsa, aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Müvafiq verilmiş kreditlər hesabı;

Kredit: Müvafiq vaxtı keçmiş kreditlər hesabı və ya restrukturizasiya olunan kreditlər.

Müvafiq aktivlər üzrə alınacaq faizlər hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Müvafiq hesablanmış alınacaq faizlər hesabı (aktiv hesab);

Kredit: Müvafiq faiz gəlirləri hesabı.

Faizlər banka daxil olduqda aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Kassa / müxbir hesab və ya müştərinin hesabı;

Kredit: Müvafiq hesablanmış alınacaq faizlər hesabı.

Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondunun yaradılması zamanı aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyatın yaradılmasına ayırma (xərclər hesabı);

Kredit: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondu.

Ümidsiz borcun (əsas məbləğin) balansdan silinməsi üçün aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondu;

Kredit: Müvafiq ümidsiz borc üzrə hesab.

Ümidsiz borcun ödənilməsi (geri qaytarılmış məbləğ) zamanı aşağıdakı mühasibat yazılışı verilir:

Debet: Kassa / müxbir hesab və ya müştərinin hesabı;

Kredit: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondu.

Kreditlərin təsnifləşdirilməsi zamanı xüsusi ehtiyat fondunun məbləği kreditlərdən dəyə biləcək zərərlərin ödənilməsi üçün kifayət etdikdə, xüsusi ehtiyat fondunun artıq məbləği aşağıdakı mühasibat yazılışı ilə tənzimlənir:

Debet: Aktivlər üzrə ehtimal olunan zərərlər üçün xüsusi ehtiyat fondu;

Kredit: Müvafiq gəlirlər hesabı.

Mövcud bank qanunvericiliyinə görə bankın cari fəaliyyətinə nəzarət üçün ümumi məsuliyyət Müşahidə şurasının üzərinə düşdüyündən o, hazırlanmış bankdaxili kredit qaydalarını bankın cari il üçün taktikası və iqtisadi əhatəsi baxımından ildə azı bir dəfə yenidən nəzərdən keçirməlidir.

Azərbaycan Respublikası Mərkəzi Bankı banklara reytinq verən zaman hazırlanmış bankdaxili kredit qaydalarının mövcudluğuna və onların keyfiyyətinə nəzarət etməli və Bankın rəhbərliyinin idarəetmə qabiliyyətini qiymətləndirən zaman ona əməl olunmasına xüsusi diqqət yetirməlidir.

Bank sistemində aktiv əməliyyatların mahiyyəti və aktiv və pasivlərin uçotu

Hər bir bankın məqsədi, maksimum mənfəət əldə etməkdir. Bunun üçün banklar aktiv əməliyyatlardan istifadə edir. Aktiv əməliyyatlar mənfəət əldə etmək üçün bankların öz xüsusi vəsaitlərindən və cəlb olunmuş vəsaitlərdən istifadə etməsi deməkdir. Aktiv əməliyyatları həyata keçirərkən banklar sərəncamında olan xüsusi və cəlb olunmuş vəsaitlərdən hüquqi və fiziki şəxslərə kreditlər verir, investisiyalar həyata keçirirlər. Bu əməliyyatlar faiz, dividendlər şəklində gəlirlər gətirir, birgə müəssisələrin mənfəətində iştirak imkanları yaradır. Bu vasitə ilə müəyyən edilmiş likvidlik normativləri təmin edilir investisiyaların səmərəli nəticələrini əldə etmək üçün təşkilati idarəetmə tədbirləri həyata keçirilir.

Bankların apardığı aktiv əməliyyatları aşağıdakı qruplara ayırmaq olar:

a) kredit əməliyyatları. Bu əməliyyatlar nəticəsində bankın kredit portfeli formalaşdırılır;
b) investisiya əməliyyatları. Bu bankların qiymətli kağızlarla apardığı müxtəlif əməliyyatlardır. Onların nəticəsində bankların inves-

tisiya portfeli formalaşır;

v) hesablaşma əməliyyatları. Bu əməliyyatlar nəticəsində banklar öz müştəriləri və təmasda olduqları təşkilatlar arasında iqtisadiyyatda gedən bütün hesablaşmaları icra edirlər;

q) kassa əməliyyatları. Bu əməliyyatlar nəticəsində banklar öz müştəriləri ilə nağd pul hesablaşmalarını aparır;

d) digər aktiv əməliyyatlar. Bu əməliyyatlar bank əməliyyatlarının vaxtlı vaxtında keyfiyyətlə icrasını təmin edən uyğun infrastrukturun yaradılması ilə əlaqədardır.

Aktiv əməliyyatların nəticələri bankın balansının aktiv hissəsində əks etdirilir, bu göstəricilər əsasında bankın resurslarının yerləşdirilməsi xarakteri, onlardan istifadənin səmərəliliyı yoxlanılır və təhlil edilir.

Aktiv əməliyyatların bazar iqtisadiyyatına keçid dövründə xarakteri və əhəmiyyəti də dəyişmişdir. İqtisadiyyatın inzibati -amirlik üsulları ilə idarə olunduğu vaxtlardan fərqli olaraq, keçid dövründə və bazar iqtisadiyyatı şəraitində hər bir bank aktiv əməliyyatların elə optimal üsullarını seçməlidirlər ki, bu əməliyyat nəticəsində ancaq səmərə əldə etmək mümkün olsun. Əks təqdirdə, nə bank, nə də ki, bütövlükdə bank sistemi mövcud ola bilməz, iqtisadiyyat öz inkişaf tarazlığını itirər.

Maliyyə hesabatları digər aktiv və passivlər qrupuna daxil olan hesablardan qabaqcadan ödəmələrin, müəyyən edilməmiş məbləğlərin və digər müvəqqəti və təsadüfi xarakter daşıyan debitor və kreditor borcların uçotunun aparılması üçün istifadə olunur.

Maliyyə hesabatlarında digər aktivlər aşağıdakı hesablar üzrə təsnifləşdirilir:

- digər debitorlar;
- müəyyən edilməmiş məbləğlər;
- qabaqcadan ödəmələr;
- əsas vəsaitlərin və qeyri-maddi aktivlərin alınması üçün qabaqcadan ödəmələr;
- təxirə salınmış xərclər;
- xarici valyutanın alınması/satılması üçün qabaqcadan ödəmələr;
- ödənilməkdə olan məbləğlər və digər aktivlər.

Maliyyə hesabatlarında digər passivlər aşağıdakı hesablar üzrə təsnifləşdirilir:

- digər kreditorlar;
- müəyyən edilməmiş məbləğlər;
- işçilərə ödəniləcək əmək haqqı və digər məbləğlər;
- səhmdarlara (payçılara) ödəniləcək dividendlər;
- təxirə salınmış gəlirlər;
- xarici valyutanın alınması/satılması üçün alınmış avanslar;
- ödənilməkdə olan məbləğlər və digər passivlər.

Bank əməliyyatı- bank və müştəri arasında qarşılıqlı surətdə bağlı olan, bank tərəfindən həyata keçirilən, pul vəsaitlərinin və borc kapitalın kreditor bankdan borc alana konkret iqtisadi məsələnin həlli məqsədilə müxtəlif formalarda hərəkətini nəzərdə tutan kompleks fəaliyyətdir. Bank xidməti isə bankın müxtəlif fəaliyyət növlərinin və imkanlarının vəhdəti olaraq bank əməliyyatları vasitəsilə müştərinin tələbatının ödənilməsini nəzərdə tutur. Bank əməliyyatlarını obyektlərindən asılı olaraq hüquqi və fiziki şəxslərə göstərilən əməliyyatlara bölmək olar. Fiziki şəxslərə göstərilən bank xidmətləri bazar subyektlərindən asılı olaraq kütləvi xarakterli xidmətlərə və varlı müştərilərə göstərilən fərdi xidmətlər bölünür.

Müasir dövrdə özəl banklar tərəfindən həyata keçirilən əməliyyatlar üç qrupa bölünür:

- Passiv əməliyyatlar,
- Aktiv əməliyyatlar,
- Komisyon-vasitəçilik əməliyyatlar.

Passiv əməliyyatlar vasitəsilə banklar aktiv əməliyyatlarını yerinə yetirmək üçün lazım olan pul resurslarını səfərbər edirlər. Passiv əməliyyatları qrupuna bankın xüsusi kapitalı və müxtəlif məqsədli fondlar, müxtəlif qoyuluşların cəlb edilməsi, digər banklardan alınmış kreditlər (o cümlədən Mərkəzi Banklardan alınmış kreditlər), qiymətli kağızların emissiyası və s. aiddir. Bu cür əməliyyatlar balans hesabının passivində əks olunur.

Aktiv əməliyyatlar vasitəsilə banklar cəlb olunmuş vəsaitləri gəlir əldə etmək məqsədi ilə ehtiyacı olanlar arasında yerləşdirirlər. Bu qrupa hüquqi və fiziki şəxslərə verilən ssuda və investisiya əməliyyatları, kassa-hesablaşma əməliyyatları və s. aktiv əməliyyatlar aid edilir. Bankın ak-

tiv əməliyyatı vasitəsilə onun gəlirləri formalaşır və o balans hesabının aktivində əks olunur.

Vasitəçilik - komisyon və balansdan kənar əməliyyatları həyata keçirərək bank komisyon formada gəlir əldə edir. Bu cür əməliyyatlarla bankın trast, informasiya, agentlik və s. əməliyyatlarını misal göstərmək olar. Passiv əməliyyatsız bankın aktiv əməliyyatı qeyri-mümkün olduğu kimi, aktiv əməliyyatsız da passiv əməliyyatları mənasızdır. Bankların aktivlərinin tərkibi və strukturu onun passiv əməliyyatları ilə müəyyən edilir.

Bankların passiv əməliyyatları aktiv əməliyyatları həyata keçirmək üçün əsas sayılır. Eyni zamanda bankın aktivlərinin strukturu və keyfiyyəti passivlərin strukturundan asılıdır. Bankların passiv və aktiv əməliyyatları bir-birilə sıx surətdə bağlı olduğundan, onlar bankın likvidliyinə və rentabelliyinə eyni dərəcədə təsir göstərirlər. Beləliklə, passiv əməliyyatlar vasitəsilə banklar gəlir əldə etmək məqsədilə istifadə etdikləri resursları səfərbər edirlər. Aktiv əməliyyatlarını həyata keçirmək üçün pul vəsaitlərinə olan ehtiyacın 90%-nə qədərini banklar məhz cəlb olunmuş vəsaitlər hesabına təmin edirlər.

Passiv əməliyyatlar - banklar tərəfindən vəsaitlərin cəlb olunması və onun resurslarının formalaşması üzrə əməliyyatlardır. Bu əməliyyatların köməyi ilə banklar mənfəət əldə etmək məqsədi ilə kredit verilməsi, qiymətli kağızlara sərmayə qoyuluşu və s. üçün vəsaitlər toplayırlar. Bazar iqtisadiyyatına keçid şəraitində bank passivlərinin formalaşması və onların strukturunun optimallaşdırılması, passivlərin mənbələrinin keyfiyyətcə səmərəli idarə olunması xüsusi əhəmiyyət kəsb edir. Çünki kommersiya bankı dayanıqlı, möhkəm resurs bazası olmadan nə öz likvidliyini qoruya bilməz, nə aktiv əməliyyatlarını həyata keçirə bilməz, nə də ki, götürdüyü digər öhdəlikləri vaxtında icra edə bilməz. Buna görə də hər bir kommersiya bankı öz resurs bazasını genişləndirmək üçün hər an axtarışda olmalıdır.

Bankların passiv əməliyyatlarına hüquqi və fiziki şəxslərin hesablaşma, cari və müddətli hesablarına vəsaitlərin cəlb edilməsi, qiymətli kağızlar buraxılışı, digər banklardan borc şəklində vəsaitlərin alınması aiddir. Bankların passiv əməliyyatları nəticəsində onların resursları formalaşır.

Bir qayda olaraq kommersiya banklarının resursları, yəni onların passivləri iki hissədən:

a) şəxsi (xüsusi) vəsaitlər və

b) cəlb olunmuş vəsaitlərdən ibarət olur.

Birincinin tərkibinə səhmdar kapitalın, ehtiyat və digər fondların, bölüşdürülməmiş mənfəətin və digər mənbəələrin daxil olduğu özünə məxsus xüsusi kapital, ikincinin tərkibinə isə bank tərəfindən alınmış borclar: kreditlər, depozitlər, müştərilərin hesablaşma və cari hesablarındakı, müxbir hesablardakı vəsaitlər və s. vəsaitlər aiddir.

Fundamental analizin predmeti bankın maliyyə fəaliyyətidir. Fundamental təhlil prosesində ən əhəmiyyətli amillər öyrənilir ki, maliyyə analitiki onların köməyi ilə bankın ehtiyatlarından istifadənin effektivliyinin yolları və üsullarını zəmanətli müəyyən edə və hazırlaya bilər. Fundamental analizin nəticəsi aşağıdakıların effektivliyinin qiymətləndirilməsidir:

- aktivlər portfelinin idarə edilməsi;
- kapital strukturunun idarə edilməsi;
- kapitalın kafililiyinin idarə edilməsi;
- məhsuldar aktivlərdən istifadədən gəlirlərin maksimallaşdırılması;
- xərclərin idarə edilməsi;
- aktivlərin dəyərinin idarə edilməsi;
- faiz riskinin idarə edilməsi;
- səhmdar kapitalının dəyərinin idarə idarə edilməsi.

Bankın fundamental təhlil məsələlərinə tam cavab verən balans modeli belədir:

aktivlər - borc kapitalı = şəxsi kapital.

Göstəricilərin tərkibi və təhlil metodikası əsasən bankın maliyyə-iqtisadi vəziyyətini xarakterizə edən əsas sintezləşdirən informasiya mənbəyi olan bank balansına əsaslanır.

Kommersiya bankının depozitləri bankın kredit fəaliyyətini həyata keçirmək və digər aktiv əməliyyatları aparmaq məqsədlərinə xidmət edən pul vəsaitlərindən ibarətdir. Bütün kommersiya banklarının depozitləri pul vəsaitinin cəlb edilməsi və bölüşdürülməsi ilə bağlı münasibətləri ifadə edir. O, iqtisadi məna kəsb edir. Depozitlər kateqoriyası kommersiya banklarının fəaliyyətini əks etdirir. Sərbəst pul vəsaitlərinin mülkiyyətçiləri sırasında iqtisadi münasibətlərin başqa subyektləri də vardır. Əhalinin pul əmanətləri yalnız qismən, müəyyən şərtlərlə ban-

kın müvəqqəti istifadəsinə keçir, bu zaman əmanətçilər öz vəsaitlərinin mülkiyyətçiləri kimi qalırlar. Banklar tərəfindən hüquqi şəxslərin depozitlərinin cəlb edildiyi halda, qiymətli kağızlarla əməliyyatların aparılması zamanı isə bank sistemi fond bazarı ilə münasibətlər yaranır. Ssuda fondundan fərqli olaraq, depozitlərin cəlb edilməsi və yerləşdirilməsi mərkəzləşdirilmiş dövlət idarəetməsinə tabe deyildir, çünki banklar bazar şəraitinə uyğun olaraq müstəqil fəaliyyət göstərirlər. Müxtəlif kredit idarələri habelə ayrı-ayrı hüquqi və fiziki şəxslərin də pul ssudalara verməsi də məlumdur. Bununla əlaqədar olaraq ssuda vəsaitlərinin ümumi miqdarı bankların depozitlərindən çoxdur. Onu da qeyd etmək lazımdır ki, kommersiya banklarının kredit resursları bankın öz vəsaiti və cəlb olunmuş depozitlər hesabına formalaşır. Bankın öz vəsaiti bir qayda olaraq onun nizamnamə kapitalı ehtiyat fondu və bölüşdürülməmiş mənfəətdən ibarət olur. Cəlb edilmiş vəsaitin isə depozit və qeyri-depozit vəsaitlərə bölmək qəbul edilmişdir.

Azərbaycan Respublikasının Bank sistemində hesablama metodunun uçotu

1. Banklarda hesablama metodu ilə əməliyyatlar aparılarkən vergitutma məqsədləri üçün «Azərbaycan Respublikasının Vergi Məcəlləsi»nin müddəaları əsas tutulur. Hesablama metodu ilə mühasibat uçotu əməliyyatları ödəmələrin verildiyi və ya alındığı tarixdə yox, baş verdiyi dövrdə tanınmasını tələb edir. Hesablama metodu ilə tərtib olunmuş maliyyə hesabatları istifadəçiləri ödəmələrin verilməsi və pul vəsaitlərinin alınması barədə nəinki əvvəlki əməliyyatlar haqqında, həmçinin gələcək ödəmələr və alınması gözlənilən pul vəsaitləri haqqında informasiya ilə də təmin etməyə şərait yaradır.

Hesablama metodu ilə mühasibat uçotu (balans) hesabatlarında:

- pul vəsaitlərinin və ya digər maliyyə aktivlərinin alınması hüququ aktiv kimi;
- pul vəsaitlərinin ödənilməsi və ya xidmətlərin göstərilməsi hüququ öhdəliklər kimi əks olunur.

Müvafiq dövrə aid olan gəlir və xərc hesablarının qalıqları ayda bir dəfədən az olmayaraq “cari maliyyə ilinin mənfəəti/zərəri” hesabına aid edilir. Faizlərin hesablanması qanunvericilikdə digər hallar nəzərdə tutulmayıbsa, faktiki alınmasından və ya verilməsindən asılı olmayaraq gündəlik müvafiq gəlir və xərclər hesablarında əks olunur. Faizlərin mü-

vafiq uçotunu həyata keçirmək üçün aşağıdakı informasiyaların olması zəruridir:

- vəsaitlərin (ödənilmə) müddətləri və şərtləri.

Faizlərin hesablanmasının dayandırılması müvafiq normativ-hüquqi aktlara əsasən həyata keçirilir.

Müvafiq dövrə aid olan bütün gəlir və xərclər həmin dövrdə mühasibat uçotu (balans) hesabatlarına daxil edilir. Müvafiq dövrə aid olan bütün gəlir və ya xərclərin mənfəət və ya zərər hesablarında əks olunmasının təmin edilməsi üçün hər ay gəlirlərin və xərclərin hesablanması yenidən yoxlanılır və müvafiq düzəlişlər həyata keçirilir.

Müvafiq aktivlər üzrə alınacaq faizlər hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt müvafiq hesablanmış alınacaq faizlər hesabı;
Kt müvafiq faiz gəlirləri hesabı.

Faizlər banka daxil olduqda aşağıdakı mühasibat yazılışı verilir:

Dt Kassa/ müxbir hesab və ya müştərinin hesabı;
Kt müvafiq hesablanmış alınacaq faizlər hesabı.

Müvafiq vəsaitlər üzrə ödəniləcək faizlər hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt müvafiq faiz xərcləri hesabı;
Kt müvafiq hesablanmış ödəniləcək faizlər hesabı.

Bank hesablarının növləri

Bank hesabları aşağıdakı növlərə bölünür:

- cari hesablar;
- cari subhesablar;
- ssuda hesabları;
- əmanət (depozit) hesabları;
- müxbir hesablar.

Cari hesablar aşağıdakı məqsədlər üçün açılır:

- dövlət orqanları, bələdiyyələr, hüquqi şəxslər, onların filial və nümayəndəlikləri, ailə kəndli təsərrüfatı, fərdi sahibkarlar üçün onların maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarının aparılması;

- fiziki şəxslər üçün onların hesabına daxil olan pul vəsaitini qəbul etmək və hesaba salmaq, hesabdan pul vəsaitlərini köçürmək və vermək, habelə hesab üzrə digər əməliyyatların aparılmasına dair sərəncamlarının yerinə yetirilməsi;
- həmkarlar ittifaqının ilk təşkilatı üçün onların qanun və nizamnamə ilə üzərinə qoyulmuş vəzifələrin icrası;
- büdcə təşkilatları üçün xarici dövlət və hüquqi şəxslər, beynəlxalq təşkilatlar tərəfindən məqsədli təyinat üzrə verilən yardım və qrantların alınması və istifadəsi üzrə bank əməliyyatlarının aparılması.

Cari hesablara müvəqqəti cari hesablar və xüsusi cari hesablar da aiddir. Xüsusi cari hesablar məhkəmənin, icra qurumunun, gömrük orqanının, cinayət təqibini həyata keçirən dövlət orqanlarının, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallarda digər dövlət orqanlarının depozit hesablarına, notariusların depozit, sığorta girovu və zəmanət kassası hesablarına, eləcə də xüsusi seçki hesablarına bölünür. Müvəqqəti və xüsusi cari hesablar aşağıdakı məqsədlərlə açılır:

- müvəqqəti cari hesablar - hüquqi şəxslər üçün onların dövlət qeydiyyatına alınanadək nizamnamə, şərikli kapitallarının, habelə əmlak paylarının ödənilməsi üçün;
- məhkəmənin, icra qurumunun, gömrük orqanının, cinayət təqibini həyata keçirən dövlət orqanlarının, habelə qanunvericilikdə nəzərdə tutulmuş hallarda digər dövlət orqanlarının depozit hesabları – qanunvericilikdə nəzərdə tutulmuş bank əməliyyatlarının aparılması üçün;
- sığorta girovu və zəmanət kassası hesabları - xüsusi notariuslar üçün müvafiq olaraq xüsusi qaydada notariat fəaliyyətinin həyata keçirilməsi zamanı vurula biləcək ziyanın ödənilməsini təmin etmək və xüsusi notariusun müştərilər qarşısındakı məsuliyyətinə zəmanət vermək məqsədi ilə qanunla nəzərdə tutulmuş pul vəsaitlərinin yığılması və istifadəsi üçün;
- notariusun depozit hesabı - dövlət və xüsusi notariuslar üçün qanunda nəzərdə tutulmuş hallarda hüquqi və fiziki şəxslərdən pul vəsaitlərinin, qiymətli kağızların daxil olması, saxlanması və digər əməliyyatların aparılması üçün;
- xüsusi seçki hesabı - Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş məqsədlər üçün.

Cari subhesablar hüquqi şəxslərə onların filial və nümayəndəlik statusu daşımayan və olduğu yerdən kənarda yerləşən struktur bölmələrinə açılır. Bu hesablara daxil olan vəsaitlər həmin struktur bölmələrinin işçilərinin əmək haqları və əmək haqqı ilə bağlı digər məcburi köçürmələrin, habelə bu qurumların fəaliyyətini təmin edən zəruri kommunal xərclərin ödənilməsi üzrə ödənişləri istisna olmaqla, hüquqi şəxslə bağlanmış bank hesabı müqaviləsində müəyyən olunmuş müddətlərdə onun cari hesabına köçürülür. Ssuda hesabları bankın müştərilərə verdiyi kreditlərin uçotu, kredit müqaviləsində nəzərdə tutulduğu hallarda isə həmçinin kredit vəsaitlərinin istifadəsi və ödənilməsi ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır.

Əmanət (depozit) hesabları bank əmanəti (depozit) müqaviləsinə əsasən müştərilərin pul vəsaitlərinin əmanətlərə cəlb edilməsi, əmanətlərinin uçotu və müvafiq əməliyyatların aparılması üçün açılır.

Müxbir hesablar bankların özlərinin və müştərilərinin bank əməliyyatlarının aparılması məqsədi ilə yerli və xarici banklar üçün açılır.

Müştərilər üçün bank hesabının açılması müştəri ilə bank arasında bağlanan bank hesabı müqaviləsi ilə rəsmiləşdirilir. Bank hesabı müqaviləsi bankın müvəkkil edilmiş şəxsinin imzası ilə rəsmiləşdirilir. Xarici bankın müxbir hesab müqaviləsi yalnız bankın rəhbər vəzifəli şəxsi (İdarə Heyətinin üzvü) tərəfindən imzalana bilər. Xarici bankın müxbir hesab müqaviləsində yerli və xarici bankın cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə vəzifələri də nəzərdə tutulmalıdır.

Bank aşağıdakı hallarda bank hesabı müqaviləsinin bağlanmasından imtina edir:

- müvafiq bank hesabının açılması üçün sənədlər tam təqdim edilmədikdə;
- təqdim edilmiş sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;
- vergi orqanı və Dövlət Sosial Müdafiə Fondundan alınan şəhadətnamə-dublikatda bank hesabının açılması üçün digər bankın (bankın filialının, şöbəsinin) adı göstərildikdə;
- vergi orqanı və Dövlət Sosial Müdafiə Fondundan alınan şəhadətnamə-dublikat 10 gün müddətində hesabın açılması üçün istifadə olunmadıqda;
- müştərilərin xidmətə qəbul olunmasına bankın imkanı olmadıqda

və ya buna qanunla, yaxud başqa hüquqi aktlarla yol verilmədikdə;

- bank hesabının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı əməliyyatların aparılması üçün istifadə ediləcəyi barədə əsaslı şübhələr olduqda;
- cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə bankın daxili nəzarət sistemi müxbir hesabdan istifadə edən müştərilərin və benefisiarların eyniləşdirilməsi və əməliyyatlar üzrə daxili nəzarətin həyata keçirilməsi üçün qeyri-adekvat olduqda, habelə bankın shell-bank vasitəsilə açılmış müxbir hesab üzrə işgüzar münasibətlərin yaradılması və ya əməliyyatların həyata keçirilməsi müəyyən edildikdə.

Hesabın açılmasından bank imtina etdikdə bank hesabının açılması üçün təqdim olunan sənədlər geri qaytarılır, sənədlərin surətləri isə bankda saxlanılır və nəzərdə tutulmuş hal istisna olmaqla, ərizə verən şəxsin tələbi ilə imtinanın səbəbləri ona yazılı surətdə bildirilir.

Banklar tərəfindən bank hesabları rəsmiləşdirilərkən hesab nömrələri aşağıda qeyd edilən 28 simvoldan ibarət İBAN (International Bank Account Number) strukturu üzrə açılır:

- “AZ” – ilk 2 (iki) simvol Azərbaycan Respublikasının ölkə kodu;
- “NR” – sonrakı 2 (iki) simvol nəzarət rəqəmləri;
- “BANK” – növbəti 4 (dörd) simvol maliyyə institutunun SWİFT BİC-nin ilk 4 simvolu;
- “HHHHHHHHHHHHHHHHHHHH” – son 20 (iyirmi) simvol müştəri hesab nömrəsi (müştəri hesab nömrəsinin simvollarının sayı 20-dən az olduqda onun əvvəlinə sıfırlar əlavə edilir).

Kredit əməliyyatları üzrə faizlərin hesablanmasının dayandırılması və onun uçotu

Kredit əməliyyatları üzrə faizlərin hesablanmasının dayandırılması kredit təşkilatlarının maliyyə hesabatlarının hazırlanması üçün müəyyən edilir və müştərilərlə bağlanmış kredit müqavilələri şərtlərinin dəyişdirilməsinə, tənzimlənməsinə, dayandırılmasına və ya müştərilərdən faizlərin alınıb-alınmaması məsələlərinə təsir göstərmir.

Beynəlxalq mühasibat standartlarının tətbiqi ilə bağlı bütün kredit təşkilatları kreditlər üzrə faizləri hesablama metodu əsasında müəyyən

edirlər. Bu metodun əsasını təşkil edən prinsiplərə görə kredit təşkilatları faiz gəlirlərini onun alınmasını gözləmədən, yəni ehtimal olunan gəlirin qazanılacağı vaxt maliyyə hesabatlarında (o cümlədən balansda) əks etdirilməlidirlər. Hesablama metodu əldə edilməsi gözlənilməyən faiz gəlirlərinin hesablanmasını və ya kapitallaşdırmaqda davam etməsini nəzərdə tutmur. Əldə edilməsi gözlənilməyən faiz gəlirlərinin hesablanmaqda davam etməsi aktivlərin real dəyərinin və gəlirin təhrif olunması ilə kredit təşkilatının real maliyyə vəziyyəti haqqında Azərbaycan Respublikasının Mərkəzi Bankı, depozitorlar, kreditorlar, təsisçilər (payçılar və səhmdarlar) və hesabatlarından istifadə edə bilən digər şəxslər üçün yanlış təsəvvür yarada bilər. Bu təcrübə təhlükəli və qeyri-sağlam bank praktikası hesab edilir.

Bu göstərilən qaydalardan sonra hər bir kredit təşkilatları 60 gün müddətində kredit portfelini təhvil edib, onları iki yerə ("faizləri hesablanan" və "faizləri hesablanmayan") bölməsi barədə qərar qəbul etmişlər. Bu bölgü kreditlə barədə əldə edilmiş müvafiq məlumatlar əsasında aparılır. Kredit portfelindən "faizləri hesablanmayan" statusa aid edilmiş kreditlər çıxarıldıqdan sonra qalan bütün kreditlər "faizləri hesablanan" kreditlər statusuna aid edilir. Bu əməliyyatların aparılması üçün məsuliyyət kredit təşkilatının və İdarə Heyətinin üzərinə düşmüş və uçot və hesabat işi göstərilənlərə uyğun aparılması məqsədi ilə İdarə Heyəti müvafiq daxili qaydalarına əsasən proseduralar o cümlədən təşkilatı xarakterli məsələləri hazırlamışdırlar.

Kredit təşkilatları aşağıdakı hallarda kreditlə "faizləri hesablanmayan" kreditlər statusu verərək, faizlərin hesablanmasını dayandırdılar:

- əsas məbləği və faizləri "yaxşı təmin edilmiş" və "yığılma prosesində olan" kreditlər (hər iki şərt birgə yerinə yetirilirsə) istisna edilməklə, kreditlərin qaytarma müddətindən asılı olmayaraq faizlərin, yaxud əsas məbləğin ödəniş kredit müqaviləsi ilə nəzərdə tutulmuş vaxtdan 90 gün və daha çox gecikdirilərsə;
- Müqavilə ilə kreditin qaytarılma müddətindən asılı olmayaraq əsas məbləğin, yaxud faizlərin tam ödənilməsinin gözlənilmədiyi hallar təsdiqedici sənədlər, maliyyə hesabatları əsasında sübut olunduqda və ya müştəri təbii fəlakətlə, yanğınla və s. əlaqədar (fors-mojor), yaxud hər hansı bir digər səbəbdən müflis elan olunduqda.

Kredit o zaman "yaxşı təmin edilmiş hesab olunur ki, o əsas məbləğin

və faizlərin tam ödənilməsi üçün kifayət edən və real satıla bilən əmlakla, bazar qiymətli kağızları ilə, yaxud depozit (nağd pulla) təmin edilsin.

Kredit o zaman "yığılma prosesində olan" hesab edilir ki, görülmüş tədbirlər, o cümlədən məhkəmə qərarı da daxil olmaqla, əsas borcun və faizlərin 120 gün ərzində ödənilməsi qəti şübhə doğurmasın. Hər bir kredit təşkilatı kreditin "yaxşı təmin edilmiş" və "yığılma prosesində olduğunu" təsdiq etmək üçün kredit sənədlərində kredit barədə kifayət qədər sənədli məlumat saxlamalı (məs: bazar konyukturası dəyişdikdə girov götürülmüş əmlakın yenidən qiymətləndirilməsi aktı (tarixi, qiyməti kim tərəfindən və hansı qaydada dəyərləndirilib), girovun potensal alışları ilə yazışmalar və ya onun alınması üçün real sövdələşmə və s.) və onlara mütəmadi olaraq yenidən baxılmalıdır.

Kreditlər "faizləri hesablanmayan" statusa aid olunduğu vaxtdan başlayaraq, bütün sonrakı daxilolmalar müştərinin hesabına qarşı digər tələblər varsa, qanunvericilikdə müəyyən olunmuş növbəliliyə əməl edilməsi şərti ilə ödənilməlidir. Növbə banka olan borclara çatdıqda əvvəl əsas məbləği tam ödənilməli, sonra isə faiz borcları ödənilməlidir. Yəni vaxtı keçmiş bütün faizlər yalnız əsas borc tam odənildikdən sonra, daxil olan əsas vəsait məbləğində gəlir əldə edilməlidir. Bu vaxt kredit müqaviləsinə görə alınmamış faizlərin uçotu balansdankənar hesabda aparılır.

Faizlərin balansdakənar hesabda uçotun aparılması müştəri ilə kredit təşkilatı arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş əsas borc və faiz borcların ödənilməsi üzrə şərtlərin dəyişdirilməsinə səbəb olmur və buna heç bir təsir göstərmir. Faizlərin balansdankənar hesabda uçotun aparılması zamanı, müştəriyə bu hesabda toplanmış faiz borclarının məbləği barədə ayda bir dəfə məlumat göndərilir. Balansdankənar hesabda toplanmış faiz borcları haqqında müştəriyə verilən məlumatlar, əsas borc balansından məqsədli ehtiyat fondu hesabına silinənə kimi davam etdirilməlidir. Lakin, faizlərin hesablanmasının dayandırılması və ya müştəriyə faizlərin hesablanması barədə məlumatın verilməməsi, müştərinin gələcəkdə müqavilə şərtlərinə əsasən faizlərin qaytarılmamasına əsas vermir. Bank rəhbərliyi borclarının qaytarılması üçün daim tədbir görməlidir. Faiz borcunun hər hansı bir hissəsinin vaxtından asılı olmayaraq hər hansı bir aktiv formasında geri qaytarılması mümkün olarsa, bank bunun üçün bütün qanuni tədbirlər görməyə borcludur.

Hesablanıb gəlirə götürülmüş, lakin alınmamış faizlər aşağıdakı əks mühasibat yazılışı ilə balansdan silinir.

Debet: Faiz gəliri (passiv hesab);
Kredit: Hesablanmış faizlər (aktiv hesab).

Bu qeyd olunanlar qüvvəyə mindikdən sonra ”faizlər hesablanmayan” statusu almış kreditlər üzrə əvvəllər “hesablanmış və vaxtında ödənilməmiş faizlər” və “gələcək dövrlərin gəlirləri” əks mühasibat yazılışı ilə aşağıdakı qaydada balansdan silinməlidir.
Debet: Gələcək dövrün gəliri (passiv hesab);
Kredit: Hesablanmış və vaxtında ödənilməmiş faizlər (aktiv hesab).

Əvvəlki iki bənddə göstərilmiş qaydada balansdan silinmiş faizlər, balansdankənar hesablarda uçota alınır və borcalanlardan onların ödənilməsi üçün vəsait daxil olmazsa, onların ödənilməmiş məbləği beş il ərzində bu hesablarda saxlanılır.

“Faizlər hesablanmayan” statusuna aid edilmiş kreditlər yalnız aşağıdakı şərtlərlə “faizləri hesablanan” kredit statusuna yenidən aid edilə bilər.

- a) Borcalan tərəfindən bütün vaxt keçmiş faizlər və əsas borc üzrə öhdəliklər yerinə yetirilsin;
- b) Faizlərin və əsas borcun gələcəkdə tam ödənilməsi şübhə doğurmasın.

Bu qərar borcalanın maliyyə vəziyyəti və onun borcu tamamilə ödəmək qabiliyyəti dəqiq öyrənildikdən və borcalanın borcu ödəməyə hazır olduğu hallarda qəbul edilə bilər. “b)” bəndinin qiymətləndirilməsi zamanı üçüncü şəxs tərəfindən verilən zəmanət o şərtlə nəzərə alına bilər ki, kredit təşkilatı zəmanətçinin verdiyi zəmanət üzrə hərəkət etməyə qadir olduğunu və bunu ödəyəcəyinə əsaslı surətdə sübut edə bilsin. Bu qərarın qəbul olunması üçün mühüm amil borcalan tərəfindən öhdəliyin 6 ayadək dövrdə müntəzəm yerinə yetirilməsi ola bilər.

Kredit təşkilatı borc alan tərəfindən “a)” bəndinin yerinə yetirilməsinin təmin edilməsi şərti ilə gələcəkdə faizlərin və əsas məbləğin müqaviləyə uyğun olaraq yerinə yetirilməsinə tam əmin olduqda, borcalan tərəfindən borcun silinməsi üçün faktiki ödənişlər aparılarsa, bu zaman kassa metodlarından istifadə edərək əsas məbləğlər üzrə daxilolmalar kredit borcunun

Bank işində istifadə olunmayan əsas vəsaitlər üzrə tələblər

Bank işində istifadə olunmayan daşınmaz əsas vəsait üç ildən çox olmayan müddət ərzində satılmalıdır. Mərkəzi Bank aşağıdakı hallarda

bank işində istifadə olunmayan daşınmaz əsas vəsaitin satılması müddətinin daha bir il müddətinə artırılmasına icazə verə bilər:

1. üç illik dövr ərzində bu əsas vəsaiti satmaq üçün bank tərəfindən bütün görülmüş tədbirlər sənədlərlə əsaslandırıldıqda;
2. üç il ərzində bu əsas vəsaitin satışının banka zərər vura biləcəyi əsaslandırıldıqda.

Bu cür əsas vəsaitlərin satışı üçün bankın gördüyü bütün tədbirlə tam sənədləşdirilməli və bankın Müşahidə Şurası və İdarə Heyətinin daimi nəzarətində saxlanılmalıdır. Belə sənədlərə əsas vəsaitlərin qiymətləndirilməsi barədə qiymətləndiricinin rəyi, alqı-satqı barədə təkliflər, yazışmalar, elanlar və s. aid edilir. Bank işində istifadə olunmayan daşınmaz əsas vəsaitin saxlanma müddətinin hesablanması aşağıdakı andan başlanır:

1. girov götürülmüş, borclu və ya üçüncü şəxs tərəfindən banka verilmiş əsas vəsait üzərində mülkiyyət hüququ banka keçdiyi tarixdən;
2. bankın köhnə binadan yeni binaya köçməsi başa çatdıqda və ya fəaliyyətində bu binadan istifadə edilməsi dayandırıldığı tarixdən;
3. bankın nəzərdə tutulan genişləndirmə işləri üçün alınmış əsas vəsaitdən istifadə edilməməsi barədə qərar qəbul edildiyi tarixdən;
4. maliyyə icarəsi üzrə icarəçinin öhdəliyini yerinə yetirməməsi səbəbindən əsas vəsaitlərin banka qaytarıldığı tarixdən.

Bank işində istifadə olunmayan daşınmaz əsas vəsaitlərdən fərqli olaraq, bank işində istifadə olunmayan daşınar əsas vəsaitlər 120 gün müddətinə satılmalıdır. Bank tərəfindən əvvəllər istifadə olunmuş və ya fəaliyyətlərinin genişləndirilməsi üçün alınmış, habelə bankın mülkiyyətinə keçmiş istifadəsi nəzərdə tutulmayan əsas vəsaitlər ildə ən azı bir dəfə qiymətləndirilməlidir. Balans dəyəri 20.000 manata qədər olan bu əsas vəsaitlərin qiymətləndirilməsi AMB-nin «Ödənilməmiş borclar müqabilində banklar tərəfindən əmlakın balansa götürülməsi və qiymətləndirilməsi Qaydaları»ı ilə müəyyən edildiyi kimi aparılır. Balans dəyəri 20.000 manatdan çox olan əsas vəsaitlərin qiymətləndirilməsi isə həmin Qaydalarla müəyyən edildiyi kimi kənar qiymətləndirici tərəfindən aparılır.

Bank işində istifadə olunmayan əsas vəsaitlərin yenidən qiymətləndirilməsinin maliyyə hesabatlarında əks etdirilməsi AMB-nin «Azərbay-

can Respublikasının bütün kredit təşkilatlarında əsas vəsaitlərin uçotu Qaydaları»nda müəyyən edilmiş qaydada həyata keçirilir.

Bank işində istifadə olunmayan əsas vəsaitlərin bank aktivləri kimi təsnifləşdirilməsi və onlar üçün xüsusi ehtiyatların yaradılması AMB-nin «Aktivlərin təsnifləşdirilməsi və zərərin ödənilməsi üçün ehtiyatların yaradılması Qaydaları»na müvafiq aparılır. Qeyd olunan müddətdə satılmayan əsas vəsaitlər «ümidsiz» aktivlər kimi təsnifləşdirilərək yaradılmış xüsusi ehtiyatlar hesabına balansdan silinməklə satılana kimi balansdankənar hesabda uçota alınır və ya ləğv edilir.

İcazələr. Aşağıdakı hallarda Mərkəzi Bankın qabaqcadan icazəsi tələb olunur:

1. bank işində istifadə olunmayan daşınmaz əsas vəsaitlərə sahib olmaq niyyəti üç ildən çox olduqda. Bu zaman bank onun satılması üçün gördüyü tədbirləri sübut edən sənədləri təqdim etməlidir;
2. daşınmaz əsas vəsaitə sərmayə qoyuluşlarını və ya kreditləri qaytarma məqsədilə bu əsas vəsaitlərin təmirinə və ya tikintisinə əlavə xərclər çəkdikdə.

Aşağıdakı hallarda əsas vəsaitlərin əsaslı təmirinə və ya tikintisinə əlavə xərclərin çəkilməsinə icazə verilir:

1. xərc nəticəsində kreditin ümumi dəyəri ilə əsas vəsaitin bazar dəyəri arasındakı fərqin azalması sübut edildikdə;
2. bu əlavə xərclərin məqsədi əsas vəsait bazarında möhtəkirlikdən ibarət olmadıqda.

Əsas vəsaitin cari təmiri ilə əlaqədar çəkiləcək əlavə xərclər üçün icazə tələb olunmur. Daşınmaz əsas vəsaitin təmir və ya tikintisinin başlanmasına azı 30 təqvim günü qalmış Mərkəzi Banka müraciət edilir. Müraciətə əməl olunmasını təsdiq edən sənədlər qoşulmalıdır. Mərkəzi Bank 30 təqvim günü ərzində müraciətlə bağlı razılıq verir və ya əsaslandırılmış qaydada imtina edir.

Bank işində istifadə olunmayan əsas vəsaitlərin satılması üzrə əməliyyatlar

Bank işində istifadə olunmayan əsas vəsaitlərin satışı aşağıdakı qaydalarla həyata keçirilə bilər:

1. qanunvericiliklə müəyyən olunmuş adi satış qaydasında daşınar və daşınmaz əsas vəsaitlərin dəyərinin tam məbləğdə birdəfəlik ödənilməsi. Əsas vəsaitlərin satış dəyərinin birdəfəlik ödənişi zamanı əldə edilən faktiki gəlir və ya itki balansda dərhal uçota alınır, yəni bankın gəliri və ya xərc kimi təsdiq edilərək hesabatda əks olunur;
2. adi satış qaydasından fərqli olaraq, daşınmaz əsas vəsaitin ödənilməyən qalıq məbləğinin alıcı tərəfindən daha uzun müddətə, yəni hissə-hissə ödənilməsi. Bu qaydada daşınmaz əsas vəsaitlərin satışı yalnız onun bazar dəyərinin minimum 25%-i faktiki ödənildikdə, alıcı banka aidiyyatı və ya aidiyyatı şəxs adından hərəkət edən şəxs olduqda isə minimum 50%-i faktiki ödənildikdə həyata keçirilə bilər. Bank işində istifadə olunmayan daşınmaz əsas vəsaitlər üzrə alıcı tərəfindən təklif olunan ilkin ödəniş bu nisbətlərdən aşağı olduqda əsas vəsaitin satışına yol verilmir.

Bank işində istifadə olunmayan daşınar əsas vəsaitlərin yuxarıda göstərilmiş bəndinin şərtləri ilə satılmasına icazə verilmir. Bank işində istifadə olunmayan daşınmaz əsas vəsait alıcıya göstərilən şərtlərlə satıldıqda, onun ödənilməmiş qalıq məbləği müştəriyə verilmiş kredit kimi rəsmləşdirilir və uçotu müvafiq balans hesabında aparılır. Əsas vəsaitin bankın öz krediti hesabına müştəriyə satılması zamanı aşağıdakı şərtlərə əməl olunmalıdır:

1. alıcının ödəniş qabiliyyəti qənaətbəxş olmalı;
2. alqı-satqı müqaviləsi bağlanarkən əsas vəsait üzrə mülkiyyət hüququ və risklər, habelə onun istifadəsindən əldə edilən gəlir alıcıya keçməli;
3. ən azı satışın obyekti olan əsas vəsait girov kimi rəsmləşdirilməli.

Əsas vəsait bu göstərilən şərtləri ilə satıldıqda:

1. satışdan yaranan itki dərhal tanınır;
2. satışdan gəlir əldə edildikdə o, kreditin verilmə tarixindən bir il müddətində yalnız «gələcək dövrün gəlirləri» hesabında uçota alınır;
3. «gələcək dövrün gəlirləri» hesabında uçota alınan məbləğ əsas vəsaitin kredit hesabına satılması tarixindən bir il keçdikdən sonra kreditin qalan müddəti ərzində bərabər hissələrlə gəlirdə

uçota alınır;

4. əsas vəsaitin kredit hesabına satılması zamanı kreditin verilmə müddəti bir ildən az olarsa, satışdan əldə edilən gəlir kredit tam qaytarıldıqdan sonra uçota alınır;
5. kreditlər üzrə faizlərin hesablanması və ya faizlərin hesablanmasının dayandırılması AMB-nın «Kredit əməliyyatları üzrə faizlərin hesablanmasının dayandırılması haqqında Qaydalar»ına müvafiq olaraq aparılır.

Əsas vəsaitlərin uçota alınması üçün qabaqcadan ödəniş zamanı aşağıdakı mühasibat yazılışı aparılır:

DT “Əsas vəsaitlərin alınması üçün qabaqcadan ödəmə”;

KT “Müxbir hesab və yaxud mal göndərənin hesabı” Kassa.

Əsas vəsaitlər alındıqdan sonra malgöndərənlərlə son hesablaşma aparılır və debitor borcu silinir.

DT “Əsas vəsaitlər” hesabı;

KT “Əsas vəsaitlərin alınması üçün qabaqcadan ödəmə”.

Tam amortizasiya hesablandıqdan sonra əsas vəsaitləri balansdan silmək üçün aşağıdakı mühasibat yazılışı aparılır:

DT “Əsas vəsaitlər üzrə yığılmış köhnəlmə” hesabı;

DT “Hesabat ilinin mənfəti (itkilər)” hesabı;

KT “Əsas vəsaitlər” hesabı.

Tam amortizasiya olunmuş əsas vəsaitlər satılarkən aşağıdakı mühasibat yazılışı verilir:

DT “Əsas vəsaitlər üzrə yığılmış köhnəlmə” hesabı;

DT Müxbir hesab (kassa) müştərinin hesabı;

KT “Əsas vəsaitlər” hesabı.

Əsas vəsaitlərin yenidən qiymətləndirilməsi zaman əmələ gələn dəyər fərqi aşağıdakı mühasibat yazılışları ilə balansda müvafiq subhesablara daxil edilir:

DT “Əsas vəsaitlər” hesabı;

KT “Əsas vəsaitlərin yenidən qiymətləndirilməsi”.

Bankların fəaliyyətində nəzarət və tənzimlənmə məsələləri

Maliyyə bazarlarının bütün seqmentlərinin artan inteqrasiyası şəraitində nəzarət funksiyalarının meqatənzimləyicinin əlində cəmlənməsi tendensiyası özünü daha dolğun şəkildə büruzə verir. Maliyyə sektorunda nəzarət səlahiyyətləri hər bir ölkədə qanunvericiliklə müəyyən olunmuş institusional qaydada həyata keçirilir. Bu sistemlərin müxtəlif ölkələr üzrə fərqlərinə baxmayaraq, onların hamısı aşağıdakı əsas məqsədlərin həyata keçirilməsinə istiqamətlənib:

1. Pul və maliyyə sabitliyinin saxlanması. Bu da bankların iflasına yol verilməməsi və aktiv - passivlərin səmərəli idarə edilməsinə yönəldilmiş tədbirləri əhatə edir.
2. Bank sisteminin səmərəliliyinin təmin olunması. Bu isə aktivlərin keyfiyyətinin artırılması və potensial risklərin azaldılması hesabına əldə olunur. Bank nəzarətinə həmçinin daxili bank əməliyyatlarının və maliyyə vəziyyətinin qiymətləndirilməsi daxildir ki, bu da bankların həyati əhəmiyyətli iqtisadi əməliyyatları və institutları maliyyələşdirmək qabiliyyətini qiymətləndirməyə imkan verir.
3. Əmanətçilərin maraqlarının müdafiəsi: əmanətçilər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməyən bankların fəaliyyətinə nəzarətin gücləndirilməsi mexanizmi.

Ayrı-ayrı ölkələrdə bank nəzarətini həyata keçirən orqanların növləri də müxtəlifdir ki, bu da bir sıra institusional, mədəni və inzibati şərtlərlə, habelə iqtisadiyyatın inkişaf səviyyəsi və kapital bazarlarının həcmi ilə izah olunur.

Bəzi ölkələrdə, o cümlədən Azərbaycanda bankların fəaliyyətinə nəzarəti Mərkəzi Bank tərəfindən həyata keçirir, digər ölkələrdə, o cümlədən ABŞ-da maliyyə bazar iştirakçılarının fəaliyyətinə nəzarəti öz aralarında sıx əməkdaşlıq edən xüsusi nəzarət orqanları icra edir.

Bank nəzarət orqanlarının fəaliyyəti: dünya təcrübəsi

Maliyyə qloballaşması özündə ölkələr arasındakı maliyyə əlaqələrinin dərinləşməsini, qiymətlərin liberallaşmasını və investisiya axınlarının artmasını, millətlərarası maliyyə institutlarının (idarələrinin) yaranmasını ifadə edir. Valyuta və avro-valyuta bazarlarının, xarici valyutada olan bank depozitlərinin, beynəlxalq maliyyə bazarlarından cəlb edilən

vasitələrin, institusional investorların müştərək ehtiyatlarının, ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişafında xarici ehtiyat paylarının artan həcmi və yüksək dinamikası maliyyə qloballaşması prosesslərinin güclənməsini təsdiq edir. Bank nəzarətini həyata keçirən orqanların növləri müxtəlif ölkələrdə fərqlidir ki, bu da müxtəlif institusional, mədəni və inzibati şərtlərlə, həmçinin iqtisadiyyatın inkişaf dərəcəsi və kapital bazarının həcmi ilə izah edilir. Bəzi ölkələrdə vahid Mərkəzi Bank nəzarəti və tənzimi orqanı mövcuddur, digər bir sıra ölkələrdə isə bu funksiyanı bir-biriləri ilə sıx əməkdaşlıq edən xüsusi nəzarət orqanları icra edir, belə ki, pul-kredit siyasətinin və bank nəzarətinin təkmilləşdirilməsi funksiyaları yenidən qurulur.

Müxtəlif ölkələrdə istifadə olunan institusional yanaşmalardan asılı olaraq ölkənin maliyyə sektorunun fəaliyyətinə nəzarətin həyata keçirilməsi göstərilən funksiyaya əsasən və ya başqa şəkildə hökümət tərəfindən bu iş üzrə səlahiyyətləndirilən müxtəlif orqanlar arasında bölüşdürülür. Digər bəzi ölkələrdə koordinasiya problemləri idarələrarası işçi qruplarının, şuraların və digər konsultativ orqanların yaranması yolu ilə həll edilir ki, yaradılan bu qrupların, şuraların tərkibinə tənzimləyici (nizamlayıcı) və nəzarət orqanlarının nümayəndələri daxil edilir. Bir çox ölkələrdə maliyyə təşkilatlarının fəaliyyətinin tənzim olunması və ona nəzarət mərkəzi bankların, maliyyə nazirliklərinin, həmçinin, banklara, sığorta şirkətlərinə və qiymətli kağızlar bazarının iştirakçılarına nəzarət üzrə komissiyalar və s. bu kimi digər təşkilatlar tərəfindən həyata keçirilirdi.

Beynəlxalq Valyuta Fondunun məlumatlarına görə, ölkələrin 76%-ində bank nəzarəti mərkəzi banklar, 4%-ində maliyyə nazirliyi, 20%-ində qarışıq tipli orqanlar tərəfindən həyata keçirilir. Sonuncu üsul məsələn, Fransada həyata keçirilir ki, burada nəzarət xüsusi olaraq yaradılan orqan-Bank Komissiyası tərəfindən Fransanın Milli Bankı ilə birgə icra edilir. Yalnız milli banklara təhkim edilən prudensial nəzarət fikrini Mərkəzi Avropa Bankı israrla dəstəkləyir.

Bir çox ölkələrdə fond bazarlarını nizamlayan orqanlar bankları nizamlayan orqanları ilə paralel olaraq işləyirlər. Buna misal olaraq Rusiyanı göstərmək olar ki, burada, nəzarət orqanları sistemindəki rəhbər bənd rolunu Rusiya Federasiyasının Mərkəzi Bankı və Maliyyə Bazarları üzrə Federal Xidməti bərabər hüquqlu şəkildə icra edir. Həmiçinin Fransada da Bank Komissiyası, Birja Əməliyyatları üzrə Komissiya və Maliyyə Bazarları üzrə Şura ilə paralel olaraq işləyir. Yaponiyada fond bazarları, Financial Services

Agency (FSA)–Maliyyə Xidmətləri Agentliyi tərəfindən müşahidə olunur, Yaponiyanın Mərkəzi Bankı isə bank sektorunu tənzimləyir.

Yalnız milli banklara təhkim edilən prudensial nəzarət fikrini Mərkəzi Avropa Bankıisrarla dəstəkləyir. Bir çox ölkələrdə fond bazarlarını nizamlayan orqanlar bankları nizamlayan orqanları ilə paralel olaraq işləyirlər. Buna misal olaraq Rusiyanı göstərmək olar ki, burada, nəzarət orqanları sistemindəki rəhbər bənd rolunu Rusiya Federasiyasının Mərkəzi Bankı və maliyyə bazarları üzrə Federal Xidmət, bərabər hüquqlu şəkildə icra edir. Həmiçinin Fransada da Bank komissiyası birja əməliyyatları üzrə Komissiya və maliyyə bazarları üzrə Şura ilə paralel olaraq işləyir. Yaponiyada fond bazarları, Financial Services Agency of Japan–Yaponiya, Maliyyə Xidmətləri Agentliyi tərəfindən kurasiya olunur, Yaponiya Bankı isə bank sektorunu tənzimləyir.

Avropa Birliyində bank nəzarəti orqanları Avropa Birliyi səviyyəsində necə olmalıdır, onun səlahiyyətlərinə nələr daxildir, bu orqan mərkəzi bank yanında fəaliyyət göstərməlidir ya tamamilə sərbəst, heç bir orqandan asılı olmayan bir orqan olmalıdır və s. bu kimi mövzularda geniş müzakirələr getməkdədir. 22 sentyabr 2010-cu il tarixində Avropa Parlamenti tərəfindən həmçinin Avropa Birliyinin (AB) maliyyə sistemində islahatların keçirilməsi ilə bağlı qərar da bəyənilmişdir ki, bu islahatlar çərçivəsində maliyyə bazarlarının tənzimi, risklərin milli səviyyədə fraqmentləşdirilmiş fərdi təhlil problemlərinin aradan qaldırılması, həmçinin sistem risklərin erkən aşkar edilməsi və qarşısının alınması sisteminin inkişaf etməsi arxitekturasının və institusional quruluşunun təkmilləşməsi hesabına onun davamlılığını və sabitliyini təmin etməyə yönəlik bir sıra qanunverici təşəbbüslər qəbul olunmuşdur. Bununla, nəzarət orqanları arasındakı funksiya bölgüsünün bir neçə modelini ayırmaq olar:

Model 1. Bank fəaliyyətinə nəzarət və onun tənzim olunması sahəsində istisna səlahiyyətlərə malik olan mərkəzi banklar üzrə qanunverici təhkimçiliyə əsaslanır. Bank işi sahəsində nəzarət təcrübəsinin yarandığı ilk gündən bəri bu modelin yeganə model olmamasına baxmayaraq, məhz bu model tarixən üstünlük təşkil edib (hakim olub). Özünün hakim mövqeyini itirməsinə baxmayaraq, bu gün də, o, hələ də əvvəlki kimi həyat tərəfindən tələb edilir.

Model 2. “Qarışıq”. Nəzarət və idarə funksiyaları mərkəzi bankın və

maliyyə nazirliyinin bilavasitə iştirakı ilə ixtisaslaşdırılmış orqanlar tərəfindən həyata keçirilir.

Model 3. Bank fəaliyyəti üzərində nəzarət maliyyə nazirliyi ilə sıx qarşılıqlı əlaqədə olan ixtisaslaşdırılmış sərbəst orqanlar tərəfindən mərkəzi bankın iştirakı ilə həyata keçirilir.

Model 4. Maliyyə xidmətləri bazarında meqa - tənzimləyici orqanların yaradılması haqqında qanunverici qərar qəbul edən ölkələri birləşdirir.

Model 5. Beynəlxalq və ya milli. Nəzarət sahəsində mövcud olan nöqteyi - nəzərdən bütün beynəlxalq maliyyə təşkilatları arasından ən əhəmiyyətli olanları bunlardır: Mərkəzi Avropa Bankı (MAB), bank nəzarəti üzrə Bazel Komitəsi, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı.

Verilmiş bu əlaqədə milli tənzim xüsusiyyətlərini də nəzərə almaq lazımdır, belə ki, müxtəlif ölkələrdə bank tənzimləyici funksiyalar ya ölkənin mərkəzi bankının üzərinə, ya da nazirliyin və ya xüsusi olaraq yaradılan komissiyanın digər orqanının üzərinə qoyulub. Bu orqanlar üzərilərinə qoyulan bu vəzifəni ya müstəqil surətdə icra edirlər, ya da mərkəzi bankın və ya maliyyə nazirliyinin iştirakı ilə icra edirlər.

Xüsusi ilə, bank sahəsinin tənzimlənməsi üzrə olan vəzifələri, Avstraliyada Maliyyə Nəzarəti üzrə Xidmət, Belçikada–Banklar, Maliyyə və Sığorta üzrə Komissiya, Böyük Britaniyada–Maliyyə Xidmətləri İdarəsi, Almaniyada–Maliyə Nəzarəti üzrə Federal Xidmət, Kanadada–Maliyyə Nazirliyi, Lyuksemburqda–Büdcə və Xəzinə Nazirliyi, Fransada–Kredit Təşkilatları və İnvestisiya Fondları üzrə Komitə, İsveçrədə-Federal Bank Komissiyası, Yaponiyada–Maliyyə Xidməti və Yaponiya Bankı və s. icra edir.

Mərkəzi bank pul–kredit siyasətini formalaşdırmaq və həyata keçirtməklə yanaşı Bolqarıstanda, Yunanıstanda, İtaliyada, Litvada, Niderlandda, Yeni Zellandiyada, Portuqaliyada, Slovakiyada, MDB ölkələrində həmçinin bank idarələrini də tənzim edir.

Vahid maliyyə bazarında nəzarətin müxtəlif milli nəzarət orqanlar tərəfindən paralel şəkildə həyata keçirilməsi nəzarət orqanlarının banklar arasındakı rəqabətə göstərdikləri təsirə nisbətən onların bitərəflik tələblərinin mövcudluğuna təhlükə yaradır. Bizim fikrimizcə hazırkı problem xüsusi ilə Avropa üçün daha aktualdır, çünki, burada yalnız

bank nəzarətinin beynəlmiləlləşdirilməsi prosesi inkişaf etmir, həm də vahid avropa supermilli bank nəzarəti orqanının yaradılması istiqamətinə yönələn hərəkət tendensiyası da müşahidə olunur.

Bizim fikrimizcə, cümlədən bank tənziminin harmonizasiyası hal-hazırda maliyyə inteqrasiyasının ən vacib şərti və elementi hesab edilir. Tənzimləyici (nizamlayıcı) orqanların harmonizasiyası prosesi dedikdə vahid normaların, lisenziyalaşdırma üsullarının və maliyyə idarələri üzərindəki nəzarətin uyğunlaşdırılması prosesi başa düşülməlidir.

Çox tez-tez alimlər maliyyə tənzimi sistemlərinin dövlətlərarası konvergensiyasına zəruri şərt kimi baxırlar, amma digər başqa hallarda isə onu bazar inteqrasiyasının nəticəsi kimi də qiymətləndirirlər, lakin demək olar ki, alimlər həmişə maliyyə tənzimi sistemlərinin dövlətlərarası konvergensiyasını mütləq surətdə maliyyə inteqrasiyasının ən vacib elementi hesab ediblər.

AB-dəki maliyyə inteqrasiyası təcrübəsi üzərində tərəfimizdən aparılan tədqiqatların göstərdiyi kimi dövlətlərarası konvergensiya prosesi maliyyə inteqrasiyasının zəruri şərti hesab edilir və o olmadan praktiki olaraq inteqrallaşdırılmış maliyyə bazarını yaratmaq mümkün deyil.

Sistem əhəmiyyətli bankların fəaliyyətinə nəzarət və tənzimlənməsi

Sistem riskləri maliyyə sisteminin fəaliyyətinin pisləşməsi nəticəsində maliyyə xidmətlərinə çıxış imkanlarının məhdudlaşdırılması və real sektora neqativ təsir kimi qiymətləndirilir. Sistem risklərinin qiymətləndirilməsi zamanı sistem əhəmiyyətli maliyyə institutları mühüm rol oynayır. Maliyyə institutlarının sistem əhəmiyyətliyinin müəyyən edilməsində üç meyar seçilir. Meyarlar birbaşa və dolayı təsir kanallarını özündə əks etdirirlər. Ölçü və əvəzetmə dərəcəsində birbaşa təsir, dolayı təsir qarşılıqlı əlaqədə özünü göstərir. Bu meyarlar aşağıdakılardır:

1. Ölçü. Maliyyə institutlarının göstərdikləri xidmətlərin maliyyə sistemində xüsusi çəkisi sistem əhəmiyyətini əks etdirən amillərdən biridir. Maliyyə institutların apardıqları əməliyyatların xüsusi çəkisinin yüksək olması onun bazarda sistem əhəmiyyətli olmasının göstəricisidir.
2. Əvəzetmə. Bəzi maliyyə institutları iqtisadiyyatda vacib rol oynayırlar. Onlar böyük həcmə və ya digər institutlarla əlaqədə olduqları üçün deyil, bu institutlar xüsusi xidmətlər göstərdikləri üçün sistem əhəmiyyəti daşıyırlar. Belə institutlara ödəniş və klirinq

sistemləri, kastodial xidmətlər və s. aid etmək olar.

3. Qarşılıqlı əlaqə. Maliyyə sisteminin komponentləri arasında qarşılıqlı əlaqə nəticəsində fərdi maliyyə institutunda yaranan problemlərin maliyyə sistemə yayılmasıdır.

Sistem əhəmiyyətli bankların xüsusi tənzimləmə rejiminin yaradılmasında mühüm rol bir neçə il əvvəl bank birliyində bu məsələnin müzakirəsinin təşəbbüskarı olmuş, 2009-cu ildə Maliyyə sabitliyi Forumunun bazasında yaradılan Maliyyə Sabitliyi Şurasına (Financial Stability Board) və Bank nəzarəti üzrə Bazel komitəsinə məxsusdur. Beynəlxalq və milli səviyyədə sistem əhəmiyyətli bankların seçilməsi nəzərdə tutulub. Seçmə meyarlarının müəyyən edilməsi belə nəzarət və tənzimləmə sisteminin yaradılması üçün ilk praktiki addımlardan biri olmuşdur.

Qeyd etmək lazımdır ki, bankların, milli hökumətlərin, beynəlxalq tənzimləmə və nəzarət orqanlarının, müstəqil ekspertlərin iştirak etdiyi diskussiyalar son dərəcə gərgin olmuşdur. Müzakirə zamanı ekspertlər tərəfindən sistem əhəmiyyətli bankların üzə çıxarılmasının müxtəlif meyarları, məsələn filialların və törəmə bankların sayı, birja kapitalizasiyasının həcmi, verilən kreditlərin və kapitalın həcminin nisbəti və s. təklif olunmuşdur. Bununla bərabər, iri banklar beynəlxalq sistem əhəmiyyətli maliyyə institutları siyahısına düşmək istəmirdi, belə ki, onlar üçün daha sərt tənzimləmə və nəzarət rejimi nəzərdə tutulmuşdu. Milli tənzimləmə orqanları da öz ölkələrinin banklarının beynəlxalq sistem əhəmiyyətli maliyyə institutlarının siyahısına salınması məsələsində çox vaxt təmkinlik göstərirdi.

Maliyyə sabitliyi şurası və Bank nəzarəti üzrə Bazel komitəsi bankı qlobal sistem əhəmiyyətli institutlara aid etməyə imkan verən beş meyardan (göstərici qruplarından): bankın həcmi, digər institutlarla qarşılıqlı əlaqənin fəallığı, bankın elementlərinin bir-biri ilə əlaqəliliyi, bankın struktur elementlərinin bir-birini əvəz etməsi və bankın quruluşunun mürəkkəbliyindən ibarət sistemi işləyib hazırlamışlar. Sistem əhəmiyyətliliyinin yekun əmsalının hesablanması zamanı hər beş göstərici qrupuna 20% çəki əmsalı verilir. Eyni zamanda bu çəki əmsalı qrupda göstəricilərin sayına: məsələn, əgər qrupda iki göstərici varsa, onların hər biri 10%, üç qrup vardırsa – 6, 67% çəki əmsalına bölünür.

Qlobal sistem əhəmiyyətli bankların seçilməsi prosedurası aşağıda qaydada baş verir. Əvvəlcə tənzimləyici orqanlar, üç meyardan birinə əsaslanaraq, namizəd bankların siyahısını tərtib edir: kredit təşkilatı borc və xüsusi vəsaitlərinin nisbəti göstəricisinə görə 75 ən iri dünya

banklarının sırasına daxildir; ötən hesablamaların yekunlarına görə sistem əhəmiyyətlidir; milli nəzarət orqanı tərəfindən siyahıya salınması təklif olunub. Sonra Bazel komitəsinin metodikası üzrə namizəd banklardan sistem əhəmiyyətli maliyyə institutları seçilir.

2011-ci ildən Maliyyə sabitliyi şurası və Bank nəzarəti üzrə Bazel komitəsi hər il qlobal sistem əhəmiyyətli bankların siyahısını tərtib edir. Belə institutların yeni siyahısı 2013-cü ilin noyabrında tərtib olunub (cədvəl). Eyni zamanda beynəlxalq sistem əhəmiyyətli banklar 5 qrupa bölünmüş və hər biri üçün kapitalın yetərliliyinin artırılması üzrə əlavə tələblər müəyyən edilmişdir. Minimal əlavə tələblər birinci qrup banklara qarşı irəli sürülür – onlar kapitalın yetərliliyini 1%-ə qədər, ikinci qrup banklar – 1, 5%-ə, üçüncü – 2%-ə, dördüncü – 2, 5%-ə, beşinci qrup banklar isə 3, 5%-ə qədər artırmalıdır. Bu tələblər yalnız əsas baza kapitalının (buraya yalnız adi səhmlər və bölüşdürülməmiş mənfəət daxildir), artırılması yolu ilə yerinə yetirilə bilər, bu da kapitalın konservasiyası buferinin bir hissəsi olacaq.

Qlobal sistem əhəmiyyətli bankların 2013-cü ilin noyabrına olan siyahısı (5 qrupda təsnifatla)

Banklar qrupu (əlavə kapital buferinin formalaşması əmsalı ilə)	Bankın adı
5-ci qrup (3, 5%)	–
4-cü qrup (2, 5%)	HSBC, JP Morgan Chase
3-cü qrup ((2%)	Barclaysç BNP Paribasç Citigroupç Deutsche Bank.
2-ci qrup (1, 5%)	Bank of America, Credit Suisse, Goldman Sachs, Groupe Credit, Agricole, Mitsubishi UFJ FG, Morgan Stanley, Royal Bank of Scotland, UBS
1-ci qrup (1%)	Bank of China, Bank of New York Mellon, BBVA, Group BPCE, Industrial and Commercial Bank of China Ltd, ING Bank, Mizuho FG, Nordea, Santander, Societe Generale, Standart Mitsui FG, Unicredit Group, Wells Fargo

Qlobal sistem əhəmiyyətli bankların kapitalına qarşı yüksək tələblər 2014-cü ildən 2019-cu ilədək mərhələli şəkildə tətbiq olunacaq. Bundan

əlavə, bu institutlar risklərin idarə edilməsi, məlumatların birləşdirilməsi və daxili nəzarət sistemlərinə qarşı yüksək tələblərə riayət etməli olacaq.

Qlobal sistem əhəmiyyətli bankların siyahısının müəyyən edilməsi metodikası milli sistem əhəmiyyətli bankların üzə çıxarılması üçün tövsiyələrin əsasını təşkil etmişdir.

Beynəlxalq təcrübə

ABŞ-da iri bankların tənzimlənməsinin xüsusi qaydası 2010-cu ildə qəbul edilmiş Dodd-Frank qanununda nəzərdə tutulub. Ölkədə bu cür tədbirlərin operativ şəkildə qəbul edilməsi həm böhranın nəticələri, xüsusilə də, ən iri investisiya bankı olan Lehman Brothersin müflisləşməsi, həm də bank biznesinin bir neçə iri bankda yüksək təmərküzü ilə diktə olunmuşdur.

Dod-Frank qanununa əsasən yaradılmış Maliyyə sabitliyinə nəzarət Şurasının (MSNŞ) üzərinə meyarlar sisteminin işlənib hazırlanması vəzifəsi qoyulmuşdur. Bu meyarlar əsasında Şura və FES (Federal Ehtiyat Sistemi) sistem əhəmiyyətli maliyyə institutlarını seçəcək. 2011-ci ilin yanvarında MSNŞ maliyyə institutunun sistem əhəmiyyətli institutlara aid edilməsi meyarlarını: şirkətin həcmi, onun təqdim etdiyi maliyyə məhsullarına alternativin olmaması, digər maliyyə institutları ilə qarşılıqlı əlaqə, leveric səviyyəsi, likvidlik riskləri, mövcud tənzimləyici nəzarət səviyyəsini özündə ehtiva edən sənədin layihəsini dərc etdirmişdir.

Bu meyarlar fəal müzakirə edilmişdir. Gərgin müzakirələr nəticəsində maliyyə sektorunda sistem əhəmiyyətli banklara daha iri və bir-birindən asılı bank holdinq şirkətləri (50 mlrd. dollardan artıq aktivi olan) aid ediləcək. Qeyri-bank holdinq şirkətləri törəmə alətlərlə yerinə yetirilən əməliyyatların həcmi və borc vəsaitlərinin istifadə səviyyəsi ilə əlaqədar beş əlavə həddi qiymətin artması halında sistem əhəmiyyətli sayıla bilər. Qeyd edək ki, bu cür yanaşma zamanı hec-fond, aktivlərin idarə edilməsi üzrə şirkətlər, maliyyə bazarının kommunal şirkətləri, sığorta təşkilatları kimi təşkilatların sistem əhəmiyyətli sırasına düşmək ehtimalı yüksəkdir.

ABŞ-da sistem əhəmiyyətli maliyyə institutları üçün xüsusi nəzarət və tənzimləmə qaydası, xüsusilə, likvidliyə, leveric səviyyəsinə, kapitalın yetərliliyinə, bir borcalana düşən kredit riskinə, risklərin idarə edilməsinə və stress-sınaqlara qarşı daha sərt tələblər işlənib hazırlanmışdır. Müflislik halında vəziyyətin tənzimlənməsinə qədər dörd səviyyədə nəzarət xarakterli tədbirləri nəzərdə tutan "Problemlərin operativ surətdə aradan qaldırılması sistemi"nin qüvvəsi onlara şamil olunur.

Dod-Frank qanununa əsasən, sistem əhəmiyyətli institutların maliyyə vəziyyətinin pisləşməsi nəticəsində itki risklərinin minimuma endirilməsi məqsədilə Amerikanın bütün bank holdinq şirkətləri (BHŞ) korporativ səviyyədə böhran vəziyyətlərinin effektiv həll olunması planını işləyib hazırlamalı və tənzimləyiciyə təqdim etməlidir. Belə antiböhran planlarının təqdim olunması BHŞ tərəfindən mərhələli şəkildə (həmin şirkətlərin həcmindən asılı olaraq) aparılmışdır.

1 iyul 2012-ci il tarixə antiböhran planını birinci qrup BHŞ-lər, onların aktivləri 250 mlrd. dollardan artıq olmuş, 1 iyul 2013-cü il tarixə – aktivləri 50-150 mlrd. dollar olan BHŞ-lər, 31 dekabr 2013-cü il tarixə isə – qalan BHŞ-lər təqdim etmişdir. Təqdim olunmuş sənədləri təhlil edərkən tənzimləyicilər mürəkkəb təşkilati struktura, idarəetmə sisteminə və əməliyyat modelinə malik sistem əhəmiyyətli kredit institutlarının neqativ xarici təsirlərə hazır olduğuna və zərurət yarandıqda bazarlara heç bir mənfi təsir göstərmədən ayrı-ayrı təşkilati strukturlara bölünməyə qadir olduğuna əmin olmalıdır.

Bank holdinq şirkətlərinin təqdim etdiyi planlarda böhranın aradan qaldırılması üzrə geniş spektrli təkliflər var idi. Məsələn, Goldman Sachs BHŞ-nin antiböhran planı pul axını azaldığı halda əlavə likvidlik səviyyəsinin saxlanılmasını, antiböhran strategiyasına cavabdeh komitənin yaradılmasını nəzərdə tutur.

Bank of Amerika BHŞ-nin antiböhran planında ehtiyatların yenidən qruplaşdırılması, ənənəvi bank fəaliyyətinə qayıdış, risk-menecmentin rolunun gücləndirilməsi nəzərdə tutulur. Uzunmüddətli borc yükünün azalması ilə eyni zamanda xüsusi kapitalı və likvidliyi artırmaq, bankın bazar kapitallaşmasını artırmaq, 2014-cü ilin sonunadək müştərilərin korporativ strategiyaya cari tələbatlarını daha dəqiq əks etdirməklə, xərcləri 5 mlrd. dollara qədər azaltmaq planlaşdırılır. Plan gözlənilməz kredit, bazar və əməliyyat riskləri şəraitində bankın lazımi fəaliyyəti üçün tələb olunan iqtisadi kapitalın və risk payının struktur bölmələrin fəaliyyətinin riskliliyindən asılı olaraq, onların arasında paylanması ilə itkilərin qiymətləndirilməsi sisteminin tətbiqini nəzərdə tutur. Bundan əlavə, idarəetmə hesabatı sisteminə bütövlükdə BHŞ üzrə əlavə likvidlik göstəricisi daxil edilir, onun saxlanması üçün minimal müddət – 21 ay müəyyən edilir, prioritetlər daimi əsaslarla risklərin idarə edilməsi tərəfə hərəkət edir.

Kapitalın yetərliliyi göstəriciləri əsasında fəaliyyətin stress-sınağı JP

Morgan Chase antiböhran planında nəzərdə tutulub. Stress-sınaq zamanı tənzimləmə kapitalı və iqtisadi/əməliyyat risklərinin səviyyəsinin azaldılması üçün tələb olunan kapitalın göstəriciləri istifadə edilir.

Credit Suisse BHŞ likvidliyin tamamlanması mənbələrinin holdinqin bütün iştirakçılarından əsas fəaliyyətin inteqrasiyası prinsipi üzrə birləşmiş iştirakçılara istiqamətləndirilməsini həyata keçirməyi planlaşdırır. Fond yaratma mənbələrinin diversifikasiyası, xüsusilə, qiymət təyin edilən əmtəə qruplarına və birja indekslərinə bağlı strukturlaşdırılmış notaların buraxılışı və hecləmə (maliyyə risklərinin sığortalanması) nəzərdə tutulur.

Citigropun antiböhran planında yüksək likvidli aktivlərin həcminin aktivlərin ümumi həcminin 22%-nə çatdırılması, yüksək likvidli aktivlərin əmsalı hissəsində Bazel III-ün tələblərinə uyğunluğa vaxtından əvvəl nail olunması, bank tənzimləməsində dəyişiklikləri təqib edən bölmənin yaradılması nəzərdə tutulub [2].

ABŞ-ın nəzarət orqanlarının sistem əhəmiyyətli təşkilatlara dair son təşəbbüslərindən bütövlükdə Bazel III-ün bankların qısamüddətli likvidliyinin tənzimlənməsi sahəsində tövsiyələrinə uyğun işlənib hazırlanmış likvidliyin minimal səviyyəsinə qarşı standartlaşdırılmış tələbin tətbiqini qeyd etmək olar. Sistem əhəmiyyətli bankların likvidliyinə qarşı bu cür tələblərin tətbiqinin zəruriliyindən danışarkən, FES-in İdarəedicilər şurasının üzvü D. Tarullo demişdir: "Maliyyə böhranları adətən həssas firmaların kapital üzrə mövqelərini daha da zəiflədən likvidliyin defisitindən başlandığına görə, likvidlik üzrə kapitalın yetərliliyinə qarşı gücləndirilmiş tələbləri, stress-sınağı və son bir neçə il ərzində tənzimləmə sistemində tətbiq etdiyimiz digər dəyişiklikləri tamamlayacaq qaydalar qəbul edilməlidir" [3].

Tənzimləmə islahatları nəticəsində Amerikanın sistem əhəmiyyətli bankları müəyyən həcmdə yüksək keyfiyyətli likvid aktivlərə, məsələn, mərkəzi bankda ehtiyatlara, asanlıqla pul vəsaitlərinə çevrilə bilən hökumət və korporativ borc kağızlarına malik olmalıdır. Bu likvidlik həcmi müəyyən stress dövründə likvidliyin proqnozlaşdırılan məxarici çıx likvidliyin proqnozlaşdırılan mədaxilinə bərabər olmalıdır.

Təşkilatın likvid aktivlərinin pul vəsaitlərinin proqnozlaşdırılan xalis məxaricinə nisbəti likvidliklə təmin olunma əmsalıdır (Liquidity Coverage Ratioç LCR). Bu əmsalın tətbiqini təklif edərkən, FES Şurasının sədri B. Bernanke, xüsusilə qeyd etmişdir ki, likvidlik bankın həyat fəaliyyətin-

də və maliyyə sisteminin fasiləsiz fəaliyyətində əsas rol oynayır. Təklif olunan qayda ilk dəfə ABŞ-da likvidliyin kəmiyyət normativini müəyyən edəcək və bu, digər islahatlarla birlikdə maliyyə sistemini daha dayanıqlı və təhlükəsiz edəcək.

LCR göstəricisi sistem əhəmiyyətli banklara fəal surətdə beynəlxalq əməliyyatlar aparan qeyri-bank maliyyə təşkilatlarına (ümumi birləşdirilmiş aktivlərinin dəyəri 250 mlrd. dollardan artıq olan və ya xarici aktivlər üzrə xalis mövqeyi 10 mlrd. dollardan artıq olan) tətbiq olunacaq. LCR göstəricisinə görə daha aşağı tələb beynəlxalq əməliyyatlar aparmayan, lakin 50 mlrd. dollardan artıq aktivlərə malik bank və kredit-əmanət holdinqlərinə tətbiq olunacaq. Bu tənzimləyici qayda iri törəmə sığorta firmalarına malik bank və kredit-əmanət holdinqlərinə və böyük həcmdə sığorta əməliyyatlarına malik sistem əhəmiyyətli qeyri-bank maliyyə təşkilatlarına şamil olunmur.

MSNŞ və FES-in təklifi özündə, likvidlikdən asılı olaraq, aktivlərin kateqoriyalar üzrə təsnif edilməsi qaydasını, habelə stress dövründə təşkilatın pul vəsaitlərinin proqnozlaşdırılan xalis məxaricinin likvidliyin konkret passivlər, aktivlər və balansdan kənar öhdəliklərlə bağlı məxaricinə və mədaxilinə dair ümumi standart fərziyyələrin köməyi ilə hesablanması mexanizmini özündə ehtiva edir. Təklif olunan tənzimləmə qaydası bir sıra parametrlərinə, xüsusilə likvid aktivlərin siyahısına, bəzi fond yaratma növlərinin məxaricinin sürətinə görə Bazel III-də nəzərdə tutulduğundan daha sərtdir.

ABŞ-ın nəzarət orqanları Bazel sazişlərində nəzərdə tutulduğundan daha qısa keçid dövrü müddətini müəyyən edir, bu da böhrandan sonra FES-in və digər bank tənzimləyicilərinin nəzarət səyləri nəticəsində Birləşmiş Ştatların maliyyə təşkilatlarında əldə olunan likvidliklə bağlı vəziyyəti qoruyub saxlamaq istəyi ilə bağlıdır. Təklifə əsasən, Amerika təşkilatları üçün yeni LCR-ə keçid dövrü 2015-ci il yanvarın 1-də başlayır və 2017-ci il yanvarın 1-nə tamamilə başa çatacaq. Nəzarət orqanlarının belə mövqeyini şərh edərək, D. Tarullo qeyd edib ki, bu reqlament böhran yaddan çıxdıqca, banklarda likvidliyin azalmasının qarşısını almağa imkan verəcək.

Sistem əhəmiyyətli bankların kapitalının yetərliliyinə qarşı ABŞ nəzarət orqanlarının müəyyən etdiyi yeni tələblər bütövlükdə Bazel III-ün tənzimləmə qaydalarına əsaslanır, lakin bir sıra parametrinə görə daha sərtdir. Nəzarət orqanlarının bu məsələdə əsas yanaşmaları D. Tarullo-

nun Vaşinqtondakı 3 iyun 2011-ci il tarixli çıxışında şərh edilmişdir. Kapitala qarşı bu, yeganə olmayan, fərqli tələblər sistem əhəmiyyətli maliyyə institutları üçün Bazel III-də təklif olunduğundan 20-100% yüksəkdir. Xüsusilə, kapitalın yetərliliyi normativi aktivlərin həcminin 8, 4-14, 0% hədlərində dəyişə bilər (böhrana qədər ABŞ-da bu göstərici cəmi 2% təşkil edirdi).

Rusiyada sistem əhəmiyyətli banklar institutu tətbiq edilir. Onların seçilməsi meyarları Rusiya Bankının "Sistem əhəmiyyətli kredit təşkilatlarının müəyyən edilməsi haqqında" 3174 У saylı 16.01. 2014-cü il tarixli Göstərişi ilə müəyyən edilib. Sənədə əsasən belə siyahı izahedici vərəqə ilə birlikdə Sistem əhəmiyyətli kredit təşkilatlarına nəzarət departamenti və Maliyyə sabitliyi departamentinin iştirakı ilə Rusiya Bankının bank nəzarəti departamenti tərəfindən təşkil olunur və RF MB-nin Bank nəzarəti komitəsinin sədrinin təsdiqinə göndərilir.

3174 У saylı Göstəriş bankın sistem əhəmiyyətli sayılması meyarlarını müəyyən edir.

Birincisi, onun fəaliyyətinin Rusiya bankının metodikası üzrə hesablanmış ümumiləşdirici nəticəsi (əmsalı) bütün kredit təşkilatlarının yekun nəticəsindən 0, 17% artıqdırsa. Bu əmsal bankın bir neçə il ərzində (lakin üç ildən artıq olmamaqla) fəaliyyətinin göstəricilərinin ədədi ortası kimi hesablanır. Əmsalın hesablanması üçün 4 göstərici cəmlənir: balans aktivlərinin, kredit xarakterli şərti öhdəliklərin, tələblərin və törəmə maliyyə alətləri və digər müqavilələr (50% çəki əmsalı ilə götürülür) üzrə öhdəliklərin həcminə görə kredit təşkilatının həcmi; bankın kredit və digər maliyyə təşkilatlarına yerləşdirdiyi vəsaitlərin həcminə görə onlarla qarşılıqlı əlaqəsi (çəkmə əmsalı 12, 5%); bankın kredit və digər maliyyə təşkilatlarından cəlb etdiyi vəsaitlərin həcminə görə onlarla qarşılıqlı əlaqəsi (çəkmə əmsalı 12, 5%); fiziki şəxslərin əmanətlərinin həcmi (çəkmə əmsalı 25%).

İkincisi, bankın daxil olduğu qrupun baş təşkilatının və ya iştirakçısının sistemli əhəmiyyətlilik əmsalı 0, 17%-dən artıq olduqda, bank sistem əhəmiyyətli hesab olunur. Bu halda aşağıdakı amillər nəzərə alınır: kredit təşkilatlarına –bank qrupunun iştirakçılarına baş bankın nəzarəti və böyük təsiri; bank qrupu iştirakçılarının baş bankla əməliyyatlarının və razılaşmalarının həcmi və xarakteri; bank qrupunun cəmi aktivlərində kredit təşkilatlarının aktivlərinin payı; bank qrupunun kapitalında iştirakçıların xüsusi aktivlərinin xüsusi çəkisi; iştirakçıların maliyyə nəticə-

sinin bank qrupunun maliyyə nəticəsinin həcmində xüsusi çəkisi; fiziki şəxslərin banklarda – qrupun iştirakçılarında yerləşdirdiyi əmanətlərin bank sistemi əmanətlərinin ümumi həcmində xüsusi çəkisi. Bu cür təhlil bank holdinqinin iştirakçıları üzrə də aparılır.

Bundan başqa, "Rusiya Federasiyasının Mərkəzi bankı (Rusiya Bankı) haqqında" federal qanunun 76-cı maddəsinin 7-ci hissəsinin şərtlərinə əməl olunduğu halda – bank əmanəti və bank hesabı müqavilələri üzrə fiziki şəxslərdən cəlb olunmuş vəsaitlərin həcmi 10 mlrd. rubl və daha artıq olduqda, bank sistem əhəmiyyətli sayıla bilər.

3174 У saylı Göstərişlə müəyyən olunub ki, kredit təşkilatının sistem əhəmiyyətli təşkilatlar siyahısına daxil olması və ondan çıxarılması haqqında məlumat RF MB-nin Bank nəzarəti komitəsi tərəfindən siyahının təsdiq edilməsi haqqında qərar qəbul edildikdən sonra ən gec beş iş günü ərzində Rusiya Bankının Bank nəzarəti departamenti tərəfindən kredit təşkilatının nəzərinə çatdırılır. Sistem əhəmiyyətli bankların siyahısının hər il yenilənəcəyi güman edilir.

Beləliklə, hazırda Rusiyada sistem əhəmiyyətli bankların dəqiq seçmə meyarları var, lakin indiyə qədər belə bankların siyahısı yoxdur (mətbuat ona daxil ola biləcək 50-60 kredit təşkilat haqqında məlumat vermişdi). "Praym" agentliyinə 13 mart 2014-cü il tarixli müsahibədə Rusiya Bankının sədr müavini M. İ. Suxov sistem əhəmiyyətli bankların siyahısının açıqlığı ilə bağlı bildirmişdir, ki: "Siyahının dərc edilməsi variantları müzakirə olunmur. Bizim üçün sistem əhəmiyyətli bankların digər oyunçulardan fərqi məsələsində konsensus əldə etmək əhəmiyyətlidir, daha sonra bu bankların müəyyən edilməsinin bu və ya digər formasından, habelə sistem əhəmiyyətli bankların tərkibinin açıqlığından danışmaq olar. Müzakirə üçün təqdim etdiyimiz məsələlərə aydınlıq gətirildikdə, siyahı məlum ola bilər. Biz yanaşmalarda öz mövqeyimizi bildirmişik və bank və qeyri-bank birliyi tərəfindən reaksiyanı gözləyirik. Yəqin ki, tələbləri genişləndirmək və ya məhdudlaşdırmaq, yaxud bu təkliflərin reallaşdırılmasının digər müvəqqəti çərçivələrini müəyyən etmək təklif olunacaq"

Maliyyə bazarının fəaliyyətinə yeni nəzarət modeli – Meqarequlyator

Dünya Bankının verilmiş tədqiqatlarına görə qismən və ya tam şəkildə inteqrallaşmış maliyyə nəzarəti orqanları (bank sahəsi, sığorta xidmətləri sahəsi və meqa–tənzimləyici adını almış qiymətli kağızlar bazarı da daxil ol-

maqla maliyyə bazarının əsas seqmentləri üzərində nəzarəti həyata keçirir) bu beynəlxalq maliyyə təşkilatının üzvləri hesab edilən 30% ölkələrdə fəaliyyət göstərmişdirlər. Maliyyə bazarının bütün sahələri üzərində nəzarət və tənzimin birləşdirilməsi nadir hadisə deyil. Maliyyə Tənzimi və Nəzarəti üzrə Britaniya İdarəsi, Böyük Britaniyanın maliyyə xidmətləri bazarına nəzarət edən mərkəzi orqandır. FSA-BöyükBritaniya ərazisində fəaliyyət göstərən bütün investisiya, maliyyə və bank şirkətlərinin fəaliyyətinin tənzimlənməsi və nəzarətinə görə məsuliyyət daşıyan sərbəst qeyri-hökümət orqanıdır. 2010-cu ilin iyun ayında Krallıq hököməti, maliyyə bazarlarının tənzimlənməsi sisteminin yeni arxitekturaya keçməsi üzrə qurulan planlar haqqında məlumatlar bəyan etmişdir. Yeni arxitektura mövcud sistemin transformasiyasının Maliyyə Hərəkətləri Agentliyinə (Financial Conduct Authority - FCA) Maliyyə Xidmətləri üzrə İdarə qismində yaranmasına, həmçinin 2012-ci ilin sonunda üçtərəfli tənzim sisteminin–FSA, İngiltərə Bankının və Krallıq Xəzinəsinin–Maliyyə Siyasəti üzrə Komitə (Financial Policy Committee – FPC), Prudensial Tənzim İdarəsi (Prudential Regulation Authority- PRA) və İngiltərə Bankının törəmə şirkətinə malik İstehlakçıların və Bazarın Hüquqlarının Müdafiəsi İdarəsindən (Consumer Protection and Markets Authority–CPMA) ibarət olan yeni quruluşla əvəz olunmasına səbəb olacaq.

Yenidən yaradılan orqanların öhdəlikləri çox geniş olacaq. Belə ki, planlaşdırılır ki, FCA–nın mövqeli məqsədləri ilə Böyük Britaniyanın maliyyə sisteminin müdafiəsi olacaq və ona qarşı etibarın artması müşahidə ediləcək. Daha üç operativ məqsədlər bunlardır: istehlakçıların müdafiəsinin lazımi dərəcədə təmin edilməsi, maliyyə xidmətləri bazarının effektivliyinin artması, həmçinin, milli maliyyə sisteminin bütövlüyünün qorunub saxlanılması.

Almaniyanın Federal Maliyyə Nəzarəti İdarəsi (BaFin)–Almaniyanın maliyyə xidmətləri üzrə mərkəzi nəzarət orqanı hesab edilir. BaFin AFR-nın Federal Hökümətinin bir hissəsi sayılır. BaFin–nin hüquqi statusu və funksiyaları "Maliyyə Nəzarətinin Federal İdarəsi haqqındakı Qanunda", "AFR–nın bank Fəaliyyəti haqqındakı Qanununda" və digər xüsusi qanunlarda öz əksini tapmışdır. Banklara və investisiya şirkətlərinə nəzarət sahəsindəki öhdəliklərin yerinə yetirilməsində BaFin Alman Federal Bankı ilə sıx əməkdaşlıq edir.

Beynəlxalq valyuta fondunun dəstəyi və bilavasitə iştirakı ilə Türkiyədə yeni bank nəzarəti orqanı–Banking Regulatory and Supervisory Agency of Turkey (BDDK) yaradılması böhrandan sonra Türkiyədə ən

əhəmiyyətli hadisələrdən olmuşdur. Bu, tamamilə sərbəst olan və maliyyə bazarının bütün iştirakçıları tərəfindən yüksək etibarlılıqla istifadə edilən bir quruluşdur. Böhrana qədər BDDK ölkənin xəzinə quruluşunun daxilində idi. Hal-hazırda BDDK müstəqil şəkildə fəaliyyət göstərir və qanunla ona növbəti səlahiyyətlər verilmişdir: bankların fəaliyyətlərinə nəzarət etmək; kredit təşkilatlarının işlərini nizama salmaq; qanuni əsaslara görə bankların fəaliyyətlərinin (banklar bağlananadək) müxtəlif aspektləri üzrə qərarlar qəbul etmək və əmanətçilərin hüqularının qorunması; maliyyə sisteminin effektli işləməsi üçün şəraitin yaradılması və depozitlərin sığortasının Türkiyə Fondu tərəfindən (TMSF) idarə olunması.

BDDK özünün idarə funksiyalarını bütün bank idarələri üzərində, o cümlədən islam bankları üzrərində cəmləmişdir. Bununla belə, "Banklar üzrə Nəzarət və Tənzimləmə Şurasının" sədrinə həmçinin bankların maliyyə fəaliyyətlərinin təsdiq olunması və onların ləğv edilməsi sxemlərinin seçilməsi məsələlərində də istisna səlahiyyətlər verilmişdir.

Bununla yanaşı onu da qeyd etmək lazımdır ki, heç də bütün inkişaf etmiş ölkələrin hamısı özlərinin maliyyə bazarlarının meqa–nizamlayıcılarını yaratmaq yoluna baş vurmadılar. Tam şəkildə inteqrallaşdırılmış nəzarət orqanlarının yaradılmasına yönəlik tendensiyaların mövcud olmasına baxmayaraq bir çox ölkələrdə maliyyə nəzarətinin ənənəvi funksional quruluşu qorunub saxlanılmaqdadır ki, həmin ənənəvi funksional quruluş ayrı–ayrı sahələrə aid edilən nəzarət orqanlarının mövcudluğunu tələb edir.

2007–2008–ci illərdə ABŞ–da yaranan maliyyə böhranı sistem riskin və maliyyə idarələrinin tənzimində mövcud olan çatışmamazlıqların üstünü bir daha açdı ki, bu da öz növbəsində maliyyə tənzimi və nəzarəti üzrə olan idarə quruluşlarında yenidən islahatların keçirilməsinin vacibliyini vurğuladı.

Sistem risklərin aradan qaldırılması və monitorinqi üzrə səlahiyyətlərin icra edilməsi üçün yeni Maliyyə Sabitliyi Üzərində Nəzarət Şurası (The Financial Stability Oversight Council–FSOC) yaradıldı, həmçinin Federal Ehtiyat Sisteminin səlahiyyətləri dəyişdirildi. FSOC–un əsas funksiyaları: tənzimlənmədə sistem cəhətdən önəmli olan idarələrin və boşluqların təyin olunması; məlumatların toplanması və potensial riskləri üzə çıxartmaq məqsədi ilə maliyyə xidməti bazarının monitorinqi; sistem əmələ gətirən bank və qeyri–bank maliyyə idarələrinin və maddi

vəsaiti 50 milyarddan çox olan holdinqlərin fəaliyyətinin tənzimlənməsinin daha sərt standartlarını işləyib hazırlamaq; özündə bütün maliyyə sistemi üçün təhlükəli olan yüksək riskləri daşıyan təşkilatların ləğv edilməsi və onların yenidən qurulması.

MDB və Azərbaycanda banklara nəzarət sistemi

Rusiyada makroprudensial tənzimləmə sisteminin qurulması üzrə təşəbbüslərin həyata keçirilməsi yalnız 2011–ci ildə Rusiya Bankında maliyyə sabitliyi Departamentinin yenidən qurulması ilə başlamışdır. Bundan başqa, qiymətli kağızlar bazarında, o cümlədən sığorta sahəsində də tənzimlənmə funksiyalarının qanunvericilik cəhətdən parçalanması baş verdi: tənzimlənmə funksiyaları Maliyyə Nazirliyinə, nəzarət və idarə vəzifələri isə Maliyyə Bazarları üzrə Federal Xidmətə (ФСФР – Федералйная служба по финансовым рынкам) təhkim edildi. 2012-ci ildən Maliyyə Bazarları üzrə Federal Xidmətə bəzi önəmli qanun yaradıcı funksiyalar geri verildi. 2012–ci ilin yanvar ayında bank sahəsində nəzarət metodologiyasını təcrübi nəzarətdən (konkret bankların və nəzarət reaksiyalarının maliyyə vəziyyətlərinin qiymətləri) ayırmaq məqsədi ilə Rusiya Bankının Bank Tənzimi və Nəzarəti Departamentinin iki müstəqil departamentdə yenidən qurulması fikri təsdiq edildi. Bu, tənzimləyici və nəzarət finksiyalarının birləşdirilməsi zamanı meydana çıxaraq maraq mübahisələrinə səbəb olan bütün əsasları şərtsiz olaraq ləğv edirdi.

Belarus Respublikasının Milli Bankı ölkənin maliyyə bazarı üzərindəki nəzarəti, tənzimi və maliyyə bazarının inkişafı üzrə olan funksiyalarını genişləndirməyi planlaşdırır. Bununla əlaqədar olaraq irəli sürülür ki, hal–hazırda Belarus Respublikasında qüvvədə olan modelə əsasən ölkənin maliyyə bazarlarının fəaliyyətinə nəzarət və onların tənzimlənməsi Belarus Respublikasının Maliyyə Nazirliyinin tərkibinə daxil olan üç orqan–Belarus Respublikasının Milli Bankının Bank Nəzarəti üzrə Baş İdarəsi, Qiymətli Kağızlar üzrə Departament və Sığorta Nəzarəti üzrə Baş İdarə tərəfindən həyata keçirilir. Belarus Respublikasının Maliyyə Nazirliyi qiymətli kağızlar bazarının inkişafına, sığorta bazarına, lombardların fəaliyyətinə nəzarət edir. Lizinq fəaliyyətinin və investisiya fondlarının inkişafına isə Belarus Respublikasının İqtisad Nazirliyi cavabdehdir. Eyni zamanda Belarus maliyyə bazarının bəzi iştirakçıları heç bir dövlət orqanının nəzarəti altına düşmür.

Hal-hazırda Azərbaycanda müxtəlif səviyyələrdə maliyyə bazarının

müxtəlif seqmentlərinin tənzimlənməsi üzrə səlahiyyətlərinə maliyyə bazarlarının tənzimlənməsi və ona nəzarətin bütün aspektləri daxil edilən "supertəşkilatın" və ya "meqatənzimləyici" adlandırılan vahid dövlət orqanının yaradılması məsələsi fəal şəkildə müzakirə edilir.

Lakin hazırki sistem maliyyə sektorlarında vahid tənzimlənmə, yoxlama və nəzarət prinsiplərini təmin etmir. Azərbaycanda qiymətli kagızlar bazarında peşəkar iştirakçıların fəaliyyətinə nəzarəti - Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, sığorta təşkilatlarına-Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti, pensiya yığımlarının maliyyələşdirilməsinə Dövlət Sosial Müdafiə Fondu, banklara isə Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzarət edir. Biz hesab edirik ki, ümumi nəzarət çərçivəsində bütün risklərə nəzarət etmək daha yaxşıdır.

Kredit təşkilatlar üçün prudensial normativlər müəyyən edilərkən Mərkəzi Bank kredit təşkilatlarının tipləri üzrə onların müxtəlif hesablaşma normativləri və üsullarını müəyyən edə bilər.

Hazırki səlahiyyətlər Mərkəzi Banka həmçinin ölkənin bank sektorunun inkişafı və möhkəmləndirilməsinə yönəlmiş məqsədli oriyentirləri yerinə yetirməyə icazə verir. Qanunvericiliklə müəyyən edilmiş qaydalar və normativ aktlara uyğunluğunun predmetinə daimi nəzarət və yoxlama yolu ilə kommersiya bankların fəaliyyətinə nəzarəti həyata keçirərək Mərkəzi Bank əmanətçi və kreditorların maraqlarını qoruyur, kredit təşkilatlarının fəaliyyətinin stabilliyini təmin edir. Azərbaycanın Mərkəzi Bankı, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, kredit təşkilatlarının operativ fəaliyyətinə müdaxilə etmir.

Hesab edirik ki, 2014-cü ildə Azərbaycanın maliyyə sistemində ən son (müasir) beynəlxalq standartlar və təcrübəsi bazasında bank sisteminin tənzimlənməsinin təkmilləşdirilməsi olacaq. Gələcəkdə maliyyə nəzarətinin ümumi sistemi, güman etdiyimiz kimi, şəxsi risklərlə maliyyə təşkilatlarının idarə edilməsinin keyfiyyətinin artırılmasına, bu risklərin vaxtında üzə çıxarılması və aradan qaldırılmasıyla (azaldılmasıyla) onların bacarığının qiymətləndirilməsinə yönəldilməlidir.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, son bir–neçə ildə Azərbaycanın Mərkəzi Bankı beynəlxalq bank nəzarəti üzrə Bazel komitəsinin tələblərini və beynəlxalq standartları nəzərə almaqla prudensial tənzim metodlarının və yanaşmalarının təkmilləşdirilməsi sahəsində müəyyən

uğurlara nail olmuşdur. Mərkəzi Bankın əsas nailiyyəti kimi distant nəzarətin həyata keçirilməsi zamanı ancaq rəsmi meyarlardan istifadə etməkdən imtina üzrə məzənnəni göstərmək olar. Bank nəzarəti təcrübəsinə tədricən "iş etibarı", "stress–testi sistemi", "davranış modeli", "risk dərəcəsi və maddi vəsaitlərin–aktivlərin keyfiyyəti haqqında əsaslandırılmış mülahizələr", "fərdi kuratorluq idarəsi–institutu" kimi yeni səciyyəvi xüsusiyyətlərə malik olan meyarlar daxil edilməkdədir.

Hal–hazırda Azərbaycanda müxtəlif səviyyələrdə maliyyə bazarının müxtəlif seqmentlərinin tənzimlənməsi üzrə baş idarə və ya "meqa–tənzimləyici" kimi adlanan və səlahiyyətlərinə maliyyə bazarı üzərindəki nəzarət və tənzimin bütün aspektləri daxil edilən vahid dövlət orqanının yaradılması haqqında məsələlər fəal şəkildə müzakirə edilir.

Maliyyə bazarlarının tənzimlənməsi istiqamətində yeni meyllər

Meqatənzimləyicilərin formalaşma prinsipləri hətta Avropa Ittifaqı çərçivəsində də fərqlənir. Məsələn, tam inteqrasiya olunmuş meqatənzimləyicilər üç ölkədə mövcuddur, iki dövlətdə tənzimlənmə əsasən bir institutda mərkəzləşib, bir ölkədə konfederal sistem, altı ölkədə üç idarədən ibarət tənzimlənmə strukturu mövcuddur, daha ikisində isə mövcud sistem dəyişiklik prosesindədir. Mərkəzi bankların iştirakına gəlincə, yeddi dövlətdə bank nəzarəti mərkəzi bankın daxilindədir və ya onunla sıx əlaqədədir, beş ölkədə banklara nəzarət orqanının mərkəzi bankdan heç bir asılılığı yoxdur, ikisində əsasən müstəqildir, bir dövlətdə isə sistem yenidən nəzərdən keçirilməkdədir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin heç də hamısı öz maliyyə bazarlarının meqatənzimləyicilərinin yaradılması yolu ilə getməyiblər. Məsələn, ABŞ-da maliyyə sektorunun seqmentlərinə nəzarəti müxtəlif təşkilatlar həyata keçirir. Onlardan heç biri hökumət strukturuna daxil deyil, sığorta sahəsinin isə, ümumiyyətlə, federal tənzimləyicisi yoxdur.

Maliyyə bazarı dünyanın ən çox inkişaf etmiş bazarlarından olan ABŞ maliyyə bazarının tənzimlənməsi istiqamətində islahatların gedişində (1999-cu ilin ikinci yarısında qəbul edilmiş maliyyə qanunvericiliyinin modernizasiyası haqqında qanun) meqatənzimləyicinin yaradılmasından imtina edib. ABŞ funksional tənzimləmə prinsipinin inkişaf etdirilməsi yolu ilə getmiş və maliyyə bazarlarının bir neçə idarəetmə orqanını qoruyub saxlamışdır. Sözügedən qanuna görə, ABŞ-ın qiymətli

kağızlar bazarında fəaliyyət göstərən kredit təşkilatlarının lisenziyalaşdırılması və nəzarəti SEC tərəfindən həyata keçirilir.

Maliyyə sektorunun tənzimlənməsi və ona nəzarət makroprudensial təhlilin, mikroprudensial təhlilin, yəni prudensial nəzarət və təftiş fəaliyyəti, daxil olmaqla, fərdi maliyyə təşkilatlarının fəaliyyətinə nəzarətin həyata keçirilməsini, həmçinin maliyyə xidmətlərinin istehlakçılarının, xüsusilə də investorlar və əmanətçilərin müdafiəsini və rəqabət siyasətini nəzərdə tutur. Müxtəlif ölkələrdə istifadə edilən isntitusional yanaşmalardan asılı olaraq, qeyd edilən funksiyalar ölkənin maliyyə sektorunun fəaliyyətinə nəzarətin həyata keçirilməsi üçün dövlət tərəfindən səlahiyyətləndirilmiş müxtəlif orqanlar arasında bölüşdürülür.

XX əsrin sonu – XXI əsrin əvvəlləri beynəlxalq kapital bazarlarında struktur dəyişikliklərlə xarakterizə olunmuşdur. Maliyyə innovasiyalarının inkişafı, maliyyə konqlomeratlarının meydana çıxması və bank fəaliyyətinin beynəlmiləlləşdirilməsi, həmçinin bankların və qeyri-bank maliyyə təşkilatlarının ənənəvi ixtisaslaşma sərhədlərinin aradan götürülməsi maliyyə nəzarətinin institusional strukturunun mürəkkəbləşməsinə gətirib çıxarmışdır.

Nəzarət orqanları bank, sığorta və qiymətli kağızlar bazarında həyata keçirilən yeni maliyyə məhsulları və xidmətlərinin təsnif edilməsində çətinlik çəkir. Bir çox ölkələrdə, sığorta şirkətlərinə müştərilərə mahiyyətcə bank depoziti sayılan məhsulları təklif etməyə icazə verilib. Digər tərəfdən, bir çox törəmə maliyyə alətləri, məsələn, kredit derivativləri, bəzi sığorta məhsullarının xüsusiyyətlərinə malikdir. Aktivlərin sekyuritizasiyası, həmçinin risklərin sığortasının daha da mürəkkəb metodlarının yayılması ənənəvi səhmdar kapitalı, borc və kredit anlayışları arasında sərhədləri aradan qaldırır. Bank, sığorta bazarı və qiymətli kağızlar bazarı arasında sərhədlərin yox olması maliyyə vasitəçiləri kimi təşkil olunmuş nəzarət orqanlarının bazarda yeni məhsullarının yaranmasına uyğun şəkildə reaksiya vermək və yanaşı risklərin monitorinqini uyğun şəkildə həyata keçirmək qabiliyyətini zəiflədir. Maliyyə konqlomeratlarının fəaliyyəti əlavə çətinliklər yaradır. Bu isə, öz növbəsində, nəzarət və tənzimləmə orqanları arasında idarələrarası əlaqələndirmənin gücləndirilməsini tələb edir.

Bəzi ölkələrdə əlaqələndirmə problemi idarələrarası işçi qrupların, şuraların və tənzimləmə və nəzarət orqanlarının nümayəndələrindən ibarət məşvərətçi orqanların yaradılması yolu ilə həll olunur. Digər ölkələrdə isə

məsələnin həlli maliyyə vasitəçilərinin fəaliyyətinə birləşdirilmiş nəzarəti həyata keçirən, meqatənzimləyici adını almış orqanının yaradılması ilə olmuşdur. Bu orqan bank sektoru, sığorta xidmətləri sektoru və qiymətli kağızlar bazarı daxil olmaqla, maliyyə bazarının əsas seqmentlərinə nəzarəti həyata keçirir. Bu halda meqatənzimləyici və ya tamamilə birləşmiş maliyyə nəzarəti dedikdə, maliyyə bazarının ən azı üç əsas seqmentində – bank, sığorta, həmçinin qiymətli kağızlar bazarında təmsil olunmuş maliyyə vasitəçilərinin fəaliyyətinə ən azı makroprudensial nəzarəti həyata keçirən təşkilat başa düşülür. Bu zaman meqatənzimləyici maliyyə xidmətləri bazarında istehlakçılarının müdafiəsinə və maliyyə bazarında rəqabət siyasətinin aparılmasına görə məsuliyyət daşıyır.

Bankların, sığorta şirkətlərinin və qiymətli kağızlar bazarının fəaliyyətinə vahid maliyyə nəzarəti orqanlarının, başqa sözlə desək, meqatənzimləyicilərin yaranması XX əsrin sonu – XXI əsrin əvvəllərinin dünya maliyyə bazarlarının tənzimləmə sistemlərinin inkişafında ən yeni tendensiyalardan biridir. Maliyyə sektorunda birləşmə tamamilə birləşmiş maliyyə nəzarəti orqanlarının sayının artmasının əsas səbəblərindən biri olmuşdur[2].

Dünya bankının tədqiqatlarına görə, 2002-ci ildə tam və ya qismən birləşmiş maliyyə nəzarəti orqanları bu beynəlxalq maliyyə təşkilatının üzvü olan ölkələrin 30%-də fəaliyyət göstərirdi. 2004-cü ildə dünyada 29 tamamilə birləşmiş maliyyə nəzarəti orqanı mövcud idi, onların da təxminən yarısı – Avropa ölkəsində idi (şəkil 1).

Tamamilə birləşmiş nəzarət orqanlarının yaradılmasında mövcud tendensiyalara baxmayaraq, bir çox ölkədə ayrı-ayrı sektoral nəzarət orqanlarının mövcudluğunu nəzərdə tutan maliyyə nəzarətinin ənənəvi funksional strukturu mövcuddur.

2006-cı ilin oktyabrında Avropa mərkəzi bankı "AB-nin və ona qoşulan ölkələrin nəzarət strukturlarında cari tendensiyalar" adlı işçi sənədini dərc etmişdir[3, C.18]. Bu sənəd Avropa ölkələrində maliyyə nəzarəti sahəsində əsas tendensiyalara dair 2003-cü ilin icmalının davamı olmuşdur. 2003-cü ilin icmalında AB ölkələrinin əksəriyyəti üçün ümumi tendensiyalar qeyd edilmişdir. Onlara nəzarət orqanlarının birləşdirilməsi, mərkəzi bankların, hətta birbaşa nəzarət səlahiyyətlərinə malik olmasalar belə, bilavasitə prudensial nəzarətə cəlb edilməsi, nəzarət orqanlarının bir-biri ilə və digər dövlət orqanları ilə qarşılıqlı əlaqələrinin formallaşdırılmasının gücləndirilməsi tendensiyaları aid idi.



Şəkil 1. *Birləşmiş maliyyə nəzarəti orqanlarının sayı.*

Mənbə: Cihdk Martinç Podpiera Richardş İs One Watchdog Better Than Three International Experience with Integrated Financial Sector Supervision / IMF Working Paper №57. – 2006. – 32 p.

2003-2006-cı illərdə maliyyə nəzarəti orqanları arasında qarşılıqlı əlaqə daha çox gücləndi. Xüsusilə, Lamfalussi prosedurası AB-nin bütün əsas maliyyə seqmentlərinə şamil edilmiş və hazırda onun yerinə yetirilməsini banklara, sığorta təşkilatların və qiymətli kağızlar bazarının iştirakçılarına nəzarət üzrə üç sektor komitəsi təmin edir. Bu komitələrin tərkibinə milli nəzarət orqanlarının nümayəndələri daxildir və bu orqanların fəaliyyəti AB-də maliyyə nəzarətinin konvergensiyasına və tənzim-

lənməsinə kömək etməlidir. İkinci səviyyəli komitələrə əlavə olaraq, Lamfalussi prosesi çərçivəsində üçüncü səviyyəli milli komitələr yaradılıb. Onlar ikinci səviyyəli Avropa komitələrinə münasibətdə məşvərətçi sektoral əlamətə görə birləşdirilmiş səlahiyyətlərə malikdir. Üçüncü səviyyəli milli komitələrin tərkibinə AB ölkələrinin praktiki olaraq, bütün mərkəzi bankları daxildir.

Avropa mərkəzi bankının 2006-cı il üzrə nəzərdən keçirdiyimiz icmalında aşağıdakı əsas nəticələr çıxarılıb. Birincisi, maliyyə nəzarətinin milli sistemlərinin konsolidasiyası və tənzimləməsi davam edir. Bu zaman bəzi ölkələrdə (məsələn, Fransada) nəzarət funksiyalarının bölüşdürülməsinin səmərələşdirilməsi, digərlərində isə (Belçika, Çexiya, Slovakiya) bu funksiyaların cəmləşdirilməsi ilə əlaqədar olaraq, nəzarət orqanlarının sayının ixtisara salınması ümumi tendensiyadır. Eyni zamanda maliyyə nəzarəti modelinin vahid növünün yaradılması tendensiyası mövcud deyil. Bu, milli maliyyə sistemlərinin milli xüsusiyyətləri və struktur xarakteristikaları ilə bağlıdır.

Ənənəvi model, sektoral yanaşmaya əsaslanır və maliyyə sektorunun üç əsas seqmentindən: bank, sığorta və qiymətli kağızlarla əməliyyatlar seqmentindən hər birində nəzarəti həyata keçirən ayrıca orqanın mövcudluğunu nəzərdə tutur. 2003-cü ilin icmalında bu modeldən tədricən uzaqlaşma qeydə alınır: 2001-2003-cü illərdə maliyyə nəzarətinin funksional modelindən AB-nin 13 ölkəsi uzaqlaşıb. Buna baxmayaraq, bu model indiyə qədər kifayət qədər geniş yayılıb və olduğu kimi AB-nin 6 üzv-ölkəsində (Yunanıstan, İspaniya, Kipr, Litva, Polşa və Sloveniya), həmçinin bəzi dəyişikliklərlə AB-nin daha 4 ölkəsində (Fransa, Portuqaliya, Finlandiya və Lüksemburq) istifadə olunur. Bu ölkələrdən biri – Polşa, vahid maliyyə nəzarəti orqanına keçid mərhələsindədir. Finlandiya və Lüksemburqda bank və sığorta fəaliyyətinə nəzarəti vahid orqan həyata keçirir.

İkinci model çərçivəsində maliyyə sektorunun fəaliyyətinə prudensial nəzarət və tənzimləmə üzrə səlahiyyətlər iki müxtəlif təşkilat arasında bölüşdürülür (twin-peaks model). Belə model Hollandiyanın nəzarət praktikasına tamamilə tətbiq olunub, bu modelin elementləri sektoral yanaşma ilə yanaşı İtaliyada tətbiq olunur, həmçinin Portuqaliya və Fransada da mövcuddur.

Üçüncü model bütün nəzarət səlahiyyətlərinin vahid orqanda birləşdirilməsini nəzərdə tutur. Bu orqan həm prudensial nəzarəti, həm də

investorların (əmanətçilərin) müdafiəsini həyata keçirir. Bu model AB-nin "yeni" ölkələrində də geniş tətbiq olunur. Onlardan bəziləri (Estoniya, Litva, Macarıstan, Malta) nəzarət orqanını mərkəzi bankdan ayıraraq, vahid nəzarət orqanını yaradıb, digərləri isə (Çexiya, Slovakiya), əksinə, maliyyə bazarlarının fəaliyyətinə nəzarət üzrə səlahiyyətləri mərkəzi banklara verib.

İkincisi, icmalda qeyd olunur ki, mərkəzi banklar bütövlükdə nəzarət fəaliyyətinə cəlb olunub. 2003-cü ilin icmalı dərc olunduğu andan nəzarət səlahiyyətləri banklara aid məxsus ölkələrin sayı artmışdır. Bundan başqa, iki ölkə (Çexiya, Slovakiya) mərkəzi banklarını meqatənzimləyiciyə transformasiya etmişdir. Mərkəzi banklara əlavə nəzarət funksiyalarının verilməsi üçün əsas səbəb onların muxtariyyəti, həmçinin ictimaiyyət tərəfindən onlara göstərilən etimad və heyətin peşəkarlığıdır. Praktiki olaraq, AB-yə üzv olan bütün ölkələrdə mərkəzi banklar bank nəzarəti məsələləri üzrə qəti qərarlar qəbul etmək səlahiyyətinə malik deyil və birbaşa nəzarət səlahiyyətlərinə malik olmalarından asılı olmayaraq, onların maliyyə nəzarətində iştirakını təmin edən mexanizmlər mövcuddur. İki mərkəzi bankın (Almaniya, Avstriya) kredit təşkilatlarına aid vacib nəzarət funksiyalarının həyata keçirmək səlahiyyəti qanunvericilikdə təsbit olunub. Üç mərkəzi banka (İrlandiya, Latviya, Macarıstan) ayrı-ayrı nəzarət məsələlərini həll etmək səlahiyyəti verilib. 9 ölkədə (Belçika, Estoniya, Fransa, Latviya, Avstriya, Polşa, Finlandiya, İsveç, Böyük Britaniya) mərkəzi banklar bank nəzarəti orqanlarının rəhbərliyinin təyin olunması (Avstriya), namizədlər üzrə təkliflərin ölkə rəhbərliyinə təqdim olunması (Finlandiya, Latviya) və ya mərkəzi bankların sabiq rəhbərlərinin nəzarət orqanlarının işində iştirakı (Belçika, Estoniya, Fransa, Böyük Britaniya, İsveç) vasitəsilə nəzarət orqanlarının idarə olunması sisteminə cəlb edilmişdir.

Üçüncüsü, praktiki olaraq, AB-nin bütün üzv-ölkələrində mərkəzi banklar və bank nəzarəti orqanları arasında rəsmiləşdirilmiş qarşılıqlı əlaqə mövcuddur. Mərkəzi banklar hər yerdə bilavasitə prudensial nəzarət işinə cəlb olunmasalar da, onlar maliyyə sabitliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Eyni zamanda AB-yə daxil olan hər bir dövlətdə nəzarət prosesinin təşkilində iştirak edən orqanların qarşılıqlı əlaqələrinin rəsmiləşdirilməsi ilə əlaqədar öz metodları istifadə olunur: qarşılıqlı anlaşma memorandumları, birgə komitələr, əməkdaşlıq haqqında razılaşmalar və s. (Cədvəl 1).

Cədvəl 1.

AB-yə üzv-ölkələrdə nəzarət orqanı funksiyasını yerinə yetirməyən mərkəzi banklarla nəzarət orqanları arasında əməkdaşlıq haqqında memorandumlar

Ölkələr		Rəsmi əməkdaşlıq və informasiya mübadiləsi mexanizmi	Mərkəzi bankın bank nəzarətinin idarə olunmasında iştirakı	Mərkəzi bank tərəfindən müəyyən əməliyyat məsələlərinin yerinə yetirilməsi
Belçika	BE	MB, K	X	
Danimarka	DK	MB, K		
Estoniya	EE	X	X	
Fransa	FR	X	X	
İrlandiya	IE	X		X
Latviya	LV	C	X	X
Lüksemburq	LU			
Macarıstan	HU	MB, K, C		X
Malta	MT	MB, K		
Polşa	PL		X	
Finlandiya	FI	MB, C	X	
İsveç	SE	MB, C	X	
Böyük Britaniya	UK	MB	X	

Mənbə: Recent Developments in Supervisory in EU Acceding Countries. – ECB: Fr., 2006. – 18 p.

****Qeyd:*** Lüksemburqda mərkəzi bank nəzarət funksiyalarını həyata keçirmir, lakin maliyyə sabitliyinin təmin olunması ilə bağlı ayrı-ayrı məsələlərin həlli onun səlahiyyətinə aiddir.

Qrafa 3: mərkəzi bankla nəzarət orqanları arasında əməkdaşlıq və informasiya mübadiləsi çərçivəsində istifadə olunan formal mexanizmlər, aşağıdakı kimi ixtisarlara malikdir: qarşılıqlı anlaşma haqqında memorandum (MB), birgə komitə (E), əməkdaşlıq haqqında razılaşma (C).

Qrafa 4: mərkəzi bank, bank nəzarəti orqanının idarə olunması prosesinə rəhbər vəzifələrə namizədlər üzrə təkliflərin verilməsi, həmçinin mərkəzi bankın nümayəndəsinin idarəetmədə birbaşa iştirakı vasitəsilə cəlb olunub.

Qrafa 5: mərkəzi bank Belçika, Finlandiya, Latviyada bank nəzarəti orqanının kollegial idarəetmə orqanlarının tərkibində rəhbər vəzifələrə təyinat üzrə təkliflər verir. Səlahiyyətlərinə uyğun olaraq mərkəzi bank Belçika, Estoniya, Fransa, İsveç, Böyük Britaniyada bank nəzarəti orqanlarının idarə edilməsində iştirak edir.

İcmalın nəzərdən keçirdiyimiz nəticələri maliyyə nəzarətinin təşkilinə yanaşmaların yenidən qurulması üzrə bütövlükdə dünya tendensiyalarını əks edir. Həm nəzarət, həm də tənzimləyici funksiyalarını verməklə, tədricən funksional tənzimləmədən meqatənzimləyicilərə keçən ölkə Böyük Britaniyadır. Hazırda bu dövlətdə maliyyə bazarlarının fəaliyyətinin tənzimlənməsi və ona nəzarətlə FSA (Finansial Services Authority – maliyyə xidmətlərinin idarə olunması) məşğul olur. O, müstəqil qeyri-dövlət təşkilatıdır və 2000-ci il Maliyyə xidmətləri və bazarları haqqında aktla ona müvafiq səlahiyyətlər verilmişdir. Bu təşkilat Birləşmiş Krallığın 1997-ci ildə başlanmış və indiyə qədər davam edən maliyyə nəzarətinin yenidən qurulması çərçivəsində yaradılmışdır. İslahatlar Qiymətli kağızlar və investisiyalar komitəsinin himayəsi altında bank nəzarəti ilə investisiya xidmətlərinin tənzimlənməsinin birləşməsini nəzərdə tuturdu. Gələcəkdə yeni idarəyə Maliyyə xidmətlərinin tənzimlənməsi (FSA) adı verilmişdir.

İslahatın birinci mərhələsi 1998-ci ildə FSA-ya bank nəzarəti funksiyaları verildikdən sonra başa çatmışdır. Bu səlahiyyətlər ona İngiltərə Bankından keçmişdir. 2001-ci ilin dekabr ayında qüvvəyə minmiş Maliyyə xidmətləri və banklar haqqında aktla maliyyə bazarlarında tənzimləmənin konsolidasiyası siyasəti maliyyə bazarının ayrı-ayrı seqmentlərinin tənzimləməsini həyata keçirən bir sıra təşkilatların funksiyalarının FSA-ya verilməsi ilə davam etdirilmişdir. Bundan başqa, qanuna əsasən, FSA-ya maliyyə bazarlarında manipulyasiyaların qarşısının alınması səlahiyyəti verilmişdir. 2004-cü ilin oktyabrında maliyyə nazirliyinin qərarına əsasən FSA ipoteka kreditləşməsinin tənzimlənməsinə, 2005-ci ilin yanvarında isə Sığorta vasitəçiliyi haqqında göstərişə əsasən – ümumi sığortanın tənzimlənməsinə başlamışdır. FSA-nın fəaliyyəti bütövlükdə bazarların – nəzarət altında olan təşkilatların iştirakçıları hesabına maliyyələşdirilir. FSA Maliyyə nazirliyinə və parlamentə tabedir. Eyni zamanda ölkədə FSA-nın mövcudluğuna baxmayaraq, İngiltərə Bankı əvvəlki kimi risklərin idarə olunması ilə məşğul olmağa və hətta kredit təşkilatlarının monitorinqini və qiymətləndirilməsini həyata keçirən əməkdaşlarının ştatını artırmağa məcburdur.

Almaniyada maliyyə bazarlarının fəaliyyətinin tənzimlənməsi funksiyalarını Maliyyə bazarları, Doyçe Bundesbankı (Almaniyanın mərkəzi bankı) və əlavə daha üç maliyyə orqanı həyata keçirirdi. 1952-ci ildə Sığortada və inşaat yığımında nəzarət üzrə federal idarənin – Federal sığorta nəzarəti idarəsinin (BAV) təsis olunması haqqında Qanun qüvvəyə minmişdir. İdarənin səlahiyyətinə – fəaliyyəti bir federal torpaqdan kənara çıxan özəl sığorta təşkilatlarına, həmçinin ictimai-hüquqi sığorta təşkilatlarına nəzarət daxil edilmişdir. 1962-ci ildə kredit işi haqqında qanun qüvvəyə mindikdən sonra bank fəaliyyəti sahəsində mərkəzi nəzarət idarəsi – Kreditləşmə sahəsində nəzarət üzrə federal idarə (BAKred) təsis edilmişdir. Qiymətli kağızlar bazarına nəzarətə tələbat maliyyə bazarına yardım haqqında yeni qanunun qəbulu ilə əlaqədar ortaya çıxmışdır. Bu qanun əsasında Qiymətli kağızlar bazarına nəzarət üzrə federal idarə yaradılmış və o, 1995-ci il yanvarın 1-dən fəaliyyətə başlamışdır. İdarənin vəzifələrinə əmanətçilərin və qiymətli kağızların sahiblərinin hüquqlarına riayət olunması, insayder sazişlərinin qarşısının alınması, həmçinin qiymətli kağızlar bazarında xidmət göstərən şirkətlərə nəzarətin həyata keçirilməsi məqsədilə kapital bazarının birliyinin və şəffaflığının təmin olunması aid edilmişdir.

2002-ci ildə üç federal nəzarət idarələrinin birləşməsi baş vermiş və bunun nəticəsində yeni vahid nəzarət orqanının – federal maliyyə nəzarəti idarəsi (BAFin) yaranmışdır.

Beləliklə, maliyyə bazarı orqanlarının strukturu vahid nəzarət orqanının yaranması üçün zəmin yaratmış və eyni zamanda normativ aktların dərc olunması funksiyaları Maliyyə nazirliyinin və Doyçe Bundesbankın səlahiyyətində qalmışdır. BAFin maliyyə bazarında yeganə nəzarət orqanına çevrildi.

Bir çox ölkələr, funksional tənzimləmə prinsiplərinə əməl edərək, tənzimləmə səylərinin inteqrasiyasına digər yanaşmalar tapıb. Bu yanaşmaya ən uyğun misal ABŞ-dır. Ötən əsrin birinci yarısının maliyyə böhranı dalğasında 1933-cü ilin Qlass-Stiqal aktı qəbul edilmişdir. Bu akt maliyyə təşkilatlarının eyni zamanda bir neçə bazarda iştirakını məhdudlaşdırmışdır. Tənzimləmə funksional əlamət üzrə dəqiq qurulmuş və indiyə qədər də belə qalır. Başqa ölkələrdən fərqli olaraq, ABŞ-da bank nəzarəti orqanlarının strukturu olduqca mürəkkəbdir. ABŞ-ın kommersiya bankları və maliyyə institutlarında federal orqan (milli bank adlandırılan) və ya ştat orqanı statusu ola bilər. Onların fəaliyyətinə nəzarəti

üç orqan həyata keçirir: Federal ehtiyat sistemi, banklarda və digər kredit institutlarında depozitlərin sığortalanması ilə məşğul olan Federal depozitlərin sığortalanması korporasiyası və milli banklara nəzarəti həyata keçirən Pul tədavülü üzrə nəzarət idarəsi – maliyyə nazirliyinin bürosu. Adı keçən üç orqan arasında funksiyaların təkrarlanmaması haqqında razılaşma imzalanıb.

ABŞ-da qalan banklara nəzarəti müvafiq ştatların nəzarət orqanları və federal səviyyəli digər orqanlar həyata keçirir. Əmanət banklarına və kredit ittifaqlarına nəzarət iki əlavə nəzarət orqanları tərəfindən həyata keçirilir: Əmanət idarələrinə nəzarət İdarəsi (Office of Thrift Supervision) və Kredit ittifaqlarının milli assosiasiyası (National Credit-union Assosiations). Çində bank, sığorta və fond tənzimləyiciləri funksional prinsip üzrə təşkil olunub, maliyyə konqlomeratlarının yaradılması üzrə kifayət qədər sərt məhdudiyyətlər qoyulub. Funksional tənzimləyicilər əlaqələndirməni və qarşılıqlı əlaqəni idarələrarası qarşılıqlı əlaqə və məlumat mübadiləsi əsasında rəsmi çoxtərəfli razılaşmalar və yerli işçi orqanlar səviyyəsində həyata keçirir. Hollandiyada xüsusi inzibati üst qurum – Maliyyə nəzarəti orqanları şurası yaradılıb.

İspaniyada maliyyə konqlomeratlarına münasibətdə lider tənzimləyici rolunda, konqlomeratın əlaqələndirilməsi mərkəzinin bank, sığorta və ya investisiya şirkəti olmasından asılı olaraq, funksional tənzimləyicilərdən biri çıxış edir. Bununla əlaqədar olaraq, düşünürük ki, Azərbaycanda fəaliyyət göstərən model çərçivəsində Azərbaycan Mərkəzi bankı kredit təşkilatlarının fəaliyyətinə nəzarəti, AR Qiymətli kağızlar üzrə Dövlət Komitəsi qiymətli kağızlar bazarı iştirakçılarının və investisiya fondlarının fəaliyyətləri üzrə nəzarəti və Azərbaycan Respublikası maliyyə nazirliyininstrukturuna daxil olan Dövlət Sığorta Nəzarəti Xidməti sığorta sektorunun dayanıqlı inkişafı üçün ölkədə sığorta tənzimlənməsi və sığorta nəzarəti sistemini həyata keçirir.

Ölkə maliyyə sektorunun indiki inkişaf mərhələsində bu model maliyyə nəzarətinin qarşısında duran məsələləri son dərəcə səmərəli şəkildə həll etməyə imkan verir. Artıq mövcud olan institusional çərçivədə gələcəkdə maliyyə nəzarətinin effektivliyinin artırılması və maliyyə sektorunun fəaliyyətinin tənzimlənməsi və ona nəzarət üzrə vəzifələrin idarələrarası əlaqələndirilməsi məsələsinin lazımi səviyyədə təminatı üçün elmi tədqiqat işlərinə ehtiyac vardır.

Makroprudensial nəzarət xidmətləri

Həm makro-, həm də mikrosəviyyədə risk-menecmenti sistemlərinin, habelə maliyyə bazarlarını tənzimləmə modellərinin köklü surətdə dəyişdirilməsi dünya maliyyə sistemindəki dəyişikliklərlə şərtlənən zərurətdir. Hazırda mövcud olan maliyyə sistemi risklərini idarəetmə orqan və standartları maliyyə bazarının nəzarət edilən volatilliyini təmin etmək və risk-menecmentinin şəffaflığını artırmaq iqtidarında deyil.

Dünyanın maliyyə bazarlarında son dövrdə baş vermiş hadisələrinin dinamikası maliyyə risklərini idarəetmə sisteminin təməl anlayış və hipotezlərinə formalaşmaqda olan "fraktal maliyyə" paradiqmasına və mürəkkəblik nəzəriyyəsinə uyğun olaraq yenidən baxmağa vadar edir. Maliyyə və iqtisadi bazarlar mürəkkəb sistemin xassələrini nümayiş etdirirlər, yəni onların elementləri qeyri-səlislik, əks-əlaqə və miqyas effekti şərtləri ilə müəyyən olunur.

ABŞ-da 2007-2008-ci illərdə baş qaldırmış maliyyə böhranı şərtləri və kaskadvari yayılma ssenarisi ilə bir daha açıq bazarıən sistem xarakterli olduğunu nümayiş etdirdi, sistemli riskin və amliyyə institutlarının idarə edilməsində mövcud qüsurları açıqladı ki, bu da öz növbəsində maliyyə tənzimlənməsi və nəzarətinin təsisat strukturlarından islahatların aparılması zərurətini şərtləndirdi.

Məhz maliyyə-kredit sisteminin qloballaşmasının artması və onun elementləri arasında qarşılıqlı əlaqələrini mürəkkəbləşməsi üzündən ABŞ-da lokal substandart ipoteka maliyyə böhranı formasında təzahür edən ilk, nisbətən zəif görünən və kifayət qədər tezliklə bütün dünya maliyyə şəbəkəsi boyunca yayılan sarsıntılar maliyyə çətinliklərini və hətta sistemli böhranı yaratdı.

Bu cür ssenari dünya iqtisadiyyatında son bir neçə on illikdən və böhrandan qabaq baş vermiş təkamül prosesləri olmadan mümkün deyildi. Mürəkkəb qarşılıqlı tələblər və öhdəliklər, maliyyə məhsulları və sxemləri şəbəkəsi, məsələn, beynəlxalq mülkiyyət strukturunun sekyuritləşdirilməsininn, risklərin hecirləşdirilməsinin və ümumi qlobal bazarlarda iştirakın getdikcə daha mürəkkəb formaları vasitəsilə əksər iri maliyyə qruplarının qarşılıqlı asılılığı və qarşılıqlı bağlılığı artmışdır. Bundan başqa, sıx bağlı olan və ilk növbədə kredit riskinin bölgüsü hissəsində qeyri-şəffaf olan sistemdə informasiyanın assimetrikliyinin artması fonunda onun iştirakçıları öz risklərinə nəzarət etməkdə və yaxşı aktivləri pis aktivlərdən, yaxşı kontragentləri pis kontragentdən fərqləndirməkdə

çətinlik çəkirlər. Bu isə öz növbəsində riskdən müdafiə olunmaq məqsədilə likvidliyin toplanması zərurətinə gətirib çıxardı ki, bu da aktivlərin likvidliyini endirir və pul-kredit bazarını staqnasiya edir. Bütün bunlar birlikdə ABŞ-ın ən iri investisiya banklarından birinin süqutu fonunda yalnız qeyri-müəyyənliliyin artmasına səbəb olurdu ki, bu da maliyyə sisteminə etimadın azalmasına gətirib çıxararaq bütün maliyyə-iqtisad şəbəkəsində böhranı daha da dərinləşdirdi.

Əslində bir qrup maliyyə plutokratiyasının maraqlarında var-dövlərin səmərəli şəkildə yenidən bölgüsü və ayrl-ayrı iqtisadiyyatların, tutalım, maliyyə bazarlarında riskə görə az mükafat təyin etməklə, faiz stavkaları və valyuta məzənnələri siyasəti, kredit bazarlarında çoxlu sayda maliyyə innovasiyaları, kapitalın aşağı dəyəri və maliyyə bazarının yüksək likvidliyi yolu ilə inkişafının həvəsləndirilməsi aləti kimi maliyyə qloballaşması və beynəlxalq ticarət oyunlarını "oynayan" dünyanın aparıcı dövlətləri özləri böhranlı vəziyyətə gətirib çıxardılar.

Maliyyə üçlüyü (Maliyyə üçlüyü - dünyanın üç aparıcı maliyyə-iqtisad mərkəzləri (ABŞ, Böyük Britaniya və Avropa Birliyi başa düşülür) var-dövlətin yığılması proseslərinin və iqtisadi artımın həvəsləndirilməsi üzrə qarşıda qoyulan məqsədlərə nail olarkən yanlış olaraq düçünürdü ki, bu zaman iqtisadiyyatların monetarlaşdırılması və maliyyə sektorunun sonsuz dərəcədə genişləndirilməsi, ilk növbədə maliyyə alətlərinin hasillərinin artımı hesabına onları diversifikasiya etməklə maliyyə bazarının genişləndirilməsi üzündən yaranan riskləri idarə etmək mümkündür. Bu zaman nəzərə alınmırdı ki, fərdi riskin sistem boyunca yayılması hesabına azaldılması sistemli riskin artmasına səbəb ola bilər. Bununla da ayrı-ayrı ölkələr üçün riskin azaldılması bütün maliyyə sisteminin kollektiv riskinin artmasına çevrilmişdir ki, bu da son nəticədə maliyyə-iqtisad sisteminin ayrı-ayrı düyünlərinə və ümumi stabilliyinə cari dünya böhranı formasında təsir etmişdir.

Yanlış risk-menecmenti konsepsiyasından başqa, ABŞ-da 2007-ci ildə başlamış lokal substandart ipoteka böhranına bir çox ölkələrin laqeyd münasibətinin əsas səbəbi bəlkə də sürətli itkilərə səbəb olan hadisələrin nə isə xüsusi bir hadisə olduğunu və buna görə də nadir hallarda baş verdiyini iddia edən yanlış təsəvvürlər olmuşdur. Həqiqətən də, bazarda kəskin dönüşlər nadir hallarda olur, lakin onlar təkrarlana bilir, sistemin metastabilliyi şəraitində isə cüzi endogen amillərlə şərtlənə və kifayət qədər tez-tez baş verə bilir.

Beləliklə, böhran əyani olaraq sübut etdi ki, nisbi stabil olan sistem hər an metastabil sistemə çevrilə bilir. Bununla da böhran dünyanın aparıcı dövlətlərinin xeyrinə kapitalın "optimal bölgüsü" vasitəsi kimi başa düşülən maliyyə bazarının qloballaşmasına nəzarətə yönələn kvaziinhisar üçlük modelinə əsaslanan dünya maliyyə sisteminin idarə edilənliyini təhlükə altına qoydu.

Bu cür siyasətin nəticəsində sistemin metastabilliyinin artması ilk növbədə məhz dünyada müəyyən olunmuş maliyyə nizamınınn saxlanmasında maraqlı olan üçlük iştirakçılarını qane etmir. İdarə olunmayan metastabillik hər an kapital bazarları üzərində nəzarətin zəifləməsinə və maliyyə sisteminin kapitalın ölkələr arasında "optimal bölgüsünə" nəzarət etmək iqtidarında olmamasına gətirib çıxara bilər.

Bundan başqa, o, formaları və fəaliyyət qanunları bu gün üçün hələ tam öyrənilməyən sistemin faza keçidinə və tam olaraq transformasiya etməsinə gətirib çıxara bilər.

Beləliklə, dünyanın aparıcı iqtisadiyyatları öz kvaziinhisar maliyyə modellərini qoruyub saxlamaq üçün hal-hazırda maliyyə tənzimlənməsi və nəzarəti sahəsində təkamül proseslərinin zəruri olduğunu əsaslandırır və onlara olan yanaşmaları kompleks makroprudensial sistemə transformasiya etdirmək istiqamətində cəhd göstərirlər.

Həqiqətən də, mövcud şəraitdə istifadə olunan iqtisadi modellər maliyyə bazarında baş verə biləcək əsaslı dönüşləri qabaqcadan görmək və onları idarə etmək iqtidarında olmadılar. Bu böhran əyani olaraq sistemin tarazlığı və agentlərin rasional davranışı haqqında müddəalara söykənən klassik model və alətlərin proqnozlaşdırmağa və açıq maliyyə sistemləri üçün səmərəli iqtisadi siyasəti qurmağa qabil olmadığını nümayiş etdirdi.

Cari böhran qarşısında siyasətçilər aciz qaldılar və qeyri-rəsmi informasiyaya, habelə öz idarəetmə müdrikliyinə və situasiyanın mümkün inkişaf ssenariləri haqqında fərdi mühakimələrə əsaslanaraq, operativ idarəetmə qərarları qəbul etmək məcburiyyətində qaldılar.

Beləliklə, şübhəsiz ki, maliyyə bazarlarının tənzimlənməsində risk-menecmentinin fəlsəfəsi və modelləri dəyişdirilməlidir. Lakin hər bir transformasiya prosesində olduğu kimi, burada da əsas olan həqiqi məqsədlər və onlara çatma vasitələridir. Maliyyə bazarlarının iri ölkələr tərəfindən daha da kvaziinhisarlaşmasının qarşısını almaq, habelə ölkələrin milli maraqlarını və iqtisadi təhlükəsizliyini təmin etmək üçün

bazarların idarə edilməsi sistemlərinin transformasiyası prosesində dünyanın bütün iqtisadiyyatlarının fəal iştirakı vacibdir. Böhran və onun dünya bazarında yaratdığı turbulentlik sübut etdi ki:

Risklərin təmərküzləşməsinə və transformasiyasına gətirib çıxaran innovasiya maliyyə alətlərinin və yeni tipli maliyyə vasitəçilərin artım templərinin monitorinqi keçirilməli;

Güclənməkdə olan maliyyə inteqrasiyası ilə əlaqədar nəzarət və tənzimləmə institutlarında islahatlar aparılmalı;

Maliyyə sektorunun iqtisadiyyatın real sektoru və ev təsərrüfatçılığı ilə əlaqəsinin güclənməsi üzündən maliyyə bazarlarının daha çevik və adaptiv, həm də eyni zamanda hər şeyi əhatə edən siyasəti formalaşdırılmalı; Hər yerdə müşahidə edilən maliyyə konsolidasiyası və bunun nəticəsi olaraq getdikcə daha iri və özləri ilə böyük risklər gətirən və imtina olunduqda sistemli risk ehtimalını meydana çıxaran mürəkkəb kompaniyaların yaranması ilə əlaqədar maliyyə-iqtisad sferasında risk-menecment siyasəti və standartlarına yenidən baxılmalıdır.

İndiyədək bir sıra fundamental problemlər, o cümlədən, nəyin sistemli riksə aid olduğu, onların ilkin yaranma şərtləri və yayılma qanunları, sistemləri idarəetmə alətləri və immunizasiyası, metastabil vəziyyətdə maliyyə sistemlərinin idarə edilməsi mexanizmləri ilə bağlı məsələlər hələ də həll edilməmişdir. Buna baxmayaraq, inkişaf etməkdə olan iri ölkələrin hökumətləri milli normativ-hüquqi bazada dəyişikliklər etməklə və yeni maliyyə nəzarəti və tənzimləmə modellərini işləməklə cari böhranın çağırışlarına kiayət qədər fəal reaksiya verdilər.

Maliyyə sistemlərinin makroprudensial modellərinin dəyişdirilməsində yeniçi olan ABŞ, Böyük Britaniya və Avropa Birliyinin təşəbbüslərini təhlil edək.

ABŞ-da islahatlar

Həyata keçirilməkdə olan maliyyə tənzimlənməsi islahatının nəticəsi olaraq ABŞ Prezidenti tərəfindən 21 iyul 2010-cu ildə Dodd-Frank qanunu (The Dodd-Frank Wall Street Reform and Consumer Protection; bundan sonra -Qanun) imzalanmışdır. O, Amerikanın maliyyə normativ-hüquqi mühitində bütün tənzimləyici orqanlar sisteminə təsir edəcək, ölkənin maliyyə xidmətləri sənayesinin praktiki olaraq bütün sahələrini əhatə edəcək və Böyük Depressiya dövründən sonra ən əsaslı dəyişikliklərin aparılmasını nəzərdə tutur.

Qanun təkcə kifayət qədər radikal deyil, həm də geniş əhatəlidir: 2300 səhifədə Amerikanın maliyyə bazarının sözün ən geniş mənasında bütün aspektləri işıqlandırılmışdır. Maliyyə sisteminə ictimai inamı bərpa etmək, böhranları və köpükləri erkən vaxtda aşkar edib qarşısını almaq məqsədilə informasiya əldə etmək üçün ABŞ-n dövlət orqanlarına daha çox vəsait, səlahiyyətlər və imkanlar təklif etməklə o, maliyyə xidmətləri sahəsinin tənzimlənməsinin gücləndirilməsinə yönəlmişdir. Belə ki, Qanun tənzimləmənin institusional strukturunun dəyişdirilməsini, sistemli risklərin nəzarət və monitorinqi sisteminin yaradılmasını, sistemyaradan şirkətlərin fəaliyyətinə nəzarətin gücləndirilməsini və nəzarət institutlarına problemli maliyyə şirkətlərinin sanasiyası və ləğv edilməsi üzrə bir sıra yeni səlahiyyətlərin verilməsini, habelə tənzimləmə sisteminə qeyri-bank maliyyə idarələrinin və bu şirkətlərlə holdinqə daxil olan digər strukturların daxil etdirilməsini nəzərdə tutur.

Monitorinq üzrə səlahiyyətlərin həyata keçirilməsi və sistemli risklərin aradan qaldırılması üçün yeni Maliyyə stabilliyinə nəzarət Şurası (The Financial Stability Oversight Council – FSOC) yaradılmış, habelə Federal ehtiyat sisteminin səlahiyyətləri dəyişdirilmişdir. FSOC-n əsas vəzifələrinə aşağıdakılar aiddir: tənzimləmədə sistem əhəmiyyətli institut və boşluqların təyin edilməsi; potensial riskləri üzə çıxarmaq üçün informasiyanın toplanması və bazarın monitorinqi; aktivləri 50 mlrd-n çox olan sistemyaradan bank və qeyri-bank maliyyə idarələri və holdinqlərin fəaliyyətinin daha sərt tənzimləmə standartlarının işlənməsi; özündə yüksək risklər daşıyan təşkilatların restrukturlaşdırılması və ləğv edilməsi.

ABŞ-ın maliyyə sektorunda aparılan son islahatlarım səmərəliliyi barədə yalnız bir müddət keçdikdən sonra birmənalı fikir yürütmək mümkün olacaqdır. Hələ ki, çoxlu sayda açıq suallar qalmaqdadır: daha çox dərəcədə tənzimlənmədən qeyri-maliyyə kompaniyalar üçün gözlənilməz neqativ nəticələr özünü göstərəcəkmi; xarici rəqibləri ilə müqayisədə Amerika kompaniyaları öz rəqabətqabiliyyətliliyini və biznesinin həcmini saxlaya biləcəklərmi; innovasiya aktivliyi zəifləməyəcəkmi, qeyri-müəyyənliliyin artması və yeni normalara əməl edilməsinə çəkiləcək əlavə xərclərin meydana gəlməsi ilə əlaqədar kreditlərə çıxış imkanları azalmayacaqmı və s.

Lakin artıq indi söyləmək olar ki, xüsusi nəzarətə alınmalı olan və əlavə dövlət dəstəyi almaq imkanına malik olan xüsusi, sisteməhəmiyyətli maliyyə idarələrinin fərqləndirilməsi üzrə göstərilən təşəbbüslərin

həyata keçirilməsi bu idarələrə əlavə qeyri-bazar üstünlükləri verir və onları daha riskli fəaliyyətə sövq edir. Bu isə öz növbəsində sistemli risklərin meydana gəlmə və sürətlə dünya maliyyə sistemi boyunca yayılma ehtimalını artırır. Qlobal xarakterli maliyyə bazarının mürəkkəbliyini, ölçüsünü və qarşılıqlı asılılığını nəzərə almaqla qeyd etmək olar ki, Qanun həm ABŞ-ın tənzimləyici orqanları, həm də bütövlükdə dünya birliyi üçün böyük bir problem kəsb edir.

Qısa müddət ərzində onu inkişaf etdirmək üçün yüzlərlə qanunyaratma təşəbbüslərini formallaşdırmaq və təsdiq etmək zərurəti qanunaltı aktların keyfiyyətinə əsaslı təsir göstərə bilər. Bu isə biznesin bəzi istiqamətlərinin staqnasiyasına, tənzimləyicinin hərəkətləri/hərəkətsizliyi üzündən kapitalın rentabelliyinin mənfi olmasına, kapital bazarlarının bəzi seqmentlərinin inkişafının ləngiməsinə gətirib çıxara bilər.

Nəzərə almaq lazımdır ki, Qanunun müddəalarının formallaşdırılmasına və operasionallaşdırıılmasına yönələn çoxlu sayda qanunaltı aktların işlənməsinə və modernləşdirilməsinə vaxt lazımdır. Bundan başqa, işlənmiş normativ aktrların tənzimləyici institutların iş praktikasına tətbiqində artıq indidən ləngimələr, habelə Qanunun əsas müddəalarına və onların həyata keçirilməsi ilə əlaqədar tənzimləyicilərin hərəkətlərinə qarşı çoxlu sayda iddiaların verilməsi müşahidə olunur. Buna görə də maliyyə bazarında mümkün risklərin qarşısının alınması və ya heç olmasa proqnozlaşdırılması və minimuma endirilməsi baxımından bu qanunyaratma təşəbbüsünün səmərəliliyini birmənalı qiymətləndirmək və hətta ABŞ-n milli maraqları çərçivəsində belə onun qarşıda qoyulan məqsədlərə tam uyğun olduğunu söyləmək mümkün deyil.

Hal-hazırda Qanunda nəzərdə tutulan radikal islahatların reallaşdırılması prosesi bürokratik maşının şişirdilməsi ilə müşayiət olunub sərt tənzimləmə vasitəsilə maliyyə sisteminin davranışnın stabilləşdirilməsinin mümkünlüyü haqqında şübhəli təsəvvürlərə əsaslanır və seçim və optimal makprudensial tənzimləmə sisteminin yaradılması zərurəti qarşısında duran inkişaf etməkdə olan ölkələr üçün yanlış oriyentir kəsb edir.

Böyük Britaniyanın alternativ siyasəti

Makroprudensial nəzarət və təhlil sisteminin qurulması baxımından daha çevik olan bu siyasəti də təhlil etmək maraqlı olardı. Birləşmiş Krallıqda (bundan sonra – Krallıq) hal-hazırda maliyyə riski daha çox cəmləş-

mişdir ki, bu da milli bazarın beynəlxalq xarakteri və ölçüsü ilə bağlıdır. Burada çoxlu sayda xarici bank və maliyyə institutları fəaliyyət göstərir.

London hökumətlər və dünya şirkətləri tərəfindən kapitalın xammal bazarlarına və istiqraz, səhm və derivativlərin alqı-satqı bazarlarına cəlb edilməsi üzrə iri mərkəzlərdən biridir. London fond birjasında daha çox ikili aktiv dövriyyədədir ki, onların da şəffaflığı aşağı, riskləri isə, əksinə, böyük ola bilir. Bu birjada 110-dan çox ölkənin şirkətlərinin səhmlərinin alqı-satqısı edilir, onun toplam bazar kapitallaşdırılması NYSE Euronext-n (ABŞ) göstəricilərindən praktiki olaraq iki dəfə çoxdur. London həmçinin birjadankənar hasil alətlərinin iri qlobal biznes mərkəzlərindən biridir. Dünya dövriyyəsində onun payına 46% və ya $600 trln. düşür. Bundan başqa, London aparıcı birja metal və enerji daşıyıcıları və onların hasillərinin ticarət bazarıdır. Dünyada xammal məhsulları ticarətinin 15%-i onun payına düşür.

Beləliklə, Krallığın maliyyə bazarının milli tənzimləmə sisteminin modernləşdirilməsi sahəsində reallaşdırılması planlaşdırılan siyasəti bütövlükdə dünya maliyyə sistemi üçün mühüm əhəmiyyət kəsb edir.

2010-cu ilin iyununda Krallıq hökuməti maliyyə bazarlarının tənzimlənməsi sisteminin yeni arxitekturasına keçid planlarını bəyan etdi. Yeni arxitektura Maliyyə xidmətləri İdarəsinin (Financial Services Authority – FCA) simasında mövcud sistemin Maliyyə davranışı İdarəsinə (Financial Conduct Authority – FCA) transformasiya etməsinə, habelə 2012-ci ildə üçtərəfli – FSA, İngiltərə Bankı və Zati-aliləri Xəzinədarlığı - tənzimləmə sisteminin maliyyə siyasəti Komitəsindən (Financial Policy Committee – FPC), prudensial tənzimləmə İdarəsindən (Prudential Regulation Authority – PRA) və istehlakçı və bazar hüquqlarının müdafiəsi İdarəsindən (Consumer Protection and Markets Authority – CPMA) ibarət olan və İngiltərə Bankının törəmə strukturu olan yeni strukturla əvəz olunmasına səbəb olur.

Şəkildə maliyyə bazarlarının Böyük Britaniya hökumətinin təklif etdiyi yeni tənzimləmə arxitekturası göstərilmişdir. Yeni modelin uğurlu olması üçün mərkəzi rol oynayan səmərəli koordinasiyaya nail olmaq üçün sistemin müxtəlif modulları arasında ənənəvi formal mexanizmlərlə daha çevik olan yeni mexanizmlərin bir araya gətirilməsi planlaşdırılır.

Böyük Britaniyanın maliyyə bazarlarının yeni tənzimləmə arxitekturası



Mənbə: The Financial Conduct Authority. Aproach to Regukation (http: //www. fsa. gov. uk/fca).

Bu zaman idarəetmə paradiqması dəyişir. O, davranış maliyyəsi sahəsində son elmi nailiyyətləri nəzərə almaqla transformasiya edir. Bunun təsdiqi kimi FSA-nın müvəqqəti meneceri M. Koulun sözlərini gətirə bilərik. O, hesab edir ki, "davranış normalarına, xüsusən də fərdi davranış normalarına əməl olunmasının səmərəli tənzimləmə üçün həlledici əhəmiyyəti var».

Yenicə yaradılan orqanlarınn vəzifələri çox geniş olacaqdır. Belə ki, plana görə, FCA-nın strateji məqsədləri Böyük Britaniyanın maliyyə sisteminin mühafizəsi və ona inamın artırılmasından ibarət olacaqdır. Daha üç operativ məqsədə istehlakçıların lazımi səviyyədə müdafiəsi, maliyyə xidmətləri bazarının səmərəliliyinin yüksəldilməsi, habelə milli maliyyə sisteminin tamlığının qorunması aiddir.

Bu məqsədlərə nail olmaq üçün FCA pərakəndə və topdan satış bazarlarında agentlərin davranışının tənizmlənməsinə, bu bazarları dəstəkləyən ticarət infrastrukturuna nəzarətə, habelə PRA-nın nəzarəti altına düşməyən firmaların makroprudensial tənzimlənməsinə görə cavabdehlik daşıyacaqdır. Kəmiyyət baxımından FCA bank və investisiya biznesində işləyən, qiymətli kağızlar bazarında və sığorta bazarında fəaliyyət gösətərən 27 000 firmanın davranışını tənzimləyəcəkdir. Həmçinin o həmin firmaların daha 24 500-ə yaxın holdinq strukturlarına prudensial nəzarətə görə məsuliyyət daşıyacaqdır. Bununla da FCA təkcə ev təsərrüfatları, korporativ sektor və maliyyə xidmətləri sektoru deyil, bütövlükdə Böyük Britaniyanın iqtisadiyyatının makroprudensial tənzimlənməsində həlledici rol oynamış olacaqdır.

FPC bütövlükdə ölkənin maliyyə sisteminin stabilliyinə görə məsuliyyət daşıyyacaq, habelə sistemli riskləri üzə çıxaracaq, makroprudensial alətlərin tətbiqi barədə qərarlar qəbul edəcək və disbalansı endirmək üçün tövsiyələrini digər hakimiyyət orqanlarına ötürəcəkdir. Bu zaman potensial makroprudensial alətlər keyfiyyətində yenə də həmin o kapitala Bazel antitsiklik tələblər, differensiallaşdırılmış risk tərəziləri, girov tələbləri, kredit tələbləri üçün ehtiyatların kəmiyyət parametrlərinin idarə edilməsi nəzərdən keçirilir.

PRA-nın fəaliyyəti makro- və mikroprudensial tənzimləmənin səmərəli koordinasiyasına yönələcəkdir.

Bir tərəfdən maliyyə bazarlarının tənzimlənməsinə baxışın həcmi və yeniliyi maraq kəsb edir. Bu baxışda ekzogen amillərin, bununla da mikroprudensial tənzimləmənin, diaqnostika alətlərinin davranış iqtisadiyyatı prinsipləri üzərində qurulması planları və s. -n mühüm əhəmiyyətə malik olduğu nəzərə alınır. Digər tərəfdən bu cür əsaslı transformasiyalara qoyulan investisiyaların rentabelliyi və onların qısa müddətdə səmərəliliyi şübhə doğurur. Bəlkə də bu dəyişikliklər doğrudan da maliyyə bazarlarının idarəetmə sistemlərini kökündən dəyişmək arzusundan irəli gəlir, lakin Böyük Britaniya hökumətinin maliyyə tənzimlənməsində transformasiya oyunları və innovasiyalara başının qarışması risklərin cari nəzarətinə zərər yetirə bilər. Hələ ki, dünya maliyyə sisteminin zahiri idarəedilənliyini və bundan öz rolunu itirmək qorxusu hök sürən atmosferdə, daha böyük tənzimləyici üstqurumunu yaratmadan arzuolunan nəticələrə nail olmanın mümkünsüzlüyü şəraitində ölkənin maliyyə tənzimlənməsi sahəsində innovasiyaları bürokratik aparatın şişirdilməsindən ibarətdir.

Avropa Birliyində islahatlar

Avropa parlamenti 22 sentyabr 2010-cu ildə Avropa Birliynin (AB) maliyyə sistemində islahatların aparılmasını bəyəndi. Bu çərçivədə onun maliyyə bazarının tənzimlənməsinin təsisat strukturu və arxitekturasının təkmilləşdirilməsi, milli səviyyədə risklərin fraqmentləşdirilmiş fərdi təhlili probleminin aradan qaldırılması, habelə sistemli risklərin erkən mərhələdə aşkar edilməsi və qarşısının alınması sisteminin inkişafı hesabına stabilliyinin və davamlılığının təmin edilməsinə yönələn bir sıra qanunverici təşəbbüslər qəbul olundu.

Maliyyə sisteminin stabilliyinin təmin edilməsi üçün Avropa və milli hakimiyyət orqanlarını iş potensialını yüksəltmək zərurəti siyasətdə yeni bir funksiyanın – makroprudensial nəzarətin bütün maliyyə sisteminə şamil edilməsi funksiyasının yaranmasına səbəb oldu. Onu həyata keçirmək məqsədilə 16 dekabr 2010-cu ildə yeni müstəqil bir orqanın – makroprudensial nəzarətə məsul olan Avropa sistemli risklər Şurasının (European Systemic Risk Board – ESRB) yaradılması haqqında qanun qüvvəyə mindi. ESRB haqqında Qaydalara görə, bu institutun fəaliyyəti AB-nin maliyyə stabilliyi üçün sistemli risklərin qarşısının alınmasına və ya nəticələrinin yumşaldılmasına səbəb olmalıdır. ESRB həmçinin daxili bazarın fasiləsiz fəaliyyətinə şərait yaratmalı, bununla da maliyyə sektorunun iqtisadi artıma davamlı töhfəsini təmin etməlidir. ESRB-nin fəaliyyəti, çox ehtimal ki, bankların fəaliyyətinə makroprudensial nəzarətlə kifayətlənməyərək bütün tip tşəkilat və bazarlara şamil ediləcəkdir.

Həmin missiyanın icrası üçün ESRB-nin üzərinə sistemli risklərin maliyyə sisteminə təsiri baxımından onların aşkar edilməsi məqsədilə informasiyanın toplanması və təhlili, böyük sistemli risklərin qarşısının alınması üzrə tövsiyələrin verilməsi, onların icrasının monitorinqi, bu cür risklərin aradan qaldırılması üçün tədbirlər proqramının işlənməsi vəzifələri qoyulmuşdur. Makroprudensial tənzimləmə sistemində ESRB maliyyə şəbəkəsinin elementlərinin (maliyyə institutları və bazarları) qarşılıqlı əlaqəsindən, habelə makroiqtisadi və struktur dəyişikliklərindən, o cümlədən maliyyə innovasiyalarından yaranan zəif yerlərin aşkar edilməsi, onların qiymətləndirilməsi və zəifliyinin azaldılmasını təmin etməlidir. Bu fikir hazırda ESRB-yə rəhbərlik edən Avropa Mərkəzi Bankının (AMB) prezidenti J. -K. Trişenin Avropa bank konqresində bildirdiyi mövqeyi ilə də təsdiqlənir: ESRB-in işi ABŞ-dan fərqli olaraq tamamilə başqa model üzərində qurulacaqdır. O, yumşaq hüquq adlanan bir ha-

disəyə əsaslanacaqdır, yəni maliyyə sistemində əhəmiyyətli risklər aşkar olunduğu halda, ESRB-nin əsas aləti kimi xəbərdarlıq və tövsiyələr çıxış edəcəkdir.

ESRB-in müvafiq səlahiyyətlərki və qüvvədə olan hakimiyyət orqanlarının şaquli idarəetməsi olmasa da, maliyyə sisteminin dinamik dəyişən şəraitə tez bir zamanda adaptasiya etmək imkanları sayəsində AB-nin modeli ABŞ-da realizə olunan modeldən daha çevik və səmərəli olmalı və bazarın səmərəliliyinin yüksəldilməsinə deyil, onun tənzimlənməsinin artırılmasına yönəlməlidir.

ESRB-nin digər tənzimləyici orqanlarla və onların istifadə etdikləri alətlərlə qarşılıqlı təsirlərinin qurulması mübahisəli məsələdir. Əslində bu alətlər maliyyə tənzimlənməsinin konservativ modelinin prototipidir (kapitala tələblərin artırılması, kapitalın antitsiklik buferindən istifadə edilməsi və s.). Bundan başqa, ESRB-nin iyerarxik rolu da anlaşıqlı deyil. AMB-nın vitse-prezidenti V. Konstantsionun Avropa maliyyə forumunda 2010-cu ildəki çıxışından göründüyü kimi, bu rol “ayrı-ayrı maliyyə institutlarının davamlılığını qiymətləndirmək məqsədini güdən mikroprudensial nəzarəti tamamlayacaq ümumsistem mövqeyin müəyyənləşdirilməsindən ibarətdir”. Əksinə, makroprudensial tənzimləmə konsepsiyasından çıxış etməklə, ESRB mikroprudensial nəzarət standartlarının formalaşdırılmasında və mikroprudensial təsisat sisyasətindəki əyriliklərin və assimetriyaların düzəldilməsində həlledici rol oynamalıdır.

Əks halda mikro- və makrosiyasətdə və müvafiq alətlərdə dissonans ESRB-nin vəzifələrinin təsirli surətdə həyata keçirilməsinə maneçilik törədə bilər.

Maliyyə sistemində və mikrosəviyyədə “yumşaq hüquq”a əsaslanan siyasətin səmərəli şəkildə həyata keçirilməsində ESRB-nin əsas vəzifələri tənzimləyici orqanlar, ilk növbədə Bazel komitəsi tərəfindən istifadə olunan mikroprudensial alətlərin və iş prinsiplərinin dəyişdirilməsi və adaptasiya etdirilməsi, müvafiq olaraq Bazel standartlarının da dəyişdirilməsi və onların makroprudensial standartlara uyğunlaşdırılmasından ibarət olmalıdır.

Yaradılmaqda olan tənzimləmə sistemlərinin fəaliyyətinin konkret nəticələri olmasa da, Avropa Mərkəzi Bankı və İngiltərə Bankının siyasətini ABŞ-da qəbul olunmuş siyasətdən əsaslı şəkildə fərqləndirən müsbət bir məqamı qeyd etmək olar. Bu, davranış iqtisadiyyatının əsaslarını nəzərə almaqla sərt tənzimləmə modelindən incə makroprudensial kök-

lənməyə keçid etmək cəhdindən ibarətdir.

Bununla belə AMB və İngiltərə Bankının hərəkətləri monetar siyasətin çərçivələrindən çox-çox kənara çıxmışdır. Onların məsuliyyəti genişləndirilmiş və təkcə kommersiya banklarının fəaliyyətinə nəzarətdən deyil, həm də maliyyə sisteminin stabilliyinin təmin edilməsindən də ibarətdir ki, bu da öz növbəsində yeni makroprudensial siyasətləri tələb edir.

Sınaqdan keçmiş modellərin və iş alətlərinin, habelə dəqiq qaydaların olmaması tənzimləyici orqanların işini çətinləşdirir və özü ilə yeni risklər gətirir.

Beləliklə, cavab və sınaqdan keçmiş nəticələrdən çox açıq suallar var.

Yeni modellərin tətbiqi üçün lazım olan kifayət qədər böyük investisiyaları və xərcləri, habelə müxtəlif ölkələrin qanunvericiliyi və tənzimləyici orqanlarının işinin sinxronlaşdırılmasını nəzərə alaraq nəinki bizim institutların fəaliyyətinin səmərəliliyi, həm də bazarın tətbiq olunmaqda olan innovasiyalara reaksiyası və tənzimləmənin nəticəsinin qarşıda qoyulmuş məqsədlərə uyğunluğu haqqında məsələ qalxır.

Üçlüyün təşəbbüslərinin daha ətraflı təhlili hal-hazırda qlobal maliyyə bazarları üzrə işçi sənədlərinin olmaması ilə əlaqədar bir qədər mürəkkəbləşib. Buna görə də yaradılmış strukturların səmərəliliyi və onların fəaliyyətinin qarşıda qoyulmuş məqsədlərə uyğunluğu haqqında birmənalı mühakimə yürütmək hələ ki, tezdir. Bu arada sonadək formalaşmamış və sınaqdan keçirilməmiş prinsip və modellərə əsaslanan yeni makroprudensial nəzarət sisteminin yaradılmasının mümkünlüyündən ehtiyatlanmaq lazımdır.

Dünyanın iri ölkələrində aşağıdakıların olmadığı şəraitdə makroprudensial nəzarət xidmətləri yaradılır və ya yaradılmışdır:

- sistemli riskin, yəni idarəetmə obyektinin nə olduğu müəyyən olunmamışdır;
- onun yaranması və sistemli riskə transformasiya etməsinin səbəbləri, erkən vaxtda aşkara çıxarma və səmərəl idarəetmə alətləri öyrənilməmişdir;
- dünya iqtisadiyyatında iri maliyyə transmilli firmaların rolunun artdığı bir şəraitdə sistem əhəmiyyətli təsisatların monitorinqi və idarəetmə modelləri yoxdur;
- mikroskopik səviyyədə agentlərin qeyri-səlis qarşılıqlı təsirlərinin və onların sistemlərin makroskopik xassələrinə mümkün təsirinin sınaqdan keçirilmiş dinamik proqnoz modellərinin zəruri

olduğu dərk edilmir.

Bu, kölgə bank sisteminin artması, dinamik inkişafda olan və transformasiya edən maliyyə sistemində riskin bir-biri ilə sıx bağlı olan agentlər arasında yüksək dərəcədə təmərküzləşməsi ilə müşayiət olunur.

Beləliklə, maliyyə bazarlarının tənzimləmə sisteminin cari islahatının gələcəkdə böhranların tezliyini və ağırlığını azalda biləcəyini birmənalı söyləmək mümkün deyil.

Artıq indidən bir şey aydındır: heç bir tənzimləyici nəzərə almır ki, tənzimləmə sisteminin sərtləşdirilməsi əks effekt verəcəkdir, yəni maliyyə idarələrinin risklərinin artmasına, investisiya imkanlarının və bazar şəratinin təhrif olunmasına gətirib çıxaracaqdır. Daha sistemli tənzimləmə və istifadə olunan alətlərin sistemliyi isə risklərin daha çox təmərküzləşməsi və yekcinsliyi hesabına bazarın daha da həssas olmasına səbəb olacaqdır.

Bundan başqa, maliyyə bazarlarında risk-menecment və tənzimləmə sistemlərinin qurulmasına yanaşmalarda əsaslı assimetriya da bazarların idarə edilməyən volatilliyini artıra və nəzərdən keçirilən ölkələrin iqtisadiyyatının dünya maliyyə sistemində rolunu nəzərə alaraq yeni böhranlı hadisələrə gətirib çıxara bilər.

Böhran başlamazdan öncə dünyanın böyük dövlətləri öz kvaziinhisar modellərini qoruyub saxlamaq və səmərəli fəaliyyətini təmin etmək məqsədilə çox riskli, lakin biristiqamətli siyasət həyata keçirirdilər. Yeni təşəbbüslərin təhlili göstərir ki, gələcəkdə maliyyə bazarlarının tamamilə fərqli yanaşmalara əsaslanan müxtəlif istiqamətli tənzimlənmə siyasətinin həyata keçirilməsi ehtimalı yüksəkdir. Bu isə dərhal onsuz da qeyri-stabil olan, mürəkkəb açıq sistem kimi fəaliyyət göstərən maliyyə bazarının davamlılığına və proqnozlaşdırıla bilməsinə öz təsirini göstərəcəkdir. Inkişaf etmiş ölkələrin bu cür siyasəti bütün dünya maliyyə sistemi üçün daha böyük təhlükə formalaşdırmaqla daha ağır sistemli böhranlara, hətta müharibələrə gətirib çıxara bilər.

Rusiyada maliyyə bazarının tənzimlənməsi

Dünyanın nəhəng ölkələri tərəfindən maliyyə bazarlarının stabilləşdirilməsindən çox, onların kvaziinhisar rolunun gücləndirilməsinə yönələn tənzimləmə siyasətinin həyata keçirildiyi şəraitdə milli təhlükəsizliyi təmin etmək məqsədilə Rusiya onun və onun maliyyə-iqtisad alətləri və institutlarının dünya bazarında rolunun köklu surətdə dəyiş-

dirilməsinə yönələn siyasət həyata keçirməlidir. Hələ ki, xarici şokların Rusiya iqtisadiyyatına təsiri uğurlu milli təhlükəsizlik siyasəti hesabına deyil, hələ də ölkənin dünya maliyyə bazarına tam olaraq daxil olmaması, maliyyə bazarlarının ölçülərinin böyük olmaması və s. hesabına azaldılır.

Beləliklə, Rusiya iqtisadiyyatının dünya maliyyə sisteminə inteqrasiya etdiyi və ÜTT-na daxil olduğu bir şəraitdə iqtisadi təhlükəsizliyin və milli maliyyə-iqtisad sisteminin stabil inkişafını təmin etmək üçün maliyyə tənzimlənməsi və nəzarətinin təsisat strukturunun və risk-menecment sistemlərinin yaradılmasına xüsusi diqqət yetirilməlidir.

Monitorinq keçirərək erkən mərhələdə sistemli risklərin yaranma və yayılma təhlükəsini, əsas yoluxma kanallarını üzə çıxarmaq, habelə milli maliyyə-iqtisad sisteminin getdikcə daha metastabil olan mühitdə tez-tez yaranan endogen və ekzogen xarakterli infeksiyalara davamlılığını formalaşdırmaq və onları səmərəli şəkildə idarə etmək lazımdır. Əks halda maliyyə bazarlarında ümumdünya ağalığa nail olmaq məqsədilə iri dövlətlərin var-dövlətin yenidən bölgüsü modelinin formalaşdırılmasında onların ehtiyatlarını doldurma mənbəyi roluna düçar ola bilərik.

Rusiyada yalnız 2011-ci ildə, iqtisadi situasiyanın diktə etdiyi zərurətin anlanmasından çox, Rusiya Prezidenti D. Medvedevin 12 noyabr 2010-cu ildə "İyirmilər qrupu" sammitinin bəyannaməsini imzaladığına görə, Rusiya Bankında yenicə yaradılmış maliyyə stabilliyi Departamenti simasında makroprudensial tənzimləmə sisteminin qurulması üzrə təşəbbüslər həyata keçirilməyə başladı.

Lakin institusional element makroprudensial səviyyədə sistemli risklərin səmərəli idarə etmə sisteminin təşkilində əsas məqam deyil. Mikrosəviyyədə onun əməliyyatlaşdırılmasının müvafiq modeli və alətləri olmadığından, biz makroprudensial təhlil siyasətinin reallaşdırılmasına formal yanaşma üzərində dayanmalı oluruq ki, bu da öz növbəsində ölkənin iqtisadi təhlükəsizliyinə birbaşa təsir edəcək ciddi makroiqtisadi disbalanslara səbəb ola bilər.

Bundan başqa, yenicə yaradılmış bölmənin məqsədləri və vəzifələri Rusiya Bankı tərəfindən hələ müəyyənləşdirilməsə də, qarşılıqlı təsir yanaşmaları və müvafiq alətlər toplusu işlənməsə də, artıq indi bu məsələnin həllinə formal yanaşmadan xəbər verən aşağıdakı əsaslı əyrilikləri qeyd etmək olar:

Makro- və mikroprudensial tənzimləmə siyasəti bir institutun, yəni Rusiya Bankının çərçivələrində cəmləşir.

10.07.2002-ci il tarixli 86-ФЗ saylı «Rusiya Federasiyasının Mərkəzi Bankı (Rusiya Bankı)» Qanununa görə, Rusiya Bankının fəaliyyət məqsədləri və səlahiyyətləri və bundan irəli gələn funksiyaları səmərəli makroprudensial siyasəti həyata keçirməli olan orqanın səlahiyyətlərindən çox dardır.

Rusiyada qeyri-bank maliyyə kompaniyalarının və hüquqi şəxslərin fəaliyyətinə nəzarətlə digər dövlət orqanlarının, məsələn, Rusiya Maliyyə Nazirliyinin və maliyyə bazarları üzrə Federal Xidmətin məşğul olduğunu nəzərə alaraq, qüvvədə olan hüquqi sahədə bu institutların makroprudensial siyasətin həyata keçirilməsi məqsədilə qarşılıqlı təsirlər mexanizmi aydın deyil.

Rusiya Bankının mövcud risk-menecmenti də risklərin diversifikasiyasının mümkünlüyü haqqında yanlış bir fikirdən çıxış edir və hətta bank sistemi çərçivəsində belə monitorinq keçirmək və sistemli riskləri idarə etmək fikrində deyil.

Hökumət və Rusiya Bankının bu cür mövqeyi onların dünya maliyyə sisteminin tənzimlənməsində baş verən dəyişikliklərin və ölkənin milli təhlükəsizliyi üçün mümkün təhdidlərin həqiqi rolu və əhəmiyyətini anladıqlarına şübhə doğurur.

Ümid edək ki, makroprudensial siyasətin həyata keçirilməsi və sistemli risklərin idarə edilməsi sahəsində Rusiyanın gec "start" götürməsi aparıcı dövlətlərin strategiyasını təhlil etmək və mürəkkəblik, sistemli dinamika və özünütəşkil tənqidilik nəzəriyyələrindən çıxış etməklə səmərəli milli maliyyə-iqtisadi təhlükəsizlik sistemini qurmaq imkanı verəcəkdir. Əlavə tədqiqat tələb edən digər məsələ makroprudensial siyasət məsələlərinin həll edilməsi üçün optimal alətlərin və indikativ sistemin, onun dünyanın maliyyə bazarlarında qərarlaşmış şərtlərə adekvatlığının və yetərliliyinin təyin edilməsi ilə bağlıdır. Milli təhlükəsizlik və makroprudensial siyasətin tələblərinə cavab verən indikativ alət yaratmadan Rusiyada institusional sistem işləyə bilməz.

1000
1000
ТЫСЯЧА РУБЛЕЙ

XVII FƏSİL.

BANK VƏ KREDİT TƏŞKİLATLARINDA VERGİTUTMA PROSESİNİN XÜSUSİYYƏTLƏRİ

– **T.Paşa** – (17.1.), (17.2), (17.3), (17.4),
– dosent **M.S.Kazımov** – (17.5), (17.6)

17.1. Bank əməliyyatlarından vergitutma sahəsində xarici təcrübə
17.2. Kredit təşkilatlarının fəaliyyətinin effektivliyinin müəyyən edilməsi
17.3. Azərbaycan Respublikasında bank əməliyyatlarından vergitutmanın xüsusiyyətləri
17.4. Bank məlumatlarının əldə edilməsinin təkmilləşdirilməsi
17.5.Azərbaycanın bank sistemində vergitutma mexanizmi və nəzarət funksiyasının təkmilləşdirilməsi istiqamətləri
17.6. Bank gəlirlərinin vergiyə cəlb edilməsinin təkmilləşdirilməsi

17.1. Bank əməliyyatlarından vergitutma sahəsində xarici təcrübə

Bu gün bank əməliyyatları çeşidinə depozitlər qəbulu, kreditlər verilməsi, bank hesablarının açılması və bu hesablar üzrə müştərilərə xidmət, klirinq xidmətləri, kassa xidmətləri, qiymətli kağızlarla əməliyyat, lizinq, faktorinq, trast əməliyyatları, maliyyə-konsaltinq xidmətlərinin göstərilməsi və s. aiddir. Bank əməliyyatlarının belə bir rəngarəngliyinə baxmayaraq, bu əməliyyatların əsasən passiv və aktiv əməliyyatlar üzrə təsnifləşdirilir. Aydındır ki, depozit qəbul ediləndə də, öz səhmini və ya istiqrazını buraxanda da, bank passiv əməliyyatlar aparır. Belə ki, depozitlərə də, istiqrazlara da faiz ödəmək, səhmlərə isə dividend vermək lazım gəlir. Kommersiya kreditinin, lizinq və ya faktorinq əməliyyatlarının da mahiyyətcə fərqlənmədiyini iddia etmək olar. Çünki kommersiya krediti veriləndə, bank müəyyən gəlir - kredit faizləri əldə edir. Lizinq üzrə hər hansı əmlakı alıb, icarəçiyə verəndə də bank gəlirə – lizinq ödənişlərindən yaranacaq gəlirə ümidli olur. Məsələyə belə bir yanaşma Azərbaycan Respublikası qanunvericiliyində də mövcuddur və Vergi Məcəlləsinin 140.1-ci maddəsinə görə maliyyə lizinqi üzrə ödəmələr «icarəyə verilmiş ssuda üzrə ödəmələr sayılır».

Banklar yenə də əsasən öz əzəli və əbədi funksiyalarını – maliyyə resurslarının səmərəli yerdəyişməsini və ya izafi resurslara malik subyektlərdən bu resursa ehtiyacı olan subyektlərə istiqamətlənən vasitəçiliyi həyata keçirirlər. Bank əməliyyatları zamanı bankın mənfəəti də yaranır və aydındır ki, bu əməliyyatları reallaşdıran kredit təşkilatları başqa müəssisələr kimi qanunvericiliklə müəyyənləşən vergiləri ödəyirlər.

Bank əməliyyatları üzrə gəlir və mənfəət vergisinin xarici təcrübələrində diqqəti çəkən birinci cəhət - ötən əsrin 80-ci illərindən başlanan və inkişaf etmiş ölkələri əhatə edən köklü vergi islahatlarının bu gün də davam etdirilməsidir. Fiskal sistemlərin neytrallaşması ilə xarakterizə olunan bu islahatların əsas xəttini vergi dərəcələrinin aşağı salınması təşkil edir. Bəzi inkişaf etmiş ölkələr üzrə son illərdə gəlir vergisi dərəcələrinin aşağı salınması ilə bağlı göstəricilər də fiskal neytrallıq meylinin gücləndiyini təsdiq edir.

Yuxarıdakı cədvəldən inkişaf etmiş ölkələrin vergi sistemlərində dərəcələrin azalma meyli aşkar sezilir. Vergi islahatlarının başqa bir xəttini də vergi bazasının genişlənməsi təşkil edir. Doğrudur, son illərin is-

lahatları hər bir ölkədə vergi bazasının genişlənməsi istiqamətində tədbirlərlə müşayiət olunmayıb və məsələn, Böyük Britaniyada 3 il ərzində müəssisələrə kapital qoyan investorlar üçün vergi bazasını 20%, 5 il bu işi həyata keçirənlər üçün isə 10% yaxud inkişaf edən müəssisələrə vəsait yatıran investorlara isə 20% azaltmaq kimi yeniliklər nəzərdə tutulur. Ancaq islahatların ümumi istiqaməti təkcə bu nümunələrlə müəyyən olunmur. Məsələn, Almaniyada həyata keçirilən vergi islahatları amortizasiya ayırmalarının maksimal normalarını 30%-dən 20%-dək, daşınmaz əmlak üçün normaları isə 4%-dən 3%-dək azaltmağı nəzərdə tutur.

Cədvəl 1.

Gəlir vergisi dərəcələrinin dəyişməsi

Gəlir	Gəlir vergisi				Mənfəət vergisi			
	Maksimal dərəcə, %		Minimal dərəcə, %		Maksimal dərəcə, %		Minimal dərəcə, %	
	2001-ci il	2005 və sonrakı	2001-ci il	2005-2008	2001-ci il	2005-2008	2001-ci il	2005-2008
ABŞ	39,1	35,0	28,0	25,0	38,0	38,0	15,0	15,0
Almaniya	48,5	38,4	22,9	15,0	39,0	25,0	–	–
Fransa	56,8	53,8-36,8	…	…	35,3	33,3	–	–
Böyük Britaniya	41,0	40,0	27,0	20,0	30,0	30,0	20,0	20,0

Həmin ölkələrdə gəlir və mənfəət vergisi üzrə həyata keçirilən bu dəyişikliklər bank əməliyyatları üzrə vergitutmadan da yan keçməyib. Çünki əsas bank əməliyyatları - passiv və aktiv əməliyyatlar müxtəlif fiziki və hüquqi şəxslər üçün gəlir, kredit təşkilatları üçünsə son nəticədə mənfəət yaranması ilə nəticələnir. Yəni müştərilər gəlir və ya mənfəət, kredit təşkilatı isə mənfəət vergisi ödəyicisinə çevrilir. Ancaq bu ümumi əsaslarla birgə bank əməliyyatlarından vergi tutulması yenə də spesifik xüsusiyyətlərə malik olur və bu spesifik cəhətlər faiz gəlirlərinin vergiyə cəlb olunmasında xüsusilə aşkar görünür.

Faiz gəlirlərinin vergiyə cəlb edilməsində əsasən, yuxarıda qeyd etdiyimiz 2 üsuldan - klassik və DİT yanaşmadan istifadə olunur. Məsələn,

Skandinaviya ölkələrində DİT sisteminin tətbiqi qlobal ölkələrarası rəqabətə davamlılığı artırmaq istəyindən irəli gəlib. Məlum olduğu kimi Skandinaviya ölkələri həmişə gəlir vergisi dərəcələrinin yüksək olması ilə fərqlənib. Bu gün Norveçdə dövlət gəlirlərinin 31%-nin, Danimarkada 24%-nin, Finlandiyada 21%-nin gəlir vergisinə aid olması, belə yüksək dərəcələrlə izah olunur. Bu ölkələrdə vergitutmada ədalətlilik və effektivlik balansının pozulmasının qarşısını almaq, həm də yığım və investisiyalara stimulun azalmaması üçün kapitaldan gəlirləri (Capital income tax), yəni həm də faiz gəlirlərini ayrıca dərəcələrlə vergiyə cəlb etmək nəzərdə tutulub.

Cədvəl 2

İnkişaf etmiş ölkələrdə faiz gəlirlərindən vergitutma

Ölkələr	Gəlir vergisinin maksimal dərəcəsi	Alınmış faizlərə vergi	Ödəmə mənbəyində vergi dərəcələri	
			Rezident	qeyri-rezident
ABŞ	35%	-	0	0
Böyük Britaniya	40%	-	20	0
Almaniya	38,4%	-	31,65	0
Fransa	33,0%	-	15	0-15
Yaponiya	37%	-	20	20
İsveç		-	30	0
Niderland		-	0	0
İtaliya		-	27	0-15

Ancaq inkişaf etmiş ölkələrdə faiz gəlirlərinin, o cümlədən bank kapitalından əldə olunan faiz gəlirlərinin vergiyə cəlb edilməsinin «güzəştli» şərtləri təkcə DİT sistemi ilə, həm də Skandinaviya ölkələrinin təcrübəsi ilə məhdudlaşmır. Cədvəl 2-nin məlumatlarından da bu cəhət aydın görünür. Həmin məlumatlar təkcə faiz gəlirlərinə tətbiq olunan güzəştləri təsdiq etmir. Aşkar görünür ki, başqa gəlirlərin 15-35% dərəcələrlə vergiyə cəlb olunduğu ABŞ-da faiz gəlirlərindən ümumiyyətlə vergi tutulmur və orta əsrlər sənayeləşmə erasının «pioneri» Niderland da eyni yolla gedib. Başqa gəlirlərdən 33% vergi tutan Fransa hökuməti bu gəlirləri cəmi 15%-li dərəcələrlə vergiyə cəlb edir. İkinci görünən cəhət budur ki, faiz gəlirləri üzrə ikiqat vergitutma mövcud deyil. Vergi yalnız bir dəfə və ödəmə mənbəyində tutulur. Üçüncü və bəlkə də ən mühüm cəhət, qlobal maliyyə bazarlarındakı kəskin rəqabətlə bağlıdır və

cədvəldən də aydın olur ki, xarici kapital cəlbi üçün əksər ölkələr ideal şərait yaradıb. Öz investorlarından 20%-li dərəcələrlə vergi tutan Böyük Britaniya hökuməti «özgələrdən» - qeyri-rezidentlərdən faiz gəliri üzrə vergi almır. Almaniyanın, İsveçin də kapital bazarının qapıları xaricilərin üzünə tam açılıb.

Bank əməliyyatlarından vergitutmanın xarici təcrübələrinin başqa bir istiqaməti mənfəət vergisi ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, bəzi inkişaf etmiş ölkələrdə, məsələn, Almaniyada sahibkarlığın təşkilati-hüquqi formasından asılı olaraq gəlir vergisini bu subyektlər də ödəyirlər. Almaniyada vergi islahatlarına qədər fərdi sahibkar həm müəssisənin sahibkarı kimi gəlir, həm də mənfəət vergisini ödəməli olurdu. İslahatlar sahibkarlara seçim imkanı – gəlir və ya mənfəət vergisi ödəməyi seçmək imkanı verir. Eyni zamanda vətəndaşlar da vergitutmanın müxtəlif formalarında – korporativ vergi ilə yanaşı gəlir vergisi ödəmək imkanlarına malikdirlər.

Vergitutmadakı bu məqamlar və faiz xərclərinə qanunvericiliklə verilən güzəştlər başqa bir növ bank əməliyyatlarını - kreditlər alınmasını stimullaşdıran əsaslı amillərdəndir. İnkişaf etmiş ölkələrdə fərqli məqsədlər üzrə alınan borclara görə faizlərin vergi bazasından tam və ya qismən çıxılması kreditlərin maliyyələşdirmə mənbəyi kimi cəlbediciliyini kifayət gədər yüksəldir. Aşağıdakı cədvəl faiz xərclərinə verilən güzəştlər haqqında yetərli təsəvvür yaradır.

Cədvəl 3

Faiz xərclərinə vergi güzəştləri

Ölkələr	Borcların məqsədi		
	Biznes üçün	İşgüzar investisiyalara	Əsas rezidensiyaya
ABŞ	t.a.	t.a.	q.a
Böyük Britaniya	t.a.	...	q.a
Almaniya	t.a.	t.a.	f.ç
Fransa	t.a.	f.ç.	q.a
İtaliya	q.a.	t.a.	f.ç
Yaponiya	t.a.	f.ç.	f.ç

Qeyd: t.a. – faiz xərcləri vergitutma bazasından tam çıxılır;
q.a. – xərclər qismən çıxılır;
f.ç. – faizlər çıxılmır.

Cədvəldən bəlli olur ki, əksər inkişaf etmiş ölkələrdə faiz xərcləri – borc faizi üzrə xərclər vergi bazasından tam çıxılır. İşgüzar investisiyalara xərclər də bir çox ölkələrdə vergi bazasından çıxılır. Deməli, amerikalı fərdi investor 100 min dollar səhm almaq niyyətində olsa, bank kreditindən istifadə imkanlarını da araşdıracaq. Çünki kredit üzrə faizi gəlirdən çıxmağa qanuni əsaslar var. Britaniyalı vətəndaş isə hətta ev almaq üçün kreditdən istifadəyə maraq göstərə bilər. Belə ki, qanunvericilik 30 min funt srerlinqə gədər dəyəri olan və kreditlə alınan daşınmaz əmlak yiyəsinə öz gəlirindən bu əmlakın 10% dəyərində hissəsini çıxmağa imkan verir.

Bütün bu dediklrimiz, vergi mexanizminin bank əməliyyatlarının genişlənməsinə təsiri, vergitutmanın kredit təşkilatlarının fəaliyyətinin səmərəlililiyində rolu aşkar görünür. Vergitutmanın bank əməliyyatlarına münasibətdə güzəştləri, bu müsbət tərəflərlə yanaşı bəzi neqativ meylləri də şərtləndirir. Belə münasibət maliyyələşdirmə və təkrar maliyyələşdirmə mənbələri üçün də fərqli şərait yaradır. Belə ki, kreditdən istifadə edən korporasiya kredit faizlərini vergi bazasından tam çıxa bilir. Ancaq səhmlər üzrə dividend ödənişləri bu bazadan çıxılmır və üstəlik korporasiya sahibləri-səhmdarlar dividend gəlirlərinə görə də vergi ödəməli olurlar. Beləliklə, səhm hesabına maliyyələşmə bütövlükdə korporasiya üçün də, ayrılıqda fərdi investor üçün də cəlbediciliyini qismən itirir. Doğrudur, səhm maliyyələşməsi və səhmlərə investisiyalar bir çox başqa aspektlərinə görə borc kapitalından və depozit qoyuluşlarından olduqca effektiv sayıla bilər. Təkcə səhm maliyyələşməsinin risksizliyi və səhmlərin risksiz depozit qoyuluşlarından kifayət qədər yüksək gəlirliliyi bu iddiaları təsdiqləyir. Ancaq istənilən halda, səhm və borc kapitalı arasındakı vergitutma bərabərsizliyi faktdır.

Korporativ sektorun ikiqat vergitutmaya məruz qalması kredit təşkilatları üçün də narahatedici bir məsələdir. Çünki banklar və əksər kredit təşkilatları fərdi sahibkarlıq təsisatı kimi təşkil olunmur. Bu təşkilatlar səhmdar cəmiyyəti formasında yaradılır və əlbəttə ki, ikiqat vergitutmaya məruz qalırlar. İnkişaf etmiş ölkələrdə bu məsələ islahatlar kursu daxilində həll olunur.

2001-ci ildə ABŞ vergitutmada yeni islahatlara yol açan «İqtisadi artım və vergilərin koordinasiya olunmuş azalması» (Economic Growth and Tax Relief Reconciliation Act) haqqında qanun qəbul edib və qanunda 2003-cü ildən dividend ödənişlərinə verginin tam ləğvi də nəzərdə

tutulurdu. Qanun qəbul edilən ərəfədə aparılan araşdırmalarla müəyyən olunmuşdu ki, dividendə verginin ləğvi 10 il ərzində dövlət xəzinəsini 366 mlrd. dollar daxilolmalardan məhrum edəcəkdir.

Almaniyada da ikiqat vergitutmanın aradan qaldırılması yolları müəyyənləşib və fərdi səhmdar gəlir vergisi ödəyərkən, korporasiyanın ödədiyi mənfəət vergisinə müqabil məbləği vergi bazasından çıxa bilir. Gəlir vergisi bazasını az və ya çox kiçildən bu dəyişikliklər, şübhəsiz ki, investisiyalara stimulu kifayət qədər yüksəldir və korporasiyaların, o cümlədən kredit təşkilatlarının effektiv fəaliyyətinə yetərincə yardım edir.

Bank əməliyyatlarına ƏDV tətbiqinin spesifik cəhəti ondan ibarətdir ki, əksər maliyyə xidmətlərindən ƏDV tutulmur. Avropa Birliyi (AB) zonasında kreditlərin verilməsi, bank qarantiyaları, ödənişlər, pul baratları, çeklər, və s. ƏDV ödəmələrinə cəlb olunmur. Bununla yanaşı ƏDV-nin kredit təşkilatlarına tam aid olmadığını iddia etmək olmaz. Bir tərəfdən, kredit təşkilatları da başqa hüquqi və fiziki şəxslər kimi fəaliyyətləri üçün gərək olan məhsul və xidmətləri əldə edərkən, malın qiyməti daxilində ƏDV ödəyirlər. İkinci tərəfdən, maliyyə xidmətlərinin ƏDV-dən tam azad edilməsi bütün ölkələri əhatə etmir. Bir sıra ölkələrdə ƏDV güzəştlərinə cəlb olunmayan maliyyə xidmətlərinin çeşidi artırılıb. Kanada, Sinqapur, Avstraliya və s. ölkələrdə belə bir təcrübədən istifadə olunur. ƏDV güzəştləri əvəzində xüsusi vergilər tətbiqi praktikası da mövcuddur və məsələn, Fransada bu məqsədlə maliyyə vasitəçiliyi ilə məşğul olan təşkilatların əməkdaşlarının əmək haqqına belə xüsusi vergilər təbiq edilir.

Bu praktik nümunələrdə başqa bir çox bank əməliyyatlarının, daha dəqiqi, banklar tərəfindən göstərilən xidmətlərin ƏDV-yə cəlb edilməsi texniki tərəfdən çətinlik yaratmır və bu tip xidmətlər xarici ölkələrdə ƏDV-yə cəlb olunur. Məsələn, Ukraynada qiymətlilərin saxlanması, yubiley sikkələrinin satışı, operativ lizinq və s. əməliyyatlardan ƏDV tutulur. Latın Amerikasının bəzi ölkələrində bir sıra bank əməliyyatlarından – bank hesabından vəsaitlərin silinməsindən, nağd vəsaitlərin götürülməsindən və s.-dən ƏDV tutulur. Ötən əsrin 90-cı illərindən belə bir tədbirlər Argentina, Braziliya, Kolumbiya, Venesuela və s. ölkələrdə tətbiq olunub. Bank transaksiyalarına ƏDV-nin dərəcəsi 0,2-2% həddində müəyyən edilib və müxtəlif ölkələrdə fərqli bank əməliyyatlarını əhatə edib. Məsələn, Kolumbiyada əmanət faizləri üzrə müştərinin hesabına köçürülən vəsaitlər də ƏDV-yə cəlb edilir, Ekvadorda isə hətta hesaba daxil olan vəsait-

lərdən də ƏDV tutulur. Argentinada da həm debet, həm də kredit transaksiyalarına ƏDV tətbiq olunur. 2001-ci ildə Argentinada bu vergi 0,6%, Braziliyada 0,36%, Venesuelada 0,75%-li dərəcələrlə tutulur. Bu verginin müsbət fiskal nəticələri (ÜDM-in 1%-nə yaxın vergi daxilolmalarının əldə edilməsi), bəzi hallarda neqativ nəticələrdən (iqtisadi artıma mane olması) aşağı olub. Venesuelada bir dollar vergi ödəyən kredit təşkilatı bu əlavə vergiyə görə 28 sent gəlir itkisi ilə üzləşib, Kolumbiyada isə bu göstərici 41 sent olub. Xarici təcrübənin təhlilindən aydın olur ki, bank əməliyyatlarının ƏDV-yə cəlb edilməsi məsələsi kifayət qədər mürəkkəb bir problemdir və təkcə cari fiskal məqsədlər naminə bu əməliyyatları ƏDV-yə cəlb etmək effektiv deyil.

Bank sistemində stabilliyin qorunmasında makroiqtisadi tənzimləmə mexanizmi kimi istifadədə məcburi ehtiyat normaları, əlbəttə ki, gərəkli bir vasitədir. Məcburi ehtiyat normalarının bu xüsusiyyətləri də, neqativ effektləri də xarici ölkələrdə, xüsusilə inkişaf etmiş ölkələrdə nəzərə alınıb. Əksər ölkələr məcburi ehtiyat normaları mexanizmindən istifadə etməyiblər, ancaq normalar kifayət qədər azaldılıb. Cədvəl 4-dən bu normaların məqbul səviyyədə olduğu aşkarlanır.

Cədvəl 4

İnkişaf etmiş ölkələrdə məcburi ehtiyat normaları

Ölkələr və regionlar	Ehtiyat normaları: öhdəliklərə %-lə	Yerinə yetirilmə müddəti
ABŞ	3-10%	2 həftə
Yaponiya	0,5-1,3%	1 ay
Böyük Britaniya	0	-
Avropa Birliyi	2,0%	1 ay

Bəllidir ki, postsosialist ölkələrinin bir qismində - Rusiya, Ukrayna, o cümlədən Azərbaycanda məcburi ehtiyat normaları nisbətən yüksəkdir. (Mərkəzi Bank 2009-cu ildə likvidliyi yüksəltmək üçün məcburi ehtiyat normasını öncə 3%-ə, sonra 0,3-ə qədər azaldıb). Məsələn, Rusiyada əhalinin əmanətləri üçün normalar 7%, başqa cəlb olunan vəsaitlər üçün 10% təşkil edir. Ukraynada tələb olunan əmanətlər üzrə 6%, depozitlər üzrə 7%-li normalar tətbiq olunur. Ancaq bu ölkələrdə pul-kredit siyasətinin daha effektiv həyata keçirildiyini, bank sisteminin AB ilə müqayisədə daha stabil olduğunu iddia etmək olmaz. İnkişaf etmiş ölkələrdə məsələnin bu tərəfi - effektiv pul-kredit siyasətinin monetar stabilliyin

yalnız məcburi ehtiyat normalarından asılı olmaması, yüksək dərəcəli normaların yığım, investisiya və iqtisadi inkişaf səviyyəsinə maneçiliyi dərk olunub və buna görə də ABŞ-da normaların yüksək səviyyəsi 12%-dən 10%-ədək azaldılıb. Ötən əsrin 80-ci illərində orta 6%-li dərəcələr tətbiq edən Almaniya isə bu gün AB-nin üzvü kimi 2%-li dərəcə ilə kifayətlənir.

İnkişaf etmiş ölkələrdə tətbiq edilən məcburi ehtiyat normaları təkcə dərəcələrin aşağı olması ilə seçilmir. Bu normaların tətbiqi xüsusiyyətlərindən biri də dərəcələrin differensiasiyasıdır. Dərəcələrin differensiasiya olunması həm müxtəlif növ passiv əməliyyatlar, həm də əmanət məbləğlərinin həcminə görə aparılır. Müxtəlif ölkələrdə depozit növlərinə görə məcburi ehtiyat normalarının dərəcələri differensiasiya edilir. Məsələn, Almaniyada depozit sertifikatları üzrə normalar tətbiq edilmədiyini nümunə göstərir. Bundan başqa, ABŞ-da tələbli əmanətlər üzrə 10%-li, müddətli əmanətlər üzrə 3% və ya başqa faiz normalarının tətbiqi praktikası da mövcuddur.

ABŞ-da məcburi ehtiyat normaları həm də proqressiv şkalalar üzrə tətbiq edilir. Kredit təşkilatları əsas depozit növlərinin 7,1 milyon dollara qədər olan məbləğinə görə 0% dərəcə üzrə, növbəti 41,3 milyon dollar məbləğə görə 3% dərəcə üzrə, qalan yüksək məbləğlərə isə 10% dərəcə üzrə məcburi ehtiyat fondu yaratmalıdırlar. Faiz gəlirlərinin aşağı dərəcələrlə vergiyə cəlb edilməsi və ya vergitutma bazasından çıxılması yığım və investisiyaları, ardıcıl olaraq dayanıqlı iqtisadi inkişafı stimullaşdırır, kredit təşkilatlarının effektiv fəaliyyətinə imkan yaradır. Bütövlükdə maliyyə xidmətlərinin ƏDV-yə cəlbi çətin və qeyri-effektiv olsa da, bəzi bank xidmətləri üzrə ƏDV tətbiqi mümkündür və gərəklidir.

17.2.Kredit təşkilatlarının fəaliyyətinin effektivliyinin müəyyən edilməsi

Dövlətin vergi sistemi və vergi siyasəti bazarın bütün subyektlərinin iqtisadi maraqlarına toxunur. Bank xidmətləri bazarı burada əsas seqmentlərdən biridir və bazar iqtisadiyyatını banklarsız təsəvvür etmək mümkün deyil. Bank xidmətləri bazarının idarə olunması, o cümlədən onun vergilər vasitəsilə tənzimlənməsi iqtisadi tarazlıq və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir.

Müxtəlif keynsçi və neokeynsçi baxışlarda iddia olunur ki, aktiv fiskal və ya monetar siyasətlə məcmu tələbin həcminə təsir etmək, məsələn, vergilərin yüksəldilməsi ilə dövlət xərclərini artırmaq və multiplikasiya effektinin təsiri ilə təklifə-istehsala müsbət təsir etmək olur. Yaxud faiz dərəcələrinin azalması məcmu tələbin başqa bir komponentinin - investisiyaların artımına və ardıcıl olaraq istehsalın artımına səbəb olur. Doğrudan da, monetar müdaxilə investisiya tələbinin artımına, fiskal müdaxilə isə investisiya səviyyəsinin azalmasına «yardım» göstərir. İlk baxışdan elə görünə bilər ki, fiskal və monetar siyasət arasındakı bu əlaqələrin birbaşa bank əməliyyatlarından vergitutmaya bağlılığı yoxdur. Belə ki, vergi təkcə banklardan deyil, hər bir təsərrüfat subyektindən tutulur. İkincisi, monetar siyasətin reallaşmasında banklar həlledici rol oynasalar da, bu siyasətin hazırlanmasında banklar bilavasitə iştirak etmir. Lakin banklar bu prosesin fəal oyunçularıdır. Çünki bütövlükdə vergitutmadakı dəyişmələr və ya yüksəlmələr investisiya imkanlarını azaldır və yığılan vəsaitlərin dövlət tərəfindən necə istifadə olunacağı, fiskal siyasətin hansı model üzrə gerçəkləşəcəyi, nə qədər effektiv nəticə verəcəyi heç də öncədən dəqiq bəlli olmur.

Qeyd etmək gərəkdir ki, bank əməliyyatları ilə kredit təşkilatlarının vergiyə cəlb edilməsi məsələlərini eyni hesab etmək yanlışdır. Belə ki, hər bir kredit təşkilatı bir müəssisə kimi mənfəət, ƏDV, əmlak, torpaq və s. vergilər ödəyir. Bank əməliyyatları üzrə isə birbaşa əmlak və ya torpaq vergisinə deyil, faiz gəlirlərindən vergi tutulur. Nəzərə almalıyıq ki, bank əməliyyatları dəqiq təşkilati-hüquqi formaya malik kredit təşkilatları tərəfindən aparılır. Yəni kredit təşkilatının fəaliyyəti olmadan bank əməliyyatları da mövcud olmazdı. Onu da nəzərə almaq lazımdır ki, bank əməliyyatlarından vergitutma, xüsusən də onun yüksəlməsi investisiya fəallığına neqativ təsir göstərir. Bu, həm passiv əməliyyatların - depozit qoyuluşlarının azalmasına, həm də passiv əməliyyatlar - kredit qoyuluşları üzrə resursların nisbi məhdudlaşmasına və kreditlərin əlavə bahalaşmasına gətirir. Nəticə bəllidir - bütövlükdə vergitutma dəyişmələri depozitə yönələcək sərbəst vəsaitlərin həcmini, ayrılıqda faiz gəlirlərinin vergiyə cəlb olunmasındakı yüksəlmələr isə azalan sərbəst vəsaitlərin depozitə yönələn hissəsinin nisbi azalmasına gətirib çıxarır.

Məhz buna görə də, postsosializm mərhələsini yaşayan ölkələrdə fiskal siyasətlə monetar siyasətin optimal balansını tapmaq asan olmur. Qiymətli kağızlar bazarının zəif inkişaf etməsi reallığında pul bazarın-

dakı bahalığın qarşısını almaq, fiskal siyasətin neqativ nəticələrini minimallaşdırmaq problem bir məsələyə çevrilir. Dövlət qiymətli kağızlar bazarının zəifliyi belə bir çevikliyə imkan yaratmır və bəllidir ki, mərkəzləşmiş kredit ayırmaları alətlərindən istifadə imkanları da məhdud olur. Təsadüfi deyil ki, 2012-ci ildə ölkədə kredit qoyuluşları ÜDM-in cəmi 13,3%-ni təşkil etmişdir və Azərbaycan inkişaf etmiş ölkələrin müvafiq göstəricisindən ən azı on dəfə geri qalır.

Aydındır ki, belə bir mühitdə effektiv monetar siyasət, mərkəzləşmiş uçot dərəcələrinin artırılıb-azaldılması yolu ilə də gerçəkləşmir və bankların maliyyə resurslarının artırılması üçün uçot dərəcələri çox da əhəmiyyətli rol oynamır. Bu cəhətlər nəzərə alınsa, bank əməliyyatlarının vergiyə cəlb edilməsi sistemi həm də monetar siyasətin tərkib elementi kimi çıxış edə bilər.

Onu da qeyd etmək lazımdır ki, bank əməliyyatlarının nisbi yüksək dərəcələrlə vergiyə cəlb edilməsi məcmu tələbin effektiv strukturunun - uzunmüddətli iqtisadi inkişafa və ya investisiyaların artımına yönələn strukturunu formalaşdırmağa yardım etmir. Bank əməliyyatlarının vergiyə cəlb edilmə sisteminin başlıca fundamental əsasını bu məqam təşkil edir və bu sistemlərin səmərəliliyi fiskal siyasətlə monetar siyasətin optimal balanslaşdırılması ilə müəyyənləşir.

Əhalinin bank depoziti xidmətlərinə tələbatı iki amildən - depozitlər üzrə faizdən və risk qiymətləndirmələrindən asılı olur. Aydındır ki, faiz dərəcələrinin yüksəkliyi bu xidmətlərdən istifadəyə stimulu yüksəldir və eyni zamanda yüksək gəlirlər yüksək risklərlə müşayiət olunur. Vergitutma nəticəsində eyni depozit faizi dərəcəsində depozitə tələbat əmsalı azalır. Əlbəttə, vergitutma təkcə passiv bank əməliyyatlarına təsir göstərmir və bank əməliyyatlarında vergitutmanın səmərəliliyini həm də - aktiv əməliyyatlar üzrə bir sıra vacib məqamlar da müəyyən edir.

Vergitutmanın kredit təşkilatlarının fəaliyyətinin esəmərəliliyinə təsirini ümumi şəkildə aşağıdakı düsturla ifadə etmək olar:

$$\mathbf{MB=Fk-Fd}$$

Burada: **MB** - bankların mənfəəti; Fk - kreditlər üzrə daxil olan faiz ödənişləri; **Fd** - depozitlərə ödənilən faizlərdir.

Onu da qeyd etmək lazımdır ki, kredit bazası əhali və müəssisələrdən cəlb edilən depozitlər öncə verilmiş kreditlərin və bu kreditlər üzrə faizlər ödənilməsi, müştərilərin cari hesabları və s. daxilolmalar hesabı-

na formalaşır və məcburi ehtiyat norması bu bazanı bir qədər kiçildir. Sadələşdirilmiş formada bu bazanı aşağıdakı kimi ifadə edə bilərik:

KB=də+dm+CHn+CHf+Qm-MEA

Burada, **KB** – kredit bazası;
də – əhalidən depozitlər;
dm – müəssisələrin depozitləri;
CHn – hüquqi şəxslərin cari hesabları;
CHf – fiziki şəxslərin cari hesabları;
Qm – faiz və əsas borc üzrə qaytarılan məbləğlər;
MEA – məcburi ehtiyatlar üzrə ayırmalardır.

Aydındır ki, kredit bazasının həcmi ayrı-ayrı komponentlərin miqdarından asılı olur və bu miqdar isə müxtəlif amillərin, o cümlədən vergitutmanın təsiri ilə müəyyənləşir. Müəssisələrin bank depozitinə tələbatının əhalinin tələbatına uyğun olduğunu iddia etsək, bu tələbatın həcmi

Ydm=k·Xm

– düsturu ilə müəyyənləşdirə bilərik. Burada, **k** – xalis mənfəətin (Xm-in) depozitə yönələn hissəsini ifadə edən əmsaldır. Başqa sözlə, komponentlərin – cari hesablardakı vəsaitin müəssisələrin satış həcmi və əhalinin gəlirlərindən asılı olduğunu, yəni:

CHm=SH·L və CHə=Ən·L

– kimi ifadə etməyin mümkünlüyünü də iddia etmək olar. Aydındır ki, cari hesablar komponentinə bank əməliyyatları üzrə vergitutma təsir etmir və kredit bazasının həcminə vergitutma amili yalnız depozitlər üzrə faizlərin vergiyə cəlb olunması ilə təsir edir. Yəni, vergitutma depozitin cəlbediciliyini azaldır, baza kiçilir, resurslar məhdudlaşır və kreditlərin qiyməti yüksəlir. Bazanın genişlənməsi üçün öncə, depozit faizlərini yüksəltmək lazım gəlir və ardıcıl olaraq risklər də, kredit faizləri də yüksəlir.

Beləliklə, vergitutma kredit əməliyyatlarına tələbata birbaşa təsir etmir və bu təsir mümkün də deyil. Çünki faiz ödənişləri və əsas borc adətən, müəssisənin mənfəət vergisi bazasından çıxılır. Vergitutmanın bu tələbata təsirini və onlar arasında əlaqələri vergi ® depozit faizi ® kredit faizi kimi təsvir edə bilərik. Bu xətti asılı olmayan əlaqələrin çox

müxtəsər təhlilindən bir mühüm cəhət də bəlli olur ki, iqtisadi inkişafın, məcmu tələbin optimal strukturunun təmin olunmasında bank əməliyyatlarından vergitutmanın rolu böyükdür və bu əməliyyatlara yüksək yaxud yüksələn vergilərin tətbiqi pul-kredit mexanizminin potensialından istifadə imkanlarını məhdudlaşdırır.

Bank əməliyyatlarından vergitutmanın nəzəri məsələləri təkcə araşdırılan bu fundamental cəhətlə məhdudlaşmır. Kredit təşkilatlarının fəaliyyətlərinin spesifikliyi bank əməliyyatları üzrə vergitutmada fərqli metodoloji xüsusiyyətləri də şərtləndirir. Bu baxımqan, qeyd edilməsi gərək olan məsələlərdən biri kredit təşkilatlarının özünəməxsus impliçit verginin təsirinə məruz qalmasıdır. Azərbaycan qanunvericiliyi də başqa ölkələrdəki kimi, banklarda məcburi ehtiyatların yaradılmasını tələb edir. Yəni, bank depozitlərinin və digər passivlərin müəyyən hissəsi – 10-15% və ya başqa faizi Mərkəzi banklardakı müxbir hesablarda, həmçinin nağd şəkildə bank kassalarında saxlanır. Məlumdur ki, məcburi ehtiyat mexanizmi həm özünəməxsus sığorta funksiyasını, həm də makroiqtisadi tənzimləmə funksiyasını yerinə yetirir. Eyni zamanda, bu ehtiyatların yaradılması kredit bazasının kiçilməsinə, bankın maliyyə göstəricilərinin müəyyən qədər pisləşməsinə də səbəb olur. Ancaq bu inpliçit – «gizli» vergitutmanın effekti sadəcə bu cəhətlə məhdudlaşmır. Məcburi ehtiyat normaları, daha doğrusu, bu normaların səviyyəsi maliyyə xidmətləri üzrə ölkələrarası rəqabətdə də mühüm rol oynayır.

Məsələn, A və B ölkələrində məcburi ehtiyat normaları müvafiq olaraq 10 və 5 % olsa, eyni depozit məbləği – X həcmində A ölkəsindəki bankın resursu (X-0,1X), B ölkəsindəki bankın resursu isə (X-0,05X) təşkil edəcək. Deməli, B ölkəsindəki bank izafi resursdan - 0,05X vəsaitdən istifadə etmək imkanına - depozit faizlərini qismən yüksəltmək, kredit faizlərini qismən azaltmaq, əlavə cari və perspektiv gəlirlər əldə etmək imkanına malikdir. Məcburi ehtiyat normalarının ölkələrarası fərqi həm də arbitraj əməliyyatlarına mühüm bir əsas yaradır. Belə ki, yüksək depozit faizinə görə A ölkəsinin X depoziti B ölkəsində yerləşdirilir. Eyni zamanda B ölkəsindəki bankdan X məbləğ ucuz kredit götürülür. Deməli, həm də B ölkəsi A-nın resursları hesabına öz maliyyə sektorunda əlavə sərvət – əlavə dəyər yaradır. Buradan, belə bir nəticəyə gəlmək olar ki, məcburi ehtiyat normalarının müəyyənləşməsi zamanı bank sektorundakı qlobal rəqabəti nəzərə almaq gərəkdir. Eyni bir nəticə - depozit faizlərinin vergiyə cəlb olunmasına münasibətdə də yanlış deyil.

Bank əməliyyatlarının vergiyə cəlb olunmasındakı spesifik xüsusiyyətlərdən biri də ƏDV ilə bağlıdır. Bəllidir ki, maliyyə xidimətləri, o cümlədən əksər əsas bank əməliyyatları ƏDV-dən azad olunurlar və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.2 maddəsi də maliyyə xidmətlərini ƏDV-dən azad edir. Lakin maliyyə xidmətlərinin ƏDV-dən azad olunması əsası sosial və ya ictimai maraqların daha dolğun qorunmasına bağlı deyil. Məsələ sırf texniki səbəblərdən irəli gəlir, belə ki, maliyyə xidmətlərinə görə mükafat impliçit formada aşkara çıxa, daha doğrusu, marjada - bir neçə monetar axından sonra yaranan fərqdə gizlədilə bilər. Bu halda, mükafatın – ƏDV-nin tətbiqi üçün bazanın ölçülməsinin asan yolu mövcud olmur. Buna görə də, bankların faiz gəlirləri kapitalın dəyərini, inflyasiya səviyyəsini, vasitəçilik xərcinin birləşməsini nəzərə almaqla müəyyənləşir və bu baxımdan, belə gəlirlərin ümumi ƏDV sisteminə daxil edilməsi çətindir.

Bir çox maliyyə xidmətlərinin ƏDV-dən azad olunmasının kompensasiya mexanizmi kimi bəzi ölkələrdə, məsələn, Fransada maliyyə institutları işçilərinin əmək haqqına əlavə vergi, bəzi ölkələrdə - Latın Amerikası regionunun bir sıra dövlətlərində debet əməliyyatlarına vergi tətbiq edilir. Yəni bank hesablarından vəsaitlər silinəndə, nağd vəsait götürüləndə, kreditlər üzrə faizlər ödəniləndə, bu vəsaitlərin 0,2-2,0%-i miqdarında vergi tutulur. Belə özünəməxsus «ƏDV»-nin aşağı dərəcələri büdcə gəlirlərinin əldə olunması üçün effektiv bir yoldur. Ancaq yüksək dərəcələrdə vergi bazasının müxtəlif üsullarla kiçildilməsi, maliyyə resurslarından istifadənin təhrifinə yol açır.

Bank əməliyyatlarının vergiyə cəlb olunmasının spesifik metodoloji xüsusiyyətlərindən biri də faiz gəlirlərindən vergitutma üsullarıdır. Müxtəlif ölkələrin vergi sisteminin araşdırılmasından aydın olur ki, faiz gəlirlərinin vergiyə cəlb olunmasında: a) gəlir vergisinin kompleks sistemlərinin tətbiqi; b) gəlir vergisinin ikili sistemi; c) səhmdar kapitalına vergi güzəştləri yanaşmaları mövcuddur.

Kompleks sistem (Comprchensive income tax sistem) faiz gəlirlərinin ümumi gəlir bazasına daxil edilməsini və vaxud bazadan vergi tutulmasını nəzərdə tutur. İkili sistem (DİT - dual income tax) və ya DİT faiz gəlirlərindən ayrıca vergi tutulmasını müəyyən edir.

Kompleks sistem və ya klassik sistem faiz gəlirlərini - depozitlər üzrə gəliri, kreditlər üzrə gəliri, səhmlər üzrə dividendi və s.-ni vahid gəlir vergisi şkalası üzrə vergitutmaya cəlb etməklə, investisiya fəallığına

müəyyən təsir göstərir. Depozit üzrə faizin 10%-li dərəcə ilə deyil, vahid baza daxilində 15-20 və 30%-li dərəcə ilə vergiyə cəlb olunması, əlbəttə ki, depozit qoyuluşlarına stimulu nisbətən zəiflədir. Bu baxımdan, DİT yanaşmasını kifayət qədər effektiv hesab etmək olar.

Ancaq eyni zamanda qeyd olunmalıdır ki, DİT sistemi vergitutmanın vertikal və horizontal - yaxud üfiqi və şaquli bərabərlik prinsiplərini pozur. Bəllidir ki, daha təminatlı fərdlər depozitə, səhmə və s.-yə vəsait yatıra bilirlər və varlıların gəlirlərinin aşağı dərəcə ilə vergiyə cəlb edilməsi – məsələn, depozit üzrə faizlərdən ildə 100 min manat gəlir əldə edənin 10%-li dərəcə ilə cəmi 10 min manat vergi ödəməsi, doğrudan da, şaquli bərabərliyin pozulması hesab oluna bilər. Çünki depozitə vəsait yatırmaq imkanı olmayan və ildə cəmi 20 min manat gəlir - əmək haqqı alan fərdsə, 20-35%-li dərəcələrlə vergiyə cəlb olunur.

Beləliklə, vergitutmanın ədalətliliyi pozulur, ancaq bu cəhət hələ DİT-in yararsızlığını təsdiq etmir və vergitutmanın ədalətlilik – effektivlik balansı başqa bir müstəvidə də həll oluna bilər. Kapitaldan gəlirlərin proqressiv vergitutmaya cəlb olunmamasında yaranan neqativ effektlər əmlak vergisindən, aksizlərdən effektiv istifadə ilə minimallaşdırıla bilər. Yəni, varlı sərbəst vəsaitlərini depozit, səhm alqısına və s.-yə yönəldib, yüksək gəlir əldə edəndə, vergi «cəzasına» məruz qalması əvəzinə bahalı əmlak əldə edəndə, vergi «cəzası» çəkməlidir və bu yanaşma həm ədalətliliyi, həm də effektivliyi təmin edir.

Korporativ kapitala vergi güzəşti və ya ACE sistemi kapitalın bazar faizi normasına uyğun həcmdə vəsaiti mənfəət vergisi bazasından çıxmağa imkan verir. Xarici ölkələrin vergi qanunvericiliyinə görə, korporasiyalar həm xalis mənfəətdən vergi, həm də səhmdarlar dividend ödənişlərindən vergi ödəyirlər. Bundan başqa, kapitalın artımına, məsələn, bir il öncə biri 100 dollara qiymətləndirilən səhmin bu il 120 dollara qiymətləndirilməsindən yaranan artıma da vergi ödənilir. ACE sistemi kapital artımına faizlərin, bölünmüş mənfəətin (dividendlərin) vergiyə cəlb edilməsi zamanı bazar norması səviyyəsində güzəşt nəzərdə tutur. Yəni bazarda orta gəlirlilik norması 10% olubsa, faiz gəliri 15%-dirsə, vergi 5%-lik fərqə tətbiq edilir.

Əlbəttə ki, bu sistemi tam təkmil hesab etmək mümkün deyil, bazar norması kimi nisbətən yayğın meyar əsasında verilən güzəştlər vergitutmanın kifayət gədər təhrif olunmuş nəticələrinə səbəb ola bilər. Bu və başqa cəhətlərə görə ACE sisteminin dünya ölkələrində praktik tət-

biqi faktik olaraq hələlik reallaşmayıb. Bu gün banklar, bir qayda olaraq, korporativ formada təşkil olunduğundan, bank əməliyyatları zamanı faiz gəlirləri ödənilir və bu baxımdan, ACE sisteminin bank əməliyyatlarının vergiyə cəlb edilməsinin metodoloji əsaslarından biri kimi qəbul edilməsini məqsədəuyğun saymaq olar.

17.3. Azərbaycan Respublikasında bank əməliyyatlarından vergitutmanın xüsusiyyətləri

Bütün dünyada bankların rolu iqtisadiyyatın inkişafında çox böyük rol oynayır. Banklar həmçinin iqtisadi fəaliyyətdə də stimullaşdırıcı təsirə malikdir. Digər tərəfdən bank fəaliyyətinin vergiyə cəlb olunması amili vergi daxilolmalarında böyük əhəmiyyət kəsb etdiyindən, büdcənin formalaşmasında bankların rolu danılmazdır. Banklar ölkənin iqtisadi inkişafında təkanverici rol oynayır. Son illərdə ölkəmizdə büdcə daxilolmalarında bankların rolu artmaqdadır. Qeyd edək ki, vergi orqanları ilə qarşılıqlı münasibətdə banklar üç mövqedən çıxış edirlər: birinci, müstəqil vergi ödəyicisi kimi; ikinci, dövlət və vergi ödəyicisi arasında vasitəçi kimi. Burada vergi ödəyiciləri tərəfindən vergilərin dövlət büdcəsinə banklar vasitəsilə ödənilməsi və ya banklar tərəfindən vergi ödəyicisi haqda vergi orqanının tələb etdiyi məlumatların verilməsi prosesi nəzərdə tutulur. Və nəhayət, sonuncu vergi agenti kimi (ödəmə mənbəyində vergilərin hesablanıb dövlət büdcəsinə köçürülməsi və s.).

Göründüyü kimi, Banklarla vergi orqanları arasında qarşılıqlı əlaqələr vergi sistemində özünə məxsus yer tutur. Bu münasibətlərin özünə məxsusluğu həm də ondadır ki, qarşılıqlı münasibətlər nəinki bankların, həm də onların müştərilərinin-vergi ödəyicilərinin maraqlarına toxunur.

Banklar və digər kredit təşkilatları büdcəyə ödənilən vergiləin böyük bir hissəsini verir. Vergi ödəyicilərinin ümumi sayında onların xüsusi çəkisinin çox da böyük olmamasına baxmayaraq onlar iri vergi ödəyiciləri hesab olunurlar. Banklar üçün vergi şərtləri digər vergi ödəyiciləri ilə müqayisədə nə üstün, nə də əlverişsiz olmamalıdır. Onlar üçün vergi qanunvericiliyindən prinsipial əhəmiyyət kəsb edən məsələ bank xidmətlərinin maya dəyərinə və vergitutma bazasına aid olan gəlir və mənfəətin və xərclərin müəyyən olunmasındakı adekvatlıqdır.

Doğrudur, müasir mərhələdə vergi yükünün bankların üzərinə

köçürülməsini tam təsdiq etmək olmaz. Belə ki, Azərbaycan bank sistemində depozit faizləri də, kredit faizləri də kifayət qədər yüksəkdir. Aydındır ki, 2004-cü ildə Fransada depozitlər üçün faizin 2,3%, kreditlər üçün 6,6% təşkil etməsi müvafiq göstəricilərin Almaniyada 2,7% və 9,7%-ə bərabər olması və s. bu kimi göstəricilərlə müqayisədə Azərbaycanın bank əməliyyatları bazarında kifayət qədər bahalıqdır. Hətta Mərkəzi Bankın son dövrdə yürütdüyü siyasət –uçot dərəcələrinin 2%-ə qədər,məcburi ehtiyat normalarının 0,5%-ə qədər azaltması da ciddi dəyişmələrə səbəb olmayıb. Kreditlər üzrə orta faiz dərəcəsi 13,97%-ə bərabərləşib.Yəqin ki, bu bahalığı yaradan əsaslı məsələlər həllini tapsaydı, vergi effekti də öz təsirini göstərə bilərdi.

01 yanvar 2013-cü il tarixinə respublikada 43 bank fəaliyyət göstərir. Onlardan biri dövlət, 35-i kollektiv, 4-ü xarici və 4-ü isə birgə mülkiyyətdə olan banklardır. 2012-ci ildə bank sektorunun aktivlərinin gəlirliliyi (vergi ödənilənədək xalis mənfəətin orta aktivlərə nisbəti kimi hesablanmış - ROA) 0.8%, kapitalın gəlirliliyi (vergi ödənilənədək xalis mənfəətin orta kapitala nisbəti kimi hesablanmış - ROE) 7.1% təşkil etmişdir. Bankların əldə etdikləri mənfəət (vergi ödənilənədək) 169.9 mln. manat olmuş, vergilər ödənildikdən sonra isə xalis mənfəətin həcmi ötən illə müqayisədə 2 dəfə artaraq 130 mln. manat təşkil etmişdir.

Vergi, rüsum və digər dövlət büdcəsinə ödənişlərin ödəniş kartları ilə aparılmasının stimullaşdırılması məqsədilə büdcə ödənişləri üzrə aşağı xidmət haqqı tarifi müəyyən edilmiş və “Visa Inc.” və “MasterCard Worldwide” beynəlxalq kart təşkilatları və onların prinsipal üzvü olan banklarla razılaşdırılaraq tətbiqinə başlanılmışdır.

“Banklar haqqında” Qanunun 32-ci maddəsinə əsasən, banklar Milli Bankdan aldığı bank lisenziyasında qadağan edilməyibsə, aşağıdakı bank əməliyyatlarını və bank sövdələşmələrini həyata keçirə bilərlər. Hüquqi nöqteyi-nəzərdən bank əməliyyatları və bank sövdələşmələri ayrılıqda nəzərdən keçirilməlidir. Çünki vergitutma bazasının formalaşması baxımından bu iki proses arasında xeyli fərq var. Beləliklə, bank əməliyyatlarına - tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi, kreditlərin (təminatlı və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri, fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesblarının yazılması və aparılması, klirinq,

hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin (o cümlədən kredit və debet kartları, yol çekləri və bank köçürmə vekselləri) buraxılması və qanunla qadağan olunmayan digər xidmətlər aiddir.

Bank sövdələşmələrinə isə - öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin (o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin və depozit sertifikatlarının), xarici valyutanın, qiymətli metalların və daşqaşların, valyuta və faiz vəsaitlərinin,səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların və valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və ya faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması, qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi,öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi, öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması; qiymətli kağızlar bazarında peşəkar fəaliyyət; maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi; kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi; sənədləri və qiymətliləri,o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq); qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi, lizinq, və s. xidmətlər aiddir.

Ümumiyyətlə, mikroiqtisadi səviyyədə hər bir müəssisə özünün təsərrüfat fəaliyyəti zamanı bank xidmətlərindən istifadə edir. Bununla belə, bank xidmətlərinin müxtəlifliyi təcrübədə çoxsaylı problemlərin yaranmasına gətirib çıxarır ki, bunlar da əsasən mühasibat uçotunun dürüst aparılması və belə xidmətlərin vergiyə cəlb edilməsi incəlikləri ilə bağlı olur. Vergi münasibətləri çərçivəsində banklar və digər kredit təşkilatları iki məzmunda həm vergitutma subyekti (vergi ödəyicisi), həm də vergi nəzarətini həyata keçirən agent kimi çıxış edir.

Ilk növbədə, biz bankların vergi ödəyicisi kimi vergi münasibətlərində iştirakına nəzər salaq. Məlum olduğu kimi, «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa əsasən bank təşkilatlarının həyata keçirə biləcəyi fəaliyyət növlərinin sayı məhdudlaşdırılmışdır. Ona görə də Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları həyata keçirə biləcəkləri fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq Vergi Məcəlləsində nəzər-

də tutulan 9 növ vergidən, yalnız 4 vergi növünün - mənfəət vergisi, əlavə dəyər vergisi, əmlak və torpaq vergilərinin ödəyiciləri ola bilərlər. Banklar ilk öncə mənfəət vergisinin ödəyicisidir. Vergi Məcəlləsinə əsasən mənfəət vergisini rezident və qeyri-rezident hüquqi şəxslər, o cümlədən banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları (Azərbaycan Respublikasının Milli Bankı və onun qurumları istisna olunmaqla) ödəyirlər. Mənfəət vergisi üzrə vergitutma obyekti hüquqi şəxsin hesabat ili ərzində əldə etdiyi mənfəətdən ibarətdir.

Bank və başqa kredit təşkilatları əmlaka – binaya, əsas vəsaitlərə, 2005-ci ilədək mövcud qanunvericiliyə uyğun əmlak vergisi obyekti kimi baxılan avtomobilə malik olduqlarından Vergi Məcəlləsinin XIII fəsli ilə müəyyən edilən əmlak vergisini ödəyirlər. Aydındır ki, banklar Vergi Məcəlləsinin XIV fəslinin tələblərinə də riayət etməli və torpaq vergisi ödəməlidirlər. Maliyyə xidmətlərinin ƏDV-dən azad olmasına baxmayaraq kredit təşkilatları aldıqları bir çox mal və xidmətlərə görə ƏDV də ödəməli olurlar.

Vergi Məcəlləsinin 13.2.14-cü maddəsində maliyyə xidmətlərinin çeşidi əks etdirilir və bildirilir. Bu xidmətlərə aşağıdakılar aiddir:

- kreditlərin, maliyyə lizinqi əməliyyatlarının, kredit təminatlarının və pul-kredit əməliyyatlarında hər hansı girov və ya lombard təminatlarının tərtib edilməsi (yaxud verilməsi) və qaytarılması, o cümlədən kredit və ya təminat təqdim etmiş şəxsin kreditləri və kredit təminatlarının idarə edilməsi;
- depozitlərin və hesabların idarə edilməsi, tədiyyələr, köçürmələr, borc öhdəlikləri və tədiyyə vasitələri ilə bağlı əməliyyatlar;
- valyutanın, pul vəsaiti və əskinasların tədavülü ilə bağlı əməliyyatlar;
- qiymətli kağızların tədavülü ilə bağlı əməliyyatlar;
- törəmə maliyyə vasitələri ilə əlaqəli əməliyyatlar;
- investisiya fondlarının idarə edilməsi ilə bağlı xidmətlər;
- sığorta və təkrar sığorta əməliyyatları.

Rezident bankın və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatının vergi tutulan mənfəəti dedikdə onun qanunvericiliklə müəyyən edilən fəaliyyətindən əldə etdiyi gəliri ilə Vergi Məcəlləsinə əsasən həmin gəlirin əldə edilməsinə çəkilən xərcləri arasındakı fərq nəzərdə tutulur.

Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə

fəaliyyət göstərən qeyri-rezident bank bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin Vergi Məcəlləsinə əsasən həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir. Qeyri-rezident bankın daimi nümayəndəliyi ilə bağlı olmayan ümumi gəliri Vergi Məcəlləsinin 125-ci maddəsində nəzərdə tutulduğu. hallarda ödəmə mənbəyində vergiyə cəlb olunur.

Dövlət büdcəsinə banklar tərəfindən ödənilən vergilər arasında əsas yeri mənfəət, gəlir, ƏDV və əmlak vergiləri tutur. Bank xidmətləri üzrə mənfəət vergisinin vergitutma bazasını müəyyən edərkən ortaya çıxan ciddi problemlərdən biri müştərilərə verilmiş kreditlər üzrə mümkün itkilərin kompensasiyası üçün yaradılmış ehtiyat məbləğləri həcmində vergiyə cəlb olunan gəlirin azaldılması ilə bağlı bankların öz hüquqlarını reallaşdırmasıdır. Məsələ burasındadır ki, Azərbaycandakı banklar bir sıra risklərlə bağlı olan çox mürəkkəb iqtisadi çəraitdə fəaliyyət göstərirlər. Buna görə də kredit risklərinə bağlı olan ehtiyat fondlarının vergitutma bazasının müəyyən olunmasından sonra yaradılması heç bir iqtisadi mahiyyət kəsb etməzdi.

Banklara və kredit təşkilatlarına tətbiq edilən əlavə dəyər vergisi, vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq verilən hesab fakturalara və ya idxalda ƏDV-ninödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdən ibarətdir. Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi (maliyyə xidmətlərindən başqa) və vergi tutulan idxal əlavə dəyər vergisinin vergitutma obyekti sayılır.

Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq vergidən azad edilən malların göndərilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən başqa, müstəqil sahibkarlıq fəaliyyəti və ya hüquqi şəxs yaratmadan birgə sahibkarlıq fəaliyyəti çərçivəsində malların göndərilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi, onlar Vergi Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikasının ərazisində həyata keçirilirsə, vergi tutulan əməliyyatlar sayılır. Vergi Məcəlləsinə əsasən Azərbaycan Respublikasının hüdudlarından kənarda xidmətlər göstərilməsi və ya işlər görülməsi vergi tutulan əməliyyatlara daxil edilmir. Əlavə dəyər vergisi təqdim edilmiş malların (işlərin, xidmətlərin) dəyərindən 18% dərəcə ilə hesablanır.

Mülkiyyətində əmlak vergisinin vergitutma obyektləri olan rezident banklar (Azərbaycan Respublikasının Milli Bankı və onun qurumları istisna olunmaqla) və Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsi ilə fəaliyyət göstərən qeyri-rezident banklar əmlak vergisinin ödəyiciləridirlər.

Bankların və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatlarının əmlak vergisinin vergitutma obyekti dedikdə, onların balansında olan əsas vəsaitlərin orta illik dəyəri (avtonəqliyyat vasitələri çıxılmaqla) və avtonəqliyyat vasitələrinin mühərrikinin həcmi nəzərdə tutulur.

Bundan başqa, Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahəsi olan rezident və qeyri-rezident banklar (Azərbaycan Respublikasının Milli Bankı və onun qurumları istisna olunmaqla) torpaq vergisinin ödəyiciləridir. Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır.

Bank təşkilatları torpaq sahələri barədə özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra vergi orqanında 1 ay ərzində torpaq vergisinin ödəyiciləri kimi uçota dururlar.

Banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatlarına Vergi Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulan vergi güzəştləri tətbiq edilir. Qeyd edək ki, Azərbaycan Respublikasında maliyyə-kredit siyasətini həyata keçirən Azərbaycan Respublikasının Milli Bankı və onun qurumları Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən mənfəət, əmlak və torpaq vergilərini ödəməkdən azaddırlar. Azərbaycan Respublikasının Milli Bankının qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi əlavə dəyər vergisindən azaddır. Vergi Məcəlləsinə əsasən bank təşkilatlarının göstərdikləri maliyyə xidmətləri, milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi əlavə dəyər vergisindən azad edilir. Maliyyə xidməti dedikdə, Vergi Məcəlləsinə əsasən vergitutma məqsədləri üçün aşağıdakılar nəzərdə tutulur:

- kreditlərin, maliyyə lizinqi üzrə kreditlərin, kredit təminatlarının və pul-kredit əməliyyatlarında hər hansı girov və ya lombard təminatının təqdim edilməsi (yaxud verilməsi) və qaytarılması, o

cümlədən krediti və ya təminatı təqdim etmiş şəxsin kreditləri və kredit təminatlarını idarə etməsi;
- müştərilərin depozitlərinin və hesablarının idarə edilməsi, tədiyələr, köçürmələr, borc öhdəlikləri və tədiyə vasitələri ilə bağlı əməliyyatlar;
- qanuni tədiyə vasitələri olan valyutanın, pul vəsaitlərinin və əskinasların (numizmatika əşyalarından başqa) tədavülü ilə bağlı əməliyyatlar;
- səhmlərin, istiqraz vərəqələrinin, sertifikatların, veksellərin, çeklərin və digər qiymətli kağızların tədavülü ilə bağlı əməliyyatlar. İnkassasiya xidmətləri və ya banknotların, qiymətli kağızların və ya digər qiymətlilərin saxlanması və ya onların qorunmasının təmin edilməsi üzrə xidmətlər maliyyə xidmətlərinə aid deyildir;
- törəmə maliyyə vasitələri ilə əqdlərə, forvard müqavilələrinə, opsionlara və analoji sazişlərə aid əməliyyatlar;
- investisiya fondlarının idarə edilməsi ilə bağlı xidmətlər və s.

Qızıl və digər qiymətlilərin Azərbaycan Respublikasının Milli Bankına göndərilməsi «0» dərəcə ilə əlavə dəyər vergisinə cəlb olunur.

Həmçinin Banklar və bank fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları fəaliyyətinin xüsusiyyətləri nəzərə alınaraq Vergi Məcəlləsi ilə banklara qanunvericiliyə müvafiq qaydada aktivlərin təsnifatından asılı olaraq xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada gəlirdən çıxmaq hüququ verilir.

Bundan başqa yuxarıda qeyd olunan xüsusi güzəştlərdən əlavə, banklar və bank fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları sahibkarlığın və investisiya fəaliyyətinin inkişaf etdirilməsi üçün nəzərdə tutulmuş digər güzəştlərdən də Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada istifadə etmək hüququna malikdirlər.

Vergi Məcəlləsinin 110-112-ci maddələri kredit riskləri ilə bağlı bankların davranışlarını müəyyən edir. Belə ki, banklar və bank fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları aktivlərin təsnifatından asılı olara xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğləri AR Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada gəlirdən çıxmaq hüququna malikdirlər. Əgər bank müştəri xidmətlərinin göstərilməsi ilə əlaqədar əldə etdiyi gəliri əvvəllər əldə etdiyi ümumi gəlirə daxil

edilibsə, onda vergi ödəyicisi olan həmin kredit təşkilatı onlarla bağlı olan ümidsiz borc məbləğini gəlirdən çıxmaq hüququna malikdir. Bu zaman gəlirdən çıxmalar vergi ödəyicisinin mühasibat kitablarında ümidsiz borc məbləğinin dəyəri olmayan borc kimi silindiyi vaxt yol verilir.

Bundan başqa, xaricdən alınmış borclar üzrə, habelə qarşılıqlı surətdə asılı olan şəxslərin bir-birinə ödədikləri faizlərin faktiki məbləği (hesablamalar metodundan istifadə edildikdə ödənilməli faizlərin məbləği) faizlərin aid olduğu dövrdə eyni valyuta ilə, oxşar müddətə verilmiş banklararası kreditlər üzrə faizlərinin orta səviyyəsinin 125 faizdən artıq olmamaqla gəlirdən çıxılır.

Sığorta fəaliyyəti ilə məşğul olan kredit təşkilatı qanunvericiliklə müəyyən edilmiş normalara uyğun olaraq, ehtiyat siğorta fondlarına ayırma məbləğlərini gəlirdən çıxmaq hüququna malikdir. Burada xüsusilə qeyd etmək lazımdır ki, “Banklar haqqında”Qanunun 33-cü maddəsinə əsasən, heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yaraqların işlənilməsi, tikinti və siğorta fəaliyyəti ilə məşğul ola bilməz. Banklar yalnız Milli Bankın müəyyən müddətə verdiyi xüsusi icazə ilə siğorta təşkilatında payçı kimi iştirak edə bilərlər.

VM-in 123-cü maddəsində isə qeyd edilir ki, rezident banklarına, maliyyə lizinqini həyata keçirən qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə kreditlər (ssudalar) və depozitlər (hesablar) üzrə ödənilən faizlər istisna olmaqla (bu faizlər VM-in 101.2-ci maddəsinə uyğun vergiyə cəlb edilir), rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir bu məcəllənin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilibsə, ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

Əlavə dəyər vergisinə gəldikdə isə bankın göstərdiyi xidmətlərin əksəriyyəti maliyyə əməliyyatlarına aid olduğu üçün VM-in 164.1.2-ci maddəsinə əsasən bu vergidən azaddır. Lakin Məcəllənin 13.2.14.4-cü maddəsində deyildiyi kimi, bankın göstərdiyi inkassasiya xidmətləri və ya banknotların, qiymətli kağızların və ya digər qiymətlilərin saxlanması və ya onların qorunmasının təmin edilməsi üzrə xidmətlər maliyyə xidmətlərinə aid olmadığı üçün ƏDV üzrə vergitutma obyekti hesab olunur.

Banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən

kredit təşkilatlarına vergi güzəştləri tətbiq edilir. Milli Bank və onun qurumları Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən mənfəət, əmlak və torpaq vergilərini ödəməkdən azaddırlar. Qızıl və digər qiymətlilərin Azərbaycan Respublikasının Milli Bankına göndərilməsi "0" dərəcə ilə əlavə dəyər vergisinə cəlb olunur. Bundan başqa onların fəaliyyət xüsusiyyətlərini nəzərə alaraq Vergi Məcəlləsi ilə banklara qanunvericiliyə müvafiq qaydada aktivlərin təsnifatından asılı olaraq xüsusi ehtiyat fondlarının yaradılmasına aid edilən məbləğlərin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada gəlirdən çıxmaq hüququ verilir.

Ölkədə bank sektorunun fəailiyyətini sağlamlaşdırmaq üçün hökumət demək olar, bütün vasitələrdən istifadə edir. Azərbaycan Mərkəzi Bankının (AMB) banklara istehlak kreditlərini məhdudlaşdırmaq barədə verdiyi tövsiyə ilə yanaşı, Prezidentin "Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərin gəlir vergisindən azad edilməsi haqqında" 27 dekabr tarixdə imzaladığı Azərbaycan Respublikası Qanunu da bu vasitələrdəndir. Qanuna əsasən, banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faiz məbləğləri 2014-cü il yanvarın 1-dən 1 il müddətinə gəlir vergisindən azad edilir.

Hazırda əhalinin banklarda 6 milyard manatdan çox əmanətinin olduğunu və il ərzində 600 milyon manat gəlir götürüldüyünü nəzərə alsaq, təkcə fiziki şəxslərin əmanətləri üzrə ödənilən fazilərin gəlir vergisindən azad edilməsi 50-60 milyon manat vəsait əhalidə qalacaq. Doğrudur, bu, ilk dəfə deyil həyata keçirilir. Banklar ilə digər kredit təşkilatlarının əhaliyə ödədiyi əmanətlər üzrə faiz dərəcələrinə tədbiq edilən 10 %-lik vergi ilk dəfə 1999-cu ildə ləğv edilmişdir. O vaxtdan bəri, hər ilin əvvəlində Prezident tərəfindən müvafiq sənəd imzalanmaqla, banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər üzrə gəlir vergisi ləğv olunur. Nəticədə, milyonlarla manat vəsait dövlət büdcəsinə cəlb edilmədən əhaliyə verilmək üçün banklarda qalır.

Vergi Məcəlləsinə əsasən hesablanmış və ya yenidən hesablanmış vergilər və faizlər vergi ödəyicisi tərəfindən bildirişdə göstərilən müddətdə ödənilmədiyi halda vergi orqanı vergi ödəyicisinin hesablaşma, valyuta və digər hesablarından vergilər üzrə borcların və faizlərin dövlət büdcəsinə alınması üçün banka və ya digər kredit təşkilatına icra sənədi olan sərəncam verir. Vergi ödəyicisinin hesablaşma, valyuta və digər

hesablarında vəsait olduqda vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərəncamın daxil olduğu gün icra edilir.

Vergi ödəyicisinin hesablaşma, valyuta və digər hesablarında vəsait olmadıqda və ya vergilər üzrə borcların və faizlərin yerinə yetirilməsinə kifayət etmədikdə vergi orqanının sərəncamı bankda və ya digər kredit təşkilatında saxlanılır və vergi ödəyicisinin hesablarına vəsait daxil olduqca icra edilir.

Sərəncamın bank və ya digər kredit təşkilatına daxil olduğu gündən 90 gün ərzində borc ödənilmədikdə və borca görə Vergi Məcəlləsinə müvafiq olaraq əmlakın siyahıya alınması üçün qərarın verilməsi barədə vergi orqanından banka və ya kredit təşkilatına növbəti 5 bank günü ərzində məlumat daxil olmadıqda sərəncam geri qaytarılır və həmin borca görə sərəncam təkrarən icraya qəbul edilmir.

Əmlakın siyahıya alınması üçün qərarın verilməsi barədə vergi orqanından banka və ya digər kredit təşkilatına məlumat daxil olduqda sərəncam vergi ödəyicisinin həmin borca görə vergi öhdəliyi yerinə yetirilənədək qüvvədə qalır.

Vergi orqanlarının vergilər üzrə borcların və faizlərin dövlət büdcəsinə alınması haqqında sərəncamları bank və digər kredit təşkilatı tərəfindən Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş ödənişlərin növbəliliyi ardıcıllığına uyğun olaraq icra edilir.

Vergi qanunvericiliyin pozulması hallarının qarşısının alınması məqsədi ilə banklar qarşısında bir sıra vəzifələr qoyulub. Vergi Məcəlləsinə əsasən banklar aşağıda göstərilənləri yerinə yetirməyə borcludurlar:

1. Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi verildiyini təsdiq edən sənədlər verildikdən sonra hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə hesablaşma hesabları, yaxud digər hesablar açmağa, bank sənədlərində vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilmədikdə hesablar üzrə əməliyyatlar aparmamağa;
2. Hüquqi şəxslərin öz hesablaşma hesablarından vergilərin ödənilməsi haqqında ödəmə tapşırıqlarını icra etməyə;

Vergi qanunvericiliyinin pozulması hallarının qarşısının alınması məqsədilə vergi qanunvericiliyi ilə banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatları qarşısında bir

sıra vəzifələr qoyulub. Belə ki, Vergi Məcəlləsinə əsasən banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları aşağıda göstərilənləri yerinə yetirməyə borcludurlar:

- yalnız vergi orqanları tərəfindən vergi ödəyicisinin eyniləşdirmə nömrəsi verildiyini təsdiq edən sənədlər verildikdən sonra hüquqi şəxslərə və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərə hesablaşma hesabları, yaxud digər hesablar açmağa, bank sənədlərində vergi ödəyicisinin eyniləşdirmə nömrəsi göstərilmədikdə hesablar üzrə əməliyyatlar aparmamağa;
- hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin öz hesablaşma, valyuta və ya digər hesablarından vergilərin ödənilməsi haqqında ödəmə tapşırıqlarını icra etməyə;
- hüquqi şəxslərin və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərin hesablaşma və ya digər hesablarından vəsaitin tutulması üzrə əməliyyatların aparıldığı gün vergi məbləğlərini müvafiq büdcəyə keçirməyə (banka və ya büdcəyə kassa xidməti göstərən digər maliyyə idarəsinə köçürməyə).

Onu da əlavə edək ki, müvəkkil bank vergi orqanı tərəfindən göndərilən bildirişi aldıqdan sonra həmin bildirişdə göstərilən məlumatların vergi orqanına veriləcəyi barədə 5 gün ərzində hüquqi şəxsə və fərdi sahibkara rəsmi məlumat da göndərməlidir.

Məlum olduğu kimi, bank sirrinin qorunması fiziki və hüquqi şəxslərin maliyyə işlərinin konfidensiallığının təmin edilməsində əsas prinsiplərdən biridir. Bu baxımdan bank sirri dedikdə nəyin nəzərdə tutulduğunu aydınlaşdırmaq lazımdır. Bank sirri anlayışının dərin tarixi və mədəni kökləri vardır. Bankların ilk dəfə yarandığı tarixdən bəri belə bir fikir formalaşıb ki, bank sirri zəngin bank sisteminin əsas elementlərindən biridir. Belə ki, bank müştəriləri öz vəsaitlərini və biznes əməliyyatlarını banka etibar edərkən, əmin olmalıdırlar ki, onların bank hesabları haqqında məlumat bank işçiləri tərəfindən kənar üçüncü şəxslərə və təşkilatlara yayılmayacaq.

Aydındır ki, belə məlumatların yayılması, yəni bank tərəfindən müştərilərin məhsullarını və ya xidmətlərini alan şəxslərə və ya onların kre-

ditorlarına bank sirrinin çatdırılması həmin şəxslərin maliyyə vəziyyətinə mənfi təsir göstərə bilər. Burada ümumi prinsip ondan ibarətdir ki, müştərilərin maliyyə işlərinə kiminsə qanunsuz qarışması yol verilməzdir.

Deməli, bank sirrinin qorunması bank sisteminin inkişafı ilə birbaşa bağlıdır və ölkənin bank sisteminin sabit inkişafını təmin edən mühüm amillərdəndir. Lakin, nəzərə almaq lazımdır ki, bank sirrinin açıqlanması dövlət orqanlarına, o cümlədən vergi orqanlarına tam şəkildə qadağan olunsa, bu vergi ödəyicilərinin qeyri-leqal hərəkətlərinə və vergidən yayınmasına imkanlar yaradar. Ona görə, vergi orqanları tərəfindən birbaşa və ya dolayı yolla bank məlumatlarına daxilolma bu məlumatın konfidensiallığının itirilməsi demək deyil.

Vergi orqanlarına vergi ödəyicilərinin bank məlumatlarına daxil olmasını qadağan etmək həm ölkə daxili, həm də beynəlxalq miqyasda mənfi halların yaranmasına səbəb ola bilər:

1. Ölkə daxilində belə vəziyyət vergi orqanları tərəfindən vergilərin tam həcminin müəyyən edilməsinə və yığılmasına birbaşa mane ola bilər.
2. Vergi ödəyiciləri arasında qeyri-bərabərlik yaranır. Belə ki, bəzi vergi ödəyiciləri öz maliyyə və texnoloji resurslarını elə ölkələrdə və ya offşor zonalarda yerləşən maliyyə institutlarında istifadə edirlər ki, onlarda bank məlumatlarının vergi orqanlarına verilməməsi müdafiə olunur. Bu isə belə vergi ödəyicilərinə tam leqal şəkildə vergidən yayınma imkanları yaradır. Həmçinin belə qeyri-bərabərlik vergi yükünün ölkənin bütün vətəndaşları arasında paylanmasını pozur və vergi sisteminin ədalət prinsipi əsasinda qurulmasina xələl gətirir.
3. Vergi məqsədləri üçün bank məlumatlarına sərbəst daxilolmaya qadağa müxtəlif gəlir mənbələrindən vergilərin eyni qaydada tutulmasına çətinliklər yarada bilər.

Sadalananlarla yanaşı, nəzərə almaq lazımdır ki, texnoloji tərəqqi dünyada maliyyə və əsasən bank sistemində çox böyük və ciddi dəyişikliklər edib və bu proses indi də davam etməkdədir. Bununla əlaqədar aşağıdakı məsələlərə diqqət yetirmək lazımdır. Texnoloji irəliləyişlər ayrı-ayrı insanlara internet vasitəsilə bütün dünya miqyasında bank hesabları açmaq, bank və digər maliyyə əməliyyatlarını elektron vasitəsilə aparmaq üzrə geniş imkanlar yaradır. Nəticədə yeni «Sərhədsiz bank-

çılıq» dövrü yaranır və bu həm insanların həyatının keyfiyyətini artırır, həm də ölkələrin vergi orqanlarının qarşısında yeni və çətin vəzifələr qoyur. Hazırda «Müasir elektron bankçılıqdünyasında» qeyri-leqal maliyyə əməliyyatlarının aparılması və vergilərdən yayınma halları vergi ödəyiciləri arasında artmaqdadır. Vergi ödəyicilərinin gəlirləri və əmlakları müxtəlif şəxslər (şirkətlər, xarici banklar) və offşorlarvasitəsilə gizlədilməkdədir.

Göründüyü kimi, vergi orqanlarının öz vəzifələrini lazımi səviyyədə yerinə yetirə bilmələri üçün bank məlumatlarına sərbəst daxilolmaları zəruridir. Bunu bank sirrinin konfidensiallığına xələl gətirən hal kimi qiymətləndirmək isə yanlış addım olardı. Yəni, vergi orqanları tərəfindən əldə edilmiş bank məlumatları kommersiya (vergi) sirri kimi qəbul edilir və yalnız dövlət maraqları baxımından istifadə edilə bilər. Deməli, vergi nəzarətinin həyata keçirilməsi üçün vergi orqanının əldə etdiyi bank məlumatlarının digər şəxslərə verilməsi qanunvericiliklə qadağan olunur. Bu da bank məlumatlarının konfidensiallığının qorunmasının birbaşa qarantı kimi çıxış edir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 130-cu maddəsinə görə «vergi ödəyicisi vergi tutulan gəlirin (mənfəətin) dəqiq əks etdirilməsi üçün … tətbiq edilən uçot metodundan asılı olaraq gəlirlərini və xərclərini onların əldə edildiyi və ya çəkildiyi müvafiq hesabat dövrlərinə aid etməyə borcludur». Məcəllənin 130.4-cü maddəsində isə bildirilir ki, «vergi ödəyicisi … vergilərin uçotunu kassa metodu və ya hesablaşmalar metodu ilə apara bilər».

131-ci maddədə göstərilir ki, kassa metodu ilə uçot zamanı gəlir sərəncama verilən, xərclər çəkilən zaman nəzərə alınmalıdır. 132-133-cü maddələrdə məsələlər bir qədər də dəqiqləşdirilir və göstərilir ki, pul vəsaitinin nağd alındığı və ya ödəyicinin bank hesabına daxil olduğu vaxt gəlirin əldə edilməsi vaxtı sayılır. Xərclərin çəkilməsi vaxtı isə xərcin faktik çəkildiyi vaxt hesab olunur.

Məcəllənin 134-cü maddəsinə görə hesablama metodunun tətbiqində gəlir əldə edilməsinin və xərclər çəkilməsinin faktik vaxtından asılı olmayaraq, gəliri əldə etmək hüququ və xərclərin çəkilməsi öhdəliyi yarandığı vaxt nəzərə alınmalıdır.

Beləliklə, Vergi Məcəlləsi bütün müəssisələrə o cümlədən, kredit təşkilatlarına vergi məqsədləri üçün alternativ uçot variantlarından istifadə üçün imkan yaradır. Əlbəttə, belə həlli, bir tərəfdən, effektiv he-

sab etmək olar. Lakin kassa metodu – gəlirlərin faktik alındığı, xərclərin faktik çəkildiyi vaxtda uçotun aparılmasını nəzərdə tutan metod digər müəssisələr kimi kredit təşkilatının cari maliyyə vəziyyətini daha düzgün əks etdirir. Ancaq cari maliyyə vəziyyətinin düzgün təsviri bütövlükdə maliyyə vəziyyətinin düzgün təsvir olunmasını şərtləndirmir. Məsələn, hər hansı kredit təşkilatı il ərzində 1 milyon manat depozit qəbul edib və 10% dərəcələrlə ilin sonunda depozitlər üzrə faktik 100 min manat ödəyə bilər. Bu təşkilat eyni zamanda 1 milyon manat kredit verə bilər və kredit müqaviləsinə görə əsas borc da, faizlər də vergi hesabatı ilindən daha gec müddətdə qaytarıla bilər. Aydındır ki, kassa metodu prizmasından məsələyə yanaşsaq, kredit təşkilatı tam zərərlə işləyir. Ancaq hesablama metoduna görə təşkilat mənfəət əldə edə bilər.

Şübhəsiz ki, bu halda kredit təşkilatına kassa metodundan istifadə sərfəlidir. Faiz gəlirləri faktik daxil olanda, depozit faizləri ödənilməyəndə isə hesablama metoduna keçid sərfəli olur. Bu baxımdan qanunverici bazanı yetərincə effektiv hesab etmək olar, ancaq vergitutma işinə yalnız korporativ maraqlar çevrəsində yanaşmaq olmaz.

Bankların və kredit təşkilatlarının mənfəət vergisi bazasının müəyyənləşməsinin spesifik xüsusiyyətlərindən və ümumiyyətlə, bank əməliyyatlarının vergiyə cəlb edilməsində əhəmiyyətli məqamlardan biri də faiz məbləğlərinin gəlirdən çıxılması ilə bağlıdır. Qanunvericilik bu məqamda da əsasən düzgün hüquqi həllər tapır. Vergi Məcəlləsinin 110-cu maddəsi, ümumiyyətlə, kreditlər üzrə faizləri mənfəət vergisi bazasından çıxmağa hüquqi əsas yaradır.

Indi isə bankların vergi nəzarətini həyata keçirən agent kimi vergi münasibətlərində oynadığı rola nəzər salaq. Belə ki, VM-in 35, 60, 75, və 76-cı maddələri, əsasən, bankların vergi ödəyicilərinin uçotu ilə bağlı vəzifələrini,banklara və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatlarına tətbiq olunan maliyyə sanksiyalarını, vergi ödəyiciləri ilə münasibətdə bank xidmətlərini həyata keçirən qurumların vəzifələrini və onlar tərəfindən məlumatların vergi orqanlarına verilməsi xüsusiyyətlərini özündə əks etdirir. Vergi ödəyicilərinin uçotuna nəzarətlə bağlı bankların rolu ondan ibarətdir ki, banklar hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə, fərdi sahibkarlara yalnız onlar vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikatı təqdim etdikdən sonra bank hesabları açırlar. Şəhadətnamə-dublikatın bir hissəsi vergi ödəyicisinin hesab açdığı bankda qalır, bildiriş adlanan digər hissə-

sini isə bank idarəsi müvafiq qeydləri apardıqdan sonra onu vermış vergi orqanına göndərir. Şəhadətnamə-dublikatla yalnız onda göstərilmiş bankda (bankın filialında) hesab açmaq olar.

Bu nəzarətin davamı olaraq, VM-in 60-cı maddəsində banklara tətbiq olunan maliyyə sanksiyaları barədə danışılır. Belə ki, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərlə şəhadətnamə-dublikat olmadan hesablaşma hesabı və ya digər hesablar açdığına görə, banklara hər açılmış hesab üçün ş.m.v-nin 400 misli məbləğində (440 AZN) maliyyə sanksiyası tətbiq olunur. Bundan başqa, əgər banklar sahibkarlıq fəaliyyətini həyata keçirən vergi ödəyicilərinin hesablaşma və ya digər hesabından, o cümlədən valyuta hesabından vəsaitləri ödəyicilərin tapşırıqlarına uyğun olaraq silmirsə, yaxud da vergi borclarının, maliyyə sanksiyaları və faizlərin Mülki Məcəllədə göstərilən ardıcıllığa uyğun olaraq silinməsi barədə vergi orqanının sərəncamlarını icra etmirsə, icra edilməmiş həmin ödəmə tapşırıqlarında və ya sərəncamlarda göstərilən məbləğin 20 faizi məbləğində maliyyə sanksiyasına məruz qalır.

Vergi qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulmuş məsuliyyət tədbirləri, bir vergi ödəyicisi kimi, banklara və bank fəaliyyətinin ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatlarına da şamil edilir. Vergilərin hesablanması, ödənilməsi və vergi hesabatlarının təqdimedilməsi ilə bağlı qaydaların pozulmasına görə, Vergi Məcəlləsinə əsasən, banklara qarşı aşağıda göstərilən məsuliyyət tədbirləri həyata keçirilir.

Vergi Məcəlləsinin 5-ci maddəsində vergi ödəyicilərinə münasibətdə bankların davranış xüsusiyyətləri öz əksini tapıb. Belə ki, banklar yalnız vergi orqanları tərəfindən VÖEN verildiyini təsdiq edən sənədlər təqdim olunduqdan sonra hüquqi şəxslərə və sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərə hesablaşma hesabları, yaxud digər hesablar açmağa borcludurlar. Bank sənədlərində VÖEN göstərilmədikdə isə banklar hesablar üzrə heç bir əməliyyat apara bilməz. Bundan başqa, banklar vergi ödəyicilərinin öz hesablaşma, valyuta və ya digər hesablarından vergilərin ödənilməsi haqqında ödəmə tapşırıqlarını vaxtında icra etməyə, həmçinin bu müştərilərin müvafi hesablarından vəsaitin tutulması əməliyyatları aparıldığı gün vergi məbləğlərini müvafiq büdcəyə keçirməyə (banka və ya büdcəyə kassa xidməti göstərən digər maliyyə idarəsinə köçürməyə) borcludur.

Vergi orqanı VM-in 76-cı maddəsində göstərildiyi kimi, vergi ödəyicilərinin vergi öhdəliklərini müəyyənləşdirmək məqsədi ilə müvəkkil

banka yazılı bildiriş göndərməklə, həmin bankın xidmət etdiyi hər hansı hüquqi şəxsin və ya fərdi sahibkarın bank hesabı və əməliyyatları barədə qanunvericiliyə uyğun Vergilər Nazirliyinin təsdiq etdiyi formada bildirişi aldıqdan sonra, həmin bildirişdə göstərilən məlumatları vergi orqanına göndərir. Başqa hallarda hüquqi şəxsin və fərdi sahibkarın hesabları və ya əməliyyatları barədə məlumatların verilməsinə yol verilmir.

«Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli Qanunu ilə Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilmiş və həmin Qanunda 01.01.2013-cü il tarixdən qüvvəyə minmişdir. Qeyd olunan Qanunla Vergi Məcəlləsinin 76-cı maddəsinə də dəyişiklik edilərək yeni redaksiyada verilmişdir. Belə ki, Vergi Məcəlləsinin 76.1-ci maddəsinə əsasən, vergi ödəyicisinin Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada gəlirlərinin və xərclərinin uçotunun aparılmaması, fəaliyyəti dayandırıldığı zaman bank əməliyyatlarının aparılması, mühasibat və hesabat sənədlərinin məhv olunması (itirilməsi) halları aşkar edildikdə, vergi bəyannamələri müəyyən olunmuş müddətdə təqdim edilmədikdə və ya vergi yoxlamasının aparılması zamanı vergi ödəyicisi tərəfindən vergi orqanlarının vəzifəli şəxslərinə sənədlər təqdim edilmədikdə, onlara əraziyə (yaşayış sahəsi istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, habelə Azərbaycan Respublikasının digər dövlətlərlə bağladığı vergi məsələlərinə dair beynəlxalq müqavilələrin məlumat mübadiləsi haqqında müddəalarına əsasən digər dövlətin aidiyyəti orqanları tərəfindən vergi məqsədləri üçün həmin müqavilənin tətbiq edildiyi şəxsin Azərbaycan Respublikasındakı banklarda olan hesabları və həmin hesablar üzrə əməliyyatlar barədə məlumatların alınması üçün sorğu edildikdə, vergi orqanları kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə yazılı bildiriş göndərməklə, həmin bankın xidmət etdiyi vergi ödəyicisinin (şəxsin) bank hesabı və əməliyyatları barədə məlumat almaq hüququna malikdir.

Vergi Məcəlləsinin 76.2-ci maddəsinə əsasən də kredit təşkilatı və ya bank əməliyyatları aparan şəxs Vergilər Nazirliyinin təsdiq etdiyi formada Vergi Məcəlləsinin 76.1-ci maddəsi ilə müəyyən edilmiş qaydada göndərilən bildirişi aldıqdan sonra həmin bildirişdə göstərilən məlumatların vergi orqanına veriləcəyi barədə 5 iş günu müddətində hesab sahibinə rəsmi məlumat göndərməlidir (verməlidir) və 15 gün müddətində tələb olunan məlumatları vergi orqanına təqdim etməlidir.

Eyni zamanda, “Banklar haqqında” Qanunun 41.2-ci maddəsinə əsasən bankın xidmət etdiyi vergi ödəyicisi olan hər hansı hüquqi şəxsin və ya fərdi sahibkarın bank hesabı və əməliyyatları barədə məlumat vergi orqanlarına yalnız Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada verilir.

Göründüyü kimi, Vergi Məcəlləsinin və “Banklar haqqında” Qanunun müddəalarına əsasən hər hansı hüquqi şəxsin və ya fərdi sahibkarın bank hesabı və əməliyyatları barədə məlumat vergi orqanlarına yalnız Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və Vergi Məcəlləsinin 76.2-ci maddəsində göstərilən qaydada verilir. Odur ki, bank əməliyyatları aparan şəxs vergi orqanları tərəfindən göndərilən bildirişi aldıqdan sonra həmin bildirişdə göstərilən məlumatların vergi orqanına veriləcəyi barədə 5 iş günu müddətində hesab sahibinə rəsmi məlumat göndərməlidir (verməlidir) və 15 gün müddətində tələb olunan məlumatları vergi orqanına təqdim etməlidir.

Vergi məqsədləri üçün bank məlumatlarına daxilolma imkanları üzrə beynəlxalq iqlim sürətlə dəyişir. Dünya birliyi təsdiq edir ki, bank məlumatlarına çıxışın təkmilləşdirilməsi həm kriminal, çirkli pulların yuyulması, həm də vergi cinayətlərinə qarşı mübarizədə mühüm əhəmiyyət kəsb edir. Buna baxmayaraq, ölkəmizdə vergi orqanları tərəfindən vergi ödəyicisinin müvəkkil bankından məlumatın alınması hüquqi və fiziki şəxslərin hüquqlarının pozulması kimi qiymətləndirilir. Lakin inkişaf etmiş ğlkələrdə belə bir fikir formalaşmaqdadır ki, dövlət maraqları baxımından bank əməliyyatları haqda məlumatın əldə edilməsi yolverilləndir. Vergi orqanları üzərlərinə düşən gəlirlərin artırılması iləbağlı öhdəliklərini tam şəkildə yerinə yetirə bilməsi üçün bank məlumatlarına birbaşa və dolayı şıxışa malik olmalıdırlar.

Əlbəttə, Azərbaycan Respublikası Vergi Məcəlləsində banklar və ayrı-ayrı bank fəaliyyətlərini həyata keçirən digər təşkilatlar tərəfindən məlumatların verilməsi mexanizmi göstərilib. Həmçinin, Azərbaycan Respublikası Vergi Məcəlləsində qeyd olunur ki, bank hesabı və əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrini bank qarantiyə verir. Bank sirri təşkil edən məlumatlar yalnız müştərilərin özlərinə və ya nümayəndələrinə verilə bilər. Dövlət orqanları və onların vəzifəli şəxslərinə isə bu cür məlumatlar yalnız qanunda nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər.

17.4. Bank məlumatlarının əldə edilməsinin təkmilləşdirilməsi

Bank məlumatının əldə edilməsi mexanizmi nə qədər səmərəli olsa da, onun təkmilləşdirilməsi artıq zəruri hala çevrilib. Buna görə, vergi orqanları tərəfindən bu mexanizmin təkmilləşdirilməsi təklif olunur. Təklif olunan dəyişikliklərə əsasən bank məlumatları yalnız cari qanunun yol verdiyi məhdud vəziyyətlərdə deyil, istənilən əsaslı məqsəd üçün əldə oluna bilər. Bunula yanaşı, bank məlumatları yalnız nəzərdə tutulmuş vergi ödəyicisi ilə deyil, əlaqəli tərəflər üçün də əldə oluna bilər və s.

Vergi məqsədləri üçün bank məlumatlarına daxilolma imkanları üzrə beynəlxalq iqlim sürətlə dəyişir. Dünya birliyi təsdiq edir ki, bank məlumatlarına çıxışın təkmilləşdirilməsi həm kriminal, çirkli pulların yuyulması, həm də vergi cinayətlərinə qarşı mübarizədə mühüm əhəmiyyət kəsb edir.

Bank məlumatının əldə edilməsi mexanizmi nə qədər səmərəli olsa da, onun təkmilləşdirilməsi artıq zəruri hala çevrilib. Buna görə, vergi orqanları tərəfindən bu mexanizmin təkmilləşdirilməsi təklif olunur. Təklif olunan dəyişikliklərə əsasən bank məlumatları yalnız cari qanunun yol verdiyi məhdud vəziyyətlərdə deyil, istənilən əsaslı məqsəd üçün əldə oluna bilər. Bununla yanaşı, bank məlumatları yalnız nəzərdə tutulmuş vergi ödəyicisi ilə deyil, əlaqəli tərəflər üçün də əldə oluna bilər və s.

Bu istiqamətdə aparılan işləri daha da təkmilləşdirmək üçün beynəlxalq təcrübədə adekvat strategiyanın hazırlanması təklif olunur. Bank əməliyyatlarının məxfiliyindən istifadə edərək keçmişdə öz gəlirini və maliyyə kapitalını gizlətməyə müvəffəq olmuş vergi ödəyicilərinin öz gəliri haqda məlumat verməlırinə imkan verən könüllü əməletmə strategiyası məhz söhbət açdığımız problemlərin aradan qaldırılmasına xidmət edəcəkdir.

Buna baxmayaraq, ölkəmizdə vergi orqanları tərəfindən vergi ödəyicisinin müvəkkil bankından məlumatın alınması hüquqi və fiziki şəxslərin hüquqlarının pozulması kimi qiymətləndirilir. Lakin, inkişaf etmiş ölkələrdə belə bir fikir formalaşmaqdadır ki, dövlət maraqları baxımından bank əməliyyatları haqda məlumatın əldə edilməsi yol veriləndir. Vergi orqanları üzərilərinə düşən gəlirlərin artırılması ilə bağlı öhdəliklərini tam şəkildə yerinə yetirə bilməsi üçün bank məlumatlarına birbaşa

və dolayı çıxışa malik olmalıdırlar.

Əlbəttə, Azərbaycan Respublikası Vergi Məcəlləsində banklar və ayrı-ayrı bank fəaliyyətlərini həyata keçirən digər təşkilatlar tərəfindən məlumatların verilməsi mexanizmi göstərilib. Həmçinin, Azərbaycan Respublikası Mülki Məcəlləsində qeyd olunur ki, bank hesabı və əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrinə bank qarantiya verir. Bank sirri təşkil edən məlumatlar yalnız müştərilərin özlərinə və ya nümayəndələrinə verilə bilər. Dövlət orqanları və onların vəzifəli şəxslərinə isə bu cür məlumatlar yalnız qanunda nəzərdə tutulmuş hallarda və qaydada verilə bilər.

Bu istiqamətdə aparılan işləri daha da təkmilləşdirmək üçün beynəlxalq təcrübədə adekvat strategiyanın hazırlanması təklif olunur. Bank əməliyyatlarının məxfiliyindən istifadə edərək keçmişdə öz gəlirini və maliyyə kapitalını gizlətməyə müvəffəq olmuş vergi ödəyicilərinin öz gəliri haqda məlumat vermələrinə imkan verən könüllü əməletmə strategiyası məhz söhbət açdığımız problemlərin aradan qaldırılmasına xidmət edəcəkdir.

Bu strategiyanın tərkibinə müxtəlif tədbirlər proqramı daxildir. Ilk öncə, ölkədə anonim bank hesablarının açılmasının qadağan olunması təklif olunur. Artıq bu addım bir sıra Avropa dövlətləri (Avstriya, Çexiya Respublikası, Macarıstan və s.) tərəfindən atılmışdır və onun müsbət nəticələrindən istifadə edilir. Belə ki, həmin ölkələr anonim bank hesablarını qadağan etməklə ölkədə qeyri-leqal (eləcə də vergidən yayınan) pul dövriyyəsinin qarşısını almaq istiqamətində uğurlu nailiyyətlər qazanıblar. Digər tərəfdən, həmin ölkələr əvvəllər açılmış anonim bank hesablarının sahiblərindən hesabla bağlı əməliyyatlar apararkən öz şəxsiyyətlərini bəlli etməyi tələb edirlər.

Könüllü əməletmə strategiyasının əsas hissəsini qeyri-leqal maliyyə vəsaitlərinə "vergi amnistiyası"nın elan edilməsi təşkil edir. Bu təcrübəni İtaliyanın timsalında izah etmək daha maraqlı olardı. Italiya hökuməti 2001-ci il sentyabrın 25-də offşor kapitalı və İtaliyanın rezident fiziki şəxslərinin malik olduqları aktivlərlə bağlı "vergi amnistiyası"na dair qanun qəbul edib. Vergi amnistiyası proqramında aşağıdakılar nəzərdə tutulur:

1.İtaliyanın xaricdəki aktivlərinin vətənə qaytarılması;

2.Vətənə qaytarmadan xaricdəki aktivlər barəsində məlumatın verilməsi.

Vergi amnistiyası proqramında leqallaşdırılmış aktivlərin dəyərinin 2,5 faizi miqdarında ödəmə tələb olunur. (və ya 2,5 faiz həcmində ödəməyə alternativ olaraq vergi ödəyicisi ümumi leqallaşdırılmış məbləğin 12 faizinə bərabər xüsusi dövlət istiqrazı imzalaya bilər.). Bununla əlaqədar, xüsusi "məxfi" bəyannamənin İtaliya bankı və ya digər maliyyə vasitəçisi tərəfindən təqsim olunması tələb olunur.

Onu da qeyd edək ki, vergi amnistiyası proqramı 2001-ci ilin noyabr ayından 2002-ci ilin may ayının 15-dək davam etmişdir. Bu addım İtaliyaya milyonlarla pulun maliyyə sanksiyasına məruz qalmadan geri qaytarılması ilə nəticələndi. Göründüyü kimi, bu addınm dolayı yolla vergi ödəyicilərinin xarici ölkənin banklarında olan hesabların aşkarlanmasına imkan verməklə yanaşı, büdcəyə vergi daxilolmalarının artımını təmin edir, ən əsası isə ölkənin malik olduğu real kapital ehtiyatlarını qiymətləndirməyə şərait yaradır.

17.5.Azərbaycanın bank sistemində vergitutma mexanizmi və nəzarət funksiyasının təkmilləşdirilməsi istiqamətləri

Azərbaycanın bank sisteminin inkişaf strategiyasının əsasını sərbəst maliyyə ehtiyatlarının mobilizasiyası, maliyyə ehtiyatlarının investisiya şəklində real sektora transformasiyası və daha effektiv paylaşdırılması təşkil edir. Bunun üçün bank sisteminin özünün keyfiyyətcə yeni inkişafına, müasir bank texnologiyalarının tətbiqinə, təkmil və sabit qanunvericilik bazasının formalaşdırılmasına və s. islahatlara ehtiyac var. Bu baxımdan bank sisteminin inkişafına bilavasitə təsir edən vergitutma mexanizmi və nəzarət funksiyalarının təkmilləşdirilməsi istiqamətində bir sıra işlər həyata keçirilməlidir.

İlk öncə vergi orqanları tərəfindən vergi ödəyicilərinin bank filiallarında olan hesablaşma (və ya digər) hesablarına vergi və tədiyyələrin ödənilməsinə dair təqdim olunan tapşırıqların icrası vəziyyətini yaxşılaşdırmaq lazımdır. Bir çox hallarda icra sənədləri bankların filialları tərəfindən heç bir hüquqi əsas olmadan geri qaytarılır və bankın baş ofisinə təhvil verilməsi tövsiyə olunur. Bankın baş ofisi tərəfindən isə həmin sənədlər müxtəlif səbəblərə görə filiallara vaxtında göndərilmir. Buna görə sənədlərin (sərəncamların) icrası müddəti süni olaraq uzadılır. Bu

problemin həlli yolu kimi Milli Bankın respublikada fəaliyyət göstərən banklara vergi orqanlarının icra sənədlərinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada qəbul olunması tapşırığının verilməsi vacibdir.

Bundan başqa, bank əməliyyatlarının aparılması üçün verilmiş lisenziyaları geri alınmış kredit təşkilatlarının büdcə ilə son haqq-hesabların aparılması vaxtında təmin edilməlidir. Lisenziyalar geri alındıqda banklar tərəfindən qanunvericiliyə uyğun olaraq ləğvetmə komissiyası yaradılır və həmin komissiyanın işi başa çatdıqdan sonra bank büdcə ilə son haqq-hesablar aparmalıdır. Əfsuslar olsun ki, lisenziyaları geri çağırılmış əksər kredit təşkilatlarında müvafiq komissiyalar bu günədək yaradılmamış, yaradılsa da belə onların fəaliyyəti hal-hazırda başa çatmamışdır. Bu səbəbdən bu kimi kredit təşkilatları ilə büdcə ilə son haqq-hesabları aparmaq vergi orqanlarının imkanı xaricindədir. Lisenziyaları geri çağırılmış kredit təşkilatlarında ləğvetmə komissiyasının yaradılmasına, ləğvetmə prosesinin aparılması və başa çatdırılmasına nəzarət funksiyalarının gücləndirilməsi mexanizmi işlənilib hazırlanmalıdır.

Vergi Məcəlləsinin 111-ci maddəsinə müvafiq olaraq əgər malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsilə əlaqədar gəlir əvvəllər sahibkarlıq fəaliyyətindən əldə edilən ümumi gəlirə daxil edilmişdirsə, vergi ödəyicisi onlarla bağlı olan ümüdsüz borc məbləğini gəlirdən çıxmaq hüququna malikdir. Azərbaycanda fəaliyyət göstərən kredit təşkilatları isə Milli Bank tərəfindən müəyyən edilmiş qaydaya uyğun aktivlərin təsnifatından asılı olaraq xüsusi ehtiyat fondunun yaradılmasına aid məbləği bütünlüklə xərclərə daxil edirlər. Bank olmayan digər təsərrüfat subyektlərindən fərqli olaraq, banklar xüsusi ehtiyat fondunu bütün aktivlər, həmçinin ümüdsüz olmayan aktivlər üzrə yaradırlar ki, bu da onların fəaliyyət göstərməsinə daha sərfəli şərait yaradır.

17.6. Bank gəlirlərinin vergiyə cəlb edilməsinin təkmilləşdirilməsi

İnteqrasiya proseslərinin reallığına görə qeyd etməliyik ki, Avropa Birliyinin xüsusi direktivi ilə üzv ölkələrdə bank əmanətləri üzrə gəlirlər 2005-ci ildə 15%-li dərəcələrlə vergiyə cəlb edilirlər. Direktiv 2008-ci ildən bu dərəcələrin 20%-ə, 2011-ci ildən 35%-ə qədər artırılmasını nəzərdə tutur. Avropa Birliyi daxilində reallaşması nəzərdə tutulan bu

tədbirlərin iqtisadi mahiyyəti bəllidir. Məsələ vergitutma sistemində bərabərliyi, neytrallığı təmin etməyə – hər bir gəliri eyni dərəcə ilə vergiyə cəlb etməyə bağlıdır.

Şübhəsiz ki, Avropa Birliyinin faiz gəlirləri üzrə standartlarının Azərbaycanın bank sektoruna köçürülməsi mümkün deyil. Amma uzunmüddətli perspektivdə vergitutmanın təməl prinsiplərinə və inteqrasiya proseslərinin yaradacağı yeni reallıqlara da göz yummaq olmaz. Nəzərə alınmalıdır ki, artıq Azərbaycan banklarında 6,39 mlrd. əmanət saxlanır. Aydındır ki, bu depozitlər üzrə ödənilən faizlər bir çox hallarda vergiyə cəlb edilən başqa gəlirlərdən - əmək haqlarından, mükafatlardan və s.-dən yüksək olur. Bu və başqa cəhətlərə görə perspektivdə faiz gəlirlərinə vergi güzəştlərinin ləğvi və eyni zamanda bu gəlirlərdən gəlir vergisinin aşağı dərəcəsi ilə vergitutma məqsədəuyğun hesab oluna bilər. Qanunvericiliyin göstərilən istiqamətdə təkmilləşməsi vacib sayılmalıdır.

Xarici maliyyələşmə mənbələri – kredit və səhm buraxılışı hesabına maliyyələşmə arasındakı vergi fərqlərinin azaldılması mövcüd qanunverici reallıqların qorunmasını və ya bir sıra xarici ölkələrdə istifadə edilən digər bir üsulun - imputasiya sisteminin tətbiqini tələb edir. Yəni məsələ dividend ödənişlərinin vergidən azad edilməsi müddətinin artırılması ilə də, səhmdarın gəlir vergisi üzrə öhdəliyini korporasiyanın mənfəət vergisinə müvafiq azaltmasına imkan verən hüquqi əsaslarla da həll oluna bilər. İkinci həll – imputasiya sistemi təkcə səhm maliyyələşməsi ilə bank krediti maliyyələşməsi arasındakı fərqlərin azaldılması baxımından maraqlı deyil. Biz bilirik ki, banklar korporativ sektora aiddir və bankın səhmdarları da potensial olaraq ikiqat vergitutmaya məruz qalırlar. Böyük Britaniya, Fransa, Kanada, İtaliya, Finlandiya və s. ölkələrdə son zamanlara qədər tətbiq olunan imputasiya sistemi ikiqat vergitutmanın zərərini minimallaşdırmağa yönəlib.

İmputasiya sisteminin tətbiqi zamanı səhmdar öz gəlir vergisi ödənilən mənfəət vergisi hesabına qismən azalda bilir. Məsələn, bankın səhmlərinin 1%-inin sahibi gəlir vergisi üzrə öhdəliyini mənfəət vergisinin 1%-i həcmində – 20 min manat azalda bilir. Beləliklə, imputasiya sisteminin qanunverici təsbiti də məqsədə müvafiq ola bilər, ancaq qeyd etməliyik ki, bu sistemin praktik tətbiqi arzu edilən nəticələri verməyib. Qlobal kapital bazarlarında bu mexanizm tam fəaliyyət göstərə bilməyib. Bu cəhətlər imputasiya sisteminin tətbiqinin səmərəliliyinə əsaslı şübhələr doğurur və buna görə də iddia edə bilərik ki, məsələnin ən düz-

gün həlli dividend ödənişlərinin uzunmüddətli perspektivində vergitutmadan azad edilməsidir.

Əvvəllər ölkədə tətbiq edilən məcburi ehtiyat normaları dünyanın başqa ölkələri ilə müqayisədə olduqca yüksək idi və ölkə kredit təşkilatları yüksək dərəcəli impliçit vergitutmaya məruz qalırdılar.Qlobal maliyyə böhranı bu məsələyə baxışı dəyişdi. Məcburi ehtiyat normaları 0,5-ə salındı və ölkə iqtisadiyyatı 340 milyon manat əlavə likvidlik əldə etdi. Əlbəttə ki, bu əhəmiyyətli bir dəyişiklikdir.

XVIII FƏSİL

XARİCİ ÖLKƏLƏRİN BANK SİSTEMİ

– i.e.d., prof. **Məmmədov Zahid Fərrux**
– prof. **Kirsanov S.A.** – *Rusiya Dövlət Humanitar Universiteti (Domodedovo) professoru*

18.14. Qazaxıstanın pul-kredit sistemi
18.1. Amerika Birləşmiş Ştatlarının bank sistemi
18.2. Kanadanın pul-kredit sistemi
18.3. Avropa Birliyinin dövlət maliyyə sistemi və Avropa Mərkəzi Bankı
18.4. Almaniyanın bank sistemi
18.5. Fransanın pul-kredit sıstemi
18.6. Böyük Britaniyanın bank sistemi
18.7. İsveçrə Milli Bankı və İsveçrənin pul vahidi – frank
18.8. Yaponiyanın pul-kredit sistemi
18.9. Türkiyənin pul sistemi
18.10. Çin yuanı və Çin Xalq Respublikasının Mərkəzi Bankı
18.11. İran İslam Respublikası pul vahidi - İran rialı və Mərkəzi Bankı
18.12. Rusiya Federasiyasının pul-kredit sistemi
18.13. Ukraynanın pul-kredit sistemi
18.14. Qazaxıstanın pul-kredit sistemi

18.1. Amerika Birləşmiş Ştatlarının bank sistemİ

Dollar sözü 1518-ci ildən etibarən uzun illər boyu Avropada geniş dövriyyədə olmuş Joachimsthaler (Bohemiyada şəhər adından götürülüb) adlı sikkənin qısaltması olan "Taler" sözündən götürülmüşdür. 1775-ci ildən Birləşmiş Ştatlar və ayrı-ayrı ştatlar "Kontinental dollar"ı buraxmağa başladı. İnflyasiyanın meydana gəlməsi səbəbindən kontinental dollar "gümüş dollar"la əvəz olunmuşdur (1 gümüş dollar = 1000 kontinental dollar). 1792-ci ildə Sikkə haqqında Qanunun qüvvəyə minməsi ilə dolların məzənnəsi gümüş dəyəri əsasında müəyyən olunsa da, 1934-cü ildən qızıl əsasında müəyyən olunmağa başlamışdır. 1862-ci ildən əskinas dollar buraxılmışdır. 1878-ci ildən əskinas və sikkə arasındakı əlaqə bərpa olundu.

Amerikan dolları 1785-ci ildə milli pul olaraq qəbul edilmişdir. 2 aprel 1792-ci ildə dolların dəyəri gümüş və qızılı ağırlıq miqdarı ilə bağlanılmışdır. 1890-cı ildə tək işğal siste-minə keçilmiş, yəni qızıl pul sisteminin əsası qoyulmuşdur. 1913-cü ildə Amerika Mərkəzi Bankı qurulmuşdur. 1917-ci ildə dolların qızıla dəyişməsinə son qoyulmuş, ancaq 1919-cu ildə bu sistem təkrar təsis edilmişdir.

Qızıl sikkələr 1933, gümüş sikkələr isə 1969-cu ilədək buraxılmışdır. 1971-ci ildən etibarən ABŞ dollaın qızıl ilə təminatı ləğv edilib.

Dollar əskinaslarının baza dizaynı 1928-ci ildə təsdiq olunub. 2002-ci ildə nağd valyuta olaraq avronun dövriyyəyə buraxılması ilə dollar dəyərini itirməyə başladı. 31 yanvar 1934-cü ildə dollar 40,94% dəyərindən devalvasiya edilmiş və təzədən dolların qızıl qarşılığı müəyyən edilmişdir. 18 dekabr 1971-ci ildə isə dolların qızıla çevrilməsinə son qoyulmuşdur. 1976-cı il yanvar ayında Yamayka sövdələşməsi ilə dolların qızıla olan bağlılığı tamamilə ləğv edilmişdir.

ABŞ-ın ticarət və büdcə kəsirləri davam etdikcə dolların dəyəri də buna müvafiq olaraq azalmaqda idi. Federal Ehtiyatlar Sisteminin faiz dərəcələri artırma siyasəti sayəsində 2004-cü ilin I rübündən dollar digər valyutalar qarşısında əlavə dayanıqlıq qazansa da, ilin ikinci yarısından yenidən dəyərini itirmişdir. 18 sentyabr 2007-ci il tarixində Federal Ehtiyatlar Sisteminin faiz dərəcəsini aşağı salması nəticəsində dollar öz dəyərini əhəmiyyətli dərəcədə itirmişdir. Lakin 2008-ci ildə qlobal maliyyə böhranı zamanı ABŞ dolları və Yaponiya yeninin dünyanın əksər

valyutaları ilə müqayisədə dəyəri artmışdır.

Bu günədək etibarlılığını qoruyan və nümizmatik dəyəri real dəyərindən artıq olan 500, 1000, 5000, 10 000 və 100 000 dollarlıq əskinaslar yalnız Federal Ehtiyatlar Sisteminin və Xəzinədarlığın daxili hesablaşmalarında istifadə edilir.

ABŞ dolları dünyada əsas ehtiyat valyuta kimi çıxış edir. Hal-hazırda dünyanın strateji valyuta ehtiyatlarının ümumi həcminin 64%-i dollarda saxlanılır.

Rəsmi olaraq dollarlaşma kimi tanınan prosesinin nəticəsi olaraq ABŞ-dan başqa bir sıra başqa ölkələr də ABŞ dollarını öz rəsmi valyutaları olaraq istifadə edirlər. Bəzi dövlətlər isə öz dollarla münasibətdə sabit məzənnə siyasəti tətbiq edirlər.

ABŞ-ın Mərkəzi Bankı - Federal Ehtiyat Sistemi. Federal Ehtiyat Sistemi ABŞ-ın mərkəzi bank sistemidir. Bankın ilkin yaranma məqsədi bank sektoru üzrə mümkün təşvişlərin aradan qaldırılması olmuşdur.

Federal Ehtiyat Sistemi ABŞ tarixində sayca üçüncü mərkəzi bank sistemidir. Daha əvvəl Birləşmiş Ştatların Birinci Bankı (1791-1811) və Birləşmiş Ştatların İkinci Bankı (1816-1836) valyutanın dövriyyəyə buraxılması, kommersiya kreditlərinin verilməsi, depozitlərin qəbul edilməsi və qiymətli kağızların buraxılması kimi fəaliyyət xidmətləri göstərməklə yanaşı çox sayda filiallara malik olmuş və ABŞ Xəzinədarlığının maliyyə agenti olaraq fəaliyyət göstərmişdir.

1907-ci ildə Konqres bank işi və valyuta islahatlarının öyrənilməsi üçün respublikaçıların Senatdakı lideri Nelson Aldriçin rəhbərlik edəcəyi Milli Monetar Komissiya yaratmışdır. Amerikanın mövcud monetar sistemi və Avropanın mərkəzi bank sistemi öyrənilmiş və nəticədə "Aldriç Planı" hazırlanmışdır. 23 dekabr 1913-cü il tarixində Aldriç Planı "Federal Ehtiyat Planı" olaraq təsdiqlənmişdir. Federal Ehtiyat Sistemi 16 noyabr 1914-cü ildə fəaliyyətə başlamışdır.

I Dünya Müharibəsi zamanı müharibə istiqrazlarının verilməsi ilə məşğul olan Federal Ehtiyat Sistemi, 1933-cü ildə Franklin Ruzveltin hakimiyyətə gəlməsi ilə subordinasiyalı İcraçı Filial statusu almış və yalnız 1951-ci ildə öz müstəqilliyini əldə etmiş-dir. Həmin tarixdən bu günədək müxtəlif siyasi yanaşmalar qəbul etməsinə baxmayaraq, Federal Ehtiyat Sisteminin səlahiyyətlərində əhəmiyyətli dəyişiklik olmamışdır.

Federal Ehtiyat Sisteminin cari funksiyaları aşağıdakılardır:

1. Bank təşvişləri ilə bağlı problemlərin həlli;

2. Bankların özəl maraqları ilə mərkəzləşdirilmiş dövlət öhdəlikləri arasında tarazlığın qorunması;
3. Monetar siyasət tədbirləri nəticəsində ölkənin pul təchizatının təmin olunması;
4. Maliyyə sisteminin sabitliyinin dəstəklənməsi;
5. Depozit qəbul edən təsisatlar, ABŞ hökuməti və xarici rəsmi müəssisələr üçün maliyyə xidmətinin təmin olunması;
6. ABŞ-ın dünya iqtisadiyyatındakı mövqeyinin gücləndirilməsi.

Federal Ehtiyat Sisteminin təşkilati strukturu aşağıdakılardan ibarətdir:

- Federal Ehtiyat Direktorlar Şurası – müstəqil federal hökumət təşkilatıdır. 7 üzvdən ibarət Direktorlar Şurasının hər biri üzvü Prezident tərəfindən təyin olunaraq Senat tərəfindən təsdiqlənsə də, əsas etibarilə müstəqil şəkildə fəaliyyət göstərir. Fəaliyyət müddəti 14 il olan hər bir üzv, o müddət ərzində prezident tərəfindən vəzifəsindən kənarlaşdırıla bilər. Şura Nümayəndələr Palatasının Spikerinə illik fəaliyyətlə bağlı hesabat verir. Ölkənin monetar siyasətin yaradılması öhdəliyi daşıyan Şura, həmçinin Federal Ehtiyat Banklarının və ümumilikdə ABŞ bank sisteminin fəaliyyətlərinə nəzarət edərək tənzimləyir.
- Federal Açıq Bazar Komitəsi – qısamüddətli fəaliyyət hədəfləri qoyaraq monetar siyasətini müəyyən edir. Bundan əlavə, xarici valyuta bazarına müdaxilənin ABŞ Xəzinədarlığı tərəfindən koordinasiya edilməsinə baxmayaraq, Komitə Federal Ehtiyat Sistemi tərəfindən xarici valyuta bazarlarında həyata keçirilən əməliyyatların yönəldilməsi ilə məşğuldur. Komitənin 12 üzvündən 7-si Direktorlar Şurasının üzvü, 5-i isə regional Federal Ehtiyat Banklarının nümayəndələridir. İkinci ərazi olan Nyu Yorkdan başqa digər regional Banklardan olan nümayəndələr növbəli qaydada 2-3 illik müddətə seçilir.

Federal Ehtiyat Bankları – özəl korporasiyaların və dövlət federal təşkilatların bir sıra xüsusiyyətlərini özündə cəmləyir. Üzv bankların hər biri özünün regional Federal Ehtiyat Bankında müzakirə olunmayan səhm payına malik olsa da, bu pay ona Federal Ehtiyat Banklarının fəaliyyətinə yalnız məhdud nəzarət verir və Federal Ehtiyat Bankının nizamnaməsi qanun əsasında təsis olunur və onun üzv banklar tərəfindən dəyişdirilməsi mümkün deyil. Hazırda 12 Federal Ehtiyat Bankı mövcuddur.

Bank və digər maliyyə-kredit müəssisələri sistemi. ABŞ-ın bank sisteminin müasir vəziyyəti qloballaşma və beynəlmiləlləşmə proseslərinin dərinləşməsi və transmilli şirkətlərin artımı ilə xarakterizə olunur. Bütün kommersiya bankları hüquqi statusuna gö-rə milli və ştat banklarına bölünürlər. Birincilər federal hökumət tərəfindən, ikincilər isə ştat hakimiyyətləri tərəfindən lisenziyalaşdırılır və nəzarət olunur.

ABŞ-ın bank sistemində xüsusi rolu investisiya bankları oynayır. Onlar qiymətli kağızlarla bağlı əməliyyatların iki əsas növünü – şirkətin qiymətli kağızlarının emissiyasını və yerləşdirilməsini həyata keçirirlər.

ABŞ-da əmanətlərin toplanması və əmanətçilərin kreditləşdirilməsi məqsədilə yaradılan şirkətlər – əmanət maliyyə müəssisələri geniş yayılmışlar. Borc-əmanət assosiyasiyaları paylı (əgər əmanətçilərə məxsusdursa) və səhmdar (əgər səhmdarlara məxsusdurlarsa) olurlar. Səhmdar borc – əmanət assosiasiyaları şirkətlərə məxsus ola bilər. Bir borc – əmanət assosiasiyasına malik olan şirkətlərə unitar, bir neçə borc-əmanət assosiasiyasına malik olan şirkətlərə holdind şirkətlər deyilir. Holdinq şirkətlərlə müqayisədə, unitar şirkətlər xidmət və fəaliyyətin növ seçimində böyük sərbəstliyə malikdirlər. Bu gün assosiasiyalar müasir bazara adaptasiya etmək üçün böyük cəhdlər göstərirlər.

Amerikanın kredit ittifaqları mahiyyət etibarilə demokratik kooperativ təşkilatlardır. İttifaqın üzvləri və payçılar əmanətləri yalnız o məqsədlə daxil edirlər ki, onlar istiqrazlar şəklində digər payçılara verilsin. İstiqrazların təqdim edilmə şərtləri və əmanətlərə faizlərin hesablanma ardıcıllığı kredit ititfaqı tərəfindən müəyyənləşdirilir. İttifaqın ali orqanı onun üzvlərinin ümumi iclası, iclaslararası müddətlərdə isə idarəetmədir.

Amerikan kommersiya bankları əmanət qəbul etmə haqqında lisenziyaya sahib olan banklardır. Bu bankların aktivləri kassa likvid aktivlər və sənəd portfelindən ibarətdir. Kassa likvid aktivləri nağd pul, FEB-də tutulan pullar və digər bankların hesablarında tutulan pullardır. Bu banklar istehlak və sənaye sahələrinə qısamüddətli kredit açırlar. Portfelləri isə yerli icra və dövlət orqanlarına aid sənədlərdən ibarətdir. Passivlərində isə dövlət və özəl sektorun əmanətləri saxlanılır.Amerikada kommersiya banklarının sayı 14500-ə yaxındır. Ancaq bunlar içində ən böyük banklar Chase Manhattan Bank, First National Bank, Chase Manhattın Bank, Morıan Trust Company banklarıdır. Amerikanın investisiya bankları şirkətlərə orta və uzun müddətli kredit açırlar. Bu banklar əmanət qəbul edir, sənaye quruluşları üçün hissə sənədi və istiqraz ixrac edirlər. Bu banklar

pula olan ehtiyaclarını kommersiya banklarından borc olaraq ödəyirlər. Amerikada 200-ə yaxın xarici ölkələrin bankları fəaliyyət göstərir. Bunların ümumi bank aktivləri içində payları 14 faizdir. Amerikan banklarının ölkə xaricində 800-dən çox şöbəsi vardır. Amerikan banklarının xaricdəki fəaliyyətinə FEB, Federal Əmanət Sığorta Fondu və Pul Nəzarət Komitəsinin üzvlərindən meydana gələn komissiya nəzarət edir.

18.2. Kanadanın pul-kredit sistemi

1841-ci ildə Kanada Əyaləti öz dollarının 1/10 qızıl qartal sikkəyə bərabər olduğunu elan etdi. 1 yanvar 1858-ci il tarixindən Kanada bütün hesabları dollar və sentdə saxlamağa və ilk rəsmi sikkələrini buraxmağa başladı. 1871-ci ildə Federal Parlament tərəfindən Vahid Valyuta haqqında Qanunun qəbul edilməsi ilə bütün əyalətlər istifadə etdikləri valyutanın əvəzində Kanada dollarından istifadəyə başladılar. I Dünya Müharibəsi dövründə qızıl standartından istifadə müvəqqəti dayandırılmış və 1933-cü ildən buna birdəfəlik son qoyulmuşdur. Bretton Vuds sistemindəki digər valyutalardan fərqli olaraq Kanada dolları 1950-1962-ci illərdə üzən məzənnəli valyuta olmuşdur. 1962-1970-ci illərdə isə Kanada sabit məzənnə siyasətinə keçmişdir (1 Kanada dolları = 0,925 ABŞ dolları). Kanada dolları 1974-ci ilin 25 aprel tarixində özünün ən yüksək həddinə çatmışdır (1 Kanada dolları = 1,0443 ABŞ dolları). 1990-cı illərdə baş verən texnoloji bum nəticəsində Kanada dollarının dəyərində eniş baş vermiş və 21 yanvar 2002-ci il tarixində özünün ən aşağı həddinə çatmışdır (1 Kanada dolları = 0,6179 ABŞ dolları). Bundan sonra isə, Kanadanın ixrac etdiyi malların (xüsusən neftin) qiymətinin artması nəticəsində valyuta yenidən dəyər qazanmağa başlamışdır. 2007-ci il ərzində dəyər artımının sürəti daha yüksək olsa da, 2008-ci ilin iyul-oktyabr aylarında Kanada dollarının dəyəri yenidən aşağı düşmüşdür.

İlk əskinas pul 1817-ci ildə Monreal Bankı tərəfindən buraxılmışdır. Monreal Bankı 1842-1862-ci illərdə 1841-ci ildə yaranan Kanada Əyaləti üçün əskinaslar buraxmışdır. 1866-cı ildən etibarən Kanada Əyaləti öz əskinaslarını buraxmağa başlamışdır. Kanada Bankının 1935-ci ildən əskinasları buraxmağa başlamasın nəticəsində 1944-ci ildən etibarən 10 səlahiyyətli bankdan pul çapetmə hüququ əlindən alındı.

Kanada sikkələr 1858, 1870, 1912, 1920, 1922, 1935, 1942, 1944,

1951, 1963, 1967, 1987, 1997 və 2000-ci illərdə tədavülə buraxılmışdır.

Hazırda Kanada dolları dönərliliyinə görə dünyada 7-ci yerdədir.

Kanada Mərkəzi Bankı. Kanadanın Mərkəzi Bankı olan Kanada Bankı 1934-cü ildə Kanada Bankı haqqında Qanunun qəbul olunması ilə təsis olunmuşdur. Bankın yaranma məqsədi "Kanadanın iqtisadi və maliyyə rifahının dəstəklənməsidir.

Uzun illər Kanadanın mərkəzi bankı olmamış və bank sistemi Kanada Banklar Assosiasiyası tərəfindən tənzimlənmişdir. Kanada Bankı 1934-cü ildə qəbul edilmiş "Kanada Bankı haqqında Qanuna əsasən yaradılmışdır. 1938-ci ildə Qanuna dəyişiklik olunmuş və Kanada Bankı milliləşdirilərək Krallığın korporasiyası olaraq fəaliyyətə başlamıışdır. Kanada Bankı günümüzdə də dövlətin bankı kimi fəaliyyət göstərir.

Bank yaradıldıqdan sonra pulların buraxılması hüququ Dövlət Maliyyə Departamentindən alınaraq Kanada Bankına verilmiş və özəl banklardan öz valyutalarını dövriyyədən çıxarmaları tələb olunmuşdur.

İkinci Dünya Müharibəsi dövründə Kanadanın müharibədə iştirakını maliyyələşdirən Kanada Bankı müharibədən sonra fəaliyyətini genişləndirərək Kanadanın iqtisadi inkişafını dəstəkləmək üçün səlahiyyətləndirilmişdir. Kanada biznesinə investisiya qoyuluşunu stimullaşdırmaq üçün törəmə Sənaye İnkişaf Bankı təsis olunmuşdur. Bankın monetar siyasəti inflyasiyanın azaldılmasından daha çox faiz dərəcələrinin aşağı salınması və işsizliyin aradan qaldırılmasına yönəlmişdi. 1960-cı illərdə inflyasiyanın artmağa başladığını görən Ceyms Koyn (Kanada Bankının Sədri) pul təchizatının azaldılması tapşırığını vermişdir. Bununla razılaşmayan Baş Nazir Con Difenbeyker işsizliyin aradan qaldırılması strategiyasına keçid tapşırığını vermişdir. Kanada Bankı siyasi nəzarətdə olmayan dövlət təşkilatı olaraq tanındığından bu hadisə qısa böhranın ("Koyn Böhranı") baş verməsinə səbəb olmuşdur. Nəticədə Bankın Sədri istefaya getmişdir. Sonradan Kanada Bankı tədricən anti-inflyasiya siyasətinə keçməyə başlamışdır və artıq 1980-ci illərdə inflyasiyanın aşağı həddə saxlanması onun əsas prioritetinə çevrilmişdir.

Ölkənin mərkəzi bankı kimi Kanada Bankının 5 əsas vəzifəsi var:

- Monetar siyasətinin həyata keçirilməsi (inflyasiya göstəricisinin tənzimlənməsi);
- Pulların buraxılışı;
- Təhlükəsiz, şəffaf və səmərəli maliyyə sisteminin təşkili;
- Vəsaitlərin idarə edilməsi;

- İnsani, maliyyə, informasiya, texnologiya və fiziki mənbələrin sağlam idarə edilməsinə dəstək verən korporativ inzibatçılığın həyata keçirilməsi.

Kanada Bankının ali idarəetmə orqanı Direktorlar Şurasıdır. Bankın Sədri və 4 sədr müavini federal hökumət tərərfindən deyil, Kabinetlə məsləhətləşməklə Bankın Direktorlar Şurası tərəfindən seçilir. Maliyyə Nazirinin müavini İdarə heyətinin üzvü olsa da, onun səs hüququ yoxdur. Bankın hesabatları Kanadanın Ümumi Auditorları tərəfindən deyil, Maliyyə Nazirliyi ilə məsləhətləşərək, Kabinet tərəfindən təyin edilmiş xarici auditorlar tərəfindən yoxlanılır. Bankda 16 departament fəaliyyət göstərir.

Kanada Bankı kommersiya banklarına qiymətli kağızların bəzi növlərinin girovu ilə altı aydan çox olmayan müddətə kreditlər verə bilir. Kreditlər konkret şərtlərlə və məhdud müddət üçün hökumətə və ya əyalətlərə təqdim oluna bilər. Bankın uçot dərəcəsi minimal dərəcədir və Kanada Bankı kreditləri bu dərəcə üzrə təqdim etməyə hazırdır.

Kanada Bankının fəaliyyət istiqamətlərindən biri hökumətin monetar siyasətinin reallaşdırılmasıdır. 1980-ci illər ərzində Kanada monetar siyasətin adıçəkilən formasını – pul kütləisnin tarqetləşdirilmə formasını əsas tuturdu. Pul kütləsinin targetləşdirmə siya-sətinin reallaşdırılmasının effektivliyi bir sıra şərtlərdən asılı idi. Birincisi, pulun targetləşdirilməsi üçün dəyişən göstərici ilə (inflyasiya və ya nominal gəlir) məqsədli aqreqat arasında güclü və etibarlı əlaqənin olması zəruridir. Asılılığın zəif olduğu halda, məqsədli göstəriciyə olan təsir dəyişənin planlaşdırılmış dəyişmələrinə gətirib çıxarmır. Bu növ uyğunsuzluq Kanadadad baş vermiş və 1991-ci ildə pul siyasətinin dəyişməsinə gətirib çıxarmışdır. İkinci şərt Mərkəzi bank tərəfindən pul aqreqatlarının qeyd-şərtsiz nəzarətidir. Bu nəzarət yoxdursa, pul siyasətinin məhz bu formasının həyata keçirilməsini bildirən dəqiq siqnala avtomatik şəkildə yox olur. Əgər pul kütləsinin məhdud aqreqatlarını tənzimləmək Kanada hakimiyyəti üçün mümkün olsa da, daha geniş M2 və M3 pul aqreqatlarına nəzarət etmək kifayət qədər müşkül məsələyə çevrildi.

Kanadada targetləşdirmə siyasəti gözlənilən çox müsbət nəticələrə gətirib çıxarmadı, çünki ona olan münasibət qeyri ciddi və hakimiyyətin uğur qazanmaq şansı yox idi.

1991-ci ilin fevralında Kanada Bankı inflyasiya səviyyəsinin targetləşdirilməsinə keçid barədə elan etdi. Qərara alındı ki, inflyasiyanın

məqsədli göstəricisi mərkəzi bankın və hökumətin birgə qərarı ilə təyin ediləcək və müəyyənləşdiricələk. Göstəricinin əsasını istehlak qiymətlərinin indeksi təşkil edirdi. İstehlak qiymətlərinin indeksi qida məhsullarını, enerjini və dolayı vergiləri nəzərdə tutmurdu. Məqsədi parametrin intervalları aşağıdakılar idi:

* 1991-ci il: 3-5%;
* 1992-ci il: 2-4%;
* 1994-cü ilin iyunu: 1,5-3,5%
* 1995-2001-ci illər: 1-3%.

İnflyasiya səviyyəsinin targetləşdirilməsi bir sıra üstünlüklərə malikdir. O, valyuta targetləşdirilməsindən fərqli olaraq, pul targetləşdirilməsi ilə yanaşı diqqətin milli maraqlarda mərkəzləşməsinə imkan verir və xarici təsirlərə meylliliyi azaldır. Mübadilə kursunun məqsədli göstəricisinin rejimi kimi, şəffafdır. İnflyasiyanın məqsədli səviyyəsi pul aqreqatları ilə müqayisədə əhali üçün daha anlaşılandır. Pul aqreqatları isə dəyişən meyarlara daha sərt əlaqədə olmalıdır.

Kanada Bankı daima ÜDM ölçülərində dəyişmələrin azaldılması və məşğulluğun artırılması üzrə tədbirləri həyata keçirir. Ölkə stabil ÜDM siyasətini və inflyasiyanın ortamüddətli göstəricilərinin azalmasından uzunmüddətli göstəricilərə tədrici keçid siyasətini yürüdür. Ümumilikdə, inflyasiya səviyyəsinin targetləşdirmə siyasəti monetar hakimiyyəti daha uzaqgörən olmağa və cari vəziyyətdə təmərküzlə birlikdə taktiki yox, strateji məqsədləri reallaşdırmağa vadar etdi.

Kanada bankları. Kanada bankları xarici bazarlarda aktiv şəkildə fəaliyyət göstərirlər. 1986-cı ildə valyuta aktivləri bütün aktivlərin 45%-ni təşkil edirdi. Bank gəlirlərinin əsas hissəsi beynəlxalq əməliyyatlar hesabına təmin olunur. Böyük beşlik adlanan qrupun bankları Kanadanın iti çarter banklarıdır; «Royal benk of Kenada» (Royal Bank of Canada), «kenedian imperial benk of kommers» (Canadian İmperial Bank of commerce), «Benk of Monreal» (Bank of Montreal), «Benk of Nova Skoşia» (Bank of Nova Skoshia), «Toronto – dominion benk» (Toronto – dominion Bank).

Kanadanın ən gəlirli və iri kommersiya bankı «Royal benk of Kanada» 1896-cı ildə yaradılmışdır. Bankın 1700 şöbəsi var. Onların 46-sı digər ölkələrdədir. Hal-hazırda bank maliyyə bazarının qonşu sektorlarına ekspansiya üçün investisiya – bank fəaliyyəti sferasında və ənənvi bank xidmətlərinin milli bazarında öz liderliyindən istifadə etməyə cəhd göstərir. Onun üstünlüklərindən biri sığorta biznesinin inkişafıdır. 1995-

ci ildən sonra 5 il ərzində bank Kanadadakı üç sığorta şirkətini udmuş, özünün telekommunikasiya mərkəzi vasitəsilə sığorta məhsullarının birbaşa satışını təşkil etmiş, bir neçə beynəlxalq təkrar sığorta şirkətlərini təsisi etmişdir. Bankın digər üstünlüyü qiymətli kağızlarla əməliyyatların depozitar xidmətinin iriləşdirilməsi oldu. Xüsusi halda, 1996-1997-ci illərdə «Toronto – dominian benk», «Benk of Nova Skoşia» və «Monreal trast» (Montreal Trust) uyğun şöbələri alınmışdır. 1999-cu ildə Avstraliyada «Permanent trasti Ko» (Permanent Tresty Co) ilə birlikdə depozitar şirkət təsis olunmuşdur.

Kanadanın bank sistemində əsas yeri B siyahısından olan banklar, yəni xarici maliyyə-kredit müəssisələri tutur. 1980-ci ilin banklar haqqında qanunu ilə xarici banklara Kanadada öz filiallarını açmaq icazəsi aşağıdakı şərtlərlə verilir.

- Kanadadakı filialların fəaliyyəti üçün kifayət edən aktivlər, təcrübə, həmçinin gəlirlər;
- bir qayda olaraq, səhmdarların geniş dairəsi;
- lazımi nəzarət və yaxşı maliyyə vəziyyəti;
- özünün Kanadada rəqabətədavamlı bank işini inkişaf etdirmək qabiliyyətinin sübuta yetirilməsi;
- öz ölkəsinin yurisdiksiyasında qarşılıq prinsipinin olması;
- filialın fəaliyyəti üçün cavab verməyə hazır olduğunu təsdiq edən zəmanət məktubun (letter of comfort) təqdim edilmə imkanı.

Kanadada bank işi sərt şəkildə tənzimlənir. Bankın tənzimlənmə prinsipləri banklar haqqında qanunla müəyyənləşir. Maliyyə naziri bankların fəaliyyətinə müntəzəm nəzarəti həyata keçirir. Hər bir bankda baş israçı direktor olur. O, Kanada Bankının Direktorlar şurası qarşısında bilavasitə məsuliyyət daşıyır. Monetar siyasətin həyata keçirilməsi məqsədilə qanun Kanada Bankında ilkin və təkrar ehtiyatların saxlanması barədə kommersiya bankları üzərinə öhdəlik qoyur. Banklar ilkin ehtiyatlar üzrə faiz almırlar.

1980 ci ilin banklar haqqında qanununa görə, banklar səhmdarlara illik hesabat verməlidirlər. Bu hesabatda aşağıdakılar olmalıdır:

- tələblər və öhdəliklər barədə birləşmiş hesabat;
- xeyir və ziyanlar barədə birləşmiş hesabat;
- nəzərdə tutulmamış xərclərə vəsaitlərin ayrılması barədə birləşmiş hesabat;
- səhmdar kapitalında dəyişikliklər barədə birləşmiş hesabat.

18.3. Avropa Birliyinin dövlət maliyyə sistemi və Avropa Mərkəzi Bankı

Avropa Birliyi(AB) - 27 Avropa ölkəsinin üzv olduğu iqtisadi və siyasi birlik əsasında qurulmuş dövlətdir. 2010-cü ilədək Avropa Birliyində 27 ölkə yer alır: Belçika,Almaniya, İtaliya, Lüksemburq, Niderland, Fransa (6 ölkə -1957 ildən tam hüquqlu üzv qəbul olunub), Böyük Britaniya, Danimarka, İrlandiya (3 ölkə -1973 ildən üzv qəbul olunub), Yunanıstan (1981), İspaniya, Portuqaliya(2 ölkə -1986 ildən tam hüquqlu üzv qəbul olunub), Finlandiya, Avstriya və İsveç(3 ölkə -1995 ildən üzv tam hüquqlu qəbul olunub), Çexiya, Slovakiya, Sloveniya, Kipr, Macarıstan, Polşa, Malta, Estoniya, Latviya, Litva (2004-cü ildən daha 10 dövlət tam hüquqlu üzv qəbul olunub) və 2007- ci ildə isə Bolqarıstan və Ruminiya AB-nin tamhüquqlu üzv qəbul edildi.

Avropa Birliyinin rəsmi başlanğıcını isə 1957-ci ildə Fransa, AFR, İtaliya, Belçika, Niderland və Lüksemburq arasında imzalanmış əfsanəvi Roma müqaviləsini hesab etmək olar. Bu müqavilə Avropanın iqtisadi birliyinin yaradılmasını rəsmən elan etdi. Sonralar, 1973-cü ildə Böyük Britaniya, Danimarka və İrlandiya, 1981-ci ildə Yunanıstan, 1986-cı ildə İspaniya və Portuqaliya, 1995-ci ildə Avstriya, İsveç və Finlandiya Avropa İqtisadi Birliyinə daxil oldular.

İstənilən inteqrasiya qruplaşması kimi, AİB də, beynəlxalq iqtisadi inteqrasiyanın son səviyyəsinə çatmamışdan əvvəl bir neçə mərhələdən keçmişdir. Belə ki, 1958-1968-ci illərdə azad ticarət zonası formalaşdırılmış, gömrük ittifaqına keçiddən sonra isə (1968-1978-ci illər) iqtisadi və monetar ittifaqın yaradılması barədə suallar yaranmışdır. Hələ 1957-ci ildə üzv ölkələrin monetar siyasətlərinin uyğun təshihləri olmadan həmin birliyin fəaliyyətinin reallıq məsələsi qaldırılırdı. Lakin Roma müqaviləsinin müəllifləri o nöqteyi-nəzərdən çıxış edirdilər ki, Avropa valyutalarının stabilliyi (Breton-Vuds valyuta sistemi çərçivəsində təmin olunmuş) sabit anlayışdır və vahid Avropa bazarının yaradılması üçün birliyin ölkələri arasında malların, xidmətlərin, işçi qüvvəsinin və kapitalın ötürülmə sərbəstliyini təmin etmək kifayətdir.

Tarix bu mülahizələrin səhv olduğunu göstərdi. Qızıl-dollar standartına (yəni, bütün dünya maliyyə sisteminin stabilliyi ABŞ-ın Federal rezerv sisteminin Amerika valyutasının qızıla nəzərən paritetini sabit sə-

viyyədə saxlaya bilmək imkanı ilə təmin olunurdu: troya unsiyasına 35 dollar) və sərt qeyd olunmuş valyuta kurslarına (onları birdəfəlik qaydada dəyişdirmək icazəsi yalnız Beynəlxalq valyuta fondunun sanksiyası ilə verilirdi) əsaslanmış Bretton-Vuds sisteminin bir sıra ziddiyyətli məqamları var idi. Artıq 1950-ci illərin axırlarında dolların qeyri-stabilliyinin ilk əlamətləri meydana gəldi, 1968-1969-cu illərdə isə dolların dəyişmələri Avropa bazarı üçün real təhlükə yaratmağa başladı. Dolların düşməsi nəticəsində alman markasının kəskin revalvasiya və fransız frankının devalvasiya təhlükəsi yarandı. Bunlar ümumavropa inteqrasiyasının iki mərkəzinin pul vahidləri idi və bütün Birlik məhz onların çiyinləri üstündə saxlanılırdı. Belə şəraitdə ümumi Avropa qiymət siyasəti sual altına düşür və bu, xüsusilə kənd təsərrüfatı məhsullarına nəzərən – Avropa iqtisadiyyatının daha həssas sahəsinə nəzərən baş verirdi. Kənd təsərrüfatı sahəsində tarazlığın əldə edilməsi həmin dövrdə Avropa Birliyinin məziyyəti hesab olunurdu. Bu vəziyyətdən çıxış yolu kimi AİB-nin üzv ölkələri üçün qeyd olunmuş valyuta kursu rejiminin və ya onun aralıq analoqunun tətbiq edilməsi ilə bağlı təkliflər irəli sürülmüşdür.

Maraqlı bir tarixi detalı da qeyd edək. 1961-ci ildə Amerikanın bir jurnalında iqtisadçı professor R.Mandellin «optimal valyuta zonaları nəzəriyyəsi» məqaləsi çap olunmuşdur. Müəllif bu məqalədə sərt şəkildə qeyd olunmuş valyuta kursunun üstünlüyünü milli valyutalardan imtina etmək və digər dövlətin valyutasından istifadə etmək formasında əsaslandırmışdır. 1999-cu ildə «avro zonasının» üzv ölkələri tərəfindən avronun tətbiqi zamanı həmin ideya faktiki surətdə reallaşdırılmış və R.Mandell öz mülahizələrinə və əsaslandırmalarına görə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüşdür.

Avropa valyutaları arasında qeyd olunmuş mübadilə kurslarının müəyyənləşdirilməsi ideyası 1965-ci ildə Avropa komissiyasının irəli sürdüyü təkliflərdən biri kimi səsləndirilmişdir. Bu ideya Barrın 1968-cı ildə tərtib olunmuş məruzəsi ilə müdafiə olundu və fransız-alman sammitində bəyənildikdən sonra (əvvəlcə AİB-nin, sonra isə AB-nin qeyri-rəsmi mühərriki) 1969-cu ildə dövlət və hökumət başçılarının Haaqadakı görüşündə Birliyin inkişaf məqsədlərindən biri kimi elan olundu. Məhz bu görüşdə Lüksemburqun baş naziri Pyer Vernerin sədrliyi ilə öz məruzəsi sayəsində sonralar çox məşhurlaşan dövlətlərarası qrup formalaşdırılmışdır. Verner planı 1970-ci ildə özünün bitkin şəklində işıq üzü görmüş və Avropada monetar ittifaqın 10 il ərzində qurulma proqramını

ifadə etmişdir. Proqramın məqsədi Avropa valyutalarının qarşılıqlı konvertasiyasını təmin edən sistemin formalaşdırılması, kapitalın Avropada maneəsiz hərəkəti və Avropa valyutalarının mübadilə kurslarının bir birlərinə nəzərən dəyişməz dərəcələrinin müəyyənləşdirilməsi idi. Milli valyutaların vahid valyuta ilə əvəzlənməsi yalnız göstərilən vəzifələrin müvəffəqiyyətli həlli zamanı mümkün məqsəd kimi çıxış edirdi. Verner planının əsas istiqamətləri aşağıdakılar idi:

- birlik ölkələri tərəfindən həyata keçirilən iqtisadi siyasətin dövlətlərarası koordinasiyası;
- üzv-ölkələrin qarşılıqlı valyuta kurslarının dəyişmələrinin tədriclə azalması (perspektivdə onların tam fiksasiyasına və əlbəttə, həmin valyutaların tam qarşılıqlı dönmə qabiliyyətinə keçidə qədər);
- bank üzrə faiz dərəcələrinin, mübadilə kursları dərəcələrinin müəyyənləşdirilməsi, həmçinin valyuta rezervlərinin idarə olunması ümumavropa səviyyəsində millidən üstün orqanlar tərəfindən, AİB ölkələrinin mərkəzi banklarının birliyi şəklində həyata keçirilməlidir;
- razılaşmanın iştirakçıları tərəfindən eyni istiqamətli fiskal si-yasətin həyata keçirilməsi, dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi və ya profisitinin istifadəsi üsullarının qarşılıqlı nəzarəti üçün ümumi çərçivələri formalaşdırmaq zəruri idi;
- struktur və regional siyasətlərin həyata keçirilməsi zamanı kooperasiya;
- dollara və üçüncü ölkələrin valyutalarına nəzərən valyutaların birgə «üzməsi»;
- əvvəlcə qızıl paritet əsasında, sonra AİB-nə daxil olan ölkə valyutalarının bazasında Avropa hesablaşma pul vahidinin tətbiq edilməsi.

Avropa monetar ittifaqının fəaliyyətə başlama mexanizmi ilə bağlı Birliyin üzvləri arasındakı fikir ayrılıqlarına baxmayaraq, 1971-ci ilin martında belə ittifaqın yaradılması proqramının reallaşdırılması barədə razılaşma əldə olunmuşdur. Proses üç mərhələnin olmasını nəzərdə tuturdu. Birinci mərhələ eksperimental mərhələ kimi nəzərdən keçirilir və bu çərçivədə Avropa valyutalarının qarşılıqlı dəyişmələrinin dinamik azaldılma səyləri nəzərdə tutulurdu. Dolların 1971-ci ilin avqustunda kəskin devalvasiyası nəticəsində bu mərhələ iflasa uğradı. Vernerin ilkin strategiyası ona əsaslanırdı ki, Avropa valyutalarının mübadilə kurslarının dərəcələri Amerika valyutası-

na nəzərən dəyişməz qalacaq. Bazarın qeyri-stabilliyi alman markasına güclü yüksəldici təsir göstərdi və bu, onun digər Avropa valyutalarına nəzərən kursunda özünü dərhal büruzə verdi.

1970-ci illərdə Verner planının uğursuzluğunun səbəblərindən birincisi, millidən üstün valyuta-maliyyə mərkəzinin yaradılmasına siyasi hazırlığın olmaması idi. İkincisi, bu hazırlıqsızlıq qismən üzv ölkələrin iqtisadi inkişafındakı və iqtisadi vəziyyətindəki böyük fərqlərlə əlaqədar idi (indi bu fərqlər 1980-ci illərin ortalarından Avropada başlamış iqtisadi yüksəliş nəticəsində bir qədər silinmişdir). Üçüncüsü, 1970-ci illərdə iki neft şoku, staqnasiya və bir sıra ölkələrdəki inflyasiya ilə sərtləşmiş dünya iqtisadiyyatındakı ümumi əlverişsiz vəziyyət də öz rolunu oynadı.

Vəziyyətdən çıxış yolunu tapmaq cəhdi 1972-ci ilin martında «tuneldə ilan» vasitəsilə baş vermişdir. «İlan» – Avropa valyutalarının dəyişmələrini bir-birlərinə nəzərən bağlayan mexanizmi ifadə edir və bu mexanizm, həmçinin «ilan»ın dollara nəzərən dəyişmələrinin məhdudiyyətlərini müəyyənləşdirirdi. Lakin bu sistemin də aqibəti acınacaqlı oldu. başlayan neft böhranı «tuneldə ilan»a zərbə vurdu. Şübhəsiz, ABŞ ilə nefti ixrac edən ölkələr arasında «neft müharibəsinin» başlanmasını əvvəlcədən görmək və nəticədə, bu müharibənin Avropa valyuta sisteminin formalaşmasına təsirindən qaçmaq çətin məsələ idi. Hətta Bretton-Vud valyuta sisteminin iflasına baxmayaraq (onun qeyri-effektivliyinin nəticəsi dünya birliyinin əvvəlcə faktiki, sonra isə formal surətdə, BVF-nun Nizamnaməsinə Yamaykada qəbul olunmuş düzəlişlər şəklində sərbəst dəyişən, üzən valyuta kurslarına keçid oldu), Avropa valyutalarının Amerika dollarına bağlılığı onu sübut edirdi ki, Avropada əvvəllər olduğu kimi yenə də Avropa inteqrasiyasını yalnız dünya lideri – ABŞ-ın inkişafı ilə qarşılıqlı əlaqədə nəzərdə keçirir və zərurət olan halda onun köməyinə ümid bəsləyirlər. Bundan başqa, yaddan çıxarmaq lazım deyil ki, valyuta kurslarının «ilan» hüdudunda saxlanması könüllü idi və həmişə ayrı-ayrı ölkələr üçün məşəqqətli olurdu (valyuta intervensiyalarına çox böyük vəsaitlər tələb olunurdu). Buna görə də bir sıra ölkələr bu sistemdə ümumiyyətlə iştirak etmir və ya dövri şəkildə oradan çıxırdılar. Belə ki, Böyük Britaniya, İtaliya və İrlandiya öz kurslarını müstəqil şəkildə müəyyənləşdirir, Fransa isə ümumi sistemə gah birləşir, gah da ondan ayrılırdı.

«Tüneldə ilan»ın iflasından sonra monetar ittifaqın Avropada tez bir zamanda sona çatacağını düşünürdülər. Valyuta sistemlərinin birləşməsi barədə təklif 1977-ci ildə Roy Cenkins tərəfindən irəli sürülmüşdür. Roy

Cenkins həmin dövrdə Avropa komissiyasının prezidenti vəzifəsini tuturdu. Məhz bu təklif sayəsində 1979-cu il martın 13-də Avropa valyuta sistemi – AVS yarandı. AVS Avropada gələcək monetar ittifaqın əsası oldu. AVS-nin əsas vəzifələri aşağıdakılar idi: Avropada xarici və daxili valyuta stabilliyinin əldə olunması; üzv ölkələrin iqtisadi əməkdaşlığının təkmilləşdirilməsi; valyuta qeyri-stabilliyinin azalmasına yardım. Valyuta kurslarının marjı +/-2,25% (dar hüdud) və +/-6% (geniş hüdud). Mübadilə kurslarının Avropa mexanizmi (MKAM) müəyyənləşdirilmişdir. Yeni «Avropa valyuta ilanı» Birliyin valyuta problemlərinin kəskinləşməsi ilə əlaqədar olaraq, dəyişikliklərə uğradı. Belə ki, 1993-cü ildə MKAM-nin böhranı nəticəsində 15%-lik vahid hüdud müəyyənləşdirilmişdir.

Bu isə, şübhəsiz, kurs münasibətlərinin maksimal yaxınlaşma prinsipindən geri çəkilmək demək idi. Bundan başqa, AVS heç bir vaxt Birliyin bütün ölkələrini əhatə etmirdi və onun iştirakçılarının tərkibi dəfələrlə dəyişirdi. Göstərilən rejimə riayət olunması bir sıra tənzimləyici tədbirlərlə möhkəmləndirilirdi. Bunlar valyuta kursuna təsir göstərən faiz dərəcələrinin dəyişməsi, kurs münasibətlərinin saxlanması məqsədilə mərkəzi bankların qarşılıqlı kreditləşməsi, valyuta intervensiyaları idi.

Bu sistemin xarakterik cəhəti Avropa valyuta vahidinin (European Currency Unit) – ekyünün yaranmasıdır. Ekyü öz başlanğıcını 1950-ci ildə Avropa ödəniş ittifaqı tərəfindən yaradılmış AİB hesablaşma vahidindən götürür. Roma razılaşması verilmiş hesablaşma vahidini AİB institutları üçün qəbul etmiş və onu 0,88867088 qram təmiz qızılla müəyyənləşdirmişdir. ABŞ dollarının devalvasiyası, o cümlədən valyutaların «üzməsi» barədə və SDR zənbil konsepsiyasının yaradılması barədə qərar (xüsusi borc alma hüquqları, Special Drawing Rights) AİB-ni xüsusi hesablaşma vahidi zənbilinin yaradılma zərurətinə gətirib çıxartdı. Beləliklə, Avropa hesablaşma vahidi (European Unit of Account – EUA) adlanan hesablaşma vahidi yarandı və onun dəyəri tərkibindəki valyuta kurslarının gündəlik dəyişmələrindən asılı olaraq dəyişilirdi. EUA 1976-cı ilin kömür və polad üzrə Razılaşmasının büdcəsinə, AİB-nin 1978-ci il büdcəsinə daxil edilmiş və 1979-cu ilin gömrük əməliyyatlarında istifadə olunmuşdur.

Ekyünün dəyəri və tərkibi EUA-nın dəyərinə və tərkibinə, onların yenidən nəzərdən keçirilməsi şərti ilə identik idi. Ekyü rəsmi valyuta kimi 1978-ci ildə dekabrın 18-də yaranmış, 1979-cu ildə martın 13-də isə Avropa valyuta sisteminin tərkib elementi kimi qüvvəyə minmişdir. Ekyünün dəyəri valyuta zənbili üsulu ilə müəyyənləşdirilirdi. Zənbilə AİB-yə

üzv olan 12 ölkənin valyutası daxil idi. Hər bir valyutanın bu zənbildəki payı Birliyin ümumi məhsulunda ölkənin xüsusi çəkisindən, onların qarşılıqlı ticarət dövriyyəsindən və AVS çərçivəsində qısamüddətli müdafiə kreditlərində iştirakından asılı idi. Ona görə də alman markası ekyüdə daha böyük paya malik idi – təqribən 3%. Fransız frankının payına təqribən 20%, funt sterlinqə – 11,5%, italyan lirəsinə 8%, danimarka kronuna – təqribən 3% düşürdü. Ekyünün tərkibi iki dəfə dəyişikliyə uğramışdır. Birincisi 1984-cü ilin sentyabrında dirhəmin daxil olması zamanı və ikincisi 1989-cu ilin sentyabrında ispan pesetasının və Portuqaliya eskudosunun daxil edilməsi zamanı baş vermişdir.

XX əsrin son onilliyinin əvvəlində Avropa monetar ittifaqının təşəkkül tapması AVS-in fəaliyyətinin müsbət yekunlarını təsdiq etdi. Lakin monetar ittifaqın mərhələli şəkildə yaranması inteqrasiyanın vahid bazar kimi pilləsini nəzərdə tutur. Bundan başqa, birliyə üzv ölkələrin prinsipial siyasi öhdəlikləri zəruri idi. Delor Komitəsinin 1989-cu ilin aprelində tərtib olunmuş məruzəsi belə öhdəliklərin texniki əsasını təmin edirdi. Avropa Şurasının 1985-ci ilin dekabrında Brüsseldə və 1986-cı ilin fevralında Haaqada keçirilən iclasları nəticəsində hazırlanmış və 1987-ci ildə iyulun 1-də qüvvəyə minmiş Vahid Avropa Aktı iqtisadi və monetar ittifaqın tədriclə yaradılmasını məqsəd şəklində təsdiq edirdi. Avropa Şurası 1988-ci ilin iyununda Qannoverdəki iclasında Jak Delorun sədrlik etdiyi Mərkəzi bank müdirləri və ekspertlərinin komitəsinə tapşırmışdır ki, komitə belə ittifaqa gətirib çıxara biləcək konkret mərhələləri öyrənsin və təklif etsin. Komitənin tərtib etdiyi məruzədə əvvəlcə Birliyin iqtisadi və monetar inteqrasiyasının vəziyyəti qısa şəkildə analiz edilir, sonra isə iqtisadi və monetar ittifaqın yekun vəziyyəti və onun əldə olunma mərhələləri təsvir olunurdu.

Avropa birliklərinin Avropa İttifaqına transformasiyası barədə tarixi Maastrixt müqaviləsi 1991-ci ilin dekabrında imzalanmış, ratifikasiya edilmiş və çətinliklərə baxmayaraq, 1993-cü ilin noyabr ayında qüvvəyə minmişdir.

Avropa Birliyi ölkələrinin iqtisadi konvergensıyasının meyarları. 1995-ci ilin dekabrında Avropa Şurasının Madriddəki iclasında avronun tətbiqi proqramı qəbul olunmuş və elə həmin şuranın 1996-cı ilin dekabrında Dublindəki iclasında bu proqram inkişaf etdirilmiş və konkretləşdirilmişdir. Bu proqram və icraedici orqan – AB Komissiyası səviyyəsində qəbul edilmiş digər qərarlar iştirakçı ölkələr üçün iqtisadi

və monetar ittifaqın təkamül prosesinin meyarlarını, o cümlədən vahid valyutanın tətbiqinin müddət və prinsiplərini nəzərdə tuturdu. Avronun tətbiqini nəzərdə tutan ölkələrin uyğunlaşmalı olacağı iqtisadi konvergensiya meyarları xüsusi maraq doğurur.

Avronun fəaliyyəti dövründə göstərilən meyarlara riayət olunması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu. Belə ki, hədsiz büdcə kəsirinə yol vermiş ölkə (ÜDM-in 3%-dən çox) birinci ildə AB komissiyasının xüsusi hesabına öz ÜDM-nin 0,2%-i ölçüsündə depozit üstəgəl müəyyənləşdirilmiş limiti aşan kəsirin hər faizinə 0,1% köçürməlidir. Əgər bu vəziyyət ikinci ildə də qalmaqda davam edirsə, depozitin yalnız əlavə hissəsi ödənilir (ÜDM-in 0,5%-dən çox olmayaraq). Sonralar vəziyyət düzəlmirsə, depozit cərimələrə çevrilir və bu cərimələr «intizamlı» iştirakçıların sərəncamına verilir.

Avropa Birliyi ölkələrinin vahid pul sistemini tənzimləyən ilk maliyyə müəssisəsi Avropa valyuta institutu idi (AVİ). AVİ 1994-cü ildə yanvarın 1-də fəaliyyətə başlamışdır. Maastrixt müqaviləsinə uyğun şəkildə yaradılmış Avropa valyuta institutu Frankfurt-Mayndakı mənzil qərargahı ilə Avropa valyuta əməkdaşlıq fondunu əvəz etdi. AVİ-nin əsas vəzifələri aşağıdakılar idi:

- AB-yə üzv ölkələrin mərkəzi banklarının monetar siyasətlərinin koordinasiyası;
- Avropa valyuta sisteminin fəaliyyətinə nəzarət;
- Avropa mərkəzi banklar sisteminin təşkilinə və vahid valyutaya – avroya keçidə hazırlıq;
- ümumavropa hesablaşma sisteminin effektivliyinin yüksəldilməsi;
- mərkəzi bankların statistikasının unifikasiyası;
- bankların arzusu ilə rəsmi valyuta rezervləri ilə idarəetmə.

AVİ-nun inzibati orqanları aşağıdakılar idi: prezident, baş direktor, AVİ prezidentindən və AB-ə üzv ölkələrin mərkəzi bank müdirlərindən ibarət olan şura. Şura AB-nin Nazirlər Sovetinə və milli hökumətlərə təkliflər və tövsiyələr hazırlayırdı.

Avropa Birliyinin büdcəsi. Ümumi büdcə ilk dəfə 1958-ci ildə Birliyin maliyyə xərcləri planına uyğun şəkildə hazırlanmışdır.

AB-nin büdcə sistemi bir sıra prinsiplər əsasında qurulur. Vahidlik prinsipi o deməkdir ki, AB-nin gəlirləri və xərcləri bir sənəddə toplanmalıdır və bu, ümumi resursların xərclənmə monitorinqinin effektivliyi

barədə mühakimə yürütməyə imkan verir. Avropa birliyinin büdcə münasibətlərinin təşəkkül tapma tarixi bütün gəlirlər və xərclər maddələrinin mərhələli unifikasiyasını və nəticədə vahid büdcədə toplanmasını göstərir. Universallıq prinsipi iki qaydaya əsaslanır: büdcə gəliri xərclərin ayrı-ayrı maddələrinə bağlana bilməz, bütün gəlirlər və xərclər bir-biri ilə uyğunlaşdırılmadan bütövlükdə büdcəyə daxil edilməlidir. İllik prinsip büdcə əməliyyatlarının müəyyən maliyyə ilinə uyğunluğunu nəzərdə tutur. Bu, büdcənin icrasına nəzarət üzrə Avropa komissiyasının fəaliyyətini asanlaşdırır. Bununla belə, bəzən çoxillik büdcə xərclərinin müəyyənləşdirilməsi tələb olunur və bu, maliyyə perspektivi prinsipinə uyğun olaraq, illik prinsipə ziddiyyət təşkil etmir, çünki çoxillik xərclər illik büdcədə nəzərə alınır. Tarazlıq prinsipi tələb edir ki, maliyyə ilində proqnozlaşdırılan gəlirlər həmin ilin ödənişləri üzrə təxsisatlara uyğun gəlsinlər. Büdcənin kəsiri nəzərdə tutulmamışdır. Avropa komissiyasına öz xərclərinin ödənilməsi üçün borcları həyata keçirmək qadağan edilmişdir. Kəsirin yaranma halında (Avropa təcrübəsində bu, istisna haldır) onun ölçüsü növbəti ilin büdcəsinin məxaric hissəsinə keçirilir. Bir qayda olaraq, büdcə profisitlə yekunlaşır və onun aktiv saldosu gələn ilin büdcəsinin gəlirinə daxil edilir. Xərclərin spesifiklik prinsipi o deməkdir ki, təxsisatların hər bir məbləği konkret təyinata və əsaslandırılmaya malik olmalıdır.

Avropa Birliyinin büdcəsi AB-nin inkişaf siyasətinin və strategiyasının reallaşdırılmasına yardım etməyə yönəlmişdir və aşağıdakıları nəzərdə tutur:

- valyuta stabilliyinin yaradılması;
- müasir və dinamik Avropa sənayesinin inkişafı;
- yeni texnologiyaların inkişafının stimullaşdırılması;
- müxtəlif regionların sosial və mədəni inkişaf səviyyələrinin bərabərləşdirilməsi.

AB-nin büdcə gəlirlərinin formalaşdırılmasının əsas prinsipləri aşağıdakılardır: birgə maliyyə məsuliyyəti prinsipi, AB-yə üzv dövlətlərin maliyyə həmrəyliyi prinsipi. Birgə maliyyə məsuliyyəti prinsipinə görə, AB-ə üzv olan bütün dövlətlər AB-nin büdcə gəlir-lərinin formalaşdırılmasında iştirak etməyə borcludurlar. AB-yə üzv dövlətlərin maliyyə həmrəyliyi prinsipi o deməkdir ki, AB-yə üzv dövlətlərin üzvlük haqları onların maliyyə imkanlarına mütənasib olmalıdır.

AB-də büdcə xərclərinin qurulma prinsipləri aşağıdakılardır: AB-yə üzv dövlətlərin iqtisadi və sosial həmrəyliyinin möhkəmləndirilməsi (büdcə ma-

liyyələşməsi AB-yə üzv dövlətlərin iqtisadi vəziyyətlərinin bərabərləşdirilməsinə, sosial ziddiyyətlərin həllinə kö-mək etməlidir); həmrəylik prinsipi; hərçənd yoxsul ölkələr maliyyə resurslarının böyük həcmlərinə ehtiyac duysalar da, AB-yə üzv digər dövlətlər də büdcənin maliyyələşdirilməsi hüququna malikdirlər; büdcə intizamı prinsipi (vəsaitlərin xərclənməsinin iqtisadi effektivlik prinsipi). Əgər AB-yə üzv dövlətə maliyyə yardımının həcmi onun ÜMM-i ilə müqayisədə nəzərəçarpacaq dərəcədə çoxdursa, belə resurslardan effektiv şəkildə istifadə etmək çətinləşir və bu da iqtisadiyyatdakı dəyişikliklərə gətirib çıxara bilər.

Avropa Birliyində büdcə prosesi və ya büdcə proseduru bir neçə mərhələdən ibarətdir.

Maastrixt müqaviləsinə uyğun olaraq (maddə 203), AB büdcə layihəsinin hazırlanma işi bilavasitə üç institutun vəzifəsidir. Bunlar Avropa komissiyası, AB Nazirlər Şurası və Avropa parlamentidir. AB institutlarının rolları aşağıdakı kimi bölüşdürülmüşdür. Avropa komissiyası, adətən, oktyabrın 5-də yeni qanunverici aktın qəbulunu təklif edir. Avropa parlamenti layihə barədə öz fikirlərini bildirir və ona düzəlişlər təklif edir. AB Şurası isə qəti qərar çıxarır. Ona görə də Avropa Komissiyası büdcənin ilkin layihəsini hazırlayır. Avropa Komissiyasının qərarları səs çoxluğu ilə qəbul olunur. Avropa Komissiyasının üzvləri şəxsən səs verirlər və onun qərarları üçün kollektiv məsuliyyət daşıyırlar. Bu da kollegiallıq prinsipini vurğulayır.

Daha sonra AB büdcə layihəsi müzakirə və təsdiq edilmək üçün AB Nazirlər Şurasına təqdim edilir. AB Şurası, bir qayda olaraq, ildə iki dəfə yığışır. Onun tərkibinə AB-ə üzv dövlətin hökumətindən olan iqtisadiyyat naziri və ya maliyyə naziri, Avropa Komissiyasının uyğun üzvü daxildir. AB Şurası Avropa Komissiyasının təqdim etdiyi büdcə layihəsini nəzərdən keçirir (məcburi xərclər hissəsində) və təsdiq ediləndən sonra onu Avropa Parlamentinə göndərir. Avropa Parlamenti layihəni 45 gün ərzində nəzərdən keçirir. Qərarların qəbul edilməsi üzrə səlahiyyətlər Avropa Şurası ilə Avropa Parlamenti arasında bölüşdürülür, çünki bütün xərclər AB büdcəsinin məcburi və qeyri-məcburi xərclərinə ayrılır (şəkil). Əgər bu dövr ərzində Avropa Parlamenti büdcə layihəsinə «hə» deyirsə və ya düzəlişlər daxil etmirsə, yaxud heç bir modifikasiya təklif etmirsə, büdcə qəti şəkildə qəbul edilmiş hesab olunur. Əgər bu müddət ərzində Avropa Parlamenti düzəlişlər daxil etsə və yaxud modifikasiyalar təklif etsə, dəyişdirilmiş büdcə layihəsi AB Şurasına göndərilir və bununla da razılaş-

dırmaların növbəti, daha mürəkkəb mərhələsi başlayır.

Büdcə layihəsi Avropa Parlamentində müzakirələrin iki mərhələsindən keçir (iki oxunuş). Birinci mərhələdə hər bir deputat büdcə layihəsinə dəyişikliklərin və əlavələrin daxil edilməsi təklifi ilə çıxış edə bilər. Layihə təkcə büdcə üzrə ixtisaslaşdırılmış komitədə deyil, həm də digər komitələrdə müzakirə olunur. Büdcə layihəsində dəyişikliklər barədə düzəlişlərin qəbul edilməsi üçün Avropa Parlamentində səs çoxluğunu almaq zəruridir. Planlaşdırılmış xərclərin artırılması ilə bağlı dəyişikliklər barədə düzəlişləri Avropa Parlamenti peşəkar əksəriyyətlə həll edir (səslərin beşdə üç hissəsi).

AB qanunvericiliyi ilə birbaşa qeyd edilməmiş qeyri-məcburi xərclərin nəzərdən keçirilməsi zamanı son söz Avropa Parlamentinə məxsusdur. Avropa Parlamenti maliyyə resurslarını yenidən bölüşdürməklə yanaşı, onların həcmini də müəyyən hüdudda artıra bilir. Artımın maksimal norması Avropa Komissiyası tərəfindən müxtəlif makroiqtisadi göstəricilər əsasında hesablanır və yalnız AB Nazirlər Şurası bu təkliflə razılaşdığı halda yüksəldilə bilir. Məcburi xərclər büdcənin əsas hissəsini təşkil edir. bunlar əsas etibarilə ümumi aqrar siyasətin maliyyələşdirilməsi ilə bağlı xərclərdir və onların böyük hissəsi qiymətlərin saxlanmasına yönəldilir. Avropa Parlamenti xərclərin ümumi məbləği artırılmadan, xərclərin bu kateqoriyasının dəyişməsini təklif edə bilər. Əgər təkliflər AB Şurası tərəfindən peşəkar əksəriyyətlə rədd edilmirsə, onlar qəbul olunur.

Büdcənin müzakirəsinin ikinci mərhələsində Avropa Parlamentində aşağıdakılar baş verir. Əgər AB Şurası 15 gün ərzində hər hansı bir təklifi dəyişdirirsə, bu halda büdcə layihəsi yenidən uyğun ixtisaslaşdırılmış komitəyə göndərilir. Eyni zamanda hər bir deputat və hər bir komitə AB şurasının təqdim etdiyi büdcə layihəsinə düzəlişlər təklif edə bilər. Birinci mərhələdə olduğu kimi, ümumi məruzə uyğun ixtisaslaşdırılmış komitə tərəfindən hazırlanır, Avropa Parlamenti isə peşəkar əksəriyyətlə qərar qəbul edir. Əgər AB şurasının düzəlişləri qəbul olunursa, büdcənin uyğun hissəsi AB Şurasının redaksiyasında qəbul edilmiş hesab olunur, əks halda rədd edilmiş hesab olunur. Avropa Parlamenti büdcə layihəsini peşəkar əksəriyyətlə bütövlükdə rədd edə də bilər. O, bu hüququndan bir neçə dəfə istifadə etmişdir. Lakin Avropa Parlamentinin təklif edilmiş büdcə ilə razılaşmaması ciddi hüquqi nəticələrə gətirib çıxarmır. Avropa Parlamenti yeni büdcə layihəsinin təqdim edilməsini yalnız tələb edə bilər (Avropa Parlamentinin özü büdcəni hazırlamaq hüququna malik deyil).

Büdcənin təsdiqindən sonra büdcə prosesinin növbəti mərhələsi – büdcənin icrası gəlir. Avropa Birliyində büdcə ili təqvim ili ilə üst-üstə düşür və yanvarın 1-də başlayıb, dekabrın 31-də başa çatır. Büdcənin icrası ilə Avropa Komissiyası məşğul olur. Avropa komissiyası AB-nin maliyyəsini idarə edir (AB-nin büdcəsi, fondları və proqramları, AB-yə üzv olmayan dövlətlərə yardım göstərilməsinə yönəlmiş proqramlar da daxil olmaqla). Avropa Komissiyasının nəzarət funksiyası onunla təzahür olunur ki, Avropa Komissiyası AB-də işlərin vəziyyətini analiz edir, bu məqsədlə məlumatları toplayır, yoxlamalar keçirir, analizlər aparır (o cümlədən büdcənin icrasının yoxlanması). Avropa Komissiyasının icmalları və məruzələri büdcənin icrası barədə hesabatda sistemləşdirilərək, Avropa Parlamentinə, AB Nazirlər Şurasına, AB-nin digər institutlarına və AB-yə üzv dövlətlərin hökumətlərinə göndərilir.

AB Nazirlər Şurası, həmçinin mühüm nəzarət funksiyalarına malikdir və bu funksiyaları həm müstəqil şəkildə, həm də digər institutlarla əməkdaşlıq şəraitində yerinə yetirir. AB Nazirlər Şurası büdcənin icrası ilə bağlı öz tövsiyələrini Avropa Parlamentinə göndərir və onunla birgə hesabları və maliyyə deklorasiyalarını, illik hesabatı və Auditorlar Palatasının istənilən digər xüsusi məruzələrini yoxlayır. Avropa Komissiyasının təklifi ilə və Avropa Parlamenti ilə məsləhətləşmədən sonra, həmçinin Auditorlar Palatasının rəyinin alınması üçün AB Nazirlər Şurası aşağıdakı fəaliyyəti həyata keçirir:

- büdcənin tərtib edilmə və yerinə yetirilmə prosedurunu, həmçinin hesabatın təqdim olunma və yoxlanma prosedurunu müəyyənləşdirərək, maliyyə reqlamentlərini hazırlayır;
- AB-nin xüsusi resursları barədə razılaşmalarla nəzərdə tutulmuş büdcə gəlirlərinin Avropa Komissiyasının sərəncamına verilməsi prosedurlarını və üsullarını müəyyənləşdirir və onun nağd vəsaitlərə olan tələbatını təmin etmək üçün zəruri hallarda görüləcək tədbirləri müəyyənləşdirir;
- maliyyə nəzarətçilərinin, kredit sərəncamçılarının, mühasiblərin, o cümlədən lazımi müfəttiş təşkilatının məsuliyyəti ilə bağlı qaydaları müəyyənləşdirir.

Maastrixt müqaviləsi Auditorlar Palatasının əhəmiyyətini gücləndirərək, ona AB-nin orqanı statusunu verdi və funksiyalarını genişləndirdi. Auditorlar Palatası AB – üzv dövlətlərin, həmçinin AB-dən maliyyə yardımı alan üçüncü ölkələrin öz ərazilərində yerinə yetirdikləri əməliyyatların yox-

lanmasını (məsələn, kənd təsərrüfatı ilə bağlı xərclər, gömrük, rüsumlarından gələn daxilolmalar) AB adından həyata keçirə bilərlər.

Avropa Parlamenti büdcənin icrası prosesində yaranan problemlərə nəzarət edir və nəzərdən keçirir. Onun tapşırığı əsasında bu məsələ ilə Büdcəyə nəzarət üzrə Komitə, zəruri hallarda isə digər komitələr məşğul olur. Büdcənin istifadəsi üzrə xarici təftişlər Auditorlar Palatası və Avropa Parlamenti tərəfindən həyata keçirilir. Auditorlar Palatası büdcə vəsaitlərinin alınma və istifadə qaydalarına riayət olunmasını yoxlayır, maliyyə vəsaitlərinin idarəetmə vəziyyəti barədə rəy verir. Avropa Parlamenti büdcənin icrası məsələlərində Auditorlar Palatasının hazırladığı məruzələrə əsaslanaraq, AB siyasətinin Avropa Komissiyası tərəfindən reallaşdırılmasına nəzarət edir. Avropa Palatası Auditorlar Palatasının məruzələrini öyrənəndən sonra AB şurasının tövsiyələrini rəhbər tutaraq, büdcənin reallaşdırılması üzrə Avropa Komissiyasının işi barədə nəticə çıxarır.

Avropa Parlamenti AB xərcləri üzərində parlament nəzarətinin gücləndirilməsi üçün və büdcənin icrası barədə hər il qəbul edilən qərarlara maksimal çəki vermək üçün tədqiqatlar aparmaq, rəy vermək, illik hesabatlar tərtib etmək üzrə Auditorlar Palatasının imkanlarından istifadə edir.

Avro - Avropa Birliyinin pul vahidi kimi. Avropa kontinentində birgə valyutanın yaradılması ideyası, beynəlxalq valyuta sisteminə böyük zərbə vuran II Dünya Müharibəsindən sonra yaranıb. Müharibədən sonrakı Bretton-Vud modelli beynəlxalq valyuta sistemi Britaniya funt sterlinqinin liderliyini əlindən alan ABŞ dollarına əsaslanırdı. Nəticə olaraq, 1950-ci ildə AFR, Fransa, Birləşmiş Krallıq, Belçika, Niderland, Lüksemburq, Danimarka, İsveçrə, Norveç, İslandiya, İsveç, Avstriya, İtaliya, Yunanistan, Portuqaliya və Türkiyənin daxil olduğu Avropa Ödəniş Birliyi yaradılmışdır. Sonradan Birlik Avropa Valyuta Sazişinə çevrilmişdir. Lakin, tamdəyərli valyuta əməkdaşlığının ilk real addımı AFR, Fransa, Belçika, Niderland və Lüksemburq tərəfindən 1957-ci ildə Roma Sazişinin imzalanması nəticəsində Avropa İqtisadi Birliyinin yaradılmasıdır. Artıq 1962-ci ildə AİB-in Komissiyası üzv ölkərin birgə valyuta ideyasının səsləndirdi. 1969-cu ildə Fransa frankına qarşı Almaniya markasının revalvasiyası bu prosesi daha da tezləşdirdi. 1970-ci ilin oktyabr ayında milli valyutaların qarşılıqlı konvertasiyası, kapital hərəkətinin liberallaşdırılması, daimi valyuta kurslarının müəyyən edilməsi və 1980-ci ilə qədər milli valyutaların birgə Avropa valyutası ilə əvəz edilməsini nəzərdə tu-

tan Verner planı qəbul edilmişdir. Lakin Verner planını həyata kecirmək mümkün olmadı.

1975-ci ilin aprel ayında Avropa İttifaqında Avropa Hesablaşma Vahidi – AHV tətbiq edilmişdir. AHV-nın məzənnəsi dollardan yox, sırf onu tərtib edən Avropa ölkələrinin milli valyutalarının bazar məzənnələri əsasında müəyyən edilirdi. Sözügedən vahid Avropa İqtisadi Birliyinin büdcəsində və dövlətlərarası hesablaşmalarda, Avropa İnvestisiya Bankının əməliyyatlarında istifadə olunurdu.

1977-ci ildə valyuta birliyinin ideyası yenidən gündəmə gətirildi. 1978-ci ilin dekabr ayında AİB-in Brüsseldə keçirilən toplantısında Avropa Valyuta Vahidi Ekyu və onun əsasında qurulan Avropa Valyuta Sistemi yaradılmışdır. Bu valyuta sisteminə AİB-in bütün üzv ölkələri daxil edilmişdir. 7 fevral 1992-ci il tarixində qəbul edilən Maaştrix Sazişi vahid valyutanın tətbiqini mərhələlərə bölürdü.

Hazırda Aİ-nin 11 ölkəsi (Birləşmiş Krallıq, Danimarka, İsveç, Bolqarıstan, Çex Respublikası, Macarıstan, Polşa, Rumıniya, Estoniya, Latvya, Litva) avrodan istifadə etmir Birləşmiş Krallıq, Danimarka və İsveç Maaştrix Sazişini imzalamasına baxmayaraq öz milli valyutalarından istifadə edirlər.

Avro Avropa İttifaqına daxil olmayan lakin onun iqtisadi və monetar sisteminə qoşulan Monako, San-Marino və Vatikan tərəfindən istifadə edilir. Lakin bu ölkələr Avrozonaya daxil deyil, Avropa Mərəzi Bankında və Avroqrupda təmsil olunmurlar. Bundan əlavə Kosovo və Monteneqro rəsmi saziş əldə etmədən avronu yeganə pul vahidi kimi istifadə edirlər.

Ümumiyyətlə, indiki dövrdə avro ABŞ dollarından sonra ikinci beynəlxalq ehtiyat valyutasıdır. Hal-hazırda dünyanın strateji valyuta ehtiyatlarının ümumi həcminin 26.5%-i avroda saxlanılır.

Avro sikkələrinin bir üzü eyni dizayna malikdir, yəni 16 Avrozona ölkələrinin xəritəsi və sikkənin dəyəri təsvir edilib, digər üzündə isə sikkəni emissiya edən ölkənin seçdiyi şəkil təsvir olunur.

Avro banknotların bütün avro ölkələrində eyni dizayna malikdirlər. Banknotlar €500, €200, €100, €50, €20, €10 və €5 emissiya edilirlər. €500 və €200 dəyərli banknotlar bütün avrozona ölkələrində emissiya olunmurlar, lakin dövriyəyə buraxılırlar. Avronu Avrozonaya daxil olan bütün ölkələr emissiya edir. kodu hesab edilir. (Avstriya - N, Belçika – Z , Finlandiya - L, Fransa – U, Almaniya – X, Yunanistan – Y, İrlandiya – T, İtaliya – S, Lüksemburq – R, Niderland - P, Portuqaliya – M, İspaniya - V,

İsveç – K, Birləşmiş Krallıq - J, Danimarka – W). İsveç, Birləşmiş Krallıq və Danimarka Avrozonaya daxil olmaqlarına baxmayaraq, onların da "kodu" artıq müəyyən edilib.

Avronun saxtalaşdırılmasına qarşı qəbul edilən üsullardan biri də əskinasların üzərindıki nömrələdir. Hər banknotun öz idensifikasiya nömrəsi var. Nömrə hərif və 11 rəqəmdən ibarətdir. Hərif - əskinası emissiya edən ölkənin

Avropa mərkəzi bankı. Avropada ortaq bir bazarın qurulması ilə əlaqədar qərar 1957-ci ildə Romada alınmışdır. Avropa Birliyinin əsas məqsədi - rəqabət sistemini gücləndirmək və sərmayənin hərəkətini sərbəstləşdirməkdir. 1979-cu ildə Avropa Valyuta Sistemi quruldu. Belçika, Lüksemburq, Hollandiya, Almaniyanın dövlət başçıları bu ölkələrdə etibarlı olan pul vahidi ekyunu yaratdılar. Sonradan Avropa Valyuta Sisteminə İngiltərə, Finlandiya, Portuqaliya, Yunanıstan və İspaniya da girdi. 1991-ci ildə Maastrixdə (Hollandiyanın bir qəsəbəsi) Avropa İqtisadi və Valyuta Birliyi haqqında müqavilə imzalandı. 1994-cü ildə Avropa komissiyası, Avropa Birliyi ölkələrinin iqtisadi göstəricilərinin təhlili nəticəsində Avrosisteminə daxil olacaq 11 ölkənin adını açıqladı. Avrosisteminə İngiltərə, İsveç, Danimarka kimi ölkələr daxil olmadı. 31 dekabr 1998-ci ildə Avropa Birliyi ölkələrinin maliyyə nazirləri Avroya qarşı milli pul vahidlərinin dəyərini müəyyən etdilər. May 2004-ci ildə AB daxil olan ölkələr: Macarıstan, Kipr, Litviya, Litva, Malta, Polşa, Slovakiya, Sloveniya, Çexiya və Estoniya. 2007 ildə Bolqariya və Rumıniya kimi ölkələr Avropa Birliyinə daxil oldular.

Avrozonanın 13 üzv ölkəsinin monetar siyasətinin həyata keçirilməsindən cavabdeh olan Avropa Mərkəzi Bankı (AMB) dünyanın ən nüfuzlu mərkəzi banklardan biridir. Avropa İttifaqı institutları və üzv ölkələr tərəfindən hər hansı siyasi müdaxilə görməyən AMB Avropa İttifaqından ayrı büdcəyə malik olmaqla maliyyə müstəqilliyini də qoruyub saxlamaqdadır (iqtisadçıların ümumi konsensusa əsasən müstəqil mərkəzi bank makroiq-tisadiyyatın siyasi məqsədlərlə manipulyasiyasının qarşısının alınması üçün ən yaxşı vasitədir). Hesabatlılıq məqsədilə AMB öz fəaliyyətinə dair hesabatlar hazırlamalı və illik hesabatını Avropa Parlamenti, Avropa Komissiyası, Avropa İttifaqı Şurası və Avropa Şura-sına göndərməlidir. Maaştraxt Sazişi üzrə Avropa Mərkəzi Banklar Sistemi (AMBS) aşağıdakı funksiyaların yerinə yetirilməsinə görə cavabdehdir:

- Monetar siyasətin müəyyənləşdirilməsi və realizasiyası;

- Xarici valyuta əməliyyatlarının idarə olunması;
- Üzv ölkələrin rəsmi xarici ehtiyatlarının saxlanılması və idarə olunması;
- Ödəniş sistemləri üzrə hamar əməliyyatlarının keçirilməsinin dəstəklənməsi.

1998-ci ildə Avropa mərkəzi bankının təsisatı ilə Maastrixt müqaviləsinin maddələrinə uyğun olaraq AVİ ləğv edilmiş, onun bütün aktivləri və öhdəlikləri isə Avropa mərkəzi bankına keçmişdir. Elə həmin dövrdən də başlayaraq, Avropa mərkəzi bankının rəhbərliyi ilə Avropa mərkəzi banklar sistemi (AMBS) yaradılmış və Avropa Birliyinə üzv olan 15 ölkənin mərkəzi bankları bu sistemə daxil olmuşdur. Beləliklə, bu sistem qismən ABŞ-ın Federal rezerv sisteminə – Nyu-York bankının başçılığı ilə 12 bankı əhatə edən və mərkəzi bank rolunu yerinə yetirən Federal rezerv sisteminə oxşardır.

Avropa mərkəzi bankı üçün xarakterik xüsusiyyət ondan ibarətdir ki, sadə və ya peşəkar (səslərin üçdə ikisi) çoxluqla qəbul edilən bütün mühüm qərarlar mərkəzi bank rəhbərlərinin «çəkiyə malik» səsverməsini nəzərdə tutur və bu halda «çəki» (yəni, hər biri-nin səslərinin sayı) AMB-nin ümumi kapitalında ölkənin (onun mərkəzi bankının) payı ilə müəyyənləşir. Bu, İcraiyyə şurasının üzvlərinə aid edilmir və onların hər biri yalnız bir səsə malik olur. Avropa mərkəzi bankının direktorlar şurası ildə 10 dəfədən az olmayaraq iclas keçirir.

AMBS-nin funksiyaları istənilən digər mərkəzi bankın funksiyaları kimidir. Lakin bu funksiyalar bir dövlətə deyil, ölkələr qrupuna tətbiq olunur. Onlar aşağıdakılardır:

- Avropa Birliyinin monetar siyasətinin müəyyənləşdirilməsi və həyata keçirilməsi;
- valyuta əməliyyatlarının idarəetməsi;
- AB-yə üzv ölkələrin rəsmi valyuta ehtiyatlarının saxlanması və idarə edilməsi (bu halda valyuta ehtiyatlarının müəyyən hissəsi – «cari balanslar» – iştirakçı ölkə hökumətlərinin sərəncamında qalır);
- ödəniş sisteminin normal fəaliyyətinin təmin edilməsi.

Bundan başqa, Avropa mərkəzi bankı (öz səlahiyyətləri çərçivəsində) məsləhətçi funksiyaları yerinə yetirir, statistik məlumatları toplayır və əsasən də beynəlxalq əməkdaşlıqda iştirak edir, xüsusi halda, AB-ni beynəlxalq maliyyə təşkilatlarında təmsil edir. Maraqlıdır ki, AMB-nin ra-

zılığı və istəyi ilə bu təşkilatların işində milli mərkəzi banklar da iştirak edə bilər.

AMB-nin əsas funksional vəzifəsi Avropa Birliyinin vahid monetar siyasətinin həyata keçirilməsidir. Bu vəzifə birlik ölkələrində qiymətlərin stabilliyinin təmin edilməsinə istiqa-mətlənmişdir. Avropa mərkəzi bankı inflyasiya məqsədi qismində «avro zonası» üçün İstehlak qiymətlərinin harmonizasiyalaşmış indeksindən (İQHİ) istifadə edir. Fərdi milli inflyasiya göstəriciləri «avro zonasında» monetar siyasət üçün əhəmiyyət kəsb etmirlər. Məsələ bundadır ki, AMB valyuta zonasındakı qiymətlərin orta inkişafına yalnız bərabərləşdirilə bilir. İQHİ hər il 2%-dən çox olmayaraq arta bilir. Bununla da Avropa mərkəzi bankı İQHİ zənbilindəki məhsulların keyfiyyətinin yüksəlməsi səbəbindən qiymət artımının qaçılmazlığını mümkün hesab edir və bununla da real qiymət artımının yüksəlmə effektinə gətirib çıxarır.

Avropa Mərkəzi Bankı avro zonasında vahid monetar siyasətinin tətbiqi üçün aşağıdakı vasitələrdən istifadə edir.

Birincisi, inflyasiya səviyyəsinə nəzarət ilə bağlı əsas pul aqreqatları üçün məqsədyönlü cari qiymətlərin müəyyən olunması nəzərdə tutulur.

İkincisi, baza faiz dərəcələrinin, o cümlədən, onların bütün avro zonası üzrə yayılması müəyyən olunur. AMB bütün avro zonası ölkələri üçün vahid sayılan yenidən maliyyələşmə qiymətini müəyyən edir. Faiz dərəcələrinin xarakteri və dəyişilməsi həcmi onların həcmindən asılıdır.

Üçüncüsü, kommersiya bankları üçün, eləcə də, faiz mükafatına nisbətdə minimal ehtiyat tələbləri müəyyən olunur. Öhdəliklərin vahid siyahısı müəyyən edilmişdir və bunun üçün normativ, həmçinin vəsaitlərin ehtiyatda saxlanması müddətinə əməl edilməməsi üçün cərimə sanksiyaları tətbiq edilir. Bu vəzifələrdən biri kimi minimal ehtiyat tələblərinin müəyyən olunması AVİ ölkələrində faiz dərəcələri bərabərləşdirilməlidir.

Dördüncüsü, daim fəaliyyətdə olan mexanizmlər adlanan avro pul bazarında likvidliyin tənzimlənməsi üzrə qısamüddətli əməliyyatların məcmusu müəyyən olunur. Onlar bütövlükdə AMB-nin kredit və depozit mexanizmlərinə bölünür. Beləliklə, depozit mexanizminə kredit institutlarının müvəqqəti əldə olan pul vəsaitlərinin bir günlük AMB-nin depozitlərinə (overnight depozitləri) yerləşdirilməsi aid edilir. Bu depozitlər üzrə müəyyən olunan dərəcə (norma) avro bazarının birgünlük banklararası kreditlərinin aşağı həddini təşkil edir və AMB faiz dərəcələri sistemində minimal baza dərəcəsi hesab olunur. Analoji olaraq kredit mexa-

nizmlərinə Avrosistemin istənilən mərkəzi bankı tərəfindən birgünlük kreditlərin verilməsi aid edilr. Müvafiq faiz dərəcəsi birgünlük banklararası avro kreditləri bazar qiymətinin yüksək həddini müəyyən edir.

AMB AVİ mərkəzi banklarına birgünlük kreditlərin verilməsi formasını müstəqil seçmək hüququ vermişdir və girov (lombard) kreditləri və birbaşa birgünlük repo sövdələşmələri onların içərisində ən əsası hesab olunur.

Birgünlük kreditlər üzrə AMB tərəfindən müəyyən olunan və iki kateqoriyaya bölünən aktivlər girov kimi istifadə edilə bilər. Hər iki kateqoriyadan olan aktivlər üzrə kriteriyalar da həmçinin AMB tərəfindən müəyyən olunmuşdur. Kredit institutu özünün milli mərkəzi bankında yenidən maliyyələşmə kreditlərinin alınması zamanı bu kateqoriyalardan birindən olan aktivləri ABİ ərazisində hər hansı depozitara yerləşdirir. AMB girov qoyulmuş aktivlərin bazar qiymətindən asılı olaraq verilən kreditlərin həcmini, eləcə də, qeyd olunan bazar qiymətinin dəyişdiyi halda, əlavə ödəmələrə dair normativləri müəyyən etmişdir.

Beşincisi, açıq bazarda əməliyyatlar aparılır və bununla AVİ-də, bir qayda olaraq, yalnız qiymətli kağızlar bazarında aparılan əməliyyatlar deyil, mərkəzi bankların bazarda bərabər hüquqlu kontragentlər kimi çıxış etdiyi hər hansı sövdələşmə nəzərdə tutulur. Qeyd olunan əməliyyatlar arasında başlıca və uzunmüddətli yenidən maliyyələşmə vasitəsi, o cümlədən, ehtiyatla təşkil edilən və struktur əməliyyatlar daha çox əhəmiyyət kəsb edir. Əsas yenidən maliyyələşmə vasitəsinə əsasən kedit institutları arasında 14 gün müddətinə sabit faiz dərəcəsi üzrə həftəlik auksionların keçirilməsi tələb edilir. Uzunmüddətli yenidən maliyyələşmə vasitəsi əsas maliyyələşmə vasitəsi ilə oxşardır, amma burada üçaylıq kreditlərlə aylıq auksion ticarətinin təşkil olunması tələb olunur. O, avroya keçid etməzdən əvvəl, təkrar hesaba alınan veksellər vasitəsilə bir sıra AVİ ölkələrində qüvvədə olan uzunmüddətli yenidən maliyyələşmə formasını dəyişdirmişdir. Hər iki yenidən maliyyələşmə vasitələri üzrə auksionlar qeyri-mərkəzləşmiş şəkildə, yəni, Avrosistemin mərkəzi bankları tərəfindən keçirilir, amma satışa qoyulmuş kredit vəsaitlərinin ümumi həcmi AMB vasitəsilə təyin olunur. Ehtiyatla təşkil edilən və struktur əməliyyatlar, AVİ bazarlarında likvidliyin və faiz dərəcələrinin tənzimlənməsi üçün təcili müdaxilə lazım olduqda, qısa müddət ərzində müntəzəm və tez-tez aparılır. Bura, xüsusi olaraq, “sürətli” kredit və depozit tenderləri, valyuta mübadilə svopları (yəni, hər hansı valyutanın

alqı-satqısı üzrə spot və forvard sövdələşmələrin eyni zamanda razılaşdırılması), AMB-nin diskont borc öhdəlikləri aid edilir.

Avropa mərkəzi bankı M3 aqreqatını tövsiyəçi monetar yönəldicisi qismində nəzərdən keçirir. 1998-ci ilin dekabrında M3 pul aqreqatının artımının 1999-cu il üçün baza yönəldicisi 1999-cu ilin dekabrından 4,5% səviyyəsində müəyyənləşdirilmişdir. Daha sonra 2000-ci ilin dekabrında uyğun olaraq 2000 və 2002-ci illər üçün yenidən təsdiq edilmişdir.

Pul kütləsinin ölçüsündən başqa, monetar siyasətin digər yönəldiciləri də və eyni zamanda potensial obyektləri mövcuddur: qısamüddətli faiz dərəcələri və valyuta kursu. Bu iki göstəricidən başqa, real iqtisadi aktivliyin parametrləri, əmək haqları, qiymət və dəyər indeksləri, qiymətli kağızların dəyərləri və büdcə-vergi siyasətini də xarakterizə edən bəzi digərləri həmçinin indikatorlara aid edilə bilər.

Beləliklə, monetar siyasətin reallaşdırılması zamanı AMB üç əsas alətdən istifadə edir:

1. açıq bazarda əməliyyatlar;
2. sutkalıq borcların təqdim edilməsi («overnayt» kreditləri);
3. minimal məcburi ehtiyat normativinin tənzimlənməsi.

Açıq bazardakı əməliyyatlar likvid vəsaitlərin tələb və təkliflərinin tənzimlənməsinə istiqamətlənmişdir.

AMB-də açıq bazardakı əməliyyatların dörd növünü fərqləndirirlər.

1. əsas yenidən maliyyələşdirilmə əməliyyatları bank sisteminə likvid vəsaitlərin qaytarılmaq şərti ilə verilməsi üzrə AMB-nin fəaliyyətini təmsil edir və bazar faiz dərəcələrinin dinamikasına təsir göstərir;
2. uzunmüddətli maliyyələşdirmə əməliyyatları da həmçinin maliyyə sektoruna likvidliyin verilməsi üçün nəzərdə tutulmuşdur, lakin əsas əməliyyatlarla müqayisədə daha uzun müddəti əhatə edir. Bundan başqa, bu əməliyyatların həyata keçirilməsi zamanı AMB bazarın xəbərdar edilmə məqsədini və bazar faiz dərəcələrinin idarə edilmə məqsədini daşımır. Əksinə, artıq təşəkkül tapmış faiz dərəcələrindən istifadə edir;
3. «dəqiq tənzimləmə» əməliyyatları zəruri hallarda aparılır. Onların məqsədi faiz dərəcələrinə bazar likvidliyi ölçüsündə gözlənilməz dəyişikliklərlə bağlı təsirlərin hamarlaşdırılması, aradan qaldırılmasıdır;
4. struktur əməliyyatlar bank sisteminə nəzərən AMB-nin kifayət

qədər uzun müddət üçün struktur mövqeyinin təshih edilməsi məqsədilə aparılır. Əməliyyatlar aktivlərin alışı üzrə qaytarılan və qəti sövdələşmələr yolu ilə, aktivlərin qəti satışı və AMB-nın borc sertifikatlarının buraxılması yolu ilə qeyri-müntəzəm şəkildə həyata keçirilir.

Sutkalıq borclar və depozitlər bazar iştirakçılarının ümumi vəziyyət barədə və AMB-nin kreditləri və depozitləri üzrə «overnayt» bazar dərəcələrinin yuxarı və aşağı hüdudlarının müəyyənləşdirilməsi yolu ilə monetar siyasətin istiqaməti barədə xəbərdar edilməsi mexanizmi vasitəsilə bazarda sutkalıq likvidliyin doldurulması və ya aradan qaldırılması üçün nəzərdə tutulmuşdur.

AMB-nin varisi olan Avropa Monetar İnstitutu Avronu qəbul edən ölkələrin keçid dövrü məsələlərinin həyata keçirilməsi və AMB və Avropa Mərkəzi Banklar Sisteminin təsis olunması istiqamətində hazırlıq işlərinin görülməsi məqsədilə Avropa İttifaqının İqtisadi və Monetar İttifaqının ikinci mərhələsinin başlanğıcında təsis olunmuşdur. Avropa Monetar İnstitutunun özü Avropa Monetar Əməkdaşlıq Fondunun varisi hesab olunur.

AMB 1998-ci il may ayında imzalanan Maaştrixt Sazişi əsasında Avropa Monetar İnstitutunu əvəz etsə də, 1 yanvar 1999-ci il tarixində İqtisadi və Monetar İttifaqının üçüncü mərhələsinə bir işarə olaraq avronun dövriyyəyə buraxılması ilə tam gücünə sahib olmuşdur. Yaranma tarixindən Yunanıstanın (1 yanvar 2001-ci il) və Sloveniyanın (1 yanvar 2007-ci il) Avrozonaya daxil olmasınadək 11 üzv ölkəni əhatə edirdi.

AMB və Avropa Mərkəzi Banklar Sisteminin qarşısında duran əsas vəzifələr avrozona üzrə monetar siyasətin müəyyənləşdirilərək icra olunması, üzv ölkələrin iqtisadi siyasətlərinin dəstəklənməsi, xarici valyuta əməliyyatlarının idarə olunması və bank ödəniş sistemi üzrə əməliyyatların asan şəkildə həyata keçirilməsidir. Bundan əlavə, AMB Avro əskinazlarının buraxılması ilə bağlı səlahiyyətləndirmə hüququna malikdir. Üzv ölkələr Avro sikkələri buraxmaq hüququna malik olsa da, bunun üçün AMB tərəfindən əvvəlcədən səlahiyyətləndirilməlidir.

AMB-nin monetar funksiyalarına aşağıdakılar daxildir:

1. kredit təşkilatları, dövlət və digər bazar orqanları üçün hesabların yaradılması;
2. bazar və kredit əməliyyatlarının açılması;
3. səmərəli və möhkəm klirinq və ödəniş sisteminin yaradılması

məqsədilə kredit təşkilatlarından minimal ehtiyat saxlamasının tələb edilməsi;

4. üçüncü qrup ölkələrin mərkəzi bankları, kredit təşkilatları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi.

AMB-nin strukturu (xüsusən siyasi müstəqillik baxımından) Almaniya Federal Bankına uyğun olaraq modelləşdirilmişdir. Bank Avropa və ölkələrin milli institutları ilə münasibətdə müstəqil fəaliyyət göstərir və ayrı büdcəsinin olması baxımından milli mərkəzi banklarla münasibətdə maliyyə müstəqilliyini saxlayır. AMB-nin aşağıda qeyd olunan idarəetmə orqanları həmçinin AMB-dən və Avropa İttifaqının bütün milli mərkəzi banklarından ibarət olan Avropa Mərkəzi Bankları Sistemini də ("Avrosistem" isə AMB-dən Avrozonanın milli mərkəzi banklarından ibarətdir) idarə edir:

- **Rəhbər Şura** – AMB-nin ali qərarverici orqanıdır. O, Avronu qəbul edən milli mərkəzi bankların idarə heyəti üzvləri və sədrlərindən ibarətdir. Şura Avropa Mərkəzi Banklar Sisteminin monetar siyasəti, faiz dərəcələri və ehtiyatları ilə bağlı qərarların qəbul edilməsi, bundan əlavə əskinazların buraxılması və qanunvericiliyin ilkin formaları ilə bağlı digər institutlara məsləhət xidməti göstərilməsindən cavabdehdir. İl ərzində ən azı 10 dəfə toplanan Şuranın toplantılarında üzvlər, Şura Prezidenti və Komissiya Prezidenti iştirak edir. Hər üzvü bir səs hüququna malik olduğu (Şura və Komissiya Prezidentləri səs vermir) səsvermə nəticəsində qərarlar çoxluq prinsipi əsasında verilir;
- **İdarə Heyəti** – Rəhbər Şura tərəfindən müəyyən olunan monetar siyasətin icrası və bankın gündəlik fəaliyyətindən cavabdehdir. Heyət Prezident, vitse-prezident və dörd başqa üzvdən ibarətdir. Onların hamısı avrozona hökumətlərinin ümumi razılığı əsasında 8 illik (yenilənməyən) müddətə seçilir. Yazılmayan qanuna görə 2005-ci ildən etibarən qeyd olunan altı vəzifədən dördü Fransa, Almaniya, İtaliya və İspaniya mərkəzi bankları üçün saxlanılır;
- **Ümumi Şura** – Avronun qəbul edilməsi ilə bağlı keçid dövrü qarşıya çıxan məsələlərlə məşğuldur (daha əvvəl Avropa Monetar İnstitutunun gördüyü işlər). Bütün dövlətlərin qəbul edilməsinədək mövcudluğunu davam etdirəcəkdir. Prezident, vitse-prezident və Avropa İttifaqının bütün milli mərkəzi banklarının sədrlərindən ibarətdir.

Beynəlxalq və Avropa əlaqələri üzrə Baş direktoruluq aşağıdakı şöbələrdən ibarətdir:

- Avropa İttifaqı İnstitutları və Forumları şöbəsi;
- Avropa İttifaqı ilə Qonşu Regionlar şöbəsi;
- Beynəlxalq Siyasi Təhlillər və Mövcud İqtisadiyyatlar şöbəsi.

18.4. Almaniyanın bank sistemi

Almaniyanın vahid pul-kredit sistemi 1870-ci illərdə təşəkkül tapmışdır. Həmin dövrdə imperiyanın elan edilməsindən sonra pul vahidi – qızıl tərkibi 0,358423 q olan reyxsmarka tətbiq olunmuşdur. Bu isə qızıl monometallizmin başlanğıcı demək idi.

1875-ci ildə mərkəzi emissiya bankı – Reyxsban (Reichsbank) fəaliyyətə başladı.

1957-ci ilin iyulun 30-da bundestaq tərəfindən federal bank haqqında qanunun qəbulundan və avqustun 1-də həmin qanunun qüvvəyə minməsindən sonra vahid struktur – Admaq Federal bankı (Deutshe Bundesbank) yaradılmışdır. Alman federal bankı torpaqların mərkəzi banklarını və Alman torpaqları Baknını birləşdirdi və uyğun olaraq, onların fəaliyyətini tənzimləyən qanunlar da öz qüvvəsini itirdi. Torpaqların mərkəzi bankları «Doyçe Bundesbank»ın baş idarələri adlandırılmağa başladı, hərçənd onların əvvəlki adı da – torpaqların mərkəzi bankları adı da qalmaqda idi.

Pul–kredit sisteminin fəaliyyətinə nəzarəti «Bundesbank»dan başqa, Nəzarət üzrə federal bank xidməti (NFBX) həyata keçirir. Nəzayərt üzrə federal bank xidməti Maliyyə nazirliyinə tabe olur. Bankların itkilərdən müdafiəsi və hədsiz borcların xəbərdar edilməsi üçün Almaniyada kredit-maliyyə müəssisələrinin müştərək təşkilatları yaradılmışdır. Hal-hazırda doqquz müstəqil cəmiyyət fəaliyyət göstərir. Onlar kreditlərin təminatı üzrə federal cəmiyyətdə birləmişlər.

AFR və ADR-in valyuta, iqtisadi və sosial ittifaqının yaradılması barədə 1990-cı il 18 may tarixli Dövlət müqaviləsi ilə AFR və ADR pul-kredit sistemlərinin birləşməsindən sonra AFR markası 1990-cı il iyulun 1-dən bütün Almaniya ərazisində yeganə qanuni ödəniş vasitəsi oldu.

1991-ci ilin dekabrında Maastrixt şəhərində avronun mərhələli şəkildə tətbiq edilməsi barədə Müqavilənin imzalanmasından sonra alman pul sistemində radikal dəyişikliklər başladı. Avropa birliyi ölkələri öz

valyuta-iqtisadi siyasətlərini konverqensiya kriteriyalarının yerinə yetirilməsinə yönəltməyə başladılar. 1994-cü ildə yanvarın 1-də Avropa valyuta institutunun əsası qoyuldu. 1999-cu il yanvarın 1-də Avropa ittifaqının 15 ölkəsindən 11-i qeyri-nağd avronu tətbiq edərək, öz valyutalarının kurslarını yeni vahid valyutaya nəzərən qeyd etdilər. Artıq 2002-ci ilin birinci yarısında 12 ölkə avronu nağd dövriyyəyə tətbiq edərək öz milli pul vahidlərindən imtina etdi. Beləliklə, 2002-ci ildə AFR markadan imtina edərək vahid Avropa valyutasına keçdi.

1999-cu ildən sonra «Bundesbank» artıq monetar siyasətdə aparıcı rol oynamırdı. O, bu rolu Avropanın mərkəzi bankına verərək, özü mərkəzi bankların Avropa sisteminin sistem yaradan elementi oldu. Nağd avronun tətbiqindən sonra «Bundesbank»ın yeni funksiyası markanın yox, avronun emissiyasıdır. Qalan məsələlərdə isə Alman federal bankı yenə də alman və Avropa monetar siyasətinin lokomotivi olaraq qalır.

Almaniyanın bank sisteminin ikinci hissəsi kommersiya bankları ilə təmsil olunmuşdur.

Sənaye cəhətdən inkişaf etmiş digər ölkələrin bank sistemləri ilə müqayisədə alman bank sisteminin özünəməxsus xüsusiyyəti universail kredit müəssisələrinin üstünlük təşkil etməsidir. Təşkilati-hüquqi formalardan, mülkiyyət münasibətlərindən, ölçülərdən asılı olmayaraq kredit müəssisələrinin əksəriyyəti bütün bank əməliyyatlarını yerinə yetirirlər.

Bank sisteminin belə universallığı onunla izah olunur ki, Almaniya sənayenin inkişafının əvvəlindən özünün kifayət qədər kapitalına malik deyildi. Bu isə bank kreditlərinin böyük həcmlərdə istifadəsini zəruri etmişdi. Universal banklar aşağıdakı depozit-borc və investisiya əməliyyatlarını həyata keçirirlər: depozitlərin qəbulu, kreditlərin və akseptlərin tədqim edilməsi, veksellərn uçotu və çeklərin ödənilməsi, qiymətli kağızların tapşırıqla alınması və satılması, qiymətli kağızların saxlanması və idarəetməsi, qiymətli kağızlara və digər uzunmüddətli aktivlərə investisiya qoyuluşları, vaxtı qurtarana qədər tələbnamələrin alışı üzrə öhdəliklərin qəbul edilməsi, zəmanətlərin təqdim edilməsi, qeyri nağd hesablaşmaların həyata keçirilməsi.

Universal bank sisteminin birinci pilləsində üç iri bank – qrossbanklar (Grossbank) durur. Onlar aşağıdakılardır: «Doyçe bank» (Deutsche bank» (Dresdner Bank).

ALMANİYA FEDERAL BANKI. İkinci Dünya Müharibəsindən sonra Federal Bankın tarixi alman valyutasının tarixi ilə əlaqəlidir. Hərbi

alyans hökuməti tərəfindən aparılan valyuta islahatları nəticəsində 21 iyun 1948-ci il tarixində alman markı reyxmarkla əvəz olunmuşdur. Qərb Qüvvələri ələ keçirilmiş ərazilərdə federal strukturu baxımından ABŞ Federal Ehtiyat Sisteminə uyğun formada modelləşdirilmiş ikipilləli mərkəzi bank sistemini təsis etmişdir. O, Qərbi Almaniyanın işğal altındakı ərazilərindəki ştatların (Lənder) mərkəzi bankları və Bank Doyçe Lənder-dən ibarət idi. Mərkəzi bankın hökumətin sifarişləri əsasında fəaliyyət göstərməsi ilə bağlı neqativ təcrübənin yaranması səbəbindən, müstəqil mərkəzi bank prinsipi meydana gəldi və Bank Doyçe Lənder 1951-ci ildən etibarən müstəqil fəaliyyət göstərdi.

1949-cü ildə qəbul olunan "Əsas Qanun" (müvəqqəti konstitusiya) Federal hökumət qanunvericiliyinin qarşısında valyutanın buraxılmasına cavabdeh olacaq federal bankın təsis olunması öhdəliyini qoymuşdur. Qanunvericiliyin bu öhdəliyi yerinə yetirilərək 1957-ci ildə Federal Bank haqqında Qanunu qəbul edilmişdir ki, bunun nəticəsində mərkəzi bank sisteminin ikipilləli strukturu ləğv olunmuşdur. Lənderin mərkəzi bankları öz müstəqilliklərini itirərək Federal Bankın regional ofislərinə çevrilmişlər ("ştat mərkəzi bankı" adını saxlamalarına baxmayaraq).

Berlin Divarının dağıdılmasından sonra 18 may 1990-cı il tarixində anlaşmasının imzalanması ilə hər iki alman respublikasının iqtisadi, sosial və valyuta ittifaqınn yaranması nəticəsində alman frankı vahid valyutaya çevrilmişdir. 1992-ci ildə Federal Bank haqqında Qanunda dəyişikliklərin edilməsi nəticəsində Lənderin 11 mərkəzi bankı və Müvəqqəti İnzibati Orqan oxşar iqtisadi ölçülərə malik 9 mərkəzi bank ilə əvəz olunmuşdur.

1993-cü ildə imzalanan Maaştrixt Sazişi nəticəsində Avropa İqtisadi və Valyuta İttifaqı yaranmışdır. Monetar siyasətlə bağlı cavabdehlik Avropa Mərkəzi Bankı və Avropa İttifaqı dövlətlərinin milli mərkəzi banklarından ibarət olan Avropa Mərkəzi Banklar Sisteminə ötürülmüşdür. 2001-ci ildən etibarən Avropa Mərkəzi Bankı valyuta üzərində tam nəzarəti ələ keçirmişdir. 2002-ci ildə Federal Bank haqqında Qanunda aparılan düzəlişlər nəticəsində Federal Bankın strukturu hazırkı vəziyyətə gətirilmişdir.

Federal Bankın Avropa Mərkəzi Bankı ilə birgə idarə olunan 4 fəaliyyət sahəsi aşağıdakılardır:

- Pul buraxan bank olaraq – iqtisadiyyatın nağd pulla təmin edilməsi və nağd pulun fiziki dövriyyəsinin təşkili;
- Bankların bankı olaraq – kommersiya bankları sistemi ilə əlaqədər olaraq iki funksiyası var: kommersiya bankları üçün klirinq

palatası və bank nəzarəti;

- Dövlətin bankı olaraq – federal, ştat və yerli hakimiyyət orqanlarını və eləcə də qanunla təsis olunmuş sosial təhlükəsizlik təşkilarını hesabla təmin edir və onlar üçün adi bank əməliyyatlarını yerinə yetirir;
- Valyuta ehtiyatlarını saxlayan orqan olaraq – valyuta ehtiyatları Federal Bankın qızıl ehtiyatları, xarici valyutada olan qiymətli kağızlar, xarici banklarda saxlanılan kredit, xarici valyuta və s. daxil olmaqla avroda ifadə olunmayan bütün aktivləridir.

Federal Bank 9 regional ofis, Lənderin keçmiş mərkəzi bankları və 66 filialdan ibarətdir. Federal Bankın ali idarəetmə orqanı olan İdarə Heyətinin tərkibi aşağıdakı kimidir:

- Almaniya hökuməti tərəfindən namizədliyi irəli sürülən prezident, vitse-prezident və İdarə Heyətinin 2 əlavə üzvü;
- İdarə Heyətinin Bundesrat tərəfindən namizədliyi irəli sürülən 4 əlavə üzvü.

İdarə Heyətinin hər bir üzvü Federal Prezident tərəfindən ümumiyyətlə 8, minimal olaraq isə 5 illik müddətə təyin olunur.

Beynəlxalq əlaqələr departamenti aşağıda qeyd olunan 1 ofis və 3 şöbədən ibarətdir:

- Avropa ilə əlaqələr idarəsi;
- Avropa monetar məsələləri, BVF, G7 və Beynəlxalq inkişaf məsələləri üzrə şöbə;
- Beynəlxalq monetar və iqtisadi məsələlər üzrə tendensiyalar şöbəsi;
- Beynəlxalq maliyyə sistemi şöbəsi.

Alman federal bankının əsas funksiyaları.

Almaniyanın bank sisteminin ikinci həlqəsi - kommersiya bankları. Universal banklar. Universal bank sisteminin birinci pilləsində üç iri bank – qrossbankların fəaliyyəti. Regional banklar. İxtisaslaşmış banklar.

18.5. Fransanın pul-kredit sıstemi

Avropanın ən qədim mərkəzi banklarından biri olan Fransa Bankı 1800-ci ildə Napoleon Bonapart tərəfindən təsis edilmişdir. 1803-cü ildə Banka təqdim edilmiş və 1806-cı ildə təsdiq olunmuş emissiya hüququ 1945-ci ilə qədər dörd dəfə təzələnmişdir. Doqquz əyalət emissiya bankı-

nın udulmasından sonra 1848-ci ildən başlayaraq Fransa Bankı ölkənin bütün ərazisində inhisarçı emissiya hüququnu əldə etdi.

Fransanın mərkəzi bankı olan Fransa Bankının əsas vəzifəsi Avropa Mərkəzi Banklar Sisteminin (AMBS) valyuta siyasətini tətbiq etməkdir. AMBS-nin qurumu olan Fransa Bankı mərkəzi bank sisteminin fəaliyyət öhdəliklərini Avropa Mərkəzi Bankı ilə bölüşür. Fransa Mərkəzi Bankı daxili iqtisadi siyasətin aparılmasında məsulləti Malliyyə Nazirliyi ilə bölüşür.

Bank Royalın xələfi olan Fransa Bankı 18 yanvar 1800-cü il tarixində o zaman Fransa Respublikasının Birinci Konsulu olan Napoleon I Bonapart tərəfindən təsis edilmişdir.

Bankın əsas vəzifəsi endirimli kommersiya istiqrazlarının mübadiləsi məqsədilə banknotların çap olunması idi. 1808-ci ildən 1936-cı ilə qədər olan dövr ərzində Fransa Bankı əskinazların buraxılması ilə məşğul olmuşdur XIX əsrin ikinci yarısından etibarən Fransa Bankı özünün filial şəbəkəsini sürətlə genişləndirmişdir. 1936-cı ildə Xalq Cəbhəsi Partiyasının seçkilərdə qalib gəlməsi nəticəsində Fransa Bankının milliləşdirilməsinə qərar verilmişdir. 1973-cü ildən etibarən Bankın statusuna dair islahatlara başlanmış və müvafiq işlərin həyata keçirilməsi məqsədilə Ümumi Şura yaradılmışdır. 4 avqust 1993-cü il tarixində qəbul edilmiş Fransa Bankı haqqında Qanun onun müstəqilliyinə zəmin hazırla-mış oldu. 1998-ci il tarixində Avropa Mərkəzi Banklar Sisteminə daxil olan Fransa Bankının əsas vəzifəsi bu sisteminin fəaliyyətləri çərçivəsində vahid monetar siyasətin həyata keçirilməsidir.

Fransa Bankının əsas funksiyaları aşağıdakılardır:

- Avropa Mərkəzi Banklar sistemi çərçivəsində birgə monetar siyasətin həyata keçirilməsi;
- Bank sisteminin və investisiya təşkilatlarının idarə olunması və onlara nəzarət edilməsi. Bu məqsədlə Bankda Bankçılıq və Maliyyə Tənzimlənməsi Komitəsi, Bankçılıq Komissiyası, Kredit və qiymətli Kağızlar üzrə Milli Şura;
- Pul əskinazlarının çap edilməsi;.
- Ödəniş və hesablaşmalar sistemlərinin fasiləsiz işinin təmin edilməsi.

İnflyasiyanın targetinq siyasəti bir neçə elementdən ibarətdir: 1. İnflyasiyanın konkret göstəricilərinin əldə edilməsi üzrə ortamüddətli deklarasiya; 2. İnflyasiyanın məqsədli parametrlərinin ölkə inkişafının uzunmüddətli konsepsiyasına daxil edilməsi; 3. İnflyasiyanın optimal səviyyəsinin əldə

edilməsi üzrə ümumi strategiyada aralıq göstəricilərin, məsələn, pul kütləsi artımının rolunun azalması; 4. Uzunmüddətli monetal siyasətin şəffaflığı, cari vəzifələrin və planların aşkarlığı; 5. İnflyasiyanın məqsədli səviyyə-lərinin əldə edilməsi üçün mərkəzi bankın hesabat verməsi.

İnflyasiyanın məqsədli səviyyələrinin əldə edilməsi üçün Fransa Bankının istifadə etdiyi əsas alətlər aşağıdakılardır:

- dinamikası bilavasitə frankın valyuta kursunun dinamikasına və dövriyyədəki pulların miqdarına təsir edən faiz dərəcələrinin tənzimlənməsi. Faiz dərəcələrinin tənzimlənmə mexanizmi banklararası bazarda kredit hərracları vasitədə və ya veksellərin 5-10 günlük girovu altında kredit intervensiyalarına əsaslanır;
- valyuta intervensiyaları. Monetar tənzimlənmə orqanları valyuta bazarlarında intervensiyaları müxtəlif məqsədlərlə, o cümlədən mübadilə kursunun saxlanması və beynəlxalq ehtiyatların arzuolunan səviyyəsinin əldə edilməsi üçün apara bilər. Milli valyuta kursunun qaldırılması üçün xarici valyutanı satmaq, milli valyuta kursunun aşağı salınması üçün isə xarici valyutanı almaq lazımdır.
- məcburi ehtiyat normaları vasitəsilə manevr etmə (1971-ci ilin aprelindən tətbiq olunmuşdur;
- açıq bazarda əməliyyatlar və başqaları.

Fransanın kredit-maliyyə sisteminin fəaliyyəti 1984-cü ilin qanunu ilə tənzimlənir. O, üç səviyyədən ibarətdir: mərkəzi bank (Fransa Bankı); kommersiya bankları; ixtisaslaşmış kredit-maliyyə müəssisələri; investisiya, ipoteka, xarici ticarət bankları, sığorta və maliyyə şirkətləri, pensiya fondları və başqaları.

Fransa Bankı 96 regional, 21 iqtisadi və 7 kreditvermə mərkəzindən ibarət strukturdur. Bankın şəbəkə strukturu aşağıdakı kimi işləyir: regionlarda – idarəçilik səviyyəsində - bölgələrin paytaxtda yerləşən regional mərkəz. Bu mərkəzlər bölgələrdə olan əməliyyat bölmələrinin fəaliyyətini idarə edir və nəzarətini aparır. Regional Müdirlər Kollegiyası Baş Katibin və filliallar şəbəkələri üzrə menecerin rəhbərliyi altında iki aydan bir keçirilir.

Bankın sərmayə qoyuluşu və bazar əməlliyatları siyasətində iki həlledici qurum – Risklərin idarəedilməsi komitəsi və Aktiv və Passivlər Komitəsi. Aktiv və Passivlərin İdarə edilməsi Komitəsi Sədrin başçılıq etdiyi Bankın investisiya strategiyası üzrə öz məsləhətlərini verir. Sədr müavininin rəhbərlik etdiyi Risklərin İdarə Edilməsi Komitəsi bazar əməliyyatlarının aparılması şərtlərini müəyyənləşdirir.

Fransa Bankının Sədr və iki sədr müavini Nazirlər Şurası tərəfindən 6 il müddətinə seçilirlər. Sədr həmçinin bütün departament rəhbərlərinin daxil olduğu İcra Komitəsinində və baş rəhbəlik vəzifələrinə təyinata baxan Peşəkarlıq Komitəsi başçılıq edir. Həmçinin o Avropa Mərkəzi Bankının İdarəetmə Şurasının üzvüdür. Bankın Sədri Ümumi Şuranın başçısıdır. Monetar Siyasət Komitəsi Sədr, iki müavini və Senat və Milli Assambleyanın Bankın Ali Şurasına daxil olan üzvlərdən ibarətdir. Komitə monetar siyasətin inkşaf etdirilməsi və bu sahədə bankın fəaliyyətinin Avropa Mərkəzi Banklar Sisteminə uyğunlaşdırılması ilə məşğuldur.

Fransa Bankının rəhbərliyi fransız dilli Afrika ölkələrinin maliyyə nazırləri və mərkəzi bank sədrləri ilə fəal şəkildə görüşlər keçirir. Bu növ görüşlər biri Fransada, digəri isə Afrika ölkələrində olmaqla ildə iki dəfə keçirilir.

Avropa ölkələri texniki yardım proqram çərçivəsində Fransa Bankı və Bolqarıstan Milli Bankı ilə sıx əməkdaşlıq edir. Bundan əlavə, Avropa Mərkəzi Bankının texniki yardım layihəsi çərçivəsində Fransa Bankı Bosniya və Herseqovina, Misir və Rusiya kimi dövlətlərə yardım göstərmişdir.

Kredit müəssisələrinin daha böyük əhəmiyyət kəsb edən kateqoriyası kommersiya banklarıdır. Onlar, bir qayda olaraq, səhmdar müəssisələri formasında olurlar. Kommersiya banklarının fəaliyyəti qısamüddətli kreditlərin verilməsi üçün müddətsiz əmanətlərin qəbulundan ibarətdir. Lakin banklar əmanətlər və ya borclar şəklində kapital almaqla, borcları daha uzun müddətə təqdim etməklə, digər müəsssələrin kapitalında iştirak etməklə, qiymətli kağızların emissiyasını və yerləşdirilməsini təşkil etməklə, müştərilərin əmlakının idarəetməsini həyata keçirməklə öz fəaliyyət sferalarını genişləndirə də bilərlər. Kommersiya bankları beş əsas funksiyanı yerinə yetirirlər:

- ehtiyatların formalaşdırılması;
- xüsusi aktivlərin idarəetməsi;
- ödəniş vasitələrinin idarəetməsi;
- banklararası əməliyyatların yerinə yetirilməsi;
- maliyyə və digər xidmətlərin göstərilməsi.

Fransız banklarında xüsusi kapital iki hissədən ibarət olur: baza vəsaitlərindən və əlavə vəsaitlərdən. Bankın passivlərinə xüsusi kapitala yanaşı, cəlb edilmiş vəsaitlər də – depozit və qeyri depozit vəsaitlər daxil olur. Kredit əməliyyatları bank aktivlərinin ən böyük maddələr qrupudur. Kreditləşmənin ən geniş yayılmış növləri: müəssisələrin cari ehtiyaclarının maliyyələşdirilməsi üçün, onların investisiyaları, şəxsi adamların is-

tehlakı və investisiya xərcləri üçün.

İnvestisiya bankları müəssisələrə onların yatırımlarının maliyyələşdirilməsi üçün kreditlər verir və uzunmüddətli, ortamüddətli əməliyyatları həyata keçirirlər.

18.6. Böyük Britaniyanın bank sistemi

Britaniya Krallığının mərkəzi bankı olan İngiltərə Bankı dünyada ən qədim mərkəzi bank hesab edilir. Dövlət tərəfindən özəllişdirilən İngiltərə Bankı ən müasir və iri mərkəzi bankların əsaslandığı modeldir.

1844-cu ildə qəbul olunan yeni Bank Qanununa əsasən pulun çap olunması ölkənin qızıl ehtiyyatları ilə əlaqələndirildi. İngiltərə Bankı 1920-cu ildən kommersiya fəaliyyini azaltmağa başladı və 1944-cu ildə artıq yalnız mərkəzi bank funksiyalarını yetirməyə başladı. 1946-cı ildə Bank dövlət tərəfindən milliləşdirildi. 1997-ci ildə Banka monetar siyasətdə tam müstəqillik verildi.

Hal-hazırda İngiltərə Bankının fəaliyyəti 1946-cı ildə qəbul edilmiş İngiltərə Bankı haqqında qanunla tənzimlənir. Bu qanuna əsasən, səhmdar kapital xəzinəyə verilmiş, onun keçmiş sahibləri isə dövlət istiqrazları şəklində yaxşı kompensasiya almışlar. Bu kompensasiya səhmlərin nominal dəyərini 4 dəfə üstələyirdi. Beləliklə, Bank hökumət aparatının bir hissəsi olmasa da, bank rəhbərlərindən məlumat almaq və onlara tövsiyələr vermək səlahiyyətinə malik idi. İngiltərə Bankı öz tövsiyələrinin və ya xahişlərinin yerinə yetirilməsini təmin etmək üçün xəzinənin sanksiyası ilə istənilən abnka direktivlər verə bilərdi.

İngiltərə Bankı mərkəzi bankın bütün funksiyalarını icra edir. Onlardan ən vacibi iqtisadi inkişafın artımı məqsədilə qiymətlərin sabitliyi və hökumətin iqtisadi siyasətinə dəstəyin göstərilməsidir. Bankıın əsas funksiyaları aşağıdakılardır:

- **Monetar siyasətin sabitliyi** –milli valyutanın (funt sterlinqin) kursunun sabitliiyini və alıcılıq qabilliyətini təmin etmək. Bu vəzifəni Bank əsasən faiz dərəcəsinin dəyişdirilməsi yolu ilə həyata keçirir. Faiz dərəcəsi Bankın Monetar Siyasət Komitəsi tərəfindən müəyyən edilir. Həmçinin Bank iqtisadiyyatı nağd pulla təmin etmək və nağd pulun fiziki dövriyyəsini təşkil etmək funksiyasına malikdir. Bank İngiltərə və Uelsdə əskinazların çap olunması üzrə

inhisar hüququna malikdir. Şotlandiya bankları (The Royal Bank of Scotland, The Bank of Scotland və The Clydesdale Bank) və Şimali İrlandiya bankları (Bank of İreland, First Trust Bank, Nothern Bank və Ulster Bank) öz əskinazlarını buraxmaq hüququnu saxlayırlar, lakin bu əskinazların buxarılması İngiltərə Bankında birə-bir depozit ilə təyin edilməlididr.

- **Maliyyə sabitliyin dəstəklənilməsi** – burada maliyyə sis-temi üçün təhlükələrin aradan qaldırılması nəzərdə tutur. Bu təhlükərlər bankın analitik xidmət və digər nəzarət orqanları tərəfindən müəyyən edilir. Bu təhllükələrin aradan qaldırılması üçün Bank daxili və xarici bazarlarda maliyyə əməliyyatlarını aparır. İngiltərənin maliyyə sektorunun sabitliyinin təmin edilməsi məqsədlə Bank bir necə dövlət maliyyə qurumu, o cümlədən İngiltərə Xəzinədarlığı və Maliyyə Xidmətləri Təşkilati ilə əməkdaşlıq edir.

Bank Direktorlar Şurası tərəfindən idarə olunur. Şura Sədr, iki sədr müavini və 16 üzvdən ibarətdir. Vəzifələrə təyinat Parlament tərəfindən təsdiq olunduqdan sonra Kraliçanın fərmanı əsasında həyata keçirilir. Sədr və onun müavinləri 5 il müddətinə, Şuranın üzvləri isə 3 il müddətinə təyin edilirlər. Onlar yenidən seçilmək imkanına malikdirlər. Direktorlar Şurası ən azı ayda bir dəfə görüş keçirməlidir. Direktorlar Şurasının səlahiyyətlərinə İngiltərə Bankının pul-kredit siyasətindən başqa bütün idarəedilmə məsələləri aiddir. Pul-kredit siyasəti Monetar Siyasət Komitəsinin səlahiyyətindədir. Komitənin rəhbəri İngiltərə Bankının İdarə Heyətinin Sədridir. Komitə rəsmi faiz dərəcələrini müəyyən edən yeganə dövlət qurumudur.

İngiltərə Bankı dünyanın qədim mərkəzi bankıdır. Bu bank dörd əsr bundan əvvəl, demək olar ki, müflisləşmiş hökumətlə maliyyəçilər – kreditorlar qrupu arasındakı sövdələşmə nəticəsində yaranmışdır.

İndiki zamanda İngiltərə Bankı öz fəaliyyətini üç prioritet məqsəddən çıxış edərək həyata keçirir:

1. milli valyuta dəyərinin müdafiəsi;
2. maliyyə sisteminin stabilliyinin təmin edilməsi;
3. ölkə daxilində və beynəlxalq aləmdə maliyyə sisteminin effektivliyinin və rəqabətədavamlılığının təmin edilməsi və yüksəldilməsi.

İngiltərə Bankı aşağıdakı funksiyaları yerinə yetirir:

1. kommersiya və digər mərkəzi banklar, həmçinin hökumət üçün bank rolunu oynayır;

2. pul siyasətini reallaşdırır;
3. banknotların emitenti olur və başqaları.

Birinci funksiyanın yerinə yetirilməsi zamanı İngiltərə Bankında hesabları var. Klirinq əməliyyatlarda klirinq bankların İngiltərə Bankındakı hesablarından istifadə olunur. Banklar hesabda müəyyən məbləğə malik olmalı və onu aşmamalıdırlar. Fəaliyyətlərini Böyük Britaniyada həyata keçirən bütün banklar özlərinin bütün depozitlərinin cəminin 0,35%-ni İngiltərə Bankının hesabında (depozit) saxlayırlar. Ehtiyatların bu norması İngiltərə bankının əsas gəlir mənbəyidir.

İkinci qrup – digər ölkələrin mərkəzi banklarıdır. Xarici ölkələrin mərkəzi bankları İngiltərə Bankında qızıl saxlayır və hesablara malik olur, Londondakı işləri İngiltərə Bankı vasitəsilə apara bilirlər.

Üçüncüsü – hökumətdir. Hökumətin İngiltərə Bankında hesabları olur. Beləliklə, büdcəyə gedən ödənişlər, vergilər və büdcədən sosial ehtiyaclara gələn ödənişlər İngiltərə Bankının hesabları vasitəsilə keçir.

Böyük Britaniyanın pul siyasətinin əsas məqsədi qiymət stabililiyinin əldə edilməsidir. Qiymətlərin optimal səviyyəsinin saxlanması indiki zamanda iki istiqamətə malikdir: İnflyasiya səviyyəsinin 2,5% və daha az olması, monetar siyasətin daha açıq (sərbəst) rejimi. İngiltərənin pul siyasətinin mühüm aləti faiz dərəcələrinin səviyyəsinin tənzimlənməsidir.

Monetar siyasətin alətlərindən biri İngiltərə Bankının açıq bazardakı əməliyyatlarıdır. O ilk dəfə XX əsrdə 30-cu illərin əvvəllərində tətbiq olunmağa başlamış və İngiltərə Bankının uçot dərəcələrinin payını tədriclə azaltmışdır.

Böyük Britaniyanın kredit sisteminin ikinci hissəsi bank idarələridir. Bank müəssisələri tarixən depozitlərin cəlb edilməsində ixtisaslaşdığına görə, bir çox hallarda depozit müəssələr adlandırılır. Kommersiya bankları depozit fəaliyyətlərini həyata keçir-məkdən əlavə, qısamüddətli kreditlər verir, xarici ticarəti maliyyələşdirir, həmçinin əmanətçilərin vəsaitlərini idarə edirlər. Depozit bankların müştəriləri müxtəlif cür həm iri müəssiələr və təşkilatlar, həm də şəxsi adamlar ola bilir. Ona görə də depozit bankları bəzən pərakəndə banklar adlandırırlar.

Böyük Britaniyanın kommersiya banklarının digər hissəsi ticarət banklarıdır. Onlar bank əməliyyatlarını tədriclə mənimsəmiş ticarət müəsssələrində yaranmışlar. Uzun müddət ticarət banklarının fəaliyyətinin əsasını aksert əməliyyatlar təşkil etmişdir. Bu da ticarət banklarını aksept evlər sırasına aid etməyə imkan verir. Bəzi müasir ticarət bankları

bank əməliyyatları ilə yanaşı sənaye və ticarət funksiyalarını da yerinə yetirirlər. Belə ki, ticarət bankları əsl bank əməliyyatları ilə yanaşı, sahibkarlara xidmət göstərir və qiymətli kağızlarla idarəetməni həyata keçirirlər. Bütövlükdə, bu institutların fəaliyyəti çoxcəhətlidir. Onlar xarici ticarətin maliyyələşməsi, aksert biznesi ilə məşğul olur, korporativ borcalanları aktiv şəkildə kreditləşdirir, investisiyaları idarə edir, investisiya məsələləri üzrə məsləhətlər verir, maliyyə konsorsiumları təşkil edir, təsisçilik fəaliyyətində, şirkətlərin birləşməsi və udulması kampaniyalarında iştirak edir və ya vasitəçi kimi çıxış edir, valyuta bazarında və qiymətli metallar bazarında əməliyyatlar keçirir, maliyyə əməliyyatlarının aparılması məsələləri üzrə məsləhətlər verirlər.

Konsorsial banklar – heç biri səhmlərin nəzarət paketinə malik olmayan ən azı iki ölkə bankının iştirakları ilə olan maliyyə-kredit institutlarıdır. Bunlar əsasən çoxmilli borcalanların xüsusi banklarıdır və onlara, hər şeydən əvvəl, transmilli və multimilli sənaye konsernləri aiddir. Bu növ iri banklara britaniyalı, kanadalı və avstraliyalı tərəfdaşlarla işləyən «Midlend and interneyşnl bakn Ltd» (Midland and international bank Ltd), britaniyalı, amerikalı və yapon tərəfdaşlarla işləyən «Vestern Ameriken BenkYurop Ltd» (Western American bank Europe Ltd), yaponiyalı, britaniyalı (İndustrial Commercial Barle) aiddir. Məsələ bundadır ki, bu banklar aparıcı ölkələrin banklarının pay iştirakı əsasında yaradılmışdır, ona görə də onlar avrobazarda çox böyük vəsaitləri ən davamlı müddət üçün səfərbər etmək iqtidarındadırlar. Bankların heç bir başqa növü buna qadir deyil.

18.7. İsveçrə Milli Bankı və İsveçrənin pul vahidi frank

1850-ci ilə qədər İsveçrədə 75 müxtəlif təşkilat (o cümlədən 25 kanton, 16 şəhər) sikkələrin buraxılışı ilə məşqul olurdu. Dövriyədə müxtəlif dəyərli və nominallı 860 cür sikkə var idi. Bununla yanaşı bir sıra xüsusi banklar ilk əskinasların buraxılışına başladı və ümumilikdə dövriyyədə olan sikkə və əskinasların sayı 8000-ə yaxın idi. Bundan əlavə, dövriyyədə olan nəğd pulun cəmi 15 %-ni milli valyutalar təşkil edirdi, qalan hissəsi tacirlər tərəfindən istifadə olunan xarici valyutanın payına düşürdü. Bütün bunlar valyuta sisteminin funksionallığını mürəkkəbləşdirirdi. Bu prob-

lemi aradan qaldırmaq üçün 1848-ci ildə qəbul olunmuş İsveçrə Federal Konstitusiyasında pul buraxmaq hüququna malik olan yeganə təşkilat olaraq Federal Hökumət göstərilirdi. 7 may 1850-ci il tarixində Pul Sistemi haqqında federal qanun qəbul edildi. Bu qanuna əsasən frank İsveçrənin pul vahidi kimi tanınırdı. Beləliklə, 1850-ci ildə tədavülə buraxılan İsveçrə frankı kantonlarının müxtəlif valyutalarını əvəz etdi. Dəyərinə görə İsveçrə frankı Fransa frankına bərabər idi. 1866-cı ildə Fransa, Belçika, İtaliya və İsveçrənin birlikdə təsis etdikləri Latın Valyuta Birliyinin fəaliyyəti 1927-ci ilədək davam etdi. 1945-ci ildə Bretton-Vuds Sisteminə qoşulmaqla frankın məzənnəsini ABŞ dolları əsasında müəyyən edən İsveçrə Sistemin dağılmasından sonra üzən məzənnə siyasətinə keçdi.

1850-ci ilə qədər İsveçrədə 75 müxtəlif təşkilat (o cümlədən 25 kanton, 16 şəhər) sikkələrin buraxılışı ilə məşqul olurdu. Dövriyədə müxtəlif dəyərli və nominallı 860 cür sikkə var idi. Bununla yanaşı bir sıra xüsusi banklar ilk əskinasların buraxılışına başladı və ümumilikdə dövriyyədə olan sikkə və əskinasların sayı 8000-ə yaxın idi. Bundan əlavə, dövriyyədə olan nəğd pulun cəmi 15 %-ni milli valyutalar təşkil edirdi, qalan hissəsi tacirlər tərəfindən istifadə olunan xarici valyutanın payına düşürdü. Bütün bunlar valyuta sisteminin funksionallığını mürəkkəbləşdirirdi. Bu problemi aradan qaldırmaq üçün 1848-ci ildə qəbul olunmuş İsveçrə Federal Konstitusiyasında pul buraxmaq hüququna malik olan yeganə təşkilat olaraq Federal Hökumət göstərilirdi. 7 may 1850-ci il tarixində Pul Sistemi haqqında federal qanun qəbul edildi. Bu qanuna əsasən frank İsveçrənin pul vahidi kimi tanınırdı. Beləliklə, 1850-ci ildə tədavülə buraxılan İsveçrə frankı kantonlarının müxtəlif valyutalarını əvəz etdi. Dəyərinə görə İsveçrə frankı Fransa frankına bərabər idi. 1866-cı ildə Fransa, Belçika, İtaliya və İsveçrənin birlikdə təsis etdikləri Latın Valyuta Birliyinin fəaliyyəti 1927-ci ilədək davam etdi. 1945-ci ildə Bretton-Vuds Sisteminə qoşulmaqla frankın məzənnəsini ABŞ dolları əsasında müəyyən edən İsveçrə Sistemin dağılmasından sonra üzən məzənnə siyasətinə keçdi.

Frank əskinasları Orell Füssli Arts Graphiques SA şirkəti tərəfindən, sikkələr isə İsveçrə Zərbxanasında buraxılır.

İsveçrə frankı öz dövriyyəsinə görə dünya valyuta bazarında 5-ci yerdədir. Hal-hazırda Avropada yalnız İsveçrə frankı “frank” adlanır və qeyri rəsmi ehtiyat valyutassı kimi tanınır. 2000-ci ildə Konstitusiyaya qəbul edilmiş düzəlişlərdən sonra qızıla bağlılıq aradan qaldırılmışdır. Bu günədək cəmi frankın devalvasiyası (30%) yalnız bir dəfə - 27 sentyabr

1936-cı ildə Böyük Depressiya nəticəsində baş verib.

İsveçrə Milli Bankı (İMB) ölkənin mərkəzi bankı kimi fəaliyyət göstərir. İsveçrə Milli Bankının səhmlərinin 55 faizi kanton və kanton bankları kimi dövlət qurumları tərəfindən alınıb. Səhmlərin fond birjasında qalan hissəsi isə əsasən özəl sahibkarlar tərəfindən alınmışdır. İsveçrə Konfederasiyası səhm paketina sahib deyil.

Bankın xronoloji tarixi:

1905 – İMB haqqında Qanunun qüvvəyə minməsi;

1907 – İMB-nin fəaliyyətə başlaması;

1909 – İMB qısa-müddətli öhdəliklərlə depozit cəlb etməyə başlayır;

1910 – Pul çapına səlahiyyətli tək orqan olur;

1926 – İsveçrənin üzvü olduğu və pul vahidlərinin İsveçrədə istifadə olunduğu Latın Monetar İttifaqının fəaliyyətinə xitam verilir;

1934 – İsveçrə Klirinq Ofisinin açılması;

1945 – İMB-nin pul çapı səlahiyyətləri ilə bağlı qanunun yenilənməsi;

1950 – İsveçrənin daxil olduğu Avropa Ödənişləri Birliyi haqqında Anlaşma;

1960 – İsveçrənin daxil olduğu Avropa Azad Ticarət Assosisiyasının yaranması;

1975 – İMB tərəfindən kredit limitinin tam aradan qaldırılması;

1987 – İsveçrə Banklarası Klirinq adlanan elektron ödəniş sisteminin fəaliyyətə başlaması;

1989 – Avropa Valyuta Korporasiyası Fondu İMB-yə Avropa Valyuta Vahidinin "digər sahibi" statusunu təqdim etmişdir.

Bank Konstitusiya və qanun vasitəsilə ölkənin maraqlarına uyğun olaraq iş aparır. Bankın fəaliyyət məqsədləri aşağıdakılardır:

- Ölkənin monetar siyasətinin həyata keçirilməsi;
- Qiymətlərin sabitliyinin təmin edilməsi;
- Nağd pul dövriyyəsinin təşkili;
- Pul bazarının likvidliyinin təmin edilməsi;
- Nağdsız pul köçürmələrinin təşkili;
- Beynəlxalq ehtiyatların idarə edilməsi;
- Maliyyə sisteminin sabitləşdirlməsi;
- Beynəlxalq əməkdaşlıqda iştirak və texniki yardımın göstərilməsi.

İsveçrə Milli Bankının iki baş ofisi mövcuddur – Bern və Surix şəhərlərində. Bundan əlavə, Cenevrədə nağd pulun dövriyyəsini təmin edən nümayəndəliyi və regionlarda beş təmsilçi ərazi idarəsi mövcuddur.

Həmçinin Bankın kantonlar üzrə 16 agentliyi mövcuddur.

Bankın baş idarəetmə orqanı İdarə Heyətidir. İdarə Heyətinin funksiyaları – monetar siyasət, sərmayə qoyuluşu strategiyası və monetar siyasət sahəsində beynəlxalq əməkdaşlıqdan ibarətdir. Idarə Heyəti 3 daimi üzv və 3 nümayəndədən ibarətdir. Onlar dövlətin Federal Şurası tərəfindən Bank Şurasının tövsiyəsi əsasında seçilirlər.

Bankın Baş Şurası nəzarət funksiyalarını həyata keçirir. Şura 11 üzvdən ibarətdir. 6 üzvü Şuranın Prezidenti və vitse-prezidenti daxil olmaqla Federal Şura tərəfindən seçilir. Digər 5 üzvü səhmdarların yığıncağında təyin olunurlar. Bankın Şurasıında 5 komitə fəaliyyət göstərir.

İsveçrə səmərəli və sabit beynəlxalq monetar sistemdən faydalanır. İsveçrə Milli Bankı müxtəlif beynəlxalq institut, təşkilat və qruplarda təmsil olunmaqla beynəlxalq monetar səviyyədə əməkdaşlıq edir və eyni zamanda Beynəlxalq Hesablaşmalar Bankının üzvüdür. Bundan əlavə, İsveçrə Milli Bankı Federal departamentlə birlikdə Beynəlxalq Valyuta Fondunda və Böyük Onluqda İsveçrəni təmsil edir.

İMB-nin beynəlxalq əməkdaşlığında texniki yardım sahəsi mühüm yer tutur. Bankın bu sahədə, xüsusilə monetar siyasət, nağd əməliyyatlar və ya ehtiyatların idarə edilməsi üzrə spesifik bacarıq və təcrübəsi vardır. Texniki yardımların köməyi ilə, İsveçrə Milli Bankı digər ölkələrin mərkəzi banklarına treyninq və seminarlar təşkil edir.

18.8. Yaponiyanın pul-kredit sistemi

Dünya valyuta bazarlarında ABŞ dolları və avrodan sonra dövriyyəsinə görə 3-cü, ehtiyyat həcminə görə isə ABŞ dolları, avrodan və Britaniya funtundan sonra 4-cü olan yen “Yen blokuna” daxil olan bir sıra Asiya ölkələrinin ticarətində əsas valyutası kimi çıxış edir.

“Yumru”, “dəyirmi” mənasını verən “yen” sözü bir zamanlar Yaponiyada istifadə olunan Çin imperial sikkələrinə istinad edir. 1871-ci ildə qəbul edilən yeni Valyuta aktına əsasən onluq hesablaşma sistemi qəbul edilmişdir. Bu sistem tam şəkildə Qərbdə qəbul edilən standartlara uyğun olmaq məqsədi daşıyırdı. Sikkələrin forması dairəvi və qərb standartlarına uyğun buraxılırdı. Valyuta aktına əsasən Yapon yeninin dəyəri qızıl standartına əsaslanırdı.

Yapon yeninin dəyəri əsasən II Dünya Müharibəsindən sonra aşağı

endi. 1949-cu ildə Bretton-Vuds sisteminə əsasən Yapon iqtisadiyyatında qiymətlərin stabilləşdirilməsi məqsədi ilə 1971-ci ilədək ABŞ dollarına qarşı sabit məzənnə siyasəti yürüdülməyə başladı. 1971-ci ildə ABŞ dollarının devalvasiyasından sonra Yaponiya Smitson sazişinə qoşuldu. Lakin 1973-ci ildə Yaponiya hökuməti üzən məzənnə siyasətinə keçdi.

1985-ci ildə Yaponiya Plaza sazişinə imza atdı. Bu sazişə əsasən Yaponiya, ABŞ, İngiltərə, Fransa və Almaniya arasında valyuta məzənnələrinin sabit saxlanılması məqsədi daşıyırdı. Nəticədə, yenin məzənnəsi sürətlə artmağa başladı.

11 may 1953-ci il tarixində Beynəlxalq Valyuta Fondu tərəfindən qızıla paritetliyi təsdiqləyəndən Yaponiya yeni sonra beynəlxalq valyuta statusunu qazandı. Həyata keçirilən bir sıra revalvasiyaların nəticəsində ABŞ dolları və digər əsas xarici valyutalara qarşı Yapon yeninin nüfuzu xeyli artdı. Hal-hazırda dünyanın strateji valyuta ehtiyatlarının ümumi həcminin 3.3%%-i yendə saxlanılır.

1882-ci ildə Yaponiya Bankı yaradıldı və 1885-ci ildən əskinazlar çap etməyə başladı. Hazırda bank 1942-ci ildə qəbul edilmiş qanun əsasında fəaliyyət göstərir. Bu qanun Bankı hökumətin sərt nəzarəti altında saxlayırdı və Yaponiyanın Maliyyə Nazirliyinə Bankın siyasətini dəyişdirmək imkanı verirdi. 1998-ci il aprelin 1-dən Yaponiya Mərkəzi Bankı haqqında yeni qanun qəbul edilmişdir. Bu qanuna əsasən Bank Maliyyə Nazirliyindən müstəqillik qazandı.

1978-ci ildə Yaponiyada qızıl standartı sistemi tətbiq edilmişdir. 1931-ci ildə Yaponiyada qızıl pul standartı ləğv edilmiş və 1937-ci ildə pul kütləsinin tədavülü 1,6 dəfə artmış və inflyasiya tempi illik 50%-dən yuxarı olmuşdur. 1945-1951-ci illər arasında inflyasiya tempi 343 dəfə artmış və yapon pul vahidi olan iyenin dəyəri 99% azalmışdır. 1949-cu ildə iyenin dollara qarşı məzənnəsi 360 iyen = 1 dollar olmuş və bu paritet 1971-ci ilə qədər qüvvədə qalmışdır. 1971-ci ildən Yaponiya Hökuməti üzən valyuta kursu tətbiq etməyə başladı. 1973-1980-ci illərdə illik qiymət artımı 9,5% olmuşdur. 1980-ci ildən son-ra beynəlxalq ticarət münasibətlərində yapon iyenin ödəniş vasitəsi olaraq Amerikan dol-ları və alman markasından sonra üçüncü yerə keçmişdir və Asiya regionu ölkələri üçün iyen ən sabit və güclü pul və bu regionun mərkəz bankları üçün ehtiyat pul vahidi olaraq qəbul edilməkdədir.

Dünyada beynəlxalq valyuta ehtiyatları içində Amerikan dollarının payı 55 %, yapon iyeninin payı 10 %-dir. Yapon mal və xidmət ticarət

ixracatının 34%-i, idxalının 12%-i yapon iyeni tərəfindən aparılır. Yapon iyeninin dollara qarşı məzənnəsinin dinamikasını 1970-ci ildən başlayaraq dollara qarşı dəyər qazanmaqdadır.

1998-ci il aprelin 1-dən Yaponiya Mərkəzi Bankı haqqında yeni qanun qəbul edilmişdir. Bu qanuna əsasən Bank Maliyyə Nazirliyindən müstəqillik qazandı. Yaponiya Bankı ölkənin mərkəzi bankıdır. Bank administrativ təşkilat deyil, səhmdar cəmiyyəti kimi fəaliyyət göstərir. Bankın səhmlərin 55%-i dövlətə məxsusdur.

Yaponiyanın Bankın aşağıdakı funksiyaları var:

1. Pul əskinazlarının çap edilməsi və nağd pul təminatının idarəedilməsi;
2. Monetar siyasətin idarə etməsi;
3. Maliyyə Sisteminin sabitliyinin qorunması və hesablaşma xidmətlərin təqdim edilməsi;
4. Xəzinədarlıq funksiyaları.

1949-cu ildə Bankın Siyasət Komitəsi yaradılmışdır. Komitə Bankın siyasətinin tərtib edilməsi və dövlətin maliyyə və pul-kredit siyasətində maraqlarını müəyyənləşdirən qurumdur. Komitə 7 üzvdən ibarətdir. Onlardan beşi səsvermə hüququqna malikdirlər: Komitənin Sədri hökumət tərəfindən 5 il müddətinə təyin edilir və şəhər bankları, regional banklar, kənd təsərrufatı və sənaye sektorunu təmsil edən dörd il müddətinə seçilən 4 üzv. Bundan əlavə Komitəyə Maliyyə Nazirliyinin və İqtisadi Planlaşdırma Komitəsinin səsvermə hüququ olmayan iki üzv daxildir. Komitə Bankın büdcəsinə aid qərarları Maliyyə Nazirliyi ilə razılaşdıqdan sonra qəbul edir. Həmçinin Maliyyə Nazirliyi ilə razılaşdıqdan sonra Parlament qarşısında hesabat verir. Bundan əlavə, Komitə faiz dərəcələrinin dəyişdirilməsini, kreditvermə prosesində girovların qiymətləndirilməsini, veksellərin növlərini və şərtlərini müəyyən edir.

1949-cu ildə Bankın Siyasət Komitəsi yaradılmışdır. Komitə Bankın siyasətinin tərtib edilməsi və dövlətin maliyyə və pul-kredit siyasətində maraqlarını müəyyənləşdirən qurumdur. Komitə 7 üzvdən ibarətdir. Onlardan beşi səsvermə hüququqna malikdirlər: Komitənin Sədri hökumət tərəfindən 5 il müddətinə təyin edilir və şəhər bankları, regional banklar, kənd təsərrufatı və sənaye sektorunu təmsil edən dörd il müddətinə seçilən 4 üzv. Bundan əlavə Komitəyə Maliyyə Nazirliyinin və İqtisadi Planlaşdırma Komitəsinin səsvermə hüququ olmayan iki üzv daxildir. Komitə Bankın büdcəsinə aid qərarları Maliyyə Nazirliyi ilə razılaşdıqdan sonra

qəbul edir. Həmçinin Maliyyə Nazirliyi ilə razılaşdıqdan sonra Parlament qarşısında hesabat verir. Bundan əlavə, Komitə faiz dərəcələrinin dəyişdirilməsini, kreditvermə prosesində girovların qiymətləndirilməsini, veksellərin növlərini və şərtlərini müəyyən edir.

Yapon bankları ölkənin iqtisadi inkişafını gücləndirmək məqsədi ilə kredit faiz də-rəcələrini aşağı düşürmək siyasətini aparır.

Yaponiya 1990-cı illərdə əmanətlərin cəlb edilməsi üçün etibarlılığın zəruri səviyyəsini qazanaraq və zəruri yerlərdə iqtisadi subyektlərə kiçik faizlərlə vəsaitlərin verilməsini təmin edən kredit mexanizmini yaradaraq, kredit sisteminin inkişafının yüksək səviyyəsinə çatdı. Bank nəzarəti sisteminin dəyişdirilməsi nəticəsində müharibən sonrakı 50 il ərzində Yaponiyada əmanətlərin kütləvi şəkildə çıxardılması və ya bankların qəflətən müflisləşməsi hallarının biri də baş verməmişdir. Problemli bankların aşkar olunması za-manı problemlərin digər banklara yayılmasının qarşısının alınması məqsədilə aşağıdakı üsullardan istifadə olunurdu. Bu, bir tərəfdən, uyğun orqanların göstərişi ilə problemli bankların hər hansı bir iri bankla qovuşması, digər tərəfdən, psixoloji riskin (moral hazard) azaldılması üçün bankların ictimai xarakterinin hər cür vurğulanması (ictimai məsuliyyət prinsipi) idi. Korporativ istiqrazların emissiyası üçün də ciddi normalar müəyyənləşdirilmişdir. Emissiya hüququ yalnız maliyyə vəziyyəti dayanıqlı olan şirkətlərə verilir və «dəyərsiz» istiqrazların buraxılmasına imkan verilmirdi. Məhz buna görə də korporativ istiqrazlar üzrə defolt halları yox idi. Defolt təhlükəsinin yaranması zamanı problemli kağızlar agent – banklar tərəfindən alınır və bu da mahiyyətcə korporativ istiqrazların bank zəmanətini ifadə edirdi.

Yapon iqtisadiyyatının kredit sferasında 1990-cı illərin ortalarında əldə edilmiş nisbi stabillik bütün maliyyə-kredit müəssisələri sisteminin kollapsı ilə kəsildi. 1996-1997-ci illərdə müharibədən sonrakı dövrdə ilk dəfə olaraq bankların müflisləşməsi başlandı. Bu fakt iqtisadiyyatın maliyyə sektorundakı vəziyyətə nəzarət etmək və onun stabilliyinin qarantı kimi çıxış etmək məsələsində Maliyyə nazirliyinin acizliyini nümayiş etdirdi və buna görə də stabilliyi pozmaq rolunu oynadı. İlk növbədə Vakayama prefekturasında işləyən yerli «Hanva qinko» (Hanva ginko) bankı və iri «Hokkaydo takseku qinko» (Hakkaido takuseku ginko) bankı bağlandı. 1997-ci ilin noyabrında dörd broker şirkəti, o cümlədən qədim şirkətlərdən biri olan «Yamaiti seken» (Yamaiti sekan) bağlandı. İlk dəfə olaraq onkol borclar bazarında (Yaponiyada banklararası kredit baza-

rı) defolt baş verdi. Yaponiyadakı bank böhranı zaman etibarilə Cənub – Şərqi Asiyada yayılan «Asiya virusu» ilə üst-üstə düşdü. Lakin mahiyyət etibarilə onlar tamamilə müxtəlif maliyyə sarsıntıları idi. Yaponiyanın kredit-maliyyə müəssisələrinin fəaliyyətinin qeyri stabillik səbəbləri arasında ikisini fərqləndirirlər:

1. 90-cı illərin birinci yarısında daşınmaz əmlak qiymətlərinin düşməsi əsasən daşınmaz əmlak obyektləirnin ibarət olan girov tə-minatının real dəyərini aşağı saldı;
2. bank fəaliyyətinin beynəlmilləşdirilməsi çatışmazlıqları üzə çıxartdı. Pon banklarının menecerlərinin aşağı səviyyəli peşəkarlıdı, Qəbrin valyuta-fond bazarlarında sövdələşmələrin aparılma təcrübəsinin kifayət qədər olmaması nəticə etibarilə şübhəli investisiya layihələrinin kreditləşdirilməsinə, qiymətli kağızlarla və derivativlərlə bağlı riskli əməliyyatlara gətirib çıxartdı. Bütün bunlar yapon banklarının əksəriyyətində itkilərə və ABŞ-ın, Qərbi Avropa ölkələrinin maliyyə dairələri tərəfindən onlara olan etimadın azalmasına səbəb oldu.

Vəziyyətdən çıxış yolu axtaran yapon hökuməti yenə də ölkənin iqtisadi sisteminin qeyri stabilliyinə kömək etmiş üsul və alətlər toplusunu hərəkətə gətirdi. Bank menecmentinin islahatı əvəzinə Maliyyə nazirliyinin və digər dövlət idarəetmə orqanları-nın protektoratı gücləndirirldi. Kommersiya bankları istiqrazlarının, adi və imtiyazlı səhmlərin dövlət tərəfindən alınma formasında büdcə vəsaitlərinin daxil olması gözlənilən nəticələrə gətirib çıxarmadı.

1988-ci il aprelin 1-də Yaponiya Bankı haqqında yeni qanun qüvvəyə mindi. Bu qanuna görə, bank Maliyyə nazirliyindən asılı deyildi. Yaponiya Bankı öz statusuna görə, inzibati orqan yox, səhmdar şirkətdir. Onun kapitalının 55%-i hökumətə, 45%-i maliyyə institutlarına, sığorta şirkətlərinə və digər şəxsi səhmdarlara məxsusdur. Səhmdarlara 4%-lik ölçüdə dividentlərin verilməsi təmin edilir. Bank tərəfindən yüksək mənffətin əldə edildiyi halda bu dividendlər 5%-ə qədər artırıla bilər. Qalan mənfəət dövlət büdcəsinə toplanır.

Yaponiya Bankının rəhbər orqanı Siyasi şuranın funksiyaları və strukturu bir qədər dəyişmişdir. 1998-ci 1 aprelindən 1-dən başlayaraq, Siyasi şura doqquz üzvdən ibarətdir. Bunlar təyin olunan altı şura üzvü, bankın sədri və onun iki müavinidir. Şuradan başqa, Bank idarəsinə üç icraçı auditor, üç icraçı direktor auditor, üç icraçı direktor və səkkiz məs-

ləhətçi daxildir.

Siyasi şuranın öhdəliklərinə aşağıdakılar daxildir:

- faizin uçot dərəcəsinin, digər faiz dərəcələrinin, veksellərin diskont edilmə şərtlərinin və tiplərinin müəyyənləşdirilməsi;
- borclar üzrə faiz dərəcəsinin müəyyənləşdirilməsi;
- məcburi bank ehtiyatları normalarının müəyyənləşdirilməsi və ya ləğv edilməsi;
- pul bazarına nəzarətin strateji xəttinin müəyyənləşdirilməsi. Tətbiq olunan nəzarət tədbirləri: əsasən açıq bazarda aparılan əməliyyatlar, istiqraz və veksellərin alqısı və satqısı;
- Yaponiya Bankının valyuta nəzarəti və pul bazarına nəzarət məsələləri üzrə rəsmi mövqeyinin dəyişilməsi barədə qanunun qəbul edilməsi;
- satış obyektlərinin müəyyənləşdirilməsi və maliyyə bazarlarında satışın həyata keçirilmə müddəti barədə qərarın qəbul edilməsi;
- şöbələrin, ofislərin, agentliklərin və Bankın birgə daxili struktur obyektlərinin yaradılması, köçürülməsi və ləğv edilməsi.

Yaponiya bankı mərkəzi bank kimi aşağıdakı funksiyaları yerinə yetirir.

Banknotların buraxılması. Mərkəzi bank ölkədə pulları çap etmək hüququna malik olan yeganə bankdır. Mərkəzi bank hələ 1889-cu ildə fidusiar banknot emissiya hüququna sahib olmuşdur. Dövriyyədəki pulların miqdarı 1999-cu ildə 7,4% artmışdır. Ölkədəki pulların miqdarı ÜDM-dən daha sürətlə artır. Lakin pullar əmanətlərdə yatıb qalır.

Yaponiya bankının növbəti funksiyası pul-kredit siyasətinin reallaşdırılmasıdır. Bu siyasətin üç əsas aləti aşağıdakılardır: məcburi bank ehtiyatları normasının dəyişdirilməsi, maliyyə bazarlarındakı əməliyyatlar, faizin uçot dərəcəsi.

Məcburi ehtiyat saxlama sistemi. Yaponiyada 1957-ci ildən başlayaraq fəaliyyət göstərir. Kredit müəssisələri ehtiyat depozitlərin müəyyən məbləğini Yaponiya Bankında yerləşdirməyə borcludurlar. Yaponiya Bankı kommersiya banklarının öz hesablarındakı ehtiyatlarını aşağı sala bilərdi ki, onlar kredit ekspansiyasına başlasınlar. Kommersiya bankları kredit ekspansiyasını həyata keçirmək iqtidarında deyillər, çünki onların kredit portfellərində həddən çox qaytarılmayan borclar var. Onlar sərbəst pulları riskli, lakin mənfəət gətirən aktivlərə – fond bazarı alətlərinə yatırırlar.

Mərkəzi bank maliyyə bazarlarındakı əməliyyatlardan (bankların borc aldıqları və verdikləri banklararası bazarda, şirkətlərin istiqrazlar və səhmlər aldığı və satdığı açıq bazarlarda) istifadə edir ki, maliyyə bazarlarındakı vəziyyətə təsir göstərsin, onları iflasa uğramaqdan və möhtəkirçi xarakteri ifrat tələbdər («sabın köpüyü») qorusun.

Faizin uçot dərəcəsinin tənzimlənməsi. İqtisadi inkişafın yüksək sürəti üçün zəruri şərt müəssisənin ucuz maliyyə vəsaitlərindən istifadə edə bilməsidir. Bunun üçün, birinci növbədə, Yaponiya Bankının ucuz faiz dərəcələri siyasətindən istifadə olunurdu. Bank konyunkturadan asılı olaraq, yenidən maliyyələşmə dərəcəsi ilə manipulyasiya etsə də, o, Maliyyə nazirliyi ilə qeyri rəsmi məsləhətlər keçirərək faiz dərəcəsini daima aşağı səviyyədə saxlayırdı. İkincisi, əmanətlə üzrə faizlərin yuxarı həddi müəyyənləşdirilmişdir. Maliyyə naziri «Faiz dərəcələrinin tənzimlənməsi barədə müvəqqyəti qanun» əsasında Yaponiya Bankının yenidən maliyyələşmə dərəcəsinin səviyyəsinə uyğun olaraq depozitlər üzrə dərəcələrin yuxarı həddini müəyyənləşdirirdi. Beləliklə, banklar aşağı cəlbetmək qiymətli ehtiyatları özlərində toplayır və real sektoru aşağı faizlə maliyyələşdirirdilər. Kredit korporasiyaları və digər xırda, orta kredit müəssisələri kiçik və orta biznesə aşağı faiz dərəcəli borclar verir, onun inkişafına kömək edirdilər. Kiçik kredit müəssisələrinin əmantəçiləri əmin idilər ki, bu kredit müəssisələri müflisləşməyəcək. Ona görə də onlar aşağı faizli vəsaitləri cəlb edə bilirdilər.

Kommersiya banklarının qarşılıqlı hesablaşmalarının həyata keçirilməsi. Bankların apardığı transaksiyalar (o cümlədən pul köçürmələri) müxbir hesablar vasitəsilə yerinə yetirilir. Qeydiyyatdan keçmiş və Yaponiyada fəaliyyət göstərmək icazəsi olan bankların Mərkəzi bankda müxbir hesabları olur. Kommersiya banklarının müxbir hesablarından hər gün 300 trilyondan çox ien keçir. Mərkəzi bank əməliyyatların bu həcmini yerinə yetirmək üçün elektron qarşılıqlı hesablaşma sistemi ilə işləyir.

Maliyyə müəssisələri menecmentinin maliyyə vəziyyətinin və mövqeyinin monitorinqi və yoxlanması. Yaponiya Bankı öz müştərilərinin hesablarında və depozitlərində vəsaitlərin hərəkətini izləyir və zəruri hallarda öz müfəttişlərini yerlərdə müfəssəl yoxlamalara göndərir. Belə yoxlamalar Mərkəzi banka imkan verir ki, maliyyə sistemindəki neqativ iqtisadi dəyişikliklərə ilkin mərhələdə reaksiya göstərsin və müştərilərə onların cari problemlərinin həllində kömək etsin. Ölkənin Mərkəzi bankı Maliyyə nazirliyi ilə yanaşı istənilən vaxtda bütün şəxsi

bankların fondlarının təftişini aparmaq hüququna malikdir. Yoxlamaların nəticələri müntəzəm şəkildə Maliyyə nazirliyinə təqdim olunur və Maliyyə nazirliyi dövlət qanunvericiliyin pozulmasına görə sanksiyalar (lisenziyasından məhrum etməyə qədər) tətbiq edə bilir.

Son mərhələnin kreditoru olan Yaponiya Bankı bankların iflasının qarşısını alır və kredit sisteminin stabilliyinə təhlükə olan banklara böhrandan çıxmaqda kömək edir.

Yaponiya Bankı dövlət qiymətli kağızları ilə əməliyyatlar aparır, həmçinin xəzinə fondlarını qəbul edir, qoruyub saxlayır və ödəyir (vergilər, təqaüdlər, ictimai işlərlə bağlı vəsaitlər və başqaları).

Yaponiya Bankı beynəlxalq fəaliyyəti həyata keçirir.

- xarici ölkələrin dövlət institutlarına və mərkəzi banklarına ien hesabları təqdim edir;
- BVF-na, Qiymətli kağızların Beynəlxalq bankına və digər beynəlxalq təşkilatlara kreditlər açır və vaxtını uzadır;
- ien kursunun arzuedilməz dəyişmələri zamanı beynəlxalq valyuta bazarlarında Yaponiyanın Maliyyə nazirliyinin agenti qismində valyuta intervensiyalarını həyata keçirir;
- digər ölkələrin mərkəzi bankları və beynəlxalq maliyyə təşkilatları üçün xarici dövlətlərin valyutasını alı rvə satır, beynəlxalq maliyyə təşkilatlarına kömək və kooperasiya məqsədi daşıyır;
- bu və ya digər ölkələrin iqtisadiyyatlarının cari vəziyyəti ilə bağlı məsələlər üzrə məsləhətləşmələr aparır, vəziyyətin proqnozlaşdırılmasını həyata keçirir, birgə nəzəri araşdırmalar və statistik tədqiqatlar təşkil edir.

Yaponiya Bankı ölkə bazarlarının maliyyə vəziyyətinin və iqtisadi mövqeyinin proqnozlaşdırılması və başa düşülməsi üçün zəruri olan nəzəri tədqiqatları və iqtisadi təhlili həyata keçirir (uzunmüddətli dövrün iqtisadiyyatı və başqaları).

Kommersiya bankları bir neçə kateqoriyaya bölünürlər.

Şəhər bankları və ya Citu banks Meydzi dövründən başlayaraq qısamüddətli və uzunmüddətli kreditlərin ölkənin bütün ərazisi boyunca iri müəssisələrlə, hər şeydən əvvəl, onların aid olduqları qrupların müəssisələrinə verilməsi ilə məşğul olur. Şəhər bankları ölkənin kredit sisteminin özəyini təşkil edir. Yaponiyada olan bütün şəxsi banklardakı depozitlərin 20%-dən çoxu, həmçinin bank sisteminin kapitalının ümumi həcminin 36%-ə qədəri onların payına düşür. Şəhər banklarının sayı 11-

dir. Daha dəqiq desək, onların ikisi bank, doqquzu bank korporasiyasıdır. «Daiiti-Kanqe» (Daiti-Kange), «Mitsubisi» (Mitsubishi), «Sumitomo» (Sumitomo), «Fudzi» (Fuji), «Sanva» (Sana) və Yaponiya Bankının yardımından istifadə edən digərləri bu qəbildəndir. Yapon banklarının xarici əməliyyatlarının böyük hissəsi şəhər banklarının payına düşür («Benk of Tokio» (Bank of Tokyo) liderlik edir). Bu bank son illər ərzində öz beynəlxalq filiallar şəbəkəsini intensiv şəkildə genişləndirir.

Regional banklar prefektur miqyasında fəaliyyət göstərirlər. Şəhər bankları ilə müqayisədə, onların kapitallarının həcmi və əməliyyatlarının miqyası çox azdır, lakin filialların geniş şəbəkəsinə malikdirlər. 64 regional bankın ən irisi «Benk of Yokohama» (Bank of Yokohama) təqribən 28 milyard dollarlıq aktivlərə malikdir. Regional bankların əsas fəaliyyət növü xırda və orta müəssisələrin kreditləşdirilməsidir. Onlardan bəziləri əmanətləri qəbul edir. Bundan başqa, regional banklar yerli özünüidarə orqanlarının maliyyələşdirilməsində mühüm rol oynayırlar. Bunlar struktur etibarilə kredit banklardır. Müharibədən sonrakı dövrdə regional bankların inhisarçı banklardan asılılığı nəzərəçarpacaq dərəcədə artmışdır.

Trast-banklar ilkin olaraq əmlakın idarə edilməsi məqsədilə yaradılırdı. İndi onlar ehtiyat qismində təcili əmanətlərə və istiqrazlara, aktivlərdə isə müəssisələrə və şəxsi adamlara verilən kreditlərə malikdirlər. Lakin bankların ixtisası əvvəlki kimi trast əməliyyatlarının həyata keçirilməsidir. Ölkədə belə bankların sayı yeddidir. Onlardan beşi dünyanın əlli iri bankları sırasına daxildir. Son dövrlərdə trast bankların və digər kommersiya banklarının qarşılıqlı nüfuz etmə tendensiyası güclənmişdir. Trast-banklarda bank şöbələri, kommersiya banklarında isə etibarlı əməliyyat şöbələri fəaliyyət göstərir.

Yaponiyada xarici banklar dünyanın 88 dövlətini təsil edirlər. Bu mənada ABŞ və Böyük Britaniya bankları hakim mövqe tutur, Almaniya və Fransa bankları da əhəmiyyətli çəkiyə malikdirlər. Xarici banklar tərəfindən rəqabət 1960-cı ildə başlamışdır. Həmin dövrə qədər onların fəaliyyəti iki istiqamətlə məhdudlaşırdı: xarici valyutada olan borcların təqdim edilməsi və «Sarakin» (Sarakin) istehlak krediti müəssisələrinin kreditləşdirilməsi. Xarici bankların ənənəvi funksiyası xarici valyuta ilə ticarətdir. Onların sayəsində Yaponiyada xarici ticarətdəki rikləri sığortalayan yeni maliyyə alətləri yaranmışdır. Xarici banklar faiz bazarında da öz tətbiqini tapmışdır. Hal-hazırda Yaponiya iri beynəlxalq svop bazarlarından biridir.

2000-ci ilin sentyabrında üç aparıcı bank («Indastrial Benk of Ce-

pen», «Daiiti-Kanqe» və «Fudzi», yəni iki şəhər bankı və bir uzunmüddətli kreditləşmə bankı) «Midzuho» (Midzuho) holdinq qrupunda birləşməklə bağlı planlarını reallaşdırmağa başladılar. Bu, aktivlərinin ölçüsünə görə dünyanın iri maliyyə qruplarından biri olaraq. 2001-ci ildə «Tokay» (Tokai), «Asahi» (Asahi) və «Sanva» (Sanva) banklarının holinqdə birləşməsi, həmçinin «Sumitomo» (Sumitomo) və «Sakura» (Sakura) banklarının vahid «Sumitomo Misui» (Sumitomo Mizui) bankında birləşmə prosesi başlandı. Bu proses bank işindəki qlobal rəqabətin nəticəsi və yapon iqtisadiyyatı üçün qeyd şərtsiz üstünlük idi.

18.9. Türkiyənin pul sistemi

Türkiyənin pul sisteminin tarixi inkişafı. Osmanlı dövründə ilk pul 1329-cu ildən Orxan Qazi tərəfindən gümüş mədənində çıxarılan Osmanlı axçasıdır. 6 karat ağırlığında və 90% əyarlı idi. Ağ pul mənasını verən axça, Fateh Sultan Mehmed dövründə 5 karata, II Bəyazidin dövründə 4 karata, əyarı 85%-ə düşmüşdür. II Mahmudun dövründə 90 əyarlı gümüşdən axça kəsilməsinə 1822-ji ilə qədər davam etdirilmişdir. Çox kiçilən və sayılması çətinləşən axçanın kəsilməsinə həmin ildə son qoyulmuşdur. Osmanlı dövlətində ilk qızıl pul olan sikkə, Fatih Sultan Mehmedin dövründə 1479-ju ildə kəsilmişdir. Ağırlığı 17,25 karat olan bu qızıl lirənin əyarı isə 993 olub, qalınlığı 20 millimetrdir. Son osmanlı qızılını, 1918-ji ildə Sultan Vahidəddin çıxartmışdır. Bu qızılların 100 quruşluğu 7,217 qram ağırlığında və 22,5 millimetr qalınlığındadır. Osmanlı imperiyasında 458 illik bir müddətdə 30 padşah adına qızıl sikkə kəsilmişdir.

İlk lirə 1844-cü ildə dövriyyə buraxılmışdır. Lirə kuruşu əvəz etsə də, kuruş tədavüldən çıxarılmadı və alt-vahidi oldu (1 lirə = 100 kuruş). Həmçinin para da istifadə olunurdu (1 kuruş = 40 para) bərabər idi. 1930-cü ilə qədər Türk sikkələrin və əskinasların üzərindəki yazılar ərəb əlifbasında yazılmışdı. 1844-1881-ci illərdə lirə qızıl və gümüş standartlarına əsaslanırdı. 1881-1914-cü illərdə lirə yalnız qızıl standarta əsaslanırdı. Məzənnəsi bir müddət Britaniya funtu və Fransa frankı əsasında müəyyən olunan türk lirəsi, 1946-cı ildə lirənin məzənnəsi ABŞ dolları əsasında müəyyən olunurdu. 1960-cı ildə devalvasiya olunan lirə 1970-ci ildən başlayaraq xroniki inflasiyanın təsiri altında kəskin şəkildə dəyərdən düşdü. Sonrakı bir neçə il ərzində lirənin məzənnəsi ABŞ dollarına

və avroya qarşı sabitləşmişdir.

Türk lirəsi 1995-1996 və 1999-2004-cü illərdə ən az dəyəri olan pul vahidi kimi Qinnesin Rekordlar kitabına salınmışdır.

1 yanvar 2005-ci il – 31 dekabr 2008-ci il keçid dövrü hesab edilir və bu dövrdə baş verən denominasiya nəticəsində türk valyutası rəsmi olaraq Yeni Türk Lirəsi adlandırılırdı (1 YTL = 1 000 000 TL).

1 yanvar 2009-cu ildən başlayaraq «yeni» sözü yığışdırılmışdır və yeni banknotlar dövriyəyə buraxıldı. Bu zaman 1 lirə dövriyədən çıxarıldı və yeni nominalı 200 lirə olan əskinas dövriyəyə buraxıldıə. Yeni Türk Lirəsi əskinasları 31 dekabr 2009-cu ilə qədər qüvvədədir, lakin Mərkəzi Bankın filialları tərəfindən 31 dekabr 2019-cu ilə qədər qəbul ediləcəkdir.

TÜRKİYƏ CÜMHURİYYƏTİ MƏRKƏZİ BANKI. Son iyirmi ildə dünya iqtisadiyyatında meydana gələn dəyişikliklər, Mərkəzi Bank əməliyyatlarına əsaslı şəkildə təsir etmişdi. Xüsusilə maliyyə bazarlarının qloballaşması və inkişaf edən texnika bu bazarları 70-ci illərdən fərqli olaraq daha da genişləndirmişdi.Bu dəyişikliklər mərkəzi bankların başlıja vəzifələrinə də təsir etmişdir. Mərkəzi banklar əsas 2 əməliyyat aparırlar. Bunlardan biri pulun inkişafını təmin etmək, digəri isə maliyyə inkişafını qorumaqdır. Bazar sistemlərinə üstünlük verən tətbiq etmələrə paralel olaraq daha müstəqil mərkəzi banklara ehtiyaj var idi. Bank sisteminin dahada aktiv nəzarəti ön sıraya çıxınja, auditin mərkəzi banklar istisna olmaqla müstəqil orqanlar tərəfindən aparılması ön plana çıxmışdır. Avropa Mərkəzi Bankı qurulduqdan sonra bir çox ölkələrin mərkəzi banklarının funksiyaları azalmış və öz ölkələrinin pul siyasətlərini istiqamətləndirmə xüsusiyyətləri də dəyişmişdir. Mərkəzi bankların əsas funksiyası pul və kurs siyasətlərini tənzimləməkdir. 90-cı illərdə pul siyasətlərində müstəqillik əldə etmə istəyi artaraq, həmin andan da vasitəçilik müstəqilliyindən, məqsəddəki müstəqilliyə keçid hazırlanmışdır Mərkəzi bankların müstəqil pul siyasəti aparması qəbul edilən və tətbiq edilən əməliyyata çevrilmişdir. Bəzi ölkələrdə kurs siyasətinin tətbiqi mərkəzi bankların ixtiyarına verilmişdir. Məsələn: Avropa Mərkəzi Bankı. Çünki kurs bir qiymətdir və kurs rejimi ilə hökumətin tətbiq etdikləri siyasi nətijə yaradır. Bəzi ölkələrdə hökumət və Mərkəzi Bank bu mövzuda birlikdə qərar verirlər. Mərkəzi bankların digər vajib bir funksiyası da bank sisteminin auditidir. Bu mövzuda yeni istiqamət auditin aparılmasının müstəqil bir orqana verilməsi, onunla əməkdaşlıq edilərək bank sistemində inkişafa nail olmaqdır. Ödəmə sistemləri isə bütün dünyada

mərkəzi bankların funksiyalarına aiddir. Banknot buraxmaq, hökumətə bank xidmətləri göstərmə, statistik məlumatlar tamlama, tədqiqatlar aparma, beynəlxalq münasibətlərdə iştirak etmə, Mərkəzi Bankın funksiyalarına daxildir.

Keçmişdə dövlət xərclərini maliyyələşdirmək, hökumətə məsləhət vermək kimi məqsədləri ön plana çıxaran mərkəzi bankların, 90-cı illərdə iki əsas məqsədi ortaya çıxmışdır. Bunlardan biri, pulun dayanıqlığını təmin etmək, digəri isə maliyyə möhkəmliyini qorumaqdır. Pul dayanıqlığı aşağı inflyasiyanı həyata keçirərək orta müddətdə sağlam inkişaf və aşağı səviyyəli işsizlik olan bir iqtisadiyyat yaratmaqdır. Bunun üçün isə mütləq qiymət davamlılığı təmin edilmişdir. Mərkəzi bankların 2-ci əsas məqsədi olan maliyyə möhkəmliyi, müasir dövrdə daha çox əhəmiyyət qazanmağa başlamışdır. Maliyyə möhkəmliyi, maliyyə bazarlarında bu bazarların orqanlarında və ödəmə sistemlərindəki davamlılığı əhatə edir. Bu üç sahədəki davamlılıq əsasən maliyyə sisteminin sağlam və dayanıqlı işləməsini təmin edir.

Türkiyədə Mərkəzi Bankın qurulması jümhuriyyət dövrünə təsadüf edir. Osmanlılar dövründə bank və buna bənzər kredit təşkilatları az idi. Osmanlı Bankı Mərkəzi Bankın funksiyalarını yerinə yetirirdi. Banka Osmanlı imperiyası üçün banknot çıxarmaq və dövlətin xəzinə əməliyyatlarını aparmaq səlahiyyəti verilmişdir. Cümhuriyyətin qurulduğu ilk illərdə Osmanlı Bankının fəaliyyətinin uzadılması problemi ortaya çıxmışdır. Cümhuriyyətin idarəedériciləri iqtisadi vəziyyətin yeni bank təsis etməyə imkan vermədiyi üçün, Osmanlı Bankının səlahiyyət müddəti 1935-ji ilə qədər uzadılmışdır. Yeni müqaviləyə hökumətin banknot ixrac edə biləjək dövlət bankı təsis etmək halında Osmanlı Bankının etiraz etmək haqqı olmayacağını bildirən bir qərar daxil edilmişdir. 1926-cı ildən etibarən Mərkəzi Bank təsis edilmə hazırlıqları başlanılmış, 11.6.1930-cu ildə 1715 saylı Q.S.M.V. qanunu qəbul edilmişdir. 3.10.1931-ci ildə Mərkəzi Bank təsis edilmiş, 1.1.1932-ci ildən fəaliyyətə başlamışdır. Bank qurulduğu ildən etibarən 30 il müddətli banknot ixraj etmək səlahiyyətinə sahib idi. 1955-ci ildə edilən dəyişikliklə banknot ixraj etmə səlahiyyəti 1999-cu ilə qədər, 25.4.1994-cü ildə edilən 2-ci bir dəyişikliklə isə müddətsiz olaraq uzadılmışdır.

1715 saylı qanunda bankın əsas məqsədi "ölkənin iqtisadi inkişafına kömək etmək" olaraq müəyyən edilmişdir. Bu məqsədi həyata keçirmək üçün banka:

- Reeskont nisbətini müəyyən etmək və pul bazarını tənzimləmək;
- Xəzinə əməliyyatları aparmaq;
- Hökumətlə birlikdə türk pulunun dəyərinin qorunması üçün tədbirlər görmək vəzifələri verilmişdir.

Qüvvədə olduğu müddətdə 1715 saylı qanunda müxtəlif dəyişikliklər edilərək, günün tələblərinə uyğun olması təmin edilmişdir. Bu dəyişikliklər, daha çox xəzinəyə və KİT-lərə kreditlər verilməsinə müvafiq olaraq edilmişdir. Buna görə də bankın əsas işi, aktiv pul siyasəti aparmaqdan çox, dövlət sektorunun maliyyə kəsirlərini örtmək olmuşdur.

1715 saylı qanun, 26.1.1970-ci ilə qədər, yəni 1211 saylı qanun qəbul edilənədək - 40 il qüvvədə qalmışdır. Mərkəzi Bank qanunu 26.1.1970-ci il 1211 saylı qanun ilə dəyişdirilmişdir. 1211 saylı Qanun ilə Mərkəzi Bank günün iqtisadi tələblərinə uyğun olaraq yenidən təşkilatlandırılmış, vəzifə və səlahiyyətlər yenidən müəyyənləşmişdir. 1211 saylı qanuna görə bankın əsas vəzifələri aşağıdakılardır:

- Pul və kredit siyasətini inkişaf planlarına və illik proqramlara uyğun şəkildə aparmaq;
- Hökumətlə birlikdə milli pulun daxili və xariji dəyərini qorumaq məqsədilə tədbirlər görmək;
- Milli pulun həjmini və tədavülünü bu qanunauyğun tənzimləmək;
- Banklara pul vermə əməliyyatlarını qanunla göstərilən sərhədlər daxilində həyata keçirmək.

1211 saylı qanun ilə Mərkəzi Bankına kredit əməliyyatlarında tətbiq edəjəyi reeskont, diskont və faiz nisbətlərini müəyyənləşdirmək, borc pul vermə, əmanət faizləri, disponibilite və qarşılıqlar mövzusunda yüksək planlama təşkilatı vasitəsilə Nazirlər Kabi-netinə təklif vermə və tətbiq ediləcək pul siyasətinin inkişaf planları və illik proqramlara uyğunluğunu təmin etmə və bank sektorunun apardığı əməliyyatların bu qanunlara uyğunluğuna nəzarət etmək səlahiyyəti verilmişdir.

Mərkəzi Bankın əsas müşavirlik vəzifələri arasında: milli pulun xarici valyutalar və qızıl qarşısındakı paritetini müəyyən etməkdə hökumətə rəy bildirmə, bank qanununun tətbiqində hökumətlə rəy mübadiləsi aparma, banklar və digər maliyyə təşkilatları ilə bağlı quruluş icazələri və bunlarla bağlı təsfiyədən öncə bankın rəyi soruşulduğunda bu rəy bildirmə sayıla bilər.

1211 saylı qanun qüvvəyə mindiyi 1970-ci ildən bu vaxta qədər keçən müddətdə, Türkiyədə iqtisadi şərtlər əhəmiyyətli dərəcədə dəyişilmişdir.

5.5.2001-ci ildə 4651 saylı Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı qanununda dəyişiklik edilməsinə dair qanun rəsmi qəzetdə yayınlanmışdır. Bu qanun ilə TJMB-nın əsas məqsədinin qiymət dayanıqlığını təmin etmək olduğu və bankın ölkənin siyasətinin müəyyən edilməsində və tətbiqində yeganə səlahiyyətli və məsuliyyətli orqan olduğu bildirilmişdir. Qanuna görə bankın əsas hədəfinə zidd olmamaq şərtilə bank hökumətin böyümə və məşğulluq siyasətlərini dəstəkləyə bilər. Bundan başqa bank əsas hədəf olan inflyasiyayla mübarizənin fəal olaraq aparılması məqsədilə inflyasiya hədəfini hökumətlə birlikdə müəyyən etməklə vəzifə-ləndirilmişdir. Bank qiymət dayanıqlığını təmin etmə, inflyasiya ilə mübarizə aparmaq üçün müasir dövrdəki mərkəzi bankçılıqda istifadə edilən pul siyasəti vasitələrini müəyyənləşdirməli və istifadə etməlidir.

Yeni mərkəz bankı qanunu ilə edilən dəyişikliklərin əsasları aşağıdakılardır:

1. Vasitə müstəqilliyi. Müstəqillik ölçüsü olaraq, bankın əsas məqsədinin qiymət təmin etmək olduğu və bankın pul siyasətinin müəyyən edilməsində və tətbiqində yeganə məsuliyyətli və səlahiyyətli olduğu qanuniləşmişdir. Bank vasitə müstəqilliyi qazanarkən, inflyasiya hədəfini hökumətlə birlikdə müəyyən etmə vəzifəsi və səlahiyyətilə vəzifələndirilmişdir. Bankın hesab və əməliyyatlarının auditinin müstəqil audit təşkilatları tərəfindən aparılması yeni qanunda nəzərdə tutulmuşdur.
2. Pul siyasəti orqanı. Qiymət dayanıqlığının aktivliyinin təmin edilməsi məqsədilə dünya praktikası da nəzərə alınaraq pul siyasəti orqanı yaradılmışdır. Pul siyasəti orqanı sədrin rəhbərliyi altında sədr müavinləri, bank məjlisinin üzvləri arasından seçiləcək nümayəndə və sədrin məsləhəti ilə müştərək qərarla seçilən nümayəndədən ibarətdir. Xəzinənin sədri və ya onun müavini səs vermə hüququ olmamaq şərtilə iştirak edirlər.
3. Dövlət sektoruna kredit verilməməsi. Xəzinə ilə dövlət orqanı və təşkilatlarına "avans verilməsi" və kredit verilməsi qadağan olunmuşdur. Bu baxımdan da əvəzi olmadan pul kəsilməsi də dayandırılmışdır.

Mərkəzi Bankı 11.6.1930-cu il tarixli ilk qanunda "xəzinənin qısa müddətli avansı" adlı anlayış yox idi. Bu hesab 1938-ci ildə yaradılmış və daha sonrakı illər də, xüsusilə də 1952-ci ildən sonra pis niyyətlə istifadə edilmişdir. O dövrdə kənd təsərrüfatı sektoruna verilən subvansiyalar

Mərkəzi Bankdan borc alınaraq maliyyələşdirilmişdir. Bunun nəticəsində də Türkiyə ciddi inflyasiya ilə ilk dəfə bu dövrdə rastlaşmışdır. Maliyyə bazarlarının inkişaf etmədiyi həmin dövrlərdə Mərkəzi Bankın inflyasyonist siyasət aparıb aparmadığı emissiya ilə ölçülürdü. Emissiya Mərkəzi Bankın bazara çıxardığı banknotların cəmi dəyəri olaraq, həmin müddətdə əhəmiyyət qazanmışdır. 11.6.1930-cu il tarixli Mərkəzi Bank qanununun 32-ci maddəsi belədir: "Bank xəzinə tədiyələrinin ifa, ölkə daxili və xarici pul köçürmələrini təmin edir". Qanunun heç bir maddəsində qısa müddətli avans hesabı adlı bir termin istifadə edilməmişdir. Çünki bu qanun çərçivəsində xəzinənin Mər-kəzi Bankdan kredit alması mümkün deyildi. Bankın qurulmasından sonra vergi gəlirləriylə xərjlər arasındakı müddət fərqinin yaradacağı nağd ehtiyajının Mərkəzi Bankdan avans alınaraq həll edilməsi fikri yaranmışdır. Ancaq bu avansın büdjənin maliy-yələşməsi üçün olmadığı, il sonunda mütləq sıfır olacağı ehtimal edilmişdir. Avans hesabının üst limiti, dövlət büdcəsinin böyüklüyündə deyil, Mərkəzi Bankın ödənilmiş sərmayəsinə bağlı idi.

2.7.1932-ci il tarixli 2062 saylı qanun ilə 32-ci maddə aşağıdakı kimi dəyişdirilmişdir. "Bank xəzinənin fəaliyyətinə xitam verilməsinə minimum 3 ay qalmış bonolarını diskont edə bilər. Bu işə bankın tədiyə edilmiş sərmayəsinin 40%-dən çoxu şamil edilə bilməz". 24.6.1938-ci il 3492 saylı qanun ilə 32-ci maddə daha da əhatəli vəziyyətə gətirilmiş və bura qısa müddətli avans hesabı daxil edilmişdir. 32-ci maddənin ilk ciddi pozulması, çox-partiyalı dövrə keçiddən sonra baş vermişdir. Bu dövrdə qanunun qoyduğu avans limiti yetərli olmamış və inflyasiya səbəbilə qanunun qoyduğu limit azalmışdır. 27.4.1955-ci ildə 6544 saylı qanun ilə 32-ci maddənin 2-ci hissəsinin ilk cümləsi dəyişdirilmişdir və belə olmuşdur: "Bank, miqdarı jari ilin məsrəf büdcəsi yekununun 15%-ni keçməmək şərtilə xəzinəyə qısa müddətli avans hesabı aça bilər". Bu ifadənin qüvvəyə minməsilə ilk dəfə 1955-ci ildə emissiya 30%-ə yüksəlmişdir.

İqtisadi möhkəmliyin təmin edilməsi ümüdi ilə 1961-ci ildə ilk dəfə qısa müddətli avans hesabı konsolidə edilib sıfırlanmışdır. Avansın limiti büdjə ayırmalarının 5%-i təşkil etmiş və maliyyə ili sonunda bağlanılması haqda qeyd qanunda göstərilmişdir. 21.4.1965-ci il 586 saylı qanun ilə 32-ci maddənin 2-ci bəndi yenidən dəyişdirilmiş və avansın limiti büdjə ödənişlərinin 10%-i qədər müəyyən edilmişdir. Edilən dəyişikliklə maliyyə ili sonunda avans hesabının bağlanmasından sonra tamamilə aradan qaldırılmışdır.

1. Son borc vermə mərhələsi. Son kredit mərhələsi etibarilə ödəniş sistemində çatışmamazlıqlara səbəb ola biləcək keçici likvidlik problemlərini və maliyyə bazarlarının fəal işləməsinə mane olacaq texniki mənbəli ödəniş problemlərini aradan qaldırmaq məqsədilə Mərkəzi Bankı "sistemə təminat qarşılığında" gün daxili və ya gün sonu kredit vermə imkanı təmin edilmişdir.
2. Maliyyə sisteminin və ödəmə sisteminin nəzarəti. Maliyyə sistemində davamlılığı təmin etmə vəzifə və səlahiyyəti daxilində Banka sistemin bazisinin gücləndirilməsi və sistemin risklərinin müəyyənləşməsi məqsədilə sistemi izləmə və dəyərləndirmə, sistemdəki risklərin bütün sektora yayılmasının qarşısını almaq üçün lazımi tədbirləri görmək səlahiyyətləri verilmişdir. Bu səbəbdən də banklar, özəl maliyyə təşkilatları və başqa maliyyə orqanlarından doğru və qanuni məlumat verilməsinin təmini barədə banka vəzifələr verilmişdir.
3. Vəzifə müddətləri və etibarlılığı. Bankın vəzifə müddətinə paralel olaraq müdir müavinlərinin vəzifə müddətləri 3 ildən 5 ilə qədər artırılmışdır. Bu baxımdan sədrin vəzifə müddəti müavinlərin müddətləri bitmədən önjə dəyişdirilə bilməzdi. Bununla da vəzifələrin etibarlılığı və təhlükəsizliyinə zəmanət verilmişdir.
4. Məlumat toplama və risklərin jəmlənməsi. Bankın statistik məlumatların toplanmasında, dövlət təşkilatları, xəzinə müşavirliyi, Dövlət Statistika idarəsi, digər ölkələrin statistik məlumat toplamaqda məsul olan orqanları və beynəlxalq təşkilatlarla iş birliyi aparması mümkün olmuşdur.

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı pulların buraxılması hüququna malik birgə səhmdar cəmiyyətdir.

Osmanlı İmperiyası dövründə xəzinə əməliyyatları, pul və kredit köçürmələri, qızıl və xarici valyuta ilə ticarət, xəzinədarlıq, kreditorlar, müəssisə və təşkilatlar tərəfindən icra olunurdu. Osmanlı İmperiyasının xarici köçürmələrini həyata keçirmək üçün ilk dəfə 1847-ci ildə Osmanlı Hökuməti "Bank-ı Dersaadet"in yaradılmasına icazə vermişdir. 1856-cı ildə isə fransız və ingilis kapitalının iştirakı ilə Osmanlı Bankı yaradılmış və 1863-cü ildən etibarən isə mərkəzi bankın funksiyalarını həyata keçirməklə dövlət bankı statusunu almışdır

1926-ci ilədək Osmanlı Bankı mərkəzi bank kimi fəaliyyət göstərmiş, 1926-cı ildən isə Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı adlandırılmışdır.

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankına dair Qanun 11 iyun 1930-cu il tarixində qüvvəyə minmişdır. Bank 3 oktyabr 1931-ci il tarixində yaradılmış və 1 yanvar 1932-ci il tarixində fəaliyyətə başlamışdır. Mərkəzi Bank haqqında ən son yenilənmiş qanun 14 yanvar 1970-ci il tarixində qəbul olunmuş və bankın əsas məqsədi kimi qiymət sabitliyinə nail olunması və saxlanılması göstərilmişdir.

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı haqqında Qanuna uyğun olaraq Bankın fundamental vəzifələri aşağıdakılardır:

- Açıq bazar əməliyyatlarının həyata keçirilməsi;
- Türk Lirəsinin daxili və beynəlxalq dəyərinin qorunması məqsədilə zəruri tədbirlərin görülməsi və Türk Lirəsinin qızıl və xarici valyutalara qarşı paritetinin müəyyənləşdirilməsi məqsədilə hökumətlə birlikdə valyuta siyasətinin həyata keçirilməsi;
- Ölkənin qızıl və xarici valyuta ehtiyatlarının idarəedilməsi;
- Türk Lirəsinin həcminin və tədavülünün tənzimlənməsi, ödəniş, qiymətli kağızların transferi və hesablaşmalar sisteminin yaradılması;
- Maliyyə sistemində sabitliyin gücləndirilməsi, pul və xarici valyuta bazarlarına münasibətdə tədbirlərin görülməsi;
- Maliyyə bazarlarının monitorinqinin aparılması;
- Banklardakı depozitlərin şərtlərinin, növlərinin və xüsusi ma-liyyə qurumlarında iştirakla bağlı şərtlərin müəyyənləşdirilməsi.
- Bankın fundamental səlahiyyətləri aşağıdakılardır:
- Türkiyədə pulların tədavülə buraxılması;
- Hökumətlə birgə inflyasiya hədəfini və buna uyğun olaraq monetar siyasətin müəyyənləşdirilməsi;
- Fövqəladə hallarda Əmanətlərin Sığortalanması Fondunun resursları kifayət etmədikdə Fonda müəyyənləşdirəcəyi şərtlər və qaydalara uyğun olaraq Fonda avansın verilməsi;
- Kommersiya banklarına kreditin verilməsi;
- Maliyyə bazarlarının monitorinqini aparmaq məqsədilə bank-lardan, digər maliyyə institutlarından və həmçinin qeyd edilən ins-titutların fəaliyyətini tənzimləmək və nəzarət etməkdə səlahiyyətli olan idarələrdən lazımi məlumatların tələb edilməsi və statistik informasiyanın toplanması.

Türkiyyə Cümhuriyyəti Mərkəzi Bankının Sədri İdarə Heyəti və Monetar Siyasət Komitələrinə başçılıq edir. Sayı 4 olan sədr müavinləri Ban-

kın Monetar Siyasət Komitəsinin üzvləridir.

Hazırda Bankda 15 departament fəaliyyət göstərir. Bankın Nyu-York, London, Frankfurt, Tokyo və Berlində nümayəndilikləri mövcuddur.

Türkiyə Cümhuriyyəti Mərkəzi Bankı beynəlxalq əlaqələrində əsas yeri Beynəlxalq Valyuta Fondu (BVF) ilə əməkdaşlıq tutur. Türkiyə 1947-ci ildən bəri BVF-nin üzvüdür və ölkəni BVF-də maliyyə agenti kimi Mərkəzi Bank təmsil edir. Bundan başqa bank digər beynəlxalq maliyyə təşkilatları və xarici ölkələrin mərkəzi bankları ilə əməkdaşlıq etməkdədir.

TÜRK BANK SİSTEMİNDƏ STRUKTUR DƏYİŞİKLİYİ PROSESİ. 24 yanvar 1980-ci il qərarlarına qədər qapalı bir iqtisadiyyatda varlığını sürdürən türk bank sistemi iqtisadiyyatın liberallaşmasına paralel olaraq maliyyə sektorunda baş verən yenidən qurma dövründəki tərəqqidən çox təsirlənmişdir.

1982-ci ildə Sərmayə bazarının yaranmasından sonra 1986-cı ildə İstanbul Qiymətli Kağızlar Birjası fəaliyyətə başlamış və Banklararası Pul Bazarı qurulmuşdur. 1989-cu ildə valyuta əməliyyatları və sərmayə hərəkətləri təmamilə sərbəstləşdirilmiş və qızıl birjası açılmışdır. 1990-cı illərdə beynəlxalq bankçılıq əmsallarına, xüsusilə, sərmayə yetərliliyi əmsalı ilə bağlı düzəlişlər aparılmış vahid hesablar planına keçilmiş, Əmanət Sığorta Fondu qurulmuş və bankların hesablarının müstəqil audit təşkilatları tərəfindən nəzarət edilməsi məjburiyyəti yaranmışdır. Türkiyədəki şəxslərin ölkə daxilində və xarijində valyuta jinsindən əmanət hesabı məqsədlərinə ijazə verilmi, Türkiyədən olmayanların da maliyyə sektoruna investisiya qoymalarına ijazə verilmişdir. Banklar 1988-ci ildə faiz nisbətlərini və 1990-cı ildə də valyuta kurslarını müəyyən etmədə sərbəstlik qazanmışdılar. Türkiyəyə gələn xariji banklardan mənbəyini götürən kəskin rəqabət şəraitində türk bankları müasirləşmə istiqamətində önəmli addımlar atmışdılar.

1990-cı ildə elektron bankçılıq xidmətləri göstərilməyə başlanmışdır. Banklararası ödəmələrin mübadilə üsulu ilə aparılmasını təmin edən Elektron Fond Transferi sistemi 1992-ji ildə tətbiq edilmişdir.

1994-cü il iqtisadi böhranı xüsusilə bank sistemini çox zəiflətmişdi. Sistemdəki 3 bank öhdəliklərini vaxtında yerinə yetirə bilməmiş və bu bankların fəaliyyətləri dondurulmuşdur. Bank sistemində inamın qorunması və inkişafın yenidən təmin edilməsi üçün ehtiyat əmanətlərin hamısına dövlətin zəmanəti tətbiq edilmişdir. Mükafat nisbətlərinin yüksəldilməsi, minimum ödənilmiş sərmayə həjminin artırılması, məjburi

müddət nisbətinin 20%-dən 25%-ə yüksəldilməsi kimi bank sisteminə yönələn, bankların valyuta mövqeləri ilə sərmayə maksimumu arasında yeni izahlar verilmiş və valyuta mövqeyini sərmayə maksimumuna məhdudiyyət qoyulmuşdur. Bu nisbət 50% ikən 1999-cu ilin iyun ayında edilən düzəlişlər ilə mərtəbəli olaraq 20%-ə düşmüşdür.

Türkiyədə 1980-ci ildən sonra qurulan xariji bankların da təsirilə türk bankları xidmət təklifində texnikadan daha çox istifadə edilməyə başlanmışdır. Bu dövrdə banklar bir tərəfdən istehlak kreditləri, kredit kartları və internet bankçılıq kimi yeni fərdi bankçılıq vəsaitlərini gündəmə çıxarırkən, digər tərəfdən sərmayə bazarlarındakı fəaliyyətlərini artırmışdılar. Sərmayə hərəkətlərinin sərbəstləşdirilməsindən sonra türk bank sistemi xariji maliyyələşdirmə imkanlarını artırmış, bundan başqa beynəlxalq aləmdə getdikjə artan tijarət həjminə bağlı olaraq sektor xariji tijarətin maliyyələşdirilməsinə daha çox önəm verilmişdir. Bu inkişaf bankların ölkə daxili mənbələrdəki yüksək real faiz nisbətlərindən mənbəyini götürən fond məsrəflərini qismən də olsa azaltmalarını təmin etmiş və böyüməlMərinə dəstəkləyiji bir faktor olmuşdur. Bu inkişaf Türkiyədə getdikjə artan pul tədavülünün təsiri ilə bankların xariji pul jinsindən öhdəliklərini artırmış və xariji pulun açıq mövqeyinin yüksəldilməsinə səbəb olmuşdur.

Türk bank sistemi 2 əsas bank qrupundan ibarətdir. Bunlar tijarət bankları və inkişaf-investisiya banklarıdır. Bundan başqa hər qrup sərmayə mənbəyinə görə özəl, dövlət və xariji olmaqla 3 qrupa bölünür.

Türkiyədə bankların mənbə məsrəflərini artıran və mənbələrin istifadəsini məhdudlaşdıran səbəblərin birinjisi əmanət qarşılıqları və disponibilitenin tətbiqidir. Qarşılıqların tətbiqinə təqdim edilən təşkilatlar topladıqları mənbələrin vajib bir hissəsini sərbəst olaraq istifadə edə bilməzlər. Bu vəziyyət istifadə edilməyən mənbələrin məsrəflərinin istifadə edilən mənbələrin üzərinə yüklənməsinə yol açır. Beləliklə, mənbə məsrəfi ilə kredit məsrəfi arasındakı fərq müəyyənləşmiş olur. Bu da iqtisadiyyatda istehsal edilən əmtəə və xidmətlərin məsrəflərini yüksəltmədə, həm də daxildə, həm də xarijdə rəqabəti azaldır. Mənbələrin maliyyə sistemində istifadəsi məhdudlaşır.

Türkiyənin rəqabət apardığı ölkələrdə krediti istifadə edən bir firma sadəjə faiz ödəyərkən, Türkiyədə fəaliyyətdə olan bir firma faizə əlavə olaraq 5% nisbətində əlavə vergi ödəyir. Bu da kredit məsrəflərini yüksəltməkdə, beləliklə də həm əsas məsrəflərə, həm də iqtisadi fəaliyyətə

mənfi təsir göstərir. Banklararası əməliyyatlarda tətbiq edilən kambiyo və məsrəf vergisi, beynəlxalq əməliyyatların və inteqrasiyanın getdikjə artması ilə bağlı olaraq jiddi vəzifələr qarşısında qalmışdır. Bu vəziyyət konvertibl tətbiqi ilə də yaranır. Bu əməliyyyatlar Türkiyədəki təşkilatların rəqabət güjünü zəiflədir, kəskin rəqabətin nətijəsində vergidən daha aşağı nisbətlərdə əməliyyat aparılmasını məjbur edərək, ölkə xarijindəki banklarla aparılan əməliyyatlar da zərərlə nətijələnməkdədir.

Bank sektorunda dəyışmələr və yenıdənqurma. Türkiyədə 1980 və 1990-cı illərdə bank sistemi, bank sayı və toplam aktiv həjmi baxımından sürətli bir artma göstərmişdir. Xüsusi vəsaitlərin yetərsizliyi, kiçik ölçülü və hissəli bank strukturu, aktivin keyfiyyətinəki zəiflik, yetərsiz daxili audit və riskin idarə olunması və aktivlik baxımından çatışmazlıqları əhatə edən yetərsiz idarəetmə, bank sistemini daxili və xariji təsirlərə qarşı dözümlü və dayanıqlı vəziyyətə gətirmişdir. 2000-ci ilin noyabr və 2001-ci il fevral böhranlarının ardından gerçəkləşən kurs və faiz riskləri bank sisteminin maliyyə strukturunda jiddi bir pozulmaya səbəb olmuşdur. 1999 və 2000-ci illərdə müvafiq olaraq 133,5 və 155,2 milyard dollar olan bank sisteminin aktiv böyüklüyü, 2001-ji ilin üçünjü rübündə 110,8 milyard dollara düşmüşdür. Bu dövrdə tijarət banklarının aktiv böyüklüyü isə 127,2; 148,3 və 106,4 milyard dollar olmuşdur. Böhranın təsirləri nəticəsində bank saylarında da əhəmiyyətli azalma olmuşdur. 1999 və 2000-ji illərdə 62 və 61 ədəd olan tijarət banklarının sayı 2001-ji ildə 46-ya və 2002-ji ilin sentyabrında 43-ə düşmüşdür. Böhran dövründə dövlət banklarının bütün bank sistemi içərisindəki payında da əhəmiyyətli nisbətdə azalma müşahidə edilmişdir. 1999 və 2000-ci illərdə 34% olan dövlət banklarının jəmi bank sistemi aktivləri içərisindəki payı 2001-ji ilin üçünjü yarısında 27,2%-ə düşmüşdü.

25.11.2000-ci ildə rəsmi qəzetdə açıqlanan 4603 saylı Türkiyə Jümhuriyyəti Ziraət Bankı, Türkiyə Xalq Bankı və Türkiyə Əmlak Bankı haqqında qanun ilə bankların müasir bankçılığın və beynəlxalq rəqabətin əsaslarına görə çalışmalarını və özəlləşdirməyə hazırlığını təmin edəjək şəkildə yenidən qurulmaları mümkün olmuşdur. 3.7.2001-ci ildə rəsmi qəzetdə yayımlanan 4684 saylı bəzi qanun və qərarlarda dəyişiklik aparılmasına aid qanuni dövlət bankları ilə bağlı qanunlarında 4603 saylı qanunda yer alması lazım olan əsasların əlavə edilməsi təmin edilmişdir. Bu qanun ilə Türkiyə Əmlak Bankının bankçılıq ilə bağlı vəsait ilə öhdəliklərinin Ziraət Bankının və ya Xalq Bankına devr edilməsi, vəzifə zərəri alajaqlarının təsfiyəsinə bağlı əsas-

lar tərtib edilmişdir. 14 büdcədaxili və 2 büdcəxarici fond təsfiyə edilmişdir. Böhranlardan sonra bank sektorunda artan istikrarsızlığın aradan qaldırılması və bank sektorunun yenidən quruları̇q gücləndirilməsi məqsədi ilə BDDK tərəfindən 2002-ci il may ayında bank sektoru yenidən qurulması proqramı tətbiq edilmişdir. Bu proqram:

- Dövlət banklarının son hədəf özəlləşdirmə olmaqla maliyyə və əməliyyatlar baxımından yenidən qurulmasını;
- EƏSF nəzdindəki bankların yenidən qurularaq satılmasını;
- Baş verən böhranlardan mənfi təsir görən özəl bankların sağlam bir struktura malik olmasını;
- Bank sektorunda nəzarətin və auditin aktivliyini artırajaq, sektoru daha aktiv və rəqabətçi bir sektora qovuşdurajaq qanun və struktur dəyişikliklərinin həyata keçirilməsini məqsəd olaraq hazırlamışdır.

Dövlət banklarının qısa müddətli fond ehtiyajlarını qarşılamaq məjburiyyətində olmaları, yüksək miqdarda 1 gejəlik fond tələb etmələrinə səbəb olmuşdur. Böhran müddətində dövlət bankları, bazardakı likvidlik səviyyəsi və faiz nisbətlərindən tez təsirlənmişdilər. Ümumiyyətlə, dövlət banklarına həvalə edilən dövlət vəzifələrinin, qanunlarının müəyyənləşməsi və bu bankların rasional şəkildə işləmələri ön plana çıxmışdır. Problemlərin həll edilməsi üçün 2001-ci ilə aşağıdakı tədbirlər görülmüşdür:

- Dövlət banklarının özəlləşdirməyə hazırlanması üçün ixtisaslaşdırılmış idarə edijilərdən ibarət bir qurumun yaradılması və özəlləşdirmənin 3 il içində başa çatdırılması planlaşdırılmışdır;
- Dövlət banklarına verilən vəzifələrin əvəzlərinin büdjədən maliyyələşdirilməsi qərarı verilmiş, bu banklar vasitəsilə əvəzi ödənilən vəzifələrlə bağlı Nazirlər Kabinetinin 100-ə yaxın qərarı qüvvədən düşmüşdür;
- Likvid ehtiyajının qarşılanması məqsədi ilə dövlət banklarının qısa müddətli öhdəlikləri azaldılmış, Mərkəzi Bank xarijindəki mənbələrdən gejəlik borjlanmalar ləğv edilmiş və bu banklar nağd pul və qiymətli kağız verilərək yenidən maliyyələşdirilmişdir;
- Əmlak Bankı üçün təsfiyə müddəti başladılmış, bu bankın vəsaitləri və öhdəlikləri Ziraət Bankına keçmişdir;
- Ziraət və Xalq Bankı nəzdində daxili audit, maliyyə nəzarəti və riskin idarə edilməsi şöbələri qurulmuşdur;
- Ziraət və Xalq Banklarının yenidən qurulmalarını əhatə edən

təhərrüatlı strateji tətbiq planı qüvvəyə minmişdir. Bununla dövlət banklarının 2000-ji ilin dekabrında 2494 olan şöbə və 61601 olan işçi sayı 2002-ji ilin sentyabrında müvafiq olaraq 1792 və 38303-ə enmişdir.

1992-ci ildən sonra formalaşmağa başlayan dövlət banklarının xəzinədən alacaqları 2000-ci ilin sonunda 17,3 katrilyon TL-nə çatmışdır. Bu həjmin 2,1 katrilyon TL qiymətli kağızlar; 15,2 katrilyon TL isə vəzifələri alajağından ibarətdir.

2001-ci ildə dövlət banklarına sərmayələrini artıra bilmək üçün əlavə dəstək təmin edilmişdir. Martda Ziraət Bankına 217,6 trilyon TL, apreldə Xalq və Əmlak Bankına 67,2 və 40,8 trilyon TL həjmində nağd sərmayə ödənilmişdir. Mayda əmlak bankına 624 trilyon TL, Xalq Bankına 900 trilyon TL verilmişdir. İyulda Əmlak Bankının Ziraət Bankına devr edilməsindən sonra yaranan 1,7 katrilyon TL özəl xassəli istiqraz buraxılaraq qarşılanmışdır. Dövlət banklarının yenidən qurulması səbəbilə dövlət borjunda 2001-ji ildə ortaya çıxan artım 11,3 katrilyon TL olmuşdur.

Xəzinə 1.5.2001-ji ildə dövlət banklarının zərər yaradan vəzifələr verilməsinə son verilmişdi. Xəzinə dövlət banklarında yaranan zərərləri, bankların maliyyə strukturu diqqətə alınaraq nağd və istiqraz verilərək 2002-ji ilin mayında təsfiyə edilmişdir.Türkiyənin güjlü iqtisadiyyata keçid proqramının əsas hissəsini bank sistemindəki reformalar təşkil edir. Türk bank sisteminin 40%-ni dövlət banklarının yaratdıqları nəzərə alınaraq, reforma işlərinə əvvəljə dövlət banklarından başlanılmışdır. Dövlət banklarının maliyyə strukturlarındakı dəyişikliklərin əsasını 1984-cjü ildən etibarən çıxarılan 100-ə yaxın sayı olan Nazirlər Kabineti qərarları ilə verilən vəzifələrin nətijəsində ortaya çıxan vəzifə zərərləri yaratmışdır. Dövlət banklarındakı reforma çalışmaları əhatəsində 30.4.2001-ji ildə rəsmi qəzetdə yayımlanan 2312 saylı Nazirlər Kabineti qərarı ilə vəzifə zərərlərinə bağlı bütün Nazirlər Kabineti qərarları qüvvədən düşmüşdür.

EƏSF nəzdindəki bankların yenidən qurulmasıyla bağlı strategiya: EƏSF banklarının devredilmə birləşmə, satış və ya təsfiyə yoluyla həll edilməsi, maliyyə baxımından yenidənqurma, əməliyyat baxımından yenidənqurma və fond banklarının aktivlərinin idarəedilməsi olmaqla 4 əsasa arxalanır. EƏSF banklarının əməliyyat baxımından, yenidən qurulması baxımından da vajib addımlar atılmışdır. Müddət etibarıyla sayı 1815 olan fond banklarının şöbə sayı 2002-ji ilin iyul ayında 873-ə enmişdir. Fond banklarının işçi sayı müddətə müvafiq olaraq 19755 nəfər

azaldılaraq 2002-ji ilin iyul ayında 18134-ə endirilmişdir.

Yeni banklar qanunu 23.6.1999-ju il tarixli rəsmi qəzetdə yayımlanaraq qüvvəyə minmişdir. Beləliklə, son dövrlərdə böyük təsirlərə və savaşmalara səbəb olan 3182 saylı qanun qüvvədən düşmüşdür. Yeni qanun bankların auditi mövzusunda yeni və vajib olan qərarları əhatə edir. 3182 saylı Banklar qanunu müqavimət qanunu xüsusiyyətindədir. Qanunu hazırlayanlar bank sektorundakı dəyişiklikləri və bəzi mənfi halları nəzərdə tutmuşdurlar. Qanunun maddələrinin sayının az olması bank qurulmasının asanlığını təmin edir. Keçiji və müvəqqəti maddələr istisna olmaqla qanun 25 maddədən ibarətdir. Anjaq maddələrin məzmunları çox olduğundan maddələrin mahiyyətini injələmək çox çətindir. Yeni qanunla yeni bir təşkilat yaranmışdır. Bank qurulması və nəzarət qurumu və Bank Qurulması və Nəzarəti Kabineti.

Bankçılığın üst təşkilatı 31.3.2000-ji ildə yaradılaraq 31.8.2000-ci ildən fəaliyyətə başlamışdır. BVF-na təqdim edilən 9.12.1999-cu il tarixli Niyyət məktubu əsasında bank sektorunun nəzarət və auditindən məsul olan dövlət təşkilatları Bank təşkilatlandırma və Audit təşkilatı nəzdində birləşdirilmişdir. Bu təşkilatın vəzifələri aşağıdakılardır:

- Bankın qurula bilməsi üçün təşkilatın üzvlərinin ən azı 5-nin razılığı lazımdır;
- Banklar, təşkilatın rəyini almadan əsas müqavilədə dəyişiklik edilə bilməz;
- Bankın ortaqlıq mövzusunda dəyişikliklər, təşkilatın ijazəsilə mümkündür;
- Təşkilat istədiyi vaxt bankların şöbə açmasına ijazə verə bilər;
- Banklar xarijdə şöbə açmaq və fəaliyyət göstərmək üçün təşkilatdan ijazə alırlar;
- Təşkilat, maliyyə strukturu dağınıq olan bankların idarəetmə şuralarını dəyişdirə bilər;
- Maliyyə strukturlu dağınıq olan bankların fəaliyyəti təşkilat tərəfindən məhdudlaşdırıla bilər;
- Təşkilat beş üzvünün qərarı ilə bankların EƏSF-na dövr edilməsinə qərar verə bilər.

Təşkilatın sədri eyni zamanda Şuranın da sədridir. Təşkilat bank sektorunda çox vajib əməliyyatlar aparır. Bu təşkilat son illərdə ortaya çıxan tele-radio şirkəti, rəqabət təşkilatları kimi bir axın nətijəsində ortaya çıxmışdır.

2001-ci ildə qəbul edilən 4672 saylı qanun ilə 4389 saylı Banklar qanununda dəyişiklik edilmişdir. Qanuna görə bank sektoru ilə bağlı edilən dəyişikliklərlə əlaqədar AB əsasnamələrinə uyğunluq təmin edilmişdir. Qanun Bank qurma və Nəzarət etmə təşkilatına EƏSF nəzdindəki bankların problemli vəsaitləri ilə bağlı edilən təhsilatla bağlı bir sıra səlahiyyətlər verilmişdir. 2002-ji ilin iyulunda ijazə mərhələsində olan satışlar da daxil olmaqla fond banklarının iştiraklarının satışından əldə edilən gəlir 2703 trilyon TL-nə çatmışdır. EƏSF nəzdindəki banklar üçün 2002-ci ilə aid əsas hədəflər arasında EƏSF nəzdində yer alan banklardan satış əməliyyatları aparan banklara aid işlərin tamamlanması, bir başqasının vəsaitləri idarə edilməsi fəaliyyətini həyata keçirəjək bir banka çevrilməsi, EƏSF-nun 2002-ji ilin mart ayından etibarən aylıq balans hazırlaması, ildə bir dəfə xariji auditdən keçməsi və s. sayıla bilər.

1997-2002-ci illərdə EƏSF tərəfindən 20 bank dövr edilmişdir. Bu bankların 4-ü özəl sektor və xariji sərmayədarlara satılmış, 8-i 3 banka birləşdirilmişdir. 2002-ci ilin sentyabr ayı etibarı ilə EƏSF nəzdində 1 vasitəçi bank, satılma müddətində olan 3 bank və hüquqi olaraq fəaliyyəti davam edən 1 bank var idi. EƏSF ilə bağladıjı borj müqavilələri çərçivəsində xəzinə fondun nəzdinə alınan bankların sərmayə və balans strukturlarını güjləndirmək məqsədilə 2000-ji ilin dekabrından sonra müəyyən müddətdə özəl xassəli istiqraz buraxmışdı. EƏSF-yə verilən istiqrazlar fond nəzdindəki bankların sərmayə strukturlarını güjləndirmək məqsədilə bu banklara ehtiyat kimi verilmişdir. Valyuta və valyuta indeksli olaraq ixraj edilən sənədlər 31.12.2001-ci il kursları ilə türk lirəsinə çevrildiyində, EƏSF-nun xəzinəyə, 3.4.2002-ci ildə 378 trilyon TL; 8.5.2002-ci ildə 357 trilyon TL və 15.5.2002-ci ildə 265 trilyon TL olmaqla jəmi 1 katrilyon TL sərmayə; 1,6 katrilyon TL əmanət olmaqla jəmi 2,6 katrilyon TL dəstək göstərilmişdir.

Özəl banklara yönələn proqramın ilk mərhələsində bu bankların sərmayə strukturlarının güjləndirilməsi, kredit probleminin həll edilməsi, xarici pul açıq mövqelərinin daralması, dövr etmə və birləşmələrin həyata keçirilməsi ilə bağlı düzəlişlər edilmişdir. Bu baxımdan 2000-ci ildə 8,4 milyard dollar olan özəl bankların balans daxili valyuta kəsirləri, 2001-ci ildə 1,5 milyard dollara və 2002-ci ilin iyun ayında 274 milyon dollara düşmüşdür. Bank sektorunun güjləndirilməsinin məqsədi banklara sərmayə dəstəyi təmin edilərkən nöqsanlı aktivlərin həll edilməsini sürətləndirmək üçün könüllü olaraq yenidən qurulması və vəsaitlərin idarəe-

dilməsi kimi mexanizmlərin həyata keçirilməsidir. Bu məqsədə yönəlmiş olaraq 2002-ji ilin yanvarında qüvvəyə minən 4743 saylı Maliyyə sektoruna olan borjların yenidən xaslandırılması və bəzi qanunlarda dəyişiklik edilməsi haqqında qanunla maliyyə sistemi təşkilatlarının alajaqlarının yenidən əsaslandırılması, vəsaitlərin idarəedilməsi şirkətinin təsis edilməsi, bankların sərmayə ehtiyajlarının müəyyənləşə bilməsi üçün tətbiq ediləjək audit standartları, vergi və təşviqlər banklarının yenidən qurulmalarının tamamlanması və bank qurulması və nəzarət edilməsi komitəsinin hesab verilməsilə bağlı düzəlişlər edilmişdir. Buna görə bankların, özəl maliyyə təşkilatlarının və digər maliyyə təşkilatlarının alajaqlarının, maliyyə jəhətdən yenidən təşkilatlandırılması çərçivəsində qurulmasına və ya yeni ödəmə planına bağlanmasına imkan verilərkən, EƏSF bankları maliyyə jəhətdən yenidən qurulma müqavilələrində əlavə mənbə təmin etməmək şərtilə iştirak edə bilərdilər.

Bank qanununa əlavə edilən müvəqqəti 4-cü maddə ilə bankların dövlətin dəstəyi ilə sərmayələrinin gücləndirilməsi üç mərhələdən ibarətdir. 1-ci mərhələ sərmayə artırılmasında dövlətin iştirakının tam və doğru olaraq müəyyənləşməsi məqsədilə mühasibə standartlarındakı dəyişikliklər də nəzərə alınmaqla 3 mərhələli nəzarət mərhələsidir. Sərmayə ehtiyatı müəyyənləşdikdən sonra qarşılana bilməyəjək zərərin olması halında sərmayə artımının öhdəyə götürülməsi üçün əsas şuraların təşkil ediləjəyi 2-ci mərhələ gəlir. Üçüncü mərhələ isə lazımlı şərtləri təşkil edən və sərmayənin yetərlilik nisbəti 8%-dən az olan banklara dövlət dəstəyinin təmin edilməsidir. Maliyyə sektoruna olan borjların yenidən təşkilatlandırılmasına yönələn düzəlişlər çərçivəsində Türkiyə Banklar Birliyi tərəfindən hazırlanan və 25 bank, 17 bank xarijində maliyyə təşkilatı, təsfiyə vəziyyətində olan Əmlak Bankı və EƏSF tərəfindən imzalanan maliyyə baxımından yenidən təşkilatlandırma müqaviləsi 4.6.2002-ci ildə Bank qurma və nəzarət şurası tərəfindən təsdiqlənmişdir. 2001-ci ilin iyun ayında Banklar qanununda edilən dəyişikliklər 2009-cu ilə qədər keçid müddəti təyin edilərək bankların maliyyə orqanları xarijində ortaqlıqda iştirakları, xüsusi vəsaitlərin ən çox 15%-i, bu iştirakların toplam həcmi isə bankın xüsusi vəsaitlərinin 60%-i ilə məhdudlaşdırılmışdır.

Maliyyə sektorunda dünya standartlarına uyğun hüquqi, idarə və audit bazisinin yaradılması və yaxşılaşdırılması istiqamətində 2000-ci ilin dekabrında Dünya Bankı ilə 777,8 milyon dollarlıq Maliyyə sektoruna uyğunluq krediti müqaviləsi imzalanmışdır. Bu kredit daxilində 393 milyon

dollar həjmindəki hissə istifadə edilmiş, 385 milyon dollar həjmindəki 2-ji hissə isə Proqramın məqsədinə uyğun olaraq Maliyyə və dövlət sektoruna uyğunluq kreditinə daxil edilmişdir. 2001-ci ilin iyulunda Dünya Bankı ilə Maliyyə və dövlət sektorunda həyata keçiriləjək orta müddətli reforma proqramlarının dəstəklənməsi məqsədilə jəmi 1,1 milyard dollarlıq PFPSAL I kredit müqaviləsi imzalanmışdır.

2000-ci il noyabr və 2001-ci il fevral böhranları və bank sektorunun zəif yönləri

Türkiyə iqtisadiyyatında ilk böyük böhran 1994-cü ildə baş vermişdir. 1994-cü il böhranında 3 bank təsfiyə müddətinə alınmışdır. 1994-cü il böhranının mənfi nəticələri qısa müddətdə aradan qaldırılmış, sektorda 1995-ci ildən sonra dollar baxımından ortalama 18% artma müşahidə edilmişdir. Bu müddətdə Uzaq Şərq və Rusiya böhranları ilə 1999-cu ildə baş verən zəlzələ səbəbilə, Türkiyə iqtisadiyyatındakı ciddi daralma bank sisteminə də mənfi təsir göstərmişdir.

2000-ci ilin əvvəlində qüvvəyə minən inkişaf proqramı daxilində güclü maliyyə siyasəti tətbiq edilməyə başlanmış və struktur reformaları həyata keçirilmişdir. İnflyasiya ehtimalını azaltmaq üçün valyuta kursları hədəflənən inflyasiyaya görə müəyyən edilərək əvvəlcədən açıqlanması, xarici valyutanı TL-nə nəzərən daha jəlbediji etmişdir. Bu çərçivədə bankların bir hissəsi mənbələrini qısa müddətli valyuta ilə, məsrəflərini uzun müddətli TL cinsindən inkişaf etdirməyə başlamışdır. 2000-ci ildə bank sektorunun aktivində də müəyyən bir dəyişiklik müşahidə edilmişdir. Kreditlərin aktivlərə nisbətində əsaslı bir artım olmuş, likvidliyi yüksək olan qiymətli kağızlar portfelinin jəmi aktivlər içində nisbəti azalmışdır. Xüsusilə istehlak kreditlərində əvvəlki ilə görə 4 dəfə artım olmuşdur. Kreditlərdə nəzərə çarpan dəyişiklik xariji valyuta jinsindən kreditlərdəki artımın məhdud olması, TL cinsindən kreditlərin isə əsaslı surətdə artmasıdır. Aktiv və passivin quruluşundakı dəyişikliklərin nətijəsində 2000-ji ildə bank sektoru, likvidlik və faiz risklərinə qarşı daha təsirli bir vəziyyətə gəlmişdir. Bank sektornun bazar risklərinə qarşı reaksiyasının daha da artdığı şəraitdə noyabr 2000-ji ildə baş verən böhran nətijəsində faiz nisbətinin çox artması xüsususilə yüksək borjlanma ehtiyajında olan dövlət bankları ilə EƏSF nəzdindəki bankların strukturlarını tamamilə pozmuşdur. Noyabr böhranından sonra görülən tədbirlər və BVF-dan alınan 7,5 milyard dollar həjmindəki əlavə rezerv, bazardakı dalğalanmaları qismən aradan qaldırmışdır.

Mərkəzi Bankın valyuta rezervləri artmış və faiz nisbətləri azalmışdır. Anjaq 2001-ci ilin fevralında xəzinə tenderindən əvvəlki prezident və baş nazirin müavini arasındakı münaqişə, tətbiq edilən proqrama və kurs siyasətinə olan inamın tamamilə itməsinə səbəb olmuş və valyuta tələbi artmışdır. Mərkəzi Bank yüksək səviyyədəki bu valyuta tələbinə qarşı likvidliyə nəzarət etməyə çalışmış, anjaq ortaya çıxan likvidlik problemi xüsusilə dövlət banklarının yüksək ölçüdə günlük likvidlik ehtiyajları səbəbi ilə ödəmələr sisteminin bağlanmasına səbəb olmuşdur. Bu şəraitdə tətbiq edilən sabit valyuta kurs sistemi 21.2.2001-ci ildə buraxılaraq TL dalğalanmaları sabit buraxılmışdır.

Bu dəyişmələr nətijəsində bank sektorunda mövjud olan problemlər daha da artmışdır. Noyabr böhranında kurs riskindən mənbəyini götürən itkilərlə üzləşən bank sisteminin balans sisteminə bu dəyişmə mənfi təsir göstərir. Böhran müddətində nisbətlərindəki sürətli artım fond məsrəflərini yüksəltmək və qiymətli kağızlar portfelinin bazar dəyərini azaltmaq sürəti ilə bankın balansını pozmuşdur. Faizlərdəki hədsiz artım, qısa müddətli fond tələbi vajib statusda olan dövlət və fond banklarının jiddi zərərlərlə qarşılaşmasına səbəb olmuşdur. Likvid olan özəl və xariji bankların faizlərinin yüksəlməsi ilə qarşılaşdığı fond məsrəfləri isə məhdud qalmışdır. Böhran vəziyyətində dövlət bankları TL-nin dəyər itkisindən təsirlənməmiş, özəl banklar isə kurs riskinə görə problemlərlə üzləşmişdilər. Baş verən böhranlar real sektorda ciddi bir daralmaya səbəb olmuşdur. Böhran vəziyyətində qısa müddətli faizlərlə yanaşı dövlət daxili borjlanma sənədlərinin 2-ji bazar faiz nisbətlərinin də artması ilə bankların qiymətli kağızlar portfelinin bazar dəyəri azalmışdır. Sektordakı zəiflik və EƏSF-nun dövr etdikləri dövlət maliyyəsinin üzərinə götürəjəyi zərərlərin artmasına səbəb olmuşdur. Artan fond ehtiyacı, dövlət banklarını və EƏSF nəzdindəki bankları daha çox fond cəlb etməyə vadar etmişdir. Bu vəziyyət bankları likvidlik və faiz risklərinə qarşı müdafiəsiz etmişdir.

Dövlətdaxili borjlanma sənədlərinin əmanət banklarının jəmi aktivlər içindəki payındakı artım, özəl sektora verilən kreditlərin cəmi aktivlər içindəki payındakı azalma, bankların real iqtisadiyyatı yetərli ölçüdə dəstəklənməməsi ilə yaratmışdır. Yüksək in-flyasiya və qeri-müəyyənliklər, ehtiyat sahiblərini qısa müddətə yönəltmiş, bankların vəsait və öhdəlikləri arasındakı müddət uyğunsuzluğunu artırmışdır. Yüksək inflyasiya və sürətlə artan borc ehtiyatı nətijəsində TL-nə olan etibarın zəifləməsi, pul dövriyyəsi də sürətləndirilmişdir. Valyuta tavdiat hesablarının (reno daxil) cəmi əmanət-

lər içindəki payı, 1990-cı ildə 27%-dən 1999-cu ildə 44%-ə yüksəlmişdir. Bankların xarici valyuta cinsindən borclanaraq, ya da valyuta ehtiyatı toplayaraq Dövlət daxili borclama sənədləri olmaqla TL cinsindən aktiv tutmaları, açıq mövqelərini yüksəltmişdir. Bundan başqa bankların yüksək faizli dövlət qiymətlilərinin xariji mənbələrlə təmin etmələri bankları kurs riskinə qarşı dayanıqlı vəziyyətə gətirmişdir. Maliyyə sektorunda ortaya çıxan bu quruluş, böhranların dərinləşməsinə səbəb olmuş və tətbiq edilən proqramların müvəffəqiyyətinə mane olmuşdur.

Noyabr və fevral böhranları Türkiyədə bank sektorunun zəif olduğunu bir daha təstiqləmişdir. Sektorda ortaya çıxan böhranda ən vacib faktor, son illərdə baş verən iqtisadi dayanıqsızlıqdır. 1990-cı ildə baş verən yüksək inflyasiya, böyümə sürətindəki dal-ğalanmalar və sərmaye hərəkətlərinin qırılan strukturu qeyri-müəyyənlikləri artmış, iqtisadi fəaliyyətləri qısa müddətli vəziyyətə gətirmiş və pul dövriyyəsini artırmışdır. Dövlət büdcəsi kəsirlərinə görə banklar real iqtisadiyyata mənbələr verməkdən uzaqlaş-mış və dövlət kəsirlərini maliyyələşdirməyə istiqamətlənmişdir. Yüksək real faizlərin ortaya çıxardığı orbitraj, bank sektorunun ölkə xaricindən borclanaraq dövlət kəsirlərini maliyyələşdirməsinə şərait yaratmışdır. Dövlət daxili borjlanma ilində 10% ikən böh-randan qabaq 30%-ə qalxmışdır.

Dövlət daxili borclanma sənədlərinə şamil edən vergi güzəştləri, qarşılıqlar və disponibilitəylə bağlı qanuni tənzimləmələrdə bankların sənəd portfellərindəki artmaya təsir etmişdir.

Dövlət banklarının vəzifə məsrəflərinin ödənməməsi, əsas funksiyalardan əlavə verilən vəzifələr və idarəetmədəki zəiflik nəticəsində dövlət banklarının strukturu əsaslı şəkildə pozulmuşdur. Bu bankların öz ehtiyajlarını yüksək məsrəflə bazardan əldə etmələ-ri, həm məsrəflərin artmasını və həm də sistemdə dayanıqsızlığın yaranmasına səbəb olmuşdur. Dövlət bankları, bank əməliyyatlarını lazımınca yerinə yetirə bilmirdi. Dövlət banklarında Türkiyədəki əmanətin 40%-i birləşərkən, kreditlər içindəki nisbət 25% düş-müşdür. Bank sistemi bu dəyişikliklər qarşısında likvidlik, faiz və kurs risklərinə qarşı dayanıqsız vəziyyətə düşmüşdür. 1990-cı illərin 2-ci yarısında dövlət borjlarının maliyyələşməsini asanlaşdırmağı nəzərdə tutan makroiqtisadi siyasətlər, sektorun bu riskli vəziyyətdən çıxmasını və idarə edilməni 2-ci plana salmışdır. Əmanət sığorta sistemindən mənbələnən problemlər ilə nəzarət və audit təşkilatlarının idarə və maliyyə xassəsinə sahib olmaması da, riskin idarə

edilməsindəki çətinlikləri artırmışdır. Qısaja onu demək olar ki, Türkiyədə bank sektorunda xüsusi vəsaitlər yetərli deyildir, kiçik ölçülü və hissəli bank strukturu sektorda hakimdir, dövlət banklarının sistemdəki payı yüksəkdir. Aktivin keyfiyyəti aşağıdır. Bazar risklərinə qarşı təsirli reaksiya vardır və qırıq struktur (müddət uyğunsuzluğu, açıq mövqe) sektorda hakimdir. Bundan başqa türk bank sistemində audit yetərli deyil və riskin idarə edilməsi fəaliyyətləri aktiv deyil.

Türkiyənin bank sistemində aparılan islahatlar. Dövrümüzün iqtisadiyyatının şərhində diqqəti cəlb edən başlıca xüsusiyyət iqtisadiyyatın bütün istiqamətlərində qarşıya çıxan qloballaşma prosesidir. Bu proses iqtisad dünyasında maliyyə bazarları vasitəsilə bir inteqrasiya hadisəsini ortaya çıxarmaqdadır və bu çərçivədə beynəlxalq sərmayə axını dünya iqtisadiyyatmda gözə çarpan ən əhəmiyyətli cəhətlərdəndir.

Maliyyə bazarında, şübhəsiz, mərkəzi banklar və kommersiya bankları ən əhəmiyyətli maliyyə qurumu olaraq diqqəti çəkməkdədir. Xüsusilə, informasiya texnologiyalarının getdikcə yayıldığı və xəbərləşmə imkanlarının inkişafı nəticəsində müasir dövrdə ticarət banklan ənənəvi borc vermə, əmanət və yığım xidmətlərini inkişaf etdirərək, maliyyə sistemində daha da güclənməkdədir. Bir tərəfdən, kredit vermək, digər tərəfdən isə əsrin texniki imkanları ilə daha hazırlıqlı bir hala gələn banklar göstərdikləri xidmətin keyfiyyəti və həcmi ilə dünya iqtisadiyyatında əhəmiyyətli yerini saxlamaqdadır.

2002-ci ildən başlayaraq, Türkiyə iqtisadiyyatında milli hasilatda artım müşahidə olundu və üç ildə orta hesabla 7,5%, 2005-ci ildə isə 7,6% artım əldə edildi ki, bu da Türkiyə iqtisadiyyatmın məhsuldarhq göstəricisidir, bu müsbət dəyişikliklər mövcud vəziyyət baxımından böyük əhəmiyyət daşıyır. Vergilərin ödənilməsindəki müsbət dəyişikliklər, xərcə ciddi nəzarət, dövlət sektorunun borca olan ehtiyacını iki ədədli rəqəmdən 6%-lik səviyyəyə enməsini təmin etmiş, dovlət maliyyə tarazlılığında yaranan bu müsbət dəyişiklik dövlət sektorunun borc yığımının ÜDM-ə nisbətən azalmasına səbəb olmuş, yəni 106%-dən 77%-ə enmişdir.

Türkiyə iqtisadiyyatı 2004-2005-ci illərdə tamamilə yeni bir inkişaf mərhələsinə daxil olmuş və bu, maliyyə sektoruna da əhəmiyyətli təsir göstərmişdir. Türkiyənin bank sektorundakı müsbət dəyişikliklərlə yanaşı onun cari əməliyyat kəsirinin, dalğalı məzənnə rejiminin tətbiqi, maliyyə quruluşundakı aşağı həcmdə olan xarici valyuta pozisiyaları diqqəti cəlb etməkdədir.

Türkiyə bank sektoruna təsir edən makroiqtisadi amillər, yəni yüksək böyümə hədləri və dezinfilyasiya, azalan faiz həddi və gəlirlər, artan istehlak cari əməliyyatların kəsiri və dalğalı məzənnə rejiminin tətbiqindən ibarətdir. Mərkəzi bankın tətbiq etdiyi pul siyasəti, maliyyə sisteminin səmərəliliyinin artınlmasına yönəldilən təd birlər və ölkənin Avropa Birliyinə üzvlük yolunda göstərdiyi cəhdlər bu iqtisadi yüksəlişin əsas təməlləridir.

Türkiyə iqtisadiyyatnın bu inkişafı və inflyasiya həddinin ikirəqəmli səviyyədən birrəqəmli səviyyəyə enməsi Türkiyənin maliyyə sisteminin, o, cümlədən bank sektorunun da məhsuldarlığının artmasına şərait yaratmışdır. Bank sistemi Türkiyə maliyyə sisteminin ən böyük hissəsi olmaqla, maliyyə kapitalının 51,3 faizini özündə cəmləmişdir. Maliyyə sistemində banklarla yanaşı, sığorta və digər maliyyə qurumları da inkişaf etməkdədir. Lakin bu inkişaf digər ölkələrlə müqayisədə olduqca aşağı səviyyədədir və gələcəkdə inkişaf etməsinə ümid edilir. Mülkiyyət formasından asılı olaraq, banklarm aktiv böyüklüyü 1-ci cədvəldəki kimi səciyyələnir. Aktivlərin böyüklüyü baxımından ilk sırada 59,7%-lik payı ilə özəl banklar nəzarəti öz əlində saxlamaqdadır. Xarici banklardan 6-sı Türkiyədə qurulan xarici bank, 7-si isə şöbə statusunda fəaliyyət göstərir.

Hər şeydən əvvəl, bank sahəsində aparılan yenidənqurma və iqtisadi sağlamlaşma sayəsində Türkiyənin bank sektoru böyüməkdədir. 2001-ci ildə 120 milyard ABŞ dolları səviyyəsində olan məcmu kapital 2005-ci ildə 295,6 milyard ABŞ dollan səviyyəsinə qalxmış, kredit portfeli isə müvafiq dövrdə 23 milyard ABŞ dollarından 80 milyard ABŞ dollanna çatmışdır. 2001-ci ili 6,4 milyard ABŞ dollan məbləğində ziyanla başa vuran Türkiyə bank sistemi 2004-cu ildə 4,5 milyard ABŞ dollan məbləğində gəlir əldə etmişdir. Sərmayə yetərliliyi isə 2000-ci ildə 9,3%-lik səviyyədən 2004-cü ildə 28,8%-ə yüksəlmişdir. Balansdaxili kəsir 2001-ci böhran ilindəki 14,6 milyard ABŞ dollan səviyyəsindən 2004-cü ildə 1,4 milyard ABŞ dollan səviyyəsinə enmişdir.

Bütün bü müsbət nailiyyətlərlə yanaşı, bank sisteminin inkişafına təsir edən bir sıra amillər vardır ki, bundan da bank sistemi rəqabət təzyiqi hiss etməkdədir:

1. maliyyə sistemində bank sektorunun ağırlığının qalması;
2. xidmət çeşidliliyinin azlığı;
3. dövlət maliyyələşdirmələrinin yaratdığı mənfi təsirlər;
4. vergi strukturunun səbəb olduğu pozucu təsirlər;

5. qtisadiyyatın bəzi sektorlan tərəfındən maliyyə xidmətindən yetərincə istifadə edə bilməməsi;
6. məhdud sayda xarici investorlarm iştirakı.

Bank sektorunun ağırhğı bütövlükdə maliyyə sisteminin ÜDM-dəki payı ilə müəyyən olunur ki, bu da 80-82% təşkil edir.

Xidmət çeşidliliyinin azlığına gəldikdə isə, qiymətli kağızlar bazarının məhdud olması ilə əlaqədar qiymətli kağızlar dövriyyəsinin aşağı olmasını misal göstərmək olar.

Bank sektorunun işində dövlətin yaratdığı mənfi təsirlər dedikdə, bazarda ən böyük kredit müştərisi olan dövlətin kreditə olan böyük ehtiyacıdır. Bank sektoruna təsir edən amillərdən bəzi sahələr üzrə qeydiyyatdan kənar fəaliyyəti, kreditlər üzrə yüksək faizi, yoxsulluq və bunun arxasında duran səbəbləri də göstərmək olar. Xırda və orta ixracatla məşğul olan fırmalara verilən kreditlərin nisbi azalması onlara beynəlxalq rəqabət qabiliyyəti baxımından problemlər yaratmaqdadır. Həmçinin, gəlir vergisi üzrə faiz həddinin yüksək olması bank sisteminin inkişafına mənfi təsir etməkdədir.

Ölkədə maliyyə sektorunun vergiyə cəlb edilməsinə çox ehtiyatla yanaşılmalı, əks halda, banklar offşor zonalarda və xarici ölkələrdə öz qurumlannı açmaq məcburiyyətində qalacaqlar.

Bank sektorunda 2000-ci və 2001-ci illərdə böhranlara səbəb olan struktur zəifliyi onun yenidən qurulması zərurətini doğurmuş və bunun üçün aşağıdakı tədbirlər aparılmışdır.

- dövlət banklarının reabilitasiyası;
- özəl bankların gücləndirilməsi;
- zəif bankların çeşidlənməsi;
- tənzimləyici və nəzarət çərçivəsinin optimallaşdırılması;
- məhdud əmanət sığortasına keçid;
- dövlət borclarının gözdən keçirilməsi və azaldılması.

Bu məqsədlə 31 avqust 2000-ci ildə «Bank İşini Tənzimləmə və Nəzarət Agentliyi» yaradılmış (BDDK) və onun daha effektli təşkilatlanmaqla, nəzarət çərçivəsi istiqamətində əhəmiyyətli bir inkişafı olmuşdur.

Bu istiqamətdə dövlət banklannm bazarlar üzərindəki pozucu təsirləri aradan qaldırılmış, özəl banklann sərmayə və aktiv quruluşundakı zəiflik yox edilmişdir. Sərmayə yetərliliyinin hesablanmasına bazar riski daxil edilməklə, daxili nəzarət və risklərin idarə edilməsi sistemləri qurulmuş, beynəlxalq mühasibat standartlannın qəbulu və tətbiqi bu is-

tiqamətdə olan yeniliklərdir.

2004-cü ildə iki yeni siyasət tətbiq olunmağa başlanmış, bank sistemindəki dövlət yükü nəzərdən keçirilməklə azaldılmış, əmanətlər üzərindəki tam zəmanət aradan qaldınlmışdır.

Zəif banklara gəldikdə isə, 21 bankın fəaliyyəti BDDK tərəfindən təhlil edilmiş, onların satış, birləşmə və ləğvetmə yolu ilə fəaliyyəti dayandırılmışdır. Eyni zamanda, 2002-ci ildən başlayan banklann sərmayələndirmə proqramının həyata keçirilməsi məqsə-dilə 27 özəl sərmayəli bank üç mərhələdə yoxlanılmış və onlardan yalnız ikisinin sərmayə yetərliliyinə malik olması müəyyənləşdirilmişdir. Yenidənqurma cəhdlərindəki sərmayə artınlması proqramı, bir tərəfdən, sektordakı şəffaflığı, digər tərəfdən isə Türkiyə bank sektoruna olan etibarlılığı artırmışdır.

Məhdud Əmanət Sığortasına keçid məqsədilə 2004-cü ildə tam zaminlik dayandınlmış və bu prosesə keçiddə heç bir neqativ dəyişmə baş verməmişdir. Müştərinin yalnız 29000 YTL məbləğindəki əmanətinə sığorta zəmanəti verilmişdir.

Yeni şəraitdə banklann daha güclü bir maliyyə sektoruna sahib olmaq istəyi güclü rəqabət təzyiqi ilə üzləşmişdir. Xüsusilə, azalan faiz gəlirləri banklan yeni mənfəət sahələrini axtarmağa məcbur etmişdir. Bu səbəbdən aşağıdakı sahələrin təhlili və orada olan boşluqlann aradan qaldırılması daha böyük əhəmiyyət kəsb edir:

1. kredit portfelinin təhlili;
2. yeni maliyyə xidmətlərinin çeşidini artırmaqla, müştəri şəbəkəsinin artırılması;
3. kredit portfelini qiymətləndirməklə, risklərin idarə edilməsi;
4. əməliyyatların həcminin artırılması;
5. məsrəflərin normalaşdırılması;
6. birləşmə və ya xarici kapitalın iştirakım artırmaqla bankların məhsuldarhğının əhəmiyyətli həddə çatdırılması.

Bankların yeni şəraitdə inkişaf etməsi üçün «Bank fəaliyyəti haqqında» qanunda dəyişikliklər edilməli və həmin qanunda aşağıdakı müddəaların nəzərə alınması məqsədəmüvafıqdir:

1. yeni bank fəaliyyəti haqqında qanun layihəsi işlənib hazırlanmalı və orada holdinq, lizinq, faktorinq şirkətlərinə nəzarət səlahiyyətlərinin BDDK-ya verilməsi əksini tapmalıdır;
2. bankların həyata keçirə biləcək əməliyyatlara lisenziya verilməsi üzrə məhdudiyyət aradan qaldırılmalıdır;

3. bankların minimum sərmayə həddi yüksəldilməlidir;
4. banklarm struktur idarəçiliyində dəyişikliklər apanlmalıdır;
5. problemli banklar sistematik olaraq yenidən qurulmahdır;
6. bankların işinə nəzarət mexanizmi təkmilləşdirilməli və ixtisaslaşmış özəl nəzarət fırmalannın xidmətindən istifadə genişləndirilməlidir.

Bank sektorunun inkişafının gücləndirilməsi məqsədilə Basel II-yə inteqrasiya prosesi sürətləndirilməlidir. Basel II-yə keçidlə əlaqədar «Risk mərkəzli nəzarət»ə keçid, yeni bank qanunu qəbul edilməklə artan xarici marağı təmin etmək məsələləri həll edilməlidir. Risk mərkəzli nəzarətdə nəzarət prosesi hər bir bankın risk portfelinə uyğun olaraq müəyyən olunur.

Bir çox ölkələr kimi, Turkiyədə də bank sisteminin Basel Ilyə keçidi ilə əlaqədar hazırlıq işləri görülməkdədir. Belə ki, 23 bank üzrə sərmayə yetərliliyinin minumum səviyyəsi nəzərdə tutulan 8 faizdən yuxarı olmasını təmin edilmişdir. Planlaşmaya əsasən 2005-2008-ci illər ərzində bank sektorunun məcmu kapitalınm hər il 12% artınlması nəzərdə tutulmuş və 2008-ci ilin sonuna 350 milyard dollara çatması gözlənilir. Əlavə olaraq, daxili və xarici bazarlardakı rəqabət nəticəsində banklann sayının azalması davam edəcəkdir və beynəlxalq arenada lazımi gücə malik Türkiyə banklarının yaradılması üzrə iş apanlacaqdır. Türkiyə iqtisadiyyatına etibarın artması, yeni razılaşmalann gerçəkləşməsi nəticəsində xarici banklann məcmu varlığı 2005-ci ilin əvvəlində 3,6% təşkil etdiyi halda, yaxın qısa müddətdə 20%-ə çatacağı gözlənilir.

18.10. Çin yuanı və Çin Xalq Respublikasının Mərkəzi Bankı

"Yuan" sözü "dəyirmi, yumru" mənasını daşıyır. Bu Tsin sülaləsinin gümüşdən olan sikkələrinə verilən addır.

İlk dəfə yuan 1835-ci ildən buraxılmışdır. Yuanla bərabər diğər pul vahidi – lyan da dövriyyədə idi. 1933-ci ilə qədər gömrük və digər vergilər lyan əsasında müəyyən edilirdilər. 1933-cü ildə pul sisteminin birləşdirilməsi məqsədilə qanun qəbul olundu. Buna baxmayaraq digər pullardan da istifadə olunmaqda idi. Gümüş standardı faktiki olaraq 1935-ci ilə qədər güvvədə qalmışdır və Çin valyutasının kursu gümüşün dünya

bazarlarındaki qiymətindən asıllı idi. 1935-ci ildə aparılan pul islahatları nəticəsində gümüş yuanlar əskinas pullarla - fabi ilə əvəz olunmuşdu. Gümüş standartdan imtina edilmiş və qızıl standarta kecid elan edilmişdir. Həddindən artıq kağız pulların emissiya edilməsi və dövriyyəyə buraxılması nəticədə inflasiya meydana gəlmişdir.

1948-ci ildə aparılan pul islahatlarına əsasən yeni əskinas pullar – “qızıl yuan” buraxıldı. 1 dekabr 1948-ci ildə Çin Milli Bankı yaradılmış və Bank dövriyyədə olan bütün digər pulları çıxarmağa başladı. Çin Xalq Respublikasının yaranmasından sonra pul dövriyyəsinə hökumət tərəfindən ciddi nəzarət edilirdi. Ölkənin hər ərazisində yerli pulları yuanlara xüsusi məzənnəsi ilə dəyişmək mümkün idi. 1969-cu ildə Çin Xalq Respublikasının pul sisteminin latın adı – jeminbi (yənı “xalq pulu”) elan edilmişdir.

1974-cü ilə qədər yuanının məzənnəsi Britaniya funtu və Honkonq dolları əsasında müəyyən edilirdi. 1974-ci ilin avqust ayından isə məzənnə ABŞ dolları və digər valyutalara qarşı valyuta səbəti əsasında müəyyən olunmağa başladı. Lakin Avropa İttifaqı, ABŞ və Yaponiyanən təsiri altında 21 iyul 2005-ci ildən yuanın ABŞ dollarına qarşı sabit məzənnədən istifadə etməsi dayandırılmışdır və milli valyutasının məzənnə dəyəri 2% artırılmışdır. Hal-hazırda yuanın məzənnəsi çoxsaylı valyuta səbətinə əsasən müəyyən-ləşdirilir.

Çin Xalq Respublikasının mərkəzi bankı olan Çin Xalq Bankı Çinin monetar siyasətə nəzarət edir və Çinin kontinental hissəsində fəaliyyət göstərən maliyyə institutlarının fəaliyyətini tənzimləyir. Çin Xalq Bankı Çin Bankı (kommersiya bankı) və ya Çin Mərkəzi Bankı (Tayvanın mərkəzi bankı) ilə səhv salınmamalıdır.

Bank 1 dekabr 1948-ci il tarixində Huabey Bankı, Beyhay Bankı və Xibey Fermer Bankının birləşməsi nəticəsində təsis edilmişdir. İlk əvvəl Şizəçuanda yerləşən Baş ofis, 1949-cu ildə Pekinə köçmüşdür. 1949-1978-ci illərdə Çin Xalq Bankı Çin Xalq Respublikasının yeganə bankı idi və o, mərkəzi və kommersiya bankın funksiyasını yerinə yetirirdi.

1980-ci illərdə iqtisadi islahatların tərkib hissəsi olaraq Çin Xalq Bankının kommersiya bankı funksiyaları müstəqil, lakin dövlətə məxsus olan dörd bank arasında bölüşdürüldü və 1983-cü ildə Dövlət Şurası Çin Xalq Bankının Çinin mərkəzi bankı olaraq fəaliyyət göstərəcəyini elan etdi. Onun mərkəzi bank statusu Səkkizinci Milli Xalq Qurultayının 18 mart 1995-ci il tarixində keçirilən 3-cü İclasında təsdiqlənmişdir. 1988-

ci ildə Çin Xalq Bankı əsaslı şəkildə yenidən formalaşdırılmışdır. Əyalət və yerli filialların hamısı bağlanmış və əvəzində fəaliyyət hüdudları yerli inzibati hüdudlara uyğun olmayan 9 regional filial açılmışdır. 2003-cü ilin mart ayında Onuncu Milli Xalq Qurultayının Birinci İclası Çin Xalq Bankının bank təsisatları, aktivlərin idarə olunması şirkətləri, inam və investisiya şirkətləri və digər depozit maliyyə institutları üzrə nəzarət funksiyalarını ayırmaqla Dövlət Şurasının Təşkilati Struktur İslahatı üzrə Qərarını təsdiqləmişdir. Nəticədə maliyyə sektoruna nəzarət məqsədilə Çin Bank Nəzarət Komissiyası yaradılmışdır. 2003-cü ilin 27 dekabr tarixində Onuncu Milli Xalq Qurultayının Daimi Komitəsi Çin Xalq Bankının ümumi maliyyə sabitliyi və maliyyə xidmətləri təminatının qorunması üçün monetar siyasətin hazırlanması və icrası rolunun gücləndirilməsi məqsədilə qanuna düzəlişi təsdiqləmişdir.

Çin Xalq Bankının fəaliyyəti Dövlət Şurasının təlimatları əsasında monetar siyasətin formalaşdırılması və həyata keçirilməsi, maliyyə risklərinin qarşısının alınması və həll olunması və maliyyə sabitliyinin qorunmasından ibarətdir.

Çin Xalq Respublikasının Çin Xalq Bankı haqqında Qanunu Çin Xalq Bankının bu funksiyaları yerinə yetirməsini təmin edir: müvafiq sifariş verilməsi və qaydaların hazırlanması və həyata keçirilməsi; monetar siyasətin formalaşdırılması və icra olunması; valyutanın buraxılması və onun dövriyyəsinin idarə olunması; banklararası kredit və istiqraz bazarlarının tənzimlənməsi; xarici valyutanın idarə olunması və banklararası xarici valyuta bazarının tənzimlənməsi; qızıl bazarının tənzimlənməsi; rəsmi xarici valyuta və qızıl ehtiyatlarının saxlanması və idarə olunması; dövlət xəzinəsinin idarə olunması; ödəniş və hesablaşma sisteminin normal fəaliyyətinin dəstəklənməsi; maliyyə sektorunda çirkli pulların yuyulmasına qarşı tədbirlərin təlimatlandırılması, təşkil olunması və müvafiq maliyyə vəsaiti axınlarının monitorinqinin həyata keçirilməsi; maliyyə statistikaları, sorğuları, analizləri və proqnozlarının həyata keçirilməsi; mərkəzi bank olaraq beynəlxalq maliyyə tədbirlərində iştirak edilməsi; Dövlət Şurası tərəfindən qeyd olunan digər funksiyaların icra olunması.

Çin Xalq Bankının yüksək rəhbərliyi sədr və sədr müavinlərindən ibarətdir. Sədr Çin Xalq Respublikasının prezidenti tərəfindən vəzifəyə təyin olunur və vəzifəsindən kənarlaşdırılır. Sədr vəzifəsinə namizədlər Dövlət Şurasının Birinci Katibi tərəfindən irəli sürülür və Milli Xalq Qu-

rultayı tərəfindən təsdiqlənir. Milli Xalq Qurultayının fasilə dövrü ərzində namizədlərlə bağlı qərarları Qurultayın Daimi Komitəsi qəbul edir. Çin Xalq Bankının sədr müavinləri Dövlət Şurasının Birinci Katibi tərəfindən vəzifəyə təyin olunur və ya vəzifədən kənarlaşdırılır.

Çin Xalq Bankının qəbul etmiş olduğu sistemə əsasən sədr sədr müavinlərinin yardımı ilə Bankın ümumi fəaliyyətinə nəzarət edir.

Çin Xalq Bankının Pekində yerləşən baş ofisi 18 funksional departamentdən (bürodan) ibarətdir.

Çin Xalq Bankının Beynəlxalq departamentinin cavabdeh olduğu sahələr aşağıdakılardır:

- Çin Xalq Bankının beynəlxalq maliyyə təşkilatları, xarici mərkəzi banklar və Honq Konq və Makao Xüsusi İnzibati Regionlar və Tayvan əyaləti ilə rəsmi əlaqələri və işgüzar əməkdaşlıq münasibətləri;
- Yerli maliyyə sənayesinin açılışının Çin hökumətinin ÜTT-yə qoşulduğu zaman üzərinə götürmüş olduğu öhdəliklərə uyğun olaraq koordinasiyası;
- Çin Xalq Bankının xarici işlərinin həyata keçirilməsi;
- Çin Xalq Bankının xarici ofislərinin fəaliyyətinə nəzarət.

18.11. İran İslam Respublikası pul vahidi - İran rialı və Mərkəzi Bankı

1798-ci ildə rial ilk dəfə 1250 dinara və ya 1/8 tümənə bərabət sikkə olaraq dövriyyəyə buraxılmışdır. 1825-1932-ci illərdə rialın əvəzinə qirandan istifadə olunmuşdur. 1932-ci ildən etibarən rial qiranı əvəz etmiş və elə həmin tarixdən pulu məbləğini ifadə etmək üçün rəsmi valyuta olmayan tüməndən (10 rial) istifadə edilməyə başlanmışdır.

1945-ci ilə kimi rialın məzənnəsi Britaniya funtu, 1945-ci ildən sonra isə ABŞ dolları əsasında təyin olunmağa başlanmışdır. İranda İslam inqilabının baş verməsi ilə əlaqədar ölkədən küllü miqdarda (40 milyard dollara yaxın) pulun çıxarılması ilə əlaqədar olaraq 1979-ci ildən 1999-cu ilə qədər rialın dəyərli əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. İqtisadi inkişaf və dollar zonasından uzaqlaşma kimi səbəblərdən 1999-cu ildən etibarən rialın məzənnəsi sabitləşmişdir.

2002-ci ilədək İranın məzənnə siyasəti çoxmərhələli sistemə əsas-

lanırdı ki, burada dövlət və yarım-dövlət müəssisələri üstün tutulan məzənnədə (1750 rial = 1 dollar), özəl sektor isə bazar məzənnəsindən (8000 rial = 1 dollar) istifadə eləməli olurdu. Bu cür məzənnə siyasəti qeyri-bərabər rəqabət mühiti yaratdığından 2002-ci ilin mart ayından etibarən bu sistemi birləşmiş bazar məzənnəsi siyasəti əvəz etdi.

İran İslam Respublikası Mərkəzi Bankı (İİRMB) İranın mərkəzi bankıdır. İran İslam İnqilabından sonra Bankın fəaliyyəti şəriət qanunları əsasında həyata keçirilir.

İranın ilk dövlət bankı olan Bank Melli İran 1927-ci ildə təsis olunmuşdur. Bankın əsas vəzifələri hökumətin maliyyə əməliyyatlarının dəstəklənməsi və İranın milli valyutasının (rial və tümən) çapı və dövriyyəyə buraxılması olmuşdur. Bank Melli İran 33 ildən artıq müddət ərzində İran rialının dəyərini dəstəkləməklə İranın mərkəzi bankı kimi fəaliyyət göstərmişdir. 1960-cı ilin avqust ayında İran hökuməti İran Mərkəzi Bankını təsis edərək Bank Melli İran-da olan mərkəzi bank öhdəliklərini alaraq İran Mərkəzi Bankına vermişdir.

1979-cu ildə İranda İslam İnqilabın baş verməsi ilə İran Mərkəzi Bankının adı dəyişdirilərək "İran İslam Respublikası Mərkəzi Bankı" qoyulmuşdur. Bu tarixdən etibarən İranda monetar və kredit siyasətləri İranın Pul və Bank Qanunu (1979), Bankların Milliləşdirilməsi Qanunu (1979), Banklar Administrasiyası Haqqında Qanun (1979) və Faizsiz Bankçılıq Haqqında Qanun (1983) əsasında tərtib və icra olunur.

Artıq keçən əsrin ortalarından nəzəriyyə kimi ortaya çıxan Faizsiz Bankçılıq 60-cı illərdə maliyyə İnstitutu kimi formalaşmağa başlamışdır. Belə ki, ilk dəfə olaraq Misir alimi prof. Nəccarın təlimatı əsasında elə həmin ölkədə 1963-66-cı illərdə Faizsiz Bankçılığın sınaq modeli qurulmuşdur. Bu qurum ilk dövrlərdə öz fəaliyyətini aşağıdakı istiqamətlər üzərində cəmləşdirmişdir:

1. Əmanət hesabları;
2. Sərmayə hesabları (yəni, xeyir və ziyana ortaq olmaq şərti ilə investisiya, birgə işə qoşulma);
3. Zəkat və sosial-ictimai tədbirlərlə bağlı xeyriyyə hesabı.

Lakin, yuxarıda qeyd olunan bütün xidmətlərə baxmayaraq bu qurum tam şəkildə müasir Faizsiz Bankçılığın bütün əməliyyatlarını həyata keçirmirdi.

Sonrakı dövrlərdə Faizsiz Bankçılıq modeli artıq bütün dünyaya yayılaraq qlobal maliyyə sisteminin tərkib hissəsinə çevrilmişdir. Bu təka-

mülü inkişafı qısaca olaraq belə sıralamaq olar.

Belə ki, 1975-ci ildə İslam İnkişaf Bankı qurulmuşdur. Bu Bank İslam ölkələrinin iqtisadi inkişafında vacib rol oynamaqla yanaşı faizsiz bankçılıq prinsiplərinin tətbiqinin genişləndirilməsi istiqamətində aparıcı İnstituta çevrilmişdir.

1973-cü ildə isə Pakistan İslam Respublikasının konstitusiyayasına düzəliş edilərək faizsiz iqtisadi sistemin qurulması irəli sürülmüşdür. Bundan sonra isə 1979-cu ildə Pakistan ərazisində fəaliyyət göstərən bütün banklar öz əməliyyatlarını faizsiz maliyyə sisteminə uyğun aparmağa başladılar. Amma, xarici ölkə vətəndaşlarına istisna olaraq ənənəvi Bankların xidmətlərindən yararlanmağa da imkan verilir.

1983-cü ildən isə Malayziyada ölkə qanunvericiliyində aparılan təkmilləşdirmələr nəticəsində Faizsiz Bankların yaradılması üçün hüquqi baza formalaşdırılmışdır. Məhz bundan sonra da bu ölkədə də çoxlu sayda islami banklar qurulmuşdur.

Türkiyə Cümhuriyyətində isə 1984-cü ildə "Özəl Maliyyə Qurumları" ilə bağlı qanunun qəbulu ilə bu ölkədə də faizsiz bank prinsiplərinə əsaslanan maliyyə qurumlarının fəaliyyət göstərilməsinə geniş imkan yaradılmışdır. Bu hadisədən sonra 1985-ci ildən bir-birinin ardınca Faysal Finans və Al-Baraka Türk kimi özəl maliyyə qurumları fəaliyyətə başlamışdır.

İranda 1983-ci ilin sentyabrın əvvəllərində bütün bank sistemini əhatə edən İslam Bank Qanunu qəbul olundu və 21 mart 1984 tarixindən etibarən qüvvəyə mindi. Həmin dövrdən başlayaraq İran İslam Respublikasında bütün bank sistemi bütünlüklə faizsiz əməliyyatlar həyata keçirirlər.

İranda Faizsiz Bankçılık sisteminin fəaliyyətinin əsasını təşkil edən amilləri aşağıdakı şəkildə sıralamaq olar:

1. Ölkə iqtisadiyyatının inkişafı üçün pul və kreditin sağlam bir şəkildə tədavülünü təşkil etməklə haqq və ədalət prinsiplərinə uyğun pul-kredit sistemini formalaşdırıb inkişaf etdirilməsi;
2. Bu imkanlardan istifadə edərək İran İslam Respublikasının iqtisadiyyatının inkişaf etdirilməsi üzrə proqramların, strategiyaların və dövlət siyasətinin həyata keçirilməsi;
3. Konstitusiyanın 43-cü maddəsinin 2-ci və 9-cu bəndlərinin icrası çərçivəsində malların sərbəst dövriyyəsini, ticarəti təmin edərək investitsiyaları işə cəlb etməklə bir tərəfdən yeni iş imkanları for-

malaşdırmaq digər tərəfdən dövlətin də dəstəyi ilə faizsiz kreditvermə imkanların genişləndirilməsi;

4. Pulun likvidliyini qorumaq, hər cür ödəmələrin tarazlığını gözləmək və ticarətin asanlaşdırılması;
5. Bank tərəfindən göstərilən bütün növ xidmətləri qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə asanlaşdırılması və s.

Birləşmiş Ərəb Əmirliyində faizsiz bankçılıq sisteminin tətbiqi hökumətin 12 mart 1975-ci il tarixli qanunu ilə qurulan Dubay İslam Bankının formalaşmasından götürür. Bu bankın fəaliyyəti ilk dövrlərdə aşağıdakı başlıca prinsiplərə əsaslanırdı:

1. Bankın fəaliyyətində ortaq olmaq üçün Birləşmiş Ərəb Əmirliyinin vətəndaşı olmaq şərt deyil;
2. Bank sərbəst şəkildə ölkə daxilində və xaricdə özünün şöbə və nümayəndəliklərini aça bilər;
3. Bankın xalis mənfəətinin ən azı 10 faizinə qədəri qanuni yolla ehtiyat fonduna ayrılır və bu məbləğ şirkətin açıqlanmış kapitalına bərabər olana qədər götürülməyə davam edilir;
4. Bank ölkədə bu növ fəaliyyətin tənzimlənməsini əhatə edən qüvvədə olan qanunvericiliyin riayət olunmasına məsuliyyət daşıyır.

1984-cü ildə İran məclisi (İslam Məsləhətçi Assambleya) tərəfindən islam maliyyə hüququ qəbul olunub təcrübədə istifadə edilməyə başlandı. Qəbul olunmuş qanunvericilik aktlarına əsasən 1985-ci ilin mart ayına ölkədə tamamilə bütün fəaliyyət göstərən maliyyə institutlarının qəti islamlaşdırılması həyata keçirilmişdir. Lakin təcrübədə bank tənzimləməsi və nəzarəti üzrə yeni prinsiplərin və tələblərin tam real tətbiqi həqiqətdə beş ildən çox müddət tələb etmiş və yalnız keçən əsrin 90-cı illərinin əvvəlində başa çatdırılmışdır. Depozit və borc faizlərinin əlavə hesablanması və tutulması təcrübəsi bank əməliyyat və investisiya fəaliyyətindən tam sıxışdırılıb çıxarılmışdır. Bu gün ölkə bankları müştəri-əmanətçilərə tələb olunana qədər faizsiz depozitlər (cari hesablar), faizsiz toplama hesablarını (əmanət depozitlərini) yaxud həmçinin faizsiz uzun müddətli investisiya depozitlərini təklif edirlər. Tələb olunana qədər depozitlərin və cari hesabların (current account deposits) sahibləri çek kitabçalarından istifadə etmək (açılmış hesab məbləğində) və çeklərlə hesablaşmalar aparmaq imkanını əldə edirlər. Toplama hesablarının və əmanət depozitlərinin sahibləri həmçinin bank maliyyə ehtiyatları və borclarının alınması imkanı baxımından müəyyən preferensiyalardan (üstünlüklərdən)

istifadə edirlər. Əmanət qoyuluşları və depozitlərini saxlayan şəxslərin stimullarına və imtiyazlarına həmçinin islam bankları tərəfindən hesab sahiblərinin Məkkəyə dini səfərinin maliyyələşdirilməsi aid edilir.

Uzun müddətli investisiya depozitlərinin sahibləri hesabdan vəsaitin götürülməsindən bir neçə ay qabaq banka yazılı bildiriş göndərmədən istənilən məbləğdə vəsait götürə bilməzlər. Lakin onlar islam maliyyələşdirmə üsulunun (sxeminin) – müdarabənin (bəzən təcrübədə ehtikar mübadilənin, sərfəli ehtikarın və gəlirli mübadilə əqdlərinin bəzi cəhətlərinə malikdir) prinsiplərinə uyğun məcmu bank gəlirlərinin (mənfəətinin) birgə bölüşdürülməsində şərtsiz iştirak hüququnu əldə edirlər. İstənilən tip borc alan müştərilərin banklarla uzun müddətli qlobal sazişləri və birbaşa tərəfdaşlıq münasibətləri hər cür təşviq edilir və stimullaşdırılır. Həmin sazişlərə uyğun olaraq müştərilər birbaşa, həyata keçirilməsi onların əvvəl bankdan aldıqları maliyyə vəsaiti hesabına maliyyələşdirilmiş onların həyata keçirdiyi istehsalat kapital qoyuluşu və investisiyalarından əldə olunan bütün mümkün gəlirləri (mənfəəti) bölürlər. Banklarla bağlanılan tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlər adətən borc alan müştəri (operator) tərəfindən yalnız həmin bankın maliyyələşdirdiyi müəyyən bir investisiya layihəsi (kapital qoyuluşu) haqqında bağlana bilərlər. Bununla yanaşı bu gün borc alan müştərinin (operatorun) təsərrüfat və investisiya fəaliyyətinin bütün növlərini əhatə edən onun bütün gəlirlərinin bölüşdürülməsi haqqında oxşar sazişlərin bağlanması yol verilir, hətta təşviq edilir.

Məhdud tərəfdaşlıq haqqında sazişlərlə (ciddi müəyyən olunmuş investisiya layihəsi çərçivəsində) bağlı söyləmək olar ki, bölüşdürmə yalnız borc alan investor (operator) tərəfindən islam bankının maliyyələşdirdiyi konkret, ciddi müəyyən olunmuş layihənin həyata keçirilməsindən əldə edilən gəlirlərə aiddir.

Tam tərəfdaşlıq və müştərinin bütün mənfəətinin bankla bölüşdürülməsi haqqında sazişlə bağlı söyləmək olar ki, borc alan müştərinin əldə etdiyi istənilən növ gəlir (mənfəət) müvafiq olaraq onun tərəfindən bankla birgə əsasla bölüşdürülür. Məsələn, artıq qeyd edildiyi kimi, müştəri tərəfindən maşınların, avadanlığın və digər texnikanın əldə olunması bilavasitə islam bankının özünün (müştərinin tapşırığı ilə) satın alma (yaxud onun maliyyə-ləşdirilməsi) yolu ilə həyata keçirilir. Sonra müştəri edilmiş satın almaların tam məbləğini hissələrlə, ayrı-ayrı ödəmələr yolu ilə banka ödəyir. Az əhəmiyyətli deyil ki, belə hallarda alınmış ma-

şınlara və avadanlığa dair mülkiyyət hüququ bank tərəfindən müştəriyə sonuncu banka olan kumulyativ maliyyə borcunu ödəmək üçün ilk qismən ödənişi etdikdən dərhal sonra keçir. Müştərilərin islam bankları ilə müqavilə-məqsədli hesablaşmalarının alternativ forması kimi bankın satın aldığı maşınlara, texnikaya və avadanlığa dair faktiki modifikasiya olunmuş maliyyə lizinqi (lizinq sazişləri) formaları çıxış edir. Bu cür lizinq (icarə) sazişləri zamanı bankın satın aldığı maşınlara və avadanlığa dair mülkiyyət hüququ yalnız, onun tərəfindən lizinq obyektinin dəyəri tam ödənilməklə, müştəri bankla bağlanmış lizinq sazişi üzrə son ödənişi etdikdən və hesablaşmanı apardıqdan sonra müştəriyə keçir.

Bu gün qüvvədə olan islam maliyyə hüququna əsasən islam bankları həmçinin müştərinin ticarət əməliyyatlarını maliyyələşdirə, müştərinin tapşırığı ilə malın müddətli forvard satınalmalarını (forward purchases) həyata keçirə bilərlər. Malın məqsədli müddətli forvard satın almaları ilə, mahiyyət etibarilə xalis ehtikar müddətli əmtəə mübadiləsi haqqında saziş və müqavilələrdən ibarət olan, xüsusiləşdirilmiş fyuçers (birja) ticarəti arasında dəqiq əhəmiyyətli fərqlər (dərəcələr) müəyyənləşdirilmişdir. Sonuncular məlum olduğu kimi ərəb ölkələrində tam və qəti surətdə qadağan olunur.

Bankla malın müddətli forvard satın almaları həyata keçirilərkən həmin bank ona idxal ticarəti ilə məşğul olan şirkət və ya agent, yaxud topdan ticarətlə məşğul olan tacirlə təqdim olunmuş satın alınmış mala görə hesab-fakturaları (invoysları) çox vaxt dərhal ödəyir. Belə olan halda bank öz hesabına idxal ticarət ilə məşğul olan şirkətlərin yaxud topdan ticarətlə məşğul olan tacirin birbaşa tapşırığı ilə mal alır. İdxal ticarətlə məşğul olan şirkətlər və topdan ticarətlə məşğul olan tacirlər öz növbəsində islam bankına olan borclarını artıq onların aldıqları malın müxtəlif tacirlərə, satış şirkətlərinə yaxud son istehlakçı-idxalçılara və faktiki alıcılara təkrar satışından sonra ödəyirlər.

Ərəb islam bankları bu gün vahid şəklə salınmış standart müddətli forvard ticarət kontraktlarından və malların təkrar satışı üzrə müqavilələrdən (əmtəə arbitrajı) istifadə edirlər. Bu cür maliyyələşdirmə sxemləri zamanı bankın öz müştərisinə verdiyi (o cümlədən idxal əməliyyatları üzrə) həyata keçirilmiş mal satın almaları üzrə ödənişin faktiki olaraq hissə-hissə həyata keçirilməsi adətən 90-180 gün təşkil edir.

Kredit-bank sektorunun islamlaşdırılması prosesləri ayrı-ayrı ərəb ölkələrində müxtəlif intensivlikdə inkişaf edirlər. Onların arasında bank

işinin islamlaşdırılması mexanizmləri olduqca intensiv şəkildə son on il ərzində İranda, həmçinin Pakistanda tətbiq edilirdi.

1979-cu ildən etibarən İranın bank sistemi onun qlobal islamlaşdırılması əsasında milliləşdirilmiş və tamamilə yenidən təşkil olunmuşdur. İranda birləşmiş islam bank sisteminin qurulması və fəaliyyəti prinsiplərini müəyyənləşdirmiş əsas hüquqi sənədlər 1983-cü ildə qəbul olunmuş istənilən formada sələmçilik fəaliyyətini qadağan edən islam prinsipləri əsasında olan Bank fəaliyyəti haqqında qanun və İranın Konstitusiyası olmuşlar. İranda islam bank işinin əsas xarakteristikalarına ilk növbədə dövlət tərəfindən bütün bankların fəaliyyətinə ciddi cari nəzarət, xüsusi kommersiya banklarının yaradılmasına qoyulan qadağa və maliyyə vəsaitinin (borc ehtiyatlarının) ödənişliyi prinsipinin istifadəsindən tam imtina aid edilməlidir. Bu gün ölkədə qüvvədə olan vahid islam bank qanunvericiliyinə əsasən İranın milli bank sistemi aşağıdakı məsələlərin həllinə yönəlib:

1. ölkənin bütün kredit-pul sisteminin qüvvədə olan qanunvericilik əsasında və islam qaydalarına, ilk növbədə şəriət adət və ənənələrinə tam uyğun şəkildə sabit fəaliyyəti, pul dövriyyəsinin tənzimlənməsi və iqtisadiyyatın, ilk növbədə onun real sektorunun, sabit inkişafına nail olmaq üçün effektiv maliyyələşdirmə sisteminin təşkili;
2. dövlət iqtisadi proqramlarının uğurlu həyata keçirilməsi üçün daxili pul vəsaitinin səfərbər edilməsi;
3. islam bank idarələrinin təcrübəsində tam uyğun əmanət məhsullarının və maliyyə vasitələrinin tətbiqi yolu ilə əhalinin faizsiz investisiya və depozit əməliyyatlarında real iştirakının genişləndirilməsi üçün lazımi şəraitin yaradılması. Söhbət ilk növbədə əhalinin vəsaitinin birgə cəlb edilməsindən, onun faizsiz hesablarda yerləşdirilməsindən və sonra bankların səfərbər etdiyi pul ehtiyatlarının ölkədə hazırlanan effektiv investisiya layihələrinin maliyyələşdirilməsi məqsədlərinə təkrar bölüşdürülməsindən gedir. Bu məsələlərin həlli üçün həmçinin xüsusi bank ehtiyat fondlarının təsis edilməsi, banklar tərəfindən faizsiz əmanət qoyuluş-ları və müddətli depozitlər sistemindən istifadə nəzərdə tutulur. Əmanətlərin yığılması və bank aktivlərinin effektiv yerləşdirilməsi ilk növbədə investisiyaların real təsərrüfat sektoruna maliyyə şəklində sabit qoyuluşunu və ölkə əhalisinin məşğul-

luq səviyyəsinin artırılmasını təmin etməlidirlər;

4. aktiv dövriyyəsində pul kütləsinin həcminin tənzimlənməsi və ödəniş balansının vəziyyətinə nəzarət;
5. ödənişlərin aparılması və pul haqlarının qəbulu, köçürülmələrin edilməsi, kommersiya (xarici ticarət) sazişlərinin və müqavilələrinin təmin edilməsi, həmçinin qüvvədə olan bank qanunvericiliyi ilə nəzərdə tutulmuş digər maliyyə xidmətlərinin göstərilməsi.

İranın bank sisteminin sabit fəaliyyətinin və yenidən qurulmasının təminatında əsas rol, şübhəsiz, İranın Mərkəzi Bankına məxsusdur, hansı ki, ölkənin kredit-pul siyasətini işləyib hazırlayır və həyata keçirir, pul nişanlarının emissiyasını həyata keçirir, ölkənin qızıl-valyuta ehtiyatlarını idarə edir, pul dövriyyəsini, bank investisiyalarını və sairəni tənzimləyir. İranın Mərkəzi Bankı tam islamlaşdırılmış milli bank sistemi çərçivəsində ölkənin bütün kredit-bank idarələrinin fəaliyyətinə nəzarət edərək:

1. bankların, həyata keçirdikləri xidmətlərin və əməliyyatların konkret növündən asılı olaraq, gəlir norması üçün minimal və maksimal miqdarı (səviyyələri), həmçinin banklar tərəfindən müxtəlif növ əmanətlərin sahiblərinə (saxlayanlarına) verilən preferensiyaların, imtiyazların və s. yol verilən həcmlərini müəyyən edir;
2. dövlətin milli iqtisadi siyasəti çərçivəsində bank kapitalının təsərrüfat sahələri və sektorları üzrə investisiya şəklində qoyuluşu istiqamətlərini, həmçinin müxtəlif sahələrdə investisiya layihələri üçün minimal yol verilən gəlir normalarını və həmin normaların iqtisadiyyatın müxtəlif sahələri üzrə mümkün differensiasiyasını (ayrılmasını) müəyyən edir;
3. bank tərəfindən bir müştəriyə (borc alana) sərbəst şəkildə verilə biləcək maliyyə vəsaitinin (borclarının) maksimal həcmini nizamlayır.

2001-2002 illərdə artıq ən yaxın gələcəkdə İranın bütün maliyyə sisteminin kifayət qədər əsaslı müəyyən islahatının mümkünlüyünü təsdiqləyən əlamətlər daha aydın görünməyə başlamışdır. Dövlət tərəfindən hər yeri əhatə edən bank inhisarı, yerli kredit bazarında müəyyən bir real rəqabətin olmaması və bunun nəticəsi kimi bir çox islam banklarının investisiya fəaliyyətinin nisbətən aşağı effektivliyi dövlətin strateji maraqlarına obyektiv cavab vermirlər. Təsadüfi deyil ki, bu gün İran hökuməti tam islamlaşdırılmış kredit-bank sektoru daxil olmaqla ölkə

təsərrüfatının müəyyən liberallaşmasına istiqamətlənmiş addımlar atır. Belə ki, 2000-2005 illər üçün İranın sosial-iqtisadi və mədəni inkişafının üçüncü beş illik planı haqqında qanunvericiliklə bir sıra bankların səhmlərinin təxminən 49% özəl sektorun səhmdarlarının və investorlarının sərəncamına verilməsi yolu ilə dövlətin kredit-bank sahəsində inhisarının müəyyən zəiflədilməsi nəzərdə tutulmuşdur.

Lakin bütövlükdə inqilabdan sonrakı dövrdə (xüsusilə 90-cı illərdə) İranın iqtisadi siyasətinin əsas məqsədi şübhəsiz bütün milli bank idarələrinin məqsədyönlü islamlaşdırılması olmuşdur. Vahid müsəlman cəmiyyətində, ona müvafiq olaraq ölkənin bütün institutlarının bütün növ banklar və yerli maliyyə idarələri daxil olmaqla ölkənin bütün institutlarının islam prinsiplərinə tam uyğun qaydada fəaliyyət göstərməli olduqları tələb adətən daha asan və effektiv həyata keçirilir. İslam banklarına Qərb yönümlü universal (ənənəvi) kommersiya bankları ilə bərabər fəaliyyət göstərməsi üçün sadə icazənin verilməsi burada açıq surətdə kifayətsiz və qeyri-qənaətbəxş qərar hesab olunur. Yüksək dini islam cəmiyyətində (sosial strukturlarda) əməliyyatları üzrə faiz hesablayan və tutan istənilən maliyyə institutlarının fəaliyyəti qətiyyən həyata keçirilmir və qadağan edilir. Eyni zamanda istənilən ənənəvi kommersiya banklarının fəaliyyəti doğru olmayan, "dinsiz", doğruluq və islam ədaləti prinsiplərinə (an affront to the faithful) zidd hesab olunur. Bütün bank sektorunun fəaliyyətinin Quran prinsiplərinə, ilk növbədə şiə cərəyanının mahiyyətinə və ruhuna şərtsiz uyğunluğunu təmin etmək üçün dövlət İranın bütün milli bank sistemini tam islamlaşdırmışdır. Bu tədbir özünün cari fəaliyyətində Qərb maliyyə və kredit-bank, həmçinin investisiya institutlarının fəaliyyət prinsiplərindən istifadə edən ənənəvi kommersiya banklarının istənilən əməliyyatlarını obyektiv mümkünsüz etmişdir.

İran İslam Respublikasında bank sisteminin inkişafının xüsusiyyətləri. İranın kredit sistemi öz başlanğıcını 1906-1907-ci illərdən götürür, həmin dövrdə konstitusiya ölkənin pul təsərrüfat idarəsində feodal üsullarını ləğv etmiş və şahın ölkənin milli sərvəti üzərində nəzarətsiz sərəncamına son qoymuşdur. Lakin, həqiqətdə 20-ci əsr boyu konstitusiyanın vəziyyəti arabir deklarativ (rəsmi) xüsusiyyət daşıyırdı.

Kredit-pul təsərrüfat islahatını keçirmək üçün "neytral" xarici müşavirlərin dəvət edilmə təşəbbüsü uğursuz oldu. 1911-ci ildə İrana Morqan Şusterin başçılığı ilə Amerika ekspertlər dəstəsi gəlmişdir; onun 1916-cı ildə istefasından sonra kredit-maliyyə ida-rələrində, ölkəyə zorla son dərəcə ağır şərtlərlə saziş qəbul etdirmiş ingilis təlimatçıları rəhbərlik

edirdi, həmin sazişə əsasən ingilis məmuru İran hökumətinin baş maliyyə müfəttişinin funksiyalarını yerinə yetirirdi; 1921-ci ildə İngiltərə - İran sazişi ləğv edil-mişdir.

Eyni zamanda İranda müstəmləkə əsasları qorunub saxlanılırdı. 1907-ci ildə İngiltərə ilə Rusiya arasında bağlanmış sazişə əsasən İran Rusiya İmperiyası və Böyük Britaniyanın təsir sahələrinə bölünmüşdür. Nəticədə konsessiya sazişləri siyasəti möhkəmlənmişdir (32 belə sazişlərdən 32-si Rusiyanın payına düşürdü): bank, yol, nəqliyyat-sığorta, dağ-mədən. İngilis sahibkarları banknotların emissiyası və xəzinədarlıq funksiyalarının yerinə yetiril-məsi hüququ ilə Şahənşah bankının təşkili üçün konsessiya almışdır. Rusiya İranın Hesablama-borc bankının təşkili üçün konsessiyaya nail oldu.

1921-ci ildə sovet hökuməti İranın, ona çar hökuməti tərəfindən verilmiş borcların, ödəməsindən imtina etdi. Eyni zamanda İran dövlətinə rus kredit institutları, o cümlədən İranın Hesablama-əmanət bankı (əvvəllər Hesablama-borc bankı) adlandırılan Rusiya imperiyasının Dövlət bankının kredit müəssisələri də havayı verilmişdir.

Bu bankın əsas kapitalının mənbəyi İran hökumətinin Şahənşah bankındakı hesablarında saxladığı xarici valyutada olan azad yığılmış vəsait, həmçinin gümüşü kranlarla (1930-cu ildə rial ilə dəyişilən sikkə pul) pul ehtiyatları olmuşdur.

Milli siyasətin vacib istiqamətlərindən biri 1928-ci ildə İranın Milli bankının təsis edilməsi olmuşdur. Artıq Milli bank mövcudluğunun ilk illərində kreditin ucuzlaşmasına istiqamətlənən diskont siyasəti sayəsində İranın kredit-pul sistemində aparıcı yer tutmuşdur. Uçot dərəcələri 6% kimi azalmışdır, bu yalnız çox saylı sərrafların təcrübəsinə deyil, həm də 12% və daha çox faiz tutan Şahənşah bankının əməliyyatlarına təsir etmişdir. Dünya böhranı zamanı gümüş və qızılın dəyərinin nisbətinin əlverişsizliyi ilə əlaqədar olaraq gümüş kranın faciəli qiymətdən düşməsi baş vermişdir. Kranın və funt sterlinqin valyuta pariteti 2 dəfədən də çox aşağı düşmüşdür.

1925-ci ildə Ticarət haqqında qanunla İran hökuməti kredit əməliyyatlarının istehsal nizamının şəriət şərhinə son qoymuş, xüsusi bankir sənəti fəaliyyətinin hüquqi əsasını müasirləşdirmişdir. Lakin, əvvəlcə çox saylı sərrafların və bir sıra ticarət kontorlarının geniş məşğul olduqları sələm krediti hələ xüsusi kommersiya banklarının bələdiyyə mülkiyyəti formasında ifadə edilmirdi.

1930-cu ildə İran bimetallik standartdan qızıla keçdi, hansının ki, əsasında sterlinq dövriyyəsinin ingilis sistemi yerləşirdi. Sikkə vahidi kimi qızıl

real oldu. İranın Milli bankı ölkədə pul dövriyyəsinin tənzimçisi oldu.

1931-1932-ci illərdə xüsusi borc kapitalı səhmdar kredit cəmiyyətlərində(bank tipli şirkətlər) yığılmağa başlamışdır. 1939-cu ildə İranda dövlət əmanət kassaları açılmışdır.

İkinci dünya müharibəsinin əvvəllərinə İranda növbəti milli kredit institutları fəaliyyət göstərirdi: Milli bank, Kənd təsərrüfatı, Sənaye, İpoteka bankları. Beləliklə, konsessial Şahənşah bankının İran pul-kredit bazarında monopoliya hüququ zəifləyirdi.

Bundan başqa, baxılan dövrdə İranda xarici kapital ilə daha iki bank: "Ruspersbank" ("Rusfarsbank") və Ottoman bankı var idi. "Ruspersbank"1923-cü ildə əsasən Sovet-İran ticarəti üzrə hesablamaların aparılması üçün qarışıq Sovet-İran cəmiyyəti kimi təşkil edilmişdir, onun ölkənin müxtəlif şəhərlərində bir neçə filialı var idi, haradakı, sovet ticarətinin nümayəndəlik bölmələri yerləşirdi. Ottoman bankı eyniadlı bankın bölmələrini Türkiyədə Fransa-İngilis kapitalı və Londondakı idarə etmə ilə təmsil edirdi.

Mahiyyətcə milli bank sisteminin inkişafı 1948-ci ildən başlamışdır, nə vaxt ki, artıq mövcud olan dövlət banklarının sayına yeni dövlət və xüsusi banklar birləşməyə başlamışdır. Bu vaxta İranın Milli bankı özünün iki - emissiya və kommersiya bölmələri ilə ölkənin kredit-pul sisteminin əsasına çevrilmişdir. Sonrakı illərdə əvvəlcə Amerika iqtisadi ekspansiyasının genişlənməsi, sonra isə Amerika "qəyyumluğundan" tam imtina və, nəticədə iqtisadi təcrid olunma baş vermişdir.

1960-cı ildə Milli bankın yenidən təşkili aparılmışdır. O, İranın Mərkəzi bankına və İranın Milli bankına bölünmüşdür. Birincisi emissiya və valyuta idarə etməsindən ibarət idi, ikinci isə kommersiya bankının funksiyaları ilə təmin olunmuş və ona əvvəlki Milli bankın kommersiya baxımından idarə edilməsi passivləri verilmişdir. Mərkəzi bankın fəaliyyətinə nəzarət etmək üçün Maliyyə ittifaqı yaradılmışdır.

Sənaye kreditlərinin verilməsi həmçinin dəyişikliyə məruz qalmışdır. 1946-cı ildə Kənd Təsərrüfatı bankından, Plan bankına (1951), 1956-cı ildə isə Sənaye kreditləri bankına çevrilmiş Sənaye və dağ-mədən bankı ayrılmışdır. 1958-ci ilin sonunda bu bank Milli bankla birlikdə bir sıra ölkələrin maliyyə qruplarının iştirakı ilə yaradılmış qarışıq Sənaye inkişafı və dağ-mədən işi bankının payçıları sırasına daxil olmuşdur (40% xarici investorlara, 60 % - Amerikanın Borcların inkişafı fondunun dəyişməsi yolu ilə İrana məxsus idi).

1956-cı ildə İpoteka bankı 1952-ci ildə yaramış Tikinti bankı ilə birləşdirilmişdir; 1953-cü ildə İxracatın inkişafı bankı (1961-ci ildən Xarici ticarət Bankı) təsis edilmişdir. İran hökuməti həmçinin dövlət qulluqçuları üçün bank şəbəkəsinin gələcək genişlənməsinə can atırdı. Bu məqsədlə 1958-ci ildə xüsusi bank yaradılmışdır.

İranda xüsusi bankların fəaliyyəti 1655-ci ildə yaradılmış və 1969-cu ildə bank və valyuta nizamnaməsi ilə əvəz olunmuş Banklar haqqında qanunla nizamlanırdı.

Bankların fəaliyyətinə nəzarətin gücləndirilməsi 1963-cü ildən başlayır, həmin vaxt Mərkəzi banka xüsusi şəxslərə kreditin verilməsi şərtlərinə nəzarət etmək icazə verilmişdir. Tezliklə faiz dərəcələrin məcburi sabitləşdirilməsi haqda sual qoyulmuş, kreditlər yalnız istehsal məsələləri ilə məhdudlaşdırılırdı. Hesab etmək olar ki, İranda faizsiz bank əməliyyatlarına qayıdış 1984-cü ilin mart ayında baş vermişdir. Amma daha öncə, 1979-cu ilin iyun ayında kredit institutları milliləşdirilmişdir.

İran İslam İnqilabından sonra Bankın fəaliyyəti şəriət qanunları əsasında həyata keçirilir. İranda İslam inqilabının baş verməsi ilə əlaqədar ölkədən küllü miqdarda (40 milyard dollara yaxın) pulun çıxarılması ilə əlaqədar olaraq 1979-ci ildən 1999-cu ilə qədər rialın dəyərli əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. İqtisadi inkişaf və dollar zonasından uzaqlaşma kimi səbəblərdən 1999-cu ildən etibarən rialın məzənnəsi sabitləşmişdir. 2002-ci ilədək İranın məzənnə siyasəti çoxmərhələli sistemə əsaslanırdı ki, burada dövlət və yarım-dövlət müəssisələri üstün tutulan məzənnədə (1750 rial = 1 dollar), özəl sektor isə bazar məzənnəsindən (8000 rial = 1 dollar) istifadə eləməli olurdu. Bu cür məzənnə siyasəti qeyri-bərabər rəqabət mühiti yaratdığından 2002-ci ilin mart ayından etibarən bu sistemi birləşmiş bazar məzənnəsi siyasəti əvəz etdi.

Müasir pul və kredit sistemi. İİR-ın əsas pul sistemi İran rialıdır. Valyuta sistemi mübadilə məzənnəsinin ikitərəfliliyi prinsipinə əsaslanmışdır. Belə, "neft" məzənnəsi təsbit edilmişdir (2000-ci ildə 17 500 rial 1 ABŞ dollarına görə), qeyri-neft əməliyyatları üçün isə üzən valyuta məzənnəsi istifadə olunur.

Neft dollarları xidmətlərin və malların idxalı, borcların ödənməsi və milli iqtisadiyyat çərçivəsinə layihə keçirilmələri üçün istifadə olunur. Adi ixracatçılar başqa üstünlüklərə malikdirlər. Belə ki, onlar ixracat hasilatının bir hissəsini depozit hesablarına yerləşdirə bilər və onları depozit sertifikatları ilə rəsmiləşdirə bilərlər. Depozit sertifikatları dövr

edən qiymətli kağızlardır və Tehran valyuta birjasında satış üçün çıxarıla bilərlər.

İranın kredit sistemindəki ciddi dəyişikliklər 2000-ci ildə (1379-cu ildə müsəlmanlarda) müşahidə olunmuşdur: aprel ayında İran hökuməti 1979-cu il İslam inqilabından sonra birinci dəfə xüsusi bankların fəaliyyətinə icazə vermək niyyətini bildirmişdir. Hökumətin banklarla bağlı siyasətinin qəti dəyişikliyi məclisin bank sektorunda dövlət monopoliyasının ləğv edilməsi haqqında qərarından sonra baş vermişdir.

Hökumət orqanlarının yeni qərarı əsas mövqelər (yer) dövlət sektoruna məxsus olan milli iqtisadiyyatın liberallaşmasına istiqamətlənmiş beş illik planın əsas istiqamətlərinə uyğun gəlir. 2000-2005-ci illərə hesablanmış plan qarşıda olduqca iddialı vəzifələr, məsələn, xüsusi investisiyaların orta illik artımını (8,5%), qoyur. Göstərilmiş müddət ərzində hazırda əmək qabiliyyəti olan əhalinin ümumi sayının 16% təşkil edən işsizliyin səviyyəsinin aşağı salınmasına nail olmağa icazə verəcək 3,6 mln yeni iş yerlərinin yaradılması planlaşdırılmışdır.

Kommersiya banklarının nümayəndələrinin fikrincə ölkənin iqtisadi inkişafının beş illik planı haqqında qanunun 26 maddəsinin 25 bu və ya başqa ölçüdə ölkənin bank sisteminin təkmilləşdirilməsinə həsr edilmişdir. Plan üzrə xüsusi bankların yaradılması, həmçinin banklara 2 500 mlrd rial dövlət borcunu ödəmə, dövlətin banklardan 4 500 mlrd rial məbləğində dövlət borcu üzrə istiqraz vərəqələrinin alınması nəzərdə tutulmuşdur.

Konstitusiyanın müddəalarını rəhbər tutaraq, hökumət ilk əvvəl özəl sektorun bankların nizamnamə kapitalında iştirakı mümkünlüyünü 49% kimi çatdırmaq niyyətində olmuşdur, lakin, məclis, mövcud olan bank institutlarının özəlləşdirilməsi üçün yol açan, tamamilə xüsusi bankların yaradılmasını bəyənmişdir. Xüsusi sektorun bank biznesində iştirakı artıq İİR ərazisində yaradılan azad ticarət zonalarında icazə verilmişdir. Ölkənin başqa rayonlarında xüsusi qeyri-bank kredit institutlarının fəaliyyəti inkişaf etdirilir.

Qoyulmuş məqsədlərin yerinə yetirilməsi yolunda İranın valyuta əmanətinin artması və eyni zamanda xarici banklar qarşısında valyuta öhdəliklərinin hesabdan çıxarılması baş verir. 1999-cu ilin sonunda İranın xarici banklara əmanət qoyuluşları ilin əvvəli ilə müqayisədə təxminən üçdə bir hissəyə qalxmış və 8 118 mlrd dollardan ibarət olmuşdu.

2000-ci ildə ticarətin liberallaşdırılması məqsədilə Mərkəzi bank valyuta əməliyyatlarının qismən sadələşdirilməsi təşəbbüsü ilə çıxış

etdi. Xarici valyutada xüsusi məzənnənin istifadəsi ilə 5 milyon dollara kimi məbləğdə İran bankları vasitəsilə həyata keçirilən sazişlərə icazə verilmişdir. Valyuta qanunvericiliyinin yenidən baxılmasından ən çox xarici turistlər udur, çünki bu vaxta kimi onlar valyutanı rəsmi, açıq-aydın sərfəli olmayan məzənnə ilə mübadilə etmək məcbur idilər.

İqtisadiyyatın orta liberallaşma siyasətinin ilkin nəticələri beynəlxalq əməkdaşlığın genişlənməsinin ayrı-ayrı faktları ilə təsdiqlənir. “Deutsche Bank”-ın başçılıq etdiyi Avropa banklarının konsorsiumu, 2000-ci ildə 530 mln dollar məbləğində İran neft kimya şirkəti olan “NIDC” üçün kredit xəttini açmışdır. (ixracatın sığortalanması üzrə borc alman, fransız və italyan dövlət agentləri tərəfindən təmin edilir).

2000-ci ilin iyun ayında “Kanadanın ticarətin təşviqi təşkilatı” “Tacarat İran” bankına 8,5 il müddətinə 36 mln dollar məbləğində borc vermişdir. Müqavilənin imzalanması mərasimində rəsmi şəxslər arasında həmçinin İran ilə əməkdaşlığa hazır olmasını ifadə edən “Ceneral elektrik” şirkətinin nümayəndələri iştirak edirdi.

“İrana investisiyalar - 2000” adlı beynəlxalq konfransda çıxış edərək, İranın Mərkəzi bankının başçısı M.Nurbaxa bildirdi ki, İranın valyuta-maliyyə vəziyyəti sabitləşir, bir sıra makroiqtisadi göstəricilərin müsbət dəyişmə dinamikası müşahidə edilir. Belə, öl-kənin xarici borcu davamlı olaraq azalmağa davam edir, o dövrdə onun həcmi 10,4 mlrd dollar təşkil etdi. Bu ÜDM 10%-dən daha azdır və dünya standartlarına görə bu yaxşı gös-təricidir.

İranın bank sisteminin təkrar kapitallaşması neftin ixracatından planlaşdırılandan artıq əldə olunan gəlir gətirir. Hökumət neftin ixracatından planlaşdırılandan artıq əldə olunan gəlirdən formalaşan neft ehtiyat fondundan 800 mlrd rialın qeyri-neft ixracatının “sıçrayışının” genişləndirilməsi və təmin edilməsi məqsədilə İxracatın inkişafı bankına verilməsini bəyənmişdir. Bu məbləğin köçürülməsinə qədər İxracatın inkişafı bankının kapitalı cəmi 34 mlrd rial təşkil edirdi.

Kapitalın dəfələrlə artımı nəticəsində Bank indi ixracatçıların daha böyük sayına kredit verə biləcək. Bununla İran sənaye məhsullarının ixracatçıları bu banka kredit üçün müraciət edərkən prioritet (birincilik) əldə edəcəklər. Eyni zamanda İranın Mərkəzi bankında ölkənin banklarına maşın və avadanlıq, həmçinin xammal idxalçılarına valyuta ilə25 kreditlərin verilməsi icazəsinin verilməsi məsələsi müzakirə edilir.

İranın valyuta-maliyyə vəziyyətinin yaxşılaşması banklararası münasibətlərin inkişafına, dünya maliyyə bazarlarına daha geniş daxil olma

imkanına ümid etmək üçün əsas verir. 2002-ci ildə 1000 ən iri bankların siyahısına ilk dəfə bir İran bankı daxil oldu. Bank Keshavarzi reytinqdə 212-ci yerdə idi.

Daha iri xarici investorlar arasında İran iqtisadiyyatına neft qaz sahəsi ilə məşğul olan "Totalfina- Elf" (Fransa), "Petronas" (Malayziya) ,"ENİ" və "Acip" (İtaliya), "Royal Datç Şell" (İngiltərə/Hollandiya) şirkətlərinin adlarını çəkmək olar.

İİR Mərkəzi bankı 2002-ci ildə ilk dəfə gəlirliyi müvafiq olaraq 8,75% və 7,75% təşkil edən iki növ İran DQİV-nin (avrobondlarının) buraxılışını və Avropada satışını həyata keçirmişdir. Bu məsələdə ABŞ müxalif mövqe tutmasına baxmayaraq, Ümumdünya bankı İrana yeni borcun ayrılması haqda öz planlarını elan etdi.

İİRMB bir sıra beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq əlaqələrinə malikdir. İran İslam Respublikası İslam İnkişaf Bankının fəal üzvlərindən biri olduğundan İİRMB-nin onunla çox yaxın əlaqələri var.

İİRMB-nin Sədri İranın Beynəlxalq Valyuta Fondundakı Müdiri olaraq çıxış edir. İİRMB Beynəlxalq Hesablaşmalar Bankının illik toplantılarında müşahidəçi statusunda iştirak edir. Bundan əlavə İİRMB Dünya Bankı ilə yaxın əməkdaşlıq əlaqələrinə malikdir.

İran İslam Respublikası 2000-2003-cü illərdə bank işi inkişafının dünya tendensiyaları və onun ölkə iqtisadiyyatında rolunun artırılmasına uyğun olaraq kredit sisteminin dəyişdirilməsinə istiqamətlənən cəhdlər göstərmişdir. İslam prinsiplərinə əsaslanan, o, daima ənənələr və dünya pul-maliyyə bazarına çıxışı təmin edən kredit-maliyyə institutlarının kifayət qədər geniş şəbəkəsini əldə etmək zəruriliyi arasında kompromis axtarışını tələb edir. Bu ölkənin satıla bilən neft aktivlərinə əsaslanan pul sistemi bəzi xüsusiyyətlərə malikdir. Hazırda İranın Mərkəzi bankı bəzi hallarda ilkin kapitalın formalaşması üçün vasitələr təqdim edərək xüsusi bankların yaranmasını təşviq edir.

İran İslam Respublikasında keçirilən yeni pul-kredit siyasəti kifayət qədər səmərəliyini göstərdi. 2001-ci ildə ki inflyasiya 12,6 % təşkil edirdi. Son illərdə ölkənin borc yükü xeyli azalmışdır. Əgər 1995-1996-cı illərdə dövlət borcu 22 mlrd ABŞ dollarına bərabər idisə, 2000-2001-ci illərdə borcun həcmi 8 mlrd kimi azalmışdır.

Qeyd etmək vacibdir ki, bu dövrdə yüngül sənayenin (9,6%) artma tempi neft qolunun (9,7%) artması tempinə yaxınlaşmışdır. İxracat yönümlü qeyri-neft sahələrinin inkişafı milli iqtisadiyyatın strateji

məsələlərindən biri olur.

ÜDM artımı gözlənilən nəticələri üstələdi və 2000-ci ildə 4,5% təşkil etdiyi halda 2001-ci ildə 5,9% təşkil etmişdir. Nəticədə, banklarda iqtisadiyyatın özəl (31, 3%) və dövlət (31,6 %) sektorları hesabına depozit bazasının artımı baş verdi. Bundan başqa, hökumət banklara öz borcunu ödədi, bu da onların ehtiyat bazasının əlavə artımına səbəb olmuşdur. Yalnız hələ Mərkəzi banka 2000-2001-ci illərdə o, 869 ABŞ dolları qaytarmış, həmçinin başqa bank kapitallarının formalaşmasına kömək göstərdi. Bəzi islam ölkələri, o cümlədən İran, Pakistan və Sudan, 20-ci əsrin 80-90-cı illərində borc münasibətlərinin orta əsr traktovkasına qayıtmış və kredit sistemində (İFBL-İnterest-Free Banking) faiz rolunu azaltmışdılar.

İranda daha çox İstalment Sales (möhlətlə satış) müqaviləsi inkişaf etmişdir, hansı ki, 1995-ci ildə 45,0% təşkil etdiyi halda 1998-ci ildə 56,1 % təşkil edirdi. Bank xammal və materiallar, təchizatlar və istehsal üçün başqa vacib əsas və dövriyyə vasitələri almaq almaq, və borc alanlara qısamüddətli, ortamüddətli və uzunmüddətli əsaslarda hissə-hissə satmaq səlahiyyətinə malikdir. Satışın və alışın təşəbbüsü istehsalçıya və alıcıya məxsusdur, bank üçün bu əməliyyat maliyyə əməliyyatıdır. Lakin, belə əməliyyatda banklar yalnız kreditli deyil, həmçinin biznes-risklərini də daşıyır. Sahibkarlıq risklərinin azaldılması məqsədilə müştərilər öz müəssisələrinə hissə-hissə ödəməklə alınan malların istifadəsini qiymətləndirən bank işçilərini buraxmağa borcludurlar. Qanunvericiliyə görə bu müqavilə növü ticarətdən başqa bütün sahələrdə istifadə oluna bilər.

İranın ilk dövlət bankı olan Bank Melli İran 1927-ci ildə təsis olunmuşdur. Bankın əsas vəzifələri hökumətin maliyyə əməliyyatlarının dəstəklənməsi və İranın milli valyutasının (rial və tümən) çapı və dövriyyəyə buraxılması olmuşdur. Bank Melli İran 33 ildən artıq müddət ərzində İran rialının dəyərini dəstəkləməklə İranın mərkəzi bankı kimi fəaliyyət göstərmişdir. 1960-cı ilin avqust ayında İran hökuməti İran Mərkəzi Bankını təsis edərək Bank Melli İran-da olan mərkəzi bank öhdəliklərini alaraq İran Mərkəzi Bankına vermişdir. 1979-cu ildə İranda İslam İnqilabın baş verməsi ilə İran Mərkəzi Bankının adı dəyişdirilərək "İran İslam Respublikası Mərkəzi Bankı" qoyulmuşdur. Bu tarixdən etibarən İranda monetar və kredit siyasətləri İranın Pul və Bank Qanunu (1979), Bankların Milliləşdirilməsi Qanunu (1979), Banklar Administrasiyası Haqqında Qanun (1979) və Faizsiz Bankçılıq Haqqında Qanun (1983) əsasında tərtib və icra olunur.

İİRMB aşağıdakı funksiyaların yerinə yetirilməsinə görə cavabdehdir:

- Əskinaz və sikkələrin buraxılması;
- Bank və kredit təşkilatlarının fəaliyyətlərinə nəzarət;
- Xarici valyuta siyasəti və əməliyyatlarının tərtibi və tənzimlənməsi;
- Qızıl əməliyyatlarının tənzimlənməsi;
- Milli valyuta axınının formalaşdırılması və tənzimlənməsi.

Hökumətin bankı olaraq İİRMB hökumət hesablarını, dövlət müəssisələri və təşkilatlarına verilən qrant və kreditlərin saxlanması üçün səlahiyyətləndirilmişdir.

İİRMB aşağıdakı orqanlardan ibarətdir:

- Baş Məclis;
- Monetar və Kredit Şurası;
- İdarə Heyəti;
- Not Ehtiyatlarına Nəzarət Şurası;
- Müşahidə Şurası.

İdarə Heyəti Sədr, sədr müavini, baş katib və 3 vitse-sədrdən ibarətdir.

Milli Cəvahirat Xəzinəsi - İİRMB-nin Baş Ofisində yerləşir. Xəzinədə dünyada məşhur olan bir çox daş-qaşların kolleksiyası toplanmaqdadır.

İİRMB bir sıra beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq əlaqələrinə malikdir. İran İslam Respublikası İslam İnkişaf Bankının fəal üzvlərindən biri olduğundan İİRMB-nin onunla çox yaxın əlaqələri var.

İİRMB-nin Sədri İranın Beynəlxalq Valyuta Fondundakı Müdiri olaraq çıxış edir.

İİRMB Beynəlxalq Hesablaşmalar Bankının illik toplantılarında müşahidəçi statusunda iştirak edir.

Bundan əlavə İİRMB Dünya Bankı ilə yaxın əməkdaşlıq əlaqələrinə malikdir.

18.12. Rusiya Federasiyasının pul-kredit sistemi

“Rubl” sözünün etimologiyası ilə bağlı əsas versiyası bu sözün “rubit” (“doğramaq”) felindən yaranmasıdır. Rubl gümüş metaldan doğranan parçaya deyilirdi. Rublun rəsmi simvolu olmadığından abbreviyaturası olan “руб” geniş istifadə olunur.

Rubl on altıncı əsrdən başlayaraq Rusiyanın milli pul vahidi olaraq qəbul edilişdir. 1897-ci ildən etibarən Rusiya qızıl standartına keçmişdir.

Bu proses 1914-cü ilə qədər davam etmişdir.1917-ci il Oktyabr inqilabından sonra rubl Sovet İttifaqına girən bütün ölkələr üçün yeganə bir pul vahidi olaraq qəbul edilmişdir. 1991-ci ildə Sovet Ittifaqın dağılması ilə rubl Rusiyanın pul vahidi olaraq qəbul edildi. Lakin Rusiya rublu bu günədək dəyərini sürətlə itirməyə başlamışdır.

Birinci rubl (Qədimdən - 31 dekabr 1921-ci ilədək) – Rubl təxminən 500 illik bir dövrdə Rusiyanın valyutası olmuşdur. 1704-cü ildə valyuta islahatı keçirən I Pyotr rublu standartlaşdırmışdır. 1710-cu ildən isə rublun xırda pulu olan kopeyka buraxılmağa başlandı (1 rubl = 100 kopeyka). I Dünya Müharibəsinin başlaması ilə qızıl standartının tətbiqi dayandırıldı və rublun dəyəri düşdü. Nəticədə 1920-ci illərin əvvəllərində ölkə hiperinflyasiya ilə üzləşirdi.

İkinci rubl (1 yanvar 1922 – 31 dekabr 1922) – Çervonetsin buraxıldığı 1922-ci ildə ilk defə denominasiya oldu (1 yeni rubl = 10 000 köhnə rubl).

Üçüncü rubl (1 yanvar 1923 – 6 mart 1924) – 1923-cü ildə baş verən təkrar denominasiyada da (1:100) yalnız kağız pullar çap olunmuşdur. Bu rublun tədavüldə olduğu dövrdə Sovet İttifaqının ilk valyutası buraxıldı.

Dördüncü (Qızıl) rubl (7 mart 1924 – 1947) – 1924-cü ildə baş verən denominasiya nəticəsində "qızıl" rubl buraxıldı (1 yeni rubl = 50000 köhnə rubl).

Beşinci rubl (1947 – 1961) – II Dünya Müharibəsindən sonra Sovet Hökuməti dövriyyədəki pul kütləsini azaltmaq məqsədilə müsadirəedici denominasiya keçirdi (1 yeni rubl = 10 köhnə rubl). Bu yalnız kağız pullara təsir etdi.

Altıncı rubl (1961 – 31 dekabr 1997) – Bu 1947-ci ildə keçirilən denominasiyanın eyni şərtlərlə təkrarı idi. 1991-ci ildə SSRİ-nin dağılması ilə rubl Rusiya Federasiyasının valyutası olmağa davam etdi. Rusiya Bankı tərəfindən yeni rubllar 1993-cü ildə buraxıldı. 90-cı illərdə baş verən hiperinflyasiya dövründə rublun dəyəri əhəmiyyətli dərəcədə aşağı düşdü.

Yeddinci rubl (1 yanvar 1998 - indiyədək) – 1998-ci ildə baş verən denominasiya (1 yeni rubl = 1000 köhnə rubl) fundamental iqtisadi problemləri həll etmədi. Rusiyada maliyyə böhranın baş verməsi ilə 1998-ci ilin avqustundan rubl dollar qarşısında 70% dəyər itirdi.

Rusiyanın pul sisteminin hüquqi əsasmı 12 aprel 1995-ci ildə qəbul edilən Mərkəzi Bank haqqında Qanun təşkil edir. Rusiyanın rəsmi pul vahidi rubl qəbul edilmişdir. Rusiya Federasiyasının tədavülündə rubl xaricində başqa pul vahidlərinin istifadəsi qanunla tənzimlənir. Rubl dəyəri-

nin qızıla və ya başqa qiymətli əşyalara olan qarşılığı qanunda müəyyən edilməmişdir. Tədavüldə nağd pul emissiyasına və onların təşkilinə, tədavülə çıxarılmasına yalnız Mərkəzi Bank səlahiyyətlidir.

1917-ci ilə qədər Rusiyada kredit sistemi kapitalist iqtisadiyyatının şərtləri çər-çivəsində inkişaf etmişdir. Bu dövrdə quruluşuna, funksiyalarına və əməliyyatlarına görə Rusiya kredit sistemi inkişaf etmiş kapitalist ölkələrinin modelinə yaxın idi. Rusiya imperiyasının kredit sistemi aşağıdakı qurumlardan ibarət idi:

- Dövlət Bankı;
- Kommersiya bankları;
- İxtisaslaşdırılmış kredit təşkilatları (sığorta şirkətləri, kredit koopera-siyaları)

1917-ci il Oktyabr inqilabından sonra Rusiyada bütün kredit təşkilatları dövlət-ləşdirildi. 1925-ci ildə kredit sistemi aşağıdakı qurumlardan ibarət idi:

1. Dövlət Bankı;
2. Kommersiya bankları;
2.1. Səhmdar cəmiyyətli banklar;
2.2. Kooperasiya bankları;
2.3. Kommunal bank;
2.4. Mərkəzi kənd təsərrüfatı bankları və respublika kənd təsərrüfatı Bankları;
3. İxtisaslaşdırılmış kredit maliyyə təşkilatları;
3.1. kənd təsərrüfatı kredit cəmiyyəti;
3.2. kredit kooperativləri;
3.3. yardımçı əmanət kredit qurumları;
3.4. əmanət kassaları;

1930-cü ildə SSRİ kredit sisteminin quruluşu kredit islahatları nəticəsində tamamilə yenidən quruldu. SSRİ-nin kredit sistemi inzibati- komanda idarəetmə sisteminin qanunlarına uyğun olaraq quruldu:

- Dövlət Bankı;
- Tikinti Bankı;
- Xarici Ticarət Bankı;

1980-ci ilin ortalarına qədər faiz mexanizminin çalışmaması, yəni kreditlərin böyük hissəsinin ikinci büdcə vəsaiti rolu oynaması ölkənin bank sistemini ciddi problemlərlə üz-üzə qoydu. Nəticədə verilən kreditlərin əksəriyyəti hökumət qərarları ilə silinirdi. Buna görə də kredit

sisteminin ciddi islahatlara ehtiyacı vardı. 1986-cı ildə ixtisaslaşdırılmış sahə bankları qurulmağa başlandı.

- Dövlət Bankı;
- Sənaye Tikinti Bankı;
- Əmanət Bankı;
- Xarici İqtisadi Əlaqələr Bankı;

1990-ci ildə SSRİ Ali Soveti "Bank və bankların fəaliyyəti haqqında" Qanun qəbul etdi. Qanuna görə, kommersiya banklarına depozit, kredit siyasətini və faiz dərəcələrini sərbəst şəkildə müəyyən etməyə icazə verildi. Bundan başqa, kommersiya banklarına valyuta əməliyyatı aparılmasına da izin verildi. 1997-ci ildə Rusiyanın kredit sisteminin quruluşu aşağıdakı kimi olmuşdur:

- RF Mərkəzi bankı;
- Bank sistemi;
- Kommersiya bankları;
- Əmanət Bankı;
- İxtisaslaşdırılmış kredit qurumları sayılmayan maliyyə institutları:
- sığorta şirkətləri;
- investisiya fondları;
- lizinq və b.

1921-ci ildə RSFSR-in Dövlət Bankı, 1923-cü ildən isə SSRİ Dövlət Bankı kimi fəaliyyət göstərirdi. 13 iyul 1990-cı ildə SSRİ Dövlət Bankının Rusiya Respublika Bankı əsasında RSFSR Ali Şurasına hesabat verən RSFSR Dövlət Bankı yaradılmışdır. Bu Rusiya Mərkəzi Bankının yaradılma tarixi hesab edilir. 20 dekabr 1991-ci ildə SSRİ Dövlət Bankı ləğv olunaraq bütün aktiv və passivləri, həmçinin Rusiya ərazisində olan əmlakı RSFSR Mərkəzi Bankına verilmişdir. 1991-ci ildən adını dəyişərək Rusiya Federasiyasının Mərkəzi Bankı adı altında fəaliyyətini davam etdirməkdədir. 1991-1992-ci illərdə Rusiya Mərkəzi Bankın nəzarəti altında xüsusi bankların kommersiya filialları əsasında kommersiya bankları yaradılmışdır. Bank rubla qarşı valyuta mübadiləsini müəyyən edir və valyuta bazarını yaradaraq valyutanın alqı-satqısını aparmağa başlayır. 1992-ci ildə Mərkəzi Bank dövlət büdcəsinin kassa əməliyyatlarının aparılması funksiyasını yeni yaradılan Federal Xəzinədarlığa ötürülmüşdür. 1992-1995-ci illərdə Mərkəzi Bank kommersiya banklarının fəaliyyətinə nəzarət və yoxlama sistemi, valyuta tənzimlənməsi və nəzarəti sistemləri yaratmışdır.

Rusiyanın valyuta sistemi. Bazar iqtisadiyyatına keçid şəraitində Rusiyanın valyuta sistemi Yamayka valyuta sisteminin struktur prinsipləri nəzərə alınmaqla formalaşır. 1992-ci ilin iyul ayında BVF-yə daxil olarkən Rusiya Yamayka valyuta sisteminin struktur prinsiplərini yerinə yetirmək öhdəliyini götürmüşdür.

Qeyd etmək lazımdır ki, SSRİ Bretton-Vud konfransında (1994-cü il), BVF və BYİB haqqında sazişin işlənib hazırlanmasında iştirak etmiş, lakin nə fonda, nə də banka daxil olmamışdır.

Rusiyada əsas milli valyuta 1993-cü ildə SSRİ rublu əvəzinə dövriyyəyə buraxılmış rus rubludur.

1992-ci ilin iyul ayından başlayaraq Rusiyada rublun ABŞ dollarına münasibətdə rəsmi kursu tətbiq edilmişdir, həmin kurs Moskva banklararası valyuta birjasında müəyyən edilir.

1990-cı illərin əvvəllərində Rusiyada valyuta bazarının strukturu formalaşmağa başladı, həmin struktur valyuta birjaları və RF MB (ölkədə valyuta tənzimlənməsi və valyuta nəzarəti orqanı kimi) başda olmaqla ikisəviyyəli bank sistemi ilə təmsil olunmuşdur.

Xarici valyuta və xarici valyuta ilə ifadə olunmuş, rezidentlərə məxsus qiymətli kağızların icbari köçürülməsi, idxalı və ixracı, göndərilməsi qaydasının müəyyən edilməsi məsələlərinin həlli, yenidən maliyyələşdirmə dərəcəsini, səlahiyyətli bankların açıq valyuta mövqeyi limitini dəyişməklə valyuta tənzimlənməsi üzrə tədbirlərin görülməsi, Rusiyanın əsas valyuta birjalarında (Moskva və Sankt-Peterburqda) valyuta müdaxilələrinin həyata keçirilməsi, ən başlıcası isə Rusiya kommersiya banklarının fəaliyyətinin valyuta lisenziyalaşdırılması yalnız Rusiya Bankının səlahiyyətinə daxil olan məsələlərdir.

Daxili valyuta lısenziyası almış banklar yalnız MDB iştirakçısı olan dövlətlərin səlahiyyətli bankları, həmçinin SSRİ-nin sabiq xarici bankları ilə birbaşa müxbir münasibətləri qura bilər.

Genişləndirilmiş valyuta lisenziyasına malik olan banklar daxili valyuta lisenziyası almış bankların həyata keçirdiyi əməliyyatları apara bılər. Lakin onlar, bundan əlavə, lisenziyada göstərilmiş miqdar dairəsində xaricı banklarla müxbir münasibətləri qura bilər.

Baş valyuta lisenziyası banklara daha geniş səlahiyyətlər verir. Baş valyuta lisenziyasına malik olan banklar lisenziyada göstərilmiş bütün növ valyuta əməliyyatlarını həyata keçirmək hüququna malikdir. Bundan əlavə, qeyd edilən lisenziya xaricdə bankın fıliallarını açmağa və

qeyri-rezident kredit təşkilatlarının nizamnamə kapitalının bir hissəsini əldə etməyə imkan verir.

Valyuta birjaları Rusiya valyuta bazarının təşkilində mühüm rol oynayır. İşgüzar silsilənin pisləşməsi və konyunktur dəyişmələri şəraitində valyuta bazarının təşkilində valyuta birjalarının rolu xüsusilə nəzərə çarpdı.

1998-ci ilin avqust böhranı nəticəsində MBVB-in işi yenidən təşkil edildi. Burada 6 oktyabr 1998-ci ildən etibarən iki hərrac sessiyası rejiminə keçid baş verdi. Arbitraj əməliyyatlarını həyata keçirməyə imkan verməyən yeni hərrac rejimi tənzimləyici rolunda çıxış edərək Rusiya valyuta bazarını əhəmiyyətli dərəcədə sabitləşdirdi.

Rusiya valyuta bazarında pul axmlarının hərəkəti aşağıdakılar vasitəsilə həyata keçirilir:

1. valyuta əməliyyatları;
2. əmtəə və xidmətlərin alqı-satqısının valyuta-kredit və hesablaşma təminatı;
3. qiymətli kağızlarla aparılan əməliyyatlar;
4. xarici investisiyalar.

Milli valyuta sisteminin mühüm xüsusiyyəti onun milli pul vahidinin mübadilə kursu rejimidir.

Rusiyanın bazar iqtisadiyyatına keçməsi şəraitində rublun vahid «üzən» valyuta kursu tətbiq edildi. Lakin, ölkə iqtisadiyyatının idxaldan ciddi asılılığı rublun kursunun aşağı düşməsinə və Rusiya bazarının idxal edilmiş mallarla doldurulması probleminin kəskinləşməsinə gətirib cıxardı. Nəticədə ixrac azaldı, inflyasiya isə gücləndi.

Valyuta bazarındakı vəziyyəti sabitləşdirmək məqsədı ilə dövlət öz tənzimləyici rolunu gücləndirdi.

6 iyul 1995-ci ildə Rusiya Bankı və RF Hökuməti valyuta dəhlizi, yəni birja və banklararası valyuta bazarlarında rublun cari mübadilə kursunun dəyişmə hədləri rejimini tətbiq etdi. Dollara münasibətdə rublun valyuta kursunun enib-qalxmasının qəti müəyyən olunmuş hədd qiymətləri Rusiya Bankı tərəfindən valyuta bazarına müdaxilələr vasitəsilə saxlanılırdı. Bu tədbir nəticəsində valyuta kursu uzun müddət ərzində nəzərdə tutulduğundan əhəmiyyətli dərəcədə uzaqlaşmırdı, ayrı-ayrı dövrlərdə isə hətta dolların kursunun rubla münasibətdə aşağı düşməsi müşahidə olunurdu.

1997-ci ilin oktyabrında Cənub-Şərqi Asiya ölkələrində baş vermiş maliyyə böhranı Rusiyanın daxili valyuta bazarına güclü təsir göstərmiş

əsas hadisə oldu. Böhran nəticəsində xeyli məbləğdə kapitalın inkişaf etməkdə olan bazarlara malik ölkələrdən inkişaf etmiş ölkələrin dövlət kağızlarına yerləşməsi baş verdi. Rusiya hökumətinin qısamüddətli dövlət istiqrazlarında yerləşdirilmiş xarici kapitalın geriyə axını başladı.

Vəsaitlərin əhəmiyyətli dərəcədə çıxarılması və xarici valyutaya tələbatın artması nəticəsində valyuta bazarında rublun qiymətdən düşməsi gözlənilməyə başladı. Rusiya Bankı müəyyən tədbirlər görsə də, onlar kifayət etmədi və nəticədə 17 avqust 1998-ci il tarixdə dollara münasibətdə rublun kursunu bir dollar üçün 6-9,5 rubl həddində müəyyənləşdirməklə siyasi valyuta dəhlizindən imtina etdi.

Dövlət istiqrazları bazarının yenidən formalaşması və qeyri-rezidentlərin vəsaitlərinin qaytarılmasına 30-günlük moratori elan edilməsi ilə eyni zamanda həyata keçirilmiş bu tədbir nəticəsində Rusiya valyuta bazarının sabitlıyi pozuldu və rublun valyuta kursu əhəmiyyətli dərəcədə aşağı düşdü.

Rusiya valyuta bazarını qismən sabitləşdirmək məqsədı ilə Rusiya Bankı 1999-cu ildə rublun «üzən» valyuta kursu rejıminə keçdi. Həmin rejim bu gün də qüvvədədir.

Sovet İttifaqı 1991-ci ildə süquta uğradıqdan sonra Rusiya Federasiyasının pul sistemi Mərkəzi Bank (Rusiya Bankı) haqqında Federal Qanuna uyğun olaraq fəaliyyət göstərir. Bu qanun pul sisteminin hüquqi əsaslarını müəyyən etmişdir:

1. Rusiya Federasiyasının rəsmi pul vahidi rubldur;
2. Rusiya Federasiyası ərazisində digər pul vahidlərinin tətbiqi qadağandır;
3. Rublun qızıla nisbəti qanunla müəyyən olunmamışdır;
4. Rublun xarici pul vahidlərinə nisbətən rəsmi kursu RF MB tərəfindən müəyyən olunur;
5. Rusiya Bankı Rusiya Federasiyası ərazisində nağd pulun emissiyasını həyata keçirmək, onun dövriyyəsini təşkil etmək və dövriyyədən çıxarmaq müstəsna hüququna malikdir;
6. Rusiya Bankının bütün aktivləri ilə təmin edilən banknotlar və metal sikkələr qanuni ödəmə qüvvəsinə malik olan pul növləridir;
7. kredit idarələri üçün nağd pulların saxlanma, daşınma və inkassasiya qaydalarının müəyyən edilməsi;
8. Banknot və sikkələrin nümunələri Rusiya Bankı tərəfindən təs-

diq edilir;

9. Rusiya ərazisində nağd (banknotlar və sikkələr) və nağdsız (kredit idarələrində olan hesablardakı vəsaitlər şəklində) pullar fəaliyyət göstərir;
10. Nağd pullar emissiya icacəsi əsasında dövriyyəyə buraxılır. Emissiya icazəsi pul banknotları və sikkələrin ehtiyat fondları hesabına RF MB-yə dövriyyə kassasını qüvvətləndirmək hüququ verən sənəddir.

Rusiya Mərkəzi Bankı. Tarix: Rusiya Federasiyası Mərkəzi Bankının tarixi 1860-cı ildə çar Aleksandr II tərəfindən Dövlət Kommersiya Bankının yenidən qurulması əsasında Russiya Dövlət Bankını yaradılmasından başlayır. 27 dekabr 1917-ci ildə inqilab nəticəsində hakimiyyətə gələn sovet hökuməti "Kommersiya bankların milliyələşdirilməsi haqqında sərəncam" qəbul etmişdir. Bütün səhmdar kommersiya bankları milliləşdirilməklə Rusiya Dövlət Bankı ilə birləşərək RSFSR-in Milli Bankı yaradılmışdır.

1921-ci ildə RSFSR-in Dövlət Bankı, 1923-cü ildən isə SSRİ Dövlət Bankı kimi fəaliyyət göstərirdi. 13 iyul 1990-cı ildə SSRİ Dövlət Bankının Rusiya Respublika Bankı əsasında RSFSR Ali Şurasına hesabat verən RSFSR Dövlət Bankı yaradılmışdır. Bu Rusiya Mərkəzi Bankının yaradılma tarixi hesab edilir. 20 dekabr 1991-ci ildə SSRİ Dövlət Bankı ləğv olunaraq bütün aktiv və passivləri, həmçinin Rusiya ərazisində olan əmlakı RSFSR Mərkəzi Bankına verilmişdir. 1991-ci ildən adını dəyişərək Rusiya Federasiyasının Mərkəzi Bankı adı altında fəaliyyətini davam etdirməkdədir. 1991-1992-ci illərdə Rusiya Mərkəzi Bankın nəzarəti altında xüsusi bankların kommersiya filialları əsasında kommersiya bankları yaradılmışdır. Bank rubla qarşı valyuta mübadiləsini müəyyən edir və valyuta bazarını yaradaraq valyutanın alqı-satqısını aparmağa başlayır. 1992-ci ildə Mərkəzi Bank dövlət büdcəsinin kassa əməliyyatlarının aparılması funksiyasını yeni yaradılan Federal Xəzinədarlığa ötürülmüşdür. 1992-1995-ci illərdə Mərkəzi Bank kommersiya banklarının fəaliyyətinə nəzarət və yoxlama sistemi, valyuta tənzimlənməsi və nəzarəti sistemləri yaratmışdır. 1995-ci ildən başlayaraq Mərkəzi Bank birbaşa kreditlərin ayrılması yolu ilə dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsini və iqtisadiyyatın inkişafına mərkəz-ləşdirilmiş məqsədyönlü kreditlərin ayrılmasını dayandırmışdır.

Müasir dönəm Rusiya Mərkəzi Bankı. 1995-ci ildən başlayaraq

Mərkəzi Bank birbaşa kreditlərin ayrılması yolu ilə dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsini və iqtisadiyyatın inkişafına mərkəzləşdirilmiş məqsədyönlü kreditlərin ayrılmasını dayandırmışdır.

Bankın həyata keçirdiyi əsas funksiyalar aşağıdakılardır:

- Milli valyutanın sabitliyinin qorununb saxlanılması;
- Pul nişanlarının buraxılması və tədavüldən çıxarılması;
- Rusiya Federasiyası hökuməti ilə birgə maliyyə-kredit siyasətini hazırlanması və həyata keçirilməsi və s.

Rusiya Mərkəzi Bankı 27 təşkilati strukturdan ibarətdir. Burada 79 ərazi bölməsi və 623 kassa-hesablaşma mərkəzi fəaliyyət göstərir.

Mərkəzi Bank Direktorlar Şurası tərəfindən idarə olunur. Şura İdarə Heyətinin sədri daxil olmaqla 12 üzvdən ibarətdir. Şuranın üzvləri Dövlət Duması tərəfindən 4 il müddətinə təyin edilir. Mərkəzi Bankın İdarə Heyətinin Sədri Dövlət Duması tərəfindən Prezidentin təklifi əsasında təyin edilir. Dövlət Duması Mərkəzi Bankın Sədrini tutduğu vəzifədən azad etmək huququna malikdir.

Mərkəzi Bankın yanında Milli Bank Şurası fəaliyyət göstərir. Şuranın Federal Assambleya palatalarının, Prezidentin, Rusiya Federasiyası hökumətinin, Rusiya Mərkəzi Bankının nümayəndələri, ekspertlər və digər kredit təşkilatların təmsilçilərindən ibarətdir. Bank Şurası Direktorlar Şurası tərəfindən təqdim olunan Mərkəzi Bankın illik hesabatlarına baxılması; kapital qoyuluşunun ümumi həcminin təsdiq edilməsi; Bank işçilərinin pensiya təminanatının, sosial və tibbi sığortaları üçün ayrılan xərclərin ümumi həcmini təsdiqetmə funksiyasına malikdir.

RF hökuməti RF MB ilə birlikdə iqtisadi siyasətin, o cümlədən pul və kredit siyasətinin əsas istiqamətlərini müəyyən edir. Mərkəzi Bank tərəfindən iqtisadiyyatın pul-kredit tənzimlənməsi bazar iqtisadiyyatında qəbul edilmiş vasitələr yolu ilə həyata keçirilir: kommersiya banklarının kreditlər üzrə faiz dərəcələrinin, ehtiyat tələblərinin dəyişdirilməsi və açıq bazarda əməliyyatların aparılması. Mərkəzi Bank pul kütləsinin miqdarını və artım tempini tənzimləyir.

Emissiya-kassa tənzimlənməsinin həyata keçirilməsi, kredit təşkilatlarına, həmçinin müəssisə yə təşkilatlara kassa xidmətinin göstərilməsi üçün Mərkəzi Bankın baş ərazi idarələrində, hesablama-kassa mərkəzlərində nağd pulların qəbulu və verilməsi üzrə dövriyyə kassaları və pul biletləri və sikkələrin ehtiyat fondlan mövcuddur.

Rusiya Bankı haqqında Qanunun 1-ci maddəsinə uyğun olaraq bu

idarə Rusiya Federasiyasının əsas bankıdır və onun mülkiyyətindədir. Rusiya Bankının hüquqi statusunun öz xüsusiyyətləri var. Bu bank, bir tərəfindən, hüquqi şəxsdir və kommersiya bankları və dövlətlə (büdcə ilə) müəyyən mülki-hüquqi sövdələşmələr həyata keçirə bilər. Digər tərəfdən, ona Rusiyamn pul-kredit sisteminin idarə edilməsi sahəsində geniş səlahiyyət verilmişdir. Beləliklə, Rusiya Bankı ikili hüquqi mahiyyətə malikdir.

RF Mərkəzi Bankının sahibkarlıq fəaliyyətinə yönəlmiş səlahiyyətlər Rusiya Bankı haqqında Qanunun 45-47-ci maddələri ilə müəyyən edilmişdir. Həmin maddələrə əsasən, Rusiya Bankının hüquqları aşağıdakılardır:

1. qiymətli kağızlar və digər aktivlərlə təmin etmək şərti ilə ən çoxu bir il müddətinə kredit vermək;
2. qanunla müəyyən olunmuş şərtlərlə çekləri və barat veksellərini, həmçinin dövlət qiymətli kağızları və istiqraz vərəqələrini almaq və satmaq;
3. təminat və zəmanət vermək;
4. qanunla nəzərdə tutulmuş digər kommersiya əməliyyatlarını həyata keçirmək.

Eyni zamanda Rusiya Bankı haqqında Qanunun 3-cü maddəsinə uyğun olaraq bankın fəaliyyətinin əsas məqsədləri aşağıdakılardır:

1. rublun qorunması və sabitliyinin təmin edilməsi, o cümlədən xarici valyutalara münasibətdə rublun alıcılıq qabiliyyətinin saxlanılması;
2. RF-nin bank sisteminin inkişafı və möhkəmləndirilməsi;
3. hesablaşmalar sisteminin effektiv və fasıləsiz işləməsinin təmin edilməsi;
4. Rusiya Bankı mənfəət qazanmaq naminə fəaliyyət göstərmir.

Bu məqsədləri həyata keçirmək üçün Rusiya Bankı Qanunun 4-cü maddəsində əks olunmuş asağıdakı funksiyaları yerinə yetirir:

1. RF Hökuməti ilə qarşılıqlı fəaliyyət göstərərək rublun sabitliyinin qorunması və təmin edilməsinə yönəlmiş vahid dövlət pul-kredit siyasətini işləyib hazırlayır və həyata keçirir;
2. nağd pulların təkbaşına emissiyasını həyata keçirir və onların dövriyyəsini təşkil edir;
3. kredit təşkilatları üçün son instansiya kreditoru kimi çıxış edir;
4. RF-də hesablaşmaların həyata keçirilməsi qaydalarını müəyyən edir;

5. bank əməliyyatları, mühasibat uçotu və bank sistemi üçün hesabat işlərinin aparılması qaydalarını müəyyən edir;
6. kredit təşkilatlarının dövlət qeydiyyatını həyata keçirir;
7. kredit təşkilatlarının fəaliyyətinə nəzarət edir;
8. kredit təşkilatları tərəfindən qiymətli kağızların emissiyasını qeydə alır;
9. valyuta tənzimləməsini həyata keçirir;
10. xarici dövlətlərlə hesablaşmalar qaydasını müəyyən edir;
11. valyuta nəzarətini təşkil edir və həyata keçirir;
12. RF-nin ödəmə balansı proqnozunun işlənib hazırlanmasında iştirak edir.

Rusiya Bankının idarəetmə orqanları və strukturu Qanunun 17-18-ci maddələrində əks olunmuşdur.

Rusiya Bankının ali orqanı Direktorlar Şurasıdır. Bu, Rusiya Bankının fəaliyyətinin əsas istiqamətlərini müəyyən edən, banka rəhbərlik və onu idarə edən kollegial orqandır. Direktorlar Şurasına Rusiya Bankının sədri və Direktorlar Şurasının 12 üzvü daxildir.

Rusiya Bankının sədri vəzifəyə Dövlət Duması tərəfindən RF Prezidentinin təqdimatına əsasən səs çoxluğu ilə dörd il müddətinə təyin edilir. Direktorlar Şurasının üzvləri vəzifəyə Dövlət Duması tərəfindən Rusiya Bankı sədrinin Rusiya Prezidenti ilə razılaşdırılmış təqdimatına əsasən dörd il müddətinə təyin edilir. Direktorlar Şurası aşağıdakı funksiyaları yerinə yetirir:

1. RF Hökuməti ilə birlikdə vahid dövlət pul-kredit siyasətinin əsas istiqamətlərini işləyib hazırlayır və onların yerinə yetirilməsini təmin edir;
2. Rusiya Bankının illik hesabatını təsdiq edir və Dumaya təqdim edir;
3. Rusiya Bankının xərclər smetasını təsdiq edir;
4. Rusiya Bankının strukturunu müəyyən edir;
5. Mərkəzi Bankın pul-kredit siyasəti məsələlərinə dair qərarlar qəbul edir;
6. Rusiya Bankının baş auditorunu təyin edir.

Rusiya Bankı Dövlət Duması qarşısında hesabat verir, bu, özünü aşağıdakı məqamlarda göstərir:

1. Rusiya Bankı sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi Dövlət Duması tərəfindən RF Prezidentinin təqdimatına əsasən

həyata keçirilir;

2. Rusiya Bankı Direktorlar Şurası üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi də həmçinin Dövlət Duması tərəfindən həyata keçirilir;
3. hər il Rusiya Bankının Direktorlar Şurası Dövlət Dumasına Rusiya Bankının fəaliyyəti haqqında illik hesabat təqdim edir.

Bundan əlavə, Dövlət Duması Rusiya Bankının fəaliyyəti haqqında parlament dinləmələri keçirir və bank sədrinin məruzələrini dinləyir.

Lakin, digər məsələlərdə Rusiya Bankı öz səlahiyyətlərini müstəqil surətdə həyata keçirir, odur ki, dövlət hakimiyyətinin federal orqanları, RF subyektlərinin hakimiyyət orqanları və yerli özünüidarə orqanları onun fəaliyyətinə müdaxilə etmək hüququna malik deyil.

Rusiya Bankı bank tənzimləməsi və kredit təşkilatlarının fəaliyyətinə nəzarət orqanıdır, bu bank bank qanunvericiliyi və Rusiya Bankının normativ aktlarına kredit təşkilatları tərəfindən riayət edilməsinə nəzarət edir. Bank tənzimləməsi və nəzarətin başlıca məqsədi ölkənin bank sisteminin sabitliyini qoruyub saxlamaqdan, əmanətçi və kreditorların maraqlarını müdafiə etməkdən ibarətdir. Rusiya Bankı federal qanunlarla nəzərdə tutulmuş hallar istisna edilməklə, kredit təşkilatlarının operativ fəaliyyətinə müdaxilə etmir.

Fəaliyyət: Bankın həyata keçirdiyi əsas funksiyalar aşağıdakılardır:

- Milli valyutanın sabitliyinin qorununb saxlanılması;
- Pul nişanlarının buraxılması və tədavüldən çıxarılması;
- Rusiya Federasiyası hökuməti ilə birgə maliyyə-kredit siyasətini hazırlanması və həyata keçirilməsi və s.

Təşkilati struktur: Rusiya Mərkəzi Bankı 27 təşkilati strukturdan ibarətdir. Burada 79 ərazi bölməsi və 623 kassa-hesablaşma mərkəzi fəaliyyət göstərir.

Mərkəzi Bank Direktorlar Şurası tərəfindən idarə olunur. Şura İdarə Heyətinin sədri daxil olmaqla 12 üzvdən ibarətdir. Şuranın üzvləri Dövlət Duması tərəfindən 4 il müddətinə təyin edilir. Mərkəzi Bankın İdarə Heyətinin Sədri Dövlət Duması tərəfindən Prezidentin təklifi əsasında təyin edilir. Dövlət Duması Mərkəzi Bankın Sədrini tutduğu vəzifədən azad etmək huququna malikdir.

Mərkəzi Bankın yanında Milli Bank Şurası fəaliyyət göstərir. Şuranın Federal Assambleya palatalarının, Prezidentin, Rusiya Federasiyası hökumətinin, Rusiya Mərkəzi Bankının nümayəndələri, ekspertlər və di-

gər kredit təşkilatların təmsilçilərindən ibarətdir. Bank Şurası Direktorlar Şurası tərəfindən təqdim olunan Mərkəzi Bankın illik hesabatlarına baxılması; kapital qoyuluşunun ümumi həcminin təsdiq edilməsi; Bank işçilərinin pensiya təminanatının, sosial və tibbi sığortaları üçün ayrılan xərclərin ümumi həcmini təsdiqetmə funksiyasına malikdir.

Rusiya bank sistemi. Hal-hazrıda Rusiya kredit sisteminin strukturu aşağıdakı kimidir:

1. Rusiya Mərkəzi Bankı.
2. Bank sistemi:

2.1.Kommersiya bankları;
2.2. Rusiya Əmanət Bankı;
2.3. Digər ixtisaslaşdırılmış banklar.
3. İxtisaslaşdırılmış kredit-maliyyə institutları:

3.1.Sığorta şirkətləri;
3.2.Qeyri-dövlət pensiya fondları;
3.3.İnvestisiya şirkətləri;
3.4.Maliyyə-tikinti şirkətləri.

Şübhəsiz, kredit sisteminin yeni strukturu daha çox sivil bazar təsərrüfatının ehtiyaclarını əks etdirir.

Eyni zamanda kredit sisteminin təşəkkül prosesi onun bütün struktur haqlarında müəyyən problem və nöqsanları aşkar etdi. Başlıca problemlərə aşağıdakılar aiddir:

1. Xırda kommersiya bankları öz mövcudluğunu qoruyub saxlayır, onlar zəif maliyyə bazasına malik olduğunda müştəri tələbatının öhdəsindən gələ bilmir;
2. əmanət Bankı bank bazarında özünün inhisarçı, qeyri-məhdud mövqeyini qoruyub saxlayır;
3. ipoteka banklarının yaradılmasının əsası kimi Torpaq mülkiyyəti haqqında qüvvədə olan Qanunun olmaması;
4. İnvestisiya banklarının fəaliyyət göstərməsinin əsası kimi korporativ qiymətli kağızlar bazarının inkişafı üçün real şəraitin olmaması;
5. Ixtisaslaşdırılmış qeyri-bank institutları bazarının tənzimlənməsi üçün real qanunvericilik bazasının olmaması.

Bütün bu problemlər sənaye baxımından inkişaf etmiş ölkələrin kredit sistemlərinə ən qısa zamanda yaxınlaşmaq yolunu tutan Rusiya kredit sisteminin inkişafını əhəmiyyətli dərəcədə ləngidir.

1998-ci ilin avqust ayı bank böhranının başlanğıcı hesab olunur. O za-

man hökumət daxili dövlət borcu üzrə defisit və xarici banklara olan borcların ödənilməsinə moratori elan etdi. Rusiya Federasiyası bank sisteminin yenidən qurulması proqramında qeyd edildiyi kimi, 1997-ci ilin dekabr ayını bank böhranının başlanğıcı hesab etmək olar. Həmin vaxtdan etibarən daxili maliyyə bazarındakı faiz dərəcələri kəskin surətdə artdı.

Artıq banklar aşağı dərəcələr üzrə ehtiyatlar cəlb etmək və öz borc alan müəssisələrinə ucuz kreditlər vermək iqtidarında deyildi. Ona görə də borc alanlar aldıqları yüksəkfaizli kreditlərə xidmət göstərə və əvvəllər aldıqları kreditləri vaxtında qaytara bilmirdilər.

Dövlət qiymətli kağızları ilə aparılan əməliyyatların dayandırılması nəticəsində bank sisteıninin ümumi aktivlərinin 16%-i faktiki olaraq donduruldu. Bununla bərabər, banklar likvidliyin tənzimlənməsinin əsas instrumentlərindən biri kimi dövlət qiymətli kağızlar bazarmdan (QKO-OFZ) istifadə edirdilər. Çünki kredit təşkilatının müxbir hesabında vəsaitlər kifayət qədər olmadıqda bu bazarın iş mexanizmi öhdəliklərin yerinə yetirilməsi üçün dövlət istiqrazları paketinin bir hissəsini operativ surətdə satmağa imkan verirdi.

Bank sisteminin həm mütləq miqdarda, həm də böhranın inkişafı zamanı itkilərə nisbətən kapitallaşma səviyyəsinin aşağı səviyyədə olması böhraınn kəskinləşməsinə əhəmiyyətli təsir göstərdi.

Daxılı ehtiyat bazarının zəifliyi və bankların xarici vəsait mənbələrindən asılılığı bank böhranının inkişafına əhəmiyyətli təsir göstərdi. 1998-ci ilin 7 ayı ərzində müəssisələrdən, təşkilatardan və əhalidən cəlb olunmuş vəsaitlərin həcmi 18,6 milyard rubl azalaraq passivlərin 42%-i təşkil etmişdir. Lakin, qeyd etmək lazımdır ki, böhranm güc-lənməsmə baxmayaraq, əhali kifayət qədər fəalhq nümayiş etdirmirdi. Bankların apardığı fəal reklam kampaniyası və hökumətin devalvasiyanın baş verməyəcəyinə dair təminatları tələbli əmanətləri azaldaraq ortamüddətli əmanətlərin həcmini artırdı. Bu proseslər inflyasiyanın 11% təşkil etməsi şəraitində 40-50%-li dərəcələr cəlb edilməklə həyata keçirilirdi. Bununla belə, Rusiyada fıziki şəxslərdən cəlb edilmiş resurs ən az stabilliyə malik olan resursdur, vəsaitlərin cəlb edilmə müddətlərinin uzadılması bank sisteminin resurs bazasının stabilliyinin artmasından xəbər vermir. Bu, defoltun elan olunduğu ilk günlərdə təsdiq edildi, o zaman əmanətçilər kütləvi surətdə öz pullarını banklardan çıxarmağa çalışırdı.

Böhran əvvəlcə iri sistem təşkil edən banklara toxundu. Sistem təşkil edən banklara elə banklar aiddir ki, onlarm ləğvi xeyli sosial və iqtisadi

məsrəflərə gətirib çıxara bilərdi. Bu banklar geniş yayılmış filiallar şəbəkəsinə və beynəlxalq kredit təşkilatları ilə əlaqələrə malikdir. Onların xidmət göstərdiyi müştərilərin sayı daha çoxdur.

1998-ci ilin sentyabr ayında bankların yenidən qurulma dövrü başlandı. Kommersiya banklarının yenidən qurulması yolunu müəyyən edən Rusiya Bankı onlan dörd qrupa bölməyi zəruri hesab etdi. Bununla, bankların böhrandan çıxarılması imkanları və onların böhrandan sonrakı sistemdə yeri müəyyən edildi.

Birinci qrupa maliyyə cəhətdən sabit olan bütün banklar daxil edildi. Bu qrupa maliyyə böhranı ilə şərtləndirilən müəyyən çətinlikləri olan, lakin müstəqil surətdə böhranın nəticələrini aradan qaldırmağa qadir olan banklar da daxil idi. Birinci qrupa daxil olan banklar RF Morkəzi Bankının müvəqqəti yardımına güvənə bilərdi.

İkinci qrupa yalnız RF-nin subyektləri olan regionlar üçün böyük iqtisadi və sosial əhəmiyyət kəsb edən banklar daxil idi. Bu banklar xüsusı maliyyə sağlamlaşdırılması planlarını işləyib hazırlamalı idi. Onlar Rusiya Bankının kapitalın artırılmasında iştirakı yolu ilə, habelə bankların səhmlərinin idarə olunması, yeni, o cümlədən xarici investorların cəlb edilməsi, kreditlərin verilməsi yolu ilə yardıma güvənə bilərdilər. İkinci qrupa daxil olan banklar regional banklar sistemində «dayaq» banklarına çevrilməli idi.

Üçüncü qrupa ayrı-ayrı iri (struktur əmələ gətirən), müstəqil surətdə bank əməliyyatlarını aparmaq imkanı olmayan banklar daxil edildi. Olduqca böyük sosial və iqtisadi xərclərlə əlaqədar onları bağlamaq məqsədə uyğun deyildi. Bu qrupa daxil olan hər bir bank üçün fərdi maliyyə sağlamlaşdırılması planmm mövcudluğu nəzərdə tutulmuşdu. Onların yenidən qurulması RF Mərkəzi Bankı və Kredit Təşküatlarınm Yenidən Qurulması üzrə Agentliyin (KTYQA) idarəçiliyi ilə həyata keçirilməli idi.

Dördüncü qrupa öz fəaliyyətlərini müstəqil surətdə bərpa etməli olan banklar daxil edildi. Əgər buna müvəffəq olmazlarsa, o zaman onlar öz fəaliyyətlərini dayandırmalıdırlar. Bu bankların əmanətçi və kreditorlarının əmanətlərini digər banklara köçürmək yolu ilə onlara yardım göstərilməsi nəzərdə tutulmuşdur.

1998-ci ildə Rusiyanın 400-dən artıq bankı problemli banklar kimi tanındı. Onların bir çoxu üçün müflislik və ya qarışma reallığa çevrildi. Cəmiyyət nöqteyi-nəzərindən qarışma müflislikdən daha məqbuldur. Müəyyən məqamadək bankın başqa bank qarışması və ya ona birləşməsi onu müflisləşdirməkdən daha ucuz başa gəlir. Lakin bu uzun, əzablı və

ziddiyyətli prosesdir, çünki mənfəət labüd itkiləri hər zaman ödəmir.

Bankların qarışma və ya birləşmə şsklində yenidən qurulması haqqında metodik göstərişlər bank böhranı ərəfəsində işlənib hazırlanmış və daha sonra dəqiqləşdirilmişdir.

1998-ci ilin avqust ayında baş vermiş bank böhranından sonrakı yenidənqurma dövrü belə bir nəticəyə gəlməyə əsas verir ki, Rusiyanın bank sistemi böhranının nəticələrini müvəffəqiyyətlə aradan qaldıraraq zəruri sabitlik əldə etmişdir.

Rusiyanın dövlətlərarası maliyyə təşkilatlarında iştirakı. Rusiyada bazar iqtisadiyyatının təşəkküllünün mühüim aspektlərindən biri onun beynəlxalq əmək bölgüsündə bərabərhüquqlu iştirak məqcədilə dünya iqtisadi sisteminə inteqrasiya olunmasıdır. Şübhəsiz, belə bir inteqrasiya Rusiyanın dövlətlərarası maliyyə təşkilatlarında tam iştirakını nəzərdə tutur.

Dünya əhəmiyyətli be;ə təşkilatlara ilk növbədə Birləşmiş Millətlər Təşkilatının İkinci Dünya müharibsindən sonra yaradılmış üç ixtisaslaşdırılmış maliyyə-kredit İstitutu aiddir, həmin təşkilatlara üzvlük Rusiya üçün xüsusilə aktualdır. Bu təşkilatlar aşağıdakılardır:

1. Beynəlxalq Valyuta Fondu (BVF);
2. Dünya Bankı Qrupu (DB);
3. Avropa Yenidənqurma və İnkişaf Barkı (AYİB).

Beynəlxalq Valyuta Fondu dövlətlərin valyuta-kredit münasibətlərinin tənzimlənməsi və ictimai dünya valyutası ilə qısamüddətli kreditlərin verilməsi yolu ilə onlara maliyyə yardımının göstərilməsi üçün nəzərdə tutulmuşdur. BVF-nin yarandığı 1944-cü ildən ABŞ-ın dolların qızıla mübadiləsini ləğv etdiyi 1971-ci llədək ABŞ dolları dünya valyutası rolunda çıxış edirdi.

Dollar qızılla əlaqəni itirdikdə, ABS və Beynəlxalq Valyuta Fondu isə fəal demonetizasiya äyaasətini həyata keçirməyi başladıqda dünya valyuta sisteminin yenidən qurulması obyektiv zərurəti meydana gəldi.

Belə bir şərait dünya valyuta sistemində ayrı-ayrı ölkələrin iqtisadi vəziyyətinə qarşı neytral mövqe tutacaq, BVF-nin bütün üzvləri üçün məqbul olacaq edə qızılı biləcək pul vahidinin istifadə üçün müəyyən edilməsi ilə bağlı fəaliyyətə təkan verəcəkdi. Uzun sürən müzakirələrdən sonra BVF-nin SDR adlandırılan yeni beynəlxalq pulun emissiyasını başlayacağı ilə bağlı kompromis qərar qəbul edildi. BVF üzvlərinin Yamayka sazişi nəticəsində qızıl rəsmi surətdə demonetizasiya edildikdən sonra Beynəlxalq Valyuta Fondu SDR-in emissiyasını həyata keçirir.

BVF səhmdar cəmiyyət modeli əsasında qurulmuşdur. Hər bir ölkə SDR ilə ifadə edilmiş kvotaya malikdir. Ölkələrin BVF ilə rnünasibətləri (kapitala ödəmələr; BVF ehtiyatlarından istifadə imkanları, müvafiq qərarlar qəbul edilərkən səslərin miqdarı; ölkə tərəfindən alınan SDR-in məbləği və s.) kvota əsasında müəyyən edilir. Kvotanın həcmi ÜDM-in həcminə, ödəniş balansına, rəsmi girov valyuta ehtiyatlarına müvafıq müəyyən edilir. Kapitalın və müvafıq olaraq kvotaların məbləği vaxtaşırı olaraq yenidən nəzərdən keçirilir və dəqiqləşdirilir. Kapitalın növbəti on-birinci artımı 1999-cu ilin yanvar ayında baş verdi və nəticədə BVF-nin kapitalı 212 milyard SDR-ə qədər (297 milyon dollar) artdı.

Rusiya 1992-ci ihn iyun ayında BVF-nin üzvü oldu. Hal-hazırda onun kvotası 5,9 milyard SDR (8,3 milyard dollar) təşkil edir. Kvotaların ümumi məbləğinin 2,8%-i onun payına düşür və Rusiya doqquzuncu yerdədir (Kanadadan sonra).

BVF-də üzvlük Rusiyaya həyata keçirilən iqtisadi islahata maliyyə dəstəyi vermək və Dövlət büdcəsinin kəsirini ödəmək üçün sərbəst konvertasiya edilən valyutada kredit almaq imkanı verir.

1993-1998-ci illər ərzində Dünya Bankı Rusiyaya ümumi məbləği 11,4 milyard dollar təşkil edən 41 istiqraz vərəqəsi təqdim etmişdir.

Rusiya 1990-cı ildə təşkil olunmuş Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) iştirakçısıdır (1994-cü ildə qəbul edilmişdir). Bankın 10 milyon avro həcmində kapitalı hər biri 10 avro dəyərində olan 1 milyon səhmə bölünür. Rusiya aparıcı səhmdarlardan biri hesab olunur: bütün səhmlərin 4% onun payına düşür.

AYİB-in başlıca vəzifəsi Avropa ölkələrinin açıq bazar iqtisadiyyatına keçməsinə yardım etməkdən ibarətdir. Bunun üçün AYİB rəqabətədavamlı özəl sektorun, ilk növbədə kiçik və orta müəssisələrin inkişafına və genişlənməsinə yardım edir, sahibkarlıq fəaliyyətini inkişaf etdirmək məqsədilə xarici və yerli kapitalın səfərbər edılməsinə yardım göstərir; investisiyaları özəl müəssiisələrin inkişafı üçün şərait yaradan infrastruktur obyektlərinə yönəldir.

Avqust böhranınadək Rusiya AYİB-in maliyyə ehtiyatlarından bəhrələnən əsas dövlətllərdən biri idi. Bank tərəfindən verilmiş kreditlərin 25%-i Rusiya üçün nəzərdə tutulmuşdu. Avqust böhranından sonra AYİB-in Rusiyaya münasibətdə kredit siyasəti hər bir investisiya layihəsinə onun maliyyə bazarında sabitliyn nöqteyi-nəzərindən yanaşma istiqamətində yenidən nəzərdən keçirildi.

Tərkibinə 34 ölkənin daxil olduğu Beynəlxalq Hesablaşmalar Bankı (BHB) beynəlxalq valyuta-kredit təşkilatları arasında xüsusi yer tutur. Rusiya 1996-cı ildə bu quruma üzv olmuşdur. BHB-ni mərkəzi banklar bankı kimi tərif etmək mümkündür. Ona iki başlıca funksiya həvalə olunmuşdur:

1. mərkəzi bankların əməkdaşlığına yardım etmək və beynəlxalq hesablaşmaları və digər maliyyə əməliyyatlarını həyata keçirmək üçün əlverişli şəraiti təmin etmək;
2. üzvlərinin beynəlxalq maliyyə hesablaşmaları aparılarkən bank-agent və ya bank-depozitari qismində yardım göstərmək.

London və Paris kreditor klubları beynəlxalq maliyyə bazarında mühüm rol oynayır. Hal-hazırda Rusiya bu klubların üzvüdür.

Rusiya keçmiş Sovet İttifaqı zamanında yaranmış borcun ödənilməsi prosesini sürətləndirmək ümidi ilə 1997-ci ildə kreditor ölkə qismində Paris kreditorlar klubuna daxil omıuşdur. Lakin Rusiyaya borclu ölkələrdən yalnız 25-i Paris klubu ilə əməkdaşlıq edir (Vyetnam, Efıopiya, Əlcəzair, Yəmən, Mozambik və s.). Onların Rusiyaya 50 milyard dollar borcu var. Rusiyanın əsas verəcəkliləri olan Kuba, Monqolustan, Əfqanıstan, Suriya və digər dövlətlər Paris klubunun üzvləri deyil.

Klubun əsasnaməsinə uyğun olaraq borcların xeyli hissəsi silinir, yaxud borclar satıla bilər. Paris klubunun yardımı ilə Rusiyanın 1999-cu ilin büdcəsində keçmiş SSRİ respublikalarına verilmiş kreditlərin ödənilməsi hesabına təqribən 3,5 milyard dollar gəlir nəzərdə tutulmuşdu.

London kreditorlar klubu 600-dən artıq kommersiya bankını birləşdirir, onlar əsasən inkişaf etməkdə olan ölkələrə kredit verirlər. Hökumət kreditləri problemləri ilə məşğul olan Paris klubundan fərqli olaraq London klubu kreditləri sığorta ilə müdafiə olunmayan özəl kommersiya banklarına olan borclarla məşğuldur.

Keçmiş Sovet İttifaqının borc öhdəliklərini öz üzərinə götürən Rusiyanın London klubunun üzvlərinə təqribən 40 milyard dollar borcu var idi. Bu borcun ödənilməsi sistmli şəkildə təxirə salınırdı. Cəmi 20 dəfə möhlət verilmişdi. Lakin Rusiya iqtisadiyyatının vəziyyəti o qədər qeyri-qənaətbəxş idi ki, xarici borc beynəlxalq maliyyə təşkilatları və ya Paris, yaxud London klubları üzvlərindən yeni kreditlər almaq yolu ilə ödənilirdi (təxirə salınmaları nəzərə almaqla).

Rusiyanın dövlətlərarası təşkilata daxil olması, həmçinin onun Paris və London kreditor klubların üzvü kimi tanınması dünya maliyyə bazarlarında RF-nin mövqelərini xeyli gücləndirdi, onun müasir valyuta-kredit

münasibətləri sisteminə uyğunlaşmasına yardım etdi. Bu, Rusiya və xarici bankların daha geniş inteqrasiyası üçün imkanlar açır, Rusiya kapitalının beynəlxalq maliyyə bazarına çıxarılması, xarici kapitalın iqtisadiyyatın müxtəlif sahələrinə cəlb olunması üçün şərait yaradır.

18.13. Ukraynanın pul-kredit sistemi

Müstəqil Dövlətlər Birliyi ölkələri içində Rusiyadan sonra iqtisadi gücə malik olan ikinci ölkə Ukraynadır. 1992-ci il yanvar ayında ölkədə qiymət islahatları aparılıb və nəticədə bank sektorunda faiz dərəcələri inflyasiya dərəcələrindən yüksək olmuşdur. 991-ci il may ayında Ukrayna Milli Bankı Qosbankdan ayrılaraq əvvəllər Qosbanka aid olan bütün səlahiyyətləri öz üzərinə götürüb. Ukrayna bank sistemi ixtisaslaşmış dörd kommersiya bankından ibarətdir: Dövlət Əmanət Bankı, Aqrosənaye Bankı, Tikinti Bankı və Sosial İnvestisiya Bankı. Bank sistemi içində ümumi əmanətin 80 %-i Dövlət Əmanət Bankına aiddir: 17 avqust 1998-ci il Rusiyada başlanan maliyyə böhranı Ukrayna pul-kredit sisteminə mənfi təsir göstərmiş və nəticədə milli pul vahidi olan qrivna xarici valyutalar qarşısında dəyərini itirmişdir.

Ukrayna Milli Bankı Ukraynanın mərkəzi bankıdır. Ukrayna Milli Bankı haqqında Qanuna əsasən Milli Bank dövlətin xüsusi mülkiyyətindədir.

Bank 1839-cu ildə Rusiya Dövlət Kommersiya Bankının Kiyev ofisi kimi yaradılmışdır. Ukrayna Milli Bankının təşkili və fəaliyyətinin hüquqi statusu Ukrayna Konstitusiyası və Ukrayna Milli Bankı haqqında Ukraynanın Qanunu ilə tənzimlənir. 20 mart 1991-ci ildə Ukrayna Radası Banklar və Bank fəaliyyəti haqqında Qanunu qəbul etmişdir. Məhz bu tarixdən etibarən Ukrayna Milli Bankı Ukraynanın mərkəzi bankı kimi fəaliyyət göstərməyə başlamışdır.

Ukrayna Milli Bankının əsas funksiyası milli pul vahidi Qrivnanın və ölkənin bank sisteminin sabitliyini təmin etməkdir. Bundan əlavə Ukrayna Milli Bankı aşağıdakı funksiyaları da həyata keçirir:

- Monetar siyasətin həyata keçirilməsi;
- Ukrayna milli pul vahidinin tədavülə buraxılması;
- Bank köçürmələrinin, ödəniş və hesablaşmala qaydalarının tərtib edilməsi;
- Monetar, kredit və statistik informasiya və tədiyyə balansına me-

todoloji dəstəyin təmin edilməsi;
- Bank nəzarətinin həyata keçirilməsi;
- Banklar, onların filial və nümayəndəlikləri, valyuta mübadiləsi, maliyyə və kredit təşkilatlarının qeydiyyata alınması və bank fəaliyyəti üçün lisenziyaların verilməsi;
- Tədiyyə balansının toplanması, təhlili və proqnozlaşdırılması;
- Qızıl və valyuta ehtiyatlarının saxlanılaraq toplanılmasını, həmçinin onlarla köçürmə şərtlərinin təmin edilməsi;
- Monetar, kredit, maliyyə, qiymət və valyuta əməliyyatlarının statusunun təhlil edilməsi;
- Ukrayna bank sistemi üçün kadrların treyninqlərdə iştirak edilməsi.

Ukrayna Milli Bankının ali idarəetmə orqanı İdarə Heyətidir. İdarə Heyətinin tərkibinə Sədr, birinci vitse-sədr, 3 vitse-sədr, 4 icraçı direktor, 6 departament direktoru və bir filial müdiri daxildir.

Ukrayna Milli Bankının beynəlxalq əməkdaşlığı aşağıdakı istiqamətlər üzrə həyata keçirilməkdədir:
- Dünya Bankı;
- Avropa Yenidənqurma və İnkişaf Bankı;
- Beynəlxalq Valyuta Fondu;
- MDB Dövlətlərarası Bankı;
- Alman-Ukrayna Fondu Proqramı;
- Digər beynəlxalq təşkilatlar (Avropa İttifaqı, Ümumdünya Ticarət Təşkilatı və s.).

18.14. Qazaxıstanın pul-kredit sistemi

Qazaxıstanın Mərkəzi Bankının 1997-ci ildə milli pul vahidi olan tanqe ilə açdığı kreditlərin faiz dərəcəsi 49 %, valyuta üçün tətbiq etdiyi faiz 20 % olmuşdur. Qazaxıstanda fond birjası fəaliyyətinə 1995-ci ildən başlanmışdır. Ümumiyyətlə, Qazaxıstan Orta Asiya ölkələri içində ölkəyə axan xarici sərmayə miqdarına görə birinci yerdədir. Ölkədə müxtəlif ölkələrin banklarının şöbələri və nümayəndəlikləri mövcuddur. Türkiyənin iki bankı Ziraət Bankı və Əmlak Bankının filialı Alma-Atada fəaliyyət göstərir. Türk Eksimbank Qazaxıstan iqtisadiyyatına 240 milyon dollarlıq kredit ayırmışdır.

Qazaxıstan Milli Bankı Qazaxıstan Respublikasının mərkəz bankı ol-

maqla ölkənin ikipilləli bank sisteminin üst pilləsini təşkil edir.

Sovet İttifaqı dövründə Qazaxıstan Milli Bankı (QMB) SSRİ Dövlət Bankının respublika kontoru olaraq fəaliyyət göstərmişdir. Bununla belə, Qazaxıstan SSR-də pul dövriyyəsinin idarə olunması mərkəzləşdirilmiş qaydada həyata keçirilmişdir. 16 aprel 1991-ci il tarixində "Qazaxıstan Respublikasının dövlət müstəqilliyi haqqında" qanunun qəbul edilməsindən sonra QMB özünün maliyyə-kredit, pul sistemlərini, qızıl ehtiyatlarını almaz və valyuta ehtiyatlarını saxlamaq hüququ əldə etmişdir. 13 aprel 1993-cü il tarixində qəbul olunan "Qazaxıstan Milli Bankı haqqında" qanun QMB-nin fəaliyyət prinsipləri, hüquqi statusu və səlahiyyətlərini müəyyənləşdirmişdir. Qazaxıstan Prezidentinin 30 mart 1995-ci il tarixli Sərəncamı əsasında QMB özlüyündə mərkəzləşdirilmiş struktura çevrilmişdir. Prezidentin 31 avqust 1995-ci il tarixli Sərəncamı ilə isə Qazaxıstanda ikipilləli bank sisteminə keçid oldu və QMB bu sisteminin üst pilləsini təşkil etməyə başladı.

Fəaliyyət: QMB aşağıda qeyd olunan funksiyaları həyata keçirməkdədir:

- Ölkənin pul-kredit siyasəti;
- Ölkə ərazisində əskinaz və sikkələrin emissiyası;
- Banklar bankı funksiyası;
- Hökumətin bankı, maliyyə məsləhətçisi və agenti funksiyası;
- Ödəniş sistemlərinin fəaliyyət göstərməsinin təşkili;
- Ölkədə valyuta tənzimlənməsi və nəzarəti;
- Ölkənin qızıl-pul aktivlərinin idarə olunması;
- Maliyyə təşkilatlarına nəzarət funksiyası;
- Ölkənin Milli Fondunun idarə olunması.

Təşkilati struktur: Qazaxıstan Milli Bankının İdarə Heyəti Sədr və üç müavindən ibarətdir. Bundan əlavə Direktorlar Şurası mövcuddur ki, Bura İdarə Heyətinin üzvləri və 9 departament direktoru daxildir.

Qazaxıstan Milli Bankı mərkəzi aparat, 11 departament (1-i Astanada olmaqla), 10 ayrı idarə və 1 şöbədən ibarətdir. Bundan əlavə, 16 ərazi filialı və Almatı şəhərində 2 filial fəaliyyət göstərməkdədir. QMB-nin tək xarici nümayəndəliyi Rusiya Federasiyasındadır. Bunlardan əlavə aşağıda qeyd olunan 4 təşkilat Milli Banka hesabat verməkdədir:

- Banklararası hesablaşmaları mərkəzi;
- Bank xidməti bürosu;
- Qazaxıstan sikkəxanası;

- Əskinaz fabriki.

QMB aşağıdakı səhmdar cəmiyyətlərin təsisçisidir:

- Qazaxıstan əmanətlərin zəmanəti agentliyi;
- Sığorta ödənişlərinin zəmanəti fondu;
- Qazaxıstan ipoteka kreditlərinin zəmanəti fondu;
- Qazaxıstan Milli Bankının Ehtiyat Mərkəzi

Yuxarıda qeyd olunanlardan əlavə, QMB "Milli Prosessinq Mərkəzi"-nin təsisçilərindən, "Pensiya Yığım Fondunun" səhmdarlarından biridir.

Beynəlxalq əlaqələr: Qazaxıstan Milli Bankının beynəlxalq əməkdaşlıq münasibətləri əsas olaraq aşağıda qeyd olunan istiqamətlərdə inkişaf etdirilir:

- Xarici mərkəzi banklar və beynəlxalq maliyyə təşkiları ilə əlaqələri inkişaf etdirilməsi və dərinləşdirilməsi;
- QMB-nin beynəlxalq maliyyə təşkilatları və xarici mərkəzi banklardan aldığı texniki yardımın əlaqələndirilməsi;
- MDB ölkələrinin dövlətlərarası təşkilati strukturlarda iştirakı;
- Qazaxıstan Respublikasının beynəlxalq maliyyə təşkilatlarının nizamnamə kapitalında iştirakı.

TÖVSİYƏ OLUNAN ƏDƏBİYYAT

1. Banklar haqqında normativ- hüquqi aktlar toplusu// Z.F. Məmmədovun elmi redaktorluğu ilə hazırlanamış. Bakı, Qanun, 2009. 1092 s.

2. Dövlət maliyyəsi normativ- hüquqi aktlar toplusu// Z.F. Məmmədovun elmi redaktorluğu ilə hazırlanamış. Bakı, Qanun, 2010. 1180 s.

3. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu (17 aprel 2007-ci il, 9 oktyabr 2007-ci il, 6 noyabr 2007-ci il, 26 may 2009-cu il, 19 iyun 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə)

4. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu (4 mart 2005-ci il, 6 mart 2007-ci il, 17 aprel 2007-ci il, 19 oktyabr 2007-ci il, 2 oktyabr 2008-ci il, 26 may 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə).

5. Bank olmayan kredit təşkilatları haqqında Azərbaycan Respublikasının Qanunu. 25 dekabr 2009-cu il

6. Valyuta tənzimi haqqında Azərbaycan Respublikasının Qanunu (27 noyabr 2001-ci il, 30 aprel 2002-ci il, 3 mart 2006-cı il, 17 aprel 2007-ci il,7 dekabr 2007-ci il tarixli, qanunlarla qəbul edilmiş dəyişikliklər və əlavələrlə)

7. Əmanətlərin sığortalanması haqqında Azərbaycan Respublikasının Qanunu (08 may 2009-cu il və 30 iyun 2009-cu il tarixli qanunla qəbul edilmiş dəyişikliklər və əlavələrlə)

8. Azərbaycan Respublikası Mərkəzi Bankının İllik Hesabatları.

9. Z.F. Məmmədov.R. Rzayev. Bank işi və e-bankçılıq. Bakı, 2003.

10. Abdullayev Ş., R.Əsgərova. Bank işi. Bakı,2010

11. Bağırov M. Bank işi. Bakı, 2003.

12. Bəşirov R.A. Bank işi. Dərs vəsaiti. Bakı,2007.

13. Ibrahimov Z. Pul, kredit və banklar (suallara cavab). Bakı, 2009.

14. Kərimov A. , Ibrahimov Z. Bank marketinqi və menedcmenti. Bakı,1996.

15. Məmmədov Z.F. Pul , kredit və banklar. Dərslik . Bakı, 2010.

16. Məmmədov Z.F Finans iqtisadiyyatı. –Bakı: Qanun, 2003. - 375 c.

17. Банковское дело. Учебник. М.: Проспект, 2008.

18. Банковское дело, под. ред. Г.Н.Белоглазовой: Учебник-М. Юрайт-издат. 2004.

19. Ибрагимов З.Г. Генезис денежно- кредитной системы Азер-

байджана. Баку, 1997.

20. Mamедов З. Ф. Банковский кризис и реформирование банковского сектора в контексте глобализации. Баку: Азернешр, 2007.

21. Mamедов З. Ф. Основные тенденции развития денежно – кредитной системы Азербайджана // Центральная Евразия: национальные валюты. Стокгольм: Изд. Дом «CA Press», 2008. – 79- 103.

22. Mamедов З. Ф. Анализ и оценка банковских рисков // Известия СПбУЭФ. 2006. - № 3.

23. Мамедов З.Ф.Анатомия финансового кризиса. – СПб: Изд-во СПбГУ, 2005. -322 с.

24. Мамедов З.Ф.Влияние кризиса на логику реформирования банковской системы.– СПб: Изд-во СПбГУЭФ, 2005.

25. Рустамов. Э. С. Глобальный кризис и антикризисная политика Центрального банка Азербайджана // Деньги и кредит.- 1/2010.

26. N.Ekren. Uluslarası bankaçılıq. Ankara, 1984.

Tövsiyə olunan elmi nəşrlər

1. İqtisad Elmləri: Nəzəriyyə və Praktika // Azərbaycan Dövlət İqtisad Universiteti
2. AMEA-nın Məruzələri
3. AMEA-nın Xəbərləri. İqtisadiyyat Elmləri Seriyası
4. AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərlər Toplusu

***

1. American Business Law Journal
2. American Economic Review
3. American Law and Economics Review
4. Annals of Economics and Finance
5. Applied Financial Economics
6. Asian Economic Journal
7. Banking Law Journal
8. British Accounting Review
9. Business Economics Canadian Journal of Economics
10. De Economist
11. Decisions in Economics and Finance
12. The Economic Journal

13. European Economic Review
14. European Journal of Finance
15. German Economic Review
16. Global Finance Journal
17. Harvard Business Review
18. International Finance
19. International Journal of Finance and Economics
20. International Journal of the Economics of Business
21. International Review of Economics & Finance
22. Journal of Banking & Finance
23. Journal of Economics & Finance
24. Journal of Financial Intermediation
25. Journal of Financial Economics
26. Journal of Monetary Economics
27. World Bank Economic Review

***

1. Академия бюджета и казначейства Минфина России. Финансовый журнал
2. Вестник Казанского государственного финансово-экономического института Вестник Финансовой академии
3. Вопросы экономики
4. Деньги и кредит
5. Международные банковские операции
6. Мир перемен
7. Мировая экономика и международные отношения
8. Общественные финансы
9. Проблемы прогнозирования
10. Проблемы теории и практики управления
11. Российский экономический журнал
12. Рынок ценных бумаг
13. Финансовая аналитика: Проблемы и решения
14. Финансы
15. Финансы и кредит
16. Экономика и управление

Çapa imzalanmışdır: 11. 03. 2016.
Formatı: 70x100 $^{1}/_{16}$. Həcmi: 33,5 ç. v.
Sifariş 03. Tiraj 300.
«**Təknur**» MMC-nin mətbəəsində
hazır elektron variantdan çap olunmuşdur.

Mətbəənin direktoru: Ələkbər Məmmədov

Mətbəə kitabın məzmununa və orfoqrafiyasına
görə heç bir cavabdehlik daşımır!

Ünvan: Bakı ş. , Qanlı Gölün Qərb Sahili, 4
Telefon: 408-18-30